AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

Layihənin rəhbəri: Elbay Qasım-zadə
Rəyçilər: V.İ.Pilyavski, *memarlıq doktoru*
D.A.Axundov, *memarlıq doktoru*

Ş.Fətullayev-Fiqarov. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq.
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, – 480 səh.
Şəkil: 378, cədvəl: 2, ədəbiyyat siyahısı: 533 adda.

Monoqrafiyada XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın memarlıq tarixinin mühüm səhifələri açılmış, yaşayış yerlərinin şəhərsalma strukturu təhlil edilmiş, tədqiq olunan dövrün bina və qurmalarının əsas tiplərinin inkişaf qanunauyğunluğu və memarlığının bədii istiqaməti müəyyənləşdirilmişdir. Kitab memarlar – şəhərsalma mütəxəssisləri, memarlıq və şəhərsalma tarixçiləri üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-32-020-6
978-9952-32-061-9

© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

www.eastwest.az
www.fb.com/eastwest.az

Şamil FƏTULLAYEV-FİQAROV

# XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏRSALMA VƏ MEMARLIQ

– 15683 –
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2013

# ÖN SÖZ

XIX əsrin ikinci yarısında Rusiyada kapitalizm qəti olaraq bərqərar olduqda Rusiya İmperiyası ucqarlarının, o cümlədən Azərbaycanın dünya kapitalist əmtəə dövriyyəsinə cəlbolunma prosesi gedirdi. V.İ.Lenin bu dönəm haqqında yazırdı: "... Rusiyada kapitalizmin inkişafı elə sürətlə getdi ki, bəzi köhnə Avropa ölkələrində bütöv əsrlərcə vaxt aparan çevriliş, burada bir neçə onillik ərzində baş verdi".

Azərbaycanda bu proses əsas etibarilə neft və filiz-mədən sənayesinə, xüsusilə də burada kapitalizmin inkişafını çox baxımdam müəyyənləşdirən neft sənayesinə toxundu. Memarlıq və şəhərsalma Azərbaycanda sənaye kapitalizminin formalaşması ilə sıx bağlılıqda inkişaf edirdi: bina və qurmaların yeni tipləri peyda olur, keçmişlə müqayisədə daha mütərəqqi yeni planlaşdırma həlli ilə şəhərlər yaranırdı.

Monoqrafiyada Azərbaycanın böyük və kiçik şəhərlərinin təhlili aparılmış, onların planlaşdırma, kompozisiya və bədii tərəfləri işıqlandırılmışdır. Tədqiqat işində Bakıya kapitalizm əsrinin şəhərsalma sənətinin əsas prinsiplərinin geniş təmsil olunduğu, sürətli inkişaf yolu keçən bir şəhər kimi ayrıca yer ayrılmışdır. Azərbaycanda XIX əsr - XX əsrin əvvəllərinin kapitalizm epoxasının memarlığı demək olar öyrənilməmişdir. Mahiyyət etibarilə o dönəmin heç bir qurması, onların mövcudluğunun təsbit faktını hesaba almasaq, ümumi xarakterli nəşrlərdə işıqlandırılmamışdır. Bu memarlıq yaxın zamanlara qədər tədqiqatçıların diqqətindən kənarda qalmışdır, belə ki, onun inkişaf illəri memarlığın tənəzzül dövrü hesab edilmişdir. İndi XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərinin memarlığına münasibət dəyişmişdir. Onun inkişafı müasir memarlığın təşəkkül prosesi ilə ümumi bağlılıqda gözdən keçirilməyə başlamışdır.

Feodalizm dövrünün (XIX əsrin əvvəlinə qədər) Azərbaycan memarlığına çoxlu sayda tədqiqatlar: onun çoxəsrlik inkişaf tarixinin özünəməxsusluğunu açıb göstərən məqalələr və monoqrafiyalar həsr edilmişdir. Orta əsrlər Azərbaycan memarlığının Yaxın Şərq memarlığındakı yeri və onun dünya mədəniyyəti xəzinəsinə töhfələri müəyyənləşdirilmişdir.

Kapitalizm epoxasının Azərbaycan memarlığı fundamental şəkildə faktik olaraq araşdırılmamışdır ki, bu da Azərbaycan xalqının memarlıq tarixini yoxsullaşdırır, çünki bütöv bir tarixi dövr elmi tədqiqat sferasından kənarda qalır. Məhz bu dövrdə yeni tikinti materialları, yaşayış evlərinin proqressiv formaları üzə çıxmış, modern memarlığın və s. üslub istiqamətləri inkişaf etmişdir ki, bu da müasir memarlığın təməli olmuşdur.

Azərbaycan şəhərlərinin planlaşdırmasının təhlili göstərmişdir ki, onların tikilişinin əsasını XIX əsr – XX əsrin əvvəllərinin binaları təşkil edir və bu hal tarixi məhəllələrin yenidən qurulması zamanı çox böyük memarlıq irsinə xüsusi diqqət





yetirməyə məcbur edir, belə ki, həmin dövrün tikililəri şəhərsalma sənətinin abidələri, milli memarlığın dəyərli əsərləridir. O dövrün memarlığına və şəhərsalma sənətinə ümumilikdə lazımi qiymət veilmədiyi bütünlükdə onların Azərbaycan memarlığı tarixindəki əhəmiyyətini açıb göstərən fundamental tədqiqatların ortada olmaması ilə daha da çətinləşir. Bu hal hazırkı monoqrafiyanın mövzu seçimini və aktuallığını əsaslandırır.

Azərbaycan memarlığının ümumi inkişaf mənzərəsinin canlandırılması üçün müxtəlif növ materialları öyrənmək, müayinə etmək və sistemləşdirmək və tədqiqat predmetinin tənqidi təhlilinin təməlində dayanan elmi rəy və əsaslandırmaları xülasə etmək tələb olunurdu. Şəhərlərin inkişafının və planlaşdırma strukturunun, onların həcm-fəza kompozisiyalarının qanunauyğunluqları müəyyənləşdirilmişdir. Bina və qurmaların əsas tiplərinin memarlığının inkişaf yollarının təhlili inqilabaqədərki dövrün memarlığının stilistik özəlliklərinin bədii istiqamətlərini üzə çıxarmağa imkan vermişdir.

Bu araşdırmanın məqsədi — XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda memarlıq və şəhərsalmanın inkişaf yollarını müəyyən etmək, dərinliklərində müasir Azərbaycan memarlığının inkişafına zəminin yarandığı həmin bu araşdırılan dövrün milli memarlığının özünəməxsusluğunu, səciyyəvi özəlliklərini müəyyən etməkdir.

Tədqiqatın kompleks metodu gözdən keçirilən şəhərsalma problemlərini və yaşayış və ictimai binaların tipologiya məsələlərini daha geniş və daha dərindən təhlil etməyə imkan verir.

Bu monoqrafiyanın yaradılması üçün əsas mənbələr 1952-ci ildən başlayaraq 30 il ərzində respublikanın şəhərlərində və yaşayış məntəqələrində müəllif tərəfindən icra edilmiş natura müayinələri və memarlıq ölçmələri, eləcə də arxiv materialları olmuşdur.

Milli memarlıq əsərlərinin müayinəsi, ölçülmələri və öyrənilməsi Azərbaycanda XIX əsrdə ölkənin inkişafının tarixi özəllikləri üzündən burada yerli və Avropa memarlıq məktəblərinin toqquşması ilə cərəyan edən memarlıq təzahürlərinin özünəməxsus mahiyyətini müəyyənləşdirməyə imkan vermişdir. Bina və qurmaların tiplərinin sistemləşdirilməsi, təsnifatlaşdırılması və onların təhlili prosesində o çağın ən xarakterik əsərləri seçilmişdir və bu monoqrafiyanın bünövrəsində onların tədqiqatına aid materiallar dayanır. Bu kimi əsərlər sırasında yaşayış, ictimai, sənaye və nəqliyyat qurmaları vardır.

Tədqiqat işində SSRİ Mərkəzi Dövlət Hərbi Tarix Arxivinin, SSRİ Mərkəzi Dövlət Tarix Arxivinin (Leninqrad), SSRİ EA Arxeologiya İnstitutu Leninqrad şöbəsinin (Leninqrad), SSRİ Hərbi-Dəniz Donanması Mərkəzi Dövlət Arxivinin (Leninqrad), Gürcüstan SSR Mərkəzi Dövlət Arxivinin (Tbilisi), Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivinin (Bakı), Bakı, Kirovabad, Şəki, Quba şəhərləri icraiyyə komitələrinin texniki inventarlaşdırma Bürolarının arxiv materiallarından istifadə olunmuşdur. Mühəndis N.A. fon der Nonnenin, mülki mühəndislər Zivər bəy Əhmədbəyovun, A.M.Şuşerovun, memarlardan Qasım bəy Hacıbababəyovun, A.B.Eyxlerin şəxsi arxiv materiallarından da istifadə edilmişdir.

Monoqrafiya yazılarkən inqilaba qədərki dövrün xeyli sayda ədəbi mənbələrindən, o cümlədən Qafqaz təqvimlərindən (1846-1918-ci illər), soraq kitabçalarından, toplulardan, qəzetlərdən ("Kaspi", "Kavkaz", "Baku"), müxtəlif dərgilərdən ("Zodçiy" və s.) götürülən məqalələrdən istifadə edilmişdir. Bu mənbələrin materialları həm XIX

əsrin birinci yarısında, həm də sonralar kapitalizmin inkişaf dövründə Azərbaycan şəhərlərinin inkişafını izləməyə imkan verən tarixi, iqtisadi, coğrafi və statistik xarakterli dəyərli məlumatları özündə ehtiva edir. İnqilaba qədərki mənbələrdə Azərbaycanın XIX əsr memarlığı haqqında kifayət qədər məlumat yer almır, ona görə də şəhərlərin, ictimai binaların strukturu haqqında və nəhayət, memarların yaradıcılığı haqqında o çağın yerli tarixçilərinin məlumatlarından istifadə edilmişdir. Qarabağlı Mirzə Camal Cavanşir, Əhməd bəy Cavanşir, Baharlı, Mirzə Yusif Nersesov, Mir Mehdi Xəzani, Kərim ağa Fateh və başqalarının əsərlərinin adını çəkmək yerinə düşərdi. Araşdırmanın gedişində rus tarixçilərinin, səyyahlarının və alimlərinin əsərlərindən də istifadə edilmiş, müəllif bu əsərlərdən çoxlu mühüm məlumatlar əldə etmişdir.

Azərbaycanlı müəlliflərin (E.V.Avalov, Q.M.Əlizadə, N.S.Əsgərova, D.A.Axundov, R.M.Bayramov, L.S.Bretanitski, C.Ə.Qiyasi, M.N.İmanov, E.İ.Kanukov, Ş.A.Qasımova, M.N.Məmmədbəyli, V.A.Məmmədov, F.Q.Məmmədov, L.Q.Mamikonov, U.B.Miralayev, V.Q.Muradov, X.M.Nəsirli, S.A.Səmədova, R.D.Salayeva, Ə.V.Salamzadə, Ə.A.Sadıqzadə, Ə.S.Sumbatzadə, N.K.Rzayev, M.Ə.Hüseynov, T.İ.Sxovrebova), Rusiyalı müəlliflərin (Q.N.Baranovski, M.Q. Dikanski, Q.D. Dubelir, K.B.Skureviç), sovet dövrü müəlliflərinin (V.V.Beridze, E.A.Borisova, A.V.Bunin, A.İ.Vlasyuk, V.L.Voronina, N.F.Qulyanitski, T.P.Kajdan, V.V.Kirillov, E.İ.Kiriçenko, V.A.Lavrov, A.V.İkonnikov, V.İ.Pilyavski, Q.A.Puqaçenkova, T.F.Savarenskaya, O.X.Xalpaxçyan, S.O.Xan-Maqomedov, N.F.Xomutetski, V.A.Çanturiya, Y.S.Yaralov) və xarici müəlliflərin (A.Aru, O.Aslanapa, O. Bolak, F.Gibbert, O.Qrabar, D.Uilber, A.Uittik, S.Yetkin, A.Kuran, S.Loza, A.Poun və b.) xüsusi tədqiqatları və dərc edilmiş əsərləri də bu və digər dərəcədə işə cəlb edilmişdir.

XIX əsr - XX əsrin əvvəllərinin Azərbaycan memarlığı inqilabaqədərki dövrdə mülki mühəndis K.B.Skureviçin "Zodçiy" ("Memar") jurnalında dərc etdirdiyi "Bakı" başlıqlı yeganə məqaləsində işıqlandırılmışdır (1908, № 34). Məqalədə həm bütünlükdə şəhərin tikintisi və memarlığı haqqında, həm də o çağın məşhur memarı İ.V.Qoslavskinin bəzi əsərləri haqqında dəyərli məlumatlar yer alır. Qoslavski haqqında nekroloq da ("Zodçiy", 1904, № 8,) Skureviç qələminin məhsuludur. Bu nekroloqda Qoslavskinin Bakıda qısa sürən, lakin parlaq yaradıcılıq fəaliyyətinə yüksək qiymət verilmişdir. Q.N.Baranovskinin Bakıda gəlirverən evin, Kommersiya Məktəbinin müsabiqə layihələri ("Zodçiy", 1900, № 4, 5; 1904, № 50) və Bakıda sərnişin vağzalı binasının layihəsi ("XIX əsrin ikinci yarısının memarlıq ensiklopediyası", 2-ci cild, SPb., 1908) ilə Azərbaycan memarlığının kapitalizm dövrü haqqında inqilabaqədərki mətbuatda dərc olunan əsərlər yekunlaşır.

Bakının şəhərsalma tarixinin araşdırılma prosesində B.Butnik-Siverskinin və XIX əsrin ikinci yarısından sonra şəhərin inkişafının qiymətləndirilməsi baxımından daha ciddi və obyektiv əsər olan "Bakının planlaşdırması"nın (1924) müəllifi A.P.İvanitskinin materiallarından da istifadə edilmişdir. Ə.V.Salamzadə "XVI-XIX əsrlərdə Azərbaycan memarlığı" monoqrafiyasında (Bakı, 1964) 1800-cü illərin başlanğıcından 1870-ci illərə qədərki şəhərsalma və memarlığa fəsil ayırmışdır. T.İ.Sxovrebovanın "Azərbaycan incəsənəti" toplusunda (V cild, Bakı, 1956) dərc olunan "Bakı şəhərində yaşıllıqların salınması tarixindən" məqaləsini də qeyd etmək yerinə düşərdi. Bu məqalənin kiçik bir hissəsi inqalabaqədərki Bakının "yaşıl" memarlığına ayrılmışdır. "Sovet Azərbaycanının memarlığı" (L.S.Bretanitski, Ə.V.Salamzadə, M., 1973) kitabına girişdə müəllifin dərc edilmiş bəzi materiallarından istifadə edilmişdir.





Tədqiqatın obyektləri həm qədim (Bakı, Gəncə, Şəki), xanlıqlar dövrünün şəhərləri (Şuşa, Quba, Lənkəran), həm də yeni, Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra yaranmış (Ağdam, Ağdaş, Göyçay, Cavad, Qazax, Qusar, Salyan, Hacıkənd) şəhərlərdir. Bundan başqa, Azərbaycanın bütün bölgələrindən 500-dən çox kənd müayinə edilmişdir.

Monoqrafiyanın praktik dəyəri ondan ibarətdir ki, tarixi şəhərlərin rekonstruksiyasının bir çox məsələlərinin həllinə yardımçı olur, XIX-XX əsrlər memarlığının dövlət tərəfindən qorunmalı olan memarlıq abidələrini aşkar edir və Azərbaycanın şəhərləri və yaşayış yerlərinin inkişaf prosesində onların yerini müəyyənləşdirilir. "Tarix və mədəniyyət abidələrinin qorunması və istifadə edilməsi haqqında" SSRİ Qanunu və SSRİ Konstitusiyanın 68-i maddəsi Azərbaycanın şəhərsalma və memarlıq abidələrini qoruyub saxlamağa imkan verir.

İndi şəhərlərin və yaşayış yerlərinin intensiv rekonstruksiyası şəraitində bu xüsusilə vacibdir, çünki bu dövrün bir çox qiymətli abidələri zaman keçdikcə uçub dağıla və ya sökülə bilər, gələcək nəsillər üçün həmişəlik itirilə bilər.

XIX əsr – XX əsrin əvvəllərinin Azərbaycan şəhərsalma və memarlığı indiyədək tədqiq edilməmiş qalır və təkidlə dərin elmi araşdırma tələb edir. Monoqrafiyada gözdən keçirilən materiallar faktik olaraq ilk dəfə elmi dövriyyəyə daxil edilir. Bina və qurmaların ayrı-ayrı tipləri üzrə tamamilə yeni məlumatlar üzə çıxarılmış, bir çox binaların atribusiyaları, respublikanın şəhərlərində işləmiş memarların və mülki mühəndislərin adları müəyyənləşdirilmiş, memarlıq abidələrinin bərpasının eskiz layihələri, qurmaların əsas tiplərinin qrafoanalitik cədvəlləri tərtib edilmişdir.

Beləliklə, monoqrafiyada XIX əsr – XX əsrin əvvəllərinin Azərbaycan memarlıq tarixinin mühüm səhifələri açılmış, yaşayış yerlərinin şəhərsalma strukturu təhlil edilmiş, binaların və qurmaların əsas tiplərinin inkişafının qanunauyğunluq mahiyyəti və memarlığın bədii istiqamətləri müəyyən edilmişdir. Bütün bunlar bütövlükdə Rusiya İmperiyasının kapitalizm çağının memarlıq tarixinə dair ədəbiyyatı zənginləşdirir. XIX əsr – XX əsrin əvvəllərinin Azərbaycan şəhərsalma və memarlığının tədqiqi əsasında Azərbaycan memarlığı tarixinin öyrənilməsində yeni bir istiqamət üzə çıxır.

Azərbaycanın şəhərlərinin planlaşdırması və tikilişinə, XIX əsr – XX əsrin əvvəllərinə aid ictimai qurmaların memarlığına dair zəngin material müəllifə bu monoqrafiyanı üç: "Şəhərsalma", "Memarlıq" və "Bədii istiqamət" bölmələrinə ayırmağa imkan vermişdir. Bu, Azərbaycan şəhərlərinin özünəməxsusluğunu və fərdiliyini daha yaxşı açıb göstərməyə, formalaşması və inkişafının təməlində dayanan müsbət cəhətləri üzə çıxarmağa kömək edir.

Müəllif mütəxəssislər və geniş oxucu dairəsi tərəfindən bu monoqrafiya haqda deyilən irad və arzuları minnətdarlıqla qəbul edəcək və onlardan yeni nəşrlərdə faydalanacaqdır.

Monoqrafiya kapitalizm çağının yaşayış və ictimai binalarının rekonstruksiyası ilə məşğul olan səhərsalıcılar, memarlar, memarlıq və səhərsalma tarixçiləri, bərpaçılar, tələbə-memarlar, muzey işçiləri üçün nəzərdə tutulmuşdur.

Müəllif imkandan istifadə edərək, mövzu üzrə materialların seçimində ona yardım etmiş bütün təşkilatlara öz dərin minnətdarlığını və təşəkkürlərini bildirir. Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivinin (Bakı), Azərbaycan SSR EA Əsaslı Kitabxanasının (Bakı), Gürcüstan SSR Mərkəzi Dövlət Arxivinin (Tbilisi), SSRİ Mərkəzi

Dövlət Hərbi Tarix Arxivinin, SSRİ Mərkəzi Dövlət Tarix Arxivinin (Leninqrad), SSRİ Hərbi-Dəniz Donanması Mərkəzi Dövlət Arxivinin (Leninqrad), V.İ. Lenin adına Dövlət Kitabxanasının (Moskva), M.E.Saltıkov-Şedrin adına Dövlət İctimai kitabxanasının (Leninqrad) əməkdaşlarının köməyini xüsusi qeyd etmək istərdim.

Bu kitabın nəşrində öz məsləhətləri ilə mənə kömək edən SSRİ xalq memarı, akademik M.Ə.Hüseynov, SSRİ xalq memarı, professor N.N.Ullas, Azərbaycan EA akademiki, profesor Ə.V.Salamzadə, professorlar K.D.Kərimov, M.N.Nəcəfov, memarlıq elmləri doktorları Q.M.Əlizadə, D.A.Axundov, Y.P.Boçarov, A.V.İkonnikov, [V.İ.Pilyavskiyə] öz minnətdarlığımı bildirmək istərdim.

Müəllif bu çətin, ancaq nəcib işdə onu dəstəkləyən Bakı şəhərinin baş memarı R.Q.Əliyev, professor M.N.İmanov, Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunda çalışan həmkarlarım - memarlıq elmləri namizədləri E.V. Avalov, İ.İ.Əliyev, C.A.Qiyasi, A.M.Mehdiyev, V.Q.Muradov, K.Q.Məmmədbəyov, X.M.Nəsirli, R.D.Salayev, A.K.Talıbov, R.M.Əfəndizadəyə öz təşəkkürlərini ifadə edir.



# I BÖLMƏ

## XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏRSALMA

# I FƏSİL.

## AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN İNKİŞAF ZƏMİNLƏRİ

XVIII əsrin ortalarında Azərbaycanın şimal bölgələrində bir sıra müstəqil xanlıqlar yaranmış, onların arasında Bakı, Şirvan, Quba, Qarabağ, Naxçıvan, Gəncə, Şəki və Talış xanlıqları seçilmişlər. Azərbaycanın xırda xanlıqlara və sultanlıqlara parçalanması və bundan doğan siyasi, iqtisadi və mədəni xarakterli ziddiyyətlər ölkənin ümumi inkişafına onun potensial imkanları miqyasında rəvac verməmişdir. Bununla belə, İran dövlətinin əsarətindən xilas olan Azərbaycan xanlıqları böyük maddi dəyərlərə sahib oldular, çünki əhalidən İran xəzinəsinin xeyrinə vergilər şəklində tutulan vəsaitlər yerli feodalların mülkiyyətinə daxil olmağa başladı [241, səh.212]. Bu, xanlara xəzinədən sərbəst şəkildə istifadə etməyə və vəsaitləri yerli, daha çox öz şəxsi ehtiyaclarına yönəltməyə şərait yaratdı.

Xanlar, ilk növbədə, köhnə şəhər-qalaların möhkəmləndirilməsi və öz iqamətgahlarını yerbəyer etmək üçün yenilərinin yaradılması ilə məşğul idilər. Bakı, Şamaxı, Naxçıvan, Gəncə, Şəki kimi tarixi şəhərlərlə yanaşı, yeni yaranmış şəhər-qalalar: Şuşa, Quba və Lənkəran xanlıqların mərkəzlərinə çevrilirlər. Onların inkişafı XVIII-XIX əsrlərin qovşağında Azərbaycanda qərarlaşmış yeni sosial-iqtisadi şəraitlə öncədən müəyyən edilmişdi.

Xanlar arasındakı daimi toqquşmalara və xaricdən hücum təhdidlərinə baxmayaraq, şəhər-qalalar əhalinin işgüzar ticarət-sənətkarlıq həyatı şəraitində inkişaf edirdilər. Şəhərlərin düşmən hücumundan qorunmasının zəruri elementi olan müdafiə qurğularının ucaldılması ilə yanaşı saray komplekslərinin tikintisinə və möhkəmləndirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycanın Şuşa, Şəki və Quba kimi özünəxas və koloritli şəhərlərinin formalaşmasının memarlıq-planlaşdırma prinsipləri məhz bu çağda qərarlaşır.

Tarixən daha əvvəllər yaranmış şəhərlər yerli təbiət-iqlim və coğrafi xüsusiyyətlərdən asılı olaraq bir halda qala divarları ilə məhdudlaşan ərazidə (Bakı), digər halda isə bağlarla əhatə olunmuş, sıx olmayan tikilişlə geniş şəhər sahəsində, güclü iç qalanın müdafiəsi altında (Gəncə) inkişaflarına davam edirdilər.

Şəhər əhalisinin sayca çoxalması, sənətkarlıq istehsalının, digər xanlıqların mərkəzləri ilə və xarici şəhərlərlə ticarət əlaqələrinin artması yaşayış, ticari və ayin qurmalarının inşasına rəvac verirdi. Məhz bu çağda Şuşa, Şəki və Qubada əhalinin tayfa və ya istehsal-sex əlamətlərinə görə məskunlaşdığı, onların memarlıq-planlaşdırma və həcm-fəza strukturunu xeylii dərəcədə müəyyənləşdirən və sonralar da başlıca özəlliklərini qoruyub saxlayan öz məhəllələri, özünəməxsus "mikrorayonlar" əmələ gəlmişdir [10].

Azərbaycanın şəhərlərinə feodal Şərqinin şəhərlərində olduğu kimi planlaşdırma mənzərəliliyi, relyefdən uğurla istifadə və dəniz (Bakı, Lənkəran), çay (Gəncə, Şəki, Quba) və yüksəkliklər (Şuşa, Lahıc) kimi təbii-coğrafi amillərə müvafiq olaraq tikilişi yerləşdirmək məntiqi xasdır. Onların ümumi planlaşdırma kompozisiyasında feodal şəhərinin miqyasında memarlıq oxunu təşkil edən baş magistral hakim mövqe tutur, bütün tikilişlər onun cazibəsində olurdu. Fərqli təbiət-iqlim və sosial-iqtisadi şərait şəhərlərin memarlıq-planlaşdırma inkişafının fərdiliyini da müəyyən edirdi ki, bu da şəhər tikilişində özünəxas çoxlu kompozisiya üsulları yaradırdı.

XVIII əsrin əvvəllərində iqtisadi böhranla bağlı ictimai və ayin xarakterli iri momumental qurmalar bir qayda olaraq ucaldılmırdı; XVIII əsrin ikinci yarısında və XIX əsrin əvvəllərində ucaldılan binalar artıq öz dəyərinə görə XVII əsrin tikililərindən geri qalmırdı.

Şuşa, Şəki, Quba və Lənkəran kimi şəhərlərin yaranmasına və qərarlaşmasına, nəticədə onların XIX əsrin əvvəllərində Azərbaycanın ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərinə çevrilməsinə ənənəvi şəhərsalma təcrübəsindən istifadə rəvac vermişdi. Bütövlükdə Yaxın Şərqdə şəhərsalma artıq öz keçmiş səviyyəsinə qalxa bilmirdi, lakin Azərbaycanda bu iş uğurla inkişaf etməkdə idi. Bu illərdə yaşayış, mülki, ayin və xatirə qurmalarının tikintisi intensivliklə aparılırdı.

Xanlıq mərkəzlərində və yaşayış məntəqələrində yaşayış və mülki tikinti əzəli memarlıq məktəbləri mərkəzləri - Təbriz, Ərdəbil və s. ilə öz əlaqələrini kəsməyən yerli memarlar və ustalar tərəfindən aparılırdı. Ölkənin müxtəlif bölgələrində yaşayış və saray qurmalarının öz əsası etibarilə daha demokratik və mütərəqqi olan xalq memarlığının təsirinin üstünlük təşkil etdiyi olduqca maraqlı örnəkləri məhz bu dövrdən bizim günlərə qədər gəlib çatmışdır.

Quba, Bakı, Şəki-Zaqatala və Azərbaycanın digər bölgələrinin yaşayış evləri, eləcə də Bakı, Quba, Naxçıvan, Şəki və Şuşada xan sarayları yerli memarlığın parlaq örnəkləri idi. Müstəqil xanlıqlar şəraitində yerli məktəblərin ənənələri onun memarlıq-planlaşdırma xüsusiyyətlərini davam etdirirdi [242, c.155]. Bakı istisna olmaqla, şəhər yaşayış evlərinin tikilişi bağçalı malikanə tipinə istiqamətlənmişdi ki, bu üzdən şəhərlər şəhər-bağ simasına malik idilər. Bu fonda şəhər mərkəzlərinin ticarət-sənətkarlıq və ayin kompleksləri xüsusilə qabarıq görünürdülər.

Xanlıqlar dövrü şəhərlərinin tarixi mərkəzləri kapitalizm çağında qəti şəkildə formalaşdı və bu şəhərlərin rekonstruksiyası prosesində bizim günlərdə onların sisteminə şəhərin planlaşdırma strukturunda hakim mövqeyini qoruyub saxlayan şəhər əmələgətirən element kimi daxil olmuşdur.

Tarixi şəhərlərin (Bakı, Şuşa, Şəki) ticarət-sənətkarlıq mərkəzləri onların səciyyəvin memarlıq-kompozisiya və həcm-fəza həlli ilə bir çox Azərbaycan şəhərlərinin ictimai mərkəzlərinin özünəməxsusluğunda və inkişafında iz buraxmış və onlara bu gün də itməyən öz fərdi simasını bəxş etmişdir.

Azərbaycan şəhərlərinin yaşayış və mədəni-məişət qurmalarının memarlığında ənənəvi tiplərin varisliyi aydın şəkildə izlənir, ancaq sosial-iqtisadi və təbiət- iqlim şəraitindən asılı olaraq müxtəlif bölgələrdə öz məhəlli tipləri müəyyənləşmiş, sonralar bu tiplər memarlar tərəfindən uğurla inkişaf etdirilmişdir. Bu baxımdan, memarlıq-planlaşdırma kompozisiyası nöqteyi-nəzərindən Ordubad şəhərində yaşayış evlərinin tikilişi daha səciyyəvidir. Burada yaşayış evinin planında başlıca vəsilə səkkiz- və ya altıbucaqlı formasında vestibüldür, buradan ayrı-ayrı girişlər yaşayış yerləşgələrinə, həyətə, "qonaq" otağına - ikinci mərtə-

bəyə aparırdı. Bu kimi planlaşdırma sxeminin Yaxın Şərq ölkələrinin yaşayış evləri memarlığında bənzəri yox idi və onun özünəməxsusluğu orta əsr Naxçıvan memarlıq məktəbinin ənənələri ilə bağlı sırf yerli mənşəli təzahür idi [53, s.469].

Gəncədə "günbəzli ev" adlanan günbəz tipli yaşayış evləri öz plan həllindən daha çox oxvari qübbələri və ikiqat əyriliyə malik tağbəndləri ilə yaranan həcm-fəza sistemi ilə böyük maraq kəsb edirdi [241, s.159].

Orta əsr şəhərlərinin və yaşayış yerlərinin planlaşdırması və tikilişində ayin qurmalarının rolu və əhəmiyyəti hər kəsə bəllidir. Onlar şəhərlərin ictimai mərkəzlərində məsul sahələr tutur, tikilişlərin siluetini və memarlıq xarakterini müəyyən edir, şəhər məhəllələrinin və bütövlükdə şəhərin bədii cəhətdən formalaşmasına öz təsirini göstərirdi. Lakin XVIII əsrdə və XIX əsrin əvvəllərində Azərbaycanda bu kimi qurmalar artıq inşa edilmirdi. Onları XVI-XVII əsrlərin memarlıq-planlaşdırma həllini bu və digər dərəcədə təkrarlayan kənd və ya məhəllə məscidi adlandırılan kiçik tikililər əvəz etmişdi. XIX əsrin ikinci yarısında quberniya mərkəzlərindən aralı bölgələrdə bu istiqamətdə məhəlli memarlıq məktəblərinin xarakterini müəyyən edən yerli stilistik təzahürlər xeyli güclənmişdi.

Xatirə qurmalarının inşasında XVIII əsr yeni kompoziya üsulları irəli sürmədi. Bu dövrdə bənzər tipli qurmaların inşası Naxçıvan, Bərdə və Ərdəbilin görkəmli abidələri (XII-XVII əsrlər) ilə təmsil olunan köhnə örnəklər üzrə, lakin bir qədər sadələşdirilmiş şəkildə, Azərbaycanın əvvəlki tarixi dövrlərinin məqbərələrini fərqləndirən dekorativ və bədii bəzəklərsiz aparılırdı [241, s.40]. İri xatirə qurmaları xanlıqlar dövrünün kiçik miqyaslı tikililəri ilə əvəzlənir, çünki xanlar əsasən öz hakimiyyətlərinin möhkəmləndirilməsi, şəhər-qalaların və dünyəvi xarakterli qurmaların inşası ilə məşğul idilər.

Mürəkkəb tarixi şəraitə baxmayaraq, bu dövr ölkənin memarlıq və tikintisinin inkişafında ölkənin şimal vilayətlərinin 1828-ci il Türkmənçay müqaviləsinin imzalanması nəticəsində Rusiyaya birləşdirilməsindən sonra Azərbaycan şəhərlərinin sonrakı sürətli inkişafında zəmin rolunu oynadı. Azərbaycanın Rusiyaya birləşdirilməsi xanlar arasında fasiləsiz ara müharibələrinə son qoydu, xarici müdaxilələrin qarşısını aldı, ölkənin feodal pərakəndəliyini ləğv etdi [355].

Azərbaycanın tarixində yeni mərhələ başlamışdı. Dinc quruculuq şəraitində, xüsusilə də XIX əsrin ikinci yarısında kapitalist münasibətlərinin yaranması və yayılması ilə bağlı olaraq, şəhərlər və yaşayış məntəqələri müvəffəqiyyətlə inkişaf etməyə başladı. Bu proses tədricən gedirdi, çünki əvvəlcə feodal pərakəndəliyini ləğv etmək, Zaqafqaziya ərazisində, o cümlədən Azərbaycanda inzibati idarəetməni nizamlamaq lazım gəlirdi.

Çarizmin müstəmləkə siyasətinə baxmayaraq Azərbaycanın Rusiyaya birləşdirilməsi onun inkişafında tarixən mütərəqqi rol oynamışdır. Kənd təsərrüfatının, şəhərlərdə əhalinin artmasına imkan yaradan ticarətin inkişafı üçün əlverişli şərait yaranmışdı. Məsələn, Gəncə şəhərinin (1804-cü ildən 1918-ci ilə qədər - Yelizavetpol) əhalisi 1811-ci ildə cəmi 2530 nəfər təşkil edirdi, 1825-ci ildə isə şəhər sakinlərinin sayı o dövrün bir sıra orta quberniya şəhərlərinin əhalisinin sayına yaxınlaşaraq 9343 nəfərə qədər artmışdı [200, s.18]. Şamaxı, Quba, Şəki, Şuşa və digər şəhərlərin də əhalisi artmışdı. XIX əsrin birinci yarısında şəhərlərdə ictimai idarəetmə mövcud deyidi. İdarəetmə şəhər təsərrüfatının qeydinə qalmayan





yerli polisin ixtiyarında idi. 1841-ci ildə "Zaqafqaziya diyarının idarə edilməsi üçün İdarə" üç səviyyənin - quberniya (vilayət), qəza (mahal) və nahiyənin daxil olduğu inzibati-ərazi quruluşunun yeni sistemini tətbiq etdi [200, s.113].

Zaqafqaziya diyarı 11 qəzadan ibarət olan Gürcüstan- İmeretiya quberniyasına (inzibati mərkəzi - Tiflis) və yeddi qəzadan ibarət olan Xəzər vilayətinə (inzibati mərkəzi - Şamaxı) bölünmüşdü. Azərbaycanın əsas ərazisi Xəzər vilayətininin tərkibinə daxil edilmişdi. Zaqafqaziya diyarının şəhərləri eyni zamanda əhalinin sayından asılı olaraq, dörd dərəcəyə: əhalisi çox olan, orta, əhalisi az olan və qəza mərkəzliyindən çıxmış şəhərlərə bölünürdü [200, s.118]. Yelizavetpol və Şamaxı birinci dərəcəyə daxil idi.

1843-cü ildə Zaqafqaziya diyarının idarə edilməsi üzrə hesabatlara şəhərin gəlirləri və xərcləri haqqında məlumatların əksini tapdığı "Şəhər təsərrüfatı" bölməsi daxil edilmişdi və bu hesabatlar göstərir ki, Azərbaycan şəhərlərinin şəhər təsərrüfatını müəyyən dərəcədə nizamlanmaqda idi [200, s.119]. Şəhərlərin daha əlverişli sosial-iqtisadi şəraitdə (xanlıqlar dövrü ilə müqayisədə) ümumi inkişafı ilə bağlı olaraq köhnə tikiliş prinsipləri də aradan qalxır, dəyişirdi: müntəzəm planlaşdırmaya



*Zaqatala şəhər istehkamının planı. 1850-ci illər.*

əsaslanan yeni, proqressiv şəhərsalma üsulları meydana gəlirdi. Şəhərlərin qərarlaşmış planlaşdırması əhalinin artımı və şəhər ərazisinin genişlənməsi ilə bağlı olaraq yeni şəhərsalma tələblərinə uyğunlaşdırılırdı.

Artıq qərarlaşmış köhnə şəhər orqanizminin və məhəllələrin yeni planlaşdırması və tikilişi qarşılıqlı surətdə bir-birinə nüfuz edir, qarşılıqlı təsir baş verir.

Zaqafqaziya diyarının hərbi hakimiyyəti tərəfindən hələ 1820-ci ildə Ağstafa-çay və Həsənlu-çay boyunca yeni şəhərlərin salınması üçün məkan axtarışına başlanmışdı, lakin bu niyyət gerçəkləşmədi. Elə həmin vaxtlarda Dağıstanla sərhədlər boyunca Azərbaycanın digər strateji məntəqələrində Zaqatala, Qax, Qusar kimi qalalar meydana gəlmiş, onların bazasında şəhərlər yaradılmışdı.

Daha sonra Cavad, Ağdam, Ağdaş, Göyçay, Qazax şəhərləri, Hacıkənd kurort şəhəri yaranmışdır.

Cavad şəhəri 1960-cı illərdə memar Qasım bəy Hacıbababəyov tərəfindən Araz və Kür çaylarının qovuşduğu yerdə bu ərazinin təbiət-iqlim xüsusiyyətlərini və şəhərsalmanın yeni prinsiplərini (nizamlı tikiliş əsasında) nəzərə almaqla layihələşdirilmişdir. Şamaxının planlaşdırması və tikilişindəki təcrübə Hacıbababəyova Cavad şəhərinin baş planını tərtib edərkən şəhərsalmanın mürəkkəb vəzifəsinin həllində kömək etmişdi. Baş ox boyunca şəhərin inzibati, ictimai və ticari təyinatlı geniş sahələrinin yerləşdirilməsi ilə nizamlı planlaşdırması onun kompozisiya mahiyyətini əvvəlcədən müəyyənləşdirmişdi.

Baş sahə - inzibati-ictimai mərkəz - Kür çayının sahilinə açılır. Burada məkanın və landşaftın planlaşdırmasında qarşılıqlı əlaqə uğurla həll edilmişdir. Bu, sahil boyundan aktiv kompozisiya elementi kimi istifadənin nəzərə alınması ilə şəhər mərkəzinin planlaşdırma həllinə ilk örnək idi. Sahilin şəhərsalma sisteminə daxil edilməsi ilə şəhər mərkəzini planlaşdırma üsulu, bunun üçün zəmin olmasına baxmayaraq, nə Bakıda, nə də Lənkəranda müşahidə edilir.

Ağdaş şəhərinin 1910-cu ildə mühəndis Cahangir bəy Əliyev tərəfindən tərtib edilən planlaşdırması da Azərbaycanda şəhərsalmanın mütərəqqi üsullarının inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət daşıyırdı.

Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonrakı ilk vaxtlarda həm əvvəldən təşəkkül tapmış, həm də yeni şəhərlərdə əsas planlaşdırma işləri bilavasitə istehkam qurğularının tikintisi və onların müdafiəyə hazırlanması ilə məşğul olan mühəndislər tərəfindən həyata keçirilirdi. Forştadtların şəhərsalma strukturundakı, şəhərlərin məkanda yerləşdirilməsindəki sxematizm və son dərəcə quruluq bundan irəli gəlir. Bu hal onların bu istiqamətdə sonrakı inkişafını müəyyən etmişdi. İslahatlar aparmış Rusiyanın XIX əsrin ikinci yarısından etibarən Azərbaycanı da dünya kapitalist əmtəə mübadiləsinə cəlb etməklə kapitalist inkişaf yoluna ayaq basmasından sonra Azərbaycan şəhərləri xeyli dərəcədə böyüdülər. V.İ.Lenin yazırdı: "Rus kapitalizmi ...Qafqazı dünya əmtəə mübadiləsinə cəlb edir, onun yerli xüsusiyyətlərini - köhnə patriarxal qapalılığın qalıqlarını - aradan qaldıraraq öz fabrikləri üçün özünə bazar yaradırdı".

Bu bazarın tələbatları Azərbaycanda sənaye və kənd təsərrüfatının müxtəlif sahələrinin (neft və mədənçıxarma, ipəksarıma, balıq, araqçəkmə, tütünçülük, duz hasilatı və s.) inkişafına rəvac verdi. Sənayenin bu sahələrinin yaranması və kənd təsərrüfatının inkişafı neftayırma zavodlarının və neft təsərrüfatı ilə bağlı müxtəlif fabrik-zavod təsərrüfatı





müəssisələrinin, misəritmə zavodlarının, baramaaçan və tütün fabriklərinin və digər sənaye müəssisələrinin yaradılmasını tələb edirdi.

Azərbaycanda fabrik-zavod sənayesinin, kənd təsərrüfatı istehsalının və ticarətin inkişaf etməsi, eləcə də Zaqafqaziya dəmiryolunun açılması, heç şübhəsiz, şəhər əhalisinin sayının artmasına, şəhərlərin ərazicə genişlənməsinə rəvac verirdi. Məhz bu dövrdə Azərbaycanda iri ticarət-sənaye mərkəzləri yarandı, onların sırasında Bakı XIX-XX əsrlərin qovşağında özünün çoxşaxəli şəhər təsərrüfatı ilə xüsusilə seçilirdi.

Hələ XIX əsrin 50-ci illəri – 70-ci illərin əvvəllərində şəhərlərin və onların əhalisinin və 40-cı illərlə müqayisədə şəhər büdcələrinin artım tendensiyaları müşahidə olunurdu ki, 1-ci cədvəldə verilən məlumatlardan bunu aydın görmək mümkündür [200, s.205].

Azərbaycan şəhərlərinin müəyyən qədər böyüməsinə və inkişafına baxmayaraq, şəhərlərin idarə edilməsi hələ də polisin əlində idi ki, bu da ictimaiyyətdə narazılıq doğurur və kapitalist münasibətlərinin inkişafını ləngidirdi. 1870-ci ildə ictimaiyyətin təzyiqi altında Rusiyanın daxili quberniyalarında Şəhər əsasnaməsi təsdiqləndi və tətbiq edildi. Quberniya mərkəzi olan Bakıda şəhər özünüidarə orqanı yalnız 1878-ci ildə yaradılmışdı. Qüsurlara baxmayaraq, bu, "mütərəqqi bir akt idi, belə ki, şəhərlərin kapitalist inkişafının tələblərinə uyğun idi" [200, s.214].

Azərbaycanın ikinci quberniya mərkəzi olan Yelizavetpol şəhərində (1934-cü ildən Kirovabad) ictimai özünüidarə 1897-ci ildə yaradıldı. Həmin il Nuxa, Quba, Şamaxı, Lənkəran, Şuşa və sair kimi qəza şəhərlərində də sadələşdirilmiş idarətmə tətbiq edildi. Məhdud imkanlara baxmayaraq, şəhər ictimai idarəsi Quzey Azərbaycan şəhərlərinin abadlığı, şəhər təsərrüfatı, planlaşdırma strukturu və tikilişlərin tənzimlənməsi və inkişaf etdirilməsi sahəsində çox işlər görmüşdür.

**Cədvəl 1.**

| Şəhərin adı | Əhalisinin sayı | | | Şəhər büdcəsinin həcmi, rubl | | |
|---|---|---|---|---|---|---|
| | 1834-1857-ci illər | 1874-cü il | Əhalinin artım faizi | 1846-cı il | 1832-1872-ci illər | Büdcənin artım faizi |
| Şamaxı | 19 733 | 24 133 | 122,9 | 12 834 | – | – |
| Nuxa (Şəki) | 17 945 | 29 917 | 117,0 | 6 873 | – | – |
| Şuşa | 15 194 | 24 552 | 156,1 | 4 417 | – | – |
| Yelizavetpol | 15 081 | 18 505 | 124,0 | 5 339 | 36 429 | 682,2 |
| Bakı | 8 374 | 14 577 | 185,3 | 4 885 | 53 777 | 1100,8 |
| Quba | 7 909 | 11 313 | 141,7 | 4 025 | – | – |
| Salyan | 6 746 | 9 088 | 133,9 | 1 914 | – | – |
| Naxçıvan | 5 157 | 8 878 | 133,4 | 2 334 | 6 629 | 272 |
| Ordubad | 4 302 | 5 525 | 128,4 | 1 829 | 3 289 | 179 |
| Lənkəran | 3 970 | 4 779 | 127,7 | 2 238 | – | – |
| Zaqatala | – | 1 079 | 100,0 | 1 202 | – | – |

Cavad şəhərinin baş planı. Memar Qasım bəy Hacıbababəyov. 1860-cı illər.








Gözdən keçirilən dövrdə Güney Azərbaycan və İran şəhərlərinin inkişaf yollarına baxılarsa, Quzey Azərbaycan şəhərlərinin formalaşma prosesi daha aydın görünəcəkdir. Zəif iqtisadiyyat, kustar sənaye, ticarət mərkəzlərini bir-birinə bağlayan dəmiryol nəqliyyatının olmaması, özünüidarə orqanlarından məhrum, məhdud həyatla yaşayan, şəhərlərin artım perspektivlərini müəyyənləşdirən şəhərsalmanın yerli-dibli yoxluğu - bütün bunlar o çağın Azərbaycan şəhərləri üçün səciyyəvi idi. Və heç də təəccüblü deyil ki, XIX əsrin ortalarında Güney Azərbaycan və İran şəhərləri son dərəcə yavaş templə inkişaf edirdilər. Hətta İranın paytaxtı Tehran da tikinti işlərinin vüsəti ilə fərqlənmirdi [434]. Eynilə XIX əsrin əvvəllərindəki Bakı kimi öz qala divarları hüdudunda qapanıb qalan bir çox İran şəhər-qalaları (Astrabad, Bəndər-Buşir, Disful, Burucerd, Kirman, Sultanabad və s.) öz ərazi artımı və inkişafları üçün real imkanlara malik deyildilər.

İranda hələ də feodal münasibətləri çiçəklənməkdə davam edir, ölkə hələ kapitalist inkişaf yoluna ayaq basmayıb; şəhərlərin sürətlə böyüməsinə, şəhər əhalisinin sayının artmasına imkan yaradan sənaye kapitalizmi ocaqları yox idi. İran şəhərlərinin o çağdakı durumu barədə məşhur şərqşünas N.Xanıkov özünün "Xorasana ekspedisiya" kitabında bəhs etmişdir [293].

XIX əsrin ortalarında, Azərbaycan ərazisində iki - Bakı (1859-cu il) və Yelizavetpol (1868-ci il) quberniyalarının yaradıldığı vaxtlarda ölkənin əsas ticarət-sənaye mərkəzlərini Rusiyanın daxili bazarları ilə birləşdirən Zaqafqaziya dəmiryolu çəkildi. Bu, Azərbaycanın dünya kapitalist əmtəə mübadiləsi sferasına daxil olmasına və həm iri şəhərlərdə, həm də yaşayış məntəqələrində tikintinin geniş vüsət almasına səbəb oldu.

Kapitalist iqtisadiyyatının inkişafı, sənaye və kənd təsərrüfatının yüksəlişi ilə bağlı ictimai həyatın yeni formaları, Rusiyada olduğu kimi, şəhərlərin həcm-fəza və memarlıq-planlaşdırma strukturunu tamamilə dəyişən yeni tipli bina və qurmaların üzə çıxmasına rəvac verdi.

Başlanğıcda Azərbaycan şəhərlərində yeni tipli binalar (Şuşada və Şamaxıda məktəblər, şəhər məktəbləri, teatrlar) məhdud idi. Yalnız XIX-XX əsrlərin qovşağında yeni tipli binaların və qurmaların nomenklaturası genişlənir: gəlirverən evlər, passajlar, bazarlar, birjalar, xəstəxanalar, şəhər dumaları, sirklər və s. üzə çıxır. Zavodlar və fabriklər, dəyirmanlar və anbar yerləşgələri tikilir.

Bina və qurmaların miqyasları da dəyişilirdi. Başlıca olaraq bu inqilabaqədərki Rusiyanın iri sənaye mərkəzlərindən biri olan, güclü memarlıq-tikinti və mühəndis-texniki kadrların cəmləşdiyi Bakıya aiddir [277]. Azərbaycanın kiçik şəhərlərinin malikanə tipli bir- və ikimərtəbəli evləri XIX əsrin sonlarında şəhər tipli yaşayış binalarına transformasiya olundu və bununla da şəhərlərin memarlıq siması xeyli dərəcədə dəyişdi. Xüsusilə də Bakının öz yerini şəhərtipli iki mənzilli evlərə və çoxmərtəbəli çox seksiyalı gəlirverən evlərə buraxan yaşayış evləri dərin dəyişikliyə məruz qaldı [273].

Bakının yaşayış binalarının Moskva, Peterburq və digər Avropa şəhərlərinin analoji tikililəri ilə memarlıq-planlaşdırma ümumiliyinə baxmayaraq, onlar təbiət-iqlim və məişət tərzi ilə şərtlənən öz spesifik xüsusiyyətlərini xeyli dərəcədə qoruyub saxlayırdılar. Belə ki, yerləşgələrin həyət tərəfdən bütün perimetr boyunca əlavə şüşəbənd və ön fasaddan balkon-şüşəbənd ilə ikicərgəli inşası Bakının yaşayış evləri planının kompozisiya quruluşunu müəyyən edirdi. Yaxın Şərq ölkələri (İran və ya Türkiyə) şəhərlərinin yaşayış evlərində bu kimi planlaşdırma

15683

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



*Ağdaş şəhərinin planı. Memar Cahangir bəy Əliyev. 1910-cu il.*

sxemi yoxdur [454, s.161], əgər Tbilisi yaşayış evlərinin planlaşdırma cizgilərinin bəzi oxşarlıqlarını hesaba almasaq, bunların Bakı memarlığına mənsubluğu qalmaqdadır [39].

Yaşayış evlərinin həyət tərəfdən şüşəbəndli planlaşdırma sxemi yalnız yaşayış evlərinə şamil olunmaqla qalmır, eləcə də təbiət-iqlim şəraiti üzündən Bakının bir çox inzibati və ictimai qurmalarının planlaşdırma kompozisiyasının vacib üsuluna çevrilmişdi. Bununla bağlı olaraq spesifik yerli şəraitin Peterburq memarları tərəfindən lazımınca qiymətləndirilməməsi faktı səciyyəvi haldır.

Bakıda 1898-ci ildə mülki mühəndis İ.V.Qoslavski tərəfindən tərtib edilən, planlaşdırmasına şüşəbənd qalereya və balkonların daxil edildiyi dəftərxanası ilə birlikdə qubernator evinin layihəsinə Peterburqda baxılarkən, planlaşdırmanın bütün bu elementləri lüzumsuz sayılaraq peterburqlu memar tərəfindən düzəlişə məruz qoyulmuşdu. Qoslavski belə bir qərara etiraz edərək yazırdı ki, "yenidən tərtiblənən layihədə nə bayır tərəfdən daldalanacaqlı balkon, nə də həyət tərəfdən qalereya var. Bakıda mövcud istilər şəraitində bayır tərəfdən daldalanacaqlı balkonlar, eləcə də dəhliz qalereyaları ən azından ona görə zəruridir ki, yayda divarları qızmaqdan, qışda isə Bakıda tüğyan edən şimal küləklərindən qoruyur... Yəni bunun təmtəraq, dəbdəbə deyil, zərurət olduğu ondan görünür ki, tək evləri bir yana qoyaq, Bakının bütün gəlirverən evlərində qalereyalar var".

Bakının yerli tələblərinin və təbiət-iqlim şəraitinin nəzərə alınmasının nə qədər vacib olduğunu binaların layihələşdirilməsində bütün bu gərəkli faktorların məsuliyyətini dərk edən şəhər memarı Qoslavskinin yuxarıda misal gətirilən mülahizəsi göstərir; onlara məhəl qoyulmaması bu və digər layihənin ümumi həllində mütləq öz mənfi təsirini göstərəcəkdi.





Azərbaycan şəhərləri və yaşayış məntəqələrində inzibati-ictimai və mədəni-məişət binalarının tikintisi yerli hakimiyyətin və əhalinin sosial-iqtisadi imkanlarından asılı olaraq aparılırdı. İnzibati-ictimai qurmaların əksəriyyəti quberniya şəhərlərində - Yelizavetpolda və Bakıda tikilirdi. Qəza mərkəzlərində idarələr adətən şəxsi binalarda yerləşirdi. Mədəni-məişət qurmaları (hamamlar, karvansaralar, bazarlar, məscidlər) ölkənin şəhərlərində və kənd yerlərində çox gözəl təmsil olunur.

Azərbaycan ərazisində təbiəti, iqlim şəraiti, məişət və memarlıq-tikinti ənənələri səbəbincə XIX-XX əsrlərin qovşağında kütləvi yaşayış evləri tikintisi və dönəmin ayin qurmalarının daha tutumlu şəkildə təmsil olunduğu müəyyən bölgələr və ya lokal xarakterli memarlıq-planlaşdırma zonaları qərarlaşdı.

Bəllidir ki, Azərbaycan tarixinin hələ orta əsrlər çağında Şirvan-Abşeron, Naxçıvan kimi iri memarlıq məktəbləri meydana çıxmış, bu məktəblərə mənsub memarlar milli mədəniyyətin görkəmli əsərlərini yaratmışlar [53, 241]. Bu məktəblər inkişaf etdikcə onların təsiri Azərbaycanın bütün ərazisinə yayılmışdır. Sonralar yeni tarixi şəraitdə yerli memarlar müəyyən bölgələrdə spesifik memarlıq-planlaşdırma və kompozisiya üsulları ilə fərqlənən qurmalar yaradaraq, keçmişin memarlıq-tikinti ənənələrini davam etdirməyə çalışırdılar.

XIX-XX əsrlərin qovşağında Bakı-Abşeron, Quba-Xaçmaz, Gəncə-Qarabağ, Şəki-Zaqatala, Lənkəran və Naxçıvan məhz bu kimi bölgələr idi. Bu bölgələrin hər birində yerli təbiət-iqlim xüsusiyyətləri, əhalinin sosial-məişət şəraiti, qurmaların ucaldılmasında memarların istifadə etdikləri tikinti materialları, konstruktiv üsullar və memarlıq ənənələri güzgüdə olduğu kimi cəmlənmişdir.

Bakı-Abşeron bölgəsi açıq rəngli əhəngdaşından inşa edilən tikililərin kubşəkilli həcmləri və yastı damları, memarlıq detallarının filiqran bəzəkləri ilə xarakterikdir. Bakıda memarlıq ənənələrinin varisliyi və funksional məzmununa görə yeni qurmalara xidmət edən tikinti üsullarının rasionallığı özünü göstərmişdir. Yastı damlı evlər hələ XVIII əsrdə və daha sonra Gürcüstan şəhərlərində və İrəvan xanlığında inşa edilirdi. Gürcüstanda bu damüstü örtüklər "Şirvan damları" adlanır və Tiflis şəhərindəki tikililərin memarlığının xarakterik özəlliklərindən birini təmsil edirdi [198, s.419].

Quba-Xaçmaz bölgəsi meşələrin zənginliyi ilə fərqlənir, lakin bu yerlər təbii tikinti materialı olan daş sarıdan yoxsul idi. Çiy kərpicdən və bişmiş kərpicdən divar materialı qismində istifadə və bunun geniş yayılması buradan irəli gəlirdi ki, bu da binaların həcm-fəza həllində və onların kərpic bəzəklərlə səciyyələnən memarlıq görünüşünə təsirsiz ötüşə bilməzdi.

Bol atmosfer yağıntıları ilə fərqlənən Lənkəran subtropik bölgəsi binaların ən mühüm hissələrində istifadə edilən qiymətli ağac növləri ilə məşhur idi. Quba-Xaçmaz bölgəsində olduğu kimi, burada da sifarişçinin maddi imkanından asılı olaraq çiy kərpic və bişmiş kərpic başlıca tikinti materialı kimi işlədilirdi. Bu zona Güney Azərbaycan memarlığının güclü təsiri altında idi ki, bu da binaların fasadının həm dekorativ planda işlənməsində, həm də memarlıq formalarından istifadədə özünü göstərirdi. Binanın əsas həcmindən ağac kronşteynlərin yaruslu sisteminin köməyi ilə hündür kirəmit damüstü örtüyə keçid diqqəti çəkir. Eyvanın eni boyunca xeyli irəli çıxarılmış konstruktiv damüstü örtük sistemi aralıq dayaqlar quraşdırmağı lüzumsuz edirdi ki, bu da binanın Azərbaycanın digər bölgələrində gördüyümüzdən fərqli memarlıq traktovkasını və memarlıq obrazını yaradır.

Gəncə-Qarabağ bölgəsi öz memarlığı ilə ən aydın bir şəkildə Şuşa şəhəri ilə təmsil olunmuşdur. Burada binalar şəhərin bütün simasında gözə çarpacaq dərəcədə iz buraxan bərk növdən olan mərmərşəkilli əhəngdaşından inşa edilmişdir. Şəhər yaşayış binaları memarlığının ciddi ifadəliliyi, yerli memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən yaradılmış ayin qurmalarının nəcib formaları, məscidlərin siluet kompozisiyasına müxtəlif çalarlı kərpiclərin məharətlə daxil edilməsi bu bölgə memarlığının fərdi özəlliklərini müəyyənləşdirmişdir.

Şəki-Zaqatala bölgəsini Azərbaycan memarlığının ümumi inkişaf zəncirində ayrıca bir vəsilə hesab etmək gərəkdir. Zəngin təbii şərait, uzaq qədimdən gələn memarlıq-tikinti ənənələri, ılıq çalarlardan tutmuş soyuq çalarlaradək daşlar, müxtəlif çalarlı bişmiş kərpic, damüstü örtük üçün kirəmit - bütün bunlar Qafqaz Albaniyasının bir çox abidələrini sinəsində qoruyub saxlayan bu olduqca maraqlı bölgənin yaşayış və ayin qurmalarının özünəməxsusluğunun parlaq ifadəsi üçün zəmin yaratmışdır [269].

Xalq memarlığının ən gözəl keyfiyyətlərini özündə cəmləşdirən Şəki-Zaqatala bölgəsinin yaşayış evlərinin memarlığı tikililərin memarlıq-planlaşdırma mahiyyətini, ornamental motivli və yumşaq rəsm naxışlı kərpic hörgünün incə plastikasını aydın bir şəkildə sərgiləyir.

Azərbaycanın digər bölgələri ilə müqayisədə daha dünyəvi xarakter daşıyan ayin memarlığı xalq memarlığı ilə sıx bağlıdır, fəqət fasadların və interyerlərin plastika həllində daha təmkinlidir. Memarlar daha çox qurmaların həcm-fəza obrazına, memarlıq kütlələrinin miqyasına və formalarına diqqət yetirirdilər. Bu halda bölgənin yaşayış məntəqələrinin ayin binalarının memarlıq-planlaşdırma strukturunu məhz iri miqyas müəyyən edir. Şəki - Zaqatala bölgəsinin kənd məscidləri öz həcmlərinə və memarlıq ifadəliliyinə görə digər bölgələrin şəhər və kənd dini qurmalarını üstələyir. Hətta iri ticarət-sənaye mərkəzi olan Bakıda XIX-XX əsrlərin qovşağında Mosul, Əliabad, Tala, Balakən, Danaçı, Car, Qabaqçöl və digər kəndlərdəki ölçülərdə məscidlər tikilmirdi [287].

Xeyli dərəcədə bu hal ərazidə hasil olunan materiallar: daş, kərpic üçün gil, taxtapuş və dam örtüyü üçün inşaat ağacı, gəc (yerli tikinti gipsi) ilə müəyyənləşirdi. Bu bölgədə kənd icmasının - "camaat"ın özünə hörmət duyğusu da böyük rol oynayırdı.

Ayin qurmaları yalnız Şəki-Zaqatala bölgəsinə xas olan ciddi fərdi memarlıq işləri ilə fərqlənirdi. Məscidlərin memarlıq kompozisiyasının həllində yerli memarlara qurmanın fəza dərinliyinə və ifadəliliyinə nail olmaq üçün eyvan–portiklərin yarımdairəvi tağları ilə sərbəst rəftar xasdır. Məscidlərin ümumi kompozisiyasına bu tikililərin kəskinliyini və dinamikasını gücləndirən əlahiddə dayanmış minarələr üzvi şəkildə daxil edilmişdir; belə bir opijinallıq yalnız Şəki-Zaqatala bölgəsinin ayin qurmalarına xasdır.

Avropa motivlərinin və bütün stilistik istiqamətlərin üstünlük təşkil etdiyi kapitalist Bakısının memarlığı Azərbaycanın regional memarlığında ayrıca bir yer tutur, halbuki qalan bölgələrdə yerli memarlıq prinsipləri hakim mövqe tuturdu. "Tikintinin dəyişən şərtlərinə və yeni bədii tələbata müvafiq olaraq" [54, s.25] müəyyən qarşılıqlı təsir də istisna olunmurdu. Hər halda, ölkə memarlığının inkişafında yerli və Avropa istiqamətləri aydın şəkildə izlənirdi, həm də tikintinin miqyası baxımından birinci üstünlük təşkil edirdi, Azərbaycanın kiçik şəhərlərinin və yaşayış məntəqələrinin tikilişi buna sübutdur.

XIX-XX əsrlərin qovşağında ticarət və sənayenin inkişafı sayəsində şəhərlərin





böyüməsinin gücləndiyi, əhalinin sayının artdığı və abadlaşdırma işlərində müəyyən yüksəliş müşahidə olunurdu.

O dönəmdə quberniya mərkəzlərinin - Yelizavetpol və Bakının perspektiv planları (müvafiq olaraq 1873-cü ildə və 1899-cu ildə) təsdiq edilmişdi. Bu planlar torpaq sahələri və istehsal vasitələri üzərində özəl mülkiyyətin olduğu bir şəraitdə planlı şəhərsalma fəaliyyətinin yürüdülməsinə imkan yaradırdı.

Bakı özünün iqtisadi və sənaye imkanlarına görə Azərbaycanın digər şəhərləri ilə müqayisədə çox irəli addımlamış, ərazi cəhətdən və əhalinin sayına görə xeyli böyümüşdü, bunu 1907-1908-ci illər üzrə aşağıda verilən məlumatlar sübut edir:

| | *Əhalinin sayı* |
|---|---|
| Bakı sənaye qovşağı | 346 987 |
| Yelizavetpol | 42 454 |
| Şuşa | 37 531 |
| Nuxa (Şəki) | 37 003 |
| Quba | 25 946 |
| Lənkəran | 10 463 |

Yuxarıda şərh olunanlardan müəyyən nəticələr çıxarmaq olar: XVIII əsrin ikinci yarısından başlayaraq, Azərbaycan şəhərləri ölkənin inkişafının mürəkkəb sosial-iqtisadi şəraitinə baxmayaraq, xarici boyunduruqdan xilas olmuş xanlıqların müstəqilliyi sayəsində müvəffəqiyyətlə (XVIII əsrin birinci yarısı ilə müqayisədə) inkişaf edirdi. Məhz bu dövrdə qala-şəhərlər: Şuşa, Quba, Lənkəran və sonradan Azərbaycanın ticarət və mədəniyyət mərkəzlərinə çevrilən Ağdam, Xankəndi kimi yaşayış məntəqələri yaranmışdır.

Tarixən qərarlaşmış köhnə şəhərlərin və xanlıqlar dövründə yaranan yeni şəhərlərin memarlıq-planlaşdırma strukturu, eləcə də tikililərin orijinal kompozisiyası və bədii üsulları Azərbaycanın Rusiyaya birləşdirilməsi nəticəsində özünü göstərən tamamilə yeni bir şəraitdə onların inkişaf etməsi üçün bünövrə təşkil edirdi.

XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda yeni memarlıq-planlaşdırma üsulları bazasındakı şəhərsalma təbiət-iqlim şəraitindən və yerli memarlıq ənənələrindən taktik istifadə ilə bağlı fərdi görünüş almış şəhər və yaşayış məntəqələrinin inkişafının tarixi özəllikləri səbəbincə özünəməxsusluğunu qoruyub saxlayırdı. Onların tikilişləri bölgə memarlığının və evtikmənin həmin dövrün şərtləri ilə ziddiyyət təşkil etməyən müsbət memarlıq-konstruktiv prinsiplərinin təsiri altında formalaşırdı.

Şəhərlərin abadlıq dərəcəsinin yüksəldilməsinə, ərazisinin böyüməsinə və əhalinin say artımına, şəhərlərin həcm-fəza kompozisiyasına və bədii simasına xeyli təsir göstərən memarlıq-planlaşdırma strukturunun inkişaf etməsi ilə yanaşı, bina və qurmaların yeni tiplərinin meydan gəlməsi böyük önəm daşıyırdı.

Gözdən keçirilən dövrün memarlığı Bakıda daha qabarıq və koloritli şəkildə təmsil olunmuş, burada onun sosial, mədəni və stilistik xarakterli ziddiyyətləri əksini tapmışdır. Monoqrafiyada Bakının - inqilaba qədərki Rusiyanın çox iri sənaye mərkəzinin memarlığına yüksək diqqət buradan irəli gəlir.

# II FƏSİL.

## XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKIDA ŞƏHƏRSALMA

Bakı haqqında danışmaq – bu, Sovet İttifaqının ən böyük və ən qədim şəhərlərindən biri haqqında danışmaq deməkdir. Azərbaycanın paytaxtı Xəzər dənizinin dərin buxtasının qərb sahilində yerləşib, buradan sahil qövsü boyunca terraslar şəklində yayılan şəhərə gözəl bir mənzərə açılır. Bakının çoxobrazlı siması keçmişdə qala divarları ilə əhatə olunan Bakı qalasının planlaşdırma strukturu, relyefi, onun memarlıq abidələri, bayır-şəhərin düz, "sonsuzluğa" qədər uzanıb gedən küçələri müəyyənləşdirir.

XIX əsr - XX əsrin əvvəllərində Bakıda şəhərsalma və memarlığın inkişafını onun sosial, iqtisadi və siyasi xarakterli bütün ziddiyyətləri ilə Zaqafqaziyanın iri sənaye mərkəzi olaraq qərarlaşmasının həmin bu dövrü xarakterizə edir.

XIX əsrin ikinci yarısından - Abşeronda neft yataqlarının planlı şəkildə işlənməsi zamanından başlayaraq, Bakı Çar Rusiyasının ən iri sənaye və iqtisadi mərkəzləri sırasına daxil olur. Rusiyanın heç bir yaşayış məntəqəsi böyümənin tempinə və özünəməxsusluğuna görə keçmişdə gözə çarpmayan, yerli və xarici şirkətlərin çox böyük kapital qoyduğu çox zəngin neft resurslarına malik olan bu şəhərlə yarışa bilməzdi. Bakı bu dövrdə böyük iqtisadi inkişaf vəziyyətində idi və bu yüksəliş V.İ.Lenin tərəfindən "Rusiyada kapitalizmin inkişafı" əsərində qeyd edilmişdir. O, bu barədə yazırdı: "Neftin demək olar hamısı Bakı quberniyasında hasil edilir və Bakı şəhəri "balaca bir şəhərcikdən Rusiyada birinci dərəcəli sənaye mərkəzinə çevrilmişdir" [2, s.491].

İstehsal güclərinin və istehsal münasibətlərinin inkişafı ilə Bakının ərazisi də genişlənir, onun planlaşdırmasında və tikilişində yeni elementlər: ictimai bağlar, küçə bağçaları, bulvarlar, meydanlar, monumental binaları ilə magistrallar meydana çıxır.

### Şəhər planlaşdırma strukturunun inkişaf xüsusiyyətləri

**Xəzər vilayətinin qəza şəhəri (1806-1859-cu illər).** Bakı 1806-ci ildə Rusiya İmperasiyasının tərkibinə daxil oldu və bu zamandan etibarən şəhərin inkişafında və ərazisinin orta əsr qala divarlarını aşaraq genişlənməsi tarixində yeni dövr başlanır.

Coğrafi məkanına görə Xəzər dənizinin qərb sahilində yerləşən orta əsrlər Bakısı dəniz limanı olaraq şərqi Zaqafqaziyada Rusiyadan İrana uzanan ticarət yolunun keçdiyi strateji məntəqə kimi olduqca əlverişli mövqe tuturdu.

Bakının müdafiə qüdrətini gücləndirmək üçün rus hərbi mühəndislər tərəfindən istehkam layihələrinin iki variantı işlənib hazırlanmışdı. 1796-cı ildə tərtib edilən birinci variant "Bakı şəhərinin bir hissəsinin müdafiəsinin gücləndirilməsi üçün layihələşdirilən plan" adlanırdı. Layihə orta əsrlər qalası İçəri-Şəhərin cənub-qərb istiqamətində (hazırda "İnturist" mehmanxanasının yerləşdiyi əraziyə qədər) demək olar iki dəfə genişləndirilməsini nəzərdə tuturdu. 1798-ci ilin əvvəlində rus qoşunları I Pavelin əmrinə əsasən Azərbaycanı tərk etdi və Bakı qalasının genişləndirilməsi baş tutmadı.

1807-ci ildə mühəndis-mayor 2-ci Xristian Truzson "Baki şəhərinin bir hissəsində və layihədə göstərilməklə ondan 200 sajen məsafədə yerləşən şimal hissəsində yeni qalanın salınması planı» adlanan yeni bir plan işləyib hazırladı.

Bu layihədə şəhər hüdudlarından kənarda, dəniz sahilində, boş və açıq düzənlik sahədə qala qurulması nəzərdə tutulurdu, buradan Bakı şəhəri və onun ətrafı yaxşı görünürdü. Tutduğu ərazinin ölçülərinə görə yeni qala 1796-cı ildə layihələşdirilən qaladan geri qalır və mövcud qalanın təqribən dörddə bir hissəsini təşkil edirdi. Ola bilsin, Sank-Peterburqdakı Petropavlovsk qalasının müdafiə qurğularının strukturu qalanın planlaşdırılmasının kompozisiya həllinə öz təsirini göstərmişdi.

Köhnə qala ilə heç bir əlaqəsi olmayan yeni qalanın tikintisi, görünür, sonralar bayır-şəhərin tikilişlərdən azad ərazilərə tərəf inkişaf edəcəyi halda başqa bir planlama həlli doğura bilərdi, özü də könhə qaladan kənardakı yeni şəhərin təməlində tamamilə fərqli planlaşdırma sxemi dayana bilərdi. Ola bilsin, yeni şəhərin planlaşdırması öz prospektləri ilə radial-mərkəz sxemi şəklini alardı ki, relyef və ərazi buna imkan verirdi. Rusiyanın yeni əyalət şəhərlərinin tikinti təcrübəsində məhz belə bir planlaşdırma sxemi geniş surətdə tətbiq edilirdi ki, bu da XIX əsrin ikinci yarısında hərbi mühəndislər tərəfindən layihələşdirilən Orta Asiya şəhərlərinin planlarının çoxunda təsdiqlənir.

Yeni qalanın iri şəhərsalma elementi kimi meydana gəlməsi tarixən təşəkkül tapan Bakı şəhər-qalası və məkanın relyefini nəzərə almayan planlaşdırma ideyalarının inkişafına rəvac vermiş olardı. Beləliklə, şəhərin böyüməsi son nəticədə onun simasına özünəməxsusluq verə biləcək ətraf mühit elementləri ilə razılaşdırılmayan və əvvəlcədən qəbul edilən planlaşdırma sxemi ilə şərtlənirdi. Əgər Bakının tikintisi bu yolla (onun möhtəşəm memarlıq abidələri ilə köhnə qalanı nəzərə almadan) davam etsəydi, onda yeni qala və şəhərin (forştadt) kiçik, ancaq planlaşdırma strukturuna görə ifadəli ərazisi Bakının tarixi inkişafından kənarda qalmış olardı. Bu, Orta Asiyanın bir çox şəhərlərində baş verən hallara - bir-biri ilə heç bir bağlılığı olmayan və tamamilə fərqlənən köhnə və yeni hissələrə bölünməyə gətirib çıxara bilərdi.

Zaqafqaziyada hərbi hadisələr Rusiya üçün əlverişli isiqamətdə inkişaf edirdi ki, bu da Xəzər sahilində baha başa gələn qalanın tikintisindən imtina etməyə gətirib çıxardı və bu, Bakı üçün faydalı oldu. Rusiyaya birləşdikdən sonra köhnə Bakı qalasının uzun müddət ərzində hərbi və inzibati mərkəz rolunun saxlanması onun inkişafını və bayır-şəhərin yaranmasını əvvəlcədən müəyyən etdi. Şəhərin böyüməsi tarixi özəyə tabelik şəraitində baş verirdi ki, bu da onun varlığının kapitalizm dövründə Bakının memarlığının formalaşmasına böyük təsir göstərdi.

**1807-ci il planı.** Qalanın 1807-ci ildə işlənib hazırlanan layihəsi gerçəkləşdirilmədi, lakin Bakı qalası rayonunda istinadgah xarakterli içqalanın yaradılma ideyası, deyəsən, hərbi hakimiyyəti hələ də narahat etməkdə idi: tərəfimizdən aşkar edilən qrafik sənədlərdən görünür ki, 22 yanvar 1833-cü ildə Bakıda sxematik "Bakı qalasının onun daxilində İstinadgahın inşası üçün təxmini küçələrin və yerlərin göstərilməsi ilə baş planı" hazırlanmışdır. Bu layihə 6 oktyabr 1835-ci



*Bakı qalasının planı. Mühəndis 2-ci X.Truzson 1796-cı il.*




*Yeni nəzərdə tutulan qalanın planı. Mühəndis 2-ci X.Truzson 1807-ci il.*







*Bakı qalasının yenidən planlaşdırma layihəsi. Plan. 1835-ci il.*

ildə "Bakı qalasının onun daxilində İstinadgahın və Qalanın tikilməsi və Qalanın xaricində forştadtın böyüdülməsi göstərilməklə Planı" adı altında yenidən işlənmişdir.

Bakı qalasının yenidən qurulması üzrə müxtəlif vaxtlarda irəli sürülən üç layihə təklifindən qalanın taleyinə münasibətdə ən saymazyana olanı sonuncusu idi, bu təklifə əsasən, nəinki onun qədim planı, həm də tikililəri ləğv edilirdi.

**1809-cu il planı.** Forştadtın şəhərin əsas özəyindən – qaladan bilavasitə yaxınlıqda əlverişli bir şəkildə yerləşməsi məkanın münasib şəraitindən istifadə etməyə çalışan yerli hakimiyyətin diqqətini cəlb etməyə bilməzdi. Rabad ərazisinə quruluş vermək və vahid nizamlı planlaşdırması və Avropa tipli məhəllələri olan forştadtın formalaşdırılması məqsədi ilə 1809-cu ildə qalanın və "onun yaxınlığındakı ətraf situasiyanın" baş planı tərtib edilmişdi.

Tarixi və təbii faktorlar əsasında forştadtın planlaşdırma sxemində inkişaf etməkdə olan şəhərin köhnə və yeni hissələrini bir-birinə bağlayan məhəllələrin nizamlı sistemi tətbiq edilmişdi, həm də məhəllələrin frontal tikilişi qala divarlarına açılır və istehkam elementləri (bürclər,



*Bakı qalası yanında forştadtın layihəsi. Baş plan. 1822-ci il.*

istehkamlar) ilə uzlaşdırılırdı. Qalanın bayır-şəhərlə qarşılıqlı bağlılıq sistemi qala ətrafında şəhər ərazisi genişləndirilərkən diqqətə alınmışdı. Bu prinsip gələcəkdə planlaşdırılmasına görə özünəməxsus, memarlığına görə koloritli və bədii obrazına görə bütöv olan geniş magistralın - müasir Kommunist küçəsinin yaradılmasına rəvac verdi.

**1810-cu il planı.** 1810-cu ilin sxematik planı detallı bir şəkildə həllini tapmadı, lakin hər halda bayır-şəhərin inkişaf tarixində mühüm mərhələ idi və gələcək işlərdə nizamlayıcı səhərsalma sənədi olmuşdu, baxmayataq ki, şəhərin böyümə perspektivinə münasibətdə çeviklikdən məhrum idi.

**1822-ci il planı.** 1822-ci ildə tərtib edilmiş "Bakı qalasının onun yaxınlıqdakı ətraf situasiya ilə və həm qalada, həm də onun xaricində mövcud dövlət və yerli əhaliyə məxsus tikililər göstərilməklə Baş planı" (tərəfimizdən SSRİ Mərkəzi Dövlət Hərbi Tarix Arxivində aşkar edilmişdir) faktiki olaraq ondan əvvəlki planın davamıdır.

1822-ci ilin planı bayır-şəhərin formalaşmasının bir sıra məqamlarını açıb göstərir və həmin zaman kəsimində onun vəziyyətini xarakterizə edir. Bu planda 1810-cu ilin baş planının bütün planlaşdırma xüsusisyyətləri saxlanılmış, amma geniş esplanad qurulması və yeni məhəllələrin istiqamətinin qala divarlarının və istehkamların abrisinə bağlanması hesabına qaladan aralıdakı məhəllələrin qövsşəkilli yerləşdirilmə sxemi davam etdirilmişdir.





Maraqlıdır ki, 1822-ci ilin baş planı forştadtın mövcud tikilişlərini qeyd edir, eyni zamanda yeni məhəllələrin qırmızı xətlərinə nə qədər əməl olunduğunu göstərir. Bu plandan görünür ki, forştadtın yeni hissəsində məhəllələrin tikiliş sıxlığı cüzi dərəcədədir. Tikilişlər hələ də nizamsız xarakter daşıyır və buna görə də məhəllələrin layihə xətlərinə və küçələrin istiqamətinə riayət olunmamışdır. Ola bilsin, tikilişlərin bir qismi rabaddan qalıb və təbii olaraq yeni məhəllələrin hüdudlarına girib; tikilmə tarixi 1806-cı ildən əvvəllərə aid olan, indiyədək qalmış bəzi binalar bunu göstərir.

1810-cu və 1822-ci illərin planları nəinki yeni nizamlı tikilişlər rayonunun üzə çıxdığını, həm də onun planlaşdırmasının pərakəndə xarakterini göstərir. Bakının yeni rayonlarının nizamlı tikilişi XIX əsrin birinci otuz ilində Rusiyanın bir çox şəhərləri üçün səciyyəvi olan planlaşdırmanı xatırladır [221].

Forştadtın planları tərtiblənərkən, o çağın rus şəhərsalma sənətinin başlıca prinsipləri diqqətə alınmamışdı: baş planların tərtibinə Avropa tipli şəhərlərin köhnə qala və yaşayış məntəqələri ilə yanaşı tikilməsindən əvvəl başlanmışdır [56, s. 356]. Baş planlar yerli tarixi və topoqrafik şəraiti müəyyən qədər nəzərə almaqla işlənib hazırlanırdı; bu planlarda ərazilərin zonalarşdırılması, ictimai və ticarət mərkəzlərinin, ictimai istifadədə olan yaşıllıqların (bağların, küçə bağçalarının, parkların) məkan həlli və bu hissələr arasındakı qarşılıqlı bağlılıq nəzərdə tutulurdu.

1843-cü ildə Bakının növbəti planının tərtib edildiyi vaxt forştadtın ölçüləri 1822-ci ilin tikilişləri ilə müqayisədə xeyli böyümüş və onun sahəsi küçələr nəzərə alınmadan 46 hektar təşkil edirdi. Şəhərin intensiv şəkildə böyüməsi qalanın öz müdafiə əhəmiyyətini itirdiyi və ticarət fəaliyyətinin cazibə mərkəzi öz yerini tədricən bayır-şəhərin geniş məhəllələrinə dəyişdiyi vaxta təsadüf edir. 1842-ci ildə Bakıda olmuş məşhur səyyah İ.N.Berezin bunu müşahidə etmişdi. O, qeyd edirdi ki, forştadt "şəhərlə müqayisədə daha genişdir, küçələr enlidir, evlər uçuq-sökük deyil, təkəmseyrək hallarda bağlarla bəzədilmişdir" [41, s.227]. Esplanadın hüdudlarında bir neçə məhəllə şəklində tikilişlərin üzə çıxdığına da forştadtın formalaşmasında şəhər tikintisinə tələblərin artdığının simptomu kimi baxmaq lazımdır.

1845-ci il planında şəhərsalma elementlərinin – sonralar şəhər planlaşdırmasının əsasını təşkil edən başlıca qovşaqların doğulmaqda olduğu qeydə alınmışdır. Bu planda artıq forştadtın cənubda Şamaxı qapıları ilə düz yolla birləşən, şimalda isə Böyük Şamaxı yolunun keçdiyi meydanla bitən baş magistralı - indiki H.Hacıyev küçəsi dəqiq əks olunmuşdur. 1840-cı illərdə böyük yol magistrala çevrilmiş, onunla kəsişən Abşeron yolları qovşağı isə sonralar Poçtovaya adlanan meydana (indiki Füzuli meydanı) bağlanmışdır.

Forştadtın qeyri-kamil planlaşdırması Bakının inkişafı üçün mühüm şəhərsalma önəmi kəsb etməyə başlamış, lakin şəhərin həcm-fəza quruluşu hələ də qərarlaşma mərhələsində idi və bir-, ikimərtəbəli yaşayış tikilişləri ilə, eləcə də karvansaralar, ticarət sıraları və anbarlarla təmsil olunurdu.

Forştadtda sərbəst yaşayış şəraitini qalanın ensiz və darısqal döngələrindən üstün tutan tacirlərin, sənətkarların, kiçik dükan sahiblərinin və s. axını hesabına əhalinin davamlı artımı onun ərazisinin genişlənməsinə səbəb olmuşdur.

Rusiyaya birləşdirildikdən sonra (1806-cı il) və Birinci Dünya müharibəsi başlanana qədər (1814-cü il) Bakının intensiv şəkildə böyüməsi "şəhərin ərazicə tikilməsinə aid edilən" dörd mərhələdən

I BÖLMƏ. XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏRSALMA

keçmişdir: 1843-cü ilə qədər, 1843-1878-ci illər, 1878-1900-cü illər, 1900-1914-cü illər [254, s.10]. Ancaq bu mərhələlərdə şəhərin formalaşması bir qərarda getmirdi.

BAKI ŞƏHƏRİ ƏRAZİSİNİN
MƏRHƏLƏLƏR ÜZRƏ İNKİŞAFI

*A.Tikinti sahəsinin artması*

| Mərhələlər | Sahə, hektar | % |
|---|---|---|
| 1843-cü ilə qədər | 63,7 | 9,2 |
| 1843-1878-cı illər | 110,1 | 16,2 |
| 1878-1900-cü illər | 361,8 | 52,4 |
| 1900-1914-cü illər | 153,3 | 22,2 |
| *Cəmi* | *688,9* | *100,0* |

*B.Tikililərin sayının çoxalması*

| Mərhələlər | Cəmi | Yekuna görə faiz | Yalnız yaşayış | Yekuna görə faiz |
|---|---|---|---|---|
| 1843-cü ilə qədər | 3378 | 16.9 | 3049 | 18.6 |
| 1843-1878-ci illər | 3736 | 19.0 | 3137 | 19.1 |
| 1878-1900-cü illər | 9282 | 46.9 | 7578 | 45.4 |
| 1900-1914-cü illər | 3433 | 17.2 | 2551 | 16.9 |
| Cəmi | 19829 | 100.0 | 16315 | 100,0 |

Əgər 1843-cü ili şəhərin inkişafında yeni mərhələnin başlanğıcı hesab etmək mümkündürsə, Bakının quberniya mərkəzinə çevrilməsindən (1859-cu il) əvvəlki dövr, bu prosesdə, özü də mürəkkəb bir şəraitdə, baş plan olmadan, sıçrayışı göstərirdi.

1840-cı illərlə müqayisədə XIX əsrin 50-ci illərinin əvvəlində Bakının yeni rayonunda şəhərsalma sahəsində irəliləyiş gözə çarpır. Bir strateji və müdafiə obyekti olaraq qala öz əhəmiyyətini itirmişdi. Lakin inzibati mərkəz olaraq qalırdı, çünki burada yalnız dövlət binaları və dükanlar deyil, həm də məmurların və zəngin vətəndaşların ən yaxşı şəxsi evləri yerləşirdi. Forştadt "düz küçələrə və məhəllələrə bölünmüşdü, hərçənd hələ bir çox yerlər tikilməmişdi, qala isə öz divar sərhədlərini "aşmağa" başlamışdı [256, s.302].

Qalanın önündəki boş sahil zolağı (eni 10 metrdən artıq) "gəmilərlə daşınıb gətirilən taxta-şalban materialları və poçt paroxodları üçün daş kömür anbarları, eləcə də qayıqların və "bakinka" adlandırılan orta ölçülü dəniz gəmilərinin inşası üçün tərsanə kimi də istifadə edilirdi" [256, s.302]. Gömrük idarəsi ilə üzbəüzdə Tacirlər körpüsü tikilmişdi, burada malların yüklənməsi və boşaldılması həyata keçirilirdi, xarici qala divarının cənub küncündə isə daha iri olan Salyan körpüsü vardı.

Beləliklə, əvvəllər faktik olaraq istifadə edilməyən sahil zolağı şəhər əhəmiyyətli ticarət-anbar ərazisi kimi mənimsənilməyə başlamışdı. Sonralar bu körpülər sahilin yalnız bu hissəsini tutmur, həm şəhər əhalisinə dənizə çıxış yeri qoymayaraq, şərqə doğru uzandı. 1850-ci illərdə sahil boyunca şərqə doğru "ovçuları özünə cəlb edən müxtəlif ov quşlarının yaşadığı qamışlarla örtülmüş bataqlıqlar uzanırdı" [308, s.50].

Bilavasitə qalaya bitişik zonada ərazinin simasının dəyişdirilməsinə başlandı: onun forştadtın yeni məhəllələri ilə struktur bağlantısı inkişaf etdirilirdi.

Şəhərin qala divarları arasında qapanıb qalmalı olduğu barədə əhalinin daşlaşmış təsəvvürləri silinib gedir, ev tikmənin köhnə ənənələri uçub dağılırdı; qalanın xəlvət və darısqal monoton küçələri və dalanları öz yerini geniş küçələrə verirdi.

"Bakı qalasının forştadt və ətraf ərazi ilə və Kontr-eskapdan 2,5-dən 3 verstədək məsafədə 1854-cü ildə menzula vasitəsilə naturadan çəkilmiş baş planı" qəza şəhəri Bakının planlaşdırma və tikilişini xarakterizə edən mühüm sənəd idi. Mövcud planlaşdırmanın məzmun dolğunluğuna görə bu ən inandırıcı planı məhəllələrin tikilmə dərəcəsini açıb göstərirdi ki, bu da forştadtın ümumi inkişaf istiqamətini və artıq qərarlaşmış hissələrinin qalaya sarı meylini müəyyənləşdirməyə imkan verirdi.

Bu vaxtlar forştadtın sahəsi artıq 64 hektara çatır və İçəri-Şəhər qala ərazisinin ölçülərini (21,5 hektar) ötürdü. Lakin yeni, başqa bir tarixi şəraitdə qərarlaşan şəhər orqanizminin üstün vəziyyəti yalnız bununla müəyyən edilmirdi: tamamilə yeni səhərsalma strukturu formalaşmışdı; onun üstün cəhəti və potensial inrişaf imkanları feodal Bakısının da mənsub olduğu qala-şəhərlərlə müqayisədə göz önündə idi [65].



*Bakı qalasının forştadtla baş planı. 1854-cü il.*

Başlanğıcda düzbucaqlı planlaşdırma sistemi üzrə formalaşan forştadt qəbul edilən sxem çərçivəsində qalsa da, sonralar xeyli dəyişikliyə uğradı. O, sahil zolağının əyintilərinə uyğun tərzdə inkişaf edir, tamamlanır və genişlənirdi. Relyef və onun ərazisini kəsib keçən və forştadtı ölkənin digər yaşayış məntəqələri, xammal mənbələri, sənayenin yerləşdiyi rayonlarla bağlayan yollar - onun inkişafını biçimləyən faktorlar bunlardır. Bütün bunlar birlikdə elə bir üzvi şəhərsalma "xəlitəsini" təşkil edirdi ki, onun əsasında Bakının özünəməxsus, fərdi, kapitalizm çağının iri sənaye şəhərlərinə xas cizgiləri ilə memarlıq-planlaşdırma strukturu qərarlaşırdı [65].

Öz dağınıq məhəllələri ilə kiçik qəza şəhəri Bakı mərkəzini müəyyənləşdirməyə hər hansı bir əlaməti olmayan qeyri-münasib planlaşdırma sxeminə malik idi. Bir transformasiyaedici orqanizm olan forştadt ətraf yüksəkliklərin maili yamaclarına yayılaraq öz ilkin sərhədlərindən kənara çıxmış və ən dairəsi istiqamətində 1 km-ə qədər genişlənmişdi. Qala yaxınlığında sahilin bataqlığa çevrilməsi ilə bağlı olaraq forştadt məhəllələrinin yerləşməsində şərq istiqamətində böyümə tendensiyası duyulur.

Əvvəlkitək şərqdə karantin tərəfindən tutulmuş və məhəllələrin düzgün şəkildə tikilişinə mane olan sahə hələ də forştadtın ən ucqar hissəsi olaraq qalırdı. Forştadtın şərq hissəsinin şimal sərhədi hələ təzəlikcə nişan vurulan Balaxanskaya küçəsi boyunca keçirdi və onun rolu forştadtı qərbdən şərqə doğru kəsib keçən Suraxanskaya (1 May) küçəsi ilə müqayisədə planda aydın göstərilməmişdir.

İndiki H.Hacıyev küçəsindən başlayaraq forştadtın qərb hissəsi kompakt zonadan ibarət idi və öz məhəllələri ilə Aşağı Dağlıq küçəsinə qədər çatırdı. Ondan o yana məhəllələrin forması itir, mülklərin ayrı-ayrı sahələri şəhərin Dağüstü hissəsinin ən sistemsiz tikilişlərindən ibarət idi. Bu səmt Bakının ən nizamsız rayonu olaraq qalırdı.

Forştadtın tikililərlə tutulmuş nüvəsində küçələrin aydın şəbəkəsi: en dairəsi istiqamətində - Gimnaziçeskaya (indiki Tolstoy küçəsi), Karantinnaya (H.Aslanov küçəsi), Aziatskaya (P.Montin küçəsi), Kamenistaya (Şors küçəsi), Serkovnaya (Vidadi küçəsi) və Suraxanskaya (1 May küçəsi); meridian istiqa-

mətndə - Persidskaya (Poluxin küçəsi), Spasskaya (Q.İsmayılov küçəsi), Bazarnaya (H.Hacıyev küçəsi), Vorontsovskaya (Əzizbəyov küçəsi), Armyanskaya (M.Qorki küçəsi), Tatarskaya (Krupskaya küçəsi) müəyyənləşmişdi. Primitiv abadlığa baxmayaraq, küçələr şəhər planlaşdırmasının vacib elementləri kimi möhkəm bir şəkildə forştadtın planlaşdırma strukturuna daxil oldular və sonradan bir elə dəyişikliyə uğramadılar. Bazarnaya küçəsi əvvəlkitək bütün tikilişlərə münasibətdə mərkəzi-ox mövqeyində idi. Onun əsas magistral kimi əhəmiyyəti Şamaxı şəhəri quberniya mərkəzinə çevrildikdən, Bakı isə ona tabe vəziyyətə düşdükdən sonra daha da güclənmişdi.

Bazarnaya küçəsinin faktik olaraq rəsmi magistrala çevrildiyi və daha çox ziyarət edilən məkan olduğu səbəbincə onun tikilişində ticarət müəssisələrinin (mağazaların, dükanların, karvansaraların) sayının artması ilə bağlı olaraq dəyişiklik baş verdi.

Bazarnaya küçəsinin artan əhəmiyyəti yerli hakimiyyətin diqqətini cəlb etmiş və təbii ki, əyalət şəhərinin imkanları çərçivəsində ona təmtəraqlı görünüş vermək haqqında qərar qəbul edilmişdi. Forştadtın Şamaxı yolunun keçib getdiyi əsas küçəsində xiyaban əmələ gətirən ağaclar əkildi, bu xiyabanı qala divarlarına qədər uzatmaq niyyətində idilər. Bakı şəhərinin 1854-cü ilin baş planında Şamaxı qapılarını forştadtın əsas magistralı ilə birləşdirən mövcud xiyaban qeyd edilir. Beləliklə, xiyaban forştadtın gələcək inzibati və işgüzar mərkəzi olaraq təşəkkülündə yekun vasilə olmuşdur.

Forştadtın qərb və şərq istiqamətində inkişafı Bazarnaya küçəsinin Şamaxı traktı boyunca torpaqların mənimsənilməsinin davam etdirilməsi yolu ilə də həyata keçirilirdi. Bu, quberniya mərkəzi Şamaxı ilə əlaqələrin güclənməsi ilə şərtlənirdi.

Bazarnaya küçəsi hüdudlarında tənzimlənən Şamaxı yolu esplanadda üç küçəyə şaxələnirdi. Onlardan biri Şamaxı qapılarından keçərək qalaya aparır və "Qaranlıq cərgələri" yarıb keçərək dənizə çıxırdı; digər iki küçə qalanı şərqdən və qərbdən dolanıb gedirdi.

Şəhər inkişaf etdikcə, forştadtın ərazisi də genişlənir, onun əhalisinin sayı artır, bir liman olaraq Bakının da Rusiya ilə İran arasında tranzit ticarət mərkəzi kimi əhəmiyyəti artırdı. Ə.V.Salamzadə yazırdı: "Görünür buna görə də hələ 1839-cu ildə admirallığın siyasi, tarixi və coqrafi nöqteyi-nəzərdən Həştərxandan Bakıya köçürülməsi haqqında məsələ qaldırılmışdı" [241, s.235].

Limanın inkişafı ilə bağlı olaraq liman zonasının yaradılması ideyası irəli sürülmüş və 22 fevral 1855-ci ildə "Bakı limanı binalarının təxmini yerləşdirilməsinin Baş planı" tərtib edilmiş və 5 aprel 1855-ci ildə təsdiq edilmişdir.

Bakı limanı binalarının yerləşdirilməsi üçün ərazi seçilərkən Dəniz İdarəsi dar idarə maraqlarını əldə rəhbər tuturdu ki, bu da plan layihəsi gözdən keçirilərkən xüsusilə nəzərə çarpır.

Dəniz idarəsi, Kamennaya körpüsünün yaxınlığındakı yerin hədəfləri daha geniş götürülən, yəni yalnız liman əməliyyatlarının yerinə yetirilməsi ilə məhdudlaşmayan dəniz limanı vəzifələri üçün o qədər də münasib olmadığını diqqətə alaraq, bununla birlikdə dəniz məmurlarına xidmət edən bütöv bir rayonun yaradılmasını nəzərdə tuturdu və Bayıl burnunda yerli-dibli istifadə edilməyən şəhər örüş topraqlarının mülkiyyət hüququnun dəyişdirilməsinə icazə verilməsi xahişi ilə Qafqaz Diyarı rəhbərliyinə müraciət etmişdi. 1858-ci ildə "Bayıl burnunda admirallığın tikilməsi və Bayılda yerləşdirilməli olan dəniz məmurlarına liman komandiri tərəfindən





nəqdim olunan plan əsasında bağ-bostan yeri ayrılması üçün örüş torpaqlarının planı" tərtib edilmişdir.

Bu planda maraqlı görünən odur ki, şəhərdən aralı ərazidə yeni rayon yaradılarkən məkanın relyefi, Bakıdan Bibi-Heybətə gedən mövcud yol və sahil zolağı diqqətə alınmışdı ki, bütün bunlar planlaşdırma həllinin optimal variantını işləyib hazırlamağa imkan vermişdi. Bunlar hamısı birlikdə Bayıl burnunun onun əsas hissələrinin - admirallıq binası ilə limanın, inzibati-ictimai zonanın, məckun ərazilərin və dəniz ekipajı rayonunun səlis differensasiyası ilə planlaşdırmasını öncədən müəyyənləşdirmişdi.

6 aprel 1863-cü il tarixli "Bayıl burnunda tikilməkdə olan Bakı limanı binalarının yerləşməsinin Baş planı" yeni məskənləşmənin mövcud vəziyyətini qeydə alır və onun yaranma vaxtına - 1858-ci ilə doğru qərarlaşmış özəlliklərini açıb göstərirdi. Bu planın müstəsna dəyəri var: ilk dəfəydi əvvəlcədən limanın özünün, ictimai-məişət və yaşayış təyinatlı tikilişlər üçün, eləcə də mühəndis qurmaları üçün nəzərdə tutulan məhəllələrin yerləşdirilmə məkanının müəyyənləşdirilməsi nəzərə alınmaqla bütöv bir rayon üçün Dəniz



*Bayılın planı. Mühəndis A.Tyurin. 1863-cü il.*



*Bayılın planı. 1880-ci və 1890-cı illər.*

idarəsinə ayrılan ərazinin planlaşdırması işlənib hazırlanırdı. Bütün bunlar Bayılın sonrakı inkişafı üçün böyük əhəmiyyət daşıyan mütəşəkkil planlaşdırma strukturunun olmasını tələb edirdi. Baş plan həm də bununla maraq doğururdu ki, Bayılın təməlinin qoyulduğu vaxtdan bəri onun tarixən formalaşmasını təsəvvürə gətirməyə və inkişaf mərhələlərinin planlaşdırma xarakteristikasını təyin etməyə imkan vermişdir.

"Bakı limanı qurğularının göstərilməsi ilə Dəniz idarəsinə ayrılmış yerin 1880-ci il üçün Baş planı" mühüm şəhərsalma sənədidir. Onu Bayılın bundan əvvəlki Baş planı ilə müqayisə etdikdə görürük ki, Dəniz idarəsinin yeni ərazisinin planlaşdırma layihəsi Bibi-Heybət ərazisi də daxil olmaqla 4 kv. km-ə qədər sahənin mənimsənilməsini də nəzərdə tutur. Yeni plana görə Dəniz idarəsinin ərazisi məskun və ictimai zonalara, eləcə də bağçılıq təsərrüfatı üçün yerlərə ayrılmışdır. Relyefin mürəkkəbliyi səbəbindən yaşayış məhəllələri limanın əsas tikilişindən bir qədər aralıya çəkilməklə ayrılmışdır. Məhəllələrin düzbucaqlı formaları dənizə lap yaxın gəlirdi. Boyuna küçələrin dörd sırası sahilə aparıb çıxarır, çoxsaylı eninə küçələr isə məskun zonanı hissələrə bölürdü; küçələr liman rayonunda mövcud olan küçələrlə müqayisədə daha geniş planlaşdırılmışdı.

Yaşayış məhəllələri və bağçılıq üçün ayrılmış sahələrin (sahildən Bayıl ərazisinin sərhədlərinə qədər) arasındakı dar sahil zolağında ictimai mərkəz yerləşirdi. Lakin onun planlaşdırması işlənməmişdi, təkcə bazar tikintisi, meydan və bağ salınması üçün məhəllələr qeyd edilmişdi. Mərkəzdən cənub-qərbə doğru bağlar üçün 213x213 m və ya 4 hektardan böyük ölçüdə iri kvadratşəkilli sahələr ayrılmışdı.

Yeni ərazilər məhəllələrə bölünərkən Bayılın planı məhəllələrin artıq qərarlaşmış sxemini təkrarlayırdı. Onların köhnə məhəllələrlə münasibətdə ciddi paralelliklə yerləşmələri kəskin ifadə olunmuş relyefə malik məkanın strukturu ilə razılaşdırılmırdı.

Bayılın planlaşdırmasının eskiz və heç də mükəmməl olmayan xarakterinə baxmayaraq, onda, hər halda, Bakının sonrakı planları (1898-ci ilə qədər) işlənib hazırlanarkən nəzərə alınmayan bir sıra prinsipial müddəalar irəli sürülmüşdü. Bu, birincisi, layihələşdirilən ərazinin dəqiq zonalaşdırılması; ikincisi, bütün ərazinin memarlıq-fəza həllini təşkil edən ictimai mərkəzin yaradılması; və üçüncüsü, bağçılığın - şəhərin planında ilk dəfə görünən yaşıl zonanın inkişaf etdirilməsi üçün böyük sahə ayrılmasıdır.

Bakının digər qəza şəhərləri arasında nə xüsusi olaraq inkişaf etmiş planlaşdırma strukturu ilə, nə də tikintinin geniş vüsət alması ilə fərqləndiyi bir vaxtda onun böyüməsini sürətləndirən və intensiv inkişafına təkan verən bir hadisə baş verdi: 1859-cu ildə Bakı quberniya şəhəri statusu aldı.

### Rusiyanın ən iri sənaye mərkəzlərindən biri olan vilayət şəhəri (1859-1920)

Fəlakətli 15 may 1859-cu il zəlzələsi Şamaxını xarabalığa çevirdi. Bununla bağlı Qafqaz namestniki knyaz A.İ.Baryatinski 7 iyun 1859-cu ildə Şamaxı hərbi qubernatoruna yazırdı: "Mən bütün quberniya idarələrinin Bakıya köçürülməsinin faydalı olacağı barədə fikrin üzərində dayanmışam. Bu şəhərin dəniz sahilindəki mövqeyi, burada liman salınması, birinci çıxış nöqtəsinin Bakı olacağı gələcək dəmiryol, şübhəsiz, qısa bir vaxt ərzində onu əhəmiyyətli liman şəhərinə çevirəcək və şəhərin əvvəlki yerində yenidən salınması ilə bağlı qorxuları aradan qaldıraraq, sakinlərin rifahını təmin edəcəkdir" [313, s.391].

6 dekabr 1859-cu ildə II Aleksandrın fərmanı çıxdı: "... 1) İndiki Şamaxı quberniyasının idarəçiliyi və bu quberniyanın orada olan bütün idarələri Şamaxı şəhərindən Bakı şəhərinə köçürülsün. 2) Bakı şəhəri quberniya şəhəri dərəcəsinə





*Bayılın planı. 1880-ci və 1890-cı illər.*



*Bakı qalasının forştadt ilə baş planı. 1864-cü il.*

qaldırılsın. 3) Ardınca Şamaxı quberniyası bundan sonra Bakı quberniyası adlandırılsın" [313, s.398].

Lakin quberniya mərkəzinin Bakıya köçürülməsi ilə bağlı problemlərin olduqca mürəkkəb olduğu üzə çıxmışdı - onun bir inzibati mərkəz olaraq gündəlik həyatın bir çox vacib məsələlərinin həllinə hazırsızlığı öz sözünü deyirdi: çoxsaylı quberniya idarələrinin istifadəsi üçün yararlı binalar yox idi, qala ərazisində həddən çox əhali yaşayırdı, mənzil böhranı hiss olunurdu və s. Divarlarla əhatə olunmuş qala şəraitində yaşayış sahəsinə kəskin tələbat "burada hələ forştadtda ikimərtəbəli binaların nadir istisna təşkil etdiyi bir vaxtda çoxmərtəbəli evlərin inkişaf etdirilməsi üçün səbəb oldu" [60, s.45]. Köhnəlmiş yaşayış evləri sökülür və onların boşalmış sahələrində iki-, üç- və hətta dördmərtəbə evlər inşa edilirdi. Mövcud ikimərtəbəli əsaslı evlər yenidən qurulur və ya üzərinə mərtəbə əlavə edilirdi.

Bakının quberniya şəhərinə çevrildiyi andan qaların əhəmiyyəti məsələsi bəri başdan həllini tapmış oldu. Əhali ilə məskun mərkəz öz yerini forştadta dəyişdi, burada tikinti bütün istiqamətlər üzrə qeyri-məhdud miqyasda həyata keçirilə bilərdi. Şəhər ərazisinin genişləndirilməsi məhz forştadt hesabına baş verir.

XIX əsrin birinci yarısında (sənayenin inkişafı başlanana qədər) Bakının tikilişində əsas istiqamətlər mövcud bulaq mənbələrinin və şəhər torpaqlarının qərb hissəsində yerləşən su axınları xətlərinin olması ilə diktə olunurdu. Ancaq bu, şəhərin digər istiqamətlərdə də tikilişlərinə mane ola bilməzdi. Məmurlar üçün kiçik yaşayış evləri, iri karvansaralar, çoxsaylı ticarət müəssisələri inşa edilirdi.

XIX əsrin 60-cı illərinin əvvəllərində şəhərin Zaqafqaziya iqtisadiyyatındakı artan əhəmiyyəti artıq müəyyənləşmişdi. Bunun üçün hər cür zəmin: Rusiya, İran, Qafqaz və qismən də Orta Asiyanın kommersiya maraqlarının kəsişdiyi ticarət qovşağına çevrilən əla liman, təbii sərvətlər və əlverişli coğrafi mövqe vardı. Bütün bunlar birlikdə müsbət faktorların elə bir kompleksini təşkil edirdi ki, "Bakıya elə ilk baxışdan siz gələcəyin şəhərini görürsünüz. Bu, ola bilsin, ölkənin əlverişli vəziyyəti üçün bu qədər xoş şəraitin bir arada olduğu yeganə şəhərdir. Və bu dəfinələrin arasında Bakı, xüsusilə də əgər Xəzər dənizini Qara dənizlə birləşdirən dəmiryolun salınması haqda fikirlərin həyata keçdiyi təqdirdə, sadə bir qəza şəhərindən parlaq gələcəyi olan bir şəhərə çevrilir", - deyə qafqazlı jurnalist İ.Yevlaxov yazırdı [123].

Lakin bayır-şəhərin inkişafı hələ ki, kortəbii olaraq davam edirdi, çünki başlıca və nizamlayıcı sənəd rolunu oynaya biləcək ümumi baş plan yox idi. İndi şəhərin əsas ərazisinə çevrilən bayı-şəhərə gəldikdə isə, planın yoxluğuna baxmayaraq, onun tikilişində yeni müsbət cizgilər aydın bir şəkildə görünməyə başlayır. "Hələ 1859-cu ildə bayır-şəhərin planlaşdırması üzrə düşünülmüş işlər yalnız 14 fevral 1864-cü il tarixdə Qafqaz ordusunun komandanı tərəfindən təsdiqlənən örüş yerlərinin mərzləmə planı tərtibləndikdən sonra" [56, s.6] həyata keçirilmişdi.

**1864-cü il planı.** Bu plana müvafiq olaraq, qalanın və bayır-şəhərin ərazisi 182 hektar təşkil edirdi, bunun 21,5 hektarını qala tuturdu. Qalan sahə bu şəkildə paylanmışdı: 19,5 hektar qalanı yarı yelpik şəklində əhatə edən və esplanad ərazilərinə bölünən "yeni məhəllələrin" payına düşür; 89,3 hektar bayır-şəhərin mövcud məhəllələrini - şəhərin əsas özəyini təşkil edir və 36,5 hektar məhəllələrin şimal və şərq tərəfdən sonrakı genişlənməsi üçün ayrılmışdı. Qalan 15,5 hektarı - qala ətrafında və dəniz sahilindəki xəndəklər, qanovlar və sərbəst sahələr tuturdu.

Qalanın və bayır-şəhərin ümumi ərazisinin cəmi 63,37 hektar təşkil etdiyi və bunun 45,89 hektarının bayır-şəhərin payına düşdüyü 1843-cü il planı ilə müqayisədə, indi şəhər ərazisi əhəmiyyətli dərəcədə böyümüşdü. Bu, layihələşdirilmiş məhəllələrin həllində də gözə çarpır. Mərkəzi hissələrdə bu məhəllələr çox kiçik ərazini tutsa da (21,34x25,60; 25.60x32.00; 32.00x37.34 m), şərq hissəsində - Qubernskaya (Nizami) və Kamenistaya küçələri arasındakı hüdudda - məhəllələr qərbdən şərqə doğru uzunsov şəkil almışdı. Bu məhəllələrin uzunluğu 100 metr və eni 30 metr təşkil edirdi.

Yeni məhəllələr uzunluqlarına görə mövcud olanlardan böyük idi, ancaq onların eni, küçələrin istiqamət və profilini mexaniki şəkildə davam etdirərək, köhnə məhəllələrdə olduğu kimi idi. "Şəhərin yeni hissəsi şərqdən Krasnovodskaya (S.Vurğun) və Kaspiyskaya (Leytenant Şmidt) küçələri arasında və şimaldan Nijne-Priyutskaya (Kamo) və Kanni-tapinskaya (Sverdlov) küçələri arasında olan torpaqları əhatə edir" [144, s.22]. Yeni şərq hissəsinin məhəllələri sahil xəttinə doğru inkişaf etmirdi. Bunun təbii səbəbi vardı - şərq hissəsinin sahilboyu zolağı bataqlaşmışdı ki, bu da oranın məskunlaşma baxımından mənimsənilməsinə imkan vermidi.

Burada yaşayış tikilişlərinin yerləşdirilməsi üçün müvafiq zəmin yox idi: ora şəhərin mərkəzi hissəsindən aralı idi, bahalı abadlaşdırma tələb olunurdu və s. Bu ərazi sənaye zonasının cazibəsində idi. XIX əsrin sonlarına doğru neft sənayesinin sürətli inkişafı baş verdikdə buraların başlıca olaraq anbar ərazisi və çoxsaylı liman körpüləri və baraklar qismində mənimsənilməsi üçün zəmin yarandı.

1864-cü ilin "qurama" planı şəhərsalmanın əsas problemlərini həll etmirdi; o yalnız mövcud planlaşdırmanı təsbit eir və bununla da şəhər tikilişinin ilkin qəbul edilmiş nizamlı sistem üzrə gələcək inkişafının xarakterini əvvəlcədən müəyyən edirdi. "Bayır-şəhərin bu ilk, öz praktik əhəmiyyətinə görə uğursuz planı", B.Butnik-Siverskinin fikrincə [60, s.6], şəhərsalmanın böyük miqyaslı əsas vəzifələrini hələ həll etmirdi, lakin aşağıdakı mülahizələrə görə planın bu şəkildə mənfi qiymətləndirilməsi ilə tam razılaşmaq olmaz.

Mövcud tikiliş və küçələrin planlaşdırma şəbəkəsi planı tərtib edənlərin yaradıcı təşəbbüsünü xeyli dərəcədə buxovlayırdı, lakin bununla belə, hər halda, hələlik yaxınlaşma işarətində olsa da, sonralar memarlıq-məkan qovşaq-



*Memar Qasım bəy Hacıbababəyov (1811-1874).*

ları qismində şəhər orqanizminə daxil olan bəzi kompozisiya elementlərinin də qoşulması ilə esplanadın planlaşdırılması işlənib hazırlanmışdı. Bu - Şamaxı qapılarının qarşısında yerləşən - Kolyubakinskaya (K.Marks) və ya "Parapet" meydanı və gələcək Molokan (9 Yanvar) bağının yerindəki boş sahə idi. Bundan başqa, mövqeyi qala divarlarının konturları ilə uzlaşdırılmaqla, qala ətrafındakı məhəllələr tənzimlənmişdi; küçələr sanki bir istinad elementi kimi istehkamlara bağlanırdı. Bayır-şəhər artıq şəhərətrafı olmaqdan çıxmışdı; indi şəhərin bu hissələri plan üzrə bir bütöv təşkil edirdi. Beləliklə, 1864-cü ilin baş planı ilk dəfə mərkəzi rayonun və onun şəhərsalma elementlərinin doğuluşunu təsbit edirdi. Planın başlıca müddəaları onilliklər ərzində bir elə dəyişikliyə uğramadan inkişaf etdirilməkdə idi.

Esplanad rayonunun planlaşdırma işi bayır-şəhərin quruluşuna bir növ yekun vururdu. Bayır-şəhərin qala yanında nəzərdə tutulan yarımdairəvi magistral sayəsində yarımçıq qalmış küçələri tamamlanır və bu magistrala birbaşa çıxış əldə edirdilər. Esplanadın qala ərazisi və şəhərin ümumi planlaşdırılmasında rolu getdikcə yüksələn sahillə əlaqəsi onun vasitəsilə həyata keçirilirdi. Buna görə də 1864-cü ilin Baş planını qeyri-praktik və məqsədyönlü olmayan bir plan kimi qiymətləndirmək olmazdı.

Bakının bu tikilmə dövrü Azərbaycanın görkəmli memarlarından biri - bayır-şəhərin fəal təşəkkül dövründə şəhər mərkəzinin formalaşmasında böyük rol oynamış olan Qasım bəy Hacıbababəyovun (1811-1974) yaradıcılıq fəaliyyəti ilə üst-üstə düşür [274]. Bu dönəmdə bayır-şəhərin planlaşdırmasının yaxşılaşdığı gözdən qaçmır: məhəllələr daha səlis konturlar alır, tikilişlərin isə aydın memarlıq traktovkası var. Təkcə sahilyanı zolaq hələ şəhər hakimiyyətinin orbitində deyildi.

1862-ci ildə bütün sahil zolağı boyunca anbar qurmalarının tikinti layihəsi tərtib edilmişdi. Şəhərin sürətli inkişafı sahil zolağının tikinti-abadlıq işlərinin inkişafını və onun ictimaiyyətin istifadəsinə verilməsini stimullaşdırırdı. "Dənizkənarı küçə bu... şəhəri dəniz sahilindən ayıran və öz faydasızlığı ilə havanın sərbəst hərəkətinə mane olan köhnəlmiş və lüzumsuz qala divarlarını əvəz edirdi" [329, s.170].

Memar Qasım bəy xeyli mühəndis və planlaşdırma işləri, o cümlədən, müasirlərin sözlərinə görə, şəhərə yaraşıq verən qurmaların sırasında yer tutmuş dəniz kənarının tikintisini icra etmişdi. 1867-ci ildə dəniz kənarına su kəməri çəkilmiş, fəvvarələrr və digər qurğular inşa edilmişdi.

Qasım bəy bayır-şəhərin Parapet adlanan və şəhərin planlaşdırılmasının təşkil-





edici vəsilələrindən biri olan mərkəzi meydanının tikintisini həyata keçirmişdi. Onun tərəfindən 1868-ci ildə layihələşdirilən böyük karvansara (indiki "Araz" kinoteatrı) iri tikililərdən idi. Karvansaranın layihəsi qrafik baxımdan Məşədi Mirzə Qafar İsmayılov - sonralar görkəmli memar olaraq parlamış şəxs tərəfindən çəkilmişdi. İsmayılov 30 il ərzində əsasən Bakıda yaşayış evləri və mülki qurmnaların layihələşdirilməsi və tikintisi ilə məşğul olmuş və özündən sonra böyük sayda məzmunlu memarlıq irsi qoymuşdur [273].

1864-cü ilin Baş planı uzun müddət bir elə dəyişiklik edilmədən saxlanmış, baxmayaraq ki, 1868-ci və 1869-cu illərdə Bakının yeni layihəsinin tərtib edilməsinə doğru addımlar atılmışdı. Fəqət bu addımlar lokal xarakter daşıyırdı və şəhərin ümumi inkişaf məsələlərini həll etmirdi. 1864-cü ildə təsdiqlənmiş sərhədlərin hüdudundan kənarda tikilişində onun səlisliyi itirdi. Bu, müxtəlif formalı məhəllələrin yerləşdiyi, küçələrin isə təsadüfi istiqamətlər aldığı bayır-şəhərin qərb hissəsində özünü xüsusilə aydın şəkildə göstərirdi.

Şəhər sakinlərinin şəhərətrafı bağları şərq ucqarından, təxminən Krasnovodskaya küçəsinin sərhədindən başlanır və Balaxanı yolu (şimalda) ilə su basmış torpaqlar (cənubda) arasındakı geniş zolaq şəklində şəhərin bir neçə ildən sonra Qara şəhər adlanacaq sənaye zonası ərazisinədək uzanırdı. Əgər o illər qalanın bayır-şəhərlə birlikdə sahəsi 109,25 hektar təşkil edirdisə, Qara şəhər rayonuna qədər hüduddakı bağ-bağatlar (şəhər örüş yerlərinin müxtəlif hissələrinə səpələnmiş digər sahələri nəzərə almasaq) 46 hektar təşkil edirdi.

1862-ci ildə şəhərin örüş yerlərindəki bostan və bağ torpaqlarının ərazisi 166,5 hektar təşkil edirdi ki, bu da qala və bayır-şəhərin ümumi sahəsindən çox idi. Lakin bu rəqəm şəhər ərazisinin ildən-ilə böyüməsi ilə azalır və bağlar yoxa çıxırdı. Bağ sahələrinin yerində karvansaralar, dükanlar, yaşayış evləri və o zamanlar "naftil zavodları" adlandırılan kustar neft müəssisələri inşa edilirdi. Bu müəssisələr XIX əsrin 60-cı illərindən meydana gəlməyə başlamışdı. Onlar yaşayış məhəllələri sahələrində nizamsız şəkildə yerləşir və inşa edilirdi.

Sənaye müəssisələri Balaxanı yolu boyunca yerləşirdi, ona görə ki xammal bazası Balaxanı kəndində idi. Müəssisələrin yol marşrutlarına münasibətdə əlverişli bir şəkildə yerləşməsi şəhər üçün xeyli üstünlüklər yaradırdı, lakin onlardan çıxan his, tüstü və çirkabla bağlı olaraq tezliklə mənfi nəticələr doğurdu.

**Qara şəhər.** Zavodların üzə çıxması Bakının sənaye həyatının gələcəkdə canlanacağının müjdəçisi idi.

Onun əsl inkişafı 17 fevral 1872-ci il tarixində neft sənayesində otkup (icarə) sisteminin ləğv edilməsi haqqında qanunun verilməsindən sonra başladı [355, s.202]. Bakı üçün bu böyük əhəmiyyət daşıyan bir hadisə idi, yalnız Azərbaycanın deyil, həm də bütün Rusiyanın neft sənayesi üçün gerçəkdən mütərəqqi bir hal idi. Bu hadisə Bakının şəhərsalma prosesinə də öz həlledici təsirini göstərmişdi.

1870-ci illərin əvvəlində çoxsaylı neftayırma zavodları sistemsiz bir şəkildə şəhər torpaqlarının böyük hissələrini tuturdu. Neft sənayesinin intensiv inkişafı əsas etibarilə ərazinin şərq istiqamətində, üç paralel yol (sonradan Balaxanskaya, Suraxanskaya və Telefonnaya küçələri) boyunca mənimsənilməsinə rəvac vermişdi. Bayır-şəhərlə belə bir qonşuluq nə onun böyüməsinə, nə də əlverişli həyat şəraitinə imkan verirdi: zavod tikililəri artıq böyük ərazilər tutur və mütəşəkkil olsa da, əsaslı tikilişləri, fasiləsiz ola-



*Bakının dəniz kənarı. 1864-cü ilin fotoşəkli.*

raq his və tüstü buraxan zavod boruları ilə bötövlükdə əhali üçün narahat bir ərazidən ibarət idi [248, s.41].

Əhalinin narazılığı və onun ictimai həyatındakı oyanış quberniya hakimiyyətini məckun ərazinin yanında şəhərin normal böyüməsi üçün böyük maneələr törədə biləcək zavod rayonunun da inkişaf etməsi probleminə ciddi yanaşmağa məcbur etmişdi. Quberniya administrasiyası fotogen (neft) zavodlarının şəhərin örüş torpaqlarına köçürülməsi haqqında qərar vermiş və bu qətiyyətli addımın dəstəklənməsinə vəsatət xahişi ilə Qafqaz namestnikinə müraciət etmişdi. Qafqaz namestniki qarşısında qaldırılan məsələ o dərəcədə mühüm idi ki, çox tezliklə, üç yol rayonunda artıq çoxlu sayd fotogen zavodlarin olduğuna baxmayaraq, "147 fotogen zavodun onların şəhər məhəllələri yaxınlığında yerləşməsi səbəbincə sökülməsi barədə keçmiş Qafqaz namestnikinin əmri çıxmaşdı". Bu aktla faktik olaraq şəhər daxilindəki böyük bir zavod rayonu ləğv edilirdi, baxmayaraq ki, neft sənayeçiləri onlara çox böyük kapital qoymuşdular.

Mülkiyyətçilərin hüquqlarının belə bir miqyasda şəhərin və ictimai maraqların xeyrinə pozulması – kapitalist Bakısı tarixində müstəsna fakt idi. Zavod rayonunun şəhər örüşlərinin şərq sərhədlərində yerləşdirilməsi üçün 1876-cı ildə planlaşdırma layihəsi tərtib edilmişdi. Şəhər hüdudlarında ləğv edilən fotogen zavodların əvəzinə yeniləri burada tikilmişdi. Qara şəhər hüdudlarından kənarda fotogen zavodlarının tikilməsi "şəhərdə sanitariya vəziyyətinin yaxşılaşdırılması məqsədilə" qadağan edilirdi. Beləliklə, qismən Keşlə kəndinin otlaqlarında və yerli sakinlərin bağ-bostan sahələrinin yerləşdiyi şəhər örüş torpaqlarında öz adını qaralmış zavod binalarından alan Qara-şəhər yarandı.

Bayır-şəhərin yaşayış məntəqələrindən xeyli aralıda (2 km-dən çox) sənaye zonasının əsası bu şəkildə qoyulmuşdu. Şəhərsalma praktikası tarixində ilk dəfə olaraq (həm də yalnız Rusiyada deyil) sənaye rayonu üçün tikilişlərin nizamlanma prinsipinə əsaslanan planlaşdırma layihəsi işlənib hazırlanmışdı. Bu layihəyə əsasən Qara-şəhər məhəllələrlin düzbucaqlı şəbəkəsinə malik oldu. Geniş və düz magistrallar sənaye rayonunun iri məhəllələrini birləşdirirdi. Magistrallardan biri çoxsaylı liman körpüləri ilə birbaşa bağlanan şəhər meydanı ilə tamamlanırdı.

Kiçik məhəllələr və dar küçələr şəbəkəsinin üstünlük təşkil etdiyi Bayır-şəhərin planlaşdırması ilə müqayisədə Qara şəhərdə yeni epoxa üçün səciyyəvi olan iri planlaşdırma miqyası və sənaye zonasının yaşayış yerlərindən uzaqlaşdırmanın önəmi aydın bir şəkildə müəyyən olunmuşdu.

Qara şəhər ərazisi layihə sərhədləri hüdudunda demək olar tikilib qurtardıqdan sonra zavod sahibləri istismar etmək üçün yeni, daha münasib torpaqlar axtarmağa başladılar. Zavodların xarakterləri, hətta Qara şəhərin iri məhəllələri sənaye istehsalının yeni tələblərinə cavab vermirdi. Kapitalistlərə torpaq vahidləri kimi ayrı-ayrı məhəllələr yox, dəmir yolunun keçə biləcəyi geniş məkanlar gərək idi.

Qara şəhərin təbii davamı olan Ağ şəhərdə Bakının sənaye-zavod rayonunun planlaşdırma tendensiyaları əksini tapmışdı. Qara şəhər planının düzbucalı şəbəkəsi XIX-XX əsrlərin qovşağında Ağ şəhər istiqamətində inkişaf edən sənaye ərazilərinin böyüməsi ilə bağlı öz yerini daha az nizamlı plana verirdi. İndi hər şey sənayeçilərin maraqlarına və zavod tikintisinin texniki tələblərinə tabe edilirdi; Ağ şəhər ərazisinin mənimsənilməsi zamanı bünövrəsi qoyulmuş vahid və mütəşəkkil planlaşdırma nəzərə alınmamışdı.

Yalnız ayrı-ayrı zavodların əraziləri onlara bitişik sahələrlə birlikdə az və ya çox dərəcədə mütəşəkkil tərzdə həllini tapır və onların abadlaşdırılmasına müəyyən diqqət yetirilirdi. XX əsrin əvvəllərində Bakıda artıq böyük bir sənaye rayonu mövcud idi. Sənayeçilər və torpaq sahibləri şəhər administrasiyasından daha operativ və daha təşəbbüskar idilər və ona görə də onlar zavod rayonunun yeni planlaşdırma sisteminin bayır-şəhərin kiçik məhəlləri və dar küçələri qarşısındakı üstünlüyünü tez bir zamanda qiymətləndirmişdilər.

Nə qədər paradoksal olsa da, yaşayış məhəlləri zonasında yerləşən zavod rayonunun (147 zavod) tamamilə ləğv edilməsindən sonra şəhər təsdiq olunmuş baş plan əldə edə bilmədi, baxmayaraq ki, Bakının quberniya mərkəzinə çevrildiyi vaxtdan (1859-cu il) kifayət qədər zaman (20 il) keçmişdi və yalnız 1878-ci ildə şəhərin ümumi baş planı tərtib edilməyə başlanmışdı.

**1878-ci il planı.** "Quberniya şəhəri Bakının yerləşməsinin" 1878-ci ildə yerölçənlər tərəfindən çəkilən faktik olaraq yerləşmə planı mürəkkəb planlaşdırma situasiyasını qeydə almışdı. Bakı buxtası sahilindəki böyük bir sahə bir-birindən asılı olmayan üç inzibati-ərazi hissəsindən qurulmuşdu: aqlomerasiyaların mərkəzində - Bakı, cənubda - admirallıqla birlikdə

*Qara şəhərin planı. 1899-cu il.*



Bayıl və şərqdə - sənaye-zavod zonası (Qara şəhər) yerləşirdi. "Aqlomerasiyalar sanki şəhərin davamçılarıdır və müasir sənayeləşdirmənin xüsusi məhsulu qismində yaranırlar. Hər belə bir aqlomerasiyada, öz yolunda xırda məskənləri udaraq fasiləsiz surətdə genişlənən əsas şəhər üstünlük təşkil edir", deyə Piter Self "Şəhərlər öz sərhədlərindən kənara çıxır" kitabında yazır.

Sıx tikilişləri və şimal-qərb istiqamətində sahilboyu böyümə tendensiyası ilə Bayılın planlaşdırma strukturu artıq müəyyənləşmişdi. Qısa bir müddət ərzində Qara şəhər layihələşdirilən sahənin üçdə birinə yaxınını tutmuşdu. Ərazinin fərqli xarakterinə və təyinatına görə cinahlarda yerləşən Qara şəhər və Bayıl ümumi şəhər torpaqları hüdudlarından kənarda yerləşirdi və Bakının planlaşdırma strukturuna daxil edilməmişdilər, baxmayaraq ki, prinsip etibarilə bu müstəqil hissələr artıq bir-birinə doğru səmt götürməkdə idi. İnkişaf etməkdə olan neft sənayesi bu müxtəlif cinsli hissələrin birləşməsinə, əhalinin çoxalmasına və şəhər büdcəsinin böyüməsinə rəvac verirdi. Əgər 1864-cü il planına görə Bakının ərazisi kompakt, ancaq çox da böyük olmayan sahədən (cəmi 89,3 hektar) ibarət idisə, artıq 1878-ci ildə şəhər bütün istiqamətlərdə, xüsusilə də şimal istiqamətində Şamaxinka rayonunun yaranmaqda olduğu «Şamaxıya gedən böyük poçt yolu boyunca» və Dağüstü rayonun hüdudlarına yayılaraq, Qərb yaylasının yamaclarına doğru qərb istiqamətində genişlənirdi.

Şimal istiqamətində tikilişlər 1864-cü ilin baş planı ilə nəzərdə tutulan məhəllələrin sərhədlərindən yarım kilometrdən çox irəli addımlamışdı. Şəhər torpaqlarının şərq hissəsində dəmiryol xəttinin və vağzalın yaranmasına qədər (1883-cü il) «Şamaxıya gedən böyük poçt yolu» şəhərin Rusiyanın digər bölgələri ilə əlaqəsində mühüm önəm daşıyırdı. Məhz buna görə də Şamaxinka rayonu tikilişlər üçün xüsusilə dəyərli hesab edilirdi; burada yol boyunca memarlıq baxımından elə bir maraq kəsb etməyən və yalnız utilitar təyinata cavab verən karvansaralar yerləşirdi.

Şərqdə böyük sənaye rayonu - Qara şəhərin yaranmasına baxmayaraq, Bakı şərq istiqamətində zəif (1878-ci il planından çıxış etsək) inkişaf edirdi. Ora heç cür 1864-cü ildə layihələşdirilmiş məhəllələrin hüdudlarından kənara çıxmamışdı.

Lakin şəhərin və sənaye rayonunun sərhədləri arasındakı ərazi tikilişlərdən azad deyildi, bununla belə hələ də



*Bakının planı. 1878-ci il.*

tənzimlənməmişdi. Burada hələ də zavodların qalıqları vardı (Telefonnaya küçəsi və vağzal rayonunda Məsumovun zavodu, Suraxanskaya küçəsində yerləşən Venzer və Krasilnikovun zavodları və s.). Bu ona görə baş vermişdi ki, zavodlar ləğv edildikdən və sənaye zonası Qara şəhərə köçürüldükdən sonra bəzi sahibkarlar öz binalarını emalatxana və yaşayış evi kimi yenidən quraraq, qoruyub saxlayırdılar.

Petrovskaya meydanından Qara şəhərə qədər eni 300 metrdən çox olan sahil zolağı bataqlıq yerlərdən ibarət idi. Onun uğurla mənumsənilməsinə yalnız bir neçə ildən sonra, dəmiryol stansiyasının və yanaşma yollarının meydana gəlməsi ilə başlandı.

Qaladan cənub-şərqə doğru məhəllələrin bir hissəsi qəti olaraq formalaşdı və sahilə lap yaxınlaşdı. Şəhər hüdudlarıı daxilində sahil zolağı da tənzimləndi; Merkuryevskaya (Şaumyan) küçəsi və dənizkənarı küçə arasındakı məhəllələr sırası kimi o da dəqiq cizgilər aldı. İşlər hələ 1868-ci ildə şəhərin bu hissəsinin abadlaşdırılması ilə məşğul olan memar Qasım bəy Hacıbababəyov tərəfindən aparılmışdı.

Olqinskaya (Caparidze) və Milyutinskaya (Myasnikov) küçələri arasında yaradılan məşhur "Qafqaz və Merkuri" gəmiçilik şirkətinin (1866-cı il) doku Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına qədərki uzun illər boyunca öz qurğuları ilə sahil küçəsi və bulvarın şərq istiqamətində inkişafı ləngidirdi. Sahil zolağını genişləndirmək üçün şəhər öz məxsusi torpaqlarını geri almağa çalışırdı, fəqət şirkət daha güclü çıxdı.

Nikolayevskaya və Sadovaya küçələri səmti 1878-ci il planına görə zəif inkişaf etmişdi, onun əsaslı tikilişləri çox az idi, Çəmbərəkənd kəndi ilə şəhərin cənub-qərb hissəsi arasında boşluq hələ qalırdı. Gələcək Sadovaya (Çkalov) küçəsi rayonunda neft məhsullarının dəniz yolu ilə daşınması üçün taralar hazırlanması ilə məşğul olan müəssisə yerləşirdi.

Sadovaya küçəsi rayonu çəllək müəssisəsinin ləğvi və sənaye rayonuna yaxın yerlərə köçürülməsi sayəsində burjuaziya tərəfindən "təmiz" məhəllələrin yaradılması üçün istifadə edilməyə başladı. Dağüstü hissədə şəhər sərhədlərindən kənara çıxan məhəllələr aullar sayaq tikilirdi. Bu kimi nizamsızlıq Şamaxinka, Kərpicxana və Qanlıtəpə səmtlərdə də müşahidə olunurdu.

1878-ci ilin planında sonralar ictimai bağlara və küçə bağçalarına çevrilən və mərkəzi rayonun planlaşdırma strukturunda mühüm yer tutan yaşıllıqlar da qeyd edilmişdir. Onların təsiri mərkəzi rayonun sərhədlərindən kənara: Qubernator və Mariinsk bağlarına, Sisianov bağçasına da yayılmışdı.

1878-ci il planı şəhərin genişlənmənin şimal və şərq istiqamətində iki sıra məhəllələrlə məhdudlaşdığı 1864-cü il planı ilə müqayisədə nə qədər böyümüş olduğunu görməyə imkan verir. Halbuki qala, Bayıl və Qara şəhər hesaba alınmasa, Bakıda tikilmiş məhəllələrin sayı 120-yə çatmışdı. Elə həmin dövrdə Bayılda 20, Qara şəhərdə isə 30 məhəllə yaranmışdı.





Şəhərin dənizkənarı sahil zolağı ən uc nöqtələr arasında - qərbdən şərqədək demək olar 2 km uzunluğunda idi. O, gözəl bir dənizkənarı bulvara çevrilə və şəhərə möhtəşəm yaraşıq verə bilərdi. Şəhər ərazisi 1878-ci ilə doğru qərbdən şərqə köndələninə 1,5 km, cənubdan şimala doğru isə 2 km təşkil edirdi (ümumi sahə 250 hektar). Əgər 1864-cü ildə bayır-şəhərin tikilmiş sahəsi 89,3 hektar təşkil edirdisə, artıq 1878-ci ildə Qara şəhər və Bayıl hesaba alınmasa, şəhər ərazisi 250 hektara çatmışdı. Şəhərin inkişafı neft sənayesinin hələ kustar xarakter daşıdığı bir zamanda baş verirdi. Çox az bir müddət ərzində (15 ilə yaxın) tikilişlər demək olar 3 dəfə - o zamanın Rusiya şəhərləri üçün xarakterik olmayan bir sürətlə artmışdı. Bakının sürətlə böyüməsinə digər faktorlar: Bakı limanının getdikcə artan əhəmiyyəti, şəhərin quberniya mərkəzinə çevrilməsi və qalanın hərbi məntəqə olaraq ləğvi də öz təsirini göstərirdi.

Məhz həmin dönəmdə Bakının çox mühüm şəhərsalma özəllikləri: onun indi də qorunub saxlanan spesifik rayonlaşması, inzibati-ictimai mərkəzinin, eləcə də şəhərin yan hissələrinin (cənubda - Bayıl, şərqdə - Qara şəhər) formalaşması müəyyənləşmişdi. Elə bu vaxtlar "Böyük Bakı" ideyasının təməli qoyulmuşdu.

Sonradan şəhər əsasən şərq və şimal-şərq istiqamətində intensiv şəkildə böyüməyə başladı, burada şəhər məhəllələri zavod rayonuna lap yaxınlaşaraq, məskun yerlər və sənaye zonası arasında Bakı şəhərinin planlarında nəzərdə tutulan boş aralıq məsafəni qəti şəkildə aradan qaldırmışdı.

XIX-XX əsrlərin qovşağında şəhər iri addımlarla inkişaf edirdi. Şəhərin sənayesi, nəticə etibarilə ərazisi də Rusiya imperiyasının əkcər iri şəhərləri ilə müqayisədə daha sanballı idi. "Bakının

amerikan xarakterli şəhər olması qəbul edilib, yəni onun inkişaf intensivliyi Amerikanın iri şəhərlərinin böyüməsu kimi başgicəlləndirici sürətlə gedir" [254, s.9-18] və bununla razılaşmamaq mümkün deyildi.

Şəhərin mövcud formalaşmış hissələrini, iqlim və topoqrafik özəllikləri nəzərə almaqla, o çağın şəhərsalma tələblərinə müvafiq olaraq layihələşdirilən yeni məskun rayonların inkişafının tənzimlənməsinin mümkün olması üçün şəhərin ümumi baş planının tərtib zərurəti get-gedə daha kəskinliklə duyulurdu. Bakının memarlıq-planlaşdırma strukturunun təşkilində yeni faza 1878-ci ildə başladı.

İri qazanc imkanları sənaye və tikintinin müxtəlif sahələrinin mütəxəssislərini buraya cəlb edirdi. Şəhərin ərazisi genişlənir, yeni rayonlar yaranır, bununla yanaşı mərkəz və ucqarlar arasında ziddiyyətlər də kəskinləşirdi. İş abadlaşdırma məsələlərinə gələndə şəhər duması üstünlüyü mərkəzi məhəllələrə verir, ətraf rayonları lazımi diqqətdən kənarda qoyurdu.

Şəhərin şimal-şərq hissəsində, məskun və sənaye zonaları arasında mövcud olan yaşıl massivin yerində 1880-ci illərin əvvəllərində dəmiryol vağzalının binası tikilməyə başlanmışdı. Bu rayonda dəmiryol qurmaları və yollar kompleksi üçün ərazi seçimi yalnız nisbətən dinc relyeflə deyil, həm də şəhərlə bağlantılı olan – Abşeron yollarının kəsişmə qovşağı ilə öncədən müəyyənləşmişdi. Bu da nəzərə alınırdı ki, Bakının iqtisadiyyatına güclü təsir göstərən və inkişaf etməkdə olan perspektivli sənaye-zavod rayonu inkişaf etməkdə idi. Kənar sərhədləri qərbdə yaşayış məhəllələri, şərqdə isə - Qara şəhər olan çox böyük bir şəhərin həndəsi mərkəzində dəmiryol qovşağının peyda olması fərqli xarakterli zonaların vahid səhərsalma sistemində birləşməsini sürətləndirmişdi.

Bakı dəmiryol qovşağı Balaxanı şossesi boyunca, və şəhər hüdudlarından keçib gedən dəmiryola paralel olaraq inkişaf etməyə başlayan Zavağzal rayonunun həyatını canlandırmışdı. Burada dəmiryol emalatxanaları, mal anbarları, depo inşa edilmiş, dəmiryol işçiləri, xırda qulluqçular və məmurlar bu səmtdə ev-eşik olmuşdular.

Zavağzal rayonunun qənşərindəki pərakəndə ticarət, kustar və sənətkarlıq sıralarının yerləşdiyi Qanlı-təpə rayonu Balaxanskaya (Basin) küçəsinin cazibəsində idi. Vağzal və dəmiryol stansiyasının təsir sferasında olan bu rayon şimal istiqamətində, şəhərin şərq və şimal-şərq hissələrində mövcud və bu yaxınlarda yaranmış küçələrin xətti ilə sürətlə inkişaf edirdi.

Bakı öz təsirini müstəqil Admirallıq dəniz koloniyasına - Bayıl rayonuna da göstərirdi. Əgər lap bu yaxınlara qədər iqtisadi imkanların olmaması səbəbindən buralar zəif inkişaf edirdisə, Qara şəhərin əmələ gəlməsi və Bibi-Heybət rayonunda neft yataqlarının kəşf edilməsi Bayılın Bakıya sarı genişlənməsini stimullaşdırdı.

Şəhərdən dəniz sahili boyunca Bayıl burnundan keçərək müsəlman ziyarətgah-məscidinin yerləşdiyi Şıx kəndinə aparan yeganə yol lap əvvəllərdən zəvvarların getdikləri yol idi.

Dəniz koloniyasının özünə qapanmış və iqtisadi baxımdan şəhərin ticarət-sənaye həyatında iştirak etməyən ilk yaşayış məhəlləri bu yol boyunca tədricən üzə çıxmışdı. Zəvvarların istifadə etdiyi by yoldan hətta Bayıl burnunun tikilişində fəal nəqliyyat magistralı kimi istifadə edilə bilməmişdi.

Bibi-Heybət neft mədənlərinin 1870-1880-ci illərdə başlayan sürətli istismarı indiyə qədər heç kəsin diqqətini cəlb etməyən bu yolun əhəmiyyətini gözlənilmədən yüksəyə qaldırdı: bu yol mədənlərdən hasil olunan neftin Qara şəhərdəki zavod ərazisinə çatdırılmasında mühüm nəqliyyat arteriyasına çevrilməyə başladı. Geriyə - mədənlərə isə tikinti materialları və mədən avadanlığı daşınırdı.





Yolun ikitərəfli istismarı onun hər iki ətrafındakı tikililərin xarakterində dəyişikliyə səbəb oldu. Tezliklə yolun dəniz koloniyasının yanından keçən hissəsində mədənlərlə bağlı olan fəhlələr və xırda qulluqçular üçün qəlyanaltılar, çayxanalar və dükanlar görünməyə başladı. Bayıl bu ticarətdən gəlir əldə etməyə və eyni zamanda kapitalist münasibətlər məcrasına cəlb olunmağa başladı.

XIX yüzilin sonlarına doğru bitişik rayonlar, qəsəbələr və qarşıdakı tikilişlər üçün ehtiyatda saxlanılan örüş torpaqları ilə birlikdə Bakının ümumi planlaşdırma konturları müəyyənləşmişdi. Mərkəzi məhəllələrin hədsiz dərəcədə sıxlığı və intensivliklə məskunlaşdığı üzə çıxmışdı. Onların ərazisi demək olar başdan-başa tikilmiş və boş torpaq ehtiyatları tamamilə tükənmişdi. Yerli kapitalistlər neft sənayesi ilə bağlı müəssisələri daha gəlirli hesab edərək, ev tikintisi ilə o qədər də həvəslə məşğul olmasalar da, hər halda mərkəzi məhəllələrdə də torpaq sahələri möhtəkirliyi başlamışdı.

**1898-ci il planı.** Bayıl burnundan Ağ şəhərə qədər uzanan şəhərin yüksək tikinti tempi və ərazicə böyüməsi və şəhər təsərrüfatının get-gedə artan həcmi, xarakteri etibarilə bir qiymətdə olmayan tikilişlərin tənzimlənməsi ilə bağlı məsələlərin böyük çevrəsi əlavə məhəllələrin hissə-hissə planlanmasından "Bakı şəhərinin dolğun, müasir tələb və təklifləri təmin edən baş planının..." tərtib edilməsinə keçməyi təkidlə tələb edirdi.

Ayrı-ayrı rayonların pərakəndə planlaşdırmasını bir bütövdə əlaqələndirən



Mühəndis N.A.fon der Nonne (1832-1908).

və şəhərin perspektiv tikilişinin hansı bir dərəcədəsə tənzimləyən planın təxirə salınmadan yaradılmasına zərurət yetişmişdi. Bakının baş planının işlənmə tarixində 10 ildən çox davam edən növbəti mərhələ başlanmışdı. Bu müddət ərzində onun planlaşdırma strukturu, özəlliklə də şimal, şimal-qərb və qərb hissələrində, yəni keçmişdə şəhər sərhədlərindən kənarda olan, aul tipli nizamsız planlaşdırmanı qoruyub saxlamaqla mexaniki şəkildə şəhər sərhədlərinin daxilinə keçən Dağüstü yayla rayonunda daha da mürəkkəbləşmişdi.

Şəhərin şimal ucqarlarında əhalinin kasıb təbəqəsi üçün xeyriyyə qəsəbələrinin yaradılması haqqında Dumanın 1897-ci ildə qəbul etdiyi qərar şəhərin planlaşdırma strukturunun inkişafında müsbət hadisə idi. Belə bir qəsəbənin salınması üçün 109.25 hektar sahə ayrılmışdı. Əraziyə 450-dən 900 kv.m-ə (sahələrin ümumi sayı 1037 idi) qədər üç növ sahə daxil idi. Hər ailəni orta hesabla beş fərddən ibarət götürsək, qəsəbə əhalisi 5000 sakindən çox, yəni müasir mikro-

rayon əhalisinin sayı qədər ola bilərdi. Qəsəbənin ümumi sahəsinə ictimai müəssisələr - məktəblər, xəstəxanalar, kilsələr və s. üçün yerlər də daxil edilmişdi.

Şəhər hüdudlarından 2-3 km aralıda yerləşən Ermənikənd (hazırda Məmmədyarov) qəsəbəsi ən elementar abadlaşmadan belə məhrum idi. Tikinti materiallarının daşınıb gətirilməsi üçün yolların, eləcə də su kəmərinin, ticarət müəssisələrinin, ictimai binaların (hamamların, məktəblərin və s.) olmaması ilk vaxtlarda əhalini məişət çətinliklərini yaşamağa məcbur etmişdi. Lakin bununla belə artıq 1899-cu ilin birinci yarısında Ermənikənddə yaşayış evlərinin sayı 400-ə çatmışdı və onların arasında bir neçə iki- və üçmərtəbəli ev vardı.

Şəhər rayonlarında mövcud olan darısqallığın əksinə olaraq, bu qəsəbədə geniş küçələr və sərbəst tikiliş nəzərdə tutulmuşdu. Bu onun şəhərin digər hissələri ilə müqayisədə mühüm üstünlüyü idi. Qəsəbə sənaye zonasından və əhalinin sıx yerləşdiyi yaşayış məhəllələrindən aralıdakı məkanda, Bakı amfiteatrının əlverişli iqlim şəraiti olan üst terrasında yerləşirdi.

Məhz bu rayonda Sovet hakimiyyəti illərində Sovet İttifaqında ilk abad fəhlə qəsəbələrindən biri (professor A.P.İvanitskinin layihəsi əsasında yaradılmışdı) doğulub böyümüşdü. Xeyriyyə qəsəbəsinin planlaşdırılması isə şəhərin digər hissələri üçün adi həll variantları çərçivələrindən kənara çıxmırdı. Məhəllələrin yerləşməsinin üzü cənuba baxan düzbucaqlı sistemi, daim güclü küləklər əsən Bakının iqlim şərtaitində binaların ortimal istiqamətləndirməsi tamamilə məqbul idi. Qəsəbə şəhərdən təcrid olunmuş bir şəkildə planlaşdırılmamışdı; onun əsas konturları və meridional küçələrin istiqaməti mövcud şəhər küçələrinin davamı ilə uzlaşırdı.

Şəhər məhəllələri tədricən tikilərək qəsəbəyə yaxınlaşır, sonuncular da öz növbəsində şəhərə yaxınlaşırdı ki, bu da sakinlərə böyük məişət faydaları verirdi. Elementar abadlıq işləri (səkilər salınması, işıqlandırma və s.) bu qəsəbələrə də şamil oluna bilərdi.

Bakının inkişafında o çağ üçün nadir bir təzahür müşahidə edilirdi: şəhər və sonralar onun ümumi planlaşdırma strukturuna daxil olan gələcək hissələri bir növ sinxron inkişaf edir, bir-biri ilə, yəni mərkəzdən ətraf rayonlara doğru və əksinə, yaxınlaşmaya gedirdi ki, bu da şəhərin ümumi formalaşma prosesini sürətləndirirdi.

Baş planların tərtibi və layihə işlərinin görülməsi ilə o zaman daha çox şəhər idarələrinin torpaq şöbələrində çalışan yerölçənlər məşğul olurdular. Onlar iqlim özəlliklərini, məkanın xarakterini, şəhərin bu və digər hissəsinin kompozisiya imkanlarını nəzərə almadan planlaşdırmada primitiv həll variantları təklif edirdilər.

Belə bir vəziyyət təkcə Rusiya şəhərlərində deyil, eləcə də sürətli iqtisadi yüksəliş və sənaye qələbələri çağında kapitalizmin şəhərin planlaşdırma həllində əsl şəhərsalma sənətini rasionalizm və praktisizmlə əvəzlədiyi Qərbi Avropa şəhərlərində də müşahidə olunurdu. "Memarlığın vəzifələrindən və həcm-fəza kompozisiyasından ayrılan planlaşdırma işi mühəndislərin və ya hətta küçələrin salınmasını və məhəllələrin ölçü və konfiqurasiyasını mexaniki olaraq müəyyənləşdirən yerölçənlərin ixtiyarına keçmişdi" [304, s.46].

Bakı şəhər Duması 4 mart 1897-ci ildə, nəhayət, şəhər idarəsinin xüsusi olaraq yaradılan plan komissiyasının şəhərin planının polkovnik N.A.fon der Nonne tərəfindən tərtib edilməsi haqqında qərarını təsdiq etdi. N.A.fon der Nonne ilkin layihə sənədini onun plan komissiyasında müzakirəsi üçün vaxtında hazırladı. Bu da gözdən qaçmır ki, şəhərin baş planını müzakirə etməli olan bu komissiyaya şəhər idarəsi tikinti şöbəsinin mühəndisləri və memarları daxil edilməmiş, hətta şəhərin baş memarı - İ.V.Qoslavski belə dəvət edilməmişdi. İdarənin mühüm şəhərsalma məsələsinin həllinə belə bir münasibəti Bakının inkişafı üçün Baş planın əhəmiyyətinin lazımınca qiymətləndirilmədiyini təsdiq edir. Bu son dərəcə ciddi layihə sənədinə yanaşma dar idarə praktikliyi ilə müəyyənləşirdi.

Plan komissiyası 1 may 1898-ci ildə şəhərin ilkin plan layihəsi ilə tanış olmuş, müəyyən irad və qeydlərini bildirmiş, fon der Nonne tərəfindən qəbul edilən göstərişlərlə tamamlamış, sonrasında fon der Nonne şəhər idarəsinə təqdim etmiş və bu sənəd 27 oktyabr 1898-ci ildə Bakı şəhər Duması tərəfindən təsdiq edilmişdi. Ümumi planın işlənib hazırlandığı vaxtlarda (1989-cu il) Bakının mənzərəsi belə idi: qaladan şimala doğru yerləşən məhəllələr dəqiq düzbucaqlı şəbəkə şəklində inşa edilmişdi. Bu mərkəzi rayon təqribən Persidskaya və Armyanskaya küçələri arasında yerləşən ərazini əhatə edirdi.

Bayır-şəhərdə ən "köhnə", kiçik məhəllələr şəklində sıx tikilmiş mərkəzi rayon şimal-qərb - şərq istiqamətində inkişaf edən şəhər məhəlləri və rayonlarının formalaşması üçün əsas oldu. Yaşayış məhəllələri sistemində Bayır-şəhərin hər hansı bir ansamblı istisna edən mexaniki planlaşdırması öz sözünü deyirdi [117, s.26]. Ansambl elementlərinin ilk nişanələri yalnız 1864-cü ilin baş planında özünü göstərmişdi. Lakin ansambl tərzində tikilişə, kompozisiya elementlərinin yaradılmasına və Bakı relyefinin gözəl imkanlarından istifadəyə qətiyyən məhəl qoyulmurdu. O çağın memarları öz fəaliyyətlərində yerölçənlərin



Bakının planlaşdırma sxemi. Mühəndis N.A.fon der Nonne. 1898-1900-cü illər.

şəhərin planlaşdırmasına dair əvvəlki layihə təklifləri ilə məhdudlaşırdılar. Bax bu səbəbdən onlar bütün enerjilərini fərdi tikilişlərin həcm-fəza məsələlərinin həllinə yönəldirdilər. Məhz ona görə də şəhərin tikilişi, məsələn, dəniz sahilində yerləşən Odessanın planlaşdırmasının təməlindəki ilkin şərtlərə malik deyildi. Şəhər idarəsində uzaqgörənliyin olmadığı üzündən o çağda Bakıda şəhərin kompozisiya strukturunu formalaşdıran memarlıq ansamblları, prospektlər yaradılmamışdır.

Fon der Nonnenin əl-qolu yalnız özəl mülkiyyətçilərin maraqlarını diqqətə almalı olduğu müqavilələr ilə bağlanmırdı. Layihəni işləyib hazırlayarkən bütün mövcud tikilişlərlə hesablaşmalı idi, lakin bununla belə ayrı-ayrı hallarda küçələrin heç olmazsa minimum enini təmin etmək üçün bəlkə də köhnəlmiş tikililəri sökmək məqsədəuyğun olardı. Bütün bunlara baxmayaraq, o, çox işlər görmüşdü. Fon der Nonnenin bu məsələni nə dərəcədə uğurla həll etdiyi sonralar onun planı memarlar tərəfindən həyata keçirilərkən planlaşdırma və tex-

niki xarakterli mübahisələrin yarandığı vaxtlar aydın olmuşdu.

1870-ci ildən başlayaraq Bakı şəhərinin Baş planının yaradılma prosesi, təbii ki, şəhərsalma sahəsində məhdud biliklərə malik olan və şəhər ərazisini vahid planlaşdırma orqanizmi olaraq yaradıcı gözlə görə bilməyən, yalnız cxemə başlıca layihə işarətləri verməyi bacaran fon der Nonnenin işlərində öz izini buraxmaya bilməzdi.

Fon der Nonne mövcud tikilişləri şəhərin yeni qərarlaşan hissələri ilə o illərin minimal şəhərsalma tələbləri əsasında bir vahid halında bağlamağı zəruri sayırdı.

Mühəndis fon der Nonne tərəfindən 1898-ci ildə tərtib edilən "Quberniya şəhərinin ehtimali tənzimləmə və şamil edilmə göstərilməklə, mövcud və layihələşdirilən yerləşmələrin planı" [289] şəhərin planauyğun inkişaf etdirilməsi üçün yeni mərhələnin sənədi və eyni zamanda 1878-ci ildən, Bakının coşqun iqtisadi yüksəlişinin başlandığı vaxtlardan bəri onun çox nəhəng bir şəkildə böyüdüyünü xarakterizə edən layihə sənədi idi. O zamandan keçən 20 il ərzində şəhər sənayenin, iqtisadiyyatın və tikintinin inkişafı sahəsində çox böyük uğurlar qazanmışdı.

Özünün nizamsız tikilişləri ilə Dağüstü hissə və Çəmbərəkənd qərb istiqamətində qol-budaq atıb böyüməkə idi. Bu rayonlar keçmişdə şəhər hüdudlarından kənarda yerləşir və fərdi tikinti hesabına genişlənirdi: şəhər tikinti komitəsinin təsiri onlara şamil olunmurdu. Səhər ərazisinə daxil olduqdan sonra bu rayonlar uzun müddət nizamsız aul tikilişi xarakterini qoruyub saxlamaqda idi.

Paralel küçələr əsasən şəhərin kasıb əhalisinin azmərtəbəli evləri ilə tikilmiş Şamaxinka rayonunun planlaşdırma strukturunu aydın şəkildə müəyyən edirdi. Öz nizamsız planlaşdırması ilə Kərpicxana və Qanlıtəpə rayonu böyüyürdü. Artıq Zavağzal rayonu formalaşmış, şərq istiqamətində böyümə tendensiyasına malik olan Primorsk rayonunda tikilişlər genişlənmişdi. Bütün bu rayonlar intensiv tikinti işlərinin aparıldığı və ticarət həyatının cəmləşdiyi vağzal və dəmiryol ilə birbaşa və ya sıx şəkildə bağlı idi.

Demək olar tamamilə tikilişlərlə örtülmüş olan Qara şəhər özünün zavod məhəllələri ilə sahil zolağını və şəhər torpaqlarının şərq hissəsini tutaraq Ağ şəhər rayonunu əmələ gətirmişdi.

Mərkəzi rayon sıx tikilmiş dağınıq məhəllələri və iki-, üçmərtəbəli binaları ilə esplanadı tamamilə tutaraq İçəri şəhərə lap yaxınlaşmışdı. Bayıl da Bakıya doğru istiqamət almışdı. Şəhərin ticarət-sənaye fəaliyyəti sahil zolağının mənimsənilməsinə rəvac verirdi, burada çoxsaylı liman körpüləri, anbarlar və digər qurmalar göründü. Şəhər əhalisi demək olar dənizdən ayrı salınmışdı. Bayıl tərsanələrindən başlayaraq Aş şəhərin sərhədlərinə qədər sahil zolağında 45 liman körpüsü yerləşmişdi. Onların arasında "Qafqaz və Merkuri", "Lebed", "Kaspi" və s. şirkətlərin tikililəri seçilirdi. Şəhərin işgüzar və ictimai mərkəz kimi formalaşan mərkəzi hissəsi yerli aristokratiyanın məhəllələri, passajları, iri mağaza və otelləri ilə nizamlanma tələb etmir və yeni planın sisteminə tərkib hissəsi kimi daxil olurdu. Amma Çəmbərəkənd və Dağüstü hissə fon der Nonnenin planına görə onların qərarlşmış mürəkkəb relyeflərini nəzərə almaqla yenidən planlaşdırmaya məruz qoyulmuşdu.

Bir vaxt belə bir yenidən planlaşdırmaya cəhd üstündə fon der Nonne təqsirkar sayılmışdı; onu bunda ittiham edirdilər ki, baş planı tərtib edərkən mülk sahiblərinin sahələrinin vəziyyətini nəzərə almayıb, layihələşdirilən küçələr üçün sahələr onların hesabından zəbt edilmişdir. Şəhər administrasiyası anlayırdı ki, Çəmbərəkənddə və Dağüstü hissədə düz və geniş küçələrin salınması onların şəhərin digər hissələri ilə əlaqəsini yaxşılaşdıra bilər, lakin fon der Nonnenin təklifi o zaman üçün hələ vaxtsız idi, belə ki, şəhərin boş xəzinəsi alınan sahələr üçün onların sahiblərinə pul ödəməyə imkan vermirdi.

Mürəkkəb relyefdə qərar tutmuş Dağüstü rayonda mərkəzi məhəllələrə çoxsaylı girişlərin təşkilinin zəruriliyindən doğan yenidən planlaşdırma üzrə böyük işlər tələb olunurdu. Mövcud şəhər magistralları Dağüstü rayona qədər gəlib çatmır və onların inkişafı sosial tərkibi əsas etibarilə əhalinin ən kasıb təbəqəsindən ibarət olan bu ucqarlara şamil olunmurdu.

Mürəkkəb mikrorelyefləri və nizamsız tikililəri ilə Kərpicxana və Qanlıtəpə rayonları fon der Nonnenin planına əsasən qərarlaşmış strukturun imkan verdiyi dərəcədə tənzimlənirdi; şəhərin bu hissəsi indiyədək keçmişin izlərini saxlamaqda idi.

Bakının dəniz fasadı demək olar yaradılmamışdı. Fon der Nonnenin kökündən dəyişdirməyə, yenidən təşkilinə risk etmədiyi sahil küşəsi özəl şirkətlərin liman körpüləri ilə tutulmuşdu. O, yalnız sahildə bulvarın salınması üşün nəzərdə tutulmuş zolağı genişləndirmişdi. Şəhərin ucqar hissələrində əsasən yoxsullar yaşayırdılar və buna görə də onlarla hesablaşmayaraq, rekonskruksiya işləri aparmaq mümkün idi. Sahil zolağının abadlaşdırılması isə iri kapitalın maraqlarına toxuna bilərdi. Sahil zolağı yenidən planlaşdırılarkən sahil küçəsi "Qafqaz və Merkuri" cəmiyyətinin daşdan hörülmüş anbarları ilə kəsilirdi ki, bu da nəzərdə tutulan bulvarın qurulması üçün çox böyük rahatsızlıq yaradırdı. Sahilin bu sahəsi fon der Nonne tərəfindən həll edilməmiş qalırdı.

Mənzərəli strukturu olsa da, artıq abadlığın elementar tələblərinə cavab verməyən orta əsrlər qalası Şəhər Dumasında müzakirə və mübahisələrin daimi predmeti olmuşdur. "Qala gözün qarasına düşən ağ ləkə kimidir, ona hansı yandan baxırsan, bax, əsasından söküntü işləri aparmadan düzəldilməsi mümkün deyildir; və belə bir söküntünün layihəsi dəfələrlə təklif edilmişdi...". Şəhər başçılarından bəziləri hətta hesab edirdilər ki, "bütün sahənin şəhər tərəfindən alınması və onun plan əsasında tikilməsi şəhər üçün olduqca sərfəli ola bilərdi". Səhər Duması qlasnılarından biri qeyd etmişdi ki, "qala əgər Londonda, Parisdə olsaydı, şəhərin ən yaxşı hissəsi olardı. Bizim borcumuz qala sakinlərinə məckunlaşmaq üçün digər yerlər təklif edərək, onları indiki darısqallıqdan və sanitariya cəhətdən biabırçı məişətdən xilas etməkdir". Duma heç bir real qərar qəbul etməyərək, gələcəkdə vəsait tapmaq və şəhərin bu tarixi özəyinin tutduğu ərazidən daha sərfəli şəkildə istifadə etmək niyyəti ilə, İçəri-şəhər məsələsini açıq saxlamışdı.

Fon der Nonne İçəri-şəhərə planlaşdırması adi sayıla biləcək, lakin əsaslı rekonstruksiya tələb edən ərazi kimi baxırdı. O, nə orta əsrlərdə qərarlaşmış həcm-fəza strukturu ilə, nə memarlıq abidələrinin və öz planında qalanın qorunub saxlanma vəzifəsi ilə hesablaşır, mahiyyət etibarı ilə ərazinin cərrahi əməliyyatını nəzərdə tuturdu.

Fon der Nonnenin planına əsasən layihələşdirilən ərazi şəhər sahəsini iki dəfə artırırdı. O, qərbdə bütün Dağüstü yaylanı əhatə edir, şimalda Müsəlman və Ermənikənd qəsəbələri rayonuna, daha sonra şimali-şərqdə Zavağzal rayonuna keçirdi. Planlaşdırılmış bu çox böyük ərazinin relyefi bircinsli deyildi ki, bu da təbii olaraq, şəhərin ayrı-ayrı hissələri və onların əsasında məhəllələrin düzbucaqlı yerləşmə sisteminin dayandığı

planlaşdırma strukturları arasındakı bağlılığı mürəkkəbləşdirirdi.

Ermənikənd rayonu (indi Məmmədyarov adına) Qanlıtəpənin mövcud küçələr şəbəkəsi ilə bağlı idi, məhəllələrin şimal-şərq istiqamətində davamı isə dəmiryol xətti ilə kəsilən Zavağzal küçələri ilə birləşirdi. Dağüstü yayla rayonu faktik olaraq müstəqil şəkildə həllini tapır və onun planlaşdırmasında nizamlı tipdə məhəllələrlə bağlılıq üzə çıxarılmamışdır.

Yeni planlaşdırılan məhəllələrin əsas olaraq götürülən ölçüləri, şəhərin köhnə hissələrindəki məhəllə ölçülərindən həcminə görə nəinki böyük idi, eləcə də 1920-ci illərin şəhərsalma normalarına müvafiq gəlirdi, yəni öz zamanını xeyli dərəcədə önləmişi.

For den Nonne yeni əraziləri məhəllələrə bölərkən mürəkkəb relyefə malik ərazilər istisna olmaqla, relyefin özəllikləri ilə hesablaşmağa cəhd göstərmişdi. Fəqət Bakının planlaşdırma layihəsində fon der Nonne təkcə yenidən layihələşdirilən ərazilərin məhəllələrə bölünməsi ilə məhdudlaşmır, şəhərsalma qaydasında yeni struktur elementlərini cəsarətlə layihəyə daxil edirdi. Şəhərin demək olar bütün layihələşdirilən rayonlarında onun tərəfindən meydanlar nəzərdə tutulurdu. Müəllifin ideyasına görə, bu meydanlar şəhər ansambllarının təşkiledici elementləri olmalı idi; əslində isə onların demək olar hamısı lokal xarakter daşıyırdı.

Yaşayış məhəllələrinin mərkəzində yerləşən meydanlar çox böyük ölçülərə malik idilər. Onlara gətirib çıxaran magistralların və ya kompozisiyanı vurğulayan geniş küçələrin olmaması onları hər hansı memarlıq-bədii mənadan və planlaşdırma ideyasından məhrum edirdi.

Müasirləri fon der Nonnenin baş planını xarakterizə edərkən, "şəhərin ucqar ərazilərində meydanlar üçün işarətlənmiş çox böyük, mənasız, boş yerlərin" olduğunu, "halbuki mərkəzi hissələrdə onların demək olar olmadığını" qeyd edirdilər [180, s.41]. Bu plana görə Fon de Nonne tənqidə məruz qalmışdı. Şübhə yoxdur ki, məqalə müəlliflərindən heç biri şəhər idarəsi və quberniya idarəsinin arxivlərində qorunub saxlanılan layihələşdirmə materialları ilə tanış deyildilər. Əslində isə bu işin tarixçəsi belədir: Şəhər Duması 1898-ci ilin iyun iclasında şəhərin planına baxılarkən, o cümlədən, yeni ərazilərdə meydanların yerləşdirilmə məsələsinə də toxunulmuşdur. Fon der Nonnenin planına görə, meydanların ölçüləri olduqca böyük götürülür və orta miqyaslı məhəllənin ölçülərinə bərabərləşdirilirdi. Meydanların bu sayaq tipi planlaşdırma ideyasının məntiqi ifadəsi idi. Onların estetik məzmunu - təntənəliliyi, təmtəraqlılığı, qapalılığı və ya açıqlığı - yerləşdiyi məkandan və qabaritlərindən, eləcə də ətraf tikililərin xarakterindən asılı idi.

Lakin Duma qlasnıları fon der Nonneyə meydanların ölçülərini və sayını artırmağı təklif etmişdilər, belə ki, plana görə onlar "balaca" idilər. Qlasnıların belə bir "yaradıcı" iştirakı nəticəsində Bakının layihələşdirilən hissələrində aydın ifadə edilmiş təyinatı olmayan və əvvəlcədən ətraf tikilişlərin fəza strukturunda fəaliyyətsizliyə məhkum olan çox böyük meydanlar peyda olmuşdu.

A.P.İvanitski məhz bu barədə yazarkən, "böyüdülmüş ölçüləri səbəbincə boş yer olaraq qalmağa məhkum olan çox böyük bazar meydanlarının sistemsiz bir şəkildə yerləşməsi"ndən gileylənirdi [144, s.36].

Fon der Nonne geniş və enli bulvarlar şəklində çox sayda yaşıl məkanların yerləşdirilməsini nəzərdə tuturdu ki, bu da o vaxtlar onların şəhər hüdudlarında görünməsinin reallığına inanma-







*Bakı ərazisinin genişləndirilmə sxemi. XIX əsrin sonu (Ş.S.Fətullayeva görə).*

yan Şəhər Duması qlasnılarında şəkkak münasibət doğurmuşdu.

"Bakı şəhərinin yenidən planlaşdırılması" məqaləsinin müəllifi Y.Livşits yazırdı ki, "bu bulvarların eni 60-140 sajen (128-dən 298,6 metrə qədər) ölçüsündə layihələşdirilmişdir. Əgər hətta inanılmaz məsrəflər hesabına bu bulvarların praktikdə yaradılması həyata keçirilsə belə, açıq söyləmək lazımdır ki, buna heç bir mülahizə ilə haqq qazandırıla bilməz" [180, s.41].

Məqalə müəllifinin proqnozu şəhərin şimal hissəsini kəsib keçən və effektiv küləkdən qoruyucu zolaq olan bulvarın möhtəşəm yaşıllığı ilə təkzib edilir. Fon der Nonne tərəfindən meridional istiqamətdə nəzərdə tutulan və yuxarıda təsvir edilən bulvarla kəsişən digər bulvar S.Vurğun küçəsi boyunca yaşıl zolağa çevrilmişdir. Yeni məskun zonanın mərkəzində böyük uzunluqda geniş bulvarların planlaşdırmaya daxil edilməsi fon der Nonnenin layihəsinin ən üstün tərəfi idi. A.P.İvanitski sonralar məhz bundan faydalanmışdı. 1898-ci il planını yüksək qiymətləndirərək, yazırdı ki, "heç vaxt su kəməri olmayan və kəhrizdən, sisterndən və dəniz suyunu şirinləşdirici qurğulardan istifadə edən Bakı üçün bu göstəriş (bulvarın salınması – Ş.F.) cəsarətli, eyni zamanda zəruri bir qərar idi" [144, s.38].

Fon der Nonne bu problemi həll etməyə çalışmış və şəhərin baş plan layihəsində yaşıl massivi bu cənub şəhərinin əhalisi üçün istirahət və əyləncə yeri olan böyük bir park kimi təklif etmişdi. Özəlliklə yay aylarında, yaşıllığın olmaması və güclü xəzri (şimal) küləklərinin yaşayış üçün əlverişsiz zonaya çevirdi-

yi Bakının məhz belə bir yaşıl massivə ehtiyacı vardı. Əsas etibarilə bu, yayda şəhərdən kənara çıxmaq və yaşadıqları yerlərdən aralıdakı bağlara və bağçalara getmək imkanı olmayan əmək adamlarının çoxminlik ordusunun həyatına öz təsirini göstərirdi. Yaşayış məhəllələrinin mərkəzində hamının gəlib dincələ biləcəyi ictimai parkın olması böyük bir məskun ərazinin mikroiqliminin dəyişməsində müsbət rol oynamış olardı. O, eyni zamanda mexaniki şəkildə bölünmüş məhəllələrin planlaşdırma strukturuna iri şəhərsalma miqyaslı kompozisiya elementi əlavə etmiş olardı.

İvanitski fon der Nonnenin ideyalarından və onun Duma qlasnıları tərəfindən dəstəklənməyən təkliflərindən xəbərdar deyildi. Qlasnılardan biri parkın sahəsini şəhərin bütün hissələri üzrə paylaşdırmağı təklif edirdi, çünki "plan üzrə layihələşdirilən belə böyük bir parkı, xüsusilə də Bakıda, saxlamaq çox çətindir". Fon der Nonne tərəfindən layihələşdirilən bulvarların ümumi sahəsi yekunda 100 hektardan çox təşkil edirdi; onun 22 hektarı Dağüstü yaylanın payına düşürdü, qalan sahələr bir-biri ilə kəsişən bulvarlar arasında paylanmışdı.

Fon der Nonneni planın tərtibinə birtərəfli yanaşdığına görə qınayan bəzi müasirləri hesab edirdilər ki, yenidən planlaşdırılan ərazilərdə böyük meydanlar və iri yaşıl massivlər nəzərdə tutmaqla, o, şəhərin artıq mövcud hissələrində "heç olmasa gələcəkdə əkiləcək ağaclar üçün bir neçə yer" ayırmağa lüzum görməmişdi [180, s.41]. Bəllidir ki, fon der Nonne şəhərin planlaşdırması ilə məşğul olduğu dönəmdə mövcud məhəllələrin hüdudunda və mərkəzi hissələrdə boş sahələr yox idi və üç- və dörd mərtəbəli evlərdən ibarət sıx tikilmiş məhəllələrin torpağını bağ, küçə bağçası və meydan üçün satın almağa şəhərin real imkanları yox idi.

Şəhərin Dağüstü yayla, Ermənikənd və Zavağzal tərəfə genişləndirilməsi üçün torpaqların düzgün seçimi özünü tamamilə doğruldur. Yeni rayonların yaşayış məhəllələri strukturunda da iri yaşıl massivlərin təşkili və geniş sahil küçəsinin salınması ideyalarının dəyərini etiraf etməklə, qeyd etmək gərəkdir ki, planın memarlıq-planlaşdırma həlli bütövlükdə o qədər də yüksək deyildi.

Baş planın ümumi kompozisiyası təsadüfidir və yaxşı işlənməyib, onun tərkib hissələri mövcud tikilişlərlə razılaşdırılmayıb, küçələr differensiasiyası yoxdur, rayonların bir-biri ilə bağlanması üçün magistrallar nəzərdə tutulmamışdır; nə Dağüstü yaylada, nə Ermənikənddə, nə də Zavağzal səmtdə meydan və bulvarlara aparıb çıxaran və onların planlaşdırılmasının struktur elementləri olan küçələr işarətlənməmişdir.

Yaşıllıqların yerləşdirilməsi də şəhərin ümumi planlaşdırma strukturuna uyğun gəlmirdi. Belə ki, Sofiya bulvarı (32 hektar) Dağüstü yaylanın cənub sərhədində və yaşayış məhəllələrinin əsas kütləsindən xeyli aralı (3 km-ə qədər) yerləşirdi. Aleksandrovsk bulvarının əlverişli mövqedə olmasına baxmayaraq (Bakı amfiteatrının şimal kənarında), onun planı tam halda işlənməmişdi. Aleksandrovsk bulvarı ilə kəsişən və geniş zolaq şəklində mövcud məhəllələr rayonunun sərhədlərinə daxil olan Staroselsk bulvarının yerləşməsi də təəccüb doğurur. Onun planı da tam halda işlənmədi. Buna baxmayaraq, fon der Nonnenin planı "irəliyə doğru böyük addım idi" [144, s.38]. Onun ideyasının əsasını müsbət planlaşdırma həlli təşkil edirdi. Bütün çatışmazlıqlarına baxmayaraq, bu plan M.H.Hacinskinin planı və 1920-ci illərdə A.P.İvanitski tərəfindən işlənib hazırlanan Bakının baş planı da daxil olmaqla, şəhərin sonrakı planlaşdırma işləri üçün zəmin rolunu oynamışdır.





Mövcud və planlaşdırılan hissələrin sahəsi təqribən 1750 hektar təşkil edirdi ki, bunun da yarısı yeni rayonların payına düşürdü. Ərazinin belə bir böyümə perspektivi əhalinin çox böyük artımı ilə şərtlənirdi. Bakı şəhəri əhalinin artım tempinə görə 1910-cu ildə Paris, London və Nyu-York kimi iri sənaye mərkəzlərini geridə qoyurdu.

1878-ci il planı ilə müqayisədə şəhər torpaqlarının sərhədləri irəlidə mənimsənilməli olan 5000 hektardan artıq sahəni də özünə birləşdirərək, daha da genişlənmişdi.

Fon der Nonnenin planının həyata keçirilməsinin ilk günlərindən başlayaraq, Dumada və təfsilatlı şəkildə işlənib hazırlanmayan materialların yoxluğu səbəbincə çətinliklərlə qarşılaşan şəhər mühəndisləri arasında daimi mübahisə və müzakirə obyektinə çevrilmişdir. Baş plan üzərindəki bütün sonrakı layihə işləri "kağız üzərində" layihələşdirmə xarakteri daşıyırdı, mühəndis M.H.Hacinskinin sonrakı redaksiyasında fon der Nonnenin planı isə uzun müddət Bakıda tikilişlərin tənzimlənməsi üzrə yeganə sənəd olaraq qalmaqda idi.

XIX-XX əsrlərin qovşağında Bakı böyük və kifayət qədər abad şəhər hesab edilir, burada intensiv ticarət gedir, işgüzar həyat qaynayırdı. Şəhərin tikilişləri Bakı amfiteatrının bütün terrasları boyunca yuxarılara doğru uzanır, Bakı öz yastı damlı iki- və üçmərtəbəli evlərin fonunda İçəri şəhər minarələrinin vertikalları ilə İstanbul, Tir, Sidon, Əlcəzair, İzmiri xatırladırdı.

Bakının mərkəzində passajların, iri mağazaların, mehmanxanaların, məşhur ticarət-sənaye şirkətlərinin və özəl bankların olduğu yaraşıqlı küçələr yerləşirdi. Yerli milyonçuların sarayları, varlı-hallı tacirlərin imarətləri, teatrlar, klublar, təhsil müəssisələri, möhtəşəm evlər ilə



*Mühəndis Məmməd Həsən Hacinski (1875-1931).*

gözəl sahil küçəsi, Xəzərin dalğalarında üzən minlərlə gəmii, konkaların arasıkəsilməz səsi, ora-bura vurnuxan piyadalar - bütün bunlar şəhərin simasına bir özünəməxsusluq verirdi [246, s.276]. Bakı şəhərinin ümumi bədii siluetinə İçəri-Şəhərin hüdudlarından kənarda amfiteatrın müxtəlif hissələrində yerləşən dini qurmaların vertikalları öz möhrünü vururdu.

Şəhərin ucqarlarına gəldikdə, onların tikilişi və abadlığı o qədər də cəlbedici deyildi. Şəhərin keçmiş epidemiya ocaqları olmuş və bərbad halda olan bu hissələrinin yaxınlığı zənginlər yaşayan mərkəzi məhəllələrin sakinlərinə öz mənfi təsirini göstərə bilərdi ki, bu da Dumada qaçılmaz olaraq narahatlıq doğururdu. İçəri-Şəhərin bərbad hissəsini sıxlaşdırmaq çoxdan tələb olunurdu. Qaladakı yaşayış evlərinin əksəriyyəti uçuq-sökük olduğundan onların əsaslı təmiri və ya yerində yenilərinin tikilməsi nə-



*"Yelpik" layihəsi. Baş plan. Mühəndis M.H.Hacinski. 1908-ci il.*

zərdə tutulmurdu, sakinlərin isə şəhərin digər rayonlarında yeni evlərin tikintisi üçün vəsaitləri yox idi. Duma 13 oktyabr 1900-cü il tarixində əsasən qalanın və şəhərin yoxsul sakinləri üçün Müsəlman qəsəbəsinin yaradılması haqda qərar qəbul etdi [345].

Qəsəbəni fon der Nonnenin planında göstərilən yerdə - nəzərdə tutulan Staroselsk və Aleksandrovsk bulvarlarının kəsişməsindən başlayaraq oradan şərqə doğru uzanan yerdə yaratmaq nəzərdə tutulmuşdu. Burada tikinti işlərini aparanlar üçün güzəştli şərtlər torpaq sahələrinə xeyli tələbat doğurdu.

Əhalinin, əsasən də gəlmə əhalinin sərbəst şəhər torpaqlarında özbaşına hərəkətlərinə mane olmaq məqsədi ilə şəhər idarəsi ümumşəhər planlaşdırma strukturunun bir hissəsini təşkil edən qəsəbələrin - Müsəlman, Erməni, Molokan qəsəbələrinin – tikintisini tətbiq edirdi. Qəsəbələr sistemi boş torpaqların tutulması yolunda maneəyə çevrildi, şəhər mütəşəkkil ərazi əldə etdi, icarəçilərdən isə şəhər xəzinəsinə müəyyən qədər vəsait daxil olurdu. Bununla bağlı olaraq şəhər idarəsi Aleksandrovsk və Moskovsk bulvarlarının sərhədində təqribən 200 hektarı əhatə edən ərazidə "Novıy posyolok" adlanan yeni bir qəsəbə salmaq qərarına gəldi. Onun planlaşdırılması şəhər idarəsinin üzvləri arasında fikir ayrılığına səbəb oldu və Yeni qəsəbənin layihəsi üçün daxili müsabiqə elan edildi. Planlaşdırmanın iki variantı təqdim edilmişdi: şəhər idarəsinin üzvü D.İ.Ovsyaniko-Kulikovski tərəfindən tərtib edilən birinci variantda Qara şəhərin məhəllələrə bölünməsini xatırladan 64 m enində və uzununda məhəllələrlə nizamlı planlaşdırma təklif edilirdi; ikinci variant şəhər idarəsinin tikinti şöbəsinin müdiri mühəndis M.H.Hacinski tərəfindən təqdim edilmişdi. Müəllif yelpikşəkilli planlaşdırma sistemini təklif etmişdi.

Müəllif planlaşdırmanın düzgün sxemini təklif edirdi. Bu sistemə əsasən küçələr Parisdə Ulduzlar meydanında və ya Vyanada Rinqştrasse meydanında olduğu kimi günəş şüaları şəklində ayrılırdılar.

Planlaşdırmanın bu sayaq variantı fon der Nonnenin planında da mövcud idi. Həmin planda Moskovsk bulvarı Aleksandrovsk bulvarının davamı kimi gələcək qəsəbənin təbii sərhədi rolunu oynayırdı, lakin bulvar Ermənikənd və Yeni qəsəbənin yerləşdiyi məkan ilə iti bucaq əmələ gətirərək istiqaməti dəyişirdi. Baş planın bu hissəsi fon der Nonne tərəfindən işlənməmişdi ki, bu da şübhəsiz, Hacınskini şəhərsalma tarixində yaxşı məlum olan planlaşdırma metodundan istifadəyə təhrik edirdi. Onun Yeni qəsəbəni planlaşdırma layihəsi qəbul edildi.

Qəsəbənin "Yelpik" adlandırılan planlaşdırması şəhərin ümumi planlaşdırması ilə bağlanmışdı. Hacınski layihəyə həyatın







*Bakının planı. 1918-ci il.*

özündən doğulan kompozisiya elementləri daxil etmişdi. "Yelpik" kompozisiyasına görə, başlıca elementlərin məkanın və bitişik rayonların xarakterləri ilə uyğun gəlməsinə görə, işlənmə səviyyəsinə görə Bakı şəhərinin inkişafında yeni, müsbət bir mərhələ idi.

Hacinski 1911-ci ilə əhalinin məskunlaşması və tikiliş üçün daha perspektiv olan bütün şimal və şimal-şərq rayonlarını tam layihələşdirib qurtardı (bu, Bakının inkişafının sosializm dövründə də təsdiqini tapdı). O, bir şəhərsalıcı olaraq, şübhəsiz, xeyli irəli getmişdi, çünki Hacınski artıq həmin vaxtlar bu sahədə hələ fon der Nonneyə məlum olmayan biliklərə malik idi. Şəhərin baş planı üzərində aparılan sonrakı işlər mahiyyətcə heç nəyi dəyişdirmir və fon der Nonne və M.H.Hacinski tərəfindən işlənib hazırlanan planlaşdırmanın vəhdəti qorunub saxlanılmaqla, yalnız lokal əhəmiyyətli düzəlişlər edilirdi.

Bakıdan 190 km uzaqlıqda yerləşən Şollar mənbələrindən su kəmərinin çəkilməsi ilə bağlı şəhərin təsərrüfat həyatı da canlanmışdı. Tanınmış mühəndis V.Lindleyin layihəsi əsasında su kəmərinin açılışı ilə həm kanalizasiya problemləri, həm də kütləvi yaşıllaşdırma məsələsi həllini tapmış oldu [181, 182].

Eyni zamanda tramvay və şəhər təsərrüfatının digər elementlərinin yaradılması layihəsi işlənib hazırlanmışdı.

Həyat şəhər hakimiyyətinə yeni yaşayış rayonlarının tikintisində, ərazilərin seçilməsi və onların planlaşdırılmasında məkanın topoqrafik özəlliklərini diqqətə almağın lazım gəldiyini öyrədirdi [119]. "Qafqaz şəhərləri təmsilçilərinin 1913-cü ildə Tiflisdə keçirilən, şəhərlərin abadlaşdırılma məsələlərinə dair sonuncu, 2-ci qurultayı da diqqətini bu məsələyə həsr edərək, şəhərin tikilməkdə olan sahələrinin daha yaxşı planlaşdırılması haqqında məsələnin də daxil olduğu "şəhərlərin genişləndirilməsinin tikinti planlarının" yaradılma zərurəti haqqında məsələni gündəliyə çıxarmışdı" [340, s.100]. Ola bilsin ki, qurultay şəhərin əhalinin həddən artıq sıx olduğu hissələrinin sağlamlaşdırılma məsələsinə dair Bakı Şəhər Dumasının qərarını tezləşdirmişdi.

Bakı Şəhər Duması şəhər planlaşdırmasının "Avgi tövlələrini" nizama salmaq, əhalini zəbt edilmiş torpaqlardan köçürmək qərarına gəldikdə bəlli olmuşdu ki, əhalinin həddən artıq sıx olduğu məhəllələrdə 1340 tikili (əsasən yoxsul təbəqədən olan ümumilikdə 10 000-ə yaxın əhalisi ilə) mövcuddur və onları məskunlaşdıqları yerdən köçürmək mümkünsüzdür, lakin sanitariya baxımından bərbad halda olan bu kimi rayonları planlı və abad şəhər məhəllələrinin yanında saxlamaq da olmazdı.

Duma demək olar 40 il ərzində əhalinin kasıb təbəqələrinin məskunlaşmış olduğu şəhərin qərb hissəsindəki örüş torpaqlarının mənimsənilmə proqramlarının işlənib hazırlanmasına rəvac verən heç bir tədbir həyata keçirməmişdi. Nəhayət, qərb səmtdəki bütün örüş torpaqlarını bu məqsədlər üçün ayırmaqla problem həll edilmiş oldu. Onların planlaşdırma layihəsi şəhər idarəsinin torpaq bürosu tərəfindən hazırlanmışdı. Yeni məhəllələr üçün ayrılmış sahə (270 hektar) cənubda – şəhər qəbiristanlığından aralıda, 1-ci Popereçnaya küçəsi ilə; şimalda - Salyan alayının kazarmaları ilə; qərbdə - 10-cu Xrebtovaya küçəsi ilə, şərqdə - şəhərin tikilmiş hissələrinin xətti və 1-ci Xrebtovaya küçəsi ilə məhdudlaşan düzənlik, tikinti üçün olduqca əlverişli ərazidən ibarət idi. Şimaldan cənuba doğru uzun düzbucaqlı şəklində olan geniş ərazi hələ fon der Nonnenin planı üzrə planlaşdırılmış və hətta təsdiq edilmişdi, lakin bu həll variantı çox uğursuz alınmışdı.





Yeni layihə ilə qərb torpaqlarının bütün sahəsi boyunca bərabər şəkildə paylanan çox sayda yaşıllıqların salınması nəzərdə tutulmuşdu; azölçülü sahələrdə tikinti işləri aparmağa yoxsulların gücü çatardı. Yeni şəhər rayonlarının səmərəli şəkildə planlaşdırılmasına böyük əhəmiyyət verməklə, Torpaq Bürosu yeni məhəllələrdə abadlıq elementlərindən daha geniş istifadə etməyə çalışırdı. "Müasir sanitariyanın ümumi tələblərinə əsaslanmaqla, bu məsələnin düzgün həlli şəhərlərin sağlamlaşdırılması üzrə tədbirlərin bünövrəsində durmalıdır", deyə Şəhər Dumasına məruzədə qeyd edilirdi [340, s.97]. Bundan çıxış etməklə, Torpaq Bürosu yeni məhəllələrdə Bakının mərkəzi rayonlarında qərarlaşmış əlverişsiz həyat şəraitinin təkrarlanmasını yolverilməz hesab edirdi.

Böyümənin və inkişafın tarixi şəraiti üzündən şəhərin en dairəsi istiqamətində Verxnaya Naqornaya küçəsindən başlayaraq vağzala qədər, şimalda isə Kolyubakınskaya küçəsindən Şamaxinkaya qədərki çox geniş ərazidə yalnız bir meydan – görkəmsiz binaların əhatəsində Quba meydanı və Krasnovodskaya və Kamenistaya küçələrinin kəsişməsində yerləşən kiçik ölçüdə (600 kv.m) Bağırov küçə bağçası vardı. Əhalinin əsas kütləsi burada yaşayırdı. Aydın görünürdü ki, əhalinin məskunlaşdırılması üçün nəzərdə tutulan bu örüş torpaqlarının yeni sahəsini başqa tərzdə planlaşdırmaq lazım gəlir.

Bakının şəhər təsərrüfatı o qədər də yaxşı nizamda olmadığından tarixi mərkəzin kökündən və ya qismən rekonstruksiya edilməsi üçün istifadə oluna biləcək dərəcədə maliyyə vəsaitinə malik deyildi.

Onun darısqal, heç də həmişə düz olmayan küçələri ilə, az sayda kiçik bağları və küçə bağçaları ilə, planlaşdırma baxımından işlənməmiş meydanları ilə şəhər planlaşdırmasının bu mənfi tərəfləri öz yerini tamamilə yeni, müasir sanitariya və gigiyenanın tələblərinə cavab verən səmərəli və gözəl (yeni rayonun layihəsini tərtib edənlərin fikrincə) planlaşdırmaya verməli idi.

Torpaq Bürosunun texniki hissəsi tərəfindən sahəsi 273 hektar olan "Bakı şəhərinin qərb hissəsinin tikilməmiş örüş torpaqlarının daha yaxşı planlaşdırılması"nın iki variantı təklif edilmişdi [342, s.101]. Hər iki variant, meydanların, məhəllələrin, yaşıllıqların və küçələrin ümumi normativ göstəricilərini qoruyub saxlayaraq, diametral şəkildə əks planlaşdırma strukturuna malik idi.

Birinci variant - küçələrin radial yerləşməsi ilə - öz quruluşuna görə "Yelpiyin" ikiqat təsvirini xatırladırdı. Küçələrin differensiasiyası yox idi, nə magistral, nə də adi küçələr işarətlənmişdi (baxmayaraq prinsipcə bunlar tələb olunurdu); layihəyə əsasən onların eni 25,6 m təşkil etməli idi.

Lakin, layihəni tərtib edənlərin qeyd etdiyi kimi, ilk baxışdan "cəlbedici perspektivaya malik küçələrin yerləşmə gözəlliyi" [342, s.102] ilə yanaşı, etiraf etməmək olmaz ki, sahəsi 273 hektar olan bu çox geniş ərazi son nəticədə şəhərin qərb hissəsinin örüş torpaqlarının planlaşdırılması və tikilişinin həcm-fəza tərəflərini və memarlıq-bədii özəlliklərini müəyyənləşdirən inzibati-ictimai mərkəzin fərdi simasının yaradılması üçün tam münasib hala salınmamışdı.

Mürəkkəb relyefinə görə köhnə yaşayış məhəllələrindən qoparılmış, işgüzar və inzibati ərazidən ayrı düşmüş, məsələn, Bakının tarixi rayonlarına nisbətən daha əlverişli şəraitdə planlaşdırılan, 15 000 nəfərlik əhalisi ilə bu yeni yaşayış rayonun öz ticarət və ictimai mərkəzləri olmalı idi. Şəhərin qərb torpaqlarının yeni məhəllələri və küçə bağçalarının plan-

laşdırmasının simmetrik kompozisiyası ictimai mərkəzin yerinin önünü tamamilə tutmuşdu.

Beləliklə, layihə müəllifləri şəhərin planlaşdırma strukturunda formalaşmış məhəllələrin geniş ərazisində kiçik Quba meydanı və Bağırov küçə bağçasının yerləşməsi kimi mövcud vəziyyəti məntiqi surətdə tənqid edərkən, yeni rayonun özləri tərəfindən hazırlanan planlaşdırmasında, ola bilsin, başqa bir şəhərsalma həll tələb edə bilən inzibati-ictimai özəyi gözdən qaçırmışdılar. İctimai meydanların və ayin qurmalarının yeri də işarətlənməmişdi, baxmayaraq ki, məhəllələrin strukturunda onlar mütləq yerləşdirilməli idi.

Digər bir variantda planlaşdırma daha ciddi və rasional görünürdü; o, üç sıra paralel bulvar və küçə bağçalarını əhatə edən və kəsişən küçə və məhəllələrin düzbucaqlı şəbəkəsinə əsaslanmışdı. Onların kəsişmələrində ellips formalı küçə bağçaları yerləşirdi. Beləliklə, üç ovalşəkilli küçə bağçası yaşayış rayonunu təşkil edən üç yaşayış kompleksinin bir növ mərkəzi idi. Bu variantın müəllifləri layihələşdirilən rayonun 273 hektarlıq ümumi sahəsindən yaşıllaşdırma üçün demək olar 50 hektar ayırmışdılar. Şərq və qərb sərhədləri bulvar şəklində layihələşdirilmişdi. Məhəllələrin şəhər səmtə yönələn köndələn oxlarında küçə bağçaları nəzərdə tutulmuşdu. Onların ritmi yaşayış rayonunun bu hissəsinin şəhərsalma önəmini vurğulayırdı.

Lakin gözdən keçirilən bu variantda da ictimai və işgüzar mərkəzlərin yerləri yox idi. Yeni məhəllələrin ictimai təyinatlı bol yaşıllıqlar ilə (bütün sahənin 1/5 hissəsindən bir qədər az) planlaşdırma layihəsinin hər iki variantı belə bir fikir doğurur ki, layihələrin müəllifləri E.Hovardın XX yüzilin əvvəllərində geniş yayılan şəhər-bağ ideyasından istifadə etmişlər [102, s.155].

Bu layihələrin müəllifləri yaşıllaşdırmaya münasibətdə örüş torpaqlarının (900 hektar) planlaşdırma işləri ilə məşğul olan, burada 100 hektara (1/9 hissə) yaxın sahəni enli bulvarlar şəklində yaşıllıqların salınmasına ayıran fon der Nonne ilə müqayisədə daha irəli getmişdilər. Yeni layihələrin tərtibçiləri qeyd edirdilər ki, Dağüstü rayonun (Çəmbərəkənd və qəsəbələrlə birlikdə) əlverişli iqlim və topoqrafik şəraitinə görə böyük gələcəyi var və oraların düzəldilməsinə çəkilən bütün xərclər artıqlaması ilə şəhər xəzinəsinə qayıdacaqdır. Layihələrdə cəlbedici olan o dönəm üçün novator əsaslarda yeni yaşayış rayonunun rasional tikilişlər şəklində yaradılmasına dair vəzifələrin genişliyi idi.

Torpaq Bürosu hesab edirdi ki, sahələr tikinti işlərini görənlərə təqdim edilməzdən əvvəl ərazinin mühəndis hazırlığını aparmaq: küçələrin xəritədə çəkilişi və döşənməsi, kanalizasiya, işıqlandırma sisteminin qurulması, su kəmərinin çəkilişi və s. zəruridir. Böyük sahələrin bu kimi mütərəqqi metodlarla mənimsənilməsi Bakı üçün tamamilə yeni bir təzahür idi. Azərbaycan şəhərlərində bu metodun tətbiqi də maliyyə məhdudiyyəti üzündən hələlik real şəkildə mümkün deyildi.

Yaşayış massivlərinin layihələşdirilməsi və ərazinin tikilməzdən əvvəl ilkin mühəndis hazırlığının həyata keçirilməsi - Azərbaycanın kapitalist şəhərsalma tarixində olduqca mühüm səhifədir. Bu səmərəli metodu düzgün dərk edən və qiymətləndirən Torpaq Bürosunun faydalı təklifi, şübhəsizi, müsbət təzahür idi.

Rusiyada fevral burjua inqilabı coşqun ictimai və siyasi həyata cəlb olunan şəhərin bir çox abadlaşdırma məsələlərinin həllini təxirə salmağa məcbur etdi. Çar dövlət idarələrinin nəzarətindən xilas olan müxtəlif ictimai təşkilatlar şəhərin ümumi təsərrüfat səviyyəsinin və abadlıq





işlərinin yaxşılaşdırılmasına dair geniş və əhatəli proqramlarla çıxış edirdilər.

Ucqarların böyüməsinin süni şəkildə əngəllənməsi üzündən ağır həyat şəraiti, yüksək mənzil haqqı Bakı bələdiyyəsinin daimi problemlərindən idi. İctimai təşkilatlardan birinin proqramında qəti şəkildə tələb edilirdi: "bu ucqarların buxovlarını ləngimədən açmaq, iştirakçıların ən güzəştli şərtlərlə seçilib ayrılması, mənzil kooperativlərinin həvəsləndirilməsi, kollektivlik qaydasında şəxsi şəhər evlərinin tikilməsi, onlara yol salınması, su kəməri və işıqlandırma sisteminin qurulması - şəhərin qarşısında duran ən yaxın məsələlərdir" [368].

Ucqarlar tramvay yolunun çəkilməsi, səkilərin salınması və küçələrin döşənməsi haqqında məsələlərin həllində başlıca yer tuturdu. Bakı şəhərinin ümumi abadlaşdırılma səviyyəsinin qaldırılması ideyasını inkişaf etdirərək, geniş miqyasda ictimai bağlar və bulvarlar salınması, Xalq evi, İctimai kitabxana, mehmanxanalar, üstüörtülü bazarlar kimi vacib mədəni-məişət qurmaları və digər obyektlərin ucaldılması təklif olunurdu.

Siyasi gərginliyin artdığı bir şəraitdə Bakıda Petroqrad şəhərlər-bağlar cəmiyyətinin şöbəsini yaratmaq ideyası ortaya atıldı ki, bu da yerli həyat şəraitini yaxşılaşdırmaq məqsədi güdürdü [360]. Cəmiyyətin təsis edilməsinin təşəbbüsçüləri etiraf edirdilər ki, hərbi dövr şəraitində evtikmə azalmışdır, lakin müharibə bitdikdən sonra bu iş şəhərin tikilişində aparıcı yer tutmalıdır. Bunun üçün kütləvi tikintini rasional qaydalarla, təkcə kooperativ tikinti əsasında deyil, eləcə də şəhərsalmada tam islahatlar aparılmasını tələb edən plan əsasında aparmaq gərəkdir.

E.Hovardın 1898-ci ildə işıq üzü görən kitabı Avropada şəhər-bağlar ideyasının inkişafına böyük təsir göstərmiş və buna dair rus dilində nəşrlərin üzə çıxmasına səbəb olmuşdu. V.Dadonovun "Siyasətsiz sosializm. İndiki zamanda gələcəyin şəhərləri" (M., 1913), B.Knatsın "Şəhərlər-bağlar", Q.Kovalskinin "Böyük şəhər və şəhər-bağlar" (Kiyev, 1916) və s. kimi əsərlər işıq üzü gördü.

Cəmiyyətin Bakı şöbəsinin təşəbbüsçüləri məhz E.Hovardın "Gələcəyin şəhəri" kitabının başlıca müddəalarına isnad edirdilər. E.Hovardın əsas tezisi - "yalnız planlaşdırmasına görə, küçə bağlarının bolluğuna görə, ictimai təyinatı olan binaların məqsədyönlü şəkildə yerləşdirilməsinə... görə deyil, eləcə də yaşayışın ucuzluğuna görə idealdır... " [177].

Cəmiyyətə üzv qrupun fəaliyyəti 1920-ci illərdə Abşeronda şəhər-bağların yaradılmasına öz təsirini göstərmişdir [339]. Hovardın ideyası 7 fevral 1919-cu ildə "Yeni Şirvan" cəmiyyətini yaradaraq ona sədrlik edən Bakı şəhərinin baş memarı Zivər bəy Əhmədbəyovun işlərində də öz əksini tapmışdır [311]. Cəmiyyətin məqsədi – vətəndaş müharibəsi illərində dağıdılan Şamaxı şəhərinin mütərəqqi şəhərsalma prinsiplərinə əsaslanaraq bərpasına və onun şəhər-bağa çevrilməsinə kömək etmək idi.

Mülki mühəndis Ömər bəy Abuyev 1917-ci ildə yerli mətbuatda Azərbaycan memarlığının şah əsəri olan Şirvanşahlar sarayı kompleksinin müdafiəsinə dair mükəmməl bir məqalə ilə çıxış etmişdi [5]. İstisnasız olaraq sənədli məlumatlara əsaslanaraq, müəllif onları bütün incəliyinə qədər təhlil etmiş və Qafqazın ali hakimiyyətinin təqsiri üzündən yarımuçuq halda olan bu görkəmli abidə haqqında təfsilatlı tarixi material təqdim etmişdi. Abuyev yazırdı ki, onu muzeyə, kitabxanaya çevirməkdən ötrü Bakı dəfələrlə sarayın şəhər özünüidarəsinə verilməsinə çalışmışdı. Yalnız 1917-ci ildə şəhərin saray barədə iddiası uğur qazan-

dı və 22 dekabr 1917-ci il tarixində saray Müsəlman (*Azərbaycan* - Ş.F.) Arxeoloji Cəmiyyətinin idarəsinə verildi.

Saraya böyük əhəmiyyət verməklə və onun islam incəsənətində tutduğu yeri yüksəyə qaldırmaqla, Abuyev yazırdı ki, "saray, şübhəsiz, həm uzaq tarixi keçmişin abidəsi kimi və milliyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün böyük elmi maraq doğuran islam incəsənətinin ən gözəl örnəklərinin qoruyucusu kimi şəhər üçün dəyərli idi, çünki bu gözəl poptalların görünüşü bizim yaddaşımızda Əl-Həmbra sarayının divarlarına həkk olunmuş bu sözləri canlandıracaqdır: "Rəssamın əlləri naxışlara elə məharətlə bəzək vurmuşdur ki, sanki gözləriniz qarşısında duran güllərin özüdür"" [1].

İncəsənət əsərinin qarşısında vəcdlə baş əymək heç də "daşlaşmış musiqini" sadəcə seyr etmə məqsədi daşımırdı. Toplanmış materiallardan sonralar sarayın bərpa işlərində istifadə edilməsi üçün bütün varlığı ilə Şirvanşahlar saray kompleksinin öyrənilməsi və qeydə alınması ilə məşğul olan Abuyev şəhər idarəsinin üzvü mühəndis M.H.Hacinskinin dəstəyi ilə sarayın ölçmə işlərinə başlamışdı.

Çətin ölçmə işlərindən sonra (çünki saray olduqca bərbad vəziyyətdə idi) Abuyevin etiraf etdiyinə görə, o, "hazırda sarayın plan və fasadlarının çertyojlarının çəkilməsi ilə məşğuldur, odur ki, bərpa işləri zamanı ... kifayət qədər material olacaqdır" [5]. Məqalənin sonunda Abuyev islam incəsənəti ilə maraqlanan bütün şəxsləri abidələri gələcək nəsillər üçün qoruyub saxlamağa və "İslam incəsənəti abidələrini sevərlərin və qoruyucuların Cəmiyyəti"ni yaratmağa çağırırdı. Mühəndis Abuyevin çağırışı cəmiyyətdə əks-səda vermişdi. Akademik N.Y.Marr "şəhərimizdəki nadir incəsənət incisinin taleyinin ən yaxşı şəkildə həll edilməsinə kömək etməyə hazır olduğunu" bildirdi. Mülki mühəndislər Ömər bəy Abuyev və Zivər bəy Əhmədbəyov sonralar "Müsəlman Arxeoloji Cəmiyyəti" adlanan cəmiyyətin təşkilatçıları olmuşdular.

XIX əsrin ikinci yarısında peterburqlu memarlar D.İ.Qrimm və A.M.Pavlinov tərəfindən saray kompleksinin eskiz ölçmərindən sonra bərpa işləri üçün Abuyev tərəfindən yerinə yetirilən ölçmə və qrafik materialların hazırlanması mahiyyətcə inqilabaqədərki dönəmin Azərbaycan memarlığı tarixində ilk elmi ölçmə işləri idi.

Şirvanşahlar sarayında ölçmə işlərini sonralar Bakı Şəhər İdarəsi tikinti şöbəsinin əməkdaşı - 1916-ci ildə Peterburqdan gəlmiş İsmayıl bəy Nəbi oğlu davam etdirmişdir. Professor V.M.Zummer Nəbi oğlunun işlərini yüksək qiymətləndirərək, yazırdı ki, "... sarayın İsmayıl bəy Nəbi oğlu tərəfindən 1918-ci ildə çox nadir elmi vicdanlılıqla yerinə yetirilmiş ölçmələrin indiyə qədər qaralama halında olan çertyojlarda qalmasına yalnız təəssüf etmək olar, çünki o vaxt sadəcə müqayisə ilə müəyyən etmək olardı ki, Pavlinovun məqaləsinə əlavə edilən plan və kəsimlər yalnız təqribi olaraq, "gözəyarı" yerinə yetirilmişdir" [143].

Zummer, görünür, Abuyevin yəqin Nəbi oğlunun iştirakı ilə icra etdiyi ölçmələrdən xəbərdar deyildi. Nəbi oğlu Peterburqdan gələnə qədər tanınmış memarların: memarlıq üzrə akademik A.İ.Tamanov və E.İ.Konstantinoviçin köməkçisi kimi çalışmışdı. O, əsasən Tamanovla işləmiş, iş çertyojları hazırlamış, şablonları, bina hissələrinin fraqmentlərini çəkmiş, ölçmə işləri aparmışdır. Tamanov kimi ustad memarın yanında son 7 il ərzində çalışması, şübhəsiz, Peterburqun yaşayış və ictimai binalarının inşaatında tikinti işlərinin icra təcrübəsi ilə yanaşı Nəbi oğlunun ciddi peşəkar








*1806-cı ildən 1918-ci il ərzində Bakının inkişafı (Ş.S.Fətullayeva görə).*

biliklər əldə etməsinə imkan vermişdir. Nəbi oğlu paytaxtda çoxdan bəri işləyirdi və "tikinti sənəti sahəsində böyük təcrübəyə" malik olduğundan, Peterburqdan gələn kimi Bakı Şəhər İdarəsi tikinti şöbəsində işə girdi. Hərbi dövrlə bağlı olaraq şəhərdə tikinti işlərinin xeyli dərəcədə azalması Abuyev və Nəbi oğlunun Azərbaycan memarlığının görkəmli abidəsi olan Şirvanşahlar saray kompleksinin ölçmə işləri ilə məşğul olmalarına imkan verdi.

Hələ Bakının memarlıq-planlaşdırma strukturunun formalaşma prosesinin getdiyi bütöv bir yüzillik ərzində (1806-1918-ci illər) onun inkişafı heç də həmişə bir ahəngdə getməmişdir. Tarixi, siyasi və sosial şəraitdən asılı olaraq şəhər ərazisinin inkişaf xarakteri sıçrayışlar şəklində olmuşdu. Lakin bu prosesdə qala divarları hüdudlarından kənarda yaranan və qısa bir müddət ərzində çox iri neft sənayesi mərkəzinə və çox böyük ərazi törəməsinə çevrilən şəhərin davamlı şəkildə böyüməsi müşahidə olunurdu.

XIX əsrin birinci yarısında Zaqafqaziya iqtisadiyyatında sonuncu yerlərdən birini tutan, lakin tezliklə bütün sahələrdə təkcə Zaqafqaziyanın deyil, Rusiyanın da bir çox şəhərlərini geridə qoyan Bakının tikinti uğurlarına yalnız heyran qalmaq olardı.

### Şəhər mərkəzinin və onun magistralının formalaşması

Bakının 1809-cu ildə rabadın yerində təməli qoyulan forştadtı (bayır-şəhəri) özünün böyük esplanadı ilə qalanın ətraf rayonunu təşkil edir və düzbucaqlı məhəllələr sistemində müstəqil şəkildə inkişaf edirdi. Bakının ticarət və inzibati mərkəzləri demək olar bütün XIX əsr ərzində qalada yerləşirdi, ona görə də şəhər idarəsi və Qafqazın ölkə administrasiyası bayır-şəhərin öz kompozisiya mərkəzi ilə bütöv bir memarlıq-planlaşdırma orqanizmi kimi inkişafının qayğısına az qalırdı.

Hərbi qalaların yanındakı forştadtların planlaşdırılma layihələri şəhərsalma məsələlərinin həllindən uzaq olan və bu kimi ərazilərə hərbi məskənlər üçün yer kimi baxan hərbi mühəndislər tərəfindən tərtib edilirdi. Bu vəziyyət, təbii ki, Bakının esplanadın da daxil olduğu mərkəzinin planlaşdırması və tikilişində xeyli iz buraxmışdır.

Bakının 1864-cü ildə tərtib edilmiş baş planında forştadt və esplanad qala istehkamlarına lap yaxınlaşaraq şəhərlə bütünlük təşkil edirdi. Esplanad o zaman hələ tam tikilməmişdi və layihə onun planlaşdırma xarakterini müəyyənləşdirirdi. Layihədə yalnız təlimlər və plats-paradlar üçün nəzərdə tutulmuş meydanlar (gələcək Kolyubakinskaya və ya Parapet və Molokan slobodası - Marinsk bağı) işarətlənmişdi, lakin onlar da bir-birinə və tarixi nüvəyə - İçərişəhərə münasibətdə təsadüfi mövqe tutaraq şəhərin mərkəzinə çevrilə bilmədilər.

Mərkəzin memarlıq-planlaşdırma kompozisiyasının həll edilmədiyi bir də bununla çətinləşirdi ki, qalanın yanında şəhər məhəllələrinin inkişafı şimal-qərb tərəfdə ətrafı yaşayış və ticarət binaları ilə tikilmiş müsəlman qəbiristanlığı şəklində (5 hektara yaxın) böyük bir maneə ilə qarşılaşmışdı. Bu qəbiristanlıqda dəfn işləri 1859-cu ildən dayandırılmışdı, lakin onun nizamlanma məsələsi Şəhər Dumasında hələ uzun müddət müzakirə mövzusu olmuşdu. Elə gəlirdi ki, belə bir vəziyyət bu yerdə tikinti işləri aparılması və ya onun ictimai bağa çevrilməsi yolu ilə təcili tənzimlənmə tələb edir. Fəqət bu məsələ keçmiş qəbiristanlığın ərazisində Aleksandr Nevski kilsəsinin tikintisinin başlandığı 1888-ci ilə qədər açıq qalırdı.





Şəhərin kompozisiya və planlaşdırma oxunu təşkil edən yeganə mərkəzi ticarət magistralı (Bazarnaya küçəsi) qala divarları yaxınlığında qərb və şərq istiqamətində şaxələnir və 1860-cı illərdə Qasım bəy Hacıbababəyovun layihəsinə əsasən 600 metr uzunluğunda sahil küçəsinin salındığı dəniz sahilinə aparıb çıxarırdı. Şəhər sərhədləri hüdudunda getdikcə sayı çoxalan rahat liman körpüləri (Kamennaya, Tamojennaya, "Qafqaz və Merkuri" şirkətinin körpüsü) sayəsində sahil küçəsinin ticarət həyatında önəmi olduqca böyük idi.

Sahil küçəsi özünün müəyyən plan cizgiləri ilə şəhərin kompozisiyasına planlaşdırmanın əsas elementlərindən biri kimi daxil olsa da, forştadtın məhəllələri ilə rahat əlaqə hələ yox idi. Qala divarları boyunca torpaq yol uzanırdı. Onun magistrala çevrilmə layihəsi 1878-ci ildə şəhər memarı O.Porfirov tərəfindən işlənib hazırlanmışdır.

Demək olar bütün Avropa şəhərlərinin formalaşması və inkişafı prosesində şəhərin planlaşdırmasına üzvü surətdə daxil olan, şaxələnmiş çoxsaylı küçələr şəbəkəsi ilə birləşən bir əsas magistral müəyyənləşir. O öz əhəmiyyətini hətta ərazinin sonrakı genişlənməsində də qoruyub saxlayır [273]. Formalaşması və mərkəzin müəyyənləşməsi prosesində şəhərlərin təşəkkülünün mahiyyəti bundan ibarətdir. Bu prosesi Leninqrad, Moskva, Kiyev, Paris və bir sıra digər Avropa şəhərlərinin timsalında müşahidə etmək mümkündür.

Qala divarları hüdudundakı rayon hesaba alınmasa, Bakının gənc şəhər olmasına baxmayaraq, onun mərkəzi əsas təmtəraqlı magistralın ətrafında tez bir zamanda formalaşdı. O, ansambl vəhdətinə malik tikilişlər əldə etdi. Bu magistral Bakı qalası ətrafında divarlardan 50-80 metr aralıdan və yeni tikilişlərin tarixi İçərişəhər rayonuna cazibəsi nəticəsində əmələ gəldi, burada ictimai-inzibati təyinatlı binaların inşası başlandı.

XIX əsrin ikinci yarısında Avropa şəhərsalmasında orta əsrlər müdafiə divarları və xəndəklərinin yerində dairəvi xarakterli magistralların yaradılma praktikası vardı. Memarlar Van der Nyuk və Sikardsburqun layihəsi əsasında Vyanada Rinqştrassenin yaradılması belə bir kompozisiya-planlaşdırma inkişafına ən maraqlı misaldır. 1857-ci ildə orada bulvarlar salınmış və şəhərin yeni fəza mərkəzini əmələ gətirən ictimai binaların və meydanların böyük kompleksləri üzə çıxmışdır [170, s.30]. Bakıda isə baş magistral Vyanada olduğu kimi qala divarlarının və doldurulmuş xəndəklərin yerində deyil, mövcud yol boyunca salınmışdı.

Dairəvi magistralın layihə işarətləri hələ onun memarlıq baxımından formalaşdığını müəyyən etmirdi. Şəhər əhalisinin sayca artması və forştadtın genişlənməsi, eləcə də aydın ifadə edilən ictimai mərkəzin olmaması ilə bağlı olaraq 1880-ci ilin əvvəlində belə bir mərkəzin yaradılmasına dair yeni layihə təklifi irəli sürülür. Forştadtın mərkəzi hissəsi artıq tikilmiş olduğu və bu məqsədlər üçün münasib sərbəst ərazinin yoxluğu səbəbincə, ictimai mərkəzi şəhərin şərq hissəsində, təsdiq edilmiş, ancaq hələ tikilməmiş məhəllələrin arasında salmağı düşünürdülər. Şərq və qərb tərəfdən, müasir Kirov və Şmidt küçələri arasındakı, şimalda isə 28 Aprel küçəsi və cənubda sahil sərhədlərində ümumi sahəsi 18 hektar olan məhəllələri tutmaq niyyəti vardı.

1880-ci ilin layihəsinə müvafiq olaraq, İctimai mərkəzin kompozisiyası şimal istiqamətində xətti olaraq elə açılırdı ki, bu, sonralar 1937-ci ildə professor L.A.İlyin tərəfindən işlənib hazırlanmış layihədə təqdim edilirdi.

**1880-ci illərin layihəsi.** Bu layihədə (müəllifi məlum deyildir) şəhərin mərkəzinin yalnız layihə sxemi işarətlənib, bu layihədə üzü dənizə baxan və perimetri boyunca ağaclarla əhatə olunan böyük düzbucaqlı şəklində Sobornaya meydanı yaradılması nəzərdə tutulurdu. Şimaldan Birjevaya, bir az aralıda isə həmin oxun üzərindəki Bazarnaya meydanı Sobornaya meydanına bitişirdi. Beləliklə, bir ox boyunca ardıcıl olaraq, öz funksional təyinatına görə fərqli, lakin ümumşəhər mərkəzi ideyası ilə birləşən meydanlar sistemi yer tuturdu. Bu çox böyük meydanın mərkəzində, təbii ki, iki cərgə ağaclarla əhatə olunmuş kilsə yerləşirdi. Kilsə üçün yeri uğurlu saymaq olmazdı, belə ki, yeri çökəkliyə düşmüşdü.

Lakin bu layihədə mərkəz ideyası öz təcəssümünü tapmadı, çünki Sobornaya meydanının yeri müsəlman qəbiristanlığı ərazisinə köçürüldü. Orada 8 oktyabr 1888-ci ildə memarlıq akademiki R.R.Marfeldin layihəsi əsasında Aleksandr Nevski kilsəsinin təməli qoyuldu. Layihədə nəzərdə tutulan Sobornaya meydanının yerini isə Birjevaya meydanı tutdu.

1878-ci ildə sənətkarlar cəmiyyəti Şamaxı qapılarından başlayaraq qərbdə ərzaq mağazasına qədər Nikolayevskaya küçəsi boyunca dairəvi magistralın boş sahəsində rastazbazarın (düz sıra ilə düzülmüş dükanlardan, mağazalardan və s.-dən ibarət bazar) tikilməsi üçün yer ayrılması xahişi ilə şəhər idarəsinə müraciət etmişdi. İdarə sənətkarlardan digər boş yer seçməyi tələb edərək, əvvəlcə rədd cavabı vermişdi. Lakin yer əlverişli olduğundan (yaxınlıqda artıq karvansaralar, ticarət sıraları tikilmildi) sənətkarlar inadlarından dönmürdülər; onlar hər halda şəhər idarəsini sənətkarların daimi rastabazarının layihəsinin tərtibinə razı sala bildilər, "bu şərtlə ki: 1) sənətkarlar dükan və otaqların əsaslı şəkildə daşdan və öz hesablarına tikilməsini texnikin nəzarəti altında, razılığın verilməsindən ən geci bir il müddətində yerinə yetirsinlər". Yuxarıda otaqları olan 78 dükanın və geniş həyətin laihəsini idarənin texniki F.A.Lemkul işləyib hazırlamışdı. Lakin onların tikintisi həyata keçirilmədi: yerli hakimiyyət bu sahənin şəhər üçün böyük əhəmiyyət kəsb etdiyini anlayaraq, dükünların inşasını qadağan etdi.

**1890-cı illərin layihəsi.** 1890-cı illərin əvvəlində bütünlüklə inzibati-ictimai qurmlar üçün ayrılan bu yerin (3 hektara yaxın sahə idi) tənzimlənmə layihəsi tərtib edildi. Layihəyə gələcəkdə şəhərin özünəməxsus ictimai mərkəzini təşkil edəcək binaların funksional əhəmiyyətinin müəyyən olunduğu qurmaların siyası da əlavə edilmişdi. Qubernator evinin, Şəhər Duması və Şəhər İdarəsinin binalarının, realnı məktəbi, məscid və ticarət sıralarının tikilməsi nəzərdə tutulurdu. Binaların tərkibi kifayət qədər sanballı idi və memarlıq baxımından maraqlı və ifadəli olmağı vəd edirdi.

*Nikolayevskaya küçəsi.* Qala divarları və binaların ara sahəsinin planlaşdırma layihəsinin ilkin variantına görə 18 metr enində küçə salınması nəzərdə tutulurdu. İşarətlərin xeyli fərqli olması ilə, bir tərəfdən bütöv qala divarları və digər tərəfdən arxa fasadlarla məhdudlaşan küçə şəhər həyatında əhəmiyyətli rol oynaya bilməz və memarlıq baxımından ifadəsiz olardı.

Yeni varianta əsasən qala divarlarının yanı ilə uzanan küçə ləğv edilir və boşalmış sahədə kənarlarına ağacların əkildiyi geniş səki, mülk sahələri arasında isə 13 metr enində döngələr nəzərdə tutulurdu.

Nəticədə qala divarları ətəklərinin planlaşdırması daha uğurlu alındı. Döngələr şəbəkəsinin yaradılması sayəsində magistrallardan qalanın ifadəli memarlığına görünüş açılırdı. 1882-ci ildə bu rayonun aşağı hissəsində memar A.Koşinski tərəfindən layihələşdirilən bulvarın salınması nəzərdə tutulmuşdu.

Bir neçə il də keçdi və Nikolayevskaya küçəsi sahələrinin birində nəzərdə tutulan binalardan birincisi inşa edildi. 1893-cü ildə Cümə məscidinin tikintisi üçün sahənin hazırlanmasına başlandı. Onun fəvvarəli və hovuzlu parkda inşası nəzərdə tutulmuşdu. Bakı müsəlmanları İstanbul, Təbriz, İsfahan və digər Şərq şəhərlərinin möhtəşəm obrazlı məscidlərinə bənzər, onlar kimi ağacların, incə şırnaqlı fəvvarələrin və şəffaf sulu hovuzların əhatəsində mənzərəli bir memarlıq mühiti yaradan ayin ansamblına malik olmaq istəyirdilər.

5 noyabr 1896-cı ildə ilkin olaraq Cümə məscidinə ayrılan sahə H.Z.Tağıyevin özəl müsəlman qızlar məktəbi binasının tikinlməsi üçün verildi. Layihənin müəllifi və tikinti icraçısı məktəb binasının layihəsini hələ 1896-ci ildə tərtib etmiş mülki mühəndis İ.V. Qoslavski idi.

Məktəbin 1898-ci ildə başlanılan tikintisinin artıq sona yaxınlaşdığı bir vaxtda Nikolayevskaya küçəsində 18 may 1900-cu ildə Bakı Şəhər Duması binasının (İ.V. Qoslavskinin layihəsinə əsasən) təməlqoyma mərasimi oldu. Bu inzibati bina formalaşma mərhələsində olan Nikolayevskaya küçəsinə böyük miqyas verməli idi.

Qızlar məktəbi və Duma arasında 14 may 1901-ci ildə Nikolayevskaya küçəsində realnı məktəbin monumental binasının (mülki mühəndis D.D.Buynov) təməli qoyuldu. Bu bina öz həcminə görə bütün qonşu qurmaları geridə qoyurdu. Məktəbin binası magistralın əsas binalarının yerləşdiyi qövsün yoxuşundakı sərt döngədə yerləşirdi. Realnı məktəbin tikintisi ilə Nikolayevskaya küçəsinin formalaşması başa çatmış oldu. Onun memarlıq siması Bakının inzibati-ictimai mərkəzinin özünəməxsus bədii siluetini yaradan möhtəşəm qurmalarla müəyyənləşdi. Qala divarları boyunca axarbaxarlı qövs boyunca uzanan bu küçə ilə hərəkət edərkən adamın gözü qarşısında fraqmentar şəkildə qavranılan tikilişlərin tədricən yeni-yeni mənzərələri açılır.

Nikolayevskaya küçəsinin tikilişinin tam başa çatdırılması üçün boş sahələrdə qubernator evinin və bazarın inşa edilməsi lazım idi. Bu tikilişlər də küçənin həcmfəza strukturuna daxil olmalı idi.

Qubernator evinin layihəsi hələ 1870-ci illərin əvvəlində hazırlanmışdı. Onun üçün sahə Kamennaya liman körpüsünün yaxınlığında seçilmişdi. Qubernator A.Kolyubakin yazırdı ki, «... bu yerdə evin tikilməsi, şəhərə yaraşıq verməklə yanaşı, bir tərəfdən mövcud fontanlı meydana, digər tərəfdən... paroxodların sərbəst şəkildə evə qədər yanaşa bildiyi dənizə çıxışı ilə olduqca rahat idi». Lakin hakimiyyət qubernatora evin xəzinə hesabına tikilməsindən imtina etməyi və bundan sonra da xüsusi ev sahiblərindən kirayəyə ev götürməyi təklif etdi.

Nikolayevskaya küşəsində nəzərdə tutulan bazarın tikilişi ona görə həyata keçirilmədi ki, XIX əsrin sonlarına doğru Bakı hədsiz dərəcədə böyümüşdü: dükanların qarşısındakı səkilərdə və əsas bazarın yaxınlığındakı küçələrdə ticarətlə məşğul olmaq səliqə-sahmanın gözlənilməsi məqsədilə polis tərəfindən qadağan edilmişdi. Ticarət adamları Nikolayevskaya küçəsində yerləşən «Kaspi» mətbəəsinin (Sabir bağı) binası və qızlar məktəbi arasındakı boş meydançada yerləşdirildi. Burada müvəqqəti bazar yarandı. Lakin şəhər idarəsi ona daha cəlbedici görünüş vermək və sanitar-gigiyenik tələblərə cavab verən bazar imşa etmək qərarına gəlmişdi.



*Nikolayevskaya küçəsi rayonunda bulvar layihəsi. Perspektiva. Memar A.Koşinski. 1882-ci il.*

Bu məqsədlə Qoslavski 2 fevral 1898-ci ildə bazarın layihəsini tərtib etdi, burada orta ölçülü 60 dükan, daxildə geniş keçidlərlə alfalt döşənmiş həyət nəzərdə tutulurdu. Lazımi təmizliyə əməl olunması üçün bazar kanalizasiyaya və içməli suya malik olmalı idi. Bazarın tikinti dəyəri 31000 rubla hesablanmışdı.

Memarlıq nöqteyi-nəzərindən bazar, şəhər idarəsinin ifadəsincə, ən sadə şəkildə layihələşdirilmişdi, yalnız Nikolayevskaya küçəsinə baxan fasad "abadlıq baxımından tam layiqli görünüş almalı idi".

Bazarın tikintisi haqqında məsələ müzakirə edilərkən, Şəhər Duması qlasnıları bu ideyanı dəstəkləməklə yanaşı, qeyd etməyə bilmirdilər ki, qubernator evinin, Dumanın, qızlar məktəbinin və realnı məktəbin tikiləcəyi mərkəzi küçədə belə bir qurma münasib deyildir. Belə bir fikir vardı ki, bazar şəhərin ən yaxşı küçəsinin görünüşünə xələl gətirəcək və ona görə də onun «sırf sanitariya mülahizəsincə, realnı məktəbin yaxınlığında tikilməsi heç bir halda olmaz».

Qoslavski öz layihəsini müdafiəsinə qalxaraq izah edirdi ki, «bazar qənaətcil, sadə, rahat, gözəl və ucuz bir şəkildə layihələşdirirlmişdir». Fəqət şəhər hakimiyyəti bazar nə qədər gözəl və səliqəli şəkildə inşa edilsə belə, onunla qonşuluğu istəmirdilər; bu sahədə onun tikintisi rədd edildi.

Bazar üçün ayrılmış sahə, orada şəhərin ən yaxşı qurmalarından biri, o vaxtlar yaxşı tanınan memar - mülki mühəndis İ.K.Ploşkonun layihəsi əsasında inşa edilən «İsmailiyyə» xeyriyyə cəmiyyəti binası tikilənə qədər 10 il ərzində boş qaldı [459]. Layihə 1907-ci ildə tərtib edilmiş, binanın təməli 21 dekabr 1908-ci ildə qoyulmuş və onun tikintisi 1913-cü ilin əvvəlində başa çatdırılmışdır. «İsmailiyyə» cəmiyyətinin binasının yerləşdiyi sahə küçənin strukturunda planlaşdırma baxımından əlverişli, ancaq memarlıq aspektində məsul mövqe tuturdu. «İsmailiyyə»nin sahəsi ilə qonşuluqda artıq qızlar məktəbinin gözəl binası ucalırdı, küçənin formalaşdırılmasının verilən memarlıq istiqaməti isə Ploşkodan elə bir məqsədyönlü iş tələb edirdi ki, həcm-fəza baxımından ifadəli bina yaradılmasına rəvac vermiş olsun.

Nikolayevskaya küçəsinin baş hissəsində Venetsiya qotikası ruhunda əzəmətli bir bina – hündürlük işarətində uğurla yerini tutmuş, son dərəcə plastik və yaxşı cizgilənmiş İsmailiyyə palasso göründü. Bu bina materiallarda əsl memarlıq sinfoniyasını təcəssüm etdirən memarın ustalığına və bənnaların məharətinə heyranlıq doğuran harmonik bədii əsər təsiri bağışlayır.





İsmailiyyə binası 1920-ci illərin əvvəllərində qonşuluğunda yerləşən «Kaspi» mətbəəsinin yerində Sabir adına küçə bağçası salınarkən, şəhərsalma baxımından xüsusilə uduşda oldu.

Nikolayevsakaya küçəsinin əks tərəfində demək olar yalnız yaşayış binaları inşa edilmişdi. Onların hamısı əsasən Avropa memarlığının şəhərin mülki tikintisinin xarakterinə öz təsirini göstərən klassik formalarında inşa olunmuşdur. Lakin Sadıqov qardaşlarının Nikolayevskaya küçəsindəki yaşayış evi (1910-1912) milli üslubda inşa edilmiş bina örnəyidir və stilizatorçuluğa ən uğurlu misallar sırasına aiddir. Mülki mühəndis Q.M.Termikelovun layihəsi əsasında yaradılan bu binanın memarlığında lociya və balkonların qurulmasını diqtə edən yerli iqlim şəraiti dürüst nəzərə alınmışdır.

Bakının İçərişəhər qalası ətrafında salınan dairəvi magistral Nikolayevskaya küçəsindən başqa Sadovaya, Naberejnaya və Mixaylovskaya (indiki Zevin) küçələrindən ibarət idi.

Bakı ictimai məclisinin ağsaqqallar şurası 1907-ci ildə Mixaylovskaya bağındakı yanan klubun əvəzinə yeni yay klubunun tikilməsinə icazə almağa nail oldu. Klubun binası bağın ərazisində, Nikolayevskaya və Sadovaya küçələrinin tinində tikildi. O da, eynilə İsmailiyyə kimi şəhərdə məsul yer tutur, sahildən Sadovaya küçəsinin yuxarı terrasına perspektivanı vurğulayırdı.

*Sadovaya küçəsi.* Sadovaya küçəsinin tikilişlərinə 1885-ci ildə başlanılmış və dairəvi magistralın ən təmtəraqlı hissəsinin - Nikolayevskaya küçəsinin formalaşması üçün bir növ «memari zəmin» hazırlamışdır. Uzunluğu 450 metr olan Sadovaya küçəsində baxımlı binalar inşa edilmişdi. Hündürlük işarətində 1885-ci ildə Mariinskaya gimnaziyasının ikimərtəbəli binası (mülki mühəndis M.D.Botov) tikilmişdir.



*Mülki mühəndis İosif Vikentyeviç Qoslavski (1865-1904).*

Qırmızı xətdən geriyə çəkməklə, klassik formalarda inşa edilən ictimai binanın ucaldılması və fasadın qarşısındakı yaşıllıq dairəvi magistralın şəhərin işgüzar və ictimai mərkəzindən aralı düşən qərb hissəsinin mənimsənilməsi üçün bir təkan oldu.

Gimnaziya ilə yanaşı, demək olar eyni işarətdə tezliklə fon der Nonnenin 31 avqust 1888-ci ildə təsdiq edilmiş layihəsi əsasında inşa edilən Deburun dəbdəbəli malikanəsi göründü. Onun sakit üfqi hissələnməsi sonradan klub binasının və Sadıqovların yaşayış evinin vertikalları ilə yaxşı ahəng yaradırdı. Deburun malikanəsi layihələşdirilən vaxtlarda küçənin qırmızı xətləri boyunca olan sahələri boş idi. Beləliklə, fon der Nonne baxımlı bina obrazı axtarışlarında ətraf tikilişlərin xarakterini nəzərə almaq zərurəti ilə buxovlanmış deyildi. Çıxıntılı hörgülər fonunda yaxşı

cizgilənmiş klassik elementlər, güclü plastik vasitələr (portiklər) bu malikanənin memarlıq ehtişamını qabardırdı. Bu tip tikililər şəhərin mərkəzi küçələrində görünməyə başladı.

Fon der Nonne tərəfindən yaradılan bina - ön fasadda portiklərdən, yan tərəflərdə isə lociya və digər plastik vasitələrdən aktiv istifadə yolu ilə yaşayış evinin həcm-fəza həllinə ilk cəhd idi. Bu, şəhərdə müstəvi perimetral tikilişlər arasında üç ölçüdə qavranılan yeganə tarixi binadır. Deburun evi şəhər ərazisinin bitişik hissələrinin sonrakı yenidən planlaşdırılması zamanı istinad edilən qurma oldu, sanballı həcmi və effektli məkanı isə onu uğurla tikilmiş binalar arasında kompozisya vurğusuna çevirmişdi [273]. Bakı memarları şəhərin yaşayış evlərinin tikintisində memarlığın fəza həlli ideyasını bundan o yana inkişaf etdirmədilər.

Sadovaya küçəsi şəhərin mərkəzi hissəsinin bitdiyi və tikilişlərin oradan Bayıl rayonuna yayıldığı meydandan (indiki Azneft meydanı) başlayırdı. Bu meydan 1890-cı illərin əvvəlində əsas hissəsində, yəni Kokorevsk adlanan sahədə Tiflis memarı P.Şternin layihəsi əsasında üçmərtəbəli "gəlirverən evin" tikilməsindən (1891-ci il) sonra öz memarlıq simasını dəyişmişdi. Layihə 25 may 1893-cü ildə təsdiq edilmiş, həmin ilin sonunda isə inşaat işlərinə başlanılmışdı. Fransa renessansı üslubunda traktovka edilən fasad sahil zolağının qərb hissəsinin perspektivasını tamamlayırdı.

*Sahil zolağı.* Dəniz tərəfdən qala divarları söküldükdən sonra (1860-ci il) sahil zolağı şəhər memarı Qasım bəy Hacıbababəyov tərəfindən nizamlanmış və sahil küçəsi yaradılmışdır (1865-1868-ci illər). Qalanın şərq hissəsinə və sahil zolağına bitişən məhəllələrin tikilişindən sonra sahil zolağının şəhərin strukturundakı rolu yüksəldi. Məhz o vaxtdan sahilin mərkəzi rayonlarla daha sıx əlaqəsi quruldu və nəqliyyat magistralına çevrildi.

Esplanadın təzəlikcə tikilməyə başladığı vaxtlarda İçərişəhərin sahil zolağı boş idi. «Qafqaz və Merkuri» gəmiçilik şirkəti 1860-cı illərdə burada körpü və digər liman qurmaları inşa etdi. Bu qurmalar sahil zolağını iki hissəyə: qərbdə, qala boyunca - "Aleksandrovskaya naberejnaya" və şərq istiqamətində Bolşaya Morskoya (Kirov prospekti) küçəsinə qədər – "Petrovskaya naberejnaya"ya bölürdü. Tikilişin belə bir üsulu şəhərin strukturuna üzvi şəhərsalma elementi kimi daxil ola biləcək vahid sahil zolağının yaradılmasına imkan vermirdi.

Şəhər İdarəsi özünün Aleksandrovskaya və Petrovskaya sahil hissələrinin nizamlanmasına dair təkliflərini 1897-ci ildə Dumanın plan komissiyasının müzakirəsinə təqdim etdi. Şəhər İdarəsi uzun bir daş manеə yaratmağı və bununla da eni 30 metrdən çox olan müasir sahil küçəsinin (Qara şəhərdən Mixaylovskaya küçəsinə qədər) biçimlənməsinin təməlini qoymağı təklif etdi.

Sonralar Bakının baş planı tərtib edilərkən Fon der Nonne plan komissiyasının sahil küçəsini Dadaşovun dokundan Qara şəhərə qədər sahil zolağı boyunca genişləndirmək tövsiyəsini nəzərə almışdı. Tikinti şöbəsində bu plan gözdən keçirilərkən belə qərara gəlmişdilər ki, təklif edilən həll yolu dəniz kənarının planlaşdırmasındakı mövcud rahatsızlığı aradan qaldırmamışdır, ona görə ki, «Qafqaz və Merkuri» gəmiçilik şirkətinin anbarlarının yerləşdiyi məhəlləni kəsib keçmək lazım idi. Eyni zamanda sahilin Petrovskaya hissəsində və şərqə doğru (400 metrdən çox uzunluqda) işlərə başlamaq tələb olunurdu, bu səmtdə bərbad vəziyyətdə olan dəniz sahilindən yanaşma və digər yollar olmadan taxta-şalban körpüsü kimi istifadə edilirdi.







*İçərişəhər ətrafında dairəvi magistralın planı.*

Sahil küçəsi boyunca daş parapetlərin hörülməsi üzrə işlər irəliləyirdi, lakin ticarət firmalarının çoxsaylı özəl liman körpüləri və gəmiçilik şirkətlərinin anbarları və və digər tikililəri dəniz sahilini o dərəcədə tutmuşdular ki, oranın yaxşılaşdırılması üzrə görülən işləri heçə endirirdi.

Sahilin Petrovskaya hissəsi yaşayış məhəlləri səmtdə Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər şəhərin ən baxımsız və görkəmsiz yeri idi.

Sahilin birbaşa İçərişəhərə bitişən Aleksandrovskaya hissəsi Şəhər İdarəsinin xüsusi diqqət obyektinə çevrilmişdi, üstəlik də qubernatorun mənzili və iqamətgahı burada yerləşirdi.

Şəhərin memarlıq simasında və planlaşdırma strukturunda sahil zolağının Aleksandrovskaya hissəsinin rolu sa-

hil zolağı genişləndirildikdən və daşınıb tökülən torpaq layı üzərində möhtəşəm bir bulvar əmələ gəldikdən sonra (1909-cu il) özəliklə artmışdı. Bulvarla üzbəüz mülki mühəndis N.Q.Bayevin layihəsinə əsasən dəniz hamamı tikilmişdi. Sahildən baxdıqda, gün işığında və yaşıllıqların qoynunda bu hamam «zərif yay sarayı şəklində" açılırdı.

Dirəklər üzərində qurulmuş yüngül ağac hamamlar bulvarın bədii həllində iştirak edən zərif memarlığı ilə gerçəkdən diqqəti çəkirdi.

*Mixaylovskaya və Olqinskaya küçələri.* Dairəvi magistralın son hissəsi olan Mixaylovskaya küçəsi mərkəzi meydanların birindən - Parapetdən başlayır və sahilin Aleksandrovskaya hissəsi ilə sona çatırdı.

Ən iri mağazaların, bankların, burjuaziyanın saraylarının, mehmanxanaların, ictimai müəsssisələrin cəmləndiyi ən abad məhəllələrin mərkəzində yerləşməklə Mixaylovskaya küçəsi şəhərin işgüzar rayonunun başlıca arteriyalarından birini təşkil edirdi. Onun tikilişləri klassik formalı üçmərtəbəli yaşayış evləri və ticarət sıralarının iri həcmləri ilə təmsil olunmuşdu. Məhz Mixaylovskaya küçəsi və onunla qonşu olan Olqinskaya küçəsi mərkəzin məhəllələri və sahil arasındakı trassın əsas bağlantısını təşkil edirdilər.

Bu küçələrin əsaslı tikilişi - dəniz kənarının şəhərsalma rolunun artması və onunla bitişik məhəllələrin yeni ictimai və ticarət mərkəzinə çevrilməsinin nəticəsidir. Mixaylovskaya və Olqinskaya küçələrinin olduqca qələbəlik rayonunda 1880-ci illərdən başlayaraq iri binalar tikilməyə başladı.

Hər iki küçənin baş hissəsində karvansara tipli böyük ikimərtəbəli mehmanxana - «Qrand-otel» inşa edildi. Mühəndis-memar N.P.Tverdoxlebov 1883-cü ildə qonşu sahə üçün passaj layihəsini tərtib etmiş, onun tikintisi 1896-cı ildə memar E.Y.Skibinski tərəfindən həyata keçirilmişdir [31, 461]. Bu tikililər bitişik məhəllələrin tikilişinin «memarlıq üslubunu» müəyyənləşdirmişdi. Şəhərin mərkəzindəki torpaqların sahibləri bu sahələrin əlverişli mövqeyindən daha sərfəli istifadə etməyə və binalara baxımlı görünüş verməyə çalışırdılar. Anlayırdılar ki, güzgüvari pəncərələri, geniş yerləşgələri, malların zəngin seçimi olan mağazaların yerləşdiyi mötəbər qurmalar imkanlı publikanın hər zaman həvəslə gəldiyi yer olacaqdır.

Bu sahələrin birində mülki mühəndis K.B.Skureviçin layihəsinə əsasən Tağıyev passajı tikilmişdir (1896-1898-ci illər). Olqinskaya küçəsində, passajla üzbəüz iki əsaslı ticarət binalarına aşkar maneə törədən birmərtəbəli görkəmsiz mağazalar yerləşirdi. Onları sökmək və ya yenidən qurmaq lazım gəlirdi. Bu sahə üçün 1909-cu ildə mülki mühəndis K.A.Borisoqlebski tərəfindən birinci mərtəbəsində mağazalar olan üçmərtəbəli bina layihəsi tərtib edildi. Güzgüvari vitrinləri və yuxarıda kontorları ilə yanaşı iki passajla «Olqinskaya sıraları» Bakının "Avropa xarakterli" ticarət və işgüzar mərkəzinin özəyini təşkil edirdi [395].

Sahilə çıxan paralel küçələr - Milyutinskaya (indiki Myasnikov), Qorçakovskaya (indiki Malıgin), Politseyskaya (indiki Məmmədəliyev) küçələri öz tikilişləri ilə Olqinskaya küçəsindən bir qədər fərqlənirdilər; onlar da kommersiya mərkəzinin cazibəsində idilər. Onlarda banklar (Şimal, Bolqa-Kama, Tiflis bankları və s.), iri firmaların kontorları, burjuaziyanın imarətləri, mehmanxanalar, hər rahatlığa malik gəlirverən evlər, Tağıyev teatrı və s. yerləşirdi. Bütün bunlar şəhərin mərkəzi hissəsinin küçələrinin və məhəllələrinin memarlığında böyük izlər qoyurdu. Adi yaşayış







Bakı. Sadovaya (Çkalov) küçəsinin ümumi görünüşü.

məhəllələrinin əvəzinə xüsusi ritm və dinamikaya malik modern üslubunda yaradılan iri ictimai binalar (Şimal, Tiflis bankları) gəlmişdi. Çoxmərtəbəli mehmanxanalar (məsələn, «Yeni Avropa»), gəlirverən evlər və imarətlərin mənzərəli kompozisiyaları klassik retrospektivizm ruhundakı binalarla növbələnirdi.

Milyutinskaya və Mariinskaya küçələri arasındakı məhəllələr rahat burjuaziya rayonunu təşkil edirdi. Əsasən üçmərtəbəli tikilişləri olan bu rayonun dar və sakit küçələri Bakının şəhər məhəllələrinin əsl miqyasını müəyyən edir və haradasa Peterburqun və Parisin Q.K.Lukovski tərəfindən çox gözəl təsvir edilən köhnə məhəllələrini xatırladırdı [188].

Faktik olaraq şəhərin ümumi planlaşdırması ilə tənzimlənməyən və təsadüfi xarakter daşıyan kiçik məhəllələr rayonu bayır-şəhərdə hakim mövqe tuturdu. Dəniz kənarı, Parapet və Teatr (Petrovskaya), Mariinskaya və müəyyən dərəcədə hətta Sisianov meydanları kimi şəhərin mərkəzi hissəsinin kompozisiya elementləri məhz bu rayonun təsir dairəsində idi.

*Şəhər meydanları.* Bayır-şəhərdə meydanların əmələ gəlməsi şəhərin sosial-iqtisadi həyatı ilə sıx bağlı idi. Bəzi mey-



*Şəhərin mərkəzi meydanlarının yerləşmə sxemi. 1910-cu il. (Ş.S.Fətullayevə görə)*

danlar plats-parad yeri kimi (Parapet), digərləri isə - bazar yeri kimi (Quba, Vorontsov) yaranmışdı.

Bakının şəhər meydanların ətrafı sifarişçinin və ya layihə müəllifinin hüsn-rəğbətindən asılı olaraq bu və digər kompozisiya traktovkasında ayrı-ayrı binalarla tikilmişdi. Adətən şəxsi mülkiyyətdə olan evlərin memarlıq xüsusiyyətlərini fərqləndirmək, sərfəli şəkildə vurğulamaq meyli özünü göstərirdi. Bakının məhdud sayda meydanları və küçə bağçaları şəhər mərkəzinin şəhəryaratma əsasını təşkil edirdi. Onlar forştadtın şəhərsalma inkişafı prosesində yaranmış, lakin böyük miqyasda aydın planlaşdırma təfəkkürünü əks etdirmirdilər. Mərkəzdə, adi tikilişlərin arasında, məsələn, Sobornaya və Birjevaya (26 Bakı komissarı) meydanları, Parapet və Mariinsk küçə bağçası yerləşirdi. Onlar sanki bir sapa taxılıblar və şimaldan Kolyubakinskaya, Molokanskaya (Xaqani), cənubdan Vrangelskaya (Qarayev), Birevaya (Ü.Hacıbəyov), qərbdə Persidskaya (Poluxin) və şərqdə Kaspiyskaya (Leytenant Şmidt) küçələri ilə məhdudlaşırdı. Lakin şəhər planlaşdırmasının bu vacib elementləri arasında onların memarlıq və həcm-fəza özəlliklərini ardıcıllıqla bir növ açıb göstərən kompozisiya əlaqəsi yox idi.

Duma meydanı (Gənclər meydanı) və Parapet məhəllələrin qeyri-düzgün bölünməsi üzündən Mariinsk küçə bağçasından və Birja meydanından ayrı salınmışdı. Şəhərin tarixi özəyi - İçərişəhərlə, forştadtın şəhərsalma toxumasının fokusu ilə aydın memarlıq-planlaşdırma bağlantısı yox idi. Azneft və Teatr meydanları da bu meydanlardan ayrı düşmüşdülər.

Şəhərin planlaşdırma strukturunda onlar bir-birindən çox uzaq məsafədə yerləşməsələr də, mahiyyətcə, bir-birindən təcrid vəziyyətində işləyirdilər. Mühüm planlaşdırma qovşaqlarının bu tərzdə pərakəndəliyi mərkəzin ümumi kompozisiyasında uyğunsuzluq yaradırdı, baxmayaraq ki, kompozisiya baxımından inkişaf etmiş bütöv nüvənin yaradılmasına hər cür zəmin vardı.

Onların sərhədlərini açıqlıq təəssüratı yaradan tranzit küçələrin təşkil etməsi meydanlar üçün səciyyəvidir. Lakin küçələr adi qaydada qurulmuşdular və şəhərin strukturunda meydanların şəhərsalma önəmini ifadə etmirdilər. Ona görə də, məsələn, Sobornaya və Birjevaya meydanlarının, Parapetin və Mariinsk küçə bağçasının şimal sərhədi olan küçə aydın kompozisiya strukturuna malik deyildi və qonşuluqdan keçmələrinə baxmayaraq şəhərin planlaşdırılmasında müstəqil şəkildə mövcud olan küçə və magistralların ümumşəhər sistemində lokal xarakterdə qalırdılar. Yalnız Parapet və Qubernator («Azneft») meydanları bir tərəfdən dəniz kənarı və Mixaylovskaya küçəsi ilə, digər tərəfdən isə Sadovo-Nikolayevskaya magistralı ilə birləşirdi.

Məlumdur ki, şəhər ansambları planlaşdırmanın kompozisiya elementləri olaraq, şəhərin inkişaf və böyümə prosesində





formalaşmışdılar və onun iqtisadi imkanlarından asılı idilər. Bunun nəticəsində baş planda nəzərdə tutulan və tikilişlər arasında özünü yeni-yeni göstərən meydanlar, küçə bağçaları, bulvarlar hələ onlardan gözlənilən memarlıq-bədii və planlaşdırma dəyərinə malik deyildilər. Şəhər meydanlarının qəti şəkildə formalaşması və onların memarlıq baxımından öz həllini tapması Sovet Azərbaycanı memarlarının payına düşmüşdür.

XIX əsrin ikinci yarısında şəhərin inşasında onun planında çox mühüm rol oynayan küçə bağçaları, ictimai bağlar, bulvarlar, meydanlar və magistrallar kimi vacib şəhərsalma elementlərinin üzə çıxması keçmişdə memar Qasım bəy Hacıbababəyov, polkovnik fon der Nonne və mühəndis Hacinski tərəfindən işlənib hazırlanmış baş planların əsas müddəalarının həyatiliyini təsdiq edir.

Şəhərin ümumi həcm-fəza strukturunda meydanlar, küçə bağçaları, bağlarla yanaşı baş küçələrin və magistralların memarlığı önəmli yer tuturdu. Kapitalist Bakısının simasının formalaşmasına məhz onlar rəvac verirdi. Şəhərin hələ forştadtın inkişafının başlanğıcında nəzərdə tutulan Nikolayevskaya, Bazarnaya, Şaxskaya və Kubinskaya kimi magistralları və baş küçələri öz əhəmiyyətini qoruyub saxlamışdır.

Lakin sənaye rayonu - Qara şəhərin, daha sonra isə dəmiryol stansiyasının meydana gəlməsi şəhərin şərq hissəsində yeni, daha gediş-gəlişli arteriyaların inkişafına təkan verdi. Bunlara şəhərin bütün istiqamətlərinə və rayonlarına yük və insan axınlarını buraxan en dairəsi istiqamətindəki küçələr - Merkuryevskaya, Birjevaya, Molokanskaya, Torqovaya, Telefonnaya və Balaxanskaya, meridional istiqamətdə isə - Krasnovodskaya, Bolşaya Morskaya, Malaya Morskoya küçələr şəbəkəsi aiddir.

Bakının tarixi mərkəzi bütöv bir yüzil boyunca qərarlaşmışdır: bu müddət ərzində onun planlaşdırma qovşaqları formalaşmış, meydanlar və əsas magistralların ətrafları tikilmiş və şəhər orqanizminin böyümə çətinliklərinə baxmayaraq, Xəzər üzərində bənzərsiz bir şəhər yaranmışdır.

Ticarət və sənaye sayəsində qeyri-adi sürətlə inkişaf edən bu şəhər ictimai



*Bakı. Şəhər meydanlarının yerləşmə sxemi. (Ş.S.Fətullayevə görə).*

təyinatlı məhdud sayda bağlara və küçə bağçalarına malik idi. Onun küçələrində ağaclara təkəmseyrək rast gəlinirdi. Bununla belə şəhərin yaşıl memarlığı Bakının bədii həllində müəyyən yer tuturdu.

### Bakının yaşıl memarlığı

XIX əsrin ikinci yarısında Bakının səciyyəvi özəlliyini İ.Yevlaxov çox düzgün qeyd etmişdi: «Mən Bakını ciddi simalı, peşəsi etibarilə kommersiya adamı kimi təsəvvür edirəm, nə yaşıllıqlar, nə poetik atmosfer onu maraqlandırır, o, bütün varlığı ilə öz haqq-hesablarına qərq olmuşdur...». Gerçəkdən, buna dəyərdi: Bakı neftinə sahib olmaq uğrunda kapitalist bazarında böyük mücadilə gedirdi; o vaxtlar şəhərin yaşıllaşdırılması haqqında düşünmürdülər. Yevlaxov peyğəmbərcəsinə söyləyirdi: «Səbriniz olsun, Bakı bu yaşıllıqları da, bu yaşıllıqların qoynunda itib-batan gözəl yaylaq evlərini də görəcək...» [123].

Müşahidəçi türk səyyahı, 1656-cı ildə şəhərdə olmuş Evliya Çələbi yazırdı ki, «dənizin sahilində yerləşən böyük rabad minə qədər evi, bağları, məscidləri, karvansaraları, hamamları, örtülü və açıq bazarları olan abad bir şəhərdir « [241]. Bağlarda yalnız meyvə ağacları deyil, eləcə də bəzək ağacları - qovaq, çinar, qaraağac və s. bitir. Beləliklə, orta əsrlərdə hələ sıx tikilişləri olmayan qalada, eləcə də rabadda bağların mövcud olması heç bir şübhə doğurmur.

Şəhərin su ilə təchiz olunmasından ötrü üç su kəməri vardı. Bulaq və quyu sularından əhali məişət ehtiyaclarının ödənməsi, eləcə də bağların suvarılması üçün istifadə edirdi. Suyun olması buna imkan verirdi ki, əhali öz sahələrini yaşıllaşdırmaqla məşğul olur, İçərişəhərin balaca, səliqəli həyətlərini tut ağacları, əncir və üzüm tənəkləri bəzəyirdi.

XVIII əsrdə Azərbaycanın digər şəhərlərində, məsələn, Təbrizdə olduğu kimi, ola bilsin, Bakıda da ictimai bağlar yox idi. Lakin XVIII əsrin sonunda qalada və bayırşəhərdə Bakı xanının saray bağları vardı.

Bakı limanının planında (1783-cü il) qeydə alınmış və XIX əsrin əvvəllərinə qədər forştadtda mövcud olan Xan bağı xanın yay iqamətgahı idi. Bağın hasara alınmış geniş sahəsinin (3 hektara yaxın) mərkəzində xaçşəkilli planda saray binası yerləşirdi. Binanın planına əsasən güman etmək olar ki, bağı uzununa və köndələninə xiyabanlar kəsib keçirdi. Şamaxı yoluna paralel boyuna xiyabanda sularında yay sarayının fasadının əks olunduğu hovuz yerləşirdi.

Oxşar üsuldan Şərqdə geniş istifadə olunurdu [528]. Əşrəfdə Şah Abbasın Şərqin bağ-park sənətinin bütün qaydalarına əsasən işlənmiş məşhur bağları, şübhəsiz, bir çox şərq hökmdarlarının diqqətini cəlb edirdi. Bu onu sübut edir ki, xanlar klassik qurmalara əməl etməyə çalışırdılar; böyük maliyyə imkanları olmadığından onlar təqlid üçün zəif örnəklər yaradırdılar [197].

Yaxın Şərqin dərin kökləri olan bağ-park sənəti [228] müxtəlif dönəmlərdə Əşrəfdə, İsfahanda, Təbrizdə, Tehranda, Şamaxıda, Şirazda və digər şəhərlərdə geniş yayılmışdı. İsfahanın və Şirazın tərəfimizdən aşkar edilmiş 1850-ci illər planlarında kompozisiyaların klassik planlaşdırma sxemi ilə çoxlu sayda şəhərətrafı saray bağlarını sezmək mümkündür. Bu növ son əsərlərdən biri hələ XIX əsrin ikinci yarısında Fətəli şah Qacarın Tehran yaxınlığındakı şəhərətrafı sarayının nəzdində mövcud olmuş Nigaristan parkıdır.

Bu parkın planlaşdırmasının klassik sxemi gözəl bir rotonda və geniş hovuzu ilə mərkəzi ox xiyabanına malik idi, yan xiyabanlar isə sarayın yanında sona çatırdı.





Nigaristan Əşrəfin unudulmuş parklarını xatırladırdı.

Məşhur qafqazşünas A.Berje yazırdı: «Saray bağı ilə əlaqədar onu demək olar ki, mənim Tehran ətrafında gördüyüm ən yaxşı bağlar sırasına daxildir. Möcüzə kölgə salan əzəmətli ağaclar və saysız -hesabsız çiçəklərin havanı dolduran rayihəsi – buranı bənzərsiz bir sığınacağa çevirir...» [42].

Belə bir planlaşdırma üsulu XIX-XX əsrlərin hüdudunda Abşeron bağlarında, özəlliklə Mərdəkan kəndində tətbiq edilirdi.

1850-ci illərdə Bakının yaşıllaşdırılması onu «öz çılpaqlığını yaşıllıqla örtməyə məcbur etməkdən...» ötrü təbiətin üzərinə hücuma başlamaq qərarına gəlmiş Bakı qalasının komendantı R.R.Xovenin adı ilə bağlıdır. Qafqazın ali hakimiyyəti komendantın şəhəri yaşıllaşdırmaq ideyasını dəstəkləmişdi [256, s.304].

Hərbi komendantın şəhərdə yaşıllaşdırmanı aşılamaq cəhdi sirayətedici olmuşdu. Qəza rəisi ondan nümunə götürərək «forştadt və qala arasında Şamaxı yolu boyunca uzun xiyabanlar salmışdı» [256, s.304]. Qalanı şəhərin yeni rayonu ilə bağlayan xiyaban belə yaranmışdı. Bu, Bakının şəhərsalmasında aktiv planlaşdırma və dekorativ element idi. Xiyaban nəinki esplanadın hüznlü xarakterini dəyişmiş, eləcə də bayır-şəhərin əhalisində bağlar salmaq istəyi doğurmuşdu. Bununla bağlı olaraq Peterburqda Admirallıq qarşısındakı esplanadda XVIII əsrdə salınan xiyabanı xatırlamaq yerinə düşərdi.

Mərkəzi rayonun qərarlaşması və formalaşması dövründə (1870-ci illər) xüsusilə də forştadtın qərb hissəsində, qala divarları yaxınlığında sakinlərin şəxsi meyvə bağlarının yerləşdiyi səmtdə küçələrin yaşıllıq arazilərdən çəkilməsi nəticəsində mövcud yaşıllıqların durmadan sıxışdırılması prosesi gedirdi.



*Bakı. Qubernator bağının planı. 1904-cü il.*

1870-ci illərin əvvəllərində Bakıda hələ də ictimai maraqlara cavab verən nə bağlar, nə də küçə bağçaları vardı.

Qubernator və ya Mixaylovsk, Molokan və digər bağlar formalaşma mərhələsində idi və doğulmaqda və varlanmaqda olan burjuaziyanın tələbatını tam şəkildə ödəyə bilməzdi. İş adamlarından biri bu şəraiti görüb təkbaşına 0,5 hektar sahədə ictimai istifadə üçün bağ salmaq qərarına gəlmişdi.

Sahə iki paralel küçə arasında sıxışmışdı ki, bu da bitişik məhəllələrlə rahat



*Bakı. Qubernator bağının ümumi görünüşü. 1900-cü illərin fotoşəkli.*

əlaqəni təmin edirdi. Bağ üçün nəzərdə tutulan sahə şimal-qərb istiqamətində mərkəzdən aralıda yerləşsə də, ictimai bağın layihəsi işlənib hazırlanmışdı.

Şəhər memarının səlahiyyətlərini icra edən ştabs-kapitan A.Laudanski 1 iyul 1878-ci ildə bağın layihəsini təqdim etdi. Bura landşaft bağ kimi düşünülmüşdü, lakin bu ideya layihədə eklektik şəkildə təcəssümünü tapmışdı; müxtəlif formalı güllüklər və qazonlar bağın bütün digər xiyabanlarının istiqamətləndiyi mərkəzi-ox xiyabana tərəf ardıcıllıqla və simmetrik şəkildə sancılırdı.

Hətta bu, landşaft memarlığı nöqteyi-nəzərindən olsa da, çatışmazlıqlarla müşayiət edilsə də, Bakı şəraitində uvrajlar (və öz təcrübəsi ) əsasında mənzərəli park kompozisiyası yaratmaq cəhdi - şəhərin yaşıl quruculuq tarixində son dərəcə diqqətəlayiq faktdır. Laudanskinin təklifi şəhərdə ictimai istifadə üçün işlənib hazırlanmış ilk bağ layihəsi idi.

Bakının yaşıl fondunu ictimai və şəxsi bağlar, xəstəxanaların, məktəblərin və digər idarələrin həyətlərində salınmış yaşıllıqlar təşkil edirdi. Əgər şəhər özünüidarəsinin tabeliyində olan yaşıllıq sahələrinin kəmiyyətinə nəzər yetirsək, rəqəmlərin Bakının tikilişlərinin artımı və onun yaşıllıq təsərrüfatının böyüməsi arasındakı təzadı aydın şəkildə nümayiş etdirdiyini görmüş olarıq.





**Mixaylovsk bağı.** Şəhərin ən köhnə və ən qələbəlik parklarından biri olan Mixaylovsk bağı və ya sakinlərin onu daha çox adlandırdığı kimi, Qubernator bağı (4,6 hektar) onun yerin relyefinə uğurla daxil olan tam planlaşdırma strukturu qəti şəkildə qərarlaşana qədər uzun bir formalaşma mərhələsi keçmişdir. 1830-cu ilin əvvəlində şəxsi yaşıllıq bazasında iki qala divarı arasında salınan bağ tezliklə kənarlarına ağaclar və kolların əkildiyi yeganə bir xiyabanı olan bulvara çevrilmişdi.

Bakı komendantı R.R.Xovenin rəhbərliyi altında nəinki bitkilərin çeşidi genişləndirilmiş və zənginləşdirilmiş, hətta torpağı da yaxşılaşdırılmışdı. O, «gətirilmiş torpaq və çürüntüdən süni şəkildə yaradılmışdı» [256, s.303]. Bağın ərazisində tut, zeytun, qovaq, əncir ağacı, akasiya, keçisöyüdü kimi ağaclar, eləcə də üzüm tənəkləri yetişirdi. Onlarla yanaşı gənəgərçək, küncüt, güllər və tərəvəz də becərilirdi. Komendant yalnız yerli deyil, kənardan gətirilən ağaclar əkərək bağın yaşıllaşdırılması üçün bütün imkanlardan istifadə edirdi.

Belə bir dendroloji struktura malik olan bağ özünün ictimai təyinatına tam şəkildə uyğun ola bilməzdi, lakin hər halda kiçik qarnizonun tələbatını ödəyə bilirdi. Bağın planlaşdırması komendantın təşəbbüsü və bağbanın köməyi ilə kortəbii şəkildə qərarlaşırdı.

1859-cu ildə xarici qala divarları söküləndən sonra bu bağın ərazisi genişləndirilmişdi. 1865-ci ildə bağ dekorativ bitkilərin əkilməsi, rəqs meydançasının qurulması və ona ictimai xarakter verən digər park qurmalarının inşası hesabına yeni cizgilər əldə etdi. O illərdə bağda 12 minə yaxın ağac var idi «və onlar torpağın qatına ən əlverişli mühitdəki kimi işləmişdilər» [123].

Şəhər bağının bədii tərəfinə böyük əhəmiyyət verilirdi. Onun palnlaşdırma xarakteristikası ayrılmış maliyyə vəsaitlərindən asılı olaraq dəyişirdi. Planlaşdırmanın əsas cizgiləri onun bir tərəfdən qala divarları, digər tərəfdən isə Nikolayevskaya küçəsi ilə məhdudlaşan ərazisi sabitləşdikdən sonra formalaşdı.

Müasirlərinin söylədiklərinə görə, XIX əsrin sonlarına doğru bağ şəhərdə gözəl bir vahə idi və çörək ağacı, xurma, püstə kimi dünyanın müxtəlif bucaqlarından gətirilmiş ağac və gül növlərinin zəngin çeşidinə malik idi. Quşüzümü fəsiləsindən olan iddiasız, ən qızmar iqlim şərtlərində də dözümlü olan kol bitkisi bağın bütün boş sahəsini örtürdü. Çox böyük miqdarda şəbbu gülü tutduğu əraziyə görə quşüzümündən heç də geri qalmır və «bağın əsl dekorasiyasını təşkil edirdi» [246, s.279]. Bir zamanlar boş bir yerdə ucaldılan (1882-ci il) şəhər klubunun qəşəng binasını sıx əkilmiş zeytun ağacları, amerika göyrüşü və iran yasəmənləri əhatə edirdi. Mənzərəli bağın arasında fəvvarələr və özünəməxsus memarlığa malik köşklər yüksəlirdi.

Mixaylovsk bağı daim yenilənirdi: şəhərin baş bağbanı yaşıllıq və gül fondunun «palitrasını» hər il genişləndirir, gözəl landşaft kompozisiyasına nail olmağa çalışaraq, planlaşdırmaya düzəlişlər edirdi. Bu bağ şəhərin digər bağları arasında favorit idi: ona digərlərinə nisbətən daha çox maliyyə vəsaiti və diqqət ayrılırdı. Bağın aşıb-daşan yaşıllığından, onun gözəlliyindən Şəhər Duması qürur duyurdu.

Mixaylovsk bağı XX əsrin əvvəllərində o qədər böyümüşdü ki, onun yuxarı və aşağı hissələri bir-birinə qovuşdu və əhali həvəslə onun bütün xiyabanlarını doldururdu. Qəti şəkildə qərarlaşmış olan landşaft tipli yaşıl orqanizm 1904-cü ilin planında qeydə alınmışdı. Onun planlaşdırmasında təsadüfi inkişaf istiqaməti yoxdur, o, hər zaman relyefin xarakteri ilə

| Tarix | Əhali | Ərazi, ha | Yaşıllıqların sahəsi, ha | Sənaye rayonlarının sahəsi, ha |
|---|---|---|---|---|
| 1855 | 8 374 | 60 | 1 | Məlumat yoxdur |
| 1878 | 20 000-ə yaxın | 250 | 3,02 | « « |
| 1908 | « 230 419 | 1100 | 4,68 | « « |
| 1910 | Məlumat yoxdur | 1160 | 5,95 | « « |
| 1913 | « « | 1200 | 9,62 | « « |
| 1918 | 262 422 | 1300 | 10,03 | 10,23 ha (Villa Petrolea) |

şərtlənmişdir. Aşağı və yuxarı hissələri və dəniz kənarını Nikolayevskaya küçəsindən əsas girişlə birləşdirən baş xiyaban mövcud idi. Xiyaban hər zaman istiqamətini dəyişərək dərin hava perspektivası ilə fərqli peyzajlar açıb göstərirdi. Qalan xiyaban və cığırlar, ilk baxışdan müstəqil görünmələrinə baxmayaraq, bağın bütün inkişafı ərzində qorunub saxlanan əsas xiyabanın cazibəsində idi. «Üzəri yaşıl örtüklə demək olar tam bağlanmış kölgəli xiyabanlar əsas terraslarda geniş açıq meydançalarla növbələnirdi» [298, s.282].

Bağ-park qurmaları: fəvvarələr, köşklər, pavilyonlar və s. bağın landşaft memarlığına daxil idi, onlar effektiv sahələrin və ya mənzərələrin üzə çıxmasına bu və digər dərəcədə şərait yaradırdı.

1908-ci ildə İctimai məclis klubunun ağsaqqalları Dumada bağın künc sahəsinin yay klubu üçün ayrılmasına nail oldular. Onun bağın ərazisində tikilməsi haqda məsələ «bir fırtınaya» səbəb oldu, belə ki, tikinti komissiyasının bir çox üzvləri prinsipial olaraq yaşıllığın itirilməsinə qarşı çıxırdılar. Şəhərin başçısı N.V.Rayevski də onlarla həmrəy idi və hesab edirdi ki, kluba görə 220 böyük ağacı qurban verçək olmaz. Klub binası üçün 0,36 hektar ayırmaq lazım idi. Torpağı ayırmağın motivi belə bir fikir idi ki, bulvarın salınmasından sonra şəhər bağı «yeganə istirahət yeri kimi özünün əvvəlki əhəmiyyətini qismən itirmişdir».

1912-ci ildə Nikolayevskya və Sadovaya küçələrinin tinində artıq konsert zalı, yay səhnəsi və restoranı ilə İctimai məclisin möhtəşəm binası ucalırdı (mülki mühəndis Q.M.Termikelov). Söyləmək olmazdı ki, bağ belə bir qonşuluqdan uduzmuşdur, əksinə, o, yeni bir vurğu əldə etmişdi və onun yaşıl libası bina ilə təzadda daha gözəl görünürdü.

**Sisianov bağçası.** Mixaylovsk bağının salınmasından az sonra şəhərdə 0,6 hektar sahəni əhatə edən kiçik bir Sisianov bağçası doğuldu. Hələ 1846-cı ildə Şamaxı yolu yaxınlığında bayır-şəhərin sərhədindəki bu yerdə knyaz Sisianovun abidəsi ucaldılmışdı. Bakının quberniya mərkəzinə çevrilməsindən sonra 1860-cı ildə abidə ilə yanaşı bayır-şəhər sakinlərinin «Xan bulağından gətirilən təmiz su» ilə təchiz edilməsi üçün daşdan rezervuar tikilmişdi [123]. Suyun bolluğu abidənin ətrafında bağça salınması ideyasını pıçıldadı ki, onu memar Qasım bəy Hacıbababəyov gerçəkləşdirdi. 1880-ci illərin əvvəllərində bu küçə bağçası böyümüş və yarpaqlı ağac növləri və güllükləri olan bağa çevrilmişdi.

Bazarnaya küçəsinin səviyyəsindən aşağıda yerləşən bağça onunla renessans fasadlı ikimərtəbəli karvansaranın darşısında duran memorial obelisklə başa çatan və kompozisiyasına görə çox maraqlı olan yarımdairəvi daş pilləkənlə bağlı idi. Dairəvi alçaq hovuz, pilləkənin yaxınlığındakı fəvvarə, Bazarnaya küçəsi səviyyəsində sürahibəndli söykək divar şəhərin planlaşdırmasına qiymətli kompozisiya elementi olaraq daxil olan Sisisanov bağçasının yaşıl memarlığını tamamlayırdı.

**Mariinsk bağçası.** Əgər Sisisanov bağçası əlverişli şəraitdə inkişaf edir və su çatışmazlığı çəkmirdisə, ondan sonra salınan Mariinsk bağçasında su çatışmazlığı vardı, üstəlik də şəhər idarəsindən rəğbət görmürdü.

Mariinsk bağçası 1 h-a yaxın sahəsi olan slobodanın yerində 1870-1871-ci illərdə salınmışdı. Demək olar kvadrat şəklində olan bu bağça sıx şəkildə tikilmiş məhəllələrin əhatəsində idi. Bağçanın planlaşdırmasını mərkəzdə kəsişən və dövrələmə xiyabanla birləşən qarşılıqlı perpendikulyar və diaqonal xiyabanlar təşkil edirdi. Çox cadə kompozisiyanı mərkəzdə bütün Bakı bağlarının mütləq elementi olan fəvvarəli hovuz tamamlayırdı.

Mariinsk bağçasının yaşıllığı üstdən nazik təbəqə şəklində torpaq qatı tökülmüş pis, şoran qrunt üzündən yavaş inkişaf edirdi. Ətrafı zəngin məhəllələrlə tikilmiş və ticarət müəssisələrindən aralıda yerləşən bağça ərazisindən daha sərfəli şəkildə istifadə edilməli bir yer kimi iş adamlarının diqqətini cəlb edirdi.

Fəqət Mariinsk bağçası, mətbuatın da yazdığı kimi, əvvəlki tək Şəhər İdarəsi üzvlərinin, şəhərin bağçılarının diqqətindən kənarda qalmışdı. «Bakı özünün yaşıllığı ilə öyünə bilməz, elə ona görə də bağa qarşı belə bir fərqli münasibət ... cinayətdən də artıqdır». Yalnız 1895-ci ildən sonra Mariinsk bağçasında, digər bağlarda və bağçalarda olduğu kimi, əlavə ağacların əkilməsinə başlandı.

XX əsrin əvvəlində şəhərin baş bağçılıq mütəxəssisi A.E.Vasilyevin kinayə ilə qeyd etdiyi kimi, şəhər «ictimai bağların yaradılmasını, son zamanlar isə buranı Rivyeraya çevirməyi qarşısına bir məqsəd olaraq» qoyduqda, Mariinsk bağçasına da diqqət yetirildi və onu köklü şəkildə yenidən qurmaq vacib hesab edildi.

7 yanvar 1904-cü ildə Vasilyev «Mariya bağçasının yenidən qurulması haqqında» smeta və planı təqdim etdi. Bu plan bağçanın bütün funksional özəlliklərinin və əhalinin estetik tələbatının nəzərə alınması ilə düşünülmüşdü.

O, planlaşdırmanı dəyişdirmiş, Bakı iqlimində dözümlü olan və yüksək dekorativ xassələrə malik ağac növlərinin əkilməsini tövsiyə edərək, xiyabanları genişləndirmişdi.

Əkiləcək materiallara bağların müvafiq tərtibatının vacib elementlərindən biri kimi baxılır, onlara arzu edilən bədii-üslubi cizgilər verməyə çalışırdılar. Vasilyev yaşıllıqların tamamilə dəyişdirilməsini və eyni yaşda ağacların əkilməsini təklif edirdi ki, bu da bitkilərin böyümə prosesində onların ifadəli görünüşünün saxlanmasına imkan yaradardı. Vasilyevin qapalı xarakter daşıyan layihəsində yaşıllaşdırma və kiçik formalar vasitəsi ilə bədii əsər yaratmaq cəhdi gözdən qaçmır. Lakin bu layihə arxivdə qalmış və gerçəkləşdirilməmişdi.

İctimai bağların və küçə bağçalarının salınması işi olduqca ləng gedirdi. Şəhər rəhbərliyinin bürokratik aparatı uzun-uzadı yazışmalarla və şəhər Duması və şəhər idarəsinin iclaslarında aparılan müzakirələrlə hər şeyi mürəkkəbləşdirir, şəhərin yaşıl memarlığının inkişafı barədə demək olar heç bir praktik nəticəyə gəlmirdi.

Bakının yaşıl quruculuq tarixində dənizkənarı bulvar orada əkilən ağacların növünə görə deyil (dendroloji tərkibinə görə bulvar şəhərin bütün parklarından geri qalırdı), ərazinin planlaşdırılmasına görə deyil, onun Bakı peyzajının ən aktiv elementi kim ümumşəhər miqyasındakı əhəmiyyətinə görə müstəsna yer tuturdu.

Şəhər İdarəsi tikinti şöbəsinin rəhbəri və istedadlı təşkilatçı M.H.Hacinski1909-cu ildə çox böyük həvəslə bulvarın abadlaşdırılmasına girişdi. Sahilində bulvarın qurulmasına Duma 60000 rubl təxsisat ayırmışdı. M.H.Hacinskinin rəhbərliyi altında bulvar layihəsinin işlənib hazırlanmasında memar Adolf Eyxler də fəal şəkildə iştirak etmişdir. Dəniz kənarında «Olimpiya» (sinematoqraf üçün, o zaman kinoteatrlar belə adlanırdı) və «Eldorado» (restoran üçün) kimi təmtəraqlı adlar altında modern üslubda böyük pavilyonların layihələri tərtib edilmişdi.

Şəhər İdarəsi bulvarın şəhərin özünəməxsus dəniz fasadı olduğunu dərk edərək, proqramı genişləndirmək və bulvarı möhtəşəm qurmalarla bəzəmək qərarına gəldi. Dəbdəbəli restoranı ilə nümunəvi dəniz hamamı tikmək nəzərdə tutulmuşdu ki, bura nəinki şəhərə gözəl görünüş verər, eləcə də şəhərə çox böyük gəlir gətirərdi. Şəhər hakimiyyəti hesab edirdi ki, «dəniz kənarındakı bu varlı şəhərdə dəniz hamamlarının olmaması böyük bir boşluqdur və bu boşluğu mümkün qədər qısa müddətdə doldurmaq lazımdır».

*Mariinsk küçə bağçasının yenidən planlaşdırma layihəsi. 1904-1909-cu il.*



M.H.Hacinski ən yaxşı layihə üçün müsabiqəyə tərəfdar idi, Dumadakı çıxışında qeyd etmişdi ki, «bu adi bir layihə deyildir. Burada incə zövqə malik, bu kimi işləri sevən mütəxəssis gərəkdir. Bu keyfiyyət isə hər memara xas deyildir. Əla texnik olmaq olar, fəqət bu keyfiyyətə malik olmaq çətindir. Böyük vəsait tələb olunmur, əsirgəmək lazım deyil. Burada fantaziya, gözəllik gərəkdir».

Hacinskinin bu parlaq çıxışı, şübhəsiz, öz təsirini göstərmiş və Duma müsabiqə elan edilməsi haqqında qərar qəbul etmişdi. Restoranla birlikdə dəniz hamamının, eləcə də müxtəlif təyinatlı 13 köşkün layihəsinin tərtib edilməsi üçün müsabiqə elan edildi. Bulvarın planlaşdırması və yaşıllıqların yerləşdirilməsi layihə müəlliflərinin mülahizəsinə buraxılmışdı. Layihələrə baxılması və mükafatların verilməsi işini Peterburq Memarlar Cəmiyyəti öz üzərinə götürdü.

Müsabiqədə iştirak üçün Bakıda yaşayan demək olar bütün mülki mühəndislər və memarlar (30 nəfərə yaxın), o cümlədən Zivər bəy Əhmədbəyov, İ.K.Ploşko, Q.M.Termikelov, İ.V.Edel və başqaları dəvət edilmişdilər. Özəl sifarişlərlə məşğul olduqlarından onların çox azı müsabiqədə iştirak edə bildi. Deyilən müddətdə «Speşno (Tələsik)», «Esplanada» və «Zvezda (Ulduz)» adı altında cəmi üç layihə təqdim edildi. İki layihənin müəllifləri mükafata layiq görüldülər. «Zvezda (Ulduz)» layihəsi 1-ci mükafatı (mülki mühəndis Q.M.Termikelov) və «Esplanada» layihəsi isə (mülki mühəndis V.S.Sərkisov) 2-ci mükafatı qazandı.

Abadlaşdırılmış bulvar özünün kölgəli xiyabanları, qəşəngliyi və çoxlu sayda gəmilərin göründüyü və gediş-gəlişli körpülərin yerləşdiyi Bakı buxtasına açılan gözəl mənzərəsi ilə dərhal Bakı ictimaiyyəti arasında populyarlıq qazandı. Mütərəqqi ovqatlı qlasnılar şəhərin mərkəzi hissəsinin sahil zolağından körpülərin yığışdırılması haqqında məsələni yenidən qaldırdılar. Onlar bulvarın şərq istiqamətində uzadılmasını arzuolunan hesab edirdilər. Lakin bulvar yalnız sovet dövründə tam şəkildə qurulmuşdur.

Əgər 1920-ci ildə, yəni qala divarları hüdudlarından kənarda tikilişlərin mövcud olmasının 80 ili ərzində Bakı şəhərinin ictimai yaşıllıqlarının sahəsi 10,03 hektara çatmışdısa, özəl kapital hesabına bu qədər yaşıllaşdırma sahəsinə (10,26 hektar) cəmi bir-iki il ərzində nail olunmuşdu. Nobel qardaşlarının çalışmaları ilə Qara və Ağ şəhərlərin şirkətlərin işçiləri üçün qəsəbəni xatırladan Villa Petrolea («Neft villası», 1882-1883-cü illər) yaradılmışdı. Onun yaradılması üçün məşhur mütəxəssis E.Bekle dəvət edilmişdi. Bu seçim təsadüfi deyildi: onun rəhbərliyi altında Varşavanın bir çox bağları və parkları salınmışdı. Təcrübəli bağçılıq mütəxəssisi olan Bekle Abşeron təbiətinin özəlliklərini öyrənərək ağac növləri seçiminə ayrıca diqqət yetirmişdi ki, onların köməyi ilə villanın planlaşdırma və həcm-fəza strukturunu effektiv şəkildə həll edə bilsin. Əkmək üçün ağacları o, Lənkəranda, Tiflisdə, Batumda və digər şəhərlərdə seçir, eləcə də Rusiya və Avropanın tingliklərindən gətirdirdi. Villanın parkında 80000-ə yaxın ağac və kol bitkisi əkilmişdi, onların sırasında çoxlu sayda meyvə ağacları da vardı.

Villa Petroleanın formalaşan planlaşdırma strukturu məkanın relyefi (dənizə doğru maili olması), yaşayış və digər təyinatlı binaların yerləşməsi və əsas xiyabanların istiqamətinin seçilməsi ilə



*Bakı. Sahil bulvarının layihəsi. 1909-cu il.*



*Sahil bulvarı. Foto, 1910-cu il.*





müəyyənləşirdi. Çoxsaylı xiyabanlar və cığırlar qarşısında güllüklərin salındığı və ya qrup şəklində ağacların əkildiyi qurmalara aparıb çıxarırdı. Əsas xiyabanlar baxış meydançalarına çıxırdı. Buradan baxanda sıx yaşıllığın arasından Qara şəhər zavodlarının tüstü borularını, bir qədər uzaqda isə Xəzər dənizini görmək mümkün idi.

Geniş ərazidə yerləşən sənaye peyzajındakı bu gözəl park kapitalist Bakısının memarlığında yeni səhifə açan şəhərətrafı villaların yarandığı Abşeronun bağ-park memarlığına müsbət təsir göstərmişdi.

**Abşeron villaları.** Abşeron yarımadasının şimal sahili ta qədimdən bəri onu kurort yeri kimi xarakterizə edən təbiət-iqlim özəllikləri ilə məşhur idi. Şimal küləklərinə baxmayaraq, günəşli çimərliklər və sahilin quru havası (özəlliklə Mərdəkan, Şüvəlan, Buzovna və Pirşağı kəndlərində) böyük populyarlıq qazanmışdı. Axı məşhur Anapa və Fransanın Berk kurortlarının yaranmasına şimal küləkləri mane ola bilməmişdi [218, s.83]. Abşeronun bu zonasının böyük gələcəyi vardı, XIX əsrin əvvəllərində isə onun mədəni mənimsənilmə dərəcəsi zəif idi.

Mərdəkanın Bakı varlıları tərəfindən bağ evlərinin tikilməsi üçün yer qismində seçilməsi onun Bakıya yaxın məsafədə yerləşməsindən, şosse yolu ilə gediş-gəlişin nisbətən rahat olmasından doğurdu. Quyu sularının yüksək keyfiyyətli də bunda az rol oynamırdı. Sahibkarlar (tacirlər və fabrikantlar) buradan öz ticarət idarələrinə, zavodlarına və digər müəssisələrə tez bir zamanda gəlib çata bilirdilər. Mərdəkanın mədəni inkişafının əsası hələ 1895-ci ildə burada H.Z.Tağıyevin vəsaiti hesabına bağçılıq məktəbinin yaradıldığı zaman qoyulmuşdu. Məktəbin geniş fəzasının həcm quruluşunu və planlaşdırma həllini şəhərin baş memarı İosif Vikentyeviç Qoslavski həyata keçirmişdi [460].

Beləliklə, Abşeronun şimal sahillərinin tədricən mənimsənilməsinin əsası qoyuldu. Villa sahibləri öz bağlarının bəzədilməsi üçün qüvvə və vəsaitlərini əsirgəmirdilər: cənub ölkələrindən və Qara dəniz sahillərindən dekorativ ağaclar və güllər, ekzotik bitkilər gətirilirdi. Piramidaşəkilli çinarlardan, qamətli sərv və əzəmətli şam ağaclarının sıralandığı kölgəli xiyabanları ilə parklar yaradılırdı. Şam ağacları Abşeron bağlarındakı oduncaqlı növlər arasında hakim mövqe tuturdu. Hərdən villalarda kiçik şam meşəliyinə xüsusi yer ayrılırdı.

Mərdəkan kəndi iqlim baxımından ən yaxşı və sağlam bağ yerlərindən biri idi: burada çoxlu yaşıllıqlar vardı. Mərdəkan uzaqdan baxanda başdan-başa meşəni xatırladır və «şəhər-bağ» hesab olunurdu. Bura rahat bağ evləri və kölgəli bağları ilə dəb örnəyi olan bir rayon idi.

Mərdəkan villalarının əksəriyyəti Mərdəkan ilə Bakını birləşdirən magistral yol boyunca yerləşir və dənizə doğru istiqamətlənirdi. Ətrafı tikilmiş olan bu yolun xarakteri hansı bir dərəcədəsə Peterburqda onun malikanə ansambları ilə məşhur Peterqof yolunu xatırladırdı [301, s.62].

Ancaq bu müqayisə nisbidir. Bakı varlılarının Mərdəkanda yaratdıqları villalar nə tikilişinin xarakterinə, nə də planlaşdırmasına görə XIX əsrdə Peterburq yaxınlığındakı Peterqof yolunda inşa edilən malikanələrə bənzəyirilər, çünki Peterqof yolu və Mərdəkana aparan yol fərqli " üslubi qütblərdə" yaradılmışdı. Fəqət bağ evlərinin yol boyunca yerləşmə prinsipi və dənizin cazibəsində olması onları bir- birinə yaxınlaşdırırdı.

Bir qayda olaraq, villaların ərazisində eyvanlı, terraslı və balkonlu bir neçə bina yerləşirdi. Bu eyvanlar, terraslar, balkonlar binaların həcm-bədii həllinə cənub xarakteri verirdi ki, bu da yerli

təbiət-iqlim və məişət şəraitinə tam uyğun idi. Fasad detallarının cizgisində villa binaları kompozisiyasının düzgün ümumi traktovkası aparıldıqda onların bəzilərinin forma kobudluğu və cizgilərdə dəqiqliyin olmadığı gözə çarpır. Bu, onların memarlıq ifadəliliyini bir qədər azaldır. Bakı evlərinin memarlığında klassik mütənasiblik, detalların gözəl çəkilişi və modelləşdirilməsi nə qədər üstünlük təşkil edirdisə, əksər villaların bir çox tikililərinin kompozisiya həlli öz natamamlığı, detallar isə yarımçıq işlənmələri ilə fərqlənir.

Mərdəkan villalarının kompozisiya sxemi hər şeydən əvvəl monumental «zəfər» tağları ilə başlayırdı, onların üzərində çox vaxt sahibinin adı və tikildiyi tarix həkk olunurdu. Maraqlıdır ki, qədim tikililərdə memarın - onun əsl yaradıcısının adı kapitalizm dövründə inşa edilən və memarın adı ümumiyyətlə naməlum qalan binalara nisbətən daha tez-tez xatırlanırdı.

Villa bağlarının kompozisiyasında əsas binaya və ya binalara aparan mərkəzi xiyaban hakim mövqe tuturdu. Villa binalarının baş darvazalardan xeyli aralıda yerləşməsi, mərkəzi xiyaban və fasadın təmtəraqlı planlaşdırması - bütün bunlar onun sahibinin- neft fırtınası dövründə həddən artıq varlanmış nuvorişin tələbatına və şöhrətpərəstliyinə cavab verirdi.

Yerin relyefinin nəzərə alınması planlaşdırmaya və tikilişə öz müsbət təsirini göstərirdi – maraqlı baxış nöqtələrinin açılması perspektiva mənzərəliliyi bundan doğur. Mərdəkan malikanələri eyni vaxtda tikilsələr də, onların hər biri fərdi həcm-fəza həllinə malikdir.

Yeni villalar özlərindən əvvəl mövcud olan hər hansı birinin təkrarı deyildi. Sifarişçilər hər dəfə memarların qarşısında fərqli vəzifələr qoyurdular. Məhz ona görə də dənizkənarı bağ evləri orijinal şəkildə həllini tapır və böyük təntənəliliyi və təmtərağı ilə fərqlənirdilər.

XX əsrin əvvəllərinə doğru kapitalizm Bakının sənaye fəaliyyətinin demək olar bütün sahələrində böyük uğurlara nail olmuşdu; bu, memarlığın xarakterində də əksini tapırdı. Gəlirverən iri evlər, burjuaziyanın sarayları, orta təbəqənin adi tikilişləri və şəhərin ucqarlarında yoxsulların uçuq-sökük daxmaları - sinfi bərabərsizliyin əyani sübutları idi.

*Muxtarovun villası.* Muxtarovun villası (hal-hazırda Azərbaycan SSR EA Nəbatat parkı) 1890-cı illərin əvvəllərində Mərdəkanda yaradılan ilk şəhərətrafı iqamətgahlardan biri bu baxımdan fərqlənir. Sahəsi 8 hektara yaxın qayalıq yerdə ərazinin vertikal planlaşdırması, yaşıllaşdırma işləri üçün münbit torpağın daşınıb tökülməsi üzrə işlərə başlandı. Bir neçə min kubmetr qrunt torpağı daşınıb gətirilmişdi; torpağı barjalarla sahilə gətirmək, daha sonra körpüdən 1,5 km-lik məsafədəki sahəyə qədər arabalarda və ya dəvələrdə daşımaq lazım gəlirdi. Sarayları və güllü-çiçəkli bağçalarlı ilə Mərdəkan villaları belə bir ağır şəraitdə yaradılırdı.

Hovuz və fəvvarələrin su ilə təmin edilməsi və bağın nümunəvi qaydada saxlanması üçün zəngin su mənbələri tələb olunurdu, Mərdəkanda isə yalnız quyular vardı. Muxtarovun mülkünün geniş ərazisində dörd-beş yerdə qaya süxurlarında 40 metr dərinlikdə geniş quyu-anbarlar (5x10m) qazılmışdı. Quyuları metal pilləkənlərlə və üstündə nasosları qoymaq və suyu çirklənməkdən qorumaq üçün əsaslı yerləşgələrlə təchiz etmişdilər.

Bu hidrotexniki qurğular zamanəsinin abidələri kimi diqqətə layiqdir. Onlara adları məlum olmayan ustalar çox böyük əmək və bacarıq sərf etmişlər. Bu quyulardan sular hovuzları və fəvvarələri olan, sərvət sahiblərinin dinclik və sərinlik tapdıqları bağların geniş sahələrinin suvarılması üçün axıdılırdı. Diametri 6-7 metr olan quyulardan biri əsas darvazanın yaxınlığında yerləşirdi və ondan ən qızmar günlərdə istifadə edirdilər. Suyun güzgüsünə qədər 25-30 metr dərinliyindəki quyuya spiralvari pilləkənlə enirdilər. Aşağıda, qayada içərisində mülk sahibi və qonaqlarının sərinlikdən həzz aldıqları böyük bir yerləşgə vardı.

Muxtarovun villasının görkəmsiz girişi onun dekoruna uyğun deyildi. Yəqin ki, inşaatçıların əsas diqqəti bu geniş məkanın memarlıq-planlaşdırma quruluşuna yönəlmişdi. Əsas xiyabanlar mərkəzi binaya, baxış meydançalarına və terraslara aparıb çıxarırdı ki, buradan kəndlilərin mənzərəli bağ-bağçalarına və bir qədər uzaqda isə dənizə mənzərə açılırdı.

Muxtarovun villasının hovuzlarında suyun səthi o qədər böyük idi ki, onlar mülkün bütün ərazisinin memarlıq quruluşunun çox mühüm komponentini təşkil edirdi. Bu villaya baş çəkən hər kəs bağın sıx yaşıllığında suyun varlığını hiss edirdi. Bağın əsas xiyabanlarından birinin yaxınlığında böyük (35x50m) düzbucaqlı dərin hovuz vardı. Belə bir ölçüdə hovuz özlüyündə villanın ölçü xarakteristikası, onun memarlıq baxımından quruluş verilmiş böyük fəzası üçün özünəməxsus miqyas rolunu oynayırdı. Bura gerçəkdən bir zamanlar burada görülmüş işlərin genişliyi ilə heyrət doğurur.

Düzbucaqlı hovuz qayıq sürmək üçün nəzərdə tutulmuşdu və su rezervuarı idi, dairəvi hovuz isə (diametri 18 m)

*Əsədullayevin villası. Kiçik hovuz. 1897-1901-ci illər.*



bağın kompozisiya vurğusu və həcm elementi kimi traktovka olunurdu.

Hovuzun yer səthindən 3 metr hündürlükdəki daş qapanağı başdan-başa sarmaşıqlara bürünmüşdü və nəhəng dekorativ forma kimi qabarırdı. Terrasdan baxanda bağın yaşıllıqları arasından ağ daşdan şərq memarlığı üslubunda inşa edilmiş bina görünürdü.

Üç tərəfdən açıq pillələnlər qalxan geniş eyvanla əhatə olunmuş ikimərtəbəli bina bağın planlaşdırması ilə uyğunluq təşkil edirdi. Təmkinli formalar və fasadın hissələnməsinin təmiz xətləri onun memarlığının səciyyəvi özəlliklərini təşkil edirdi.

*Abşeron. Mərdəkan kəndi. H.Z.Tağıyevin villası. Baş plan. Sxem – Ş.S.Fətullayevindir.*



Villanın planlaşdırma kompozisiyası yuxarı əsas terrasın sürahıbəndi və hidrotexniki qurğuların son vəsiləsi olan düzbucaqlı hovuz ilə tamamlanırdı.

Muxtarov və Tağıyevin villaları bir çox şəhərətrafı villaların tikintisinin başlanğıcı oldu. Onlar belə böyük miqyasda memarlıq quruluşu məsələlərini demək olar ilk dəfə işləyən Bakı memarları üçün örnək idilər. Memarların, bənnaların, bağçıların və fəhlələrin ustalığı sayəsində Mərdəkanın ağır şəraitində (qayalı torpaq, qrunt sularının dərin layları, güclü şimal küləyi) quruluş verilmiş böyük bir ərazi və bütöv memarlıq-planlaşdırma ideyası ilə möhtəşəm villa yaradılmışdı.

Əgər Yaxın Şərq ölkələrində hələ uzaq keçmişlərdə su səthlərindən istifadə etməklə, məsələn, İran şahlarının və əyanlarının şəhərətrafı saraylarında park kompozisiyaları yaradılırdısa [460], Azərbaycanda bu sayaq bədii əsərlər yalnız XIX-XX əsrlərin qovşağında üzə çıxmışdı. Muxtarovun villası Yaxın Şərqin bağpark memarlığının ən yaxşı ənənələrini özündə cəmləşdirir və müəyyən dərəcədə özünəməxsus etalon rolunu oynayırdı. Sonralar Abşeronun digər villalarına tətbiq edilən əsas memarlıq-planlaşdırma üsullarının həllində məhz bu memarlıq örnəyinə isnad edilirdi [448].

*Tağıyevin villası.* Tağıyevin villası memarlıq-planlaşdırma həlli və yaşıllığın tərtibatına görə çox maraqlı bir örnək idi. Planlaşdırma kompozisiyasının nizamlı sxemi yarpaqlı və iynəyarpaqlı ağac növlərinin ahəngi, daş plitaların döşəndiyi düz xiyabanların istiqaməti sayəsində onun mənzərəli landşaft özəlliklərini zərrəcə kölgədə qoymurdu. Daş döşəmələr özü də torpağın hamar səthinin ornamentlərlə bəzənməsində bədii rol oynayırdı [132, s.78].

*Əsədullayevin villası.* Əsədullayevin villası (1897-1901-ci illər) Muxtarovun villası ilə yanaşı tikilmişdi. Sonuncunun sadə giriş darvazaları ilə bu malikanənin «Zəfər» tağı arasındakı nə qədər fərq var! Əsədullayevin villası Bakı burjuaziyasının uğurlarının özünəməxsus reklamı idi. Ərazisinin genişliyinə görə (15 hektar) həm Nobelin (10,23 hektar), həm Muxtarovun (8 hektar), həm Tağıyevin (8 hektar), həm Aşurbəyovun (7 hektar) villasını və bir çox başqalarını geridə buraxırdı. Təkcə magistral tərəfdəki xidməti tikililər 400 m uzanır və iki əzəmətli darvaza park ərazisinin əsas planlaşdırma oxunu müəyyən edirdi.

Ox xiyabanlar qızılı çalarlı balıqqulağılı qum səpilmiş çoxsaylı mənzərəli cığırları birləşdirirdi. Monumental darvazadan başlayan əsas xiyaban baş binanın üçmərtəbəli həcmi ilə sona çatırdı. Parkın kompozisiya mərkəzini diametri 35 metr olan hovuz təşkil edirdi. Onun 2,5 metr hündürlüyündəki kənarları yaşıl xiyabanın demək olar 300 metrə çatan uzunluğunu vizual olaraq qısaldırdı.

Hovuzun kənarlarının kifayət qədər hündür olması - xeyli miqdarda qumu da özü ilə gətirən güclü küləklərlə şərtlənən yerli, Abşerona məxsus bir üsul idi. Əgər böyük su səthinə malik hovuz demək olar yerlə eyni səviyyədə olsaydı, onda qum onun tamamilə doldura bilər və bununla da hovuz tamamilə sıradan çıxardı. Təbii şərait çox vaxt memarlara park memarlığının funksional məsələlərinin həlli üsullarını diktə edirdi.

Villanın geniş ərazisinin memarlıq-planlaşdırma strukturu Abşeronda şəhərətrafı villaların özəlliklərinin açılması üçün çox işlər görmüş memarın bədii ideyasına müvafiq olaraq yaradılmışdı.

*Hacinskinin villası.* Hacinskinin 1912-ci ildə inşa edilən villası da məşhur villalar sırasına aid idi. Şəhərətrafı malikanələrinin inşasının əvvəlki örnəklərindən fərqli olaraq burada planlaşdırmanın xarakteri daha bütöv və klassikaya xas ciddir – yeganə bir kompozisiya-planlaşdırma oxu hakim mövqe tutmuşdu.

Yerin xeyli maili olması villa ərazisində bir neçə terras qurulmasını əvvəlcədən müəyyənləşdirirdi. Ən yuxarı işarətdə xeyli modern əlamətləri ilə psevdoroman memarlığında saray yerləşirdi. Əsas həcm-fəza vurğusu olan saraydan bütün ərazini qərb istiqamətində kəsib keçən əsas və mərkəzi xiyaban uzanırdı. Perpendikulyar xiyaban planlaşdırma kompozisiyasını tamamlayır, xiyabanların kəsişdiyi nöqtədə dairəvi alçaq hovuz yerləşdirilmişdi. Aşağı terrasdan şam ağacı xiyabanına gözəl perspektiva açılır. Yaşıl parkın fonunda sarayın plastik fasadı villaya onun yüksək relyefdə effektli yerləşməsi ilə güclənən xüsusi ifadəlilik verir.

Hacinskinin villasının memarlıq və planlaşdırma kompozisiyası işlənib hazırlanarkən ümumi və xüsusinin razılaşdırılması, şübhəsiz, maraqlı həll variantı vermiş və XIX-XX əsrlərin qovşağında Azərbaycanın bağ-park memarlığında müəyyən dönüş mərhələsi olmuşdur. Villanın planının xaçşəkilli sxemi memarlıq məntiqinin aydınlığı ilə fərqlənir və digər villaların planlaşdırmasının qarşısında yaşıl memarlığın estetik cəhətlərinin açılmasında aşkar üstünlüyə malikdir.

* * *

Zaman keçdikcə geniş villalar öz yerini perspektivaların bir elə heyranedici miqyasları, geniş su səthləri olmayan, planlaşdırmanın kamera traktovkasına nisbətən sadə görünüşlü mülklərə verirdi. Əgər əvvəldə gözdən keçirilən villalar öz sahələrinin çox böyük ölçüləri ilə fərqlənirdilərsə, onların planlaşdırma strukturunun işlənməsi bəbii ideyanın vəhdəti ilə fərqlənmir, nəzərdə tutulan ideyanın bütün memarlıq imkanlarının açılmasına imkan yaratmırdı.



*H.Z.Tağıyevin villası. Baş bina və bağın görünüşü. Mülki mühəndis İ.V.Qoslavski. 1895-ci il. Tağıyevin albomundan fotoşəkil.*

*Hacıyevin villası.* Villa ərazisinin dar zolaq şəklində olması başqa bir planlaşdırma həllini irəli sürmüşdür. Modern cizgiləri ilə neoroman memarlığı üslubunda inşa edilən ikimərtəbəli bina əsas kompozisiya oxunda yerləşən effektiv bürcləri və damüstü örtüyü ilə onun ərazisini qeyri-bərabər hissələrə bölürdü. Villa ərazisinin əsas hissəsi üzü şimala, planlaşdırma strukturunun inkişaf etdirildiyi dəniz sahilinə baxırdı. O qədər də böyük olmayan mərkəzi xiyabanı təmiz yonulmuş əhəngdaşı plitələrindən hörülmüş 2,5 metr hündürlük işarətində olan, təxminən 40 metr uzunluğunda düzbucaqlı hovuz hər iki tərəfdən əyirdi. Hovuzun kənarları kifayət qədər geniş olduğundan ondan dincəlmək üçün terras kimi istifadə oluna bilər. Villanın cənub hissəsi daha sadə işlənmişdi.

Bu villa planlaşdırma həllinə görə ciddidir, amma öz memarlığına görə o, geniş əraziyə malik bir çox digər villa binaları ilə müqayisədə daha ifadəlidir.

* * *

Yüz ildən artıq müddət ərzində (1806-1918-ci illər) Bakı dinclik şəraitində







*H.Z.Tağıyevin villası. Bağdan fragment. Mülki mühəndis İ.V.Qoslavski. 1895-ci il. Tağıyevin albomundan fotoşəkil. Azərbaycan Tarix Muzeyi.*

inkişaf etmişdir. Şəhərin bu müddət ərzində sosializm dövründəki rekonstruksiya üçün də təməl rolunu oynayan yeni planlaşdırma sxemi yaradılmışdır.

Sonda xülasə etibarilə bu nəticələrə gəlmək olar: Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra (XIX əsr) şəhərlərin və yaşayış məntəqələrinin daha əlverişli sosial-iqtisadi şəraitdə formalaşma və inkişaf dövrü başlanmışdır. Bütöv bir əsr ərzində həm şəhərsalma, həm də memarlıq sahəsində tərəqqi edən Bakı şəhəri bu inkişafın daha tipik örnəyi idi. Bakı qalası yaxınlığında yaranan yeni bayır-şəhər (1809-cu il) nizamlı düzbucaqlı planlaşdırma sisteminin əsasını qoydu. Bakı son nəticədə şəhərin özünəməxsus memarlıq-planlaşdırma strukturunu müəyyənləşdirən mürəkkəb formalaşma prosesində məkanın tarixi topoqrafiyasına uyğunlaşmışdır.

Araşdırılan dövrdə Bakının inkişafını iki mərhələyə bölmək olar. Birinci mərhələdə o, qəza şəhəri idi və özünün coşqun inkişafı üçün əlverişli iqtisadi şəraitə malik deyildi. Buna baxmayaraq, məhz bu mərhələdə Bakının planlaşdırma kompozisiyasının şəhərsalma özəlliklərinin əsası qoyulmuş, formalaşmanın ikinci mərhələsində, bu şəhər Bakı

quberniyasının mərkəzinə çevriləndə (1859-1918) bütün bunlarla hesablaşmaq lazım gəlmişdir.

Şəhərsalma baxımından həm böyümənin xarakterinə, həm də özünün planlaşdırma məzmununa görə inkişafın ikinci mərhələsində də Bakı Yaxın və Orta Şərqin paytaxt mərkəzlərini və əhalisinin artımına görə dünyanın ən böyük şəhərlərini geridə qoyaraq inqilabaqədərki Rusiyanın ən böyük sənaye mərkəzləri dərəcəsinə yüksələ bilmişdi. Bu fakt Bakının XIX-XX əsrlərin hüdudunda şəhərsalmasının dərindən öyrənilməsinin zəruriliyini doğurur, çünki bunun bənzəri yoxdur.

Şəhərin inkişafının ikinci mərhələsində şəhərsalma prinsipləri qəti surətdə formalaşmış, planlaşdırmanın meydan-

*Abşeron. Mərdəkan kəndi. İsa bəy Hacinskinin villası. Baş binanın ümumi görünüşü. 1912-ci il.*







lar, magistrallar, bağlar və küçə bağçaları şəklində əsas kompozisiya elementləri müəyyənləşmişdir.

XIX əsrin ikinci yarısında və XX əsrin başlanğıcında Bakının şəhərsalma strukturunun inkişafında, şəhərin bütöv planlaşdırma orqanizmi kimi müəyyənləşməsində və formalaşmasında şəhərsalıcılar- memarlar Qasım bəy Hacıbababəyov, N.A. fon der Nonne və M.H.Hacinski böyük rol oynamışlar.

İnkişafın bütün mərhələlərində varislik, düzgün uçot və şəhərsalma vəzifələrinin həllinə rasional yanaşma şəhərin baş planının fərqləndirici özəllikləri idi, çünki istənilən yayınma çox böyük məsrəflərə çevrilirdi.

Yüz il boyunca şəhər yerli mənbələrdən alınan məhdud su təchizatı səbəbindən çox baha başa gələn ictimai xarakterli yaşıllıqların yaradılması uğrunda gərgin mübarizə aparırdı. Buna baxmayaraq, Bakının memarlıq-planlaşdırma strukturunda kiçik miqyasda olsa da, ardıcıllıqla bağlar, küçə bağçaları və dənizkənarı bulvar görünmüşdür.

Rəng qamması və özünə xas koloriti ilə bağlar və küçə bağçaları şəklində yaşıl memarlıq elementlərinin üzə çıxması şəhərin tikilişinə müəyyən bədii məzmun gətirmişdir. Yaşıl memarlığın bu elementləri Bakının yenidən qurulması zamanı xeyli dərəcədə yenilənmiş, zənginləşmiş və onun tarixi özəyinə daxil olmuşdur.

Şəhərin strukturunda yaşıl memarlıq elementlərinin inkişafı Abşeronda özünəməxsus planlaşdırması ilə şəhərətrafı villaların doğulmasına səbəb olmuşdur. Şəhərətrafı villalar geniş ərazilərin Bakının kapitalizmdən əvvəlki dövrün şəraitində məqbul olmayan yeni (yerli bağ-park sənətinin ənənələri əsasında) həcm-fəza həllini vermişdir. Şəhərətrafı villaların tikintisi nəinki Abşeronun şimal sahilinin, yəni əsasən Mərdəkan və Şüvəlanın abadlaşdırılmasına, həm də yaşıl memarlığın ümumi yüksəlişinə və inkişafına səbəb oldu.

XX əsrin əvvəllərində Bakı kapitalist şəhərlərinə xas olan bütün ziddiyyətləri ilə, lakin şəhər planlaşdırma strukturunun maraqlı örnəklərini qoruyub saxlamış olan böyük bir aqlomerasiyaya çevrilmişdir.

# III FƏSİL.

## AZƏRBAYCANIN KİÇİK ŞƏHƏRLƏRİNİN ŞƏHƏRSALMA İŞİ

XIX əsrdə, xüsusilə onun ikinci yarısında, Azərbaycanın kiçik şəhərləri əlverişli sosial-iqtisadi şəraitdə inkişaf edirdilər. İnkişafın ümumi şərtləri, lakin fərqli təbiət-iqlim şəraiti və memarlıq-tikinti ənənələri küçə və meydanların səciyyəvi tikilişlərinin miqyasında parlaq ifadə olunmuş planlaşdırma strukturu, mərkəzin memarlıq kompozisiyası və bütövlükdə şəhərin ifadəli silueti ilə şəhərlərin fərdi simasının yaranmasına səbəb oldu. Ancaq, memarlıq doktoru, professor A.V.İkonnikovun sözlərincə desək, «şəhərin insanlara göstərdiyi ümumi emosional təsir onun qurmaları və ansambllarından alınan təəssüratların cəminə bərabər deyildir» [145, s.5].

Azərbaycan şəhərləri öz spesifik memarlıq cizgilərinə və heç bir yerdə təkrarlanmayan milli bədii özəlliklərə malikdir və yerli koloriti qoruyub saxlayırlar. XIX əsrdə Azərbaycanın kiçik şəhərrlərinin şəhərsalma işi onların inkişafında keçmişlə müqayisədə yeni keyfiyyət mərhələsi idi, Gəncə, Şuşa, Nuxa (Şəki), Quba və Lənkəranın sonrakı planlı inkişafını şərtləndirən və mövcud şəraitə zidd olmayan ənənəvi cizgiləri qoruyub saxlayırdı.

### Gəncə

Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra Bakıda qalanın gücləndirilməsi, yeni, Avropa tipli bayır-şəhərin yaradılması sahəsində quruculuq işlərinin aparıldığı bir vaxtda, Gəncədə bu kimi işlər həyata keçirilmirdi. Rus-İran müharibələri dövründə Zaqafqaziyada yaranan hərbi-siyasi vəziyyət işlərin bu şəkilə davam etməsinin səbəblərindən biri idi. 10 fevral 1828-ci il Türkmənçay müqaviləsi ölkənin sülh şəraitində inkişafının əsasını qoydu. Gəncə özünün orta əsrlər simasını qoruyub saxlamışdı. Onun geniş ərazisinin mərkəzində böyük sahə tutan qala yerləşirdi. Bu qaladan müxtəlif istiqamətlərdə çoxsaylı dar xəlvət küçələr, dalan və döngələr şaxələnirdi. Şəhər üç hissədən: Gəncənin özündən (onun tarixi özəyi), Bağmanlardan - tamamilə üzümlüklər və bağlardan («bağlar rayonu» adı elə buradan meydana gəlmişdi) ibarət olan şəhər ətrafı qəsəbədən, eləcə də Gəncə çayının sağ sahilində yerləşən Kilisə-kənddən ibarət idi.

O dövr Gəncəsinin özünəməxsusluğu ondan ibarət idi ki, bağların yaşıllığı üzvi şəkildə onun şəhərsalma strukturuna daxil idi; şəhər tikilişlərinin tərkibinə yeriyən bu yaşıllıqlar onun planlaşdırmasının kompozisiya xarakterini müəyyənləşdirirdi.

Öz möhtəşəm bağları, yaşayış evləri, dəyirmanları və təsərrüfat-məişət təyinatlı digər tikililəri ilə Gəncənin geniş ərazisi şəhərin təqribən 65x320 metr ölçüdə böyük bir sahəsində yerləşən ticarət və ictimai mərkəzin bir növ fonu rolunu oynayırdı. Bu sahə öz planlaşdırma həllinə görə məşhur İsfahan meydanını xatırladırdı, lakin onun ətraf tikilişləri memarlıq baxımından daha az ifadəli idi. Meydanın ətrafında ticarət sıraları, çox sayda dükanlar, karvansaralar yerləşirdi.





Onun bir tərəfində Cümə məscidi kompleksi, digər tərəfdə isə - geniş sahəli Uğurlu bəy karvansarası tikilmişdi.

Əla vəziyyətdə olan qalanın gölgəsi altında yerləşən meydan onun qurmaları ilə birlikdə ətraf tikilişləri özünə tabe etməyə qabil irimiqyaslı memarlıq dominantı idi. Elə həmin bu rayonda hələ xan idarəçiliyi dövründə havanı zərərli buxarla zəhərləyən çox sayda boyaqçı, göndəri və dulusçuluq zavodları yerləşirdi.

Şəhərin sağlamlaşdırılması haqqında hələ 1830-cu ildə yerli administrasiya tərəfindən qaldırılan məsələ köhnə Gəncənin abadlıq səviyyəsinin artırılmasının mühüm məsələsi kimi baxılırdı. Lakin xüsusi mülkiyyətin özgəninkiləşdirilməsi hesabına hər hansı bir qərarın həyata keçirilməsi çox çətin idi. Elə buna görə də XIX əsrin birinci yarısında Gəncənin şəhərsalma strukturunda onun memarlıq simasına təsir göstərə biləcək dəyişiklik baş verməmişdi.

Mülki memarlığın ayrı-ayrı binaları istisna olmaqla, kütləvi yaşayış evləri yerli memarlığın ənənəvi üslubunda - küçələrdən kənarda, geniş bağın dərinliklərində tikilməyə davam edirdi [126]. Buna görə də, yaşayış evləri öz yerlərini xüsusi mülkiyyətin bütöv, açınmsız hasarlarına verərək, tikilişlərin aktiv elementləri kimi küçələrin interyerinin formalaşdırılmasında iştirak etmirdi [358, s.322-344].

Qafqaz namestniki knyaz M.S.Vorontsovun təşəbbüsü ilə 1847-ci ildə bağçılığın inkişaf etdirilməsi məqsədi ilə yaradılan sərdar bağı XIX əsrin birinci yarısında şəhər üçün qiymətli tapıntı oldu. Bu bağ ləğv edilmiş qalanın cənub tərəfində salınmışdı. Yaşıllıqların ümumi sahəsini 11 hektara qədər çatdırmaq nəzərdə tutulmuşdu.

O vaxtlar Yelizavetpol adlanan Gəncənin planının tərtib edilməsi üzrə işlərə 1856-cı ilin sonunda Tiflis hərbi qubernatorunun sərəncamına əsasən başlandı.



*Yelizavetpol. Boyaqçılıq və göndəri zavodlarının layihəsi. Memar Barışkin. 1831-ci il.*

Gəncənin planının tərtib edildiyi vaxtlar şəhər çox sayda küçə və döngələrdən və 1532,35 hektar ümumi sahədə yerləşən 2500-dən çox xüsusi mülkiyyətdən ibarət idi. Gəncənin planı 21 iyun 1857-ci ildə Zaqafqaziya diyarının Tikinti komissiyasına təqdim edildi. Bu plana əsasən, sahillərində üzüm bağlarının yetişdirildiyi Gəncə-çay şəhəri iki hissəyə bölürdü.

1857-ci ilin planında faktik olaraq küçə və məhəllələrin mövcud vəziyyəti qeyd olunmuşdu. Orada şəhərin köhnə planlaşdırmasının yaxşılaşdırılması üzrə tədbirlər əks etdirilməmişdi. Yəqin ki, şəhər ərazisinin yalnız xəzinəyə məxsus olan hissəsində nizamlama işləri aparılmış, küçələrə optimal genişlik, məhəllələrə isə - iriləşdirilmiş ölçülər (köhnə tikilişlərlə müqayisədə) verilmişdi.

Gəncənin general Sisianov tərəfindən alınmasından (1804-cü il) sonra keçən 50 il ərzində tikinti fəaliyyətinin tempi yavaşıdılmasa da, nə şəhərin ictimai həyatında, nə də şəhərsalma strukturunda bir elə dəyişiklik baş vermişdi. Əgər əsrin əvvəlində şəxsi evlərin sayı 1402-yə,



*Yelizavetpolun planı. Memar İ.İ.Krjiştaloviç. 1873-cü il.*



I BÖLMƏ. XIX ƏSR - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏRSALMA

dükanların sayı - 400-ə çatırdısa, yarım əsrdən sonra evlərin sayı 2272, dükanların sayı isə 500 olmuşdu [358, s.343].

Zaqafqaziyanın Rusiyanın iqtisadi həyatının ümumi məcrasına cəlb edilməsi, kapitalist münasibətlərinin inkişafı XIX əsrin 60-ci illərində çox böyük kənd təsərrüfatı rayonunun mərkəzinə çevrilən Gəncəyə də öz təsirini göstərmişdi. Gəncə 1868-ci ildə quberniya şəhəri statusu aldı. O zamandan da şəhər miqyasında tikinti işlərinin artması və müəyyən mənada şəhərsalma tədbirlərinin həyata keçirilməsi müşahidə olunur ki, bu da quberniya memarı İ.İ.Krjiştaloviç tərəfindən Gəncənin 1873-cü ildə tərtib edilən və arxivdə tərəfimizdən aşkarlanan planında öz təsdiqini tapmışdır.

**1873-cü il planı.** Gəncənin quberniya mərkəzinə çevrilməsindən sonra onun yerli özəlliklərini əks etdirən, konkret şəraitə müvafiq olan, xüsusi xərclərin çəkilməsini tələb etməyən və o dövrün şəhərsalma məsələlərinə cavab verən, öz əsası etibarilə çevik planının tərtib edilməsi zəruri şəkil almışdı. Bunun ardınca «şəhər inkişaf etməyə başladı və ona görə də şəhər küçələrinin tənzimlənməsi planının tərtibindəki ən kiçik ləngimə belə planın gələcəkdə həyata keçirilməsini əhəmiyyətli dərəcədə çətinləşdirə bilərdi».

Bu mülahizələri əldə rəhbər tutaraq, Krjiştaloviç planın tərtibinə başladı, həm də o, şəxsi mülkiyyətdə olan torpaqların özgəninkiləşdirilməsi hesabına küçələrin əsas istiqamətini saxlamışdı. Geniş torpaq sahələrinin sahibləri ərazilərinin çox az hissəsini itirdilər, ancaq əvəzində rahat planlaşdırma əldə etmiş oldular. Məhəllələrin, xüsusilə də sol sahilin planlaşdırma strukturu narahat idi, çünki onların forması şəxsi mülkiyyətin abrisi ilə müəyyənləşirdi. Şəhərin nizamlı planlaşdırmanın olduğu hissələrində, yəni perspektiv tikiliş rayonlarında məhəllələrin optimal ölçüləri və küçələrin istiqaməti diqqətə alınmışdı. Bağlar rayonunda eynitipli məhəllələrlə nizamlı planlaşdırma prinsipi tarixi tipoqrafiyanın real şəraitinə uyğun gəlmirdi və ona görə də küçələrin köhnə şəbəkəsi saxlanılmışdı.

Krjiştaloviçin planına əsasən, mərkəz planlaşdırma və memarlıq baxımından əsaslı dəyişikliyə məruz qalmışdı. Yerində sıravi məhəllələrin inşasının nəzərdə tutulduğu Gəncə qalasının dağıdılması nəticəsində şəhərin mərkəzi bir qədər rəsmi görünüş qazandı. Şəhər planının müəllifi Gəncə qalasının qorunub saxlanması və onun Azərbaycanın orta əsrlər memarlığının abidəsi kimi əhəmiyyəti haqqında düşünmür, baxmayaraq ki, formal olaraq hakimiyyət onun dağıdılmasını yasaq edir. Belə bir həll variantı ona gətirib çıxardı ki, tarixi mərkəzin memarlığı qədim Gəncənin bağlarının çiçəkli yaşıllığı fonunda qalanın koloritli divarlarından, bürclərindən və istehkamlarından məhrum oldu.

Azərbaycanın Bakı, Şəki, Şuşa kimi bir çox şəhərləri özlərinin xarakterik müdafiə qurğularını, bununla da özlərinin fərdiliyini əks etdirən tarixi-memarlıq özəlliklərini qoruyub saxlamışdılar ki, bu da o çağın dövri mətbuatında dəfələrlə qeyd edilmişdi.

Krjiştaloviçin planının ümumi çatışmazlıqları - layihənin sxematikliyi və şəhərin inkişaf perspektivini əks etdirə bilən məzmun əsasında dəqiq memarlıq-planlaşdırma ideyasının olmamasıdır. Krjiştaloviç mövcud şəraitə, yerin tarixi topoqrafiyasına, iqtisadi imkanlara, tikintilərə rəhbərlik etmək üçün plana malik olmaq zərurətinə istinad edirdi. O, Daxili İşlər Nazirliyinin sirkulyar toplusunda yer alan - «yeni layihələrin tərtib edildiyi zaman mümkün olduğu qədər şəhərin mövcud vəziyyətinə uyğunlaşmağa səy göstərmək və həqiqi və



*Yelizavetpol. Lağv edilmiş qalanın tutduğu torpaq sahəsinin marzçəkmə planı. 1887-ci il.*

əhəmiyyətli zərurət olmadan bütöv küçə və meydanların tamamilə və ya onların böyük bir hissəsinin yeni istiqamət və şəkil almağına şərait yarada biləcək təkliflərin təqdim edilməsinə yol verməmək» göstərişinə əsaslanırdı (1855-ci il nəşri, cild 4, § 9, bənd B və V və § 332).

Yenidən layihələşdirilən məhəllələrdə meydanlar haqqında məsələ də açıq qalmışdı, baxmayaraq ki, onlar «gigiyenik və yanğın baxımından olduqca faydalıdır, ticarət və ayin qurmalarının, dükanların və ictimai binaların tikilişləri üçün lazım idilər». Həqiqətən də, şəhər ərazisinin çox böyük sahəsində biri sağ sahildə və digəri sol sahildə olmaqla cəmi iki meydan vardı. Şəhərin mərkəzindəki yeganə çox böyük ticari və ictimai meydan kommersiya əməliyyatları aparılmasına xidmət edirdi.

Gəncədə baş meydana tabe olan kiçik mərkəzlər sanki mövcud deyildi; bütün işgüzar və ictimai həyat mərkəzdə yerləşməsi sayəsində onun şəhər mərkəzi kimi memarlıq və kompozisiya əhəmiyyətini müəyyənləşdirən meydanda cəmlənmişdir. Mərkəzdə yerləşən və şəhərin hər iki hissəsini birləşdirən yeni şəbəkəli körpü eyni zamanda mühəndis və memarlıq qurğusu idi. O, quberniya şəhərinin həcm-fəza strukturunda aktiv görünür. 1873-cü il planında körpüyə yanaşan küçələr işlənməyib, ona görə də aradan demək olar 30 il keçdikdən sonra şəhərformalaşdırıcı elementə çevrilmişdi [273, s.103].

1873-cü il planında Gəncənin məskun zonasının mərkəzindən mövcud qəbirstanlıqların köçürülməsi kimi sanitariya-gigiyena baxımından böyük əhəmiyyət daşıyan məsələ də həll edilməmiş qalmışdı. Lakin quberniya hakimiyyəti bütün qəbirstanlıqları bağlamağı və onlar silinib getdikcə bu sahələrin küçə bağçaları salınması üçün ayrılmasını təklif edirdi. Lakin qeyd etmək lazımdır ki, plan öz əsası etibarilə əhalinin yaşayış tikililərinə getdikcə artan tələbatından doğan yalnız funksional məsələləri həll etmək hədəfini izləyirdi. Krjiştaloviçin sözlərinə görə, «bütün gələcək tələbatların aydınlaşdırılmasınadək planın tərtib edilməsini dayandırmaq sakinlərin ev tikməsinə mane olmaq demək idi».

Gəncənin o dövrdəki ümumi inkişafı üçün bu layihə sənədinin müsbət əhəmiyyəti şübhəsiz idi: şəhər tikilişlərin tənzimlənməsi üçün faktiki olaraq heç bir layihə materialına malik deyildi. Krjiştaloviçin planı baxımsız qalmış, 1883-cü ildə Tiflis və Bakı şəhərlərini birləşdirən dəmiryol xəttinin açılması ilə canlanan şəhər təsərrüfatının bərpası üçün vaxtında üzə çıxmış praktik təlimat oldu. Bu fakt şəhər iqtisadiyyatının ümumi artımı və onun ərazisinin şimal istiqamətində, Gəncədən 5 km məsafədə inşa edilmiş dəmiryol stansiyasına tərəf genişləndirilməsi üçün həlledici əhəmiyyət daşıyırdı.





Stansiya yerinin şəhərdən aralıda seçilməsi Gəncə kimi nisbətən böyük yaşayış məntəqəsinə münasibətdə heç nə ilə haqq qazandırılmayan bir qərar idi. vağzalın şəhər sərhədlərindən bu qədər kənarda inşa edilməsinə yerli administrasiya ilə dəmiryol idarəsi arasındakı ixtilaf səbəb olmuşdu [359]. Stansiyanın açılmasından hətta 20 il keçdikdən sonra səhvi düzəltmək: «şəhər daxilində yeni vağzal tikmək» istəyirdilər [359]. 8 mart 1897-ci il tarixində Gəncədə özünüidarə sisteminin tətbiqi ilə ictimai həyat canlanmağa başlayır.

Şəhər təsərrüfatının yaxşılaşdırılmasına və abadlaşdırmanın müxtəlif növlərinə daha çox diqqət yetirilməyə başladı. Tam şəkildə həyata keçirilməyən 1873-cü il planı əsas layihə sənədi olaraq qalmaqda davam edir [348]. Şəhər geniş bir ərazi tuturdu (1600 hektar),1873-cü il planına əsasən küçələrin ümumi uzunluğu 107 km-ə yaxın idi.

Şəhər idarəsinin qarşısında çox sayda həll edilməmiş məsələ dururdu. Bunlardan ən əsasları - su təchizatının kifayət qədər olmaması, kanalizasiya şəbəkəsinin və işıqlandırmanın olmaması idi. Böyük memarlıq əhəmiyyətinə malik olmayan bir neçə kompozisiya-planlaşdırma qovşağının yaranması da bu dövrə aid edilir.

Gəncə-çayın sağ sahil zolağında şəhərin hər iki hissəsini birləşdirən körpünün yanında inzibati-ictimai mərkəz yerləşirdi. Quberniya idarələrinin nisbətən böyük sahədə səpələnmiş üçmərtəbəli binaları heç nə ifadə etməyən memarlığı, qeyri-müəyyən üslub istiqaməti, qırmızı rəngli divarların malalanmış səthlərinin fonunda pəncərələrin metrik sırası ilə qeyd olunur. Küçənin qarşı tərəfində gimnaziya və zəng qülləli kilsə



*Yelizavetpol. Çapxana küçəsinin tikintisi. XIX əsr.*



*Yelizavetpol. Yaşayış evi. Ümumi görünüş. XIX əsr.*

ucaldılmışdı. Bütün bu tikililəri memarlıq cəhətdən Rusiya şəhərlərinin sənaye qurmalarını xatırladan və bişmiş kərpicdən inşa edilmiş şəhər məktəbinin binası tamamlayır.

1900-cu illərin əvvəllərində şəhər Gəncə-çayın sol sahilindən bulvar salınması məqsədi ilə istifadə edilməsinə qərar verir. Bulvarın körpüdən başlayaraq, çayın axarı ilə aşağı istiqamətdə dar zolaqda salınması nəzərdə tutulmuşdu [273, s.103]. Beləliklə, Gəncə çayının sahili planlaşdırmanın bir vəsiləsini təşkil edərək, şəhər memarlığının aktiv tərkib hissəsinə daxil olur. Vorontsov bağı özünün möhtəşəm yaşıllığı ilə sakit istirahət yeri olaraq qalmaqdadır.

Körpünün yaxınlığındakı yeni bulvar vizual olaraq «Forer» şəhər teatrının binası ilə tamamlanırdı (sonuncu bizim günlərdə təmir olunmuşdur). Bütün kompleksin ətraflı düşünülmüş planlaşdırma və həcm-fəza həlli əsasında inşa edilməyən ayrı-ayrı binalar şəhər mərkəzinin vahid ansamblını yarada bilməzdi. Buna baxmayaraq, yerin təbii şərait Gəncə şəhərinin inzibati-ictimai mərkəzinin dağınıq şəkildə yerləşən binalarını müəyyən dərəcədə birləşdirirdi. Elə bu rayonda memarlıq baxımından bir sıra maraqlı yaşayış evləri inşa edilmişdi.

O qədər də uzun olmayan və yaşayış evləri, mehmanxana və birmərtəbəli dükanlarla tikilmiş Sabir küçəsi şəhərin ictimai və ticarət hissələri arasında bağlayıcı vəsilə rolunu oynayırdı. Bu mərkəzi küçənin tikilişində ayrı-ayrı binaların memarlığının xeyli əyalətçilik ünsürləri ilə ən müxtəlif üslub özəlliklərini izləmək mümkündür. Burada özünə xas yerli traktovka ilə renessans modern üslubu və hər hansı üslub istiqamətindən məhrum olan evlərin memarlığı ilə dinc şəkildə uzlaşır.

1914-cü ilin əvvəlinə Gəncə öz iqtisadi vəziyyətinə görə Azərbaycan şəhərləri arasında ilk yerlərdən birini tutur (Bakıdan sonra). Onun əhalisinin sayı 56 886 nəfərə, yaşayış evlərinin sayı isə 12 360-a çatırdı [403]. Əhalinin artan tələbləri müasir şəhərsalma tələblərinə cavab verən yeni planın tərtibini diktə etməsinə baxmayaraq, şəhərdəki planlaşdırma işləri 1873-cü ilin baş planına əsasən həyata keçirilirdi [523].

**Hacıkənd**

Gəncənin quberniya mərkəzinə çevrilməsi şəhərdən 19 km aralıda əlverişli iqlimə, zəngin təbiətə, bulaq sularına malik mənzərəli bir yerdə yerləşən kurort qəsəbəsi Hacıkəndin yaranmasına səbəb oldu.

Hələ Gəncənin quberniya mərkəzinə çevrilməsinin nəzərdə tutulduğu vaxtlarda əlverişsiz iqlim xüsusiyyətləri - yayda havaların həddən artıq qızmar keçdiyi diqqətə alınmışdı. Elə buna görə də quberniya idarələrinin isti vaxtlarda şəhərdən kənarda daha münasib bir yerə köçürülməsi qərara alınmışdı. Bu baxımdan Gəncə yaxınlığında yerləşən və onunla ən rahat kommunikasiyası olan, dövlət mülkiyyətindəki Hacıkənd qəsəbəsi ən yaxşı yer idi. Bu, sonradan yay aylarında quberniya idarələrinin müvəqqəti olaraq yerləşdirilməsi və Gəncənin və Azərbaycanın digər şəhərlərinin əhalisinin istirahət etməsi üçün Hacıkəndin gözəl bir məkana çevrilməsinə şərait yaratdı. Zəngin sıx meşəli ətraf dağların mənzərəli təbiətini xoşlamış bəzi Bakı dövlətliləri də sonralar burada özlərinə bağ evləri tikəcəkdilər.

Qubernator və vitse-qubernatorun evləri də daxil olmaqla, quberniya idarələri məmurları üçün xidmət yerləri ilə 19 dövlət bağ evinin tikintisi 1874-cü ildən 1887-ci ilə qədər davam etmişdi. Quberniyanın ali orqanlarının yaxınlıqda yerləşməsi sayları ilbəil artan şəxsi bağ evlərinin tikintisinə təkan verirdi. Buna görə də Hacıkəndin planının tərtib edilməsinə zərurəti yarandı. Qəsəbənin inşası nizamsız xarakter almamış, indidən onun gələcək inkişafını bu plana əsasən tənzimləmək mümkün olacaqdı. «Hacıkəndin, onda dövlət binalarının və onların ətrafındakı hasarların yerləri göstərilməklə Planı» 23 noyabr 1889-cu il tarixində Peterburqda Texniki-inşaat komitəsində müzakirə edildi və 25 noyabr 1889-cu il tarixində daxili işlər naziri tərəfindən təsdiq edildi.

Məkanın güclü inkişaf etmiş relyefi eyni zamanda quberniyanın bu hissəsində hərbi və ticarət yolu olan yeganə tranzit yolun hər iki tərəfində dövlət evlərinin yerləşməsini diktə edirdi. Şəxsi bağ evləri üçün sahələr dövlət evlərindən şimal-şərq səmtdə ayrılmışdı. Qubernatorun bağ evi ərazinin cənub-qərb hissəsində inşa edilmişdi.

**1889-cu il planı.** Hacıkəndin tikiliş planının tərtib edildiyi vaxtlarda onda iki müstəqil şəhər rayonu: hökumət idarələri və zənginlərin bağ evlərinin, klubun, uşaq oyunları üçün meydançaların, kiçik, ancaq çox gözəl bulvarın yerləşdiyi Yuxarı rayon və xırda məmurların və tacirlərin yaşadığı, dükanların və digər bu kimi müəssisələrin yerləşdiyi Aşağı rayon yaranmışdı. Beləliklə, bu yerdə inzibati-ictimai (Yuxarı) və ticarət (Aşağı) mərkəzləri formalaşır.

Kurort yeri olaraq Hacıkəndin sürətlə böyüməsi və populyarlığı onun abadlığına diqqət yetirilməsini tələb edirdi; bu məqsədlə 1901-ci ildə Hacıkəndin abadlaşdırılması üzrə komissiya yaradıldı. Bu komissiyanın fəaliyyəti nəticəsində Hacıkənd öz simasını tamamilə dəyişdi [431]. Hacıkənddə bütün ərazi boyu yerləşdirilən və ona təmtəraqlı görkəm verən 120 fənər quraşdırılır. Geniş yol şəbəkəsi onun bütün hissələri: Yuxarı və Aşağı Hacıkənd arasında rahat əlaqə saxlanılmasına imkan verirdi. Meşədə



*Hacıkəndin layihəsi. 1889-cu il.*

gəzintilər üçün xüsusi yollar salınmışdı. Quberniya hakimiyyəti Turş-su bulağından mineral su gətirmək və müalicə məqsədi ilə vanna qəbulu üçün bir neçə hovuz qurmağı nəzərdə tuturdu [349].

Beləliklə, Gəncə yaxınlığında tam şəkildə abadlaşdırılmış, Sovet hakimiyyəti dövründə ümumittifaq əhəmiyyətli böyük istirahət və turizm mərkəzinə çevrilən kurort şəhəri yaranır.

**Şuşa**

Yüksək dağlıq ərazidə yerləşən, keçmişdə - böyük Qarabağ xanlığının Pənah xan (1753-1754-cü illər) tərəfindən əsası qoyulan paytaxtı, memarlıq və tarixi abidələri ilə zəngin kurort – Şuşa qoruq-şəhəri də zəngin təbiətə və iqlim şəraitinə malikdir [213]. Şəhərin yaranması XVIII əsrin ortalarında Azərbaycanda mövcud olan hərbi-siyasi şəraitlə sıx surətdə bağlıdır.

350 hektara malik ərazini əhatə edən Şuşa Pənah xan tərəfindən alınmaz yüksəklikdə qala kimi tikilmişdi. Onun sərhədlərini üç tərəfdən 200 metr dərinliyə enən vertikal qayalar təşkil edirdi. Parlaq ifadəli relyef əvvəllər Cəfər, Şahbaz və Kəngərli dərələri adlanan yarğanlarla kəsilirdi [129]. 1805-ci ildə Qarabağ xanlığı müəyyən şərtlər altında Rusiyaya birləşdirildi. Lakin xanlıq daxili idarəetmənin ləğv edildiyi və Rusiya İmperiyası əyalətlərindən birinə çevrildiyi 1822-ci ilə qədər saxlanmışdı [355, s.20]. Şuşa bu zaman artıq üç əsas hissəyə və ya məhəlləyə bölünürdü.

Pənah xan tərəfindən Şuşa qalası üçün seçilən ərazidən istifadənin nəticəsi





hücumlar qarşısında nisbətən zəif yer olan şimal tərəfdən müdafiə divarlarının, ailə üçün qəsrin (sonradan rus qoşunları tərəfindən ərzaq anbarına çevrilmişdi) və xanın yaxınları üçün yaşayış evlərinin tikilməsi oldu [107,s.101]. Ərazinin tikilişi əsasən onun oğlu İbrahim xanın (1760-1806) hökmranlığı dövründə başladı. İbrahim xan Şuşa qalasının divarlarını möhkəmləndirir və müvəqqəti taxta məscidin yerində daşdan böyük cümə məscidi tikdirir.

Qalanın planlaşdırma strukturu iki mərhələdə yaranmışdır: onun əmələ gəlməsinin başlanğıc mərhələsində - qalanın təməli qoyulmuş və sonrakı mərhələdə - şərq hissənin nisbətən sakit ərazisində işlər başa çatdırılmış və tikinti qərbə, daha dərətəpəli hissəyə keçirilmişdi [273,s.111].

XIX əsrin birinci yarısında şəhərin planlaşdırma strukturu artıq formalaşmışdı. Bütün zahiri nizamsızlığına baxmayaraq, relyefin nəzərə alınması ilə, məntiqi cəhətdən salınması və ətrafında mənzərəli məhəllələrin formalaşdığı Şuşanın planlaşdırma əsasını təşkil edən baş küçələrin dəqiq xətləri müşahidə edilirdi. Bütün sonrakı tədbirlər şəhərin artıq qərarlaşmış sxemində cüzi dəyişiklik aparılması ilə onun ayrı-ayrı qovşaq və sahələrinin tamamlanması və tənzimlənməsi planında həyata keçirilirdi.

Şəhər ərazisinin inkişaf xarakterini şərtləndirən əsas planlaşdırma və kompozisiya özəyinin seçilməsi topoqrafik xüsusiyyətlərlə bağlıdır. Məsələn, şəhər magistralı meridional istiqamətdə öz başlanğıcını Gəncə qapılarından alan yolun davamıdır. Bu yol vasitəsilə aran Qarabağı və ölkənin digər bölgələri ilə əlaqə saxlanırdı. Bu magistraldan en dairəsində uzanan və şərqə istiqamətlənən üç ox-küçə şaxələnirdi. Onlardan birincisi - öz başlanğıcını Divanxanadan götürən indiki M.Qorki küçəsidir; bu yol yerin relyefini təkrar edərək, Şahbaz dərəsi yarğanının əsas xətti boyunca keçir və boş sahə ilə başa çatır. Bu üç ox-küçədən ən əsası olan ikinci (Orta) küçə mərkəzi şəhər meydanından başlayaraq, şərqə doğru uzanır. Və nəhayət, üçüncü küçə nisbətən nizamlı qaydada inşa edilmiş tikilişləri tamamlayaraq, şəhərin cənub sərhədlərindən keçirdi. Bu əsas küçədən pilləkən marşları kimi gah yuxarı, gah da aşağı istiqamətlənən məhəllə küçələri salınmışdı.

Şəhərin əsas küçələrinin hüdudunda müxtəlif ölçülərdə və abrisdə yaşayış məhəlləri yaranır, onların formalaşması üçün tutduqları ərazinin topoqrafiyası böyük önəm daşıyırdı. Məhəllələrin sərbəst və mənzərəli traktovkası - nəinki tikilişlərin nizamsızlığının nəticəsi, həm də sakinlərin sosial-iqtisadi və ərazi əlamətlərinə görə yerləşdirilməsindən birbaşa asılılığın nəticəsi idi; Qarabağın müxtəlif yerlərindən köçürülüb gətirilənlər mikrorayonlar modelində müstəqil məhəllələr təşkil edirdilər.

Qarabağlı tarixçi Baharlı qeyd edir ki, Şuşanın şərq (köhnə) hissəsi 17 kvartal-məhəlləyə: doqquzu aşağı - «aşağı məhəllə» (Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Dördlər qurdu, Hacı Yusifli, Dörd çinar, Çöl qala və ya Cuhudlar) və səkkiz yuxarı - «yuxarı məhəllə» (Mərdinli, Saatlı, Köçərli, Mamayi, Xoca Mircanlı, Dəmirçi, Hamam qabağı, Təzə məhəllə) bölünmüşdü [37].

XIX əsrin ikinci yarısında bütün məhəllələr şəhərin strukturunda özlərinin inkişaf etmiş ictimai mərkəzləri - məscidləri, hamamları, fəvvarə-köşkləri və dükanları ilə bütöv planlaşdırma quruluşları kimi formalaşmağa başlayırlar. İctimai təyinatlı binaların müəyyən sahələrdə cəmləndiyi məhəllə mərkəzlərinin bu tərzdə həlli XIX əsrin ikinci yarısında Şuşanı memarlıq baxımından Azərbaycanın digər şəhərlərindən fərqləndirir.

Məhəllə mərkəzləri aparıcı planlaşdırma qovşaqlarını təşkil edirdilər. Onlar birlikdə baş planın ümumi ideyasını - onun gözəlliyini və relyeflə uyğunluğunu, əsas binaların sərbəst şəkildə yerləşməsi və şəhər mərkəzinin fərqlənməsini ifadə edirdilər [273, s.110].

Şuşanın qərb hissəsində 12 məhəllə yaranmışdı. Görkəmli qarabağlı tarixçi Mirzə Yusif Nersesov özünün «Tarixi-Səfi» adlı əsərində onlardan bəzilərinin adını çəkmişdir; bunlar - Mehrili, Qazançılı, Əylisli, Çiroberd, Dərə, Bağlardır [10].

Müsəlman Şərqində qala və yaşayış məntəqələrinin təməlinin qoyulması ilə eyni vaxtda, bir qayda olaraq, bütünlükdə şəhərin işgüzar, ticarət və ictimai mərkəzini formalaşdıran məscid, hamam və bazar kimi mühüm ictimai tikililərin yeri də müəyyənləşdirilirdi. Şuşa bu baxımdan istisna təşkil etmirdi. Ancaq şəhərin şəhərsalma oxu ilə sıx surətdə bağlı olan planlaşdırma strukturunun əsasını təşkil edən işgüzar və ictimai mərkəzi fərdi xarakter daşıyırdı. Şəhər mərkəzinin həcm-fəza həllində yalnız qalanın memarlığı deyil, eləcə də təbiətin heç də az əhəmiyyət kəsb etməyən ifadəli elementləri: yaxınlıqda yerləşən və başı dumanla örtülü dağlar, ətraf mühitin təlatümlü ərazisi və yaşayış rayonlarının zəngin yaşıllığı da iştirak edirdi.

Şuşanın mərkəzi, məhəllələrin planlaşdırılmasına və onların yığcam mərkəzlərinin yerləşməsinə fəal şəkildə təsir göstərərək, həm topoqrafik, həm də planlaşdırma baxımından çox uğurlu formalaşmışdı. Şuşanın şəhər mərkəzinin ümumi sxemi planda T hərfinin düzgün olmayan şəklində təqdim edilmişdir. Mərkəzin bu kimi sxemi parlaq ifadə olunmuş relyefə malik şəhər ərazisində nizamsız yerləşmiş məhəllələr və Rastabazar tikilişlərinin aydın xətti arasında müəyyən mütənasiblik yaratmağa imkan verir.

Azərbaycan şəhərlərinin ictimai-ticarət mərkəzlərinin əsasını əksər hallarda kəsilməyən ox üzərində salınan bir magistral küçə təşkil edirdi ki, şəhərin bütün tikilişləri bu küçənin cazibəsində olurdu (Bakı, Şəki, Lahıc və s.). Magistral küçələrin oxunun istiqaməti dəniz (Bakı), çaylar (Şəki) kimi təbii amillərin mövcudluğu ilə də bağlıdır. Şuşa, mərkəzin yerləşməsi və formalaşmasına təsir göstərən bu olduqca əhəmiyyətli şəhərsalma amilinə malik deyildir. Ancaq şəhərin böyümə prosesinin gedişində üç istiqamətdə inkişaf edən mərkəzin sxemi o dövrdə zəngin şəhər olan Şuşanın mədəni-məişət əlaqələri üçün nəinki həyat qabiliyyətli və olduqca münasib olmuş, həm də XIX əsrin ortalarında Azərbaycanda şəhərsalma məsələlərində ən koloritli memarlıq-planlaşdırma həllindən birinin yaranmasına şərait yaratmışıdır.

Şuşanın tam şəkildə inşasının miqyası şəhərin iqtisadi imkanları ilə müəyyənləşirdi. Şəhər adambaşına düşən gəlirin məbləğinə görə hələ 1848-ci ildə Zaqafqaziya şəhərləri arasında dördüncü yeri tuturdu.

Bu vaxtlar artıq birmərtəbəli ticarət sıralarının və ikimərtəbəli karvansaraların üfüqi həcmlərinin daxil olduğu düzbucaqlı meydanın konturları özünü göstərməyə başlayır.

Çoxplanlı memarlıq kompozisiyası həcmli həllin dinamik quruluşu ilə seçilən və rahat mərkəzi meydanın (Divanxana yaxınlığındakı meydan müvafiq şəkildə inkişaf etməmişdi) boyuna oxunu öz qamətli minarələri ilə tamamlayan Cümə məscidi kompleksi ilə başa çatırdı [273, s.112].

Xan idarəçiliyi dövründə Şuşanın baş planı ilkin olaraq şəhərin sonrakı tikilişini nizamlaya biləcək bütöv planlaşdırma sənədi kimi tərtib edilməmişdi. Şuşanın bünövrəsini qoyan Pənah xan, xüsusilə də onun varisi İbrahim xan tərəfindən aparılan müharibələr, qalanın dəfələrlə mühasirəyə alınması şəhərin planlaşdırma və tikiliş məsələlərinə lazımınca diqqət yetirməyə imkan vermirdi. Bununla belə o dövrün miqyaslarında mədəni-məişət və inzibati binalarının inşası, onların əsasında eyni əhəmiyyətə malik olmayan iki meydanın yerləşdiyi inkişaf etmiş ictimai mərkəzin yaradılması onun formalaşmasında memar-planlaşdırıcının iştirak etmədiyi bu şəhərin inşa prosesində mühüm şəhərsalma məqamını təşkil edirdi.

Şuşanın, onun saray və ayin qurmalarının inşasına görkəmli şair, diplomat və Qarabağ Xanlığının böyük vəziri Molla Pənah Vaqif (1717-1797) rəhbərlik edirdi. İctimai və ayin binalarının (yalnız xan üçün deyil, iri feodallar-bəylər üçün) inşası üçün yerləri o təyin etmişdi. Bunun hesabına da şəhərsalma qovşaqları və şəhərin planlaşdırma şəbəkəsi yaradılmışdı. Şuşanın inkişafında memar-planlaşdırıcı iştirak etməsə də, Vaqifin mühəndis və yüksək təhsil almış şair kimi təsiri, əlbəttə, şəhərin planlaşdırma özəlliyində özünü göstərirdi. Bu, xüsusilə də, şəhərin baş planı gözdən keçirilərkən aydın görünür.

Xan idarəçiyi dövründə şəhərin tikintisi qaydasız, tamamilə sərbəst şəkildə, istənilən boş sahədə aparılırdı; o, heç nə ilə nizamlanmırdı. Belə bir vəziyyət Qarabağ Xanlığının ləğv edilməsi (1822-ci il) və onun Rusiyaya birləşdirilməsindən sonra yerli hakimiyyət tərəfindən müsbət hal kimi qəbul edilə bilməzdi, çünki şəhərin planlaşdırması və tikintisi tənzimlənmir, torpaq sahələri üçün vergilər xəzinəyə daxil olmurdu. Bunun nəticəsində də inşaat işlərinin aparılması üçün sahələrin ayrılmasının yalnız şəhərin inzibati hakimiyyətinin icazəsi ilə həyata keçirilməsi haqqında qərar qəbul edildi.



*Şuşa şəhərinin tarixi ticarət mərkəzinin sxematik planı. (Çertyoj – E.V.Avalov).*

Bu sərəncama əsasən, küçələrin tikilişini heç olmazsa bir qədər tənzimləmək və tikintinin müəyyən prinsiplərinə riayət etmək üçün özbaşına tikintilərin aparılması və boş şəhər torpaqlarının zəbt edilməsinə icazə verilmirdi.

Şuşa mühəndislər komandasının rəhbəri mühəndis işlərinin ali rəisinə - general-mayor Postelsə xahişlə müraciət etmişdi ki, "yerli polis innən belə şəhərin tənzimlənməsi haqqında sərəncamın pozulmasına, sakinlər tərəfindən özbaşına tikinti işləri aparılmasına imkan verməsin ".

**1846-cı il planı.** Şəhərdə tikilişlər aparılarkən çətinliklər Şuşanın baş planının olmaması üzündən qarşıya çıxırdı. Şuşa iqtisadi baxımdan müstəqil şəkildə planın tərtib edilməsinə şəhərlərin planlarını tərtib edən Mühəndis korpusuna nisbətən daha çox hazır idi. Bu istiqamətdə işlərə yalnız 1843-cü ildə başlanıldı. Tezliklə Gürcüstan mühəndis dairəsi komandiri, general-mayor Postels tərəfindən Şuşa şəhərinin planlaşdırma layihəsi hazırlandı. Şuşanın baş planı



*Şuşa şəhər ticarət mərkəzinin sxematik planı. 1855-ci il (Çertyoj – E.V.Avalov).*

təsdiq edilməsi üçün Qafqaz namestnikinə 1846-cı ildə təqdim edildi.

Baş plan tərtib edilərkən müəllif şəhər ərazisinə onun küçələrinin müəyyən dərəcədə differensiasiyası, məhəllələrin düz xətlə salınması və yerin relyefinin nəzərə alınması ilə vahid planlaşdırma orqanizmi kimi baxırdı.

Şəhərin gələcək inkişafı üçün də olduqca vacib olan bütün bu müsbət özəlliklər Qazqaz administrasiyanın maraqlarını heç də təmin etmirdi. Şəhər ərazisinin abadlaşdırılması üzrə istənilən planlaşdırma işlərinin şəhərin ümumi maraqlarına xidmət etməsinə baxmayaraq, şübhəsiz, şəxsi mülklərə toxunur, torpağa mülkiyyət hüququnu müəyyən dərəcədə pozur və hökumətə qarşı narazılıq doğururdu. Qafqaz namestniki odur ki, Postelsin planından imtina etmək qərarına gəldi və Gürcüstan mühəndis dairəsinin yeni başçısı polkovnik Hanzenə daha münasib, əslinə baxdıqda daha rekonstruktiv önəm daşıyan yeni plan layihəsi yaratmağı təklif etdi.

**Hanzen planı.** Qafqaz namestniki M.S.Vorontsov Şuşanın səmərəli şəkildə tərtib edilmiş planından daha çox yenidən əldə edilmiş ərazinin əmin-amanlıq və asayişində maraqlı olduğundan, polkovnik Hanzenə «indi mövcud olan küçələrin istiqamətini dəyişdirmədən, yəni nəzərdə tutulan küçələrin əyri olsa da, kifayət qədər geniş olması üçün, onları olduqları şəkildə saxlamaqla, faytonlarda rahatca keçib getmək üçün Şuşada üç və ya dörd əsas küçə salınmasını» əmr etmişdi.

Hanzen nəzərdə tutulmuş göstərişlərə riayət edərək və şəhərin ümumi planlaşdırmasına zərər vuraraq, Şuşa şəhərinin hər iki tərəfin: həm xüsusi mülkiyyətçilərin, həm də hökumətin maraqlarına cavab verən planını tərtib etdi. Mövcud planda o, faytonlarda daha rahat getmək üçün 12 metrə qədər genişləndirilməli olan küçələri işarətləyir; daha sonra adi küçələrin həddən artıq dar olması səbəbindən, istiqaməti dəyişdirmədən onları 11 metrə qədər genişləndirməyi təklif edir. Hanzen qala divarları boyu uzanan küçələrin əsas şəbəkəsini sanki tamamlayan geniş (ən azı 22 metr) küçə yaratmağı da planlaşdırır (qala divarları boyunca geniş küçənin salınma prinsipi hələ 1827-ci ildə general A.P.Yermolovun əmrinə əsasən Bakıda reallaşdırılmışdı). Beləliklə, şəhərin bütün ərazisi bir-biri ilə qarşılıqlı surətdə əlaqələndirilmiş olur və zərurət yarandığı təqdirdə ordunun sərbəst hərəkəti üçün şərait yaradırdı.

Postelsin planından bir vaxt sakinlər üçün narahatlıq törədən və uğursuz işlənib hazırlanan plan kimi imtina edilmişdi. Bununla belə, yeni plana görə, qoşunların sərbəst şəkildə yerdəyişməsi üçün xüsusi mülklərin də ərazisindən keçən və bütün şəhər boyu uzanan yollar salınmışdı. Bax buna görə Hanzen bu məsələnin həllində daha da irəliyə getmişdi. Postelsin köhnə tikilişlər üzərində üstünlük təşkil edən yeni planlaşdırılmış yaşayış məhəllələrini (şəhərin cənub hissəsində) nəzərdə tutduğu yerlərdə





Hanzen bu təbii əlverişli mövqedən hərbi məqsədlərlə istifadə etdi. O, «həyəcanlar və iğtişaşlar baş verdikdə sakinlərin itaət altında saxlanması üçün qala daxilindən müdaxilə üçün» burada şəhər üzərində komanda məntəqəsi kimi içqala tikmək qərarına gəldi. Hanzen daha sonra şəhər ərazisinin genişləndirilməsi məqsədi ilə Şuşada yerləşmək arzusunda olanlar üçün qalanın qarşısında bayır-şəhər tikməyi nəzərdə tuturdu.

XIX əsrin birinci yarısının sonlarında Şuşa özünün inkişaf etmiş ticarəti və sənətkarlığı ilə Zaqafqaziyanın ən böyük şəhərlərindən (əhalisinin sayı 13 667 nəfər) biri hesab edilirdi.

Şuşa tacirləri yalnız İranla (əsasən Təbrizlə) deyil, həm də Leypsiq, London, Marsel və Mançestr ilə ticarət aparırdılar [213]. Əsaslı şəkildə inşa edilmiş iki- və üçmərtəbəli, «damları Qafqaz üçün nadir hadisə olan [128] rus tərzində sıyrımla örtülmüş» daş binalar bir çox şəhərlərdəki bənzər binalardan öz dekorativ işləmələri ilə seçilir, küçələr isə özlərinin səliqəli görünüşü ilə fərqlənirdi [253]. Şuşaya planlaşdırma və tikilişin tənzimlənməsi üçün baş plan zərurui idi ki, onun böyüməsi müvafiq nizamlayıcı sənədlə istiqamətlənsin.

Postelsin şəhərsalma vəzifələrini nəzərə almaqla tərtib etdiyi, şəhərin planlaşdırmasını, tikilişini təkmilləşdirən, küçə və meydanlarının ümumi abadlığını yaxşılaşdıran layihədən, bəlli olduğu kimi, yuxarıda göstərilən səbəblərdən imtina edilmişdi.

Hanzenin olduqca mürəkkəb və hətta Postelsin planı ilə müqayisədə daha çox vəsait tələb edən variantını, görünür, rədd etmək və küçələr tənzimlənərkən yol verilən kiçik yaxşılaşdırmalar tətbiq olunmaqla, mövcud planlaşdırma strukturu ilə məhdudlaşmaq lazım gəlmişdi. Bu məqsədlə Şuşada aparılan tikinti işlərinə nəzarət üçün Qafqaz namestnikinin sərəncamına əsasən 1852-ci ilin dekabrında Xüsusi komissiya yaradılır.

**1855-ci il planı.** 1855-ci ildə tərtib edilmiş «Şəhərin daxilində olanların qeyd edilməsi ilə Şuşa qalasının baş planı» komissiyanın fəaliyyət dövrünə aiddir. Bu, Şuşanın təməlinin qoyulduğu andan bizim dövrümüzə qədər gəlib çatan şəhərin yeganə tam planıdır. Şuşanın baş planı onun bizim günlərədək şəhərin şərq hissəsində dəyişilmədən qorunub qalmış planlaşdırma strukturu haqqında son dərəcə doğru və tamamilə aydın təsəvvür yaradır.

Artıq bir əsrdən artıq mövcud olan Şuşa Azərbaycanın mədəni və iqtisadi mərkəzlərindən biri kimi intensiv şəkildə inkişaf edirdi. O, tikililərin monumentallığı, Gəncə, Bakı və Quba binalarından sərfəli şəkildə fərqlənən mənzərəli planlaşdırma strukturu və üslubunun ciddiliyi ilə seçilirdi [273, s.116]. Şəhər məhəllələrinin tikilişi aşağı sıxlığa, bilavasitə yaşayış evlərinə bitişik böyük bağ sahələrinə malik idi. Sonralar yaşayış evlərinin intensiv tikintisi hesabına bağların sahəsi daralmağa başladı.

1855-ci ilin baş planında Şuşanın mövcud planlaşdırması və tikilişi ilə yanaşı onun cənub hissəsində, atçapma yarışlarının keçirildiyi Cıdır düzü adlanan yerdə və ondan cənub-qərbə doğru şəhər ərazisini genişləndirmə rayonları nəzərdə tutulmuşdu; yeni məhəllələrin nizamlı şəbəkəsi relyefin xüsusiyyətləri ilə qismən uzlaşmırdı; onun yarğanlarla kəsişməsi nəzərə alınmamışdı. Şuşanın düzxətli məhəllələrlə yenidən planlaşdırma ideyası Postelsə məxsusdur. Lakin bu ideya bütün şəhərin tarixən formalaşan planlaşdırmasında öz inkişafını tapmadı. Sonralar Şuşa yenidənqurmaya məruz qalmamış və özünəməxsusluğunu qoruyub saxlamışdır.



*Şuşanın baş planı. 1855-ci il.*

**1864-cü il planı.** Şuşanın planlaşdırmasında Hanzenin şəhər üzərində hakim mövqe tutan içqalanın tikilməsi haqda təklifi Qafqaz ordusunun baş komandanı tərəfindən 10 iyun 1864-cü il tarixində təsdiq edilən layihədə öz əksini tapmışdır. Bu layihədə içqalaya İrəvan qapılarının yaxınlığında, şəhərin ən uca işarətində yer ayrılmışdı. Bu istehkamın tikilməsi Şuşanı ölkənin cənub vilayətləri ilə birləşdirən tranzit yola nəzarət etməyə imkan verirdi. Zaqafqaziyanın, eləcə də Bakı və Şuşanın bir çox qalalarının hərbi məntəqə kimi ləğv edilməsi ilə bağlı 1869-cu ildə Şuşada içqalanın tikilməsinə ehtiyac qalmamış və şəhər hərbi məqsədlərə sərf edilən əlavə xərclərdən azad olmuşdu.

Şuşa XIX əsrin ikinci yarısının əvvəllərində zəngin ticarət mərkəzi olaraq qalmaqda davam edirdi. Burada intensiv şəkildə aparılan tikinti işləri əhalinin artımı (30 000 nəfər) ilə müşayət olunurdu. Lakin az sonra iqtisadiyyatda böhran başladı, ticarət zəifləməyə doğru getdi. Sənərkarlıq sıraları seyrəlmiş, tikinti işləri azalmış və bütün bunlar 1883-cü ildə inşa edilən və Tiflisi Qafqazın iri iqtisadi və







*Şuşa. Yaşayış evinin tikilişinə misal. XIX əsr.*



*Zöhrabbəyovların yaşayış evi. XIX əsr. Ümumi görünüş və fraqment.*



*Şuşa. Şərq hissəsinin planı. XX əsrin əvvəli.*



I BÖLMƏ. XIX ƏSR - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ŞƏHƏRSALMA

sənaye mərkəzi - Bakı ilə birləşdirən Zaqafqaziya dəmiryolunun salınmasından sonra baş vermişdi. Bununla bağlı polad magistralın cazibə dairəsində olan yeni ticarət mərkəzləri, yeni yaşayış məntəqələri meydana gəlmişdi.

Şəhəri münsib nəqliyyat - dəmiryol ilə bağlantısı olan sənaye mərkəzlərinə yaxınlaşdırma yolu ilə onun ümumi iqtisadi səviyyəsini yüksəltməyə cəhd göstərilirdi.

Şuşanı sərnişinlərin və müxtəlif yüklərin şəhərə və geriyə fasiləsiz şəkildə daşınmasını təmin etməyə qadir olan Zaqafqaziya dəmiryolu ilə birləşdirmək nəzərdə tutulurdu [12]. Bu ideya tezliklə yolun istiqaməti və Şuşa stansiyasının yeri üçün layihə və araşdırma işlərində həyata keçdi.

1914-cü il müharibəsi Şuşanın inkişafına şərait yarada bilən və onun Azərbaycanın digər rayonları ilə ticarət və sənaye əlaqələrinin yaxşılaşdırılma mənbəyi və rahat əlaqə vasitəsi kimi müasir nəqliyyat yolu əldə etməsinə mane oldu. Buna baxmayaraq, XX əsrin əvvəllərində şəhərin iqtisadiyyatı nisbətən sabit idi, əhalinin sayı isə 42 409 nəfərə çatmışdı. Tədris ocaqlarının (realnı və ticarət məktəbi, seminariya) tikintisi ilə yanaşı ümumşəhər miqyasında da yaşayış evlərinin inşası davam etdirilirdi. Şuşanın abadlaşdırılmasının səviyyəsi kifayət qədər yüksək idi: şəhər Daşaltı çayı və Xəlifəli çaylarından çəkilən iki kəmərdən verilən su ilə təmin olunurdu. Bu kəmərlər sayəsində məhəllələrdə supaylaşdıran köşklər şəbəkəsi genişlənir, hamamlar işləyir, evlərə bitişik ərazilərdə yaşıllıqların sayı artırdı. Eyni zamanda əvvəllər Xan, Məşədi Həsənəli, Musa bəy və İsfəndiyarov bağları kimi gəzinti və əyləncəli istirahət yerləri olan ictimai xarakterli bir çox şəxsi bağ sahiblərinin daha inkişaf etmiş sənaye şəhərlərinə köçüb getməsi nəticəsində baxımsız qaldığından yararsız hala düşmüşdü [111].

Şuşa özünün maraqlı bir tərzdə qərarlaşmış memarlıq-planlaşdırma strukturu ilə Gəncə və Şəki ilə birlikdə Azərbaycanın ən böyük şəhərlərindən və mədəni mərkəzlərindən birinə çevrildi.

Şuşada 4656 əsaslı yaşayış evi, ictimai və ticarət binaları, 12 meydan, yaşayış məhəllələri daxilində çoxsaylı bağlar vardı [403, s.379].

**Şəki**

O çağda Azərbaycanın digər böyük şəhəri 1819-cu ildə Rusiyaya birləşdirilən Nuxa idi. Birləşdirilmə faktının özü və bununla bağlı yeni iqtisadi əlaqələrin yaranması Nuxanın şəhər həyatında canlanma yaratdı. Buna xeyli dərəcədə o da təkan vermiş oldu ki, əlverişli şərait sayəsində Nuxada Qazqaz ipəkçiliyinin mərkəzi yaradıldı.

Köhnə şəhəri tamamilə dağıdan 1772-ci ildə baş vermiş güclü seldən sonra Qurcana-çayın hər iki sahilindəki ərazidə tikinti işlərinə başlanıldı və Nuxa yenidən tikilən müasir şəhərə çevrildi [164]. Şəhərin yenidən aydın şəkildə planlaşdırılmış özəyinin yoxluğu kifayət qədər mürəkkəb planlaşdırma və çox sayda müxtəlif böyüklükdə məhəllələrin yaranmasına səbəb olmuşdu. Buna baxmayaraq məhəllələrin ölçülərində müəyyən qanunauyğunluq izlənirdi. Nuxanın aşağı hissəsinin nisbətən sakit relyefində daha iri məhəllələr yerləşirdi. Aydındır ki, şəhərin yuxarı hissəsində yerləşən dik yamaclarında eyni böyüklükdə məhəllələr qeyri-təbii görünə bilərdi.

Aydın seçilən əsas magistral - çayın sahili, bəzi küçələrin ikinci dərəcəli olduqlarını vurğulayan miqyası, ona xas yerli özəllikləri olan şəhər yaşayış evinin qərarlaşmış tipi, tikilişlərin malikanə üslubu, sahələrin küçədən təcrid edilmiş olması, məkanın relyefinin nəzərə alınması və 1772-ci ildən son-

ra tikinti işlərinin eyni zamanda həyata keçirilməsi - bütün bunlar şəhər orqanizminin məlum bütövlük qavrayışını müəyyən edir.

Hər küçə döngəsində, xüsusilə də şəhərin karvansaraların monumental sıratağ formalarının yaşayış evləri balkonlarının yüngül sütunları ilə yaxın təmasda olduğu, relyefin kəskin enişinin isə memarlıq kütlələrinin bədii həllinə gətirib çıxardığı yuxarı hissəsində yeni-yeni memarlıq mənzərələri açılırdı. Sıx yaşıllıq fonunda canlı, fasiləsiz dəyişən memarlıq anlayışı Nuxanın özünəməxsus xüsusiyyətlərindən biri idi [273, s.83].

Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra yeni dalğa əhalini şəhərin işgüzar və ictimai həyatına cəlb edir. Sənayenin inkişafı bir sıra şəhərsalma məsələlərinin həllinə yaxından yanaşmağa imkan verirdi: ayrı-ayrı planlaşdırma elementlərinin tənzimlənməsi aparılır, kiçik memarlıq ansamblları yaradılır, yaşayış evlərinin magistrala doğru təbii meylliliyi müşahidə olunurdu. Doğrudur, bütün bu işlər cəsarətsizcəsinə, şəhər miqyasında problemlərin həll planında aparılmırdı; özəlliklə də ayrı-ayrı məkan vahidləri arasında dəqiq əlaqə qurulması yox idi, şəhərin daha sakit relyefli aşağı hissəsində küçələri düzbucaqlı şəbəkəyə bölmək təşkil edilməmişdi.

1827-ci ildə Nuxada ipəkçiliyin bütün Rusiyada yayılması və gücləndirilməsi üçün Cəmiyyət yaradılır. Cəmiyyət və ya o zaman deyildiyi kimi, Şirkət, Nuxanı özünə fəaliyyət mərkəzi seçərək, burada özü üçün bir sıra binalar: kontor, işçilər və şagirdlər üçün bina, mağazalar, 42 dəzgahdan ibarət ipəksarıyıcı fabrik (Avropa modeli) inşa etdi və İtaliyadan fabrikdə işləmək üçün 12 fəhlə ailəsi gətirdi. İpək-sarıyıcı fabrik Çar-Abad adlandırıldı. 1860-cı ildə o, yaşayış evləri də daxil olmaqla qurmaların tam kompleksindən ibarət idi [262, s.389]. Şübhəsiz, yüngül sənayenin doğulması yerli özəllikləri ilə fərqlənən yaşayış evləri tikintisinin genişləndirilməsi üçün təməl təşkil edirdi. Tikinti yaşayış evləri və ictimai qurmaların sonrakı inkişafı və formalaşmasında böyük və mühüm rol oynadı. Alekseyevin iri ipək-sarıma fabrikinin qurulması şəhərdə bəzi planlaşdırma qovşaqlarının tənzimlənməsinə əhəmiyyətli təsir göstərmişdi [262, s.394].

Hündür məkanda, mənzərəli dağ yamaclarında yerləşən Nuxa şəhərin baş magistralını - əsas kompozisiya oxunu müəyyənləşdirən Qurcana-çayın sahilləri boyunca uzanırdı. Magistraldan bağların sıx yaşıllığında itib-batan dar küçələr və döngələr şaxələnir, onların fonunda giriş portalları və memarlıq baxımından işlənmiş küçə çeşmələri - bulaqlar təzadlı görünüşləri ilə fərqlənirdilər.

Nuxa bir neçə nisbətən geniş küçə və şimaldan cənuba doğru yönələn tranzit magistral ilə kəsişirdi. Ərazinin mürəkkəb topoqrafik şəraiti şəhər məhəllələrinin mənzərəli şəkildə yerləşməsini şərtləndirirdi. Nuxanın planlaşdırmasında feodal şəhərinə xas olan tayfa və istehsal-sex əlamətlərinə görə rayonlar üzrə yerləşmə özünü göstərirdi. Rayon və küçələrin qədim adları indiyədək qorunub saxlanmışdır: Ağvanlar, Duluzlar, Şərbablar, Dabbaqlar və s. [51, s.10].

Uzunluğu 2 km-ə yaxın olan magistral Qurcana-çayın kənarı boyunca uzanır, burada Nuxanın işgüzar və ictimai mərkəzini təşkil edən ticarət-sənətkarlıq və yaşayış məhəllələri yerləşirdi. Şəhərin bu əsas arteriyasında böyük karvansaralar, bazarlar, ticarət və sənətkarlıq sıraları tikilirdi ki, bu da 1922-ci ildə professor V.Zummerə Nuxanı orta əsrlər Nürnberqi - bu kimi özəlliklərə malik məşhur ticarət-sənətkarlıq mərkəzi ilə müqayisə etməyə imkan veririd [143].







*Nuxa bazarının planı. 1841-ci il.*



*Bazarın bir hissəsinin planı. Xəzər vilayət memarı A.A.Novikov. 1843-1844-cü illər.*



*Nuxa. Ticarət mərkəzinin və qalanın planı. 1852-ci il.*

Lakin XIX əsrin birinci yarısında Nuxanın (Şəkinin) ticarət və ictimai mərkəzi Qurcana-çayın kənarı boyunca magistral üzərində deyil, ticarət və sənətkarlıq sıralarının çoxsaylı məhəllələri ilə geniş ərazini tutaraq Cümə məscidi rayonunda yerləşirdi.

Nuxanın mərkəzinin planlaşdırma strukturu öz sxeminə görə XIX əsrin 50-ci illər Şuşasının mərkəzini xatırladırdı, ancaq o, daha əvvəl formalaşmışdı və fərdi kompozisiya həlli vardı.

Mərkəzin aydın planlaşdırma sxemi yerin tarixi topoqrafiyasına uyğunlaşdırılmış əsas axıcı istiqamətləndirici ticarət magistralını əks etdirir. Kiçik meydan və onu əhatə edən karvansaralar və magistrala perpendikulyar şəkildə yerləşən və qalaya doğru istiqamətlənən ticarət-sənətkarlıq sıraları da onunla birbaşa əlaqəlidir. Mərkəzin ümumi planlaşdırma kompozisiyası mənzərəlidir, əsas və onlara tabe olan ellementlər, magistralın axıcı xətti və möhtəşəm karvansaraların tikilməsi hesabına müəyyən bədii xüsusiyyətlərə malik idi. Bütün bunlar 1842-ci ilin iyulunda baş vermiş yanğın nəticəsində məhv oldu. Bu yanğında Nuxanın ümumşəhər və ticarət mərkəzinə daxil olan 800 dükan və sənətkarlıq emalatxanası və 40-a yaxın yaşayış evi məhv olmuşdu.

**1844-cü il planı.** 1843-1844-cü illərdə Xəzər vilayət memarı A.Novikov tərəfindən Nuxa şəhərinin Bazar hissəsinin planı tərtib edilmişdir. Yanğın memara ticarət mərkəzini ona bitişik küçələrlə birlikdə yenidən layihələşdirməyə imkan verdi. Bu plana əsasən Nuxanın ticarət və şəhər mərkəzinin bütün ərazisində baş küçələrin əsas istiqamətləri qorunub saxlanmış və dövlət tipli planlaşdırmanın sərt sxemini əks etdirərək, nizamlı məhəllələr sırasına bölünmüşdü. Burada artıq nə keçmişin mənzərəli kompozisiyası, nə də yerli kolorit vardı. Adi, heç nə ilə yadda qalmayan və zamanın sınağından keçməyən planlaşdırma sxemi alınmışdı: ticarət mərkəzinin yeri dəyişdirilərək, Qurcana-çay sahili boyunca yenidən yaradılan magistral üzərində yerləşdirilmişdi.

Nuxanın bu yeni xətti xarakterli işgüzar və ictimai mərkəzinin başlıca özəlliyini üçmərtəbəli karvansaralar təşkil edirdi. Nuxa kimi nisbətən kiçik şəhər üçün karvansaralar böyük ictimai qurmalar idi, miqyasları və formaları onları XIX əsrin ikinci yarısında Azərbaycanda inşa edilən monumental qurmalarla bir sıraya qoymağa imkan verirdi. Planlaşdırmanın sis-







*Nuxa. Dadanovlar kompleksindən yaşayış evi. Memar Rza Qafarov. 1907-ci il.*





Dadanovların yaşayış evindən fraqment.







Nuxa. Şəhərin mərkəzi küçələrindən birinin tikilişi. XIX əsr.

təmsizliyi, vahid planlaşdırma ideyasının olmaması o çağın bir çox şəhərləri kimi Nuxaya da xas idi.

Sonralar şəhərin siması və tikilişlərin xarakteri xeyli dəyişikliyə uğrayır. XIX əsrin sonunda şəhərin şərq hissəsində o qədər böyük olmayan yaşayış kompleksi təşkil edilmiş və onun müxtəlif hissələrində bir neçə kompozisiya mərkəzi yaradılmışdı. Nuxa memarları Rusiya və Avropa şəhərsalmasının memarlıq cəhətlərini, onun məntiqiliyini və ciddiliyini əsasən düzgün dərk edərək, nəinki şəhərsalma vəzifələrinin məntiqə uyğun həllini tapa bilmiş, həm də kompozisiyasına görə yaşayış evlərinin maraqlı planlaşdırmasını və yerli xüsusiyyətlərin nəzərə alınması ilə fasadların özünə xas memarlığını yaratmağa nail olmuşlar.

Nuxanın yaşayış evləri bir çox hallarda malikanə tipli müstəqil sahələrə malikdir. Feodal Şərqində yaşayış evi formalaşmış ənənələr və məişət şəraiti üzündən demək olar hər zaman əsas fasadı ilə üzü həyətə açılırdı. Küçəyə doğru istiqamətlənən ciddi və bütöv fasadlar açırımlardan məhrum edilmişlər; onlar monotonluğu malikanəyə girişi vurğulayan aydın cizgili gözəl portallarla canlandırılan hasarlar şəklində ifadə olunurdu.

XIX əsrin ortalarına, xüsusilə də sonlarına doğru yaşayış evlərinin küçədən təcrid edilərək tikilməsi kimi ənənəvi üsullar nəzərə çarpacaq dərəcədə pozulmağa başlayır. O zamanlar küçələrin qırmızı xətlərinin ciddi şəkildə nizamlanması mövcud olmasa da, tikinti işlərini qırmızı xətt boyunca aparmağa çalışır-

lar. Küçələrə doğru çevrilmiş fasadlarda pəncərələr meydana gəlmişdi. Bunun nəticəsində şəhərin memarlıq-planlaşdırma strukturu kəskin şəkildə dəyişmişdi.

O çağın yaşayış evlərinin tikintisi əsasən ikimərtəbəli binalardan ibarət idi. Eyni zamanda şəhər tipli üçmərtəbəli yaşayış evlərinin tikintisi də formalaşmağa və geniş surətdə yayılmağa başlamışdı. Bu evlər yalnız məhəlledaxili deyil, həm də bütünlükdə küçə və şəhərin memarlıq elementinə çevrilir.

Nuxanın müxtəlif rayonlarında özünə xas memarlıq kompleksləri yaradılır. Bu komplekslərə öz aralarında şəhərin əsas magistralı - çay qırağı ilə birləşən sənətkarlıq istehsalı üçün yerləşgələr və iş yerləri olan binalar daxil idi. Bununla yanaşı qalanın cənub-qərb tərəfində ictimai istifadə üçün bağların inkişafının başlanğıcı kimi kiçik bulvar yaradılmışdı.

XIX əsrin sonlarının Nuxası haqqında Qafqazda olmuş səyyahlardan biri yazırdı ki, «Zahirən çox zəngin bir şəhər olan Nuxa - öz tikililəri ilə Tiflisin Meydanını xatırladır; fərq yalnız bundadır ki, burada bütün bu binalar şəhərə gözəl və səliqəli görkəm bəxş edən möhtəşəm bağlarla əhatə olunmuşdur» [73, s.276].

Nuxa şəhərinin zəngin və inkişaf etməkdə olan yaşayış məntəqəsi kimi əhəmiyyəti şəhər əhalisinin artımı ilə təsdiq olunur. Nuxa Azərbaycan şəhərləri arasında XX əsrin əvvəllərində dördüncü yer tuturdu; 1835-ci ildə şəhər əhalisinin sayı 7000, 1843-cü ildə -14561, 1856-cı ildə - 17 445, 1865-ci ildə - 19 522, 1893-cü ildə - 25 894, 1908-ci ildə isə 37003 nəfər təşkil edirdi.

**Quba**

Quba şəhəri, Nuxa və Şuşa şəhərləri kimi, XVIII-XIX əsrlərdə xanlıq mərkəzi olmuşdur. O, iqlim baxımından Azərbaycanın kurort tikintisi üçün bütün zəminlərə malik olan ən yaxşı bölgələrindən birində yaranmışdı [279, s.123]. Xanlığın mərkəzi əvvəllər Xudatda yerləşirdi. Qubalı Hüseynəli xan 1747-ci ildə öz iqamətgahını Qubaya, qədim yaşayış məskəninə köçürdü. Quba xanlığı 1806-cı ildən Rusiyanın tərkibinə daxil olmuş, 1846-cı ildən isə Quba qəza şəhərinə çevrilmişdir.

Quba qala-şəhəri dəniz səviyyəsindən 642 m yüksəklikdə, Qudyal-çayın əmələ gətirdiyi terrasda yerləşir [378, s.141-142]. Qubanın yerləşdiyi məkan şəhərin qərb hissəsində Qara-çaya qədər uzanan və tədricən meşəyə çevrilən sıx meyvə bağları ilə örtülmüşdür. Buradan Şahdağın qarlı zirvələrinə gözəl mənzərə açılır. Şəhər Quba qəzasının adlısanlı ailələrinin məqbərələrinin olduğu qəbirstanlıqlarla əhatə olunmuşdu. V.Konstantinov yazırdı: "Quba özünün coğrafi mövqeyinə, iqliminə və xüsusilə də sadə xalq üçün yaşayışın ucuzluğu ilə Xəzərətrafı şəhərlər arasında birinci yeri tuta bilər..." [164, s.336].

**1811-ci il planı.** Quba qala-şəhərinin bizim tərəfimizdən arxivlərdə tapılan 1811-ci ildə tərtib edilmiş yeganə baş planının əsasında onun nizamlı plana malik şəhərə çevrilməsinə qədər xanlıq dövründəki planlaşdırma strukturunu müəyyənləşdirmək mümkündür. Bu, olduqca dəyərli tarixi plan XVIII-XIX əsrlərin qovşağında meydana gələn feodal şəhərinin şəhərsalma strukturunun xüsusiyyətlərini açmağa imkan verir. Əlimizdə ölkəmizin bir çox tarixi şəhərlərinin (Bakı, Gəncə, Naxçıvan və s.) rus hərbi mühəndislər tərəfindən tərtib edilmiş planları vardır. Ancaq Şuşa, Nuxa kimi şəhərlərin onların Rusiyaya





birləşdirilmə vaxtındakı planlaşdırmalarını təsbit edən planları hələ ki, tapılmamışdır. Elə ona görə də "1811-ci il 12 avqust tarixində Bakı mühəndis komandası nəzdində tərtib edilən" Quba qalasının baş planı şəhərin ilkin strukturunu və onun əsas elementlərini öyrənməyə imkan verir.

Qudyal-çayın yuxarı terrası boyunca qərbdən şərqə doğru uzanan qala-şəhər hündürlüyü 6, 5 metrdən 8,5 metrə qədər və 2 metr enində kərpic divarla əhatə olunmuşdu. Qala divarlarının uzunluğu 900 metr, diametri isə 300 metr təşkil edirdi [58, s.286].

Qala divarları hüdudlarında şəhərin planlaşdırma strukturu mənzərəli xarakterli tikilişlərdən ibarətdir. Bu planlaşdırma sxemində ticarət dükanları ilə tikilmiş bir sıra əsas istiqamətverici küçələr müşahidə edilir, ayin qurmaları (məscidlər) də bu struktura daxildir. Şəhərin qərb hissəsi şərq hissəyə nisbətən daha az sıxlıqla tikilmişdi. Eyni zamanda şəhər tikilişlərinin üzü Qudyal-çay səmtə baxır. Xan sarayı, eynilə İrəvandakı Sərdar sarayı kimi, bir tərəfdən çaya doğru, digər tərəfdən isə - Cümə məscidinin yerləşdiyi əsas meydana doğru açılır.

Təəssüflər olsun ki, Quba xanlarının saraylarının memarlığı və planlaşdırılması üzrə heç bir qrafik material qorunub saxlanmamışdır. Onun təsvirinə biz P.Butkovun yazılarında rast gəlirik:

"... Şıxəlixanovların çiy kərpicdən tikilmiş evi çox böyükdür və hələ bəzək vurulmayıb; tam şəkildə işlə bəzi otaqlar var və onların üzərində işləyən suvaq ustalarının məharətinə təəccüblənməmək olmur. Kəclə görülən işlər təqlid olunacaq qədər gözəldir. Tavana gül şəkilləri çəkilmişdir" [58, s.286].

Baş plana görə radial istiqamətə malik olan və şəhər məhəllələrinin yönəldiyi qala darvazalarına aparıb çıxaran üç əsas küçə öz başlanğıcını xan sarayının yerləşdiyi meydandan alırdı. Çayın yaxında olması hesabına şəhərin su ilə təchizatı dulusçuların hazırladığı borulardan su kəməri vasitəsilə nizama salınmışdı. Qubanın qərb hissəsində, qala divarlarının yaxınlığında nohur var idi, buradan su borular vasitəsilə şəhərin su kəmərinə axıdılırdı.

1811-ci ildə Quba qalasını müdafiə vəziyyətinə gətirirlər, yəni qərb və şərq tərəfdən divarları çöl istehkamları ilə möhkəmlədirlər. Cənub divarının mərkəzində istehkam qurulur, xəndəkdən torpaq çıxarılaraq qalanın qarşısında maili təpə yaradılır, qalanın müdafiəsini zəiflədən divarlar təmir edilir və darvaza qoyulur. Beləliklə, qalanın möhkəmləndirilməsi üzrə əsas işlər başa çatdırılmış oldu.

Bakı və Şuşa kimi, Quba qala-şəhəri də, Gəncə və Nuxa, İranın Bəndər-Buşir, Burucerd, Kerman şəhərlərindəki kimi içqalaya malik deyildi. Qala ərazisindən səmərəli şəkildə istifadə edilməsi və yenidən planlaşdırılmış düzxətli forştadt yaratmaq məqsədi ilə 1820-ci illərdə Qubada qalanın yenidənqurma işlərinə başlanıldı.

1826-cı ildə Rusiya ilə İran arasındakı müharibə və Qubanın İran qoşunları tərəfindən on gün ərzində mühasirədə saxlanması [164, s.335], 1837-ci ildə baş verən Quba üsyanı [261] Qubanın inkişafına imkan vermədi. Ancaq bu müddət ərzində müəyyən planlaşdırma işləri aparılmışdı. 1834-cü ildə köhnə məhəllələrin yenidən qurulması və yeni məhəllələrin salınma layihəsi təsdiq edildi.

1830-cu illərin sonlarına doğru Quba artıq müdafiə qalası deyildi, çünki onun divarları önündə dərin arxları olan bağlar salınmışdı və esplanad yox idi. Bu, qraf Vasilçikovun qeydlərini təsdiq edirdi: "Quba şəhəri o zamanlar (1837-ci il - Ş.F.) demək olar istehkamsız qalmışdı,

çünki əvvəllər şəhəri qoruyan divarların bir hissəsi zamanla, digər hissəsi isə şəhərin planlaşdırması əsnasında dağılmışdı..." [261, s.77].

Yalnız 1840-cı illərdən sonra Qubanın planlaşdırma və tikinti işləri tədricən mütəşəkkil xarakter daşımağa başlayır. Kərpicdən tikilən evlərin sayı 780-ə çatır, yəni onların sayı həmin vaxtlarda Lənkəranda olan binaların sayından 2,5 dəfə çox idi [298]. Şəhər daxilində yaşıllıqların, fəvvarələrin çoxluq təşkil etməsi, çox sayda

*Quba. Baş Plan. 1811-ci il.*



meyvə bağlarının olması şəhərin küçə və meydanlarının ümumi səliqəsizliyini müəyyən dərəcədə gizlədirdi.

1842-ci ildə Qubada olan məşhur şərqşünas-səyyah İ.N. Berezin yazırdı: "Quba uzaqdan şəhərə, həm də mənzərəli şəhərə bənzəyir..., kiçik çayın sıldırımlı sahillərində binalar, müxtəlif rəngli kiçik evlər, dördbucaqlı damüstü örtükləri olan məscidlər yerləşmişdir və bütün bu tikililər fərqlilik üçün yaşıl ağaclarla elə hörülmüşdür ki, sanki daş divarla əhatə olunmuşdur" [40, s.63-64].

Şəhərin küçə şəbəkəsinin planlaşdırması və məhəllələrin vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər görülməsinə baxmayaraq, Quba XIX əsrin ortalarından bu yana, görünür: 1811-ci illə müqayisədə o qədər də dəyişməmişdi. Berezinin yazdığı kimi, "küçələr heyrətamiz məharətlə bir-birinə dolaşdırılıb, o dərəcədə ki, Qubada bir küçəni axtarıb tapmaq bəlkə də Londonda küçə axtarıb tapmaqdan daha çətindir" [40, s.69].

Quba qəzasının yollarının yaxşılaşdırılması, kənd təsərrüfatı və sənətkarlıq məhsulları ilə, xüsusilə də xalça ticarətinin inkişafı sayəsində XIX əsrin ikinci yarısı Quba üçün daha əlverişli olmuşdur. Quba geniş və zəngin Quba qəzasının yeganə şəhəri idi və uzun illər "onun həm xarici, həm də daxili ticarətinin mərkəzi" olaraq qalırdı [261, s.18].

Qəzanın artan iqtisadi rifahı Qubaya şəhər torpaqlarını genişləndirmək imkanı verdi. Onun sahəsi 1852-ci ilə 2602 hektar təşkil edirdi, həm də nəzərə almaq lazımdır ki, onun yalnız 114 hektarı tikinti altında idi. 1250 hektarda meşə, kolluqlar və əkin sahələri yerləşirdi, əkin üçün yararsız 218,5 hektar sahə yollar üçün ayrılmış, qalan sahədə isə bağlar salınmışdı [164, s.334]. Quba bu illərdə eynilə Bakı 1850-ci illərdə olduğu kimi əslində qala idi, burada forştadt şəhərətrafı sa-







*Quba. Şəhərin planı. XX əsrin başlanğıcı. Çertyoj – Ş.S.Fətullayev.*

yılırdı. Lakin burada, Bakıdan fərqli olaraq, qala ərazisi onun planlaşdırmasının kökündən dəyişdirilməsi hesabına çox böyük dəyişikliyə uğramışdı. Bununla birlikdə yaxşı döşənmiş, düzbucaqlı məhəllələrlə və maraqlı yaşayış evləri ilə doqquz rahat və düzxətli planlaşdırılan küçə yaranmışdı.

Şəhərin ticarət və işgüzar hissəsinin cəmləşdiyi əsas meydanda yerləşən keçmiş xan sarayı rayonunda Bazar meydanı adlandırılan meydan (1355 kv.m) yarandı. Beləliklə, məkanın tarixi topoqrafiyasından şəhərin yeni planlaşdırma məzmununda müvəffəqiyyətlə istifadə edilməyə başlandı ki, bu da şəhər mərkəzini və onun əsaslı binalarla sonrakı tikilişini müəyyənləşdirmiş oldu.

Artıq 1860-cı illərin əvvəlində şəhərin baş meydanının şimal tərəfində böyük karvansara tikildi. Karvansaranın həyətində köhnə məscidin yerinə yeni - Cümə məscidi ucaldıldı. Dəbilqəvari qübbəli, səkkizvəchli formaya malik məscid Qubanın əsas şəhərformalaşdırıcı elementi olmuşdur. Karvansaranın qarşısında, meydanın cənub hissəsində görkəmli Azərbaycan tarixçisi, polkovnik Abbasqulu ağa Bakıxanovun qardaşı general-mayor Cəfərqulu ağa Bakıxanovun evi yerləşirdi. Bakıxanovun evinin arxasında ondan daha böyük karvansara var idi. Meydanın qərb

TİKİNTİNİN HƏCMİ

| Tikililər | Tikintinin tarixi | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1836 | 1840 | 1843 | 1850 | 1852 | 1864 |
| Yaşayış evləri* | 645 | – | 780 | 800 | 1044/691 | 1219/303 |
| Ayin qurmaları | 5 | – | – | – | – | 3 |
| Dükanlar | 155 | 283 | 163 | – | 38 | 360 |
| Hamamlar | – | – | – | – | – | 4 |

**Surətdə kərpic evlər, məxrəcdə isə - taxta evlər göstərimişdir*

və şərq hissələrini meyvə dükanları tuturdu. Meydanın həcm-fəza kompozisiyası əsasən ictimai və yaşayış təyinatlı iri binalarla ifadə olunmuşdu, burada ticarət sıraları lokal xarakter daşıyırdı.

Şəhəri baş magistralı Bakı qapılarından şəhərin ortasında yerləşən Qamsar (Cənub) qapılarına qədər uzanırdı. Qəza idarəsi, aptek binaları, yerli zənginlərin evləri bu magistralın üzərində yerləşirdi [151]. Mərkəzi meydanla magistral əsas şəhərsalma özəyini təşkil edirdi ki, bunun da əsasında məhəllələrin dördbucaqlı şəbəkəsi formalaşmışdı. Maraqlıdır ki, məhəllələrin inşasında evlər, Bakıda olduğu kimi, aralar olmadan tikilmişdir. İ.İstomin yazırdı: "Evlər arasında həyətlər yox idi, olsa da, həddən artıq kiçik ölçülərdə idi. Ancaq indi bu cür tikinti işlərinə hər yerdə rast gəlinmir" [151].

Memar Qasım bəy Hacıbababəyovun 1850-ci illərin sonlarında Şamaxıdan (quberniya mərkəzindən) Qubaya gəlməsi məhəllələrin müəyyən dərəcədə plan əsasında tikilməsinə səbəb oldu. Evlər bir-birindən aralı, geniş həyətlərlə tikilməyə başlayır, fasadları milli üslubda, ancaq Avropa memarlığının bəzək elementlərindən istifadə etməklə işlənən, böyük pəncərəli, uzun eyvanlı binalar küçələri bəzəyirdi. Şəhər məhəllələrinin tikiliş keyfiyyəti dərhal yüksəldi. Ancaq bununla yanaşı evlərin fasadında saxta pəncərələrlə bütöv divarlar hələ də qorunub saxlanırdı ki, bu da qonşu binaların yeni memarlığı ilə uyğun gəlmirdi.

Qubanın bayır-şəhəri planlaşdırma və tikilişdə müəyyən sistem olmadan nizamsız şəkildə inkişaf edirdi. Yalnız 1860-cı illərin əvvəllərində bayır-şəhərdə nizamlı planlaşdırma əsasında birmərtəbəli evlərin tikildiyi məhəllələr yaranmağa başladı. Elə bu rayonda Quba qarnizonunun kazarmaları yerləşdirilmişdi, Qudyal-çay sahilində isə - kazarmaların bir hissəsinin olduğu xutor vardı.

Zaqafqaziya şəhərlərində tikintinin ümumi səviyyəsinin yüksəldilməsi üçün 1863-cü ildə tikinti komitələri yaradılır. Bu komitələr Nuxada, Lənkəranda, Şamaxıda, Qubada da yaradılmışdı. Şəhərlərin memarlıq-tikinti sektorlarına sonralar rəhbərlik edəcək şəhər memarı vəzifələrinin təsis edilməsinə qədər bu komitələr inşa edilən tikililərin keyfiyyətinin yaxşılaşdırılmasına rəvac verirdilər. Memarlar şəhər tikililərinin ümumi üslub xüsusiyyətlərinə bir vahidlik gətirdilər, usta Fərzəli Səfər oğlu (1871-ci il), Məmmədbağır Səfər oğlu (1873-cü il) kimi görkəmli yerli inşaatçı ustalar isə onlra fərdi görünüş verirdilər.

Zaqafqaziya diyarında hərbi qalaların ləğv edildiyi 1868-ci ildən sonra bir çox şəhərlərdə qala divarları tədricən dağıdılır, xəndəklər doldurulur və köhnə





ərazilərin bayır-şəhərlə yaxınlaşması başlayırdı ki, bu da şəhər orqanizminin bir bütöv kimi formalaşmasına imkan yaradırdı. Bu vəziyyət Qubadan da yan keçmədi. 1870-ci ildə əlavə məhəllələrlə planlaşdırmanın layihəsinin tərtib edilməsi üçün əsas rolunu oynayan situasiya planı işlənib hazırlandı.

XIX-XX əsrlərin qovşağında Qudyal-çaya paralel və perpendikulyar olaraq, iki istiqamətdə uzanan düz küçə və məhəllələrin nizamlı şəbəkəsi ilə Qubanın memarlıq-planlaşdırma strukturu qəti olaraq formalaşdı. 1811-ci ilin baş planına əsasən, şəhərin məlum köhnə planlaşdırması bu şəbəkə ilə tamamilə yox oldu.

XX əsrin əvvəllərinə doğru Qubanın böyümə və inkişafı, şəhərin 1830-cu illərdəki vəziyyəti ilə müqayisədə heyrət doğuracaq dərəcədədir. Şəhər əhalisinin artımı və tikilən binaların sayı bu dövrdə olduqca səciyyəvidir ki, bu da təqdim olunan rəqəmlərdə əksini tapır:

QUBA ŞƏHƏR ƏHALİSİNİN ARTİM DİNAMİKASI

| | |
|---|---|
| 1823-cü il - 1000 sakin | 1865-ci il - 10 783 "—" |
| 1832-ci il - 6501 "—" | 1865-ci il – 11 313 "—" |
| 1823-cü il - 3295 "—" | 1865-ci il – 16 317 "—" |
| 1823-cü il - 4187 "—" | 1865-ci il – 15 346 "—" |
| 1823-cü il - 4500 "—" | 1865-ci il – 25 892"—" |
| 1823-cü il - 9145 "—" | 1865-ci il – 25 946 "—" |
| 1823-cü il - 7907 "—" | 1865-ci il – 26 956 "—" |

Bütün bu məlumatlar ondan söz aşır ki, Quba şəhəri Azərbaycanın araşdırılan dövrə aid digər kiçik şəhərləri kimi intensiv şəkildə inkişaf edirdi. Əlverişli təbii və sosial-iqtisadi şərait onun ölkənin canlı və perspektivli şəhərlərindən birinə çevrilməsinə imkan yaratmışdır.

**Lənkəran**

Azərbaycanın Bakıdan sonra ikinci böyük sahil şəhəri olan Lənkəran eyni adı daşıyan (yəni Lənkəran) çayın mənsəbində əlverişli coğrafi mövqe tutmağı ilə fərqlənirdi. Sonralar, şəhərin genişləndirilməsi zamanı onun şimal kənarlarında öz başlanğıcını Lənkəran çayından alan Şilovar-arx kanalı çəkirlər. Düyü tarlalarının suvarılması üçün yaradılan kanal şəhərin şimal sərhədləri boyunca uzanır və Xəzər dənizinə tökülür.

Lənkəran - Azərbaycanın tarixi şəhərlərindən biridir, 1747-ci ildə Nadir şahın ölümündən sonra Talış xanlığının əsas şəhəri olmuşdur. Lənkəran qalası 1813-cü ildə rus qoşunları tərəfindən zəbt edildi, 1828-ci ildə isə Lənkəran Rusiya imperiyasının tərkibinə daxil edildi və yeni sosial-iqtisadi şəraitdə inkişaf etməyə başladı. Köhnə, aktiv müdafiəyə yararsız olan qalanın yerində yeni, bazasında Bakı quberniyasının qəza şəhərinin yarandığı yeni qala ucaldılır.

Lənkəranın dəniz sahilində yerləşməsinə baxmayaraq, Bakı şəhərindəki kimi rahat limana malik olmadığı üzündən o, özünün əlverişli coğrafi mövqeyindən istifadə edə və əhəmiyyətli yük dövriyyəsinə malik dəniz limanına çevrilə bilmirdi, çünki "liman onu qidalandıran və onda özünə çıxış yolu tapan iqtisadi fəaliyyətə uyğun olmalı idi" [84, s.132]. Bu problem Lənkəranda öz həllini tapmamışdır. Bakı iri dəniz limanı kimi sürətlə inkişaf etməyə başlamışdı və Şərq ölkələri ilə aparılan ticarət İranla sərhəddə yerləşən bu kiçik şəhərdən əsasən yan keçirdi.

XIX əsrin əvvəlində Lənkəran şəhərinin planlaşdırmasının əsasını yalnız qala və Lənkəran çayının hər iki sahili boyunca sərbəst tikililər təşkil edirdi. Lənkəran qalasının Rusiyanın tərkibinə daxil edilməsindən sonra o, plan baxımından əvvəlki romb formasını qoruyub sax-



*Lənkəran. Müdafiə istehkamları üçün bürclərin planı. 1833-cü il.*

layaraq, tədricən yenidən tikilməyə başladı. Köhnə planmaşdırma yox oldu, tikinti işləri özünün son həllini 1853-cü il layihəsində tapdı.

Lənkəran qalasının sahəsi 35 hektara yaxın idi və öz ölçülərinə görə Bakının sahəsindən (21,5 hektar) çox idi. Qala özünün istehkam strukturuna görə o dövrün çoxsaylı bürc və istehkamları ilə hərbi qalaların klassik örnəyi deyildi. Lənkəran qalası onun diaqonalı boyunca yerləşən və şimal və cənub bucaqlarını möhkəmlədən iriölçülü iki döyüş bürcündən ibarət idi. Şimal bürcü dənizin sahilində, cənub bürcü isə - Lənkəran çayının mənsəbində yerləşirdi.

**1833-cü il planı.** Lənkəran qalası istehkamlarının baş planı 1833-cü ildə tərtib və təsdiq edilmişdi. Qala istehkamları öz aralarında torpaq siperli səngərlər və su ilə doldurulmuş xəndəklə birləşən iki bürcdən ibarət idi. İstehkam səngərləri bir tərəfdən şimal bürcündən dəniz sahili boyunca Lənkəran çayının mənsəbinə qədər uzanır, daha sonra müəyyən bucaq altında dönərək, çayın sahili boyu cənub bürcünə doğru istiqamətlənirdi; səngərlər digər tərəfdən esplanada və bayır-şəhərə doğru yönəlirdi. Beləliklə, qalanın hakim mövqeyi və ətraf düzənlik yerlərə nəzarət imkanı qorunub saxlanılırdı.

«Lənkəran qalası istehkamlarının Baş planı»nın təsdiq edildiyi dövrdə Lənkəran şəhəri 1 km boyunca uzanan üç metr enində və iki metr dərinliyində xəndəkdən ibarət olan köhnə, tərk edilmiş qalanın kölgəsi altında yaşamağa davam edirdi. Xəndək əvvəlki zamanlarda Lənkəran çayının suyu ilə doldurulurdu [383, s.239].

Şəhərin mərkəzində planlaşdırmanı təşkil edən element kimi məscid və 117 dükandan ibarət iki bazar yerləşirdi. Bağların yaşıllığı içərisində itib-batan birmərtəbəli yaşayış evləri mərkəzi əhatə edirdi. 1836-cı ildə cəmi 470 ev var idi. Elə o zaman da köhnə qalanın ərazisində məmurların yaşayış evləri, əsgər kazarmaları və qarnizonun digər xidməti binaları yerləşirdi.

1840-cı illərin əvvəlində qala və bayır-şəhər məhəllərin mütəşəkkil planlaşdırmasını əldə etdi. Qala ərazisi onun mərkəzində geniş sahəyə malik əsasən





düzbucaqlı məhəllələr sırasına bölündü. Qoşun və artilleriyanın hərəkəti üçün hələ 1827-ci ildə general A.P.Yermolovun əmrinə əsasən, Bakı qalasında inşa edilən qaydada perimetr boyunca geniş dolama yol uzanırdı. Məhəllələrin planlaşdırma şəbəkəsinə sahil zolağına paralel iki və ona perpendikulyar beş küçə daxil idi. Sonralar, 1869-cu ildə Lənkəran qalasının ləğv edilməsindən və 28 may 1875-ci ildə onun şəhərin idarəçiliyinə verilməsindən sonra məhəllələrin yığcam planlaşdırma strukturu Lənkəranın mərkəzi rayonunun özəyinə çevrildi.

Qalanın planlaşdırılması üzrə işlərin gedişində hərbi nazirliyin sərəncamına əsasən, tələb olunduğu kimi, qaladan 1280 m məsafədə yerləşən bayır-şəhər rayonunun da 1840-cı illərdə planı tərtib edilmişdir. Köhnə tikilinin yerində altı hissəyə bölünən iki qrup düzbucaqlı məhəllənin tikilişi nəzərdə tutulmuşdu.

Qala divarlarına paralel olaraq üç sırada yerləşən məhəllələrin bir qrupu Lənkəran çayına çatanda qurtarır, iki sıradan ibarət olan digər qrupun kəlləsi isə Xəzər dənizinin sahil zolağına yönəlirdi. Beləliklə, o vaxtlar Lənkəranda Bakıda olduğu kimi bütöv bayır-şəhərin formalaşması alınmadı, baxmayaraq ki, yeni mütəşəkkil planlaşdırma sonradan bu istiqamətdə inkişaf əldə edilməsi üçün mühüm önəm daşıyırdı.

Hələ 1850-ci illərin əvvəlində Lənkəran "bir-birindən müəyyən məsafədə yerləşən və mərkəzində torpaq səngərlə və xəndəklə əhatə olunmuş kiçik qalanın olduğu üç böyük kənddən ibarət idi, onun əsas müdafiəsini mükəmməl şəkildə inşa edilmiş iki daş qüllə təşkil edirdi..." [127].

**1853-cü il planı.** Lənkəranın 20 noyabr 1853-cü il tarixli Baş planı qala məhəllələrinin tikiliş səviyyəsini və bayır-şəhərdə "sərbəst və nizamlı olmaqla iki planlaşdırma qrupunun yaxınlaşmasının" başlanğıcının əsasını qoyan bazar meydanı və ticarət sıralarının yaranmasını müəyyənləşdirir. Beləliklə, bu baş planda şəhər mərkəzinin yaradılma ideyasının əsası qoyulmuşdu.

**1855-ci il planı.** "Lənkəran istehkamının 20 noyabr 1853-cü il tarixli Baş planı" qalanın özünün və onun ətrafının vəziyyətini daha dolğun əks etdirir. Bu plana əsasən Lənkəranın ərazisi üç hissəyə: 1) qalaya; 2) Lənkərana doğru istiqamətlənən cənub bayır-şəhərinə; 3) yaşayış evlərinin tikildiyi şimal bayır-şəhərinə bölünməni qoruyub saxlamışdı.

Sonralar bütün bu planlaşdırma elementləri tərkib hissəsi kimi Lənkəran şəhərinin baş planına daxi oldu və tikilişlərin aparılanda müəyyənləşdirici rol oynadı. Lakin bizim araşdırdığımız dövrdə şəhərin ümumi planlaşdırması demək olar yox idi. Esplanad hələ də mövcud deyildi, nizamlı planlaşdırmanın hər iki hissəsi, yəni cənub bayır-şəhər və şimal bayır-şəhər isə artıq tikilmiş və bir-birindən əhəmiyyətli dərəcədə uzaqlaşmışdı.

Şəhərin inkişafının bu dövrü haqqında məlumdur ki, "o, dənizdən çox gözəl görünür, evlər sıx ağacların kölgəsində yerləşir. Sahil düzdür, körfəz yoxdur. Şəhərin hər iki tərəfində daşdan keşikçi qüllələri inşa edilmişdir, qalan ərazi - elə ən çox da göz oxşayan - yaşıllıqlardır" [127].

Şəhər ərazisinin sahəsi o zamanlar 1050 hektar təşkil edirdi ki, bu da Şuşa, Salyan və Azərbaycanın digər şəhərlərinin ərazisindən xeyli böyük idi. 320 hektar tikinti altında idi, qalan ərazi isə - 730 hektar – boş idi. 1856-cı ildə Lənkəranda şəxsi evlərin sayı 833-ə çatırdı ki, bu da Salyanda (1125), Şuşada (3040), Nuxada (2646) olduğundan az idi. Şəhərdə meydan və küçələr də az idi: orada cəmi bir meydan və altı küçə var idi. İctimai və ayin qurmaları sırasında beş hamam, bazar, üç məscid var idi.

Lənkəranın Baş planlarda göstərilməyən, ancaq XIX-XX əsrlərin qovşağında artıq mövcud olan daha bir tikilisindən də bəhs etmək lazımdır. Bu, Talış xanlarının nə naturada, nə də qrafik materiallarda qorunub saxlanan sarayıdır; bu tikili haqqında məlumatlara yalnız 1890-cı illərdə Lənkərana səyahət edən rus yazıçısı V.Sidorovun təsvirlərində rast gəlmək mümkündür.

O, sarayı bu sözlərlə təsvir edirdi: "Bizim çox xoşumuza gələn bu tatar (*azərbaycanlı* - Ş.F.) Lənkəranında qədim Talış xanlarının kərpicdən tikilmiş və yarımxaraba halda olan nəhəng sarayı var. Saray aramgahları sükunətə qərq olmuşdur, binanın divarlarından irəliyə çıxan dam kirəmitlə örtülmüş və böyük pəncərə oyuqları ilə bir zamanlar bağ olan boş ərazidə ayaqüstə dayanıb... Binanın ortasında qəbul zalı yerləşir, zalın bir tərəfi başdan-başa rəngbərəng pəncərədən ibarətdir, tavan və karnizləri qırıq güzgü şüşəsi parçalarından yığılmışdı, onlar özəklər, gözəl xonçalar və şıltaq təsvirlər yaradırdı. Barelyeflərin ağ hörük şəkilli naxışları şüşə parçalarında əks olunaraq, böyük effekt yaradırdı. Bu böyük zal necə kədərli və baxımsız görünür... Güzgülü şüşə parçaları özəklərdən düşür və onların yerində qara deliklər yaranır, bir zamanlar çox təmtəraqlı olan xan sarayı yavaş-yavaş dağılır və onun parıltısı yoxa çıxır" [246, s.327].

O, həm planlaşdırma, həm də memarlıq baxımından İrəvanda Sardar, Nuxada Şəki xanlarının, Şuşada Qarabağ xanlarının sarayları ilə bir çox ümumi cəhətlərə malikdir. Bu, XVIII-XIX əsrlərin qovşağında Azərbaycanın saray memarlığı üçün səciyyəvidir [241, s.78].

Lənkəranda hərbi qalanın ləğv edilməsi (1869-cu il), onun şəhərin idarəçiliyinə verilməsi (1875-ci il) və şəhər idarəsinin yaradılması (1897-ci il) şəhərin ümumi inkişafına səbəb oldu. Yaşıllığın bolluğu və mənzərəli sahillər N.Zeydlits tərəfindən obrazlı təsvir edilmişdir: «12 il ərzində mən Lənkəranın füsunkar sahillərindən dəfələrlə həzz almışam, və İlahi, əbədi baharın hökm sürdüyü bu rütubətli və möhtəşəm ölkə ilə Abşeron yarımadasının tənha qayalıq sahilləri arasında necə də kəskin fərq mövcuddur...» [136, s.5].

XIX-XX əsrlərin qovşağında cənub və şimal bayır-şəhərləri fərqli planlaşdırma strukturu [206, s.230] ilə tarixən formalaşmış dörd rayon: qala, Böyük-bazar, Kiçik-bazar, rus qəsəbəsi (Suta Murdova) yaradaraq, esplanad ərazisinin mənimsənilməsi hesabına müəyyən bir bütövlük təşkil edirdilər.

Qala öz mövqeyi etibarilə Abbasov - Lenin küçələri - Lənkəran çayının sahil küçəsinin sərhədlərində yerləşirdi. Qala ərazisi məhəllələrinin nizamlı düzbucaqşəkilli şəbəkəsi mərkəzi rayonun əsas özəyini təşkil edirdi. Burada bir- və ikimərtəbəli əsaslı yaşayış evləri ilə az sayda inzibati-ictimai tikililər cəmlənmişdir. Keçmiş qala meydanı ərazisini şəhərin yeganə ictimai bağı tuturdu. Bu bağda gəlmə artistlərin çıxış etdikləri yay teatrı var idi.

Böyük-bazar Qaracalar məhəlləsində Abbasov küçəsi və Lənkəran çayı sahilinin cənub-qərb hissəsi ilə məhdudlaşırdı. Bu rayon cənub bayır-şəhəri adlanan köhnə Lənkəranın yerində yaranmışdı. Böyük-bazarın tikilişi sərbəst planlaşdırma ilə fərqlənirdi. Burada mərkəzi rayonun davamı olan şəhər bazarı yerləşirdi.

Təbii ki, tikililər mərkəzdən uzaqlaşdıqca, planlaşdırmanın xarakteri, döngə və dalanlar şəbəkəsinə keçərək, başlanğıc məhəllələrin dəqiqliyi itirdi.

Kiçik-bazar müasir Lenin-Abbasov-Çkalov küçələrinin sərhədlərində yerləşirdi. Esplanadın ərazisi şimal bayır-şəhərə qədər onun içərilərinə uzanan





sərbəst planlaşdırmaya malik məhəllələrlə Kiçik-bazar rayonuna daxil olurdu.

Dördüncü rayona dəniz sahili boyunca rus mühacirlərinin yaşadığı Suta-Murdova adlanan qəsəbə daxil idi.

Mərkəzdən başqa demək olar bütün rayonların tikililəri malikanə tipli, əsasən birmərtəbəli kərpic evlərdən, bol yaşıllıqdan ibarət idi. Binalar ya qırmızı xətt boyunca, ya da sahələrin içərilərində yerləşirdi. Yaşayış evlərinin memarlıq kompozisiyasının ənənəvi üsulları divarların, istinad dirəklərinin hörülməsi üçün istifadə edilən kərpicin xüsusiyyətləri və hündür damüstü örtüklərr üçün kirəmitlərin parlaq rəngləri ilə bağlı idi. Yaşayış evinin həyətə doğru baxan fasadı şüşəbənd olurdu. Həyətyanı sahənin



*Lənkəran. Baş plandan fraqment. 1833-cü il.*

ümumi kompozisiyasına tez-tez «ləm» daxil edilirdi. Ləm istidən qorunmaq və istirahət etmək üçün dörd tərəfi açıq sütunlar üstündə ikimərtəbəli vışka sayaq guşədir.

Xalq memarlığı örnəkləri sayılan malikanə tipli kütləvi yaşayış evləri ilə yanaşı şəhərin mərkəzi rayonunda XX əsrin əvvəllərində yerli əhalinin varlı təbəqəsinin, eləcə də talış xanları varislərinin modern, eklektika üslubunda inşa edilən yaşayış evləri meydana gəlir. Lənkəran əhalisinin artım prosesi çox ləng gedirdi, ona görə də şəhər ərazisinin genişliyi ilə bağlı tikilişlərin böyük sıxlıqla inşa edilməsinə ehtiyac yox idi.

LƏNKƏRAN ƏHALİSİNİN
ARTIM DİNAMİKASI

| | |
|---|---|
| 1843-cü il - 2577 sakin | 1891-ci il - 7455 "—" |
| 1850-ci il - 2500 "—" | 1900-cü il - 8768 "—" |
| 1856-cı il - 3970 "—" | 1906-cı il - 9945 "—" |
| 1865-ci il - 4608 "—" | 1908-ci il - 10463 "—" |
| 1878-ci il - 3785 "—" | 1917-ci il - 17801 "—" |

Lənkəran Azərbaycanın digər kiçik şəhərləri (Şuşa, Şəki, Quba) ilə müqayisədə nə inkişaf etmiş şəhər təsərrüfatı, nə də xüsusi abadlığı ilə fərqlənirdi. Burada memarlıq baxımından çox sayda yaşayış və ayin qurmalarının inşa edilməsinə baxmayaraq, o, Bakı quberniyasının qəza mərkəzliyindən çıxmış şəhəri olaraq qalmaqda idi. Bununla belə onun memarlıq-planlaşdırma strukturu XIX əsrdə Lənkəranın şəhərsalma tarixində (xanlıq dövrü ilə müqayisədə) irəliyə doğru yeni iri addım olmuşdu.

XX əsrin əvvəlində planlaşdırma strukturunda elə bir dəyişiklik baş verməmişdir.

***

XIX əsr - XX əsrin əvvəllərində Azərbaycanın kiçik şəhərlərinin inkişafı onların o dövrdə Rusiyanın şəhərsalma planlaşdırmasına xas olan müsbət təmayülləri əks etdirərək, əlverişli sosial-iqtisadi şərtlər altında inkişaf etdiyini təsdiqləyir. Ümumi bənzərliklərinin olmasına baxmayaraq, kiçik şəhərlər regional, təbii, iqlim və tarixi xüsusiyyətlər hesabına həm şəhərlərin memarlıq-planlaşdırma strukturlarında, həm də şəhər tikililərinin xarakterində fərdi özəlliklərə malik idilər. Bu şəhərlər yerli iqtisadi imkanlardan asılı olaraq inkişaf edirdi. Onlar əsasən müəyyən plana əsasən və şəhər memarlarının nəzarəti altında tikilirdilər. Bu, onların tikiliş və abadlaşdırma səviyyəsini Yaxın və Orta Şərq şəhərlərinin səviyyəsindən fərqləndirir.

XX əsrin əvvəllərinə doğru Azərbaycanın kiçik şəhərləri, xüsusilə də Gəncə, Şuşa və Nuxa, formalaşan memarlıq-planlaşdırma strukturu, yalnız bu və digər şəhərə xas olan üslub vahidliyi, eləcə də nisbətən yüksək abadlığı (öz zəmanəsi üçün) ilə iri yaşayış məntəqələrinə çevrilmişlər.



# II BÖLMƏ

## ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

Feodalizm çağında Azərbaycanda inzibati və ictimai binaların nomenklaturası əsasən divanxana, mədrəsə, kitabxana, karvansara, bazar, hamam və xəstəxanaların tikintisi ilə təmsil olunmuşdur. Bundan başqa qala qurmaları və körpülər tikilir, yollar salınırdı. Saray binalarının tikintisi ən yüksək səviyyədə aparılırdı.

Azərbaycan Rusiyaya birləşdirildikdən sonra yuxarıda göstərilənlərlə yanaşı kapitalist formasiyasının təşəkkül tapması şəraitində həyatın tələblərinə cavab verən tamamilə fərqli bina tipləri: gəlirverən evlər, məktəblər, teatrlar, banklar, şəhər dumaları, dəmiryol vağzalları, sənaye qurmaları yaranırdı. Bina və qurmaların yeni tipləri regional memarlığın müəyyənləşdirdiyi bu və digər kompozisiya özəllikləri əldə etmiş oldular ki, bu da memarlıq üsullarının və dekorativ motivlərin çoxobrazlılığını şərtləndirirdi.

XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda köhnə binalar müasirləşdirməyə məruz qoyulmuş, onların planlaşdırması və texniki təchizatı təkmilləşdirilmişdir; bu, əsasən kiçik yaşayış məntəqələrində mühüm yer tutmağa davam edən hamamların və məscidlərin tikintisinə aid idi.

Avropa şəhərsalma sənətinin Azərbaycana nüfuz etməsinə baxmayaraq, yaşayış evlərinin, ictimai və ayin binalarının ənənəvi kütləvi memarlığı hesabına şəhərlər özlərinə xas olan simalarını hələ uzun müddət qoruyub saxlamışdılar. Bu xüsusilə də daşdan günbəz konstruksiyaları, minarələrin vertikalları və memarlıq dekorasiyasının incə oymaları ilə Abşeronun yaşayış məntəqələrinə aiddir.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda çoxsahəli sənaye inkişaf etməyə başladı: ipək-sarıyıcı və tütün fabrikləri, pambıqtəmizləmə və şərabçılıq zavodları və şərqdə (Abşeronda) neftayırma və neft təmizləmə və digər zavodlar yarandı.

Sənayesi inkişaf etməyən və dəmiryolunun mövcud olmadığı şəhərlərinin ənənəvi tikilişi ilə Yaxın Şərqin geridə qalmış ölkələrinin fonunda kapitalist inkişaf yoluna çıxan Azərbaycan mütərəqqi dövlət təsiri bağışlayırdı; memarlıqda bu onun daha yüksək keyfiyyət səviyyəsində əks olunurdu.



# I FƏSİL.

# YAŞAYIŞ BİNALARI

XIX əsr - XX əsrin əvvəllərində yaşayış evləri sosial-iqtisadi münasibətlərin inkişafı üzündən zəngin və fərqli memarlıq-planlaşdırma və kompozisiya üsulları və həll variantları ilə qeyd olunurdu. Fabrik və zavodların yaranması ilə kənd sakinlərinin şəhərə kütləvi şəkildə axın etdiyi XIX əsrin ikinci yarısından başlayaraq, yaşayış evlərinin tikintisi xüsusilə də şəhərlərdə sürətlə inkişaf edirdi. Bu əsasən çar Rusiyasının ən böyük sənaye mərkəzlərindən biri olan Bakıya aid idi. Neft sənayesinin sürətli inkişafı əhali artımını və şəhər torpaqlarının mənimsənilməsini stimullaşdırırdı.

Bakıda tikintisinin bütün növləri: burjuaziyanın sarayları və tək evlərindən, gəlirverən evlərindən tutmuş fəhlə mənzillərinə qədər təmsil olunmuşdu, onlar sosial mənsubiyyətindən və ailə tərkibindən asılı olaraq bu və digər abadlıq səviyyəsinə malik idilər.

Bakıda tikintinin əsas növü - tək evlərdən tutmuş çoxmənzilli gəlirverən evlərə qədər müxtəlif variantlarda yaşayış evləridir. Yaşayış evlərinin planlaşdırması üçün otaqların ikicərgəli yerləşməsi səciyyəvidir. Burada binanın iç fəzası bir sıra ayrıca mənzillərə bölünürdü. Bir pilləkən qəfəsinə ən çox iki mənzil və həyət tərəfdən şüşəbənd çıxırdı. Yaşayış evinin bu tip planlaşdırması milli ənənələrin, iqlim şərtlərinin və sahələrin relyefinin təsiri altında təşəkkül tapmışdı.

Bakıda yaşayış evlərinin fasadlarının memarlığında müxtəlif üslub istiqamətləri hakim mövqe tuturdu. Yaşayış evinin memarlığı layihə müəllifinin və sifarişçinin zövqündən asılı olaraq həll edilirdi. Memarlar əsasən klassik orderli və ordersiz sistemə meyl göstərirdilər. Bakının yaşayış evlərinin fasad kompozisiyası zəngin plastika, çoxsaylı eyvan və erkerləri birləşdirən həcm elementləri ilə zəngindir. Bu fəza elementləri yalnız fasadın deyil, həm də binanın plan kompozisiyası ilə sıx surətdə bağlıdır.

XIX-XX əsrlərin qovşağında yerli və Avropa üslub istiqamətlərindən istifadə Bakıda şəhər tikilişinin memarlıq-bədii simasını zənginləşdirmişdir. Şəhər ərazisinin əsaslı evlərlə tikiliş sıxlığı eyni deyildi. Mərkəzi rayonlar və ona bitişik məhəllələr daha çox əhalinin imkanlı təbəqəsinun iki- və üçmərtəbəli evləri ilə tikilmişdi. Şəhərin ucqarlarında isə əsasən yoxsulların birmərtəbə evləri vardı, neft-mədən rayonlarında (Balaxanı, Sabunçu kəndlərində) isə daha çox kazarma tipli bir- və ikimərtəbəli yaşayış evləri tikilirdi. Şəhər ərazisinin sıxlığı və sahələrin kiçik ölçüləri bir çox hallarda yaşayış binaları memarlığının ümumi xarakterini bəri başdan müəyyənləşdirirdi.

Sahələrin plan həllini gözdən keçirərkən, onlardan tikilişdə maksimum faydalanmağa çalışılmasının yalnız memarlıq-planlaşdırma və həcm-fəza quruluşu məsələlərini deyil, həm də yaşlı əhalinin və uşaqların qızmar və rütubətli yay fəslində ağır iqlim şəraitində dincəlməsi üçün minimum rahatlıqları olan məhəl-

lədaxili sahələrin yaradılmasını da nə dərəcədə arxa plana sıxışdırdığını görmək mümkündür.

Kompozisiyanın fəza həlli, tikilişin siluetinin zənginləşdirilməsi, işıq və kölgə oyunundan istifadə yolu ilə həcm kütləsinin üzə çıxarılması Bakı şəraitində öz tətbiqini tapa bilmir. Sahələrlə başgicəlləndirici ehtikarlıq və torpağa yüksək renta dövründə Peterburq və Moskvada tətbiq edilən "pokoy" («aramgah») adlanan üsulla tikiliş Bakıda inkişaf edə bilmədi.

Bir-biri ilə hətta öz ehtişamı ilə rəqabət aparan və ümumi fondan fərqlənməyə çalışan yerli burjuaziyanın tək evləri və saraylarının zəngin memarlıq dekorasiyası nisbətən dar küçələrin başdan-başa perimetral tikilişi üzündən belə bir şəraitdə sönük görünürdü.

1913-cü ilin ortalarında Bakı ərazisində çoxsaylı müxtəlif planlaşdırma həlli ilə 9883 fərdi mülkiyyət qeydiyyata alınmışdı [195]. Bu müxtəliflik tək evlərdən, çoxmənzilli yaşayış evlərindən başlayaraq yoxsulların birmərtəbə daxmalarına qədər yaşayış evlərinin ən müxtəlif tiplərini əhatə edirdi.

Məhəllələrin əksəriyyətinin kiçik və eyni ölçülü binalarının küçəyə münasibətdə qoyuluşundan asılı olaraq, sahələrin tikilişinin bu kimi üsullarını əvvəlcədən müəyyənləşdirmişdi:

1) bina məhəlləni tamamilə tutur və və onun dörd eyni dəyərli fasadı küçəyə baxır;
2) üç küçəyə baxan pəncərələri və eyni dəyərli fasadları ilə bina məhəllənin bir hissəsini tutur;
3) binanın bucaqşəkilli qoyuluşu;
4) bina məhəllənin ortasında yerləşir və qarşı tərəfdəki küçələrə baxan iki eyni dəyərli fasadı vardır;
5) bina məhəllədə frontal şəkildə yerləşmişdir; fasad bir küçəyə baxır.



*Bakı. Milyutinskaya (Myasnikov) küş., 3 ünvanda Tomayevin yaşayış evinin layihəsi. Ön fasad. Mülki mühəndis A.S.Kandinov. 1890-cı il.*

Torpaq sahələrinin qiymətinin baha olmasını nəzərə alaraq, tikintinin ilk üsulu geniş surətdə tətbiq olunmur; bunu bir neçə misalla nümayiş etdirmək olar: bu, Qorçakovskaya küçəsi, 2 ünvanda yerləşən yaşayış evi, Qorçakovskaya küçəsi, 4 ünvanda yerləşən H.Z.Tağıyev sarayı, Vorontsovskaya küçəsi, 19 ünvanda yerləşən Məlikovların evi, Krasnovodskaya küçəsi, 21 ünvanda yerləşən Tağıyev qardaşlarının evi və başqalarıdır.

H.Z.Tağıyevin sarayı istisna olmaqla, yuxarıda adı çəkilən bütün evlər çoxmənzilli gəlirverən evlər idi. Bu, bir qayda olaraq ikimərtəbəli, evlərin memarlığı müxtəlif üslub istiqamətlərinə malik idi, ancaq bu evlər bütünlükdə order sisteminin klassik formalarına riayət olunaraq inşa edilmiş və şəhərin aparıcı memarları İ.V.Qoslavski və İ.V.Edelin yaradıcılıq məhsulları idi.

Bu, yaşayış evlərinin planlaşdırması və memarlığının formalaşma və inkişafında daxili strukturun yüksək peşəkarlıq səviyyəsində həll edildiyi, yaşayış və təmtəraqlı yerləşgələrin interyerinə xüsusi diqqət ayrıldığı bir dövr idi. Yaşayış evlərinin planlaşdırma strukturunun aydınlığı məqsədəuyğun konstruktiv üsullarla və mütərəqqi tikiniti materiallarından istifadə ilə müəyyənləşirdi. Belə bir özəllik böyük aşırımlı örtükləri olan zalları təmtəraqlı yerləşgələr sisteminə daxil etməyə imkan verirdi ki, bu da təntənəli qəbul və mərasimlərin keçirilməsi üçün böyük sahə yaranmasına səbəb olurdu. Bütün bunlar gənc burjuaziyanın zövqünə və tələbatına cavab verirdi.

İkinci üsul birincidən həll variantında uyğunluğu ilə fərqlənir və binanın həm planlaşdırmasının təşkilində, həm də ümumi kompozisiyasının qurulmasında çox sayda maraqlı örnəklərə malikdir. Bu üsulu Abşeronskaya,7; Telefonnaya (28 aprel), 4-6, 5, 11; Vorontsovskaya,13; Krasnovodskaya,19; Qoqol, 9, 15, 28; Nikolayevskaya (Kommunist), 35; Mariinskaya (Korqanov),23; Politseyskaya (Məmmədəliyev), 2; Milyutinskaya (Myasnikov), 8; Torqovaya (Nizami), 81; 2-ci Paralel, 56 və başqa küçələrdəki yaşayış evlərinin timsalında müşahidə etmək mümkündür.

Əhalinin həm varlı, həm də orta təbəqəsi üçün nəzərdə tutulan çoxmənzilli gəlirverən evlərin sırasına aid olan bu evlər planlaşdırmanın təşkilinə görə yuxarıda təsvir edilənlərdən fərqlənir. Burada bir mərtəbədə çox sayda yaşayış və yardımçı otaqlarla iki, bəzən də bir neçə ayrıca mənzil (tikilən yerin sahəsindən asılılıqda) olurdu.

Öz həcmlərinin böyüklüyü, memarlıq formalarının irimiqyaslı olması, fasadların zəngin plastikası, eyvanlar, erkerlər və s. kimi fəza elementləri sayəsinndə bu qurmalar yalnız küçələrin deyil, həm də bütünlükdə şəhər memarlığının ümumi xarakterini müəyyənləşdirir. Burada əsasən order sisteminin klassik formaları, eləcə də Bakı moderninin elementləri hakim mövqe tutur.

Üçüncü və beşinci üsullar, yəni binaların bucaq və frontal quruluş texnikası ilə inşası ən geniş yayılan əsas üsullardır. Şəhər əhalisinin əksəriyyəti torpaq sahələrinin qiymətlərinin baha olması üzündən iri sahələr əldə etmək imkanına malik deyildi. Şəhər məhəllələrinin həm en, həm də meridian istiqamətində çox sıx şəkildə tikilməsi bundan irəli gəlirdi. Binaların bucaq və frontal quruluş texnikası ilə inşa edilmiş torpaq sahələri şəhər ərazisinin əsas hissəsini (80%-ə yaxınını) tuturdu.

Fasadlarda nadir hallarda qoyulan eyvanların ritmik düzülüşü ilə küçələr sistemində frontal tikinti, məsələn, Qoqol və S.Vurğun (Krasnovodskaya) küçələri arasında Birjevaya (Hacıbəyov) küçəsinin bir hissəsində üstünlük təşkil

*İçəri-şəhər. Minaretskaya (A.Zeynallı) küçəsi, 45. Q.Məmmədovun yaşayış evinin ümumi görünüşü. 1908-ci il.*

*Bakı. Yaşayış evinin layihəsi. 1896-cı il. Memar N.A.fon der Nonne.*



*Bakı. Balaxanskaya (Basin) küç., 33-də Rzayevlərin yaşayış evinin layihəsi. Fasad, kəsim. 1893-cü il. Memar İ.V.Edel.*







*Yaşayış evinin planı. 1887-ci il.*

edir. Tikililərin vahid hündürlüyü, orderli və ordersiz sistemlərə meyl göstərən memarlığın eyni hissələri və üslub istiqamətləri bu küçənin kiçik bir hissəsinə üslub vahidliyi verirdi. Mərkəzi məhəllələrdən keçərək Molokan bağına (9 Yanvar bağı) çıxan Birjevaya küçəsinin şəhərin nəqliyyat arteriyası ilə əlaqəsi yox idi ki, bunun da hesabına yaşayış evlərinin sıralandığı küçə təsiri bağışlayır və bir qədər də intim xarakter daşımışdır.

Şəhərin mərkəzi məhəllələrindən daha uzaqda yerləşən Təzəpir rayonunda digər, heç də az maraq doğurmayan örnək vardır: bu, Suraxanskaya (1 May) küçəsi, 67, 69, 71, 75 (1890-cı illər) ünvanlardakı yaşayış evləridir. Bu evlər həcm-fəza və memarlıq-planlaşdırma kompozisiyasını ifadə edirlər. Yerin daha bariz ifadə edilən relyefi, tikilişlərin eyni vaxtda aparılması və klassik formaların traktovkasında üslub istiqamətlərinin modelləşdirilməsinin xarakteri sayəsində onlar fərdi xüsusiyyətləri qoruyub saxlayaraq, vahid kompozisiya təşkil edirlər.

Onlara bir-birindən təcrid olunmuş şəkildə baxmaq - yaşayış evlərinin vahid bir tam kimi əhəmiyyətini memarlıq və bədii baxımdan həcm kompozisiyasında azaltmaq olardı. Yaşayış evləri öz planlaşdırma həllinə və memarlıq məzmununa görə küçənin bu hissəsində tarixən formalaşan məhəllələrin ifadəli tərkib hissəsini yaradaraq, bir-birini tamamlayırlar. Yaşayış evləri memarlıq mirasının ayrılmaz hissəsi və milli memarlıq abidələridir.

Nəhayət, dördüncü üsul da, birinci üsulda olduğu kimi, Şamaxinskaya, 4,12; Serkovnaya, 140; Milyutinskaya, 12; Suraxanskaya, 212 və s. ünvanlarda yerləşən yaşayış evləri ilə təqdim olunmuşdur. Eni dar olan sahə məhəllənin bütün dərinliyini əhatə edərək, kələsi ilə qarşıdakı küçəyə yönəlmişdir. Bu kimi sahələrdə tikilən binalar planlaşdırmanın yığcamlığı və bu tipli evlər üçün səciyyəvi olan təntənəli qəbul və yaşayış yerləşgələrinin ikicərgəli yerləşməsi və iki eyni fasada malik olması ilə fərqlənir. Bu tərzdə tikiliş üsulu bucaq və ya frontal tikiliş üsuluna nisbətən faydalı sahənin və rahat həyət fəzasının daha yaxşı təşkilini təmin edir.





Adı çəkilən bütün üsullar binaların məhəllələrdə yerləşdirilməsinin fərqli şərtlərdə həyata keçirilməsinə baxmayaraq, miqyaslarının vahidliyində və ikicərgəli tikilişlərin enində birləşirlər. Binaların bir qədər mürəkkəbləşdirmiş konfiqurasiyasını, eləcə də onların planlaşdırma həllinin xarakterini burada xeyli dərəcədə sahələrin konfiqurasiyası əvvəlcədən müəyyən etmişdir.

Sahələrin tikilişinin əsas üsulları ilə yanaşı bu üsulların bir neçə variantları da mövcud idi. Sahənin bir neçə küçəyə yönəlməsi misalı çox maraqlıdır (Telefonnaya, 4-6, 5,11; 2-ci Paralelnaya, 56; Krasnovodskaya, 19; Qoqol, 9,15,28, Vorontsovskaya, 13, Nikolayevskaya, 35, Mariinskaya 23, Politseyskaya, 2 və b. küçələrdə yerləşən evlər).

Telefonnaya küçəsində yerləşən binalar - şəhərin müxtəlif hissələrində çox sayda tikilən səciyyəvi çoxmənzilli gəlirverən evlərdir. Bu küçədəki 11 saylı ev tipinə görə sahənin bütün perimetri boyunca tikilən gəlirverən evlə bənzərlik təşkil edir (məsələn, Krasnovodskaya, 21-də). 40x90 m ölçülərində düzbucaqlı sahə evin təxminən eynitipli seksiyalara bölünmə planında kifayət qədər geniş daxili həyət təşkil etmək yolu ilə onun planlaşdırmasını uğurla həll etməyə imkan verirdi. Hər bir pilləkən qəfəsinə seksiyaların yan tərəfində yerləşən dar xidməti pilləkəndən keçən müstəqil «dal qapıya» malik iki mənzilin qapısı açılırdı. Hər iki mənzilin yaşayış otaqlarından ayrılan yardımçı yerləşgələr birlikdə qruplaşırlar.

Memarlar sahələrin bitişik qonşu mülklər tərəfindən bütün perimetr boyunca ikicərgəli tikintisinin tətbiq edilməsi imkanına malik olmadıqlarından, bircərgəli həll variantına keçirlər, bu zaman üzü həyətə baxan şüşəbəndli otaqlar birbaşa təbii işıqlanmadan məhrum olurlar.

Həyət tərəfdən bircərgəli tikililər adətən yardımçı yerləşgələr qrupuna aid edilirdi. Bizim araşdırdığımız halda isə tikilinin kifayət qədər əraziyə malik olması burada yaşayış otaqlarının yerləşdirilməsinə də şərait yaradırdı. Bütün mənzillər ümumi dövrələmə şüşəbənd ilə birləşirdi. Bu kimi ev əhalinin orta təbəqəsi üçün nəzərdə tutulmuşdu, ona görə də burada mənzillər lazımi dərəcədə rahatlığa və komforta malik deyildi ki, bu da onların keyfiyyətini aşağı salırdı. Eyni zamanda, planlaşdırma həllinin dəqiqliyini, pilləkən qəfəslərinin müəyyən qanunauyğunluğunu, və nəhayət, bütün binanın kompozisiya tamlığını qeyd etməmək olmaz.

Telefonnaya küçəsində yerləşən yaşayış evlərində çox rahat mənzillər də vardı (4, 5, 6 saylı evlər). Planlaşdırmanın ümumi dövrələmə şüşəbəndlə bölməli tipi bir mənzilin sərhədlərində pilləkən qəfəsinin həcminin şüşəbəndin eninə davam etməsi vasitəsilə məhdud fəza yaratmağa imkan verir. Beləliklə özünün ayrıca şüşəbəndinə malik olan mənzilin ayrılmasına nail olunur və eyni zamanda da pilləkən qəfəsindən düşən təbii işıqlanma təmin edilir.

Pilləkən qəfəslərinin yerləşdirilmə prinsipi Bakıda hər bir mənzil üçün ayrıca şüşəbənd və ya lociyanın yaradıldığı yaşayış evlərinin tikiliş təcrübəsində bizim günlərdə də tətbiq edilir.

Hər mənzilə ayrıca qalereya və ya lociya (iç eyvan) yaradılarkən pilləkən qəfəslərinin yerləşdirilmə sxemi Bakıda yaşayış evlərinin tikintisində bizim günlərdə də tətbiq edilir.

Görkəmli Azərbaycan memarı, 1883-cü ildən 1893-cü ilə qədər yarıdan çoxu naturada həyata keçirilən 250-yə yaxın layihə yaratmış Məşədi Mirzə Qafar İsmayılov şəhər tipli mənzillərin planlaşdırması üzərində çox və məhsuldar işləmişdir. Tək ev tipli birmənzilli yaşayış evləri ilə yanaşı, onun tərəfindən müxtəlif





*Bakı. Şamaxinkada Lalayev qardaşlarının yaşayış evinin layihəsi. Yan fasad və 2-ci mərtəbənin planı. Mülki mühəndis İ.Mirzəyev. 1895-ci il.*

planlaşdırma üsullarında çoxmənzilli gəlir verən evlər layihələşdirilmişdi. Burada iki mənzilə ayrıca pilləkən qəfəsi ilə seksiya tipli və bir mənzilə pilləkən və ayrıca mənzilləri olan dolayı qalereyaya çıxışla bir pilləkən də vardı.

Əgər əvvəllər pilləkən qəfəsi yaşayış evlərinin planlaşdırmasında təsadüfi mövqe tutur və utilitar, yəni praktik xarakter daşıyırdısa, 1880-ci illərdən funksional əhəmiyyəti ilə yanaşı özlüyündə müstəqil əhəmiyyət də kəsb edir. Bununla da mənzillərin planlaşdırmasında mənzilin daxili quruluşunun bütün strukturunu və bütövlükdə sahəni daha səlis və məntiqi həll etməyə imkan verən müəyyən bir qanunauyğunluq üzə çıxır.

Qeyd etmək gərəkdir ki, İsmayılov planda pilləkən qəfəsini olduqca effektli yerləşdirir və bununla da fasadın quruluşuna, onun başlıca vurğularına ümumi istiqamət verir ki, bu da həcm həllinin üfqi hissələnməsində və vertikal ritmlərində ifadə olunur. Mülki mühəndislər D.D.Buynov, A.S.Kandinov, İ.V.Edel də bu istiqamətdə işləyir, onlar həm ayrıca seksiyaların, həm də mənzillərin planlaşdırmasını inkişaf etdirir və yaxşılaşdırırdılar. Məhz bu vaxtlarda mənzillərin sanitar qovşaqlarında vanna otaqları peyda olur ki, bu da Bakı mənzillərinin avadanlığında yeni bir element idi. 2-ci gildiya Bakı taciri Cəfərqulu Soltanovun Birja meydanının şimal səmtində inşa edilmək üçün nəzərdə tutulan yaşayış evinin layihəsi buna misal ola bilər; layihə 1888-ci ildə memar İsmayılov tərəfindən işlənib hazırlanmışdı. Mənzilin qırmızı xətt üzrə ümumi uzunluğu 94,24 metr, sahənin dərinliyi 32 metr təşkil edirdi.

Sahənin ön tərəf boyunca bu sayaq uzunsov sxemi binanın planlaşdırma strukturunu tikilişlərin ikicərgəli sistemindən istifadə və həyətin perimetri boyunca açıq daş qalereya yolu ilə maraqlı bir şəkildə təşkil etməyə imkan vermişdir. Binanın əsas konstruktiv sxeminin təşkilinin belə bir prinsipi Bakı üçün yeni





deyildi, lakin 1880-ci illərdən başlayaraq sonralar ticarət və yaşayış binalarının tikintisində daha da inkişaf etdirilmədi.

Yaşayış evinin birinci mərtəbəsinin aydın konstruktiv və planlaşdırma sxemi korpusun bütün eni boyuna üçaşırımlı pilləkən qəfəslərinin maraqlı bir tərzdə yerləşdirilməsi ilə ticarət özəkləri aşırımlarının vahid şəbəkəsini ehtiva edir. Yerləşmə xarakterinə görə pilləkən qəfəsləri binanın plan quruluşunun nəinki təşkiledici elementidir, həm də fasadın memarlıq kompozisiyasının açılmasında müəyyən bir funksiyanı yerinə yetirirlər.

Yaşayış evlərinin kompozisiyası elə bir tərzdə həll edilmişdir ki, alaqapı keçidin hər iki tərəfi boyunca pilləkən qəfəsləri qurulub, hərəsinə öz təmtəraqlı girişi olan bir mənzil açılır. Belə bir üsul Bakının mənzil tikintisi üçün son dərəcə qeyri-adidir; bu, ingilis evləri praktikasında daha xarakterikdir. Hər halda, Bakının mənzil tikintisi üçün bəlli olmayan bu memarlıq-planlaşdırma üsulu Qafar İsmayılovun yaradıcılığında müəyyən yer tutmuşdur. Pilləkənin yerləşdirilməsinin eyni kompozisiya üsulu Mir Dadaş Seyid Əli oğlunun (Bakı) yaşayış evinin mülki mühəndis D.D.Buynov tərəfindən işlənib hazırlanmış layihəsində də istifadə edilmişdi.

Bakının yaşayış evlərinin planlaşdırma həllinin daha bir özəlliyini - qaranlıq və yarımqaranlıq yerləşgələrin mövcudluğunu qeyd etmək gərəkdir. Sahənin perimetr üzrə kiril əlifbasının П və Г hərfləri şəklində tikilməsi binanın bucaq hissəsinin həll çətinlikləri ilə bağlıdır, ona görə də yaşayış evi ikicərgəli tikildiyi halda binanın giriş bucaqlarındakı yerləşgələr, bir qayda olaraq, təbii işıqdan məhrum qalırdı.

Evin bucaq hissəsinin bu şəkildə az uğurlu həlli, özəlliklə də binanın hündürlüyü 18-20 metr olduqda həyət-quyu evlər praktikasında qanuniləşdirildi. Bəzi hallarda bucaqlarda üç- və dördpilləli pilləkən qəfəsləri yerləşdirilir, bunun sayəsində qaranlıq yerləşgələrin sayı kəskin şəkildə azalırdı.

Çox hallarda həyətin düzbucaqlı abrisində onsuz da az olan meydançanı daraltmaqla yardımçı tikililərin bir növ kölgələnmiş ciblər əmələ gətirən kiçik həcmlərini daxil edirdilər. Bu həcmlər onsuz da dar olan həyət fəzasını daha da qısaldır, lakin, məsələn, Telefonnaya, 5 (memar İ.V.Edel, 1890-cı il), Krasnovodskaya, 10 (memar İ.V.Edel, 1896-cı il) ünvandakı evlərdə olduğu kimi kölgəli və havası pis dəyişdilən yerləşgələrin peyda olmasına rəvac verirdi. Bu tip evlərin digər özəlliyi ondan ibarət idi ki, planda ikimənzilli pilləkən qəfəsinin mövcudluğu komfortluluğu artırırdı. Əhalinin təminatlı hissəsi üçün nəzərdə tutulmuş bu kimi evlərdə, təmtəraqlı yerləşgələrin sayı artdıqda, yuxarıda təsvir edilən həmin qərarlaşmış planlaşdırma üsulları saxlanırdı.

Planlaşdırmanın ümumi sxemi, pilləkənlərin mövqeyi, mənzillərə girişlər - bütün bunlar dəqiq düşünülmüş, yaxşı təşkil edilmiş kompozisiyanı təqdim edir. Lakin yaxşı çəkilmiş plan sxemi funksional baxımdan heç də həmişə özünü doğrultmurdu. Məsələn, plana uğurla uyuşdurulan pilləkənlər təbii işıqlanmadan məhrum edilir və yalnız yuxarı mərtəbələrdə pilləkən qəfəsinin yeganə işıqlandırma mənbəyi olan işıq fonarları qoyulurdu. Məsələn, bu küçələrdəki: Telefonnaya, 4-6 (mülki mühəndis İ.K.Ploşko, 1910-cu il), Orlovskaya, 3 (memar İ.V.Edel, 1903-cü il), Minaretskaya, 45 (1908-ci il) ünvandakı evlərdə belə idi.

Bütün mənzillərdə otaqların tərkibi varlı-hallı ailələrin yaşam şəraitinin təminedilmə hesabı ilə müəyyən olunurdu. Mənzillərin planlaşdırmasının ümumi sxemi isə ümumilikdə, spesifik özəlliklərin



*Birja meydanında Soltanovun evinin layihəsi. Fasad. Mərtəbələrin planı. 1886-cı il. Memar Məşədi Mirzə Qafar İsmayılov.*

qorunub saxlanması ilə, Peterburq, Moskva və bir sıra Avropa şəhərləri evlərinin daxili strukturunu xatırladır.

Bakıda buna misal olaraq bu küçələrdə: Politseyskaya, 16 (1900-cü il), 19 (mülki mühəndis A.A.Nikitin, 1914-cü il), Serkovnaya, 140 (1909-cu il), Şemaxinskaya, 4 (1912-ci il), 12 (mülki mühəndis İ.K.Ploşko, 1910-cu il) tikilmiş evlər göstərilə bilər. Bu yaşayış evlərinin planları onlar üzrə yerləşdirilmiş pilləkən qəfəsləri və iki sıra yerləşgələr cərgəsi ilə aydın ifadə edilmiş uzununa və eninə oxlara malikdir.

Peterburq, Moskva və digər şəhərlərin mənzillərinin planlaşdırmasında binanın plan sxeminin həllində, özəlliklə həyət-quyu evlərin tikintisində, bütün yerləşgələri təbii işıqla təmin etməyə (zəruri şərt) çalışmaqda ifadə olunan ümumi istiqamət müşahidə olunur. Yaşayış hissəsi yerləşgələrinin yardımçı tikililər qrupu ilə əlaqəsinə qaranlıq dəhlizlər vasitəsi ilə nail olunurdu. «Fasada adətən təmtəraqlı otaqlar, yaxşı işıq düşən kabinet, erkerli və ya balkonlu qonaq otağı açılır. Mənzildə aralıq vəsiləni yemək otağı tutur, bu otaq həyətə istiqamətlənir və küncdə böyük, bəzən çəpinə yerləşmiş pəncərəsi və ya iki pəncərəsi olur. Yemək otağı təmtəraqlı otaq və ya qonaq otağı ilə, eləcə də mətbəxə aparan yardımçı dəhlizlə münasib şəkildə əlaqələndirilirdi. Yemək otağının arxasında ardıcıllıqla yataq otağı, ondan o yanda, qaranlıq dəhlizin arxasında mətbəx, qulluqçular üçün yerləşgə və «dal qapı» yerləşirdi».

Bakıda o vaxtlar Avropa şəhərləri mənzillərinin plan quruluşu ilə göstərilən tipdə mənzillərin planlaşdırma həllində bəzi ümumi cizgilərin olmasına baxmayaraq, onlarda sadə xalq evlərinə xas olan və yerli şəraitə cavab verən spesifika saxlanırdı. Əgər üzü küçəyə baxan yerləşgəyə təbii işıq düşürsə, həyət tərəfdən onun qarşısında otaqlar, mənzilin yaşayış və yardımçı hissələri arasında əlaqələndirici vəsilə olaraq şüşəbənd yerləşir, özü də burada qeyd etmək yerinə düşər ki, otaqların və onlara bitişik şüşəbəndin ikicərgəli planlaşdırması kimi XIX yüzilin sonlarında Zaqafqaziyada geniş yayılmış üsulun qonşu Şərq ölkələri - İran və Türkiyənin yaşayış evlərində bənzəri yox idi [454, s.161-163].

Eynilə də Peterburq, Moskva və digər şəhərlərin evlərində yaşayış və təmtəraqlı otaqlar dəhliz və daxili keçidlər vasitəsilə yardımçı qrup otaqlardan təcrid edilirdi (Telefonnaya, 4-6, Qoqol, 9, Mariinskaya, 23 ünvandakı evlər). Eyni zamanda bir çox hallarda yardımçı qrup bilavasitə yaşayış otaqlarına bitişirdi (Qoqol küçəsi, 28 ünvandakı ev, mülki mühəndis İ.V.Qoslavski, 1904-cü il). Bu zəngin evin əla işıqlandırılan yaşayış otaqlarının planı təmtəraqlı yerləşgələr kimi həll edilmişdi.

Bu tip yaşayış evinin planlaşdırma üsullarının müxtəlifliyi sırasına Milyutinskaya, 8 ünvandakı (memar İ.V.Edel, 1891-ci il) imarətlərin fəza strukturunu da aid etmək gərəkdir. Sahənin uzunsov düzbucaqlı olması təbii işıq düşməyən müstəqil pilləkən qəfəsi ilə köndələn oxa nisbətdə iki ayrıca mənzilin güzgü əksində yerləşdirilməsinin münasibliyini diktə etmişdi. Pilləkənin yardımçı qrup yerləşgələri ilə bir sırada içdə qurulması və bununla da onu mənzilin əsas yerləşgələrindən ayırması kimi bir üsul Bakının tikinti praktikasında geniş tətbiq edilirdi.

Bu kimi üsul planlaşdırma həllinin bütövlüyünə və bitkinliyinə rəvac verir, «kölgəli» ciblərin yoxluğu və yaşayış otaqları üçün ayrılan sahədən səmərəli istifadə ilə xarakterizə olunur. Yerləşgələrin mövqeyinin anfilada sistemi kəllədə təmtəraqlı zal ilə qurtarır. Bu örnəkdə bircərgəli və ikicərgəli tikilişlərin uzunsov sırasında onların bacarıqla tərtiblənməsi hesabına demək olar bütün yaşayış otaqlarına təbii işıq düşür. Evlərin bu tipi planın daxili kompozisiyasının səmərəliliyinə görə, planlaşdırma sxeminin düşünülmüş olması və aydınlığına görə Bakının şəhər yaşayış evlərinin ən yaxşı örnəkləri sırasına aid edilə bilər. Lakin burada da həyət fəzasının təşkilinə



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

lazımınca diqqət yetirilməmişdir. Yaşayış evlərinin düzbucaqlı sxem həlli ilə yanaşı, kəsilmiş bucaqlar və ya yarımdairə cizgili fasadların çoxsaylı örnəklərinə rast gəlinir.

Qeyd etmək gərəkdir ki, şəhərin mərkəz hissəsində az qala bütün məhəllələr kəsmə bucaqlara malikdir, bunlar görmə bucağını böyüdür, eləcə də faktik olaraq küçələrin kəsişmə qovşaqlarını genişlədir və bununla birlikdə onların fəza həllini yaxşılaşdırır. Belə bir üsul başdan-başa perimetral tikiliş halında hər hansı həcm-fəza vurğusu olmadan perspektivanın açılmasına rəvac verir.

Nadir hallarda bucaqdakı yerləşgələrə mürəkkəb konfiqurasiya verilirdi. Bir qayda olaraq, bu yerləşgələr mənzilin kompozisiya mərkəzinə çevrilirdi. Pəncərələri və bucaqları uğurla yerləşdirməklə, bu kimi bucaq yerləşgəsi planının mənzərə traktovkası bütün mənzilin plan kompozisiyasına qalan otaqların düzbucaqlı şəbəkəsinin monotonluğunu və quruluğunu yumşaldan müəyyən bir ekspressiya gətirir. Bu kimi bucaq yerləşgələrin daha işıqlı olması da az rol oynamır, nəticədə interyerin daxili fəzası işıq-kölgə təzadı ilə zənginləşərək, onun forma və elementlərinin qabarıqlılığını və həcmliliyini gücləndirir.

Perimetr boyunca tikilişlər halında binanın məhəllə sistemindəki qoyuluşunun digər fərqli üsulu - bucaq həllidir. Binanın bucaq qoyuluşu üsulu üzü üç küçəyə baxan evlərin qurması ilə eyni özəlliklərə malikdir. Sonuncu halda ikicərgəli tikiliş, ola bilsin, yalnız qırmızı xətt boyunca həyata keçirilib, həyət tərəfdən isə, yəni qonşu sahələrlə sərhəddə bircərgəli tikiliş saxlanılır (Nikolayevskaya, 41, mülki mühəndis İ.K.Ploşko; Balaxanskaya, 39 və başqaları).

Qonşu sahələrlə sərhəddə tikilişlərin bircərgəli hissəsi nəinki yardımçı qrupa, həm də yaşayış yerləşgələrinə ayrılır, özü də sahənin meydançasından maksimum istifadə edilir, həyət üçünsə minimal fəza saxlanırdı. Bu evlərdə bəzən planda ayrı-ayrı mənzillərin payına dəqiq şəkildə bölünmədən ümumi olan şüşəbəndin mövcudluğu müşahidə edilir.

Gözdən keçirilən dönəmin son illərində mənzillərin planlaşdırmasında yenilik cücərtiləri peyda olur. Çox baxımdan yardımçı qrup üçün nəzərdə tutulan bircərgəli həyət tikilişi qarşısında şüşəbəndi olan yaşayış yerləşgələri ilə tutulmuşdu. Kladbişenskaya, 3 ünvandakı evdə biz şüşəbənd ideyasından otaqların gün işığı ilə təmin edilməsinə imkan yaratmaq məqsədilə qismən imtina edildiyini (doğrudur, cəsarətsizcəsinə) görürük. Şüşəbənd bu evdə mənzil üçün ayrılmış yardımçı qrupda balkonlarla əvəz edilmişdir.

Beləliklə, şüşəbənddən tam imtina yoxdur. Onun yaşarılığı funksional keyfiyyətləri: yerləşgələrlə rahat əlaqəsi, dincəlmək və ailənin gündüzlər olduğu yer və nəhayət, mənzildə yaxşı, işıqlı bir fəza olması ilə təsdiqlənir.

Perimetr boyunca sahə tikilişinin daha maraqlı həllinə bundan əvvəl gözdən keçirilmiş misalları - tikiliş ərazisinin iki tərəfdən qonşu sahələrlə hüdudlandığı və binanın qarşıdakı küçələrə baxan fasadının olduğu halları aid etmək gərəkdir. Burada ilk öncə plan həlli boyuna və eninə oxlara nisbətdə ciddi simmetrikliyi ilə, planın aydın və səlis quruluşu ilə diqqəti cəlb edir. Bu, konstruktiv sxemin səmərəliliyini və evin bütün kompozisiyasının bütövlüyünü təmin edir. Şemaxinskaya küçəsi, 4, 12, Serkovnaya, 140, Milyutinskaya 12, Suraxanskaya 212 ünvandakı evlər buna misal ola bilər.

Şemaxinskaya, 4 ünvandakı ev sahənin kəllələrində yerləşən, iki paralel küçəyə çıxan iki seksiyadan ibarətdir.





Hər seksiyaya iki mənzil düşür. O dönəmin Bakısında mənzil tikintisi praktikasında son dərəcə geniş yayılmış örnəkdir.

Bütün rahatlıqları ilə Avropa tipli, böyük olmayan mənzil - yeni təzahürdür; baha, praktik olmayan çoxotaqlı mənzillərdən imtina edilməsinə və orta təbəqənin tələbatına uyğunlaşmağa cəhd göz önündədir. Gözdən keçirilən mənzil dəhlizdən, iki ayrıca otaqdan və bir keçid qonaq otağından ibarətdir. Yardımçı qrup yaşayış otaqları ilə koridor vasitəsilə birləşir və yemək otağı ilə birbaşa əlaqəyə malikdir. Həyətlə əlaqə iki mənzilə xidmət göstərən «dal qapı» vasitəsilə həyata keçirilir. Mənzilin bu sayaq planlaşdırma həlli yerləşgələrin yaşayış qrupunu yardımçı qrupla yaxınlaşdırmağa, lüzumsuz keçidləri ləğv etməyə, eləcə də ümumi sahədən səmərəli istifadəyə cəhdi əks etdirir.

Belə bir həll variantına digər, lakin daha inkişaf etmiş misal - Serkovnaya, 140 ünvandakı evdir. Gözdən keçirilən yaşayış evi öz emosional həcm-fəza və memarlıq-planlaşdırma strukturuna görə formoloji quruluşun Bakının iqlim şəraitində yaşayış evinin bədii obrazının açılmasında həlledici rol oynadığı XX əsrin başlanğıcının şəhər tikililərindən xeyli fərqlənir. Burada fasadın memarlıq traktovkasında ordersiz sistemin metod və üsullarından, klassikadakı proporsional hissələnmədən istifadə edilmişdir. Lakin fasad strukturunun özü, əsas həcm hissələrinin modelləşdirilməsi, ümumi sxemin, memarlıq detallarının aydın çəkilişi və onların naturada ifadəsi modernin təsirindən, özü də onun ən yaxşı obrazlarda təsirindən söz açır. Fasad bəzəklərinin fərqləndirici cizgisi ahəngdaşı üzlükdən və bütün memarlıq və dekorativ detallardan yüksək peşəkarlıq səviyyəsində istifadədir.

Yaşayış evi - şəhərin tarixi və memarlıq irsinin ayrılmaz hissəsi - öz zəmanəsinin yaşayış və mülki tikinti abidəsinə çevrilir.

Gözdən keçirilən həll variantının birbaşa nəticəsi küçə frontu boyunca qoyulan, fasadı bir tərəfə baxan və üç tərəfdən qonşu sahələrdə ucaldılmış binalarla həmsərhəd olan evlərin tikintisi ola bilər (Birjevaya, 5; Politseyskaya, 16,20; Qorçakovskaya, 16, 18 və başqa ünvanlardakı evlər). Binanın bu tərzdə qoyuluşunda bütün perimetr boyunca tikilən və qonşu sahələrin bircərgəli tikilişləri ilə sıxılan sahə yaşayış üçün minimal rahatlığı təmin etmir. Təkcə üzü bilavasitə küçəyə baxan, işıq düşən yerləşgələrdən mükəmməl istifadə edilə bilir.

Orta sahəsi 750 kv metr olan şəhər sahələri əksər hallarda gün işığı düşən yerləşgələri ilə evlərin (sahəsi 100 kv metr olmaqla) qurması üçün nəzərdə tutulurdu ki, bu da tikilinin bütün sahəsinin 13 faizini təşkil edirdi. Bu evlər əsas etibarilə birseksiyalı, təkəmseyrək hallarda ikiseksiyalıdır. Tikilişin frontundan asılı olaraq, bir pilləkən qəfəsinin mövcudluğunda mənzillərin sayı ikidən çox nəzərdə tutulmur. Yardımçı qrupun yerləşdirilmə prinsipi və onun yaşayış hissəsi ilə qarşılıqlı əlaqəsi əvvəl gözdən keçirilmiş həll variantları ilə bənzərdir, fərq yalnız burasındadır ki, çoxlu sayda yardımçı yerləşgələr üçün ayrılmış bircərgəli tikilişlər sonralar yelçəkərlik şəraiti ilə hesablaşılmadan yaşayış üçün uyğunlaşdırılmağa başlamışdı. Belə bir planlaşdırma tikilişin üç küçəyə səmtlənmiş fasadlı evlərdə müşahidə olunan geniş frontunun olmadığından, binanın bucaq qoyuluşundan və s. irəli gəlirdi.

Bu planda ən maraqlı örnəklərdən biri Karantinnaya 31 ünvandakı yaşayış evidir (1896-cı il). Bu ev, şəhərin tarixi məhəllələrinin strukturunda şəhərsalma

önəmi ilə yanaşı, öz yüksək estetik keyfiyyətləri ilə ətrafdakı tikilişlərə emosional təsir göstərir.

Şəhərin köhnə rayonundakı evlərin çoxu kimi, bu ev - çox da uzun deyildir; o, özündə bir sıra bədii məziyyətləri cəmləşdirir. Orderli sistemin sərbəst traktovkasında inşa edilən fasad Bakının daş memarlığı zəminində özünəxas sınma, istiqaməti dəyişmə əldə edir, burada plastika zənginliyi memarlıq detallarının rövnəqli və relyefli təsviri sayəsində onun potensial imkanlarının açılmasına işləyir.

Dərin relyefli ornamental naxışlar və bəzəklər, daşdan yonulmuş epiqrafik süjetlər şəklində yerli və Şərq incəsənətinin elementləri və motivləri yaşayış evi fasadının memarlıq kompozisiyasının ümumi sxeminə uyuşur. XIX-XX əsrlərin qovşağında yaşayış evi fasadının memarlıq kompozisiyasının bu sayaq həllinə ilk dəfə rastlanır və Azərbaycan memarlığına milli-romantik istiqamətin nüfuz etməsinin köklərini müəyyən dərəcədə açıb göstərməyə açar verir.

Memarların yerli arxitektura irsinə müraciəti sosial-siyasi şəraitdən irəli gəlirdi, belə ki, yerli əhalinin maraqları nəzərə alınmaya bilməzdi. Keçmişə maraq məhz bu mövqedən özünü göstərir və hələ məhdud sayda olsa da, milli cizgilərdən istifadə edilən tikililər doğulur. Gözdən keçirilən yaşayış evində yerli memarlığın bu özəllikləri bir az ehtiyatla olsa da, qabarıq bir şəkildə əksini tapmışdır ki, onun bir memarlıq abidəsi olaraq önəmliliyini müəyyən edir və XIX-XX əsrlərin qovşağında yerli memarlığın təkamülünü tarixi planda açmağa imkan yaradır.

Bu tipli tikilişlərin araşdırılmasını bitirərkən qeyd etmək gərəkdir ki, məkanın xarakteristikasına və sahələrin ölçülərindən doğan mənfi təzahürlərə baxmayaraq, yaşayış evlərinin plan kompozisiyasının qurulmasında müəyyən bir məntiq gözdən qaçmır.

Sahələrdən maksimum faydalanmaq məsələsində sifarişçi tərəfindən irəli sürülən ümumi tələbləri nəzərə almaqla və daxili fəzanın həllində memarlıq məntiqinin prinsiplərinə əməl etməklə, memarlar məqbul həll yolu tapa bilirdilər. Bu həll yollarının çevikliyi əksərən düzbucaqlı olan sahənin konkret abrisinə tabe edilmiş, mütəşəkkil tikiliş aparmaq, aydın və yığcam həll planı və onun bir-birindən təcrid edilmiş mənzillərə bölünməsi ilə fərqli tikiliş variantlarından istifadəyə imkan verirdi. Burada yaşayış və yardımçı yerləşgələrin, eləcə də pilləkən qəfəsinin yerləşdirilməsinin və sonuncunun plan strukturunda rolunun vahid prinsipi müşahidə edilir. Bütün bunlar - gözdən keçirilən yaşayış evi tipinin ümumi kompozisiyasını müəyyən edən son dərəcə mühüm faktorlardır. Sahəsi bütün perimetr boyunca tikilən yaşayış evlərinin strukturunu xarakterizə edən özəlliklər bunlardır.

Sahələrin tikilişinin Bakıda geniş yayılmış daha bir tipi kiril əlifbasındakı П hərfi şəklində plandır, onun strukturunun quruluş prinsipi bundan öncəkinə çox yaxındır. Yuxarıda təsvir edilən planlaşdırma sxemini saxlamaqla, bu halda evin iki paralel fligeli arasında tikiliş istisna edilir. Bu, tikiliş üçün ayrılmış sahənin məhdud ölçüdə olmasından irəli gəlmişdir, belə ki, perimetr boyunca tikiliş funksiyası işıq mənbəyindən ibarət olan həyətin tamam istisna olunmasına gətirib çıxarardı. Ola bilsin, şüşəbənddən qismən imtina bu mülahizədən doğmuşdur. Bu kimi tikililərə Politseyskaya, 2 (mülki mühəndis F.A.Nikulin, 1913-cü il); Politseyskaya, 19 (mülki mühəndis A.A.Nikitin, 1913-cü il); Pozenovskaya, 19 (1910-cu il); Vrangelskaya, 12 (1912-ci il); Qorçakovskaya, 5 (1890-cı il); Qorçakovskaya, 7 (1898-ci il); Nikolayevskaya, 41 (mülki mühəndis İ.K.Ploşko (1912-ci il); Krasnovodskaya, 22 (1900-cü illər); Mariinskaya, 7 (memar İ.V.Edel, 1895-ci il); Gertsen, 22 (1898-ci il); Gertsen, 24 (1897-ci il) və s. evlər aid edilə bilər.

Sahələrin nisbətən kiçik ölçüdə olması evdə bir və ya iki mənzilin yerləşdirilməsinə imkan verirdi ki, bu da öncəki həll variantında tətbiqini tapan seksiya tipli mənzilin təşkili imkanını istisna edirdi.

Həyət tərəfdən yerləşgələrə daha çox (mümkün olduğu qədər) işıq düşməsinə çalışmaq bu planlaşdırma üsulunu müsbət təzahür kimi qiymətləndirməyə imkan verir. Doğrudur, burada da qaranlıq və yarımqaranlıq otaqlar tamamilə istisna deyil, çünki bunun aradan qaldırılması qərarlaşmış planlaşdırma sxemini köklü şəkildə sındırıb atmağı tələb edərdi.

Yan fligelin onların yardımçı və bəzi yaşayış yerləşgələri ilə saxlanılması elə bununla izah olunur, onlardan imtina işıq mənbəyindən yerli-dibli məhrum olan otaqların təbii işıqla təmin edilməsinə və eyni zamanda həyət fəzasının keyfiyyətini kəskin şəkildə yaxşılaşdırmağa imkan verərdi. Lakin sahədən kommersiya məqsədilə maksimum faydalanmaq dalınca qaçmaq daha təkmil həll variantlarını tətbiq etməyə imkan vermirdi.

Orta uzunluğu 25-30 metr hüdudunda olan bu tip evlərin demək olan hamısında mərtəbədə bir və ya iki mənzil (fasadın uzunluğundan asılılıqda) ilə bir pilləkən qəfəsi nəzərdə tutulur. Bəzi sahələrdə evlər mərtəbədə iki mənzillə tikilib, onların hər birinin planın ümumi kompozisiya sxeminə uğurla uzlaşdırılmış yaxşı işıq düşən pilləkən qəfəsi var (məsələn, Politseyskaya küçəsi, 2 ünvandakı ev). Bir pilləkən meydançasında iki mənzil olduqda sonuncu demək olar həmişə mərkəzi-ox mövqeyi tuturdu.

Yaşayış evinin göstərilən tipi daxili fəzanın xeyli maraqlı və inkişaf etmiş formasını vermiş və həyət-quyularda yerləşgələrin işıqdüşmə şəraitinin yaxşılaşmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, planlaşdırmanın bu tipində çox vaxt əsaslı fligellər arasındakı fəza açıq həyət pilləkəni ilə qapanır. Sahənin bu sayaq həll variantı perimetr boyunca tikilişin bənzəridir. Sonuncu halda həyət tərəfdən quraşdırılan «dal pilləkənlər» öz yerini nazik dirəklər üstündə qərar tutmuş zərif toxunuşlu metal pilləkənlərə verməklə (məsələn, Abşeronskaya, 7; Vrangelskaya, 14; Politseyskaya, 19 ünvandakı evlərdə) istisna olunurdu.

Pozenovskaya küçəsi, 19 ünvandakı yaşayış evi (1910-cu il) bu tip binaların Bakı şəhərində mənzil tikintisinin ən yaxşı ənənələrinin əks olunduğu və planlaşdırmanın yeni tələblərinin və üsullarının nəzərə alındığı ifadəli həcm-fəza və memarlıq-planlaşdırma həllinə misaldır. Korpusun dərinliyində yerləşgələrin ikicərgəli yerləşdirilmə sistemini və həyət tərəfdən şüşəbəndi saxlamaqla, yaşayış evinin planlaşdırması həyətdaxili fəzanın səlis bir şəkildə qurulmasına imkan yaratmışdır.

Daş dirəklər üzərində şüşəbənddən, onların müvafiq hissələnməsi ilə fasad dördbucaqlısından, qurşaqlar sistemindən və incə profillənmiş pilyastrların vertikal ritmindən istifadənin monumental üsulu Bakıda mənzil tikintisinə nadir örnək ola bilər.

Həyət fəzası fasadlarının bu tərzdə işlənməsi onlara ayrı bir ifadəlilik vermiş və bədii effekt yaratmışdır. Sonuncu, dördüncü mərtəbənin planlaşdırma sistemi maraqlı və əhəmiyyətli detal - aşağı mərtəbələr üçün özünəxas günlük və həyətin memarlıq kompozisiyasının fəza elementi olaraq bütün perimetr boyu dolayı daş balkon əldə etmişdir. Əvvəllər bu üsuldan demək

olar istifadə edilməmişdi, hərçənd qurmanın ümumi qiymətləndirməsi üçün heç də az önəm daşımırdı. Binanın hər bir qanadında «dal pilləkənlər» öz yerləri ilə, necə deyərlər, Bakı üçün klassik olan planlaşdırma kompozisiyasını möhkəmlədir və yaşayış evinin planlaşdırmasında yeni üsulun başlanğıcı rolunu oynayırlar.

Ön fasad modern cizgiləri və barokko elementləri ilə zəngin və mənzərəli memarlıq kompozisiyasına malikdir. Binanın fasadı həcmli plastika, relyefli hissələnmə, peşəkarlıqla icra edilməklə kamillik dərəcəsinə çatdırılmış rövnəqli memarlıq detalları ilə fərqlənir. Daş üzərində oymadan fasad dekorunda məzmunlu karniz şəklində uğurla istifadə olunmuşdur. Lakin burada fasad dekorunun hədsiz yüklənmə cizgiləri qabarıb çıxır ki, bu da üslub vəhdətini pozur. Eyni zamanda memarın sənətkarlığına, inşaat ustalarının isə - daşdan baxımlı qurma yaratmaq bacarığına söz ola bilməz.

Şəhər yaşayış evlərinin planlaşdırmasının Bakı şəraitində praktika ilə mənimsənilmiş üsulları bütövlükdə yetərincə dayanıqlı çıxmış və uzun müddət ərzində bir elə dəyişikliyə uğramamışdır.

Birtipli mənzillərin dəhlizi öz aralarında yemək otağı, qonaq otağı və şüşəbəndi əlaqələndirən daxili fəzanın quruluşunda mühüm elementdir. Bəzən elə həll variantlarına rast gəlinir ki, burada dəhliz vestibül - məntiqdən məhrum olmayan yeni keyfiyyət təzahürü şəklində traktovka olunur. Nadir hallarda dəhliz, öz yerini gen-bol vestibülə verməklə, yoxdur (Birjevaya, 3, Qorçakovskaya 7, Krasnovodskaya 28 ünvanlardakı evlərdə).

Mənzilə pilləkən meydançasındakı əsas girişdən başqa, qalan yerləşgələrdən yan keçməklə kabinetə daxil olmaq mümkün idi. Belə bir həll variantının mövcudluğu kabinetin təcridini və yaşayış yerləşgələrindən kənarda qonaqları qəbul etmək imkanını təmin edirdi ki, bu da mənzil sahibinin sosial vəziyyəti ilə müəyyən olunurdu. Təmtəraqlı yerləşgələrin interyerlərinin memarlıq tərtibatı ilə yanaşı, yaşayış evinin pilləkən qəfəsinin bədii həllinə də böyük diqqət yetirilirdi. Pilləkən qəfəsinin dəhliz vestibülünün divarları adətən pilyastrlarla, pilonlarla və nisbi genişlik yaradan, dayaz divar taxçaları ilə bəzədilirdi. Vestibülün bütün kompozisiyası qabarıq profillənmiş karnizlə və ya yapma salmaclı tağbəndlə bitirdi. Vestibüldən pilləkən qəfəsinə keçiddə binanın təyinatından asılı olaraq dekor dəyişmirdi.

Əgər bu bina iki-, üçmərtəbəli xüsusi mülk idisə, pilləkən qəfəsinin divarları ikinci mərtəbə səviyyəsinə qədər çox hissəsində qabarıq profillənmiş giz ilə işlənirdi. İkinci mərtəbə meydançasının səviyyəsindən başlayaraq tavana qədər bir sıra xonçalara və ya taxçalara bölünmüş bütün divar sahəsi yapma ornamentlərin zəngin motivləri, medalyonlar və ya xonçalarla dolğunlaşdırılır, pilləkənin müəyyən dərəcədə yarımqaranlıq interyerini canlandıran və eyni zamanda ev sahibinin şöhrətpərəstliyini təmin edən mənzərə pannoları ilə tərtibat verilirdi (Persidskaya, 24, Birjevaya, 5, Telefonnaya, 5 və digər yaşayış evlərində). Bu baxımdan özəlliklə Minaretskaya 45 ünvandakı yaşayış evinin pilləkən qəfəsinin interyeri modern üslubda möhtəşəm şəbəkələri ilə səciyyəvidir. Belə bir sənətkarlıq işinə Bakının heç bir binasında rast gəlinmir. Gün işığına bələnmiş məlahətli rəng qamması ilə bu əla rəsm edilmiş kompozisiya pilləkənin interyerini sözün gerçək mənasında dəyişdirir, güclü emosiyalar doğurur. Bəzəklərin üslubi xarakterləri fərqlidir. Memarlıq dekoruna zəngin klassik elementlər də, dəbdəbəli barokko





və rokoko formaları da, modernin axıcı xətləri də daxil edilir. Bütün bunlar çox halda bir qurmada, bir mərtəbədə dinc qonşuluq şəraitində uyuşurdu. İnteryerlərin bəzədilməsində üstünlük təşkil edən formalar sırasına ciddi klassik profilli karnizləri, zəif relyefli ornamental yapmaları daxil etmək gərəkdir. Bu motivlərlə yanaşı binanın yerləşgələri və pilləkən qəfəsləri müxtəlif növ modern elementləri ilə dolğunlaşdırılmışdır. Divarlardan heyvanat və nəbatat aləminin naturalist təsvirləri: ağaclar, qızılgüllər, günəbaxanlar və onlarla yanaşı müxtəlif rakurslarda qadın maskaları görünür. Bu kimi təzahürlər klassik memarlığın ehkam kimi qəbul edilən, basmaqəlib halını almış və modernin coşqun fantaziyasından məhrum formalarına özünə xas reaksiya idi.

XX əsrin ilk onilliyində şəhərin mərkəzi məhəllələri tamamilə tikilmiş, sərbəst sahələr qalmamışdı. Eyni zamanda şəhərin mərkəzi hissəsindəki sahələrdən mümkün qədər daha çox gəlir əldə etməyə can atmaq köhnə bir- və ikimərtəbəli evlərin sökülməsinə və onların yerində yeni çoxmərtəbəli binaların ucaldılmasına gətirib çıxardı.

Çox halda bu sahələr məhdud ölçüdə olduğundan, memarlar tikilişlərin daha səmərəli həll yollarını aramalı olurdular.

Beləliklə, sahələrin tikilişi çox vaxt özlüyündə məqsəd deyil, onların bahalığı və ölçülərinin son dərəcə məhdudluğunun nəticəsi idi ki, bu da nəinki «həyət-quyular», həm də «həyət-yarıqlar» doğurur, buraya ilboyu günəş şüası demək olar düşmürdü. Bununla belə, mümkün olduğu qədər, memarlar torpaq sahələrinin yaxşı təşkil edilən tikilişlərinə nail olurdular. Kiril əlifbasındakı П hərfi şəklində tikilişlərin növ müxtəlifliyinə misal qismində Birjevaya (Hacıbəyli) 3 ünvandakı evi göstərmək olar. Tikilişin bu sayaq tipi sahənin kəlləsinin yan fligellərdən biri ilə qapanmasının nəticəsində əmələ gəlmişdi. İş burasındadır ki, tikilişin frontu cəmi 20 metrə yaxın uzunluqda idi, halbuki sahənin dərinliyi enindən iki dəfə çox idi.

Bu səbəbdən, sahənin uzunsov düzbucaqlı şəklindəki konfiqurasiyası memarı baş oxa nisbətdə kiril əlifbasındakı П hərfi şəklində tikilişdən imtina etməyə və əsas məsələdə sifarişçinin maraqlarına əməl etməklə başqa bir həll variantını qəbul etməyə məcbur etmişdi. Sahənin belə bir ölçüsündə yan qanadları ilə kiril əlifbasındakı П hərfi şəklində binada yaşayış yerləşgələrinin işıqlandırılması çətin olardı ki, bu da mənzildə dəyərsiz sahələrin üzə çıxmasına və ev sahibinin gəlirlərinin azalmasına səbəb olardı.

Memar İ.V.Edel tərəfindən əsas həcmlə bağlanan iki qanad yerinə yaşayış yerləşgəsini örtməyən və işıq görməyən pilləkən qəfəsinə bitişən hissəni saxlamaq qərarı qəbul olunmuşdu. İkinci qanad birincinin davamı idi və sahənin kəlləsində ona perpendikulyar yerləşmişdi. Burada az imkanlı əhaliyə kirayə verilmək üçün nəzərdə tutulmuş, yardımçı yerləşgələri ilə və həyət tərəfdən müstəqil açıq və ya qapalı pilləkənləri olan kiçik yaşayış otaqları yerləşirdi. Bu sayaq tikiliş bir sıra problemləri müsbət həll etmişdi: yarımqaranlıq yerləşgələr demək olar tamamilə ləğv edilmişdi; əsas qrupdan ayrılan və az imkanlı əhaliyə kirayə verilmək üçün nəzərdə tutulmuş yaşayış otaqları həyətin dərinliyinə keçirilmiş və, nəhayət, onun forması yaxşılaşdırılmışdı.

Kiril əlifbasındakı П hərfi şəklindəki tipdə tikilişləri sahənin bucaq həllinin variantı kimi gözdən keçirmək gərəkdir, baxmayaraq ki, plan quruluşunun ümumi prinsipləri perimetr boyunca tikilişdə olduğu kimidir. Sahələrdə meydançanın kiçikliyinə baxmayaraq, belə bir tikiliş

binanın küçəyə nisbətdə frontal qoyuluşu ilə müqayisədə bir sıra üstünlüklərə malikdir. Burada küçəyə baxan fasadların ümumi uzunluğu bu qədər az bir sahədə gündüz işığı düşən çoxlu sayda yerləşgələri yerləşdirməyə imkan verir; digər tərəfdən, binanın özü fəza qavrayışı əldə edir.

Bu variantda binanın bucaq hissəsinin daxili planlaşdırmasını yeni tərzdə həll etmək tendensiyası özünü göstərir. Məsələn, küçəyə baxan bucaq yerləşgəsinə mürəkkəb romb-şəkilli forma verilir, yaşayış otaqlarının qalan qrupundan təcrid edilmiş yerləşgənin özü isə planın mərkəzi kompozisiya elementinə çevrilir.

Bucaq otağının oxu üzərində həyət tərəfdən eyni formada, lakin işıqdan məhrum vestibül yerləşirdi. Əgər Politseyskaya 19 ünvandakı evdə yanmqaranlıq yardımçı yerləşgə funksional baxımdan özünü doğruldurdusa, belə ki, yemək otağını əvəz edirdi, Mariinskaya küçəsi, 7 və Krasnovodskaya küçəsi 10, 22 ünvanlardakı evlərdə bucaq hissənin belə bir həlli təqribən 30 kvadrat metr yaşayış sahəsinin itirilməsinə gətirib çıxarır. Bucaq yerləşgəsi, yəni dəhliz otağı və geniş ölçülü qaranlıq vestibül arasında əlaqə kiçik aralıq kordioru vasitəsilə gerçəkləşirdi. Bir ox üzərində çoxsaylı bucaqları olan böyük və kiçik yerləşgələr həm planlaşdırma, həm də konstruktiv həlli mürəkkəbləşdirirdi. Bucaq otaqdan qaranlıq vestibülə bilavasitə çıxışı təmin etməkdən ötrü mənzilin bütün planlaşdırma sxemini bu qədər mürəkkəbləşdirməyə ehtiyac yox idi. Vestibülün qaranlıq fəzasından qaçmaq bu yerdə yuxarıdan düşən işıqla aydınlanan pilləkən qəfəsinin qurulması yolu ilə mümkün idi.

Məsələn, Orlovskaya küçəsi, 3, Telefonnaya 4-6, Mariinskaya 89 və başqa ünvanlardakı evlərdə belə idi.

Planlaşdırmanın bütün əsas tipləri və növləri, üstəlik də çoxlu sayda həll variantları planlaşdırma zamanı böyük çevikliyə və nisbi sərbəstliyə yol verən konkret ölçülərə və şərtlərə bağlı idi. Sahələrin ölçüləri və dərinliyi bu və digər planlaşdırma həllini doğuran istinad dəlilləri, daha doğrusu zəmin idi.

Müstəqil mülk qismində məhəllə sisteminə daxil olan, qonşu sahələrlə hüdudlanan ayrı-ayrı sahələrdə tiklişlər layihəçiləri məhəllədaxili fəzanın bir bütöv orqanizm kimi təşkilində iştirak imkanlarından məhrum edirdi.

Məhəllələrdə tikilişi qırmızı xətt boyunca hansı bir dərəcədəsə nəzarət altında saxlayan şəhər hakimiyyəti özəl torpaq sahələrinin planlaşdırılması ilə heç maraqlanmırdı. Burada şəhərsalma problemlərinin əsaslarına məhəl qoymayan tamam başqa xarakterli, daha qüdrətli və real qüvvə - xüsusi mülkiyyət çıxış edir və hakimiyyət onunla hesablaşmalı olurdu. Bakıda məhəllənin mütəşəkkil tikilişinə bir örnək belə yoxdur. Əgər yeganə bir halı - 1899-cu ildə elan edilmiş yaşayış evi layihəsinə müsabiqəni nəzərə almasaq (bu iş baş tutmamış qaldı), görünür belə bir cəhdə heç baş vurulmamışdır [362, s.42-45].

Şəhərin planlaşdırma sistemində sahələrin tikilişinin onların sahələrinin məhdudluğu üzündən, binanın həyət tərəfdə mətbəx üçün nəzərdə tutulmuş böyük olmayan çıxıntısı ilə xarakterik düzbucaqlı konfiqurasiyada kiril əlifbasındakı Г hərfi şəklindəki sxemi geniş tətbiq edilirdi. Hər mərtəbədə bir ayrıca mənzilin yerləşdirildiyi bu kimi binaların sırasına Birjevaya, 8, Telefonnaya, 17, Mariinskaya 89 və digər ünvandakı binaları aid etmək olar.

Yerləşgələrin şüşəbəndlə ikicərgəli yerləşdirilmə variantının saxlanması əsasında yaşayış evinin tədricən öz strukturu etibarilə aydın, tikiliş şəraitinə cavab verən planlaşdırma tipi yaradıldı. Yaşayış evlərinin plan həllinin təməlinə ona bitişən çıxıntısı ilə şüşəbənd quraşdırma üsulu qoyuldu və bütün yerləşgələrə həyət tərəfdən, məsələn, Mariinskaya 89 ünvandakı binada olduğu kimi, gündüz işığı düşürdü.

Bu evdə biz fəzanın və daxili koridorlar sisteminin qənaətcil həlli ilə yanaşı plan strukturunun aydınlığını və yığcamlığını görürük. Şüşəbənddən imtina etməklə, memarlar hər halda böyük şüşə səthi saxlamış, bir divarı bütövlükdə açırımlarla işləmişdilər. Sonralar, yəni Oktyabr inqilabından sonra kənd və şəhər mənzil tikintisində əsas götürülən şüşəbəndsiz qalereya ilə planlaşdırma sxemi geniş tətbiq edilməyə başladı. Bu kimi üsul pilləkən qəfəslərinin sayından asılı olmayaraq çoxlu sayda ayrıca mənzil - qalereya tipli evlər əldə etməyə imkan yaratması sayəsində münasib idi və ucuz başa gəlirdi.

Üzü küçəyə baxan iki-üç mərtəbəli yaşayış evləri miqyas etibarilə şəhər tikililəri ilə tutuşur və böyük olmayan məhəllə ölçüləri ilə uyğunlaşa bilirdi.

Şəhərdə müxtəlif planlaşdırma həlli ilə çoxlu sayda evlərin mövcudluğuna baxmayaraq, onları həyət tərəfdən şüşəbəndlə ikicərgəli tikilişlər əsasında planların prinsipial həllinin ümumiliyi birləşdirir. Lakin komfortlu və əksərən beş-altı otaqlı ayrıca mənzilləri olan çoxsaylı yaşayış evlərinin arasında cəmiyyətin zəngin zümrəsi üçün bundan əvvəl təsvir edilən plan həllindən fərqli saray tipli mülk-evlər tikilirdi.

Tikilən sahənin konfiqurasiyasından asılı olaraq, plan cizgisi ya düzbucaqlı, ya da mürəkkəb forma alırdı. Qeyd etmək gərəkdir ki, kiçik sahələrin perimetral tikilişi və torpaqdan maksimum istifadə haqqında (hətta tək evlərin tikintisi zamanı) sifarişçinin tələblərinə əməl edilməli olduğu bir şəraitdə plan həlli heç də həmişə binanın həcm-fəza kompozisiyası ilə uzlaşmırdı. Çox vaxt qurmanın uduşlu kompozisiyası renessans ruhunda balkonlar, erkerlər və lociyalar daxil edilməklə, fasadın plastikasının əcaib bir şəkildə işlənməsi ilə əvəz olunurdu.

Bütün örnəklərdə kompozisiyanın birləşdirici əsası planın baş oxunda yerləşdirilən və geniş vestibülə aparan açıq təmtəraqlı iki- və ya üç marşlı mərmər pilləkən idi. Bu evlər üçün yerləşgələrin həm bircərgəli, həm də ikicərgəli tikilişləri xarakterikdir, lakin sonuncu daha inkişaf etmiş şəkildə ifadə olunmuşdur.

Yaşayış və təmtəraqlı yerləşgələrlə tikilmiş sahələr hətta zənginlər yaşayan evlərdə belə həyətdən məhrum idi. Bu kimi evlər-saraylara: H.Z.Tağıyevin Qorçakovskaya küçəsi, 4 ünvandakı keçmiş evi (mülki mühəndis İ.V.Qoslavski, 1893-1902-ci illər) - hazırda Azərbaycan Tarixi Muzeyi; Persidskaya, 6 ünvanda M.Muxtarovun sarayı (mülki mühəndis İ.K.Ploşko, 1911-1912-ci illər) - indi Səadət Sarayı; Sadovaya küçəsi, 9 ünvanda Debur sarayı (mühəndis N.A. fon der Nonne, 1890-cı il) - indi R.Mustafayev adına İncəsənət Muzeyi; Nikolayevskaya, 21 ünvanda (mülki mühəndis Q.M.Termikelov, 1912-ci il) və II Aleksandr sahil küçəsi, 103 ünvanda yaşayış evləri - əhalinin imkanlı təbəqəsi üçün gəlirli evlər aiddir.

Qorçakovskaya, 4, Persidskaya, 6, Sadovaya küçəsi, 9 ünvandakı evlərdə təmtəraqlı yerləşgələr xüsusi bir qrup təşkil edir, burada mərkəzi yer iki müstəqil zala ayrılmışdır. Bəzi binalarda planlaşdırmanın ayrı-ayrı kompozisiya hissələrinin traktovkasında eyniyyət gözə çarpır. Məsələn, Qorçakovskaya, 4 və Persidskaya, 6 ünvanda böyük, zəngin bəzək vurulmuş zalların qarşısında lociya fəzası açılır, yalnız bu fərqlə ki, Persidskaya, 6 ünvandakı evdə lociya açıqdır, halbuki Qorçakovskaya, 4 ünvandakı

*Bakı. H.Z.Tağıyevin Qorçakovskaya (Malıgin) küçəsi, 4 ünvandakı sarayı. Hazırda Azərbaycan Tarix Muzeyi. Ön fasad. Kəsim. (Çertyoj - Ş.S.Fatullayev). 2-ci mərtəbənin planı. Mülki mühəndis İ.V.Qoslavski. 1893-1902-ci illər.*






evdə onlar şüşələnib və onun demək olar bütün uzununa balkonla tamamlanmışdır. Fasadlarının təmkinli görümü və bitkin orderi ilə bu sonuncu binaların birinci və ikinci mərtəbələri gizlərlənmiş divarlara, ikinci mərtəbə pəncərələrinin zəngin işləməli kənarlığına və şüşəbənd tipli balkona malikdir. Qorçakovskaya, 4 ünvandakı evdə sahəsi 180 kvadrat metrə yaxın olan zal (11x17,35 m ölçüdə) korpusun bütün dərinliyini tutur və ikitərəfli işıqlandırmaya malikdir. Hər iki zal müstəqil bitkin memarlıq kompozisiyası kimi, biri - klassik formaların, digəri - şərq motivlərinin tətbiqi ilə işlənmişdir.

Binanın ümumi dərinliyi 16-20 metr təşkil edir və Bakının yaşayış evləri tikintisində bənzəri yoxdur. Persidskaya, 6 ünvandakı evdə bir özəllik diqqəti çəkir: müstəqil həcmlərdə həll edilmiş





yaşayış və təmtəraqlı hissə həyətlə ayrılıb və dövrələmə açıq qalereya vasitəsilə əlaqə saxlanır, halbuki digər binalarda yaşayış və təmtəraqlı otaqlar bir bütöv kimi birləşdirilmişdir.

Sadovaya, 9 ünvandakı bina plan və memarlıq həllinin fərdiliyi ilə seçilir: yerləşgələrin anfiladaları pəncərəsi ön fasada baxan zallarla qurtarır. Dal pilləkənlər və ayaqyolu da daxil olmaqla, bütün yerləşgələrə gündüz işığı düşür.

Bu halda qonşu tikililərdən aralı olan sahə memara öz qurmasını bitkin və bütöv orqanizm kimi traktovka etməyə imkan vermişdir.

Şəhərsalma nöqteyi-nəzərindən Sadovaya, 9 ünvanda yerləşən, bu küçənin hündür işarətlərində qoyulmuş ev ən uğurlusu olmuşdur. Bu ev şəhər ərazisinin bitişik hissəsində sonrakı yenidən planlamada istinad yerinə çevrilmiş, onun həcmi və effektli yerdə qərar tutması bu sahədə uğurla həllini tapmış qurmaların əhatəsində onun kompozisiya vurğu mövqeyini təsbit etmişdir. Onun sakit üfqi hissələnməsi Sadıqov qardaşlarının Nikolayevskaya, 21 ünvanda yerləşən İctimai Məclis binasının vertikalları ilə yaxşı uyuşur.

Mühəndis fon der Nonnenin işinə söz ola bilməz, o, şəhərin baş planının işlənib hazırlanması ilə məşğul olmaqla, saraya uğurlu quruluş vermiş, onu qala hasarlarının ətrafından keçən gələcək magistralın tikililəri ilə həmahəng etmişdi. Bu qurmanın inşa edildiyi 1890-cı illərdə küçənin qırmızı xətti boyunca ərazilərdə tikililər yox idi və bu vəziyyət memara sərbəstlik verirdi.

Sadovaya küçəsi tərəfdən profillənmiş stilobatla bütün korpus boyunca iki mərtəbəyə hissələnmiş fasad dərin olmayan rizalitlərlə vurğulanan üç oxa malikdir. Mərkəzi ox buna üstəlik kiçik bir qübbə ilə vurğulanmışdır. Fasadın bütün kompozisiyası ionik orderin girişləri vurğulayan yüngül lociya-portikləri ilə aktiv şəkildə zənginləşdirilir. Bu üsul fasadın baxımlı kompozisiyasının yaradılmasına rəvac vermişdir.

Portiklərin sütunlarının yaxşı cizgilənmiş klassik formaları, rizalitlərin korinf orderi, pəncərə kənarlıqlarının nazik profilləri, birinci mərtəbənin mavi və ikinci mərtəbənin yüngül gizlərinin fonunda məlahətli plastika kompozisiya bitkinliyi və sarayın memarlığında təntənə, əzəmət yaradır.

Saray Bakı şəraitində bu kimi qurmalar üçün nadir keyfiyyətlərə - özəlliklə yan fasada bitişik sahənin 1930-cu illərdə aparılmış rekonstruksiyasından sonra fasadların gözəl baxımlılığına malikdir. Sarayın həcmi memar K.İ.Sençixin tərəfindən yeni salınmış küçə bağçasının kompozisiyasına daxil edilmiş, bunun sayəsində şəhər bütöv, məhdudiyyət baxımından həllini tapmış, heç olmasa kiçik bir ansambl əldə etmişdi.

Şəhərin mülki binaları arasında Sadıqov qardaşlarının Nikolayevskaya, 21 ünvanda yerləşən yaşayış evini (mülki mühəndis Q.M.Termikelov) qeyd etmək gərəkdir. Evin planlaşdırılmasında yerləşgələrin ikicərgəli tikilişini saxlamaqla və yaşayış, qismən də yardımçı qrup yerləşgələrin önündə ənənəvi şüşəbənddən imtina etməklə, interyerin təşkilinin yeni prinsipindən - daxili koridorun qurulmasından istifadə edilmişdir ki, bu da bütün yerləşgələri təcrid etməyə imkan vermişdir. Çoxlu sayda yaşayış və təmtəraqlı otaqların möhtəşəm bəzəyi, ayrı-ayrı detalların və kompozisiyanın qüsursuz cizgilənməsi bütövlükdə memarın böyük sənətkarlığından söz açır.

Evin həcm-fəza kompozisiyası hərəkəti bir növ Sadovaya küçəsindən Nikolayevskaya küçəsinə istiqamətləndirən bucaq qüllə həcmi ilə diqqəti çəkir.



*Bakı. H.Z.Tağıyevin Qorçakovskaya (Malıgin) küçəsi, 4 ünvandakı sarayı. Şərq zalının interyeri. H.Z.Tağıyevin albomundan fotoşəkil.*

Bakıda yaşayış binalarının tikintisində şəhərsalma baxımından ən maraqlı örnəklərdən biri Mirbabayevin «gəlirverən evi» (kirayə evi) (memar İ.Ştern, 1890-cı illər) ola bilər. Binanın üzü meydana (indiki Azneft meydanı) baxır və cənub-qərb istiqamətində sahil oxunu qapayırdı. Ev şəhərin planlaşdırma strukturunda çox məsul mövqe tuturdu. Mirbabayevin evi bütün perimetr boyunca yerləşgələrin ikicərgəli sırası ilə fərqlənir.

Bina komfortlu mənzilləri ilə zəngin «gəlirverən» evə parlaq misaldır. Burada, Sadıqov qardaşlarının yaşayış evindən fərqli olaraq, planlaşdırmada mənzillərin daxili koridor boyunca yerləşdirilməsi və həyət tərəfdən şüşəbənd qurulması üsulundan istifadə edilmişdir. Prinsipial baxımdan yeni, böyük perspektivə malik planlaşdırma sxemi Bakının mənzil tikintisində müsbət inkişaf tapmadı, baxmayaraq ki, bu üsulun ənənəvi (ikinci işıqla işıqlandırılan yerləşgələri ilə) planlaşdırma sxemi ilə müqayisədə yetərincə böyük üstünlükləri vardı.

Mariinskaya, 7, Krasnovodskaya 10, 22 ünvanlardakı yaşayış evlərinin bucaq hissələrinin həllini Mirbabayevin evinin mənzillərinin planlaşdırması ilə müqayisə etsək, sonuncunun plan kompozisiyasının daha məqsədəuyğun olduğunu qeyd etmək gərəkdir. Burada mənzilin bucaq hissəsinin işlənməsi daha düşünülmüş və inkişaf etmiş, yaşayış blokunun bütün







*Bakı. H.Z.Tağıyevin Qorçakovskaya (Malıgin) küçəsi, 4 ünvandakı sarayı. Kabinet.*

strukturu ilə sıx bağlı olan plana malikdir. Qoqol, 9 ünvandakı yaşayış evinin bucaq hissəsinin planlaşdırma kompozisiyası bir qədər Mirbabayevin evinin analoji hissəsini xatırladır, lakin yerləşgələrin digər qrupundan təcrid vəziyyətində qalaraq sonadək açılmır.

O zamankı Bakın şəraitində yaşayış evlərinin və mənzillərin ümumi planlaşdırması cənub evlərinin planlaşdırmasında yeni üsullardan istifadə imkanını təsdiq edən maraqlı və müstəsna hal olaraq qalır.

Binanın fasadı xüsusi vurğulanmış mərkəzi hissəsi və günbəzvari tamamlanan tərəşlı küncləri sayəsində arxitekturası fransız renessansı üslubunda verilmiş monumental yaşayış evi obrazı yaradırdı. Binanın iki yuxarı mərtəbəsinin mərkəzi hissəsində və əsas fasadın yan rizalitlərində yer almış korinf pilyastrları ilə düzəldilmiş kompozisiyanın order sistemi onun miqyaslılığını və həcm cəhətdən plastikliyini müəyyən edirdi. Klassik formalı nazık qurşaqlarla və üstü karnizlə tamamlanan, sandriklər və gizlənmiş divar kənarlıqları ilə işlənmiş order sisteminin fonu kimi çıxış edirdi.

Fasadların ətraflı tədqiqi, arxitektur kütlələrin proporsional hissələnməsi, yonulmamış daşların və klassikanın nəcib formalarına uygun daşdan yonulmuş ahəngdar dekorativ detalların aydın şəkildə çəkilməsi kapitalist Bakısının planlaşdırmasında və tikilişində bu monumental qurmanın yerini

*Ümumi görünüş. I-ci mərtəbənin planı. Mühəndis N.A. fon der Nonne. 1888-1895-ci illər.*




*Fasad fraqmenti. Şəkil - Ş.S.Fətullayev.*



və rolunu müəyyən etmişdir. Yaşayış evinin tikintisi zamanı iki mərtəbəlik korinf pilyastrlarının əvəzinə mərtəbə-mərtəbə quraşdırılması, ikinci mərtəbənin sandriklərinin rəsminin dəyişdirilməsi və digər xırda dəyişikliklər kimi layihədən kənarlaşmalar, bu binanın şəhərin strukturundakı bədii effektini heç də azaltmadı.

Azərbaycanın və qismən Zaqafqaziyanın xalq memarlığının xarakterik əlamətlərini özündə təcəssüm etdirən Bakı yaşayış evlərinin əsas (tipik) xüsusiyyətləri məhz bu şəkildə əks olunmuşdur. Qeyd etmək lazımdır ki, Bakının yaşayış və mülki tikililərinin inşasına memarlarla yanaşı Hacı Həcəfqulu Kərbəlayı oğlu Əliyev (H.Z. Tağıyev, Musa və Yusif Nağıyevlər, Dadaşovlar üçün demək olar ki, bütün yaşayış evlərini tikmişdir), İmran Qasımov kimi yüksək mədəni tikililərin müəllifi (Murtuza Muxtarov sarayı, Bakı Şəhər Dumasının binası, Torqovaya 81, Kaspiyskaya 25 küçələrində Muxtarov üçün gəlirverən evləri və bir çox digərlərini inşa edib) əmək sərf etmişlər.

* * *

Azərbaycanın daha kiçik şəhərlərində isə (Gəncə, Nuxa, Lənkəran, Şuşa, Quba) yaşayış evlərinin inşası Bakıya nisbətən, təbii ki, arxitektur forma müxtəlifliyinin bu cür geniş diapazonunda inkişaf etmirdi, çünki onların social-iqtisadi və təbii-iqlim şəraitləri eyni deyildi. Yaşayış evlərinin planlaşdırma strukturu onların həcm və ölçüsündən asılı olaraq dəyişirdi. Mənzillərdə, bir qayda olaraq, dörd otaq nəzərdə tutulurdu (memarlıq cəhətdən yerli ənənələrə uyğun işlənmiş, böyük sahəli təmtəraqlı zalın mərkəzi yer tutması Şuşanın yaşayış evləri üçün tipikdir). Tikinti sahələrinin kiçik ölçüdə olması səbəbindən Şuşa və Qubanın yaşayış binaları Gəncə, Şəki və Lənkəranda





*Bakı. Sadovaya (Çkalov) 9 ünvanda Deburun evi (indi R.Mustafayev adına İncəsənət Muzeyi).*



*Bakı. Sadovaya (Çkalov) 9 ünvanda Deburun evi. Zalların interyeri.*

malikanə tipli yaşayış binalarına nisbətən küçəyə daha çox açılırdılar.

XIX-cu əsrin ikinci yarısından başlayaraq Gəncənin iqtisadi yüksəlişi təbii ki, Azərbaycanın digər şəhərlərinin yaşayış binalarının arxitekturasından fərqli olaraq, yaşayış evlərinin daxili planlaşdırmasında və xarici görünüşündə dəyişikliklə müşayiət olunurdu.

XIX-cu əsrin sonlarına doğru şəhərin bir- və iki mərtəbəli yaşayış evlərinin planlaşdırma həlli şüşəbənd və ya açıq qalereya ilə birləşdirilmiş yaşayış otaqlarının iki cərgədə yerləşməsinə əsaslanırdı. Yerləşgələrin sayı, bir qayda olaraq, beşdən artıq deyildi. Yaşayış evlərinin daxili planlaşdırmasında bu variantlar müşahidə olunur: 1) pilləkən qəfəsindən bilavasitə yaşayış otağına açılan dəhlizsiz mənzillər (Kooperativnaya 113, Firdövsi 10, Sabir 9 küçələrindəki evlər), 2) dəhliz mənzilin mərkəzində yerləşir, şüşəbəndlə və ətraf yerləşgələrlə rahat əlaqəsi vardır (Vaqif 216 və sair küçələrdəki evlər). Hər iki variant üçün pilləkən qəfəsindən mənzilə açılan qapıların mənzilin perimetri üzrə yerləşən otaqlara yönəlməsi səciyyəvidir. Bəzi evlərin otaqlarında bizim zamanadək xalq məskənlərinə xas olan divar şkafları kimi elementlər mövcuddur.

Şəhər küçələrinin çoxu XIX əsrin sonlarına doğru hələ qırmızı xətlər bo-







yunca başdan-başa (inkişafda olan sənaye şəhərlərinin xarakterik tikilişi) tikilib başa çatmamış və arada ağac əkilmiş sahələr arasında addımbaşı qırılmalara rast gəlinirdi. Burada boş torpaqlar kifayət qədər idi və iqtisadi artım o dərəcədə coşqun xarakter daşımırdı ki, məhəllələrin başdan-başa tikilişinə rəvac vermiş olsun. Buradan da - yaşayış evlərinin küçələrin qırmızı xətləri boyunca və sahələrdə sərbəst yerləşməsi doğmuşdur.

Gəncənin yaşayış evləri əsasən həyətyanı sahəsi ilə tək evin parlaq ifadə olunan tipi ilə təmsil olunmuşdu və onun fəzasının təşkilində burada bol olan yaşıllıqdan və axar sudan fəal istifadə edilir. Bir-birini tamamlayan bu iki komponent yaşayış evlərinin mütləq və səciyyəvi özəlliyi idi, bu halda eksteryer və interyer vahid fəza kompozisiyası yaradırdı.

Şəhər yaşayış evlərinin memarlığına Avropa memarlıq motivlərinin təsiri hiss olunurdu. Evlərin görünüşündə vahid üslub yönümü müəyyən edilmişdir ki, buna divar materialı - divar hörgüsündə müxtəlif dekorativ rəsmlərin qurulmsında işlədilən kərpic imkan verirdi. Fasadların kompozisiya quruluşunun ümumi xarakteri son dərəcə özünəməxsusluqla traktovka olunan əsas və ikinci dərəcəli elementləri vurğulayan aydın və məntiqi strukturu ifadə edir. Kürsülük hissəsinin sadə profilli qurşaqla vurgulanan plastik fasadən fonunda, giriş mühüm kompozisiya elementi qismində çıxış edirdi.

Giriş kompozisiyası quruluşunun əsasını yarımsütunlar üzərində yerləşdirilən kronşteynli yarımdairəvi tağla vurğulanmış portal təşkil edirdi. Portal adətən frontonla tamamlanırdı (Vaqif, 216 ünvandakı ev). Bəzən portalın üstündən fasadın yuxarı hissəsinə narahat ritm qatan əlavə elementlər qoyulurdu (Əzizbəyov, 134 ünvandakı ev). Fasadın qurşaqlar və kronşteynlərlə tərtib edilmiş frizi bütün kompozisiyanı eynicinsli elementlə birləşdirərək portal frizinin davamı kimi çıxış edir. Fasadın plastik elementi olan kərpic tikintidə aparıcı yer tutmuş, bu xüsusilə də frizin və portalın həllində özünü göstərmişdir.

Fasadların işlənməsində quruluşun müəyyən bir qanunauyğunluğu: mərtəbə örtməsi səviyyəsində sadə cizgili aydın qurşaqla kürsülük, sonra plastik şəkildə işlənmiş pəncərələrin ritmi ilə divar səthi və relyefli sərvitacı olan friz izlənir. Demək olar ki, bütün yaşayış evlərində fasadların səciyyəvi detallara malik portal tağının vahid rəsmi və frizin ümumi cizgisi ilə tamamlanan hissələnmə prinsipi təkrarlanır. Bu qaydanın bütöv bir sıra evlərdə belə bir inadla təkrarlanması şəhərin üslub baxımından vahid bir orqanizm kimi qavranılmasına imkan verir.

Əgər xalqın ev-mənzil ənənələrinin öz yaşarılığını qoruyub saxladığı və kənar təsirə bir o qədər məruz qalmadığı Nuxada kərpicdən divar və dekorativ material qismində istifadə bədii xarakter daşıyırdısa, Gəncədə bu kimi kompozisiyalar daha sərt və akademik xarakter almış, lakin eyni zamanda özünəməxsus koloritliliyini də saxlamışdır.

Aydın məsələdir ki, Gəncə quberniya mərkəzi olaraq, rus memarlıq məktəbinin, özəlliklə də Rusiyada artıq yox olub gedən Nikolay dönəmi klassisizminin təsirinə məruz qalmışdır. Bu üslub istiqaməti onun çoxsaylı tərəfdarlarının - Peterburqdan gəlmə memarların yaradıcılığında öz əksini tapırdı. Məhz buna görə də, xalq memarlarının tikintidə iştirakı hansısa bir dərəcədə məhdud idi və onların Nuxanın yaşayış tikintisində rolu ilə heç bir halda müqayisə edilə bilməzdi.

Ancaq razılaşmaq lazımdır ki, Gəncənin yaşayış evlərinin dekoruna hər halda xalq memarlığı motivləri nüfuz edirdi. Fasadların həllində balkon, lociya və s. kimi fəza elementlərinin yer almadığı ayrı-ayrı evlərlə yanaşı, ümumilikdə Gəncənin memarlığında bu kimi funksional cəhətdən özünə haqq qazandıran elementlərdən istifadənin ümumi tendensiyası müşahidə olunurdu. Bəzən eyni evin müxtəlif fasadlarında həm balkon, həm lociyalar görmək olar (məsələn, Nizami, 4; K.Marks, 57 ünvanlardakı evlər).

Bu iki fəza elementi mənzilin planlaşdırması ilə bağlı deyildi və istirahət yeri olaraq yaşayış yerləşgələrindən üstdə yerləşdirilirdi. Onlar, mahiyyətcə, fasadın kompozisiyasını müəyyən edirdi. Çox vaxt şəbəkəli tağın altında yerləşən iki və ya üç ağac sütunlu balkon və ya lociyalar evin damüstü örtüyünün frontonuna uzlaşdırılırdı (Əzizbəyov, 174; Nizami, 64 ünvanlardakı evlər). Bu evlərdə kərpic divar öz yerini balkon və ya lociyalara verərək aparıcı əhəmiyyətini itirir. Burada artıq təmtəraqlı friz yoxdur, onu qurşaqlar və nisbətən yastı kronşteynlər əvəz etmişdir. Fasad dekorunda ya fəza elementləri, ya da yapma bəzəklərdən istifadə olunan yaşayiş evlərinin memarlığı şəhərin simasını müəyyən edirdi.

Nuxa yaşayış evlərinin onu XIX və XX əsrlərin qovşağında Azərbaycanın digər şəhərlərinin – Ordubad, Şuşa, Quba, Gəncənin yaşayış evlərindən fərqləndirən səciyyəvi özəlliklərini xarakterizə etməzdən öncə onun sonrakı təkamülünü aydın təsəvvür etməkdən ötrü XVIII əsrin sonları XIX əsrin əvvəllərini əhatə edən yaşayış evləri tikintisi üzərində dayanmaq gərəkdir.

O zamankı Nuxanın yaşayış evləri küçədən açınmsız barı və ya fasadla təcrid edilən və meyvə ağacları ilə əhatələnmiş həyətyanı sahəsi olan evlər idi. Həyətə baxan ön fasadlar cənuba və ya cənubşərqə yönəlmişdir. Yaşayış evlərinin planı bir dam altında eyvana və ya lociyaya birləşdirilmiş yerləşgələrin bir cərgədə sıralanması ilə xarakterizə olunurdu.

İkimərtəbəli tikililərdə birinci mərtəbənin planlaşdırması ikinci mərtəbədə bütünlüklə təkrarlanır. Mərtəbələr arasında əlaqə dirəkdə yerləşdirilmiş və tikilinin ümumi həcminə daxil edilmiş pilləkənlər vasitəsilə həyata keçirilir ki, bununla da kompozisiyanın məlum bütövlüyünə nail olunur. Birinci mərtəbədə mətbəx və təsərrüfat yerləşgələri, ikincidə isə - təmtəraqlı və yaşayış otaqları yerləşirdi. Nuxalıların məişətində meyvələrin qurudulması və saxlanması, həmçinin barama qurdlarının yetişdirilmə yeri olan çardaq xüsusi önəm kəsb edirdi.

XVII-XIX əsrlərdə Nuxa yaşayış evlərinin memarlıq görünüşü aktiv bədii mövqe tutur və olduqca ifadəlidir. Tikintinin utilitar təyinatı ilə bütün qurmanın kompozisiya sxemi arasında tam vəhdət bu evlərin fərqləndirici əlamətidir. Ağac detalların incə cizgiləri, kapitellər, oyma qapı tayları, yığma barmaqlıqlar – şəbəkə, tavan millərinə bəzəkvurma, buxarılar, rəflər və s. yaşayış evlərinin və bir sıra yerləşgələrin görünüşünə ifadəlilik bəxş edir.

Əsrlər boyunca xalq ustaları kompozisiya gözəlliyi və plan həllinin funksional baxımdan özünü doğrultması ilə fərqlənən yaşayış evi obrazı formalaşdırmışlar.

XIX əsrin əvvəllərində kənardan nüfuz edən təsirlər üzündən səciyyəvi lakonikliyi və ifadəliliyi ilə qədimdən bəri təşəkkül tapmış müəyyən bir yaşayış evi tipi tədricən öz görünüşünü dəyişir. Bu vaxtlar yaşayış evinin təkamülü binanın küçəyə münasibətdə qoyuluşunun tamamilə yeni həllini irəli sürür. Evlər öz ön fasadları ilə küçəyə baxır, keçmişin məişət şəraiti ilə bağlı qapalılıq və təcrid öz dayanıqlığını müəyyən dərəcədə itirir. Bina küçənin tərtibatında aktiv iştirak etməyə başlayır, məhəllənin əhəmiyyətli vahidindən birinə çevrilir. Yeni evlərin çoxu maqistrallar və gediş-gəlişli küçələr boyunca yerləşdirilirdi. Ucqarlarda şəhər malikanə tipli tikililəri qoruyub saxlayırdı.

Evlər nisbətən kiçik sahələrdə yerləşmişdi. Həyətin ön hissəyə və təsərrüfat qisminə ayrılması müşahidə olunmur, lakin hər halda ev sahiblərinin istirahəti üçün nəzərdə tutulan bağça saxlanırdı. Birinci mərtəbələrdə mağazalar yerləşirdi. Verandaya çıxışı olan təkmərtəbəli tikiliş binanın küçəyə baxan fasadı tərəfdə anbar və mağaza yerləşgələri qurmağa imkan vermirdi. Yaşayış evində müvafiq yerləşgələri olan mağazanın təşkil zərurəti evin daxili planlaşdırmasına yenidən baxmağı tələb edirdi.

Bu tələblə bağlı məsələnin ən optimal həlli yerləşgələrin ikitərəfli yerləşdirilməsi idi. Birinci mərtəbələrdə mağazaların, ikincidə isə təmtəraqlı və yaşayış otaqlarının yerləşdirilməsi Nuxanın şəhərtipli yaşayış evlərinin obrazını müəyyən etdi. Təkcərgəli tikilişdə boyuna istiqamətdə yerləşgələrin sayı çox olduqda tikilən ərazinin frontu genişlənmiş olurdu. İkicərgəli tikiliş şəhər həyatının yeni tələblərinin nəticəsi idi. Plan həllinin yığcamlığı, sahənin perimetr boyunca tikilişi az olduqda mağazanın birinci mərtəbədə, təmtəraqlı və yaşayış otaqlarının isə yuxarı mərtəbələrdə yerləşdirilməsi yaşayış evinin planlaşdırmasında səciyyəvi haldır.

Eyni zamanda qeyd etməmək olmaz ki, Nuxanın yaşayış evlərinin ikicərgəli tikilişi cənub rayonlarına xas olan eyvanlar, lociyalar və eləcə də müxtəlif şəkildə balkonlar, şüşəbəndlər və s. kimi elementlərdən istifadə etməklə tikilən xalq məskənlərinin planlaşdırma prinsiplərinə əsaslanırdı.

XIX əsrin son onilliyində, daha doğrusu 1880-ci illərdən başlayaraq Nuxada şəhər memarı vəzifəsində ardıcıl olaraq bir neçə memar və mülki mühəndis (A.Q.Verqiles, N.Marçenko və b.) çalışırdı. Şəhərin yerli hakimiyyət tərəfindən aparılan tənzimlənmə və rekonstruksiyası üzrə tədbirlərinə nəzarət edərkən və onları həyata keçirərkən şəhər memarları eyni zamanda Nuxada inşa olunan qurmaların layihəçisi kimi də çıxış edirdilər. Layihələr Gəncədə (Yelizavetpol) quberniya idarəsində təsdiq edilirdi. Layihələrin belə bir təsdiq qaydası və həyata keçirilməsinə şəhər memarı tərəfindən nəzarət şəhər üçün müəyyən əhəmiyyət kəsb edirdi. Şəhərdə yaşayış evləri tikintisinin nisbətən böyük həcm alması ilə bağlı olaraq qırmızı xətlərdən kənara çıxmamağa başlanıldı.

Nuxada ixtisaslı mütəxəssis-layihəçilərin olması, şübhəsiz, yaşayış evlərinin planlaşdırmasında və görünüşündə əksini tapmışdır. Onlarda yerli memarlığa meyl özünü hiss etdirirdi. Nuxanın şəhər yaşayış evlərini bir neçə tipə bölmək olar. Yerləşgələrin ikicərgəli düzülüşü şəraitində yaşayış evlərinin ən sadə tipi eyvanlı evlərdir, onlar əksər hallarda ön fasadları küçəyə baxan ikimərtəbəli qurmalardır. Üzü həyətə baxan fasad oyma ağac sütünların metrik cərgəsiylə açıq qalereya kimi həll olunmuşdur. Planlaşdırma sxemi yaşayış evlərinin XIX əsrin əvvəllərinə aid quruluş prinsipini qoruyub saxlamışdır, ancaq indi yerləşgələrin ikinci cərgəsi əlavə olunub ki, bu da evin planlaşdırma strukturuna məlum dərəcədə dəyişiklik gətirmiş oldu. Əgər birinci mərtəbədən mağaza kimi istifadə edilmirdisə, onda onu təsərrüfat yerləgəsi edirdilər; yaşayış otaqları, bir qayda olaraq, ikinci mərtəbədə yerləşirdi. Mərtəbələr arasında əlaqə qalereyada yerləşən və ya binanın ümumi həcmində yer alan bayır pilləkənlər vasitəsi ilə saxlanırdı. Memarlıq-fəza kompozisiyası bütünlüklə evin plan quruluşundan irəli gəlirdi.

Yaşayış evinin bu tipinin daha inkişaf etmiş formada digər variantı şüşəbəndli evlərdir. Yaşayış yerləşgələrinin yerləşməsi burada ikicərgəli idi. Üzü həyətə baxan və boyuna divar uzunundakı yerləşgələrin qarşısında geniş şüşə qalereya – şüşəbənd olurdu.

Qalereya – yaşayış evinin elementi olub, sırf funksional təyinata malik idi: yayda pəncərələr tam açılaraq eyvan kimi, qışda isə geniş ön otaq və ya ümumi otaq kimi istifadə olunurdu. Şüşəbənd ona bitişik yerləşgələrin yeganə işıqlanma mənbəyi idi. Eyni zamanda dördbucaqlılara bölünən şüşələnmiş böyük səth fasadın kompozisiyasında əhəmiyyətli rol oynayır: bəzi hallarda isə onun kompozisiya vurğusu kimi çıxış edirdi.

Nuxada şüşəbəndli evlərlə yanaşı evin planında pilləkənin mərkəzi-ox mövqeyində olduğu məskənlər də geniş yayılmışdı. Birinci mərtəbədə pilləkənə bitişən meydança yerləşgələrlə bilavasitə əlaqə yaradan dəhliz kimi traktovka olunur. Bu tip evlər adətən iki- və ya üçmərtəbəli olurdu.

Nuxanın şəraiti üçün bir az qeyri-adi olan başqa bir planlaşdırma növü eyvansız, şüşəbəndsiz və s. tikilmiş təkcərgəli evlər idi. Bu kimi evlərin pəncərələri küçəyə baxırdı, onların həyət fasadları tam açırımsız idi və sahə ilə heç bir əlaqəsi yox idi.

Nuxada gəlirverən evlər də vardı, onlar ya yeni tikilmişdi, ya da mövcud evlər sırasından buna uyğunlaşdırılan evlər idi.

Yerləşgələrin ikicərgəli yerləşdirilməsi ilə yaşayış evləri tiplərinin bu qədər müxtəlifliyinə baxmayaraq, açıq qalereyalı təkcərgəli tikililər sabitliyini qoruyub saxlayırdı.

Tiplərindən və növ fərqindən asılı olmayaraq, gözdən keçirilən dönəmdə Nuxanın əksər evləri üçün ətrafında digər yerləşgələrin qruplaşdığı 5x16 metr ölçüdə zalın mövcudluğu səciyyəvidir. Hər mərtəbədə yerləşgələrin sayı dördlə səkkiz arasında dəyişirdi. Mərtəbələr arasında əlaqə dəhlizin divarına birləşən və yaxud özünəməxsus vestibüldə yerləşən daxili taxta pilləkən vasitəsi ilə saxlanırdı.

Əksər yaşayış evlərinin planlaşdırmasında yerləşgələr bir-birindən ayrılmışdır. Əvvəllər Nuxa evlərinə məlum olmayan qonaq otağı, yataq otağı, kabinet kimi yerləşgələr geniş yayılmağa başladı.

Nuxa evlərinin memarlığında üzvi bütövlük var. Yeni şəraitdə evlərin həcm həlli eyvan, lociya və s. kimi ənənəvi elementlərin ortadan qaldırılması hesabına tədricən görkəmini dəyişməyə başladı. Bu proses öz çoxsaylı variantlarında ifadəli bir element olan şəbəkələrin evlərin kompozisiyasından çıxarılması ilə də müşayiət olunurdu. Bunun əvəzində evlər şüşələnmiş geniş qalereya – şüşəbənd əldə etmişdilər.

Fasadlarda binanın ox kompozisiyasını vurğulayan balkonlar göründü. Bəzi hallarda giriş nisbətən kiçik, yaxşı cizgili metal artırma şəklində tərtib edilirdi. Girişin qarşısında yer alan artırma və həmçinin, balkonların altında şəbəkəli metal kronşteynlər geniş yayılmasa da, bu element Nuxa şəhərinin yaşayış evlərinin görünüşündə müəyyən iz buraxmışdır.

Nuxada fasadların səthi Gəncə evlərindən fərqli olaraq daha plastikdir və kərpic ilə daha gözəl üzlənmişdir. Divarların işlənməsinin ən müxtəlif variantları hörgünün uyğun xarakteri ilə birlikdə müəyyən bir qavrayış bütövlüyü yaradır.

Simmetrik fasadların arxitekturası, bir qayda olaraq, yuxarıya doğru yüngülləşdirmə prinsipi üzrə - agır kürsülükdən və ya dekorativ elementlər və plastikadan məhrum, seyrək açırımları ilə birinci mərtəbədən balkon qismində mərkəzi kompozisiya vurğusu ilə üst mərtəbələr şəklində həll edilmişdir. Fasad dekorunun üzvi elementi olan karniz adətən olmurdu və xeyli irəli çıxarılmış ənənəvi günlüklə əvəz edilirdi.

Əksər evlərin interyerinin memarlığı nadir istisnalarla, erkən dövr zəngin Şəki məskəninin ənənəvi elementlərindən: ca-



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

muxudanlar (rəflər), şəkilli divar və tavanlar, buxarılardan məhrum idi. Hətta təmtəraqlı yerləşgələrdə qurşaqlar, qurşaqçalar və stalaktitlər, interyer kompozisiyasının mərkəzi elementi olan buxarı belə yox idi. Çox nadir hallarda interyerə kamin daxil olunurdusa, bu ocaq qalamaq məqsədilə deyil, yalnız dekor elementi kimi nəzərdə tutulurdu. İsitmə sistemi qismində çıxış edən kamin adi divar sobaları ilə əvəz edilir. Bütün bunlar sözügedən dövrdə yaşayış evlərinin interyerinin ameməarlığını dəyişmişdi.

Yeni şəraitdə evlərin inşasının müxtəlif növ memarlıq-planlaşdırma üsullarına baxmayaraq, Nuxanın yaşayış evi öz milli özəlliyini, ümumi ifadəliliyini və ənənəvi plastik cizgilərini qoruyub saxladı.

*Şuşa ş. Hacı Qulunun yaşayış evi. 2-ci mərtəbənin planı. 1856-cı il. Kəsim. Ön fasad. (Çertyoj-Ş.S.Fətullayev)*








Azərbaycanın şəhər tipli səciyyəvi yaşayış evlərinə malik digər şəhəri Şuşa idi. Şuşanın tipik yaşayış evlərinin planı müxtəlif: düzbucaqlı, kiril əlifbsındakı Г- və yaxud П- şəkilli konfiqurasiyaya malik idi. Yerləşgələr onların tərkibindən və sayından (3 və ya daha çox) asılı olaraq təkcərgəli və ya ikicərgəli olaraq yerləşdirilirdi.

Balkonlar və açıq qalereyalar evlərin planlaşdırmasının ayrılmaz hissəsinə çevrilmişdi. Əgər XIX əsrin birinci yarısınadək interyerdə mərkəzi yeri dekorativ baxımdan daha əsaslı işlənmiş geniş ölçülü təmtəraqlı zal tuturdusa, sonralar bu özəllik silinib getdi. Yaşayış evləri əsasən ikimərtəbəli, bəzən isə üçmərtəbəli tikilirdi. Birinci mərtəbələr xidməti yerləşgələr (mətbəx, anbar və s.) üçün ayrılırdı. Yaşayış evinin ön fasadının üzü magistrala baxdığı hallarda isə birinci mərtəbələri ticarət yerləşgələri tuturdu.

Bu evlərin fasadlarının arxitekturası üçün ümumi kompozisiyanı müəyyən edən plan həlli ilə məntiqi əlaqə səciyyəvidir. Küçəyə baxan fasadlar pəncərə açımları ilə kəsilmiş və vurğulu girişlə zənginləşdirilmiş hamar divar şəklində idi.

Kompozisiyalı tikililərin özünəməxsusluğu, lakoniklik və sadəlik, memarlıq detallarından xəsisliklə istifadə və təbii şəraitlə uzlaşan monumentallıq - şəhərin, və özəlliklə onun yaşayış evlərinin mərdanə memarlığının səciyyəvi cizgiləridir. Fasad kompozisiyasına fəza elementi - balkonun daxil edilməsi görünüşə müəyyən bir bədiilik verirdi, lakin həcmlərin və fasad divarları müstəvilərinin sərt sadəliyi arxitekturaya monumentallıq bəxş edirdi. Açımlı hamar divarlar, müstəsna gözəlliyi olan hörgü və divar materialı olan daşın bədii dəyəri yaşayış məskəninin elə bir simasını yaratmağa imkan verirdi ki, öz emosional təsir gücünə görə Nuxa evlərindən heç də geri qalmır, bəzən hətta onları üstələyirdi.

XIX əsrin sonlarında yaşayış evlərinin plan həllinə həyət fasadları kompozisiyasında açıq qalereya ilə uyğunlaşan şüşəbənd daxil olur. Adətən şüşəbənd sonuncu, yəni ikinci və ya üçüncü mərtəbəni tuturdu. Tədricən bu, funksional baxımdan özünü doğruldan element açıq qalereyanı sıxışdırmağa başladı.

Eyni vaxtlarda Şuşada təmtəraqlı salonu, fərdi planlaşdırma strukturu olan, fasadları ənənəvi üsullarla həll edilmiş, lakin fasadda ifadəsini tapan və daha plastik olan yeni mütərəqqi həll variantlarının da nəzərə alındığı saray tipli evlər göründü.

Hacı Qulunun evi kimi tanınan məşhur ev bu tipə aiddir. Əvvəlcə ikimərtəbəli ev kimi nəzərdə tutulan və o qədər də ifadəli olmayan layihə bu səbəbdən sifarişçi tərəfindən qəbul edilməmişdi. Bu dəfə artıq üçmərtəbəli olmasının nəzərdə tutulduğu yeni layihə Şamaxı quberniyasının (Şuşa bir qəza şəhəri kimi onun tərkibində idi) quberniya memarı Qasım bəy Hacıbababəyovun iştirakı ilə hazırlanmışdı. Layihə 1856-cı ildə Hacıbababəyov tərəfindən təsdiq edilmişdir.

Hacı Qulunun sıx yaşıllıqla əhatə olunmuş evi Şuşanın şimal-şərq hissəsində yerləşirdi və keçmişdə malikanə tipli tikili olmuşdu. Əgər şəhərsalma nöqteyinəzərindən bu ev memarlıq dominantı kimi fərqlənməsə də, onun kifayət qədər böyük həcmli kompozisiyası şəhərin bu hissəsinin memarlıq mühitinin yaranmasında fəal iştirak edirdi.

Hacı Qulunun evi yerləşgələrin ikicərgəli sisteminə malik inkişaf etmiş evlər tipinə aiddir. Bina planının eninə və uzununa oxlarının kəsişməsində birinci mərtəbəni (təsərrüfat mərtəbəsi) ikinci ilə birləşdirən simmetrik şəkildə iki daxili təkmarşlı xidməti pilləkən yerləşdirilmişdir. Daxili təkmarşlı pilləkənin köndələn oxa nisbətən simmetrik şəkildə

qoyuluşu tək Şuşa evlərinin planlaşdırması üçün deyil, bütün Azərbaycan üçün çox orijinal haldır. İkinci mərtəbədə yemək otağı və bir sıra yaşayış otaqları yerləşirdi. Sırf təmtəqlı təyinatlı üçüncü mərtəbə isə açırımın bütün enini tutan böyük qəbul zalından (7,5x16) və onu perimetr boyunca əhatə edən otaqlardan ibarət idi. Zalın şimal divarı şəbəkə ilə tamamlanmışdır. Bu, təmtəraqlı otağın divarlarının rəngli şüşələr geydirilmiş incə ağac vitrajla işlənməsinin ənənəvi üsuludur. Belə bir həll sayəsində interyerin xüsusi bədii aləmi yaranır. Binanın şimal-qərb hissəsində mərtəbələrdə əsas yerləşgələrlə yanaşı texniki qruplar (mətbəx, tualet otaqları və s.) yer almışdır. Bu da Şuşa yaşayış evlərinin planlaşdırma strukturunda yeni bir hal idi.

Həyət tərəfdən hər üç mərtəbədə binanın ümumi həcminin yanlarından plastikcəsinə həllini tapan açıq pilləkənlərlə birləşdirilən eyvanlar qurulmuşdur, baxmayaraq ki, həm texniki qrup, həm də yaşayış və təmtəraqlı otaqlar bir bütövlük təşkil edirdilər. Zal və təmtəraqlı yerləşgələr milli memarlıq üsullarından, divar rəsmlərindən və dekorativ-tətbiqi sənətdən istifadə edilməklə bəzədilmişdir.

Binanin ümumi kompozisiyası - artan üfüqi hissələnmələrlə həll edilən ön şimal fasadı ilə monumentaldır. Əsas kompozisiya vurğularının uğurla yerləşdirilməsi və onların qarşılıqlı tənasübü saray tipli yaşayış evi memarlığının güclü tərəflərindən birini təşkil edir.

Xülasə olaraq qeyd etmək lazımdır ki, yerli memarlıq və tikinti ənənələrindən asılı olaraq, yaşayış evinin bədii-kompozisiya strukturu da həllini tapır, tikintinin regional özəllikləri səbəbincə fərdi ifadəsinə qovuşurdu. Kapitalizm çağının memarlığı həm planlaşdırma həllində, həm də kompozisiyada çoxlu maraqlı izlər buraxmışdır və onun öyrənilməsi əvvəlki çağların memarlıq tarixinin öyrənilməsi qədər vacibdir.



# II FƏSİL.

# İCTİMAİ BİNALAR

Rusiyada XIX - XX əsrin əvvəllərində mövcud olmuş ictimai bina tipləri (teatrlar, birjalar, xəstəxanalar, banklar) ilə yanaşı, öz iri həcmi və ifadəli memarlığı ilə o çağın şəhər tikilişinin xarakterinə təsir göstərən duma, zemstvo, passaj, muzey və s. kimi tamamilə yeni binalar inşa edilmişdir.

Rusiya İmperiyasının tərkibinə daxil olan Azərbaycan üçün ilk vaxtlarda inzibati-ictimai binaların inşası problemi yaranmırdı, çünki Zaqafqaziyanın hərbi administrasiyası bu məqsədlər üçün xan sarayları komplekslərini (Bakıda, Gəncədə, Nuxada, Qubada) də daxil olmaqla, mövcud binaları uyğunlaşdırırdı. Təbii ki, Azərbaycanın Rusiyaya birləşməsindən sonra yeni sosial-iqtisadi inkişaf şəraiti arxitekturası və funksional təyinatı üzrə tamamilə yeni tipli binaların inşa edilməsinə rəvac verdi. Onların formalaşması kapitalizmin inkişaf prosesi ilə şərtlənirdi və yeni tipli binalar yalnız XIX-XX əsrlərin qovşağında bitkin memarlıq-planlaşdırma ifadəsi aldı.

XIX əsrin sonlarınadək Azərbaycanda inzibati-ictimai binaların hətta məhdud sayda inşası özəl kapitalın bu məqsədlər üçün hələ hazır olmaması səbəbindən dövlətin əlində cəmlənmişdi.

İlk bu tip tikililərdən biri Bakı limanının gömrükxana binası olmalı idi, lakin layihə iqtisadi mülahizələr üzündən reallaşmadı. 1829-cu ildə Bayıl ərazisində, qaladan 450 m qərbə doğru gömrükxana binası inşa etmək qərarı qəbul olunmuşdu. Bu məqsədlə "yağış sularının ən rahat axımı üçün, tikilinin hər iki tərəfində boşaldılmış yüklərin asan yerləşdirilməsi üçün yeri planlaşdırmaq və sahili genişləndirmək..." gərək idi. Binanın təmtəparqlı pilləkənlərlə enişi olan geniş meydançada tikilməsi təklif edilirdi. Səciyyəvi olaraq, gömrükxana binası həytinin bütün perimetri boyunca açıq qalereya-lociya qurulması düşünülmüşdü.

Əgər gömrükana layihələrinin 12 aprel 1829-cu il tarixli birincisində tağların və sütunların ritmi və proporsiyaları klassik ciddiyyəti qoruyub saxlayırdısa, ikinci variantda birinci mərtəbənin tağları genişləndirilmiş, ikinci mərtəbənin dorik sütunları isə düzbucaqlı dirəklərə çevrilmişdir. Fasadlar daha sərt görkəm almışlar. Qənaət mülahizəsi ilə, xanlıq dönəmindən qalmış tikilidə yeni funksional təyinat üçün lazımi rekonstruksiya işləri aparıldıqdan sonra onu liman gömrükxana binasına uyğunlaşdırdılar.

Yelizavetpol şəhəri (Gəncə) üşün (1838-ci il), eləcə də Qori, Düşeti, Telavi və Siqnax üçün qəza xəzinədarlığı binaları mahiyyətcə birtipli layihə olub rus klassisizminin ən yaxşı ənənələri: məhdud tərkibdə yerləşgələrə malik aydın plan və dorik order portikinin az çıxıntılı tinləməsi ilə ifadəli fasadı əks etdirirdi. Bu üslubda, lakin digər variantda daha öncə, 1832-ci ildə Şamaxı şəhəri üçün xəzinədarlıq layihəsi hazırlanmışdır.

XIX əsrin ikinci yarısında Rusiyada kapitalizmin inkişafı "ucqarların, o cümlədən Azərbaycanın iqtisadiyyatını





*Bakı. Liman gömrükxana binasının layihəsi. Plan. Fasad. 1830-cu il.*





*Eynitipli xəzinədarlıq binasının layihəsi. Plan, fasad. 1838-ci il.*

bütün müsbət və mənfi tərəfləri ilə istər-istəməz ümumrusiya təsərrüfat-iqtisadi inkişaf məcrasına cəlb edirdi" [262, 13]. Bu hal müxtəlif təyinatlı ictimai qurmalara da toxunurdu.

Azərbaycanda XIX əsrin ikinci yarısında inzibati-ictimai xarakterli ilk bina örnəklərindən biri Yelizavetpol şəhəri üçün xəzinədarlıq binası layihəsi idi (memar İ.İ.Krjiştaloviç, 1875-ci il). Nümunəvi layihə ilə müqayisədə (1838-ci il) burada əməliyyat yerləşgələrinin sayı artmış, fasadın memarlığında isə o zamankı Rusiya ictimai qurmalarının memarlığında yer alan tendensiyalar əks olunmuşdu.

Bakının Kordonnı post (memar M.Q.İsmayılov, 1884-cü il), Qara Şəhərdə "Nobel qardaşları" cəmiyyətinin mərkəzi kontoru (memar A.Koşinski, 1884-1899-cu illər), Persidskaya küçəsində Rotşildin kontoru (mülki mühəndis K.D.Skureviç, 1898-1899-cu illər), Bakı Quberniya İdarəsi (1915-ci il), Bakı Şəhər Duması (mülki mühəndis İ.V.Qoslavski, 1900-1904-cü illər) kimi bir sıra bu tipli binalar üçün aydın plan və fasadın order həlli səciyyəvidir. Təkcə Rotşildin kontor binası üslub baxımından roman-qotik memarlığına yaxındır.

Dumanın geniş vestibüllərə, enli dəhlizlərə, təmtəraqlı mərmər pilləkənlərə, incə işlənmiş interyerə malik üçmərtəbəli binası əlahiddə bir əzəmətlə ucalır (280, 59). İkinci mərtəbədə təmtəraqlı yerləşgələr və iclas zalları yerləşmişdir. Memarlardan Ballyu və Depert tərəfindən işlənib hazırlanmış məşhur "Otel de Ville"-nin planlaşdırma sxemi sonradan Avropa ölkələrində bələdiyyə idarələrinin inşasına (268, h.2, c.57), o cümlədən, Bakı Şəhər Dumasının memarlıq-planlaşdırma kompozisiyasına xeyli təsir göstərmişdir.

Mülki mühəndis İ.V.Qoslavski (1865-1904) İtaliya renessansına bağlılığına baxmayaraq, barokko memarlığı motivlərindən, lakin orijinal interpretasiyada faydalanmışdı [460, s.225]. Klassik kompozisiya sxeminə ciddi riayət etməklə, memar duma binasını simmetrik şəkildə planlaşdırmışdır. Obyektin əsas oxunu qüllə ilə vurğulayaraq, memar onu binanın əsas həcminin üfüqi hissələrinə qarşı qoymuşdur. Qülləni əsas fasadın mərkəzində yerləşdirmək, onu binanın əsas həcmi ilə ayrılmaz surətdə birləşdirməklə, Qoslavski bütün kompozisiyaya o zamanlar mərkəzi şəhər magistralı olan Nikolayevskaya küçəsi üçün çatışmayan bədiilik bəxş etmişdir. Əsas hissələrin həm bütövlükdə, həm də ayrı-ayrı detallarda aydın çəkilmiş klassik mütənasibliyi, başlıca hissələnmələr, fasadların daş elementlərinin heykəltəraşlıq üslubunda işlənməsi şəhərin belə bir əzəmətli formada yerinə yetirilmiş yeganə sırf inzibati tikilisi olan duma binası üçün ifadəli fasadın yaradılmasına imkan vermişdi.

XIX-XX əsrlərin qovşağında şəhərlərin işgüzar kommersiya fəaliyyətinin cərəyan etdiyi mühüm binaları banklar idi. Bank binalarının inşası Qafqazın monopolist kapitalının mərkəzində - Bakıda nisbətən geniş yayılmışdı. Burada məxsusi olaraq bu növ tikililərin tamamilə yeni tipi olan Dövlət bankının ilk binası inşa edilir. Lakin eyni zamanda banklar yaşayış evlərində də yerləşirdi, misal üçün, Bakıda Merkuryevskaya (Şaumyan) küçəsi, 10-da (mülki mühəndis İ.V.Qoslavski, 1893-cü il), H.Z.Tağıyevin evində (mülki mühəndis İ.V.Qoslavski, 1893-1902-ci illər), Qorçakovskaya (Malıgin) küçəsi, 4-də, Zeytsin evində, Mariinskaya (Korqanov) küçəsi, 7-də bu belə idi.

Qəza şəhərlərində və quberniya mərkəzi Yelizavetpolda yaşayış evləri bank əmə-



*Yelizavetpol. Xəzinədarlıq binası. Memar İ.İ.Krjiştaloviç. 1875-ci il.*

liyyatları üçün uyğunlaşdırılırdı. Dövlət Bankının Merkuryevskaya və Krasnovodskaya küçələrinin kəsişməsində yerləşən Bakı şöbəsi 1897-1899-cu illərdə mülki mühəndis K.B.Skureviçin layihəsi əsasında inşa edilmişdir. Sonradan Baryatinskaya və Milyutinskaya küçələrinin kəsişməsində Tiflis Kommersiya Bankının (mülki mühəndislər A.N.Kalqin və Q.M.Termikelov, 1901-ci il), Peterburq Şimal Bankının şöbəsi (1903-1905-ci illər) tikilmişdir.

Monumental formaları və memarlıq kompozisiyanın təntənəliliyi ilə seçilən bankların işgüzar mərkəzin tin sahələrində yerləşdirilməsi şəhərin mərkəzi hissəsinin bədii görünüşünün formalaşmasına güclü təsir göstərmişdir. Məhəllələrin sətri tikilişində tin sahələri tutmaqla, banklar eyni zamanda şəhərsalma funksiyasını da yerinə yetirirdilər. Binaların kompozisiya siluetliliyi və tin sahələrinin vurğulu xarakteri məhz bu mülahizələrlə müəyyən edilirdi. Bakının bütün bank binalarında kompozisiya mərkəzini kassa və seyf yerləşgələrinə malik 8-10 metr hündürlüyündə əməliyyat zalı təşkil edirdi. İkinci mərtəbədə yerləşən əməliyyat zalı fasad üzərində iri pəncərə açırımları ilə aydın şəkildə ifadə olunmuşdur.

*Bakı. Nobel qardaşları şirkəti kontorunun layihəsi. Fasad, kəsim. Memar A.Koşinski. 1884-cü il.*









*Nikolayevskaya (indiki Kommunist) küç. 4-də Şəhər Dumasının binası.*




*3-cü mərtəbənin planı. İ.V.Qoslavski. 1900-1904-cü illər.*



*Bakı. Milyutinskaya küç. 6-da (Myasnikov) Tiflis Kommersiya Bankının binası. Plan, kəsim. Mülki mühəndislər A.N.Kalqin və Q.M.Termikelov, 1901-ci il.*

Bakıda Dövlət Bankının binası Teatr meydanı və Merkuryevskaya küçəsinin kəsişməsində, işgüzar mərkəzdən bir qədər kənarda yerləşir. Görünür, fəza kompozisiyasının həllində bu hal önəm kəsb edirmiş. Bina səlis ifadə edilməyən bucaqları olan üçmərtəbəli formasındadır. İki alt mərtəbə bank əməliyyatları üçün ayrılmış, üçüncü mərtəbədə isə işçilərin mənzilləri yerləşirdi. Fasadların memarlıq baxımından işlənməsində order sistemi elementlərindən və detallarından istifadə olunmuşdur. Dövlət sanballı qurma yaradılmasına yetərincə vəsait ayırmayaraq, sadə görünüşlü əsaslı tikili ilə məhdudlaşmışdır.

Tiflis və Şimal bankları o zamanda dəbdə olan modern stilində daha böyük zövq və miqyasla tikilmişdir. Yerli daşın cəlbedici fakturası sayəsində binalar özünəməxsusluğu ilə fərqlənirdi [288, s.33].

Tiflis bankında təmtəraqlı qrup yerləşgələrinə vestibül və onun interyerinə müvəffəqiyyətlə uzlaşdırılan yarımdairəvi planda təkmarşlı pilləkən də aid idi. Bu pilləkən müştəriləri bilavasitə əməliyyat zalına aparırdı. Baş pilləkənin məhdud ölçülü sahədə əsas həcmi və memarlıq kompozisiyası maraqlı düşünülmüş və həll edilmişdir.

Tin hissədə yerləşən zal planda bir çox bank binalarında olduğu kimi düzbucaqlı deyil, bir qədər mürəkkəbləşdirilmiş formaya malik idi. Tin hissə bina kompozisiyasının memarlıq və planlaşdırma mərkəzi kimi çıxış edirdi. Olduqca plastik şəkildə həll edilən bina öz dərin tağlarıörtmələri və incə daş naxışları ilə memarlıq kütləsinin dəqiq nisbətilə vurğulanaraq müəlliflərinin ixtiraçılıq qabiliyyətindən və sənətkarlığından xəbər verirdi.

Balkon kronşteyninin, frizin, tağların timpanlarının və digər elementlərin modernist cizgiləri Şirvan-Abşeron məktəbinin daş oymaçılığının ən yaxşı ənənələrinə uyğun icra edilmişdir. Təbii materialın faktura keyfiyyətinin, memarlıq forma və elementlərinin incəliklə dərk edilməsi sayəsində qurmanın plastikliyinə və effektli həcmliliyinə nail olunmuşdur.

*Tiflis Bankının binası. Ümumi görünüş.*









*Bakı. Şimal Bankının binası. Ümumi görünüş.*









*Bakı. Şimal Bankının binası. Qorçakovskaya (Malıgin) küç. 3. Mərtəbələrin planı və kəsim. 1903-1905-ci illər.*

Şimal Bankı Tiflis bankının yaxınlığında yerləşsə də, onun həcm kompozisiyasının xarakteri və memarlıq traktovkası Tifis Bankından tamam fərqlənir: burada, əməliyyat zalının ətrafında iki mərtəbədə xidməti yerləşgələr qruplaşdırılmışdır. Mərkəzi pilləkən yerli xarakter daşıyırdı; fasadlar modern üslubda həll edilmişdir. Memarlıq kompozisiyası Tiflis Bankından fərqli olaraq, bir o qədər də mənzərəli deyildir, lakin memarın tək binanın riflənmiş qübbə ilə başa çatan tinini deyil, həm də onda pəncərələrin iri formalarında, kürəkilərin sıx, bir-birinə yaxın ritmlərində və detalların incə cizgilərində aydın təzahür edən əməliyyat zalının uğurla həll etdiyini də gözardı etmək olmaz. Suvaqdan daha nəcib olan təbii daşdan mürəkkəb modernist detalların işlənməsi qurmanın bədii tərəflərinin açılmasında onun estetik imkanlarını artırır.

Yelizavetpolda İ.İ.Pitoyevin bankir evinin binası (1890-cı il) - memarlığın sərbəst ifadə örnəyidir. Bu üçmərtəbəli qurmanın açıq qalereyası, fasad üzərində ağacdan bol naxışlar, ikiköbərli damüstü örtüyü bankir binasından daha çox yaşayış evinin siması üçün səciyyəvidir.

Bakıda Qarşılıqlı Kredit Cəmiyyətinin binası mühəndis polkovnik N.A. fon der Nonnenin layihəsi əsasında bir qədər əvvəl inşa edilmişdir. Planın aydın klassik sxemi Toskananın erkən renessans formalarında həll edilmiş ön fasadın simmetrik traktovkasını müəyyən edirdi, çünki o vaxtlar stilizatorçuluq və eklektika geniş yayılmışdı. Fərqli tarixi üslublarda layihələndirilən binalar şəhərin özünəməxsus simasını yaradırdı.

Qanlıtəpə səmtdə yerləşən Bakı yanğından mühafizə deposunun binası (mülki mühəndis İ.K.Ploşko, 1900-cü illər) spesifik xarakter daşıyırdı. Bakı üçün əgər banklar yeni tip qurma idisə, yanğından mühafizə depoları kimi binalar əvvəllər şəhərin sənaye zonasında tikilirdi [459, s.464].

İnzibati təyinatlı böyük aşırımlı zallar üçün geniş tətbiq edilən daş konstruksiyalarla yanaşı, metal və dəmir-beton konstruksiyalardan da istifadə olunurdu. Bu da əməliyyat zallarının daxili fəzasının yeni tərzdə həll edilməsinə imkan verirdi.

Dövlət və özəl sektor tərəfindən Bakıda inzibati-ictimai təyinatlı iri obyektlərin inşası Leninin belə bir fikrini təsdiq edirdi ki, "ticarətin, fabriklərin, şəhərlərin, dəmir yollarının böyüməsi nə memarlığına, nə ölçülərinə görə patriarxal çağın köhnə binalarına bənzəyən tamamilə yeni qurmalara tələb doğururdu" [3, s. 530].

**Ticarət binaları.** Sovet hakimiyyəti qurulana qədər Azərbaycanın bir çox şəhərləri sənətkarlıq və ticarət mərkəzləri idi. Bu vəziyyət bazarların, ticarət sıralarının, xırda dükanların və karvansaraların tikilməsinə rəvac verirdi. XIX əsrin sonlarına doğru Bakıda bu qurmalara universal mağazalar şəklində ticarət passajları əlavə olundu. XIX əsrdə yaşayış evləri istisna olmaqla, binaların ən xarakterik tipi məhz ticarət qurmaları idi, üstəlik də onlar çox vaxt dükan və emalatxananı özündə birləşdirən ikili funksiya daşıyırdılar.

Ətrafdakı Avropasayağı tikilişlərin təsirinə baxmayaraq, memarlar hamam və məscid binalarında dayanıqlı regional memarlıq-planlaşdırma üsullarından istifadə edirdilər. Ticarət qurmalarının inşası zamanı kapitalizm çağının memarlığı üçün səciyyəvi olan yeni konsruktiv və dekorativ elementlərdən istifadə olunmağa başlanmışdır. Bununla belə planlaşdırma baxımından onlar ənənəvi, ancaq modernləşdirilmiş kompozisiyalarını qoruyub saxlayırdılar.

Yerli iqtisadi və sosial şərait, eləcə də yeni memarlıq-planlaşdırma üsulları orijinal ticarət qurmalarının yaranmasına rəvac verirdi.

1832-ci ildə tanınmış Şamaxı memarı Kərbəlayı Əli Rəcəb oğlu tərəfindən tərtib edilən, lakin gerçəkləşməmiş qalan layihə rus klassisizmi formalarında ikimərtəbəli ticarət binasının həllinin maraqlı örnəklərindən biridir. Bu, yerli memarın rus klassisizminin memarlıq formalarına müraciətinə ilk misaldır. Birinci mərtəbəsinin hissələnməsi və tağlarının yarımdairəvi forması ilə uzunsov ticarət qalereyası öz həllinə görə çox maraqlı bir kompozisiya təşkil edir. Bu tərzdə memarlıq sonralar XIX əsrin ikinci yarısında karvansara həyətlərinin (Şuşa, Nuxa, Bakı) və yaşayış evlərinin quruluşunda tez-tez təkrarlanırdı.




*2-ci mərtəbənin planı və sahənin baş planı. Mühəndis N.A. fon der Nonne. 1883-cü il. Kəsimlər, fasadlar.*





*Bakı. Qarşılıqlı Kredit Cəmiyyətinin Petrovskaya sahil küç-dəki (Neftçilər pr. ilə S.Vurğun küç. tini) binasının layihəsi.*





*Bakı. Torqovaya (Nizami) küç. 115-də Rus Texniki Cəmiyyəti binasının layihəsi. Ümumi görünüş, sahənin baş planı və plan. Mülki mühəndis İ.V.Qoslavski. 1898-ci il.*

Bakının çoxsaylı boş məhəllələri şəhər mərkəzindən aralı olsalar da, əsas ticarət qovşaqlarını Quba meydanı, Bazarnaya küçəsi və Balaxanskaya küçəsi (Füzuli meydanı, H.Hacıyev və Basin küçələri) vasitəsilə vağzal rayonu ilə birləşdirən nəqliyyat maqistralları üstündə yerləşdiklərindən ticarət tikilişləri üçün münasib yerə çevrilirdilər.

Ticarət qurmalarının inşasında təcrübə toplanılması prosesində onların bir neçə tipi formalaşdı: 1) bir neçə küçəyə açılan iri birmərtəbəli ticarət qalereyaları; 2) tikililərin daha çox yayılmış - məhəllənin başdan-başa tikilişini əmələ gətirən bir neçə özək-dükanlardan ibarət tipi; 3) nisbətən kiçik ikimərtəbəli dükanlar.

Birinci tipə misal olaraq Bakıda məhəllənin perimetri üzrə inşa edilən tikili layihələrini (memarlar M.Q.İsmayılov, 1893-cı il; E.Y.Skibinski, 1896) göstərmək olar. Məhəllə ümumi dəhlizlə birləşən bir sıra dükan-özəklərə bölünürdü. Vahid konstruktiv sistem binanı böyük mağazaya çevirməyə imkan verirdi. Özək-dükanların memarlıq-konstruktiv sxemi xaçşəkilli kəsişmədə dayaq diräklərlə, yarımqövs tağlarla və çarpaz tağbəndlə müəyyən olunurdu.

Daş qurmalar parlaq ifadə edilmiş, lakin başqa bədii ifadə vasitələri tələb etməyən tektonik məzmunu ilə fərqlənirdi.

Ticarət qurmalarının ikinci tipi məhəllənin yığcam tikiliş strukturu ilə seçilir və yarımqövs tağbəndlə örtülmüş dükanların təkcərgəli yerləşməsinə malik idi (memar M.Q.İsmayılov, 1884-1885-ci illər).

Üçüncü tip – ikimərtəbəli təkcərgəli və ya antresollu, daxildən dolama və ya təkmarşlı pilləkənli və taxta tirlər üzərindən yastı örtüklü qurmalar (memarlar M.Q.İsmayılov, 1884-cü il, E.Y.Skibinski, 1892-ci il, A.Y.Skibinski, 1893-cü il, A.V.Eyxler, 1902-ci il, K.B.Skureviç, 1899-cu il) idi.



*Şamaxı. Ticarət binası layihəsi. Fasad. Memar Kərbəlayı Əli Rəcəb oğlu. 1830-cu il.*



*Ticarət binası layihəsi. 1-ci mərtəbənin planı. Kasım. 1890-cı il.*



*Bakı. Birmərtəbəli ticarət binasının layihəsi. Memar M.M.K.İsmayılov.*

Ticarət yerləşgələri çox vaxt fasadların kompozisiya həllinə təsir edərək, yaşayış və ictimai binaların birinci mərtəbəsinə daxil edilirdi. Ticarət təyinatlı hər növ qurmanın memarlığı üçün vitrinlərin geniş açırımları, divarların dərindən gizlənməsi, profillərin inkişaf etmiş klassik hissələnməsi və detalların yaxşı cizgilənməsi xarakterikdir.

Bakıda qala divarlarının yanında - Nikolayevskaya küçəsində ticarət cərgələri və bazar layihəsi üzrə təkliflər özlüyündə böyük maraq doğurur. Birinci təklifdə mağazalar, sənətkarlıq emalatxanaları və onların daxilində yaşayış otaqları nəzərdə tutulur, lakin bu çox geniş sahədən səmərəli istifadə olunmurdu. Deməк olar parallel dükanların ensiz həyətə malik iki cərgəsi nə sahənin planlaşdırma strukturunu, nə də onun mərkəzi şəhər magistralının inkişafı ilə əlaqəsini həll edirdi.

İkinci layihə təklifi sahənin planlaşdırma imkanlarının daha yaxşı nəzərə alınması ilə tərtib edilmişdi. Dükanların çox hissəsini magistal boyu, qalanlarını isə qala divarlarına parallel şəkildə yerləşdirmək nəzərdə tutulurdu. Bu planlaşdırma kompozisiyası su quyuları olan geniş daxili həyət təsbit edirdi. Dükanların ciddi şəkildə hissələnməsi, antresollu yarımdairəvi tağlar memarlıq planının xarakterini müəyyən edirdi.



*İçərişəhərdə ticarət binasının layihəsi. Mülki mühəndis K.B.Skureviç. 1896-cı il.*

Elə bu sahədə şəhər memarı İ.V.Qoslavski 1898-ci ildə bazar layihələşdirmişdi. Onun qarşısına qoyulan məsələnin sadəliyinə baxmayaraq, ifadəli və plastik qurma layihəsi hazırlamışdı. Lakin bazarın funksional təyinatına uyğun olaraq, onun həlli özək-dükanlardan irəli gəlirdi və ticarət əməliyyatları üçün geniş sahədən istifadənin daha proqressiv prinsiplərini deyil, köhnəlmiş tendensiyaları əks etdirirdi.







*Bakı. Mağazaların ikimərtəbəli binasının layihəsi. Fasad, kəsim, baş plan. Memar A.B.Eyxler. 1902-ci il.*

Demək olar elə bu vaxtlar Bakıda Kələntərovun (memar N.P.Tverdoxlebov, 1880-ci illər), Lalayevin (memarlar N.P.Tverdoxlebov, 1883-cü il, E.Y.Skibinski, 1896-cı il), H.Z.Tağıyevin (mülki mühəndis K.B.Skureviç, 1896-1897-ci illər) passajları tikilmişdir. Passajlar küçə fəzasının təşkilinin yeni forması oldular. Qalereya-passajlar ilk əvvəl İtaliyada yaranmış, sonradan isə Qərbi Avropa və Rusiya şəhərlərində geniş yayılmışlar.

Moskva şəhərində 1889-1893-cü illərdə memar A.N.Pomerantsevin layihəsi əsasında inşa edilmiş Yuxarı Ticarət Cərgələri binası (indiki QUM) öz zəmanəsi üçün Rusiyanın ən məşhur və mükəmməl passajı idi.



*Olqinskaya (Caparidze) küç. 6-da Lalayev passajının layihəsi. Plan. 1883-cü il. Mülki mühəndis N.P.Tverdoxlebov.*

Lalayev və Tağıyev passajlarının inşasında qurmaların Avropa təcrübəsindən götürülmüş planlaşdırma üsullarından istifadə olunmuşdur. Bu passajlarda ticarət cərgələrinin örtülməsində yerli



*Bakı. Nikolayevskaya (Kommunist) küç-də şəhər bazarının layihəsi. Ön fasad. 1898-ci il. Mülki mühəndis İ.V.Qoslavski.*

daş və dəmir-beton konstruksiyalarla yanaşı mühəndis V.Q.Şuxovun metal konstruksiyalar sistemindən istifadə edilmişdir ki, bu da XIX-XX əsrlərin qovşağında tikinti sahəsində mühüm nailiyyət sayılırdı. Bu, şəhərin ictimai qurmalarında bu kimi sistemdən geniş istifadəyə imkan yaratdı.

**Karvansaralar.** XIX əsrin ikinci yarısında ticarət təyinatlı binalar üçün feodalizm çağı ənənələrini davam etdirən karvansaralar səciyyəvi oldu. Eyni zamanda, onların fəza həllində və memarlıq görünüşündə peşəkar memarların iştirakı ilə tikilən ictimai qurmaların inşasındakı yeni prinsiplərin təsiri özünü göstərirdi.



*Nuxa. Yuxarı Karvansara. 1-ci mərtəbənin planı. XIX əsr.*

Karvansaralar Azərbaycanın bütün şəhərlərində və iri yaşayış məskənlərində tikilirdi. Planlaşdırmasına görə ən iri və klassik olan Nuxanın Aşağı və Yuxarı karvansaraları [269, s. 367] idi. Ölçülərinə və planlaşdırma həllinin xarakterinə görə bu karvansaralar Səfəvilər çağında tikilən məşhur İsfahan karvansaralarından (511) geri qalmırdı. Üst mərtəbəsində yerləşən yaşayış otaqları ilə bilavasitə əlaqəsi olan dükanların üzü küçəyə baxırdı. Həyətlər ikimərtəbəli tağlı qalereya ilə əhatə olunmuşdur. Bakı karvansarası (indiki "Araz" kinoteatrı, memar Q.b. Hacıbababəyov, 1870-ci il) eynilə belə bir prinsip əsasında həll edilmişdir.

Bakı karvansaraları Nuxadakılardan tək ölçüləri ilə deyil, həm də memarlıq keyfiyyətinə görə açıq-aydın geri qalırdı: onların fasadları kompozisiyanın dağınıqlığı, detalların xırdalanması ilə seçilirdi. Bakıda XIX əsrin sonunda dənizkənarı küçədə (Neftçilər pr., 89, 91) tikilən karvansaralar qüsurlardan xali deyildilər, ancaq hər halda onların həyət fəzalarının quruluşunda Abşeron memarlığının ən yaxşı ənənələrindən istifadə olunmuşdur.

Bu karvansaraların planlaşdırma strukturunda qalada Qasım bəyin ikimərtəbəli karvansarasının kompozisiyası təkrarlanmışdır. Həyətdə isə memar-







*Nuxa. Yuxarı Karvansaranın ümumi görünüşü. Rəsm – Ş.S.Fətullayev.*



*Yuxarı Karvansara. Fasad. Kəsim. XIX əsr. Memarlardan D.Allahverdiyev, A.Seyidovun ölçmələri.*

*Nuxa. Aşağı Karvansara. 1-ci mərtəbənin planı. XIX əsr. Ümumi görünüş.*












*Gəncə. Karvansara. Fasad fraqmenti. 1-ci mərtəbənin planı. XIX əsr.*




lıq formalarının ciddiliyi və sadəliyi divarların hamar səthi ilə vurğulanırdı. Ancaq burada - köhnəlik təkrarlanmır. İkimərtəbəli qalereyaların iri formalı yarımdairəvi tağları sayəsində karvansaralar yeni memarlıq mahiyyəti kəsb etməyə başladılar, onların ağır tağbəndləri yastı örtüklə əvəzləndi.

**Mehmanxanalar.** XIX əsrin sonu XX əsrin əvvəlində karvansaralarda gələnlərə rahat şərait yaradılması mümkün deyildi. Bu səbəbdən bir çox gəlirverən evlər çox halda birinci mərtəbələrində mağazaları saxlamaq şərtilə "İtaliya", "Metropol", "İmperial", "Nasional" və s. kimi təmtəraqlı adlar verilmiş mehmanxanalara çevrilirdi.

Bakıda "Yeni Avropa" (indiki "Göygöl") (mülki mühəndis İ.K.Ploşko, 1913-cü il) mehmanxanası istisna olmaqla, məxsusi



*Bakı. Metropol oteli (indi Nizami muzeyi). Restoran zalının dekor fraqmenti. 1915-ci il. Mülki mühəndis A.A.Nikitin.*



*Musa Nağıyevin Qorçakovskaya (Malıgin) küç.13-də "Yeni Avropa" oteli. Birinci və birtipli mərtəbələrin planı. Mülki mühəndis İ.K.Ploşko. 1913-cü il.*

mehmanxana binaları demək olar tikilmirdi. "Yeni Avropa" mehmanxanası Bakının mərkəzi məhəllələrindən birinin tin hissəsini tuturdu. Binanın daşıyıcı konstruksiyaları qismində burada dəmir-betondan (dirəklər, örtük və s.) geniş istifadə edilmişdir.

Mehmanxana dörd lift, sanitar-texniki avadanlıq, buxar istilik sistemi və üstü örtülmüş elektrik şəbəkəsi ilə təchiz olunmuşdur. Tində yerləşən geniş vestibüldən sonra liftləri olan holl və pilləkən qəfəsi gəlirdi. İkiişıqlı restoranın əsas zalı 203 kvadrat metr sahədə yerləşirdi. Yastı dam örtüyü üzərində estradalı yay restoranı var idi. Nömrələr daxili dəhlizin hər iki tərəfində yerləşmişdi; onların bir hissəsi "quyu-həyətə" açılırdı, balkon və ya erkeri vardı.

Həcmin uğurlu memarlıq həllinə dörd üst mərtəbə üzrə balkonların plastikası və vertikal erkerlərin ritmi sayəsində nail olunmuşdur. İki üst mərtəbədə yarımdairəvi hamar taxçalar və birinci mərtəbədə gizlənmiş kürəkilər müəllifin keçmişdə order memarlığına həvəsindən söz açır. Ancaq burada memarlığa tamamilə yeni yanaşma, daha səmərəli konstruktiv həll axtarışı izlənir. Mehmanxana binasını ciddi modernə aid etmək olmaz. Bu, şəhərin renessans tipli tikililəri fonunda heç də müəyyən ifadəlilikdən məhrum olmayan gələcək konstruktivizmin özünəməxsus əks-sədasıdır.





**Müalicəxana binaları.** Müalicəxanaların inşası məhdud idi, çünki şəhər hakimiyyəti kifayət qədər vəsaitə malik deyildi, özəl kapital isə məsrəflərə könülsüz razılaşırdı. Maraqlıdır ki, Yaxın Şərq ölkələrində, Osmanlıda də eyni hal müşahidə olunur. XIX əsrin ikinci yarısında Azərbaycanda xəstəxana binaları tikilirdi, ancaq çox vaxt müalicəxanalar yaşayış evlərində yerləşirdi. XX əsrin əvvəllərində demək olar bütün şəhərlərdə kiçik tibbi müəssisələr inşa edilmişdi və fəaliyyət göstərirdi.

Şuşa şəhərində 1890-cı illərdə böyük üçmərtəbəli xəstəxana özəl vəsait hesabına tikilmişdir. Onun planlaşdırma strukturu küçəyə açılan palatalar sistemini təşkil edir; həyət tərəfdən palatalar boyu şüşəbənd qurulmuşdu. Bu üsul yaşayış evlərinin tikintisi üçün də səciyyəvi idi; palata sistemi bu qərarlaşmış planlaşdırma sxemini heç də pozmurdu.

Şuşada yerli memarlıq-tikinti ənənələri güclü idi, bu səbəbdən yeni tip binalara özünəməxsus regional traktovka verilirdi. Xəstəxananın fasad həllində yerli yaşayışa xas olan üsul, yəni yarımdairəvi pəncərələrlə inşa edilən divar səthinin ciddiliyi qorunub saxlanmışdır. Məhz bu səbəbdən bu iri tikili xəstəxanadan daha çox yaşayış evini xatırladır.

Naxçıvan üçün 15 çarpayılıq xəstəxana (1904-cü il) layihəsində yerli iqlim xüsusiyyətləri nəzərə alınmışdı, buna görə də palataların qarşısında balkon-qalereyalar quraşdırılmışdır.

Xəstəxanaların inşası üzrə Bakının sənaye rayonunda da az işlər görülmürdü.

Kiçik özəl müalicəxanalarla yanaşı Bakıda 1880-cı illərdən Mixaylovskaya xəstəxanası (indiki M.Əzizbəyov adına) fəaliyyət göstərirdi. Bir vaxtlar şəhərin ucqarında yerləşən bu xəstəxana böyük ərazini tuturdu və tədricən N.A. fon der Nonnenin (1880-cı illər), İ.V.Qoslavskinin (1895-1898-ci illər), Zivər bəy Əhmədbəyovun layihələri əsasında ayrı-ayrı korpuslarla tikilmişdi.

Xəstəxana korpuslarının və yaxud o zamanlar deyildiyi kimi, barakların planlaşdırması funksional prosesin aydınlığı və rasional təşkili ilə seçilirdi. Palataların işıqlandırılması (adi pəncərələrdən əlavə) fonar vasitəsi ilə yuxarı işıqla həyata keçirilirdi. Xəstəxana baraklarının həcm-fəza həllinin belə bir xarakteri həm Neft Sənayeçiləri Qurultayı Şurasının Sabunçuda yerləşən xəstəxanasında, həm də doğum evinin (mülki mühəndis P.İ.Koqnovitski, 1899) tərəfimizdən arxivdən tapılmış layihəsində müşahidə olunurdu.

Xəstəxana korpuslarının layihələşdirilməsi və inşası zamanı yerli iqlim şəraiti nəzərə alınmışdır. Onların memarlıq-planlaşdırma strukturuna geniş eyvanlar, balkonlar, lociyalar, bağ daxil idi. Ayrı-ayrı tikililərin dekorunda klassik motivlərdən çox az dərəcədə, roman formaları və lociyalarda ağac üzərində oymadan istifadə edilmişdir. Sonuncular funksional tərəfi ilə yanaşı bina fasadlarının plastik baxımdan zənginləşməsinə səbəb olurdu.

1894-cü il xəstəxana binalarının bütöv bir kompleksinin inşası Neft Sənayeçiləri Qurultayı Şurası tərəfindən Bakının Qaraşəhər rayonunda həyata keçirilmişdir. Əvvəlcə bir neçə bina "şəhərin düz hüdud xəttində o niyyətlə tikilmişdi ki, onlar zavodlara yaxın olmasınlar və his-pasdan qorunmaq mümkün olsun" [432].

Xəstəxana kompleksi sistemində işıqlı geniş palataları, enli dəhlizləri olan səliqə-sahmanlı müalicə şöbələri vardı. Ventilyasiya, kaminlər, vannalar lazımi komfort yaradır, tikinti və bəzək işlərinin yüksək keyfiyyəti isə xəstəxananı Bakının və onun ətrafının nümunəvi müalicə bi-



*Bakı. Doğum evi binasının layihəsi. Fasad fraqmenti, 1899-cu il. Mülki mühəndi P.İ. Koqnovitski.*

naları sırasına qatırdı. Binaların arasında, həyətdə, güllükləri olan bağ salınmışdı.

150 çarpayılıq Sabunçu xəstəxanası 5 korpusdan - cərrahiyyə, terapevtik, qadın korpusu, göz, zöhrəvi və yoluxucu (infeksion) - ibarət idi. İşıqlı və geniş palatalar elektrik işığı və buxar-su istilik sisteminə malik idi. Barak korpusları ilə yanaşı xəstəxana ərazisində xidməti binalar da yerləşirdi. Xəstəxana tikililəri utilitar xarakter daşıyırdı, lakin divarların yarımtəmiz yonma daşdan hörgüsü, pəncərələrdə günəşdən mühafizə qapaqları və fonarların ikiköbərli örtüyü özünə xas effekt yaradırdı.

Hələ 1899-1901-ci illərdə mülki mühəndislər P.İ.Koqnovitski və Q.M.Termikelov Bakının yeni rayonları üçün doğum evlərini, 1904-cü ildə isə K.B.Skureviç müsəlman qəsəbəsində - Staroselsk bulvarının yaxınlığında 36 çarpayılıq 3 korpusdan ibarət müsəlman xəstəxanasını layihələşdirmişdilər [385].

Xüsusi göz müalicəxanasının inşası üçün şəhərin baş memarı K.A.Borisoqlebski xüsusi komissiya tərəfindən bəyənilən üç layihə təqdim etmişdir [425]. Eyni zamanda şəhər tikinti komissiyasında müalicəxananın tipi haqqında məsələ müzakirə olunurdu, belə ki, layihələşmənin ilk əvvəl bir eksperimental xəstəxana tikmək və onun layihəsi öz təyinatına hər baxımdan cavab verdiyi təqdirdə, digərlərinin də bu tip üzrə tikilməsi kimi olduqca proqressiv metod təklif edilirdi.

Mixaylovskaya baş şəhər xəstəxanası tez bir zamanda artan tələbləri ödəyə bilmədi, şəhərin kənarında, Aleksandrovsk və Staroselsk bulvarlarının kəsişməsində 500 çarpayılıq yeni xəstəxananın tikilməsi haqqında məsələ isə yalnız 1911-ci ildə müsbət həllini tapdı.

Bakı üçün Rusiyada nümunəvi sayılan Odessa tipi üzrə pavilyon tipli xəstəxana seçildi.

Sonradan xəstəxana üçün ərazi Şamaxinka rayonunun arxasında ayrıldı və Mixaylovskaya xəstəxanasının yeni layihəsinin işlənib hazırlanmasına başlandı. Eyni zamanda mülki mühəndis Zivər bəy Əhmədbəyov xəstəxana binasını layihələşdirdi. Binanın tikintisi üçün hələ ki vəsaitin olmaması səbəbindən Mixaylovskaya xəstəxanasının boş ərazisində, Balaxanskaya və Tatarskaya küçələrinin tinində o, 150 çarpayılıq korpus layihələşdirib inşa edir; eyni zamanda şəhərin kənarında inşa edilmək üçün 400







*Mixaylovskaya xəstəxanasının korpuslarından biri. 1898-ci il. Mülki mühəndis İ.V.Qoslavski.*



*Bakı. Mixaylovskaya xəstəxanası. Baş plan. 1880-ci illər.*







*Yetimxana binasının layihəsi. Ön fasad. Kəsim və sahənin baş planı. 1899-cu il. Mülki mühəndis Q.M.Termikelov.*

çarpayılıq xəstəxana layihəsini işləyib hazırlayır.

Bütün bu xəstəxana layihələrini iki iri şəhər xəstəxanasının (uşaq xəstəxanası və M.Nağıyev adına xəstəxana) inşası üçün hazırlıq mərhələsi saymaq olar.

Uşaq xəstəxanasının layihəsi məşhur xəstəxana layihələşdiricisi Zivər bəy Əhmədbəyov tərəfindən tərtib edilmişdi. Binanın təməli 13 aprel 1914-cü ildə Şamaxinka rayonunda qoyuldu. Xəstəxananın üçmərtəbəli baş xəstəxana korpusundan, birmərtəbəli ambulatoriyadan və geniş həyətdən ibarət ərazisi böyük sahəni əhatə edirdi. Palataların səmti cənuba və cənub-şərqə yönəlmişdi, çünki bu cənub iqlim qurşağı üçün ən əlverişli istiqamətdir.

Memarlıq-planlaşdırma və konstruktiv nöqteyi-nəzərindən uşaq xəstəxanasının ən diqqətəlayiq hissəsi baş korpusun binasıdır. Xəstəxana fasadının şərq korpusu sadə və ifadəlidir. Bina küçənin qırmızı xəttindən bir az kənarda yerləşir və rizalitlərlə vurğulanan enli frontonu ilə üzü Persidskaya küçəsinə yönəlmişdir. Binanın görünüşü qonşu tikililərlə örtülmürdü. Palataların pəncərəsindən şəhərə və dənizə gözəl mənzərə açılırdı ki, bu da xəstələrdə müsbət emosiyalar yaradaraq, onlara vacib psixoloji təsir göstərirdi.

Üçüncü mərtəbə geniş terraslı ikimərtəbəli qapalı balkonun ahəngdar cizgiləri və simmetriya oxunu vurğulayan ifadəli cizgilənmiş yastı portik sayəsində plastik və həcmli şəkildə həll olunmuşdur. Ərazinin relyefində binanın dominant mövqeyi və fasadın simmetrik-oxvari kompozisiyasının memarlıq baxımından ciddi klassik formalarda işlənib hazırlanması, 1915-ci ildə "Kaspi"





qəzetinin yazdığı kimi, "Bakı şəhərində ən gözəl və ən görkəmli tikililərdən biri"nin yaranmasına səbəb oldu.

Örtüklərin, pilləkən marşlarının, tirlərin və kərənlərin konstruksiyasında betondan və dəmir-betondan geniş istifadə binanın möhkəmliyini təmin etdi. 1916-cı ilin sonuna doğru dekorativ işlər istisna olmaqla, ümumilikdə tikili başa çatdı.

1914-cü ildə uşaq xəstəxanasının layihələşdirilməsi ilə yanaşı Moskvada, Peterburqda, Berlində və Hamburqda müasir xəstəxana inşası ilə çox yaxşı tanış olan mülki mühəndis N.Q.Bayev tərəfindən yeni şəhər xəstəxanası layihəsinin tərtibi üzrə işlər başlandı.

Bakının kənarında, 13,5 hektar ərazidə xəstəxana şəhərciyinin layihələşdirilməsi




*Bakı.Sığınacaq binasının layihəsi. Plan, 1899-cu il. Mülki mühəndis Q.M.Termikelov.*






*Bakı. Uşaq xəstəxanasının binası. 2-ci mərtəbənin planı. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1914-1918-ci illər.*

və tikilməsi M.Nağıyev tərəfindən 100 çarpayılıq şəhər xəstəxanasının inşasına 300 000 rubl ianə verməsindən sonra mümkün oldu. Layihəni 10 il ərzində gerçəkləşdirmək nəzərdə tutulurdu. Əvvəlcə cərrahiyyə korpusunun tikilməsi planlaşdırılırdı. Planda cərrahiyyə korpusunun layihəsi H hərfi formasında idi: ilkin variantda onun uzunluğu 134,42 metr, eni isə 87,48 metr olmuşdu. Sonradan vəsaitə qənaət məqsədilə binanın həcmini azaldaraq uzunluğu 108,82 metrədək, eni isə 83,21 metrədək ixtisar edildi.

İki parallel qanadda uşaq xəstəxanasında olduğu kimi, enli dəhlizlə birləşən xəstəxana palataları yerləşdirilmişdir. Cənub iqlimi ilə əlaqədar olaraq, daxili dəhlizin hər iki tərəfində palataların yerləşdirilməsi düşünülmürdü. Lakin bu korpusun planlaşdırmasında palataları yerləşdirmə məsələsində kobud səhvlərə yol verilmişdir: qərb qanad cənub-qərbə açılırdı, yəni qeyri-əlverişli istiqamət seçilmişdi, halbuki qərb qanadın palatalarını şimal-şərqə istiqamətləndirmək olardı. Lociya və eyvanların planlaşdırması da məqsədəuyğun şəkildə həll edilməmişdir: onlar palatalara yox, dəhlizlərə açılır və bunun nəticəsində xəstələr palatalardan bilavasitə lociyalara daxil ola bilmirdi. Planlaşdırmanın bu qüsuruna hələ layihələşmə mərhələsində nəzər yetirilmişdi.

Hər iki korpusu bütün xidmətlərə malik əməliyyat şöbəsi birləşdirir. Elə bu blokda əməliyyat şöbəsinin yan kənarlarında mozaika ilə işlənmiş iki geniş təmtəraqlı pilləkən yerləşir. İki kurdoner – həm cənub, həm də şimal kurdonerlər ikinci və üçüncü mərtəbənin lociya və terrasları ilə əhatə olunur. Ancaq onlar eyni dərəcədə qiymətləndirilə bilməz, çünki güclü küləklərə qarşı açıq olan şimal tərəf lociya və terraslarda istirahət üçün əlverişli mühit yaratmırdı.

Cərrahiyyə korpusunun planında klassik simmetriyaya baxmayaraq, bina öz qüllələri, damüstü örtüyü və müəyyən modern əlamətləri ilə bir az sadələşdirilmiş klassik formalar sayəsində həcm kütləsinin mənzərəli həlli ilə seçilir. Bina oxşayıcı tonlu əhəng lövhələrlə üzlənmiş, şərq və qərb qanadının yuxarı mərtəbələri suvanmışdır. Dekorasiyada o zamanlar yenilik kimi qəbul edilən beton memarlıq detallarından istifadə olunmuşdur. Tökmə betondan memarlıq detalları Bakıda ilk dəfə Mailov teatrının fasadını bərkitməyi qət edən N.Q.Bayev tərəfindən tətbiq edilmişdir.

Bakıda və onun rayonlarında xəstəxana binalarının inşası cənub şəraitində yeni memarlıq-tikinti üsullarının inkişafı üçün vacib əhəmiyyət kəsb edirdi;







*Bakı. Musa Nağıyevin cərrahiyyə xəstəxanasının binası (indi Semaşko adına xəstəxana). Ümumi görünüş. (Rəsm – Ş.S.Fətullayev).*



*Həyət fasadından fraqment. Mülki mühəndis N.Q.Bayev. 1914-1918-ci illər.*

müalicə binasının strukturuna lociya, eyvan və terraslar kimi fəza elementləri cəsarətlə daxil edilirdi; bundan əlavə, yeni tikinti və dekor materiallarından istifadə edilirdi.

**Dəniz hamamları.** XIX-XX əsrlərin qovşağında dəniz hamamları şəhərin özünəməxsus mədəni-məişət qurmaları sayılırdı. Onlar liman və körpülərin əhatəsində Bakı akvatoriyasının koloritli memarlıq elementlərini təşkil edirdilər. Dadaşovun ağacdan tikilmiş dəniz hamamı mülki mühəndis M.D.Botov tərəfindən 1884-cü ildə layihələşdirilmiş və elə həmin ildə ucaldılmışdır.

Şəhərin ikinci dəniz hamamı 1912-1914-cü illərdə, Bakının xeyli genişləndiyi və şəhər hakimiyyətinin ictimai maraqlara biganə qalmadığı vaxtlarda tikilmişdi. Bu zaman artıq dənizkənarı bulvar fəaliyyət göstərirdi, sahil zolağı tənzimlənmiş, dənizin görünüşünü örtən bir çox körpülər sökülmüşdü. Məhz bu zaman – biri bulvarla üzbəüz, digəri isə Petrovskaya sahil küçəsində olmaqla iki dəniz hamamının tikilməsi qərara alınır.

Hələ 1909-cu ildə dənizkənarı bulvarın və dəniz hamamlarının layihələri üzrə müsabiqə keçirilmişdi. Mükafatı qazanan müsabiqə iştirakçıları ağacdan, daşdan və betondan dəniz hamamları tikməyi nəzərdə tuturdular. N.Q.Bayev 1911-ci ildə böyük ehtimalla, müsabiqə layihələrindəki ideyalardan faydalanaraq, hovuzlarda 400 yerlik və 65 nömrəlik dəniz hamamlarının yeni layihəsini tərtib etmişdir.

Dəniz hamamları əsas və əlavə hissələrdən ibarət ahəngdar kompozisiya yaradırdı. Mərkəzi hissəni inzibati-xidməti otaqlar və geniş gözləmə zalı tuturdu. Dəniz hamamının bir hissəsi qadınlar, digər hissəsi isə kişilər üçün nəzərdə tutulmuşdu. Gözləmə zalı paylayıcı vestibül kimi çıxış edirdi. Buradan dəhlizlər açıq dənizə tərəf yönəlmiş ümumi hovuzlara aparırdı və dəhlizlər uzunu nömrələr yerləşmişdi. Hamamın bütün otaqları qövsvari formaya malik dəhlizlərlə birləşirdi ki, bu da planlaşmaya əzəmət və komfort bəxş edirdi.

Planlaşdırma həlli ağacdan tikilən hamamın həcm strukturunu bir çox baxımdan əvvəlcədən müəyyən etmişdi. Qüllələrin vertikalı ilə vurğulanan mərkəzi hissə dəhlizlərin künclərdəki qülləşəkilli pavilyonlarla təsbit olunan üfüqi xətləri üzərində dominant mövqe tuturdu. Dəniz hamamın ağac memarlığında Bayevin hər zaman meyl göstərdiyi modern elementlər üstünlük təşkil edirdi. İncəliklə, material imkanlarının düzgün qiymətləndirilməsi ilə başa çatdırılan bu qurma, "Kaspi" qəzetinin yazdığı kimi, "dəniz hamamlarını nəcib yay sarayı" obrazında təqdim etmişdi.

"Bakının yeni dəniz hamamları su üzərində çox gözəl bir qurma nümayiş etdirir. Su üzərində belə bir gözəl və iri tikili Nitsa şəhəri istisna olmaqla, Avropanın heç yerində yoxdur."

Şəhərin dəniz hamamlarının açılışı 22 iyun 1914-cü ildə oldu. Gerçəkdən, Bakıda ictimai binalar hələ az sayda tikilmişdi və bu səbəbdən hər yeni maraqlı tikili şəhərin memarlıq fonduna daxil olur və ictimaiyyət tərəfindən müsbət qiymətləndirilirdi. Bütövlükdə, ləniz hamamarı ilə birlikdə bulvar o illər memarlıq ansambllarından və əhəmiyyətli şəhərsalma mövzularından məhrum olan şəhərin ümumi planında koloritli memarlıq kompozisiyası yaradırdılar.

**Hamamlar.** Azərbaycanda istər feodalizm, istərsə də kapitalizm çağında kifayət qədər geniş yayılmış mədəni-məişət tikililərinin bir növünü şəhərlərin və yaşayış məskənlərinin memarlıq obrazında mühüm yer tutan hamamlar təşkil edirdi. Azərbaycanda hamamlar, bütün müsəlman Şərqində olduğu kimi,







*İran. Hamam interyeri.*

şəhər tikilişlərinin struktur elementləri qismində çıxış edir və ictimai həyatla sıx bağlı idilər. Əsasən feodalizm çağında, o cümlədən, Azərbaycanda və Türkiyədə tikilmiş hamamların memarlıq-planlaşdırma həlli bir sıra əsərlərdə təsvir olunmuşdur [241, 291, 435, 490].

Azərbaycanın XIX əsrin ikinci yarısına aid hamamlarında memarlıq-planlaşdırma və həcm-fəza həllinin köhnə ənənələri ümumilikdə davam etdirilmişdir.

Lakin yeni sosial-iqtisadi şərait və texniki nailiyyətlər bina inşaatının texnoloji və funksional aspektlərinin şəklini dəyişdirən və yaxşılaşdıran fərqli tələblər irəli sürürdü.

Azərbaycan hamamları XIX əsrin əvvəlinə kimi planlaşdıma baxımından əsrlərlə formalaşan və tikiliş aydınlığına, funksional məntiqinə və həcm həllinə görə klassikaya çevrilən sxem kimi çıxış edirdilər. Planda hamamlar sütunlarla və ya pilonlarla bir sıra kiçik kameralara bölünən iki əsas kvadrat yerləşgələrdən ibarət idi. Birinci qrup yerləşgələr - soyunma yerləşgəsi, ikinci qrup isə çimmə üçün nəzərdə tutulmuş yerləşgədir. Çimmə bölməsinin arxasında soyuq və isti su hövzələri vardı. "İstilik sistemi yuyunma yerləşgəsində döşəmənin altından qızdırıcı kanallar vasitəsilə elə bir tərzdə çəkilib ki, qalama kamerasından gələn qaynar










*Bakı. Tatarskaya küç-də (Krupskaya) hamam layihəsi. Memar F.A.Lemkul. 1886-cı il.*

*Bakı. Hamam layihəsi. 1879-cu il.*

qaz bu kanallardan keçərək, yerləşgələri isidir və sonradan soyuyaraq, ağızlıqdan çölə çıxırdı" (241, s. 73).

Şərq hamamlarının memarlıq-planlaşırma strukturunun yerli şəraitdən asılı olaraq, bir sıra özəllikləri vardı. Məsələn, türk hamamları çox vaxt istər soyunma, istərsə də çimmə bölmələrində daxili fəza hissələnmədən kvadrat yerləşgələr təşkil edirdilər ki, bu da onların interyerinə daha səlis bütövlük və iri miqyas verirdi (437, 490). Hamamların həcm-fəza kompozisiyasının Türkiyədə qəbul olunmuş memarlıq formalarında traktovka edilən xarakteri onların mənşəyini üzə çıxarırdı.

XIX əsrin ikinci yarısından Azərbaycanda funksional və memarlıq-planlaşdırma özəlliklərinə əsasən iki tip hamam: yerli və Avropa memarlığı həllində tikilmiş hamamlar fərqləndirilirdi ki, bu da onların obraz ifadəsini müəyyən edirdi.

Abşeronda üstünlük təşkil edən birinci tip hamamlar bütün Azərbaycan şəhərlərində genişliklə təqdim edilmişdir. Bu hamamlarda memarlıq-planlaşdırma həlli xalq memarlığı prinsipləri məcrasında, ənənəvi funksional sxem üzrə inkişaf edirdi – ön yerləşgə, soyunma otağı, aralıq yerləşgə və yaxud kiçik keçid kamerası, çimmə yerləşgəsi və



*Abşeron. Qobu kəndi. Hamamın ümumi görünüşü, 1887-ci il.*

xəznə (soyuq və qaynar su anbarı). Yerli tip hamamların XIX əsrin ikinci yarısında da həcm-fəza və konstruktiv strukturu keçmişdə təcrübədən keçirilmiş bu sxem üzrə traktovka edilirdi.

Maraqlıdır ki, bu kimi hamamlar həm xalq memarları, həm də peşəkar mühəndislər və memarlar tərəfindən inşa edilirdi. Əgər sonuncular mülki və yaşayış binalarının layihələşdirilməsi zamanı əsasən Avropa memarlıq-planlaşdırma üsullarından istifadə edirdilərsə, bu kimi xüsusi qurmaların inşasında isə yerli memarların köməyinə müraciət etməli və eyni zamanda şərq hamamlarının istismar məsələsini düzgün həll etməkdən ötrü onların xarakterini və funksional tərəflərini öyrənməli olurdular. Memarlıq-planlaşdırma həllinə görə yerli hamamları altı tipə ayırmaq olar.

*Birinci tip* çox vaxt günbəzlərin oxvari və ya yarımdairəvi formasına dayaq olan dörd səkkizvəchli sütunla ayrılmış bir böyüklükdə kvadrat yerləşgələrə – soyunma və çimmə bölmələrinə malik idi. Bu planlaşdırma tipində ənənəvi üsuldan yalnız dörddirəkli soyunma bölməsi saxlanmış, çimmə bölməsi isə soyunma bölməsinin planlaşdırma sxemini təkrarlayaraq, sadələşdirilmişdir. Hətta soyunma və çimmə bölmələri arasında aralıq







*İçəri-şəhər. Ağa Mikayıl hamamı. Ümumi görünüş. XVIII-XIX əsrlər.*

kameranın yerləşdirildiyi hamamlara da rast gəlinirdi. Birinci tipə 1879-cü ildə tərtib edilən, Bakıda hamam layihəsi aiddir.

Vahid fəzalı, hər iki bölmədə aralıq dirəklərinin olmadığı, zalın oxu üzrə dayaz divar taxçalarına malik yerli hamamların *ikinci tipinə* Mərdəkan kəndində Şeyx Kazım hamamı, 1891-ci il; Bilgə kəndində Molla Əliqulu hamamı, XIX əsr; Nardaran kəndində, XIX əsr; Bakıda, Tatarskaya küçəsində mühəndis-texnoloq F.A.Lemkulun (1886-cı il) layihəsi əsasında tikilən hamam; eləcə də, Abşeron kəndlərindəki: Keşlədəki (1899-cu il), Maştağadakı (Şamxal hamamı, 1889-cu il), Bilgədəki (Seyid ağa hamamı, 1918-ci il) hamamlar aiddir.

*Üçüncü tip* planlaşdırma baxımından daha mürəkkəb idi, onlarda soyunma və çimmə bölmələri oxlar boyu dərin divar taxçalarına malik səkkizüzlü formada mərkəzi zallardan və prosedur üçün və bir zaldan o biri zala keçmək üçün künc yerləşgələrdən ibarət idilər (Maştağa kəndində Qum hamamı, XIX əsr, Bilgə kəndində Albəndi hamamı, XIX əsr).

*Dördüncü tip*, qarışıq planlaşdırma tipi idi, onlarda soyunma bölməsi zalın üstündəki günbəzə dayaq olan dörd sütunlu bir yerləşgə ilə məhdudlaşır, çimmə bölməsi isə oxlar boyu divar taxçaları və küncdə "cibləri" olan səkkizüzlü formada mərkəzi zal qismində qurulmuşdur. Bu

tip Lənkəran regionu üçün səciyyəvidir (Hacı Mirzə hamamı, XIX əsr, Lənkəranda Hacı Qurban hamamı, Ərçivan kəndində Kərbəlayı Həmid hamamı, 1892-ci il, Pensər kəndində Məşədi Abutalıb hamamı, XIX əsr, Masallı kəndində Hacı Mir Cəfər hamamı, 1892-ci il).

Hamamların *beşinci tipi* günbəzlə örtülmüş çoxvəchli formalı geniş soyunma bölməsinə və yuyunma bölməsinə malik idi. Hamamın ən maraqlı hissəsi divar taxçaları olan soyunma bölməsidir, Bu hissə zalın vəchləri, divar taxçalarının tağları və günbəzlər sayəsində həcm-fəza plastikası ilə vurğulanır. Bu tip hamamlar Aşağı Qarabağ üçün səciyyəvidir (Cəbrayıl şəhərində Sultan Allahverdi bəy hamamı, XIX-XX əsrlər, Füzuli şəhərində, XX əsrin əvvəli, Qarğabazar kəndində Cəmil hamamı, XIX əsr).

*Altıncı tip* – buna Bakı hamamlarının çoxu aiddir, onların da eynilə İstanbul hamamları kimi iki bölməsi (qadın və kişi) var, "yerləşgələri boyuna oxa simmetrik şəkildə yerləşdirilib" [49, s. 460]. Bakının Şor Qoşa hamamı (M.Fətəli küçəsi, 105, 1889-cu il), Axund hamamı (Persidskaya küçəsi, 141, 1886-cı il), Hacı Aslan hamamı (4-cü Parallel küçəsi, 37)




*Quba. "Hündür günbəzli" hamam. Fasad, kəsim, baş plan və plan. 1880-ci illər.*







*Quba. "Hündür günbəzli" hamam. Ümumi görünüş.*

bu tərzdə qurulmuşdur. Azərbaycanın digər şəhərlərində buxarxana tipli hamamlara rast gəlinmir.

XIX əsrin ikinci yarısına aid yerli tip hamamlarda köhnə hamamlardakı əsas memarlıq-planlaşdırma və sanitar-texniki həllin qorunub saxlanması, yəni yuyunma bölməsinə borular vasitəsilə gətirilən qaynar və soyuq su hövzələrinin (xəznə) qurulması ilə yanaşı, suqızdırıcı və isitmə sistemlərinin keyfiyyət baxımından dəyişməsi müşahidə olunurdu [241, s. 73].

Yeni hamamlarda suqızdırıcı və isitmə sistemləri mazutla qalanan qazanxanaya (Bakı) və yaxud suqızdırıcı odun kolonkasına (Nuxanın bəzi hamamları) birləşirdi. Çimmə bölməsində zal bəzən bir qədər yuxarıya qaldırılır, onun mərkəzinə döşəmənin altı ilə borular vasitəsilə qazanxadan gələn buxarla isidilirdi. Hamamların su təchizatı şəhərin su kəmərlərindən keramik və ya metal borularla (Şuşa, Nuxa, Gəncə) və yaxud hamamların həyətində yerləşən quyulardan (Bakı) təmin edilirdi: su əvvəl su anbarına daxil olaraq, oradan borular vasitəsilə əsas yerləşgələrə axıdılırdı.

Gözdən keçirilən dövrün yerli tip hamamlarının həcm-fəza strukturu qurmaların planlaşdırma və konstruktiv özəlliklərindən irəli gəlirdi. Soyunma bölməsi mərkəzdə daşdan və ya kərpicdən qurulmuş eyni formalı günbəzi daşıyan, oxvari tapqırı tağlara dayaq olan dörd sütunla hissələnmiş tək bir yerləşgədən ibarət idi. Sütunlar kapital divarlarla oxvari və yaxud yarımdairəvi tağlar vasitəsilə konstruktiv şəkildə bağlı idilər və onların arasındakı fəza çarpaz tağbəndlə örtülürdü.

Belə bir konstruktiv sistem, xüsusilə də onların aydın və məntiqli daş kons-

*Bakı. Suraxanskaya (1 May), 114-də "Fantaziya" hamamı. Şimal fasad və gözləmə zalının interyeri. 1880-ci illər.*









trksiyaları ilə Bakı hamamlarında soyunma bölməsinin memarlıq həllini müəyyən edirdi. Hamamların soyunma bölmələrində XVII-XVIII əsrlərin hamamlarında müşahidə olunan dekorativ zənginlik yox idi [241, s. 74]. Burada başqa tip dekora: sütünlar və tromplar üzərində yöndəmsiz naxışlar, tağların aşağı səviyyəsində divarlarda mənzərəli pannolar və s. (Nuxa hamamı, Lenin küçəsi, 237, Bakı hamamı, 4-cü Paralel küçəsi, 37) rast gəlinirdi.

Çimmə bölməsi ya soyunma bölməsinin memarlıq-konstruktiv sxemini təkrarlayır, ya da planda səkkizvəchli yerləşgə şəklində olurdu. Son halda hamamın çimmə bölməsinin interyeri öz konstruktiv formalarında daha böyük və geniş görünürdü. Zalın oxları boyu yerləşdirilən oxvari tağların-taxçaların iri ölçüləri bucaq hissələrinin tağlarının kiçik açırımları ilə daş günbəzlə örtülü, pəncərə açırımları olan çimmə zalının konstruktiv formalarının memarlıq məntiqini açıb göstərirdi.

Yerləşgələrin ya günbəzin özülündə yerləşən pəncərə açırımları, ya da onun zirvəsində yerləşən dəyirmi dəlikdən işıqlandırılan əvvəlki dövr hamamlarından fərqli olaraq, yeni hamamlar həm də bayır divarlarında yerləşdirilən pəncərələr vasitəsilə işıqlandırılırdı. Bu üsul yerli memarlar tərəfindən müsbət qiymətləndirilmişdi. Bu qaydaya yeni texniki imkanların hamamları keçmişdə olduğu kimi dərinə endirməyərək onları yer səthində qurmağa şərait yaratdığı hallarda əl atırdılar.

Günbəzlər üzərində pəncərələrin quraşdırılması zamanı həmin ərazinin iqlim özəllikləri nəzərə alınırdı. Bakı hamamlarında günbəz pəncərələri cənub tərəfindən qoyulurdu, çünki güclü şimal küləkləri yerləşgələri soyuda bilərdi; Nuxa hamamlarında isə Lənkərandakı



*Bakı. Suraxanskaya (1 May), 114-də "Fantaziya" hamamı. Plan. 1880-ci illər.*

*Bakı. Kamenistaya (Şors) küç., 130-da hamamı. Plan. 1883-cü il.*



kimi ümumiyyətlə pəncərə qoyulmurdu – bu hallarda yalnız fasad üzərində pəncərə açırımları ilə kifayətlənirdilər. Hamam yerləşgələrinin aerasiya və insolyasiyası məsələsində bu kimi incəliklər Bakı memarları - ənənəvi tip hamamların əsas inşaatçıları tərəfindən müsbət qiymətləndirilmişdi.

Hamamların daxili fəzasının memarlıq-planlaşdırma quruluşu və yerləşgələrin konstruktiv təməli onların həcm ifadəsini də əvvəlcədən müəyyən edirdi. Şuşa, Nuxa kimi nisbətən kiçik şəhərlərdə günbəz konstruksiyaları qurmaların həcm-fəza strukturunda köbərli damüstü örtüyün altında qalan dekorativ elementlər olaraq binaların ön fasadlarının memarlıq həllində iştirak etmirdilər. Nuxada bu özünü fasadda forma və rənginə görə təzad yaradan iki tikinti materialından - soyuq calarlı daşdan və isti çalarlı bişmiş kərpicdən istifadə yolu yerli memarlığın ifadə vasitələrində göstərirdi.

Azərbaycan hamamlarının həcm-fəza strukturu öz əksini Bakı-Abşeron bölgəsi yaşayış məskənlərinin tikilişlərində daha qabarıq şəkildə tapmışdır. Düzbucaqlı formalar, yastı dam örtükləri və xeyli hündürə qaldırılmış günbəzlər memarlıq kütlələrinin həcmliliyini və miqyaslılığını vurğulayırdı.

Hamamlar və ayin qurmaları mülki memarlığın keçmişlə əlaqəni kəsməyən və yeni şəraitdə istifadə olunan əlverişli və səmərəli məqamları qoruyub saxlayan ən dayanıqlı ənənəvi bina tipləridir. Bu, Azərbaycan şəhərlərində yaşayış məhəllələrinin sıravi tikilişində yerli memarlığın milli özəlliklərini qoruyub saxlamağa kömək etdi.

Yerli tipdə hamamların fasadlarının memarlığı müxtəlif üslub çalarları ilə olsa da, əsasən şərq memarlığı formalarının bazasında idi. Bu da maraqlıdır ki, memarlar Azərbaycanın şəhərlərində, xüsusən də Bakıda hamam və ayin qurmalarını layihələşdirərkən, memarlıq-planlaşdırma həllinin ənənəvi prinsiplərinə riayət edirdilər. Eyni zamanda onlar yerli memarlığın təbliğatçıları idilər ki, bu da Bakının yaşayış tikilişlərini Avropa eklektikası və stilizatorçuluğu dalğasının bürüdüyü, kütləvi mənzil tikintisində milli memarlığın sağlam köklərinin arxa plana sıxışdırıldığı bir vaxtda çox vacib idi.

XIX əsrin ikinci yarısında memarlar həm ənənəvi, həm də Avropa xarakterli memarlıq-planlaşdırma üsullarından faydalanaraq, kombinasiyalı hamam tipi layihələrini tərtib edirdilər. Buna misal olaraq, memar İ.İ.Krjiştaloviç tərəfindən 1876-cı ildə Gəncə üçün tərtib edilmiş hamam layihəsini göstərmək olar.

Yeni tip hamamların memarlıq-planlaşdırma həllinə digər bir örnək kimi Nuxa şəhərinin Qışlaq rayonunda tikilmək üçün naməlum hərbi mühəndis tərəfindən layihələşdirilmiş və 1890-cı ildə təsdiq edilmiş "ticarət hamamı" layihəsini göstərmək olar. Bu hamam layihəsində ənənəvi texnoloji sxem qorunub saxlanıb, ancaq planlaşdırma quruluşu başqa, daha təkmil formada təklif edilmişdir.

Yerli tip hamamlarla yanaşı, Azərbaycan şəhərlərində, xüsusən də Bakıda, XIX əsrin ikinci yarısından başlayaraq, Avropa tipli hamamlar da tikilməyə başlamışdı. Əgər yerli hamamlar şəhər tikilişləri arasında onların ifadəliliyini müəyyən edən günbəzləri ilə seçilirdilərsə, Avropa tipli hamamlara yeni kompozisiya strukturu verildi. Onlar şəhər tikilişlərinin xarakterinə mülki memarlıq elementləri daxil edir, yaşayış məhəllələrini özlərinin aydın çizgili detalları olan plastik fasadları ilə zənginləşdiridilər.

Yerli hamamalar əsasən ümumi istifadə üçün idi, halbuki Avropa hamamları fərdi nömrələrdən istifadəyə hesablanmışdı. Bu isə fərqli planlaşdırma həlli tələb edirdi, buradan da qurmanın daxili fəzasının və fasadının işlənməsində başqa bir memarlıq-kompozisiya üsulunu zəruri edirdi.

Avropa tipli hamamın planlaşdırma kompozisiyasının təməlini mərkəzi gözləmə zalı təşkil edirdi ki, onun ətrafında bitişik nömrələrin açıldığı dəhliz uzanırdı. Nömrələr soyunma və çimmə yerləşgələrindən ibarət idi (misal üçün, "Fantaziya", Suraxanı küçəsi, 114, 1880-ci illər; Kamenistaya küçəsi, 130, 1883-cü il). Nömrələrin yerləşdiyi daxili dəhlizlərlə məhdudlaşan, gözləmə zalı olmayan hamamlar da vardı (Aşumovskaya, Torqovaya küçəsi, 40, 1880-cı illər; "Ermitaj", Vorontsovskaya küçəsi, 51, 1886-cı il).

Mümkün qədər çox müştəri cəlb etmək məqsədilə Avropa tipli hamamların daxili fəzasının həllinə daha çox diqqət yetirilirdi.

Hamam sahibləri arasında rəqabət, onları hamam memarlığından, onun bədii imkanlarından öz gəlir məqsədləri üçün istifadəyə vadar edirdi. Belə ki, hamamda ön otaq rəngli kafellə, güzgülərlə bəzədilir, ciddi hissələnmiş tağbəndlə örtülmüş dəhlizlər isə tikinti işlərinin yüksək keyfiyyəti sayəsində binanın kompozisiya mərkəzi olan gözləmə zalı üçün əla fon kimi çıxış edirdi.

Təbii ki, ona xüsusi yer ayrılırdı. Gözləmə zalının divarları öz hissələnməsi, memarlıq formaları, detalların plastik işlənməsi və plafonun zəngin bəzəkləri ilə interyerin son dərəcə effektli kompozisiyasını yaradır ("Fantaziya" hamamı), bütün bunlar hovuz və dekorativ yaşıllıqla tamamlanırdı. Bəzən daha yaxşı işıqlandırılma məqsədilə gözləmə zalını hündürlük ölçüsündə bir az yuxarı qaldırırdılar və bu üzdən bura daha təmtəraqlı görkəm alırdı (Kamenistaya küçəsi, 130 ünvandakı hamam).

XIX əsrin ikinci yarısına aid bu kimi qurmalarla müqayisədə XIX-XX əsrlərin qovşağındakı hamamların sanitar-texniki baxımdan müəyyən üstünlükləri vardı: buxar qazanları mazutla qızdırılırdı. Su hələ də daş anbarlarda saxlanılırdı, ancaq hamamların damında quraşdırılan metal rezervuarlar görünməyə başlamışdı. Eyni zamanda nasosları işə salan və hamamın bütün otaqlarını işıqlandıran yerli elektrik stansiyaları istismara verilirdi. Bütün bunlar hamamların axşamlar da fəaliyyət göstərməsinə şərait yaradırdı.

Bakıda 1896-cı ilə doğru yerli və Avropa tipli 40-dan çox hamam var idi, onlardan yalnız dördü qala daxilində, digərləri isə şəhərin mərkəzi və qərb rayonlarında yerləşirdi. Şəhərin mərkəzində, təkcə Vorontsovskaya küçəsində 1880-ci illərdə 200 metr məsafədə (Kamenistaya küçəsindən Balaxanı küçəsinədək) yerli və Avropa tipli altı hamam vardı. Küçələrin bu qədər kiçik bir kəsimində mazutla işləyən, havanı və tikililəri tüstü və hislə çirkləndirən bu qədər hamamın cəmlənmiş olması ətrafda yaşayanlarda narazılıq doğururdu. Lakin, şikayətlərə baxmayaraq, hamamlar Bakının sıx tikilmiş bu rayonunu çirkləndirərək fəaliyyətlərini davam edirirdi.

Bəllidir ki, öz ictimai mərkəzləri olan Şuşa şəhərinin aşağı hissəsinin 17-ci məhəlləsinə məscid, dükanlar və fəvvarədən başqa, hamamlar da daxil idi (37). Şuşada tikilən hamamlardan ilki Əbdülsəməd bəy hamamı, ikincisi Aşağı bazarın yaxınlığında Uğurlu bəy hamamı, yaxınlıqda Aşağı meydanda isə Qazı Mirzə Əli hamamı olmuşdur. Hamamlar Əli bəy, Rüstəm bəy, şahzadə Bəhmən-Mirzə Qacar tərəfindən öz ailələri üçün tikilmişdir. Qadın və kişi hamamları Qarabağ xanı Mehdiqulu xanın qızı tərəfindən inşa edilmişdir. O həm də Hacı Rza ilə birlikdə əlavə olaraq qadın və kişi hamamları tikdirmişdir. Sonralar



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

Şuşa sakini Ağakişi, Hacı Əbdürrəhim və xeyriyyəçilik məqsədilə Xeyransa tərəfindən qadın və kişi hamamları, eləcə də Şahbaz hamamı inşa olunmuşdur.

Beləliklə, qeyd etmək olar ki, hamamlar kapitalizm çağında Azərbaycanın ən geniş yayılmış mülki qurmaları idi. Öz həcm-fəza və memarlıq-kompozisiya həllinə görə onlar indiyədək aktiv elementlər qismində şəhərlərin planlaşdırmasına və tikilişinə daxildir.

**Tədris müəssisələri.** Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra memarlıq tematikası genişləndi: şəhərlərin və yaşayış məskənlərinin tikilişi tamamilə yeni istiqamət aldı və onların görkəmini dəyişdi. Məktəblər və tədris müəssisələri öz iri həcmlərilə şəhər məhəllələrinin memarlıq-planlaşdırma strukturunda möhkəm yer tutdu.

Azərbaycanın ilk tədris müəssisələri sırasında Şuşa şəhərində 1830-cu ildə yaradılmış məktəb vardı. O zamanlar məktəb təhsili sistemində dini məktəblər dominant mövqe tuturdu.

Zaqafqaziya əyalətlərində məktəblər üçün bina layihəsi 1 sentyabr 1835-ci il tarixində təsdiq edilmişdir. Şuşa üçün onun şəraitinə uyğun olaraq məktəb layihəsi 21 oktyabr 1840-cı il tarixində tərtib olunmuşdur. Şuşa məktəbinin simmetrik memarlıq-planlaşdırma kompozisiyası rus klassisizmi ruhunda həll edilmişdir.

Bakıda məktəblərin və tədris müəssisələrinin inşası əsasən şəhərin geniş iqtisadi imkanlara malik quberniya mərkəzinə çevrilməsindən sonra (1859-cu il) artdı.

15 iyul 1878-ci ildə memar A.O.Zalesski tərəfindən Bakı üçün Birjevaya və Morskaya küçələrinin tinində şəhər xalq məktəbinin layihəsi işlənib hazırlandı. Bu məktəbdə cəmi üç sinfin mövcudluğuna baxmayaraq, onun proqramı qəza məktəbinə nisbətən geniş idi. Məktəbin bütün yerləşgələrinin aydın və simmetrik planlaşdırması onun funksional təyinatına uyğun gəlirdi. Şuşa məktəbinin məkanın iqlim şəraitinin özəlliklərini nəzərə almadan Peterburqda hazırlanmış layihəsindən fərqli olaraq, burada tədris otaqlarına həyət tərəfdən binanın frontu boyu Azərbaycan yaşayışının ənənəvi elementi olan açıq qalereya birləşdirilmişdir. Xalq memarlığının mühüm elementlərinin tətbiqi onun yeni sosial-iqtisadi şəraitdə yaşarılığının təsdiqi idi.

Bakı iqtisadiyyatının inkişafı, əhalinin buraya axını və artımı ilə yeni tədris müəssisələri və məktəblərin inşasına zərurət yarandı. Yeni tipli ilk tikili Sadovaya küçəsində ikimərtəbəli Mariinsk gimnaziyası (mülki mühəndis M.D.Botov, 1885-1887-ci illər) oldu. Öz memarlıq-planlaşdırma həllinə görə gimnaziya binası Rusiyada tikilən bu kimi müəssisələrin inşaat təcrübəsini əks etdirirdi.

Digər örnək kimi, Nikolayevskaya küçəsində yerləşən, memarlıq baxımından elə bir məziyyəti olmayan lazaret idi, bu bina rekonstruksiya edilərək (mülki mühəndis D.D.Buynov, 1880-cı illər) Müqəddəs Nina məktəbinə verilmişdi. Bu müəllif, eləcə də həmin magistralda Realnı məktəbin binasını layihələşdirmiş və inşa etmişdir (1901-1904-cü illər). Şəhərin mərkəzində geniş ərazinin tikilişi həm məktəb gigiyenası, həm də memarlıq baxımından məsuliyyətli yanaşma tələb edirdi.

İtalyan renessansı stilində tikilmiş Realnı məktəbin binası rəsmən Buynova aid edilir. Ola bilsin ki, ilkin layihə Buynovun idi və bu səbəbdən müəlliflik statusu ona verilib, ancaq layihənin yenidən işlənməsində digər memarların iştirakı danılmazdır. Renessans stilində öz tikililəri ilə məşhur olan İ.V.Qoslavskinin iştirakı da (Bakı şəhərinin baş memarı olaraq) ehtimaldan kənar deyildir [460, s. 225]. Realnı məktəbin layihəsində simmetrik plandan imtina və səmərəli sərbəst planlaşdırmaya keçid məkandan məqsədyönlü istifadəyə uyğun idi.

Binanın mərkəzi hissəsini akt və idman zalları ilə birlikdə inzibati qrup yerləşgələr tuturdu. Ondan hər iki tərəf boyunca həyət tərəfdən və üzü küçəyə baxan siniflər tərəfdən rekreasiyalarla tədris yerləşgələri qərar tuturdu. Bu halda belə bir planlaşdırma o qədər də münasib deyildi: böyük sinif yerləşgələri şimal-qərbə, dəhlizlər isə cənub-şərqə istiqamətlənmişlər.

Beləliklə, dəhlizlər gündüz məşğələləri zamanı maksimum dərəcədə işıqlanmalı olan sinif otaqlarına nisbətən daha əlverişli mövqe tuturdular.

Realnı məktəbin əzəmətli fasadı memarlıq kütlələrinin iri hissələnməsi, detalların ustalıqla işlənməsi və yüksək keyfiyyətdə icrası ilə "italyan ruhunu" təcəssüm etdirirdi, fəqət bu üslubi özəlliyinə baxmayaraq zamanın cizgilərini özündə daşıyırdı. Kapitalizm Azərbaycanda, əsas etibarilə Bakıda indiyə kimi şəhər tikililərinin xarakterini müəyyən edən müxtəlif mülki qurmaların yaradılmasına rəvac verdi.

Realnı məktəbin monumental binasının yanında Tağıyevin müsəlman qız məktəbi (mülki mühəndis İ.V.Qoslavski, 1898-1901-ci illər) yerləşirdi. Bu məktəb Nikolayevskaya küçəsində qala divarları yanında tikilməsi planlaşdırılan ilk bina idi. Planda kiril əlifbasındakı П-şəkilli olan məktəbin sahədən cənub tərəfdə yerləşən qala divarları sayəsində yaranan qapalı həyəti vardı. Bu, şərq şəhərinin iqlim və məişət şəraitinə son dərəcə uyğun idi. Binanın bir qədər irəli çıxarılmış





*Bakı. Sadovaya (Çkalov) küç. 11-də Mariinsk gimnaziyası binasının layihəsi. Ön fasad. Mərtəbələrin planı. Mülki mühəndis M.D.Botov. 1885-ci il.*






*Bakı. Nikolayevskaya (Kommunist) küç. 8-də H.Z.Tağıyevin müsəlman qız məktəbinin binası. 2-ci mərtəbənin planı. Mülki mühəndis İ.V.Qoslavski, 1898-1901-ci illər.*

mərkəzi hissəsi təkcə planlaşdırma - yəni inzibati qrupun yerləşdirilməsi ilə deyil, həm də həcm baxımından ifadə edilmişdir. Rekreasiyalar və sinif yerləşgələrinin rasional və münasib yerləşdirilməsi belə bir üsula uyğun idi. İnteryerlər yaxşı işlənmiş, karnizlər və memarlıq detalları ciddiyyət və zövqlə cizgilənmişdir.

Tədris müəssisəsi binasının həllində Nikolayevskaya küçəsi tərəfdən çox gözəl işlənmiş ön fasad müstəsna yer tutur. Ön fasad "şərq" üslubundadır, lakin bu "birtipli" layihə deyildi - Rusiyanın digər şəhərlərində tikilmiş binalarda, qurmalarda əksini tapan ekzotikaya vurgunluğun təcəssümü sayıla bilər. Bu - istedadlı bir sənət adamının əsəridir, detalların gözəl icra olunmuş profilləri ilə Azərbaycan memarlığının olduqca plastik və koloritli əsərini yaratmışdır.

Qoslavskinin inşa etdiyi binanı Bakı mətbuatı o vaxtlar çox yüksək qiymətləndirmiş və qeyd etmişdi ki, "Bakının ən yaxşı küçələrinin birində yerləşməklə, bu məktəb binası memarlıq baxımından ən özəl tikililərdən biri kimi şəhərə yaraşıq verəcək, onda izafi təmtəraq yoxdur, özünün bütün hissələrinin zərif sadəliyi və harmoniyası ilə əlverişli mövqe tutur."

Şəhərin iri tədris müəssisələrinə indiki Lenin prospekti, 20-də, vağzalın yaxınlığında yerləşən Bakı Texniki Məktəbi (mülki mühəndis İ.V.Qoslavski, 1898-1902-ci illər) də aiddir. Layihənin müzakirəsi zamanı mühəndis-texnoloq Fərrux bəy Vəzirov qeyd edirdi ki, o "çox təmtəraqlı tərtib olunub, məsələn, laboratoriyanın layihələşdirilməsi o dərəcədə genişdir ki, beləsi nə Peterburq Universitetində, nə də Texnoloji və Dağmədən institutlarında var". Vəzirov binanın həcminin ixtisarını və tikilinin dəyərinin azaldılmasını təklif etdi. Müəllif isə layihəsini müdafiə edərək bildirirdi ki, smeta "ən aşağı dəyərlə hesablanmış və ixtisar etmək imkanı yoxdur". Layihə dəyişiklik edilmədən təsdiqlənmiş və 20 avqust 1898-ci il tarixində binanın təməli qoyulmuşdur [412].

Məktəbin ikimərtəbəli binası (indiki M.Əzizbəyov adına Neft və Kimya İnstitutu) 1920-ci ildə onun ali tədris məktəbi kimi istifadəyə verilməsinə imkan yaradan geniş auditoriyalara, enli dəhlizlərə və pilləkənlərə malik idi. Məktəbin ön fasadı öz ordег memarlığının klassik formaları və detallarının dəqiq işlənməsilə Realnı məktəbin fasadı kimi görkəmli olmasa da, kifayət qədər plastik və monumentaldır.





Bakının tədris müəssisələrinin sırasında aparıcı yerlərdən biri, şübhəsiz, Kommersiya Məktəbinin binasına məxsusdur. Bakı Kommersiya Məktəbi Qəyyumlar Şurasının tapşırığı ilə S.Peterburqun İmperator Memarlar Cəmiyyəti 22 fevral 1904-cü ildə 800 yerə malik məktəbin layihəsinin tərtibi üzrə müsabiqə elan etmişdi [360, s. 94]. Baxılmaq üçün müsabiqənin münsiflər heyətinə Peterburq memarları tərəfindən 20 layihə təqdim olunmuşdu.

Münsiflər o zamanın məşhur memarları L.N.Benua, Q.D.Qrimm, A.İ. fon Qoqen, O.R.Munts və P.İ.Şestovdan ibarət idilər [360, s. 199].

Təqdim edilmiş layihələri kompozisiyalarına görə simmetrik və asimmetrik tiplərə ayırmaq olar. İlk mükafata mülki mühəndis rəssam-memar S.P.Qalenzovski, memarlar İ.V.Padlevski və K.Q.Skolimovski layiq görüldülər [388, s. 571-577]. "№22" adı altında təqdim olunmuş layihə ikinci mükafata layiq görüldü, bu işin müəllifi Bakı memarı, mülki mühəndis Q.M.Termikelov idi. Münsiflərin Termikelovun layihəsi haqqında rəyində qeyd edilirdi ki, "kompozisiyasına görə məktəb binasının planı istər ümumilikdə, istərsə də detalları baxımından üstünlükləri ilə fərqlənir" [388, s. 571-577]. Ancaq məktəb fasadının memarlığında modern üslubun əlamətləri vardı. Buna baxmayaraq, icrası savadlı və maraqlı olsa da, bütövlükdə Qalenzovski qrupunun layihəsindəki kimi effektli həll yoxdur. Həcmlərin kompozisiyası və traktovkası bir qədər "akademikdir", onda bu memarlıq ustadına xas bədii fantaziya görünmür.

Üçüncü mükafatı almış layihənin müəllifləri mülki mühəndislər A.F.Bubır və L.A.İlyin idi. Üç mükafatlandırılmış layihədən savayı münsiflər daha iki layihəni almaq niyyətindəydi. Onlardan biri "Mədrəsə eskizi" (simmetrik variant) devizi altında şərq xarakterli fasadlara malik dörd variantda təqdim edilmişdir ki, bu da eyni stilistik əsası olan şəhər üçün çox vacib idi.

Memarlıqda stilizatorçuluq və eklektika dövründə Rusiyanın müxtəlif şəhərlərində binaları layihələşdirən və inşa edən çox az memar ətraf tikililərə, memarlığın yerli və milli özəlliklərinə diqqət yetirirdi. Belə bir vəziyyət dərin milli ənənələrə malik olan yerli memarlığın silinib getməsinə gətirib çıxarır və Qərbi Avropa memarlığının stilizasiyası ilə əvəz olunurdu. Buradan da Zaqafqaziya şəhərlərinin zəngin memarlıq irsi olan küçə və məhəllələrinin tikilişində harmoniyasızlıq yaranırdı. Yalnız bəzi memarlar yerli stilistik xüsusiyyətlərə üz tuturdu ki, bu da milli-romantik istiqamətdə tikiliş üsullarını axtarmaq tələbi doğururdu.

Müsabiqədən sonra Termikelova Kommersiya Məktəbinin yeni layihəsini tərtib etmək sərəncamı verildi. O öz layihəsindən imtina edərək, tələb olunan şəraitə ən uyğun olan Qalenzovski qrupunun müsabiqə layihəsindən istifadə etdi. Termikelov Peterburq memarlarının baş planının ümumi sxemini qəbul etdi, ancaq Kaspiyskaya küçəsi tərəfindən (Leytenant Şmidt) özünün kurdoner ideyasını saxladı ki, bu da binanın fəza stukturunun həllinə həcmlilik qatdı. Ön fasadın kompozisiyasında da Qalenzovski qrupunun sxemindən istifadə edilmişdi.

Termikelovun layihəsinin əsasını Qərbi Avropa memarlığının formaları təşkil edirdi ki, burada dam örtüyünün əyri frontonları, fasad divarların yapma və dekorativ bəzəklərdən azad hamar səthi üstünlük təşkil edirdi. Bütün fasad divarlarının müstəvisi təzadlılıq əsasında qurulmuşdur ki, bu da prinsip etibarilə



*Bakı ş-də Kommersiya Məktəbinin müsabiqə layihəsi. 1-ci mükafat. Mülki mühəndis rəssam-memar S.P.Qalenzovski, memarlar İ.V.Padlevski və K.Q.Skolimovski. 1904-cü il.*

istifadə olunan tikinti materiallarının-əhəngdaşı və suvağın ciddiliyini və özəlliyini qoruyub saxlayırdı. Divarların suvağı fonunda daş relyefli şəkildə seçilirdi. Daşdan kürsülüyün üzlənməsində, divar künclərinin, pəncərə və qapı kənarlıqlarının haşiyələnməsində istifadə edilirdi. Frontonların cizgiləri və bürclərin başaçatdırması, binanın parlaq kirəmitdən damüstü örtüyü bu qurmanın bədii əsasını müəyyən edirdi.

Binanın işıq-kölgə effektləri ilə həcm modelləşdirməsi, inşaatın özünəməxsus arxitekturası və yüksək mədəniyyəti məktəb binasına yalnız o zaman üçün deyil, həm də bizim günlərdə şəhərin tikilişində aparıcı yerini təmin etmişdir.

Bununla yanaşı digər layihə təklifləri də vardı. Hələ 1903-cü ildə mülki mühəndis K.B.Skureviç Telefonnaya küçəsində (28 Aprel küçəsi) oğlanlar gimnaziyasının binasını layihələşdirmişdi. 1910-cu ildə oğlanlar gimnaziyası üçün Balaxanskaya və Krasnovodskaya küçələrinin tinində yeni sahə ayrıldı. Layihəni şəhərin baş memarı, mülki mühəndis K.A.Borisoqlebski tərtib etdi (1910-1913-cü illər).

Bakının maraqlı memarlıq tikililərindən biri Çəmbərkənd ətəklərində az tikilmiş məhəllələr rayonunda yerləşən "Səadət" məktəbinin binasıdır (mülki mühəndis Z.b. Əhmədbəyov, 1912-1913-cü illər). Binanın planı uzunsov formaya malikdir. O zamanın məktəb inşaatına planlaşdırma verilənləri xasdır, yəni strukturuna üzü həyətə yönəlmiş rekreasiya və ön fasad tərəfdən sinif otaqları sistemi daxildir.

Şəhər İdarəsi tərəfindən vahid "birtipli" layihə üzrə tikilən şəhər məktəbləri binaları arasında bu məktəb öz tədris proqramı və tələblərilə, planın fərdi traktovkası və həcm-fəza xarakteristikası ilə fərqlənirdi. Bu halda planın qəbul edilmiş simmetrik-ox kompozisiyası mərkəzdə inzibati hissəni ələ qurmağa (Tağıyev məktəbindəki kimi) və əlavə aralıq hollara ehtiyac duymadan yanlarda yerləşən tədris qrupu ilə səlis







*Bakı ş-də Kommersiya Məktəbinin müsabiqə layihəsi. 2-ci mükafat. 1904-cü il. Mülki mühəndis Q.M.Termikelov. Ümumi görünüş. 1913-cü il.*





Bakı. Balaxanskaya (Basin) küç. 61-də Oğlanlar gimnaziyasının binası. 4-cü mərtəbənin planı. Kəsim. Mülki mühəndis K.A.Borisoqlebski. 1912-1913-cü il.

əlaqəyə və uzlaşmaya nail olmağa imkan vermişdi.

Binanın daha əzəmətli və təmtəraqlı hissəsi olan mərkəzi hissə sahənin qırmızı xəttinə qədər gətirilib, halbuki siniflərin yerləşdiyi üfüqi yan qanadlar içəriyə doğru geri çəkilmişdir. Belə bir planlaşdırma həlli sayəsində binanın özünün istismar keyfiyyətləri artmış, məktəb isə bu tip şəhər qurmalarına xas quru görkəm yerinə ifadəli həcmi-fəza obrazı almışdır.

Binanın əsas və əlavə hissələrinin təyinatına uyğun olaraq, yerli Azərbaycan və şərq motivlərinin əks olunduğu memarlıq kompozisiyası işlənib hazırlanmışdır. Əla cizgilənmiş profillərin üfüqi xətlərin ciddiliyi, bütün binanın və onun ayrı-ayrı elementlərinin düzgün tapılmış proporsiyaları, memarlığın yerli koloriti məktəbi o zamanın ən yaxşı ictimai qurmaları sırasına qoyur.

Xüsusi tədris müəssisələrinin inşası ilə yanaşı Bakıda şəhər məktəbləri və özəl məktəblər də tikilirdi. Şəhər məktəblərinin ilk binalarından biri memar A.V.Eyxlerin layihəsi əsasında tikilən iki ibtidai məktəb (1898-ci il) idi. Məktəbin neoyunan stilində həll edilmiş ikimərtəbəli binası tikilişin aktiv elementinə çevrildi.

1901-ci ildə məktəb binaları mülki mühəndislər İ.K.Ploşko və Q.M.Termikelov tərəfindən layihələşdirilirdi. Bütün bu tikililər məktəblərə olan ehtiyacı ödəmirdi, həyat isə inadkarlıqla bu problemin həllini tələb edirdi. Yalnız 1909-cu ilin sonları 1910-cu ilin əvvəllərində məktəblərin inşasında canlanma başladı. 81-92 sinifdən ibarət binaların tikilməsi nəzərdə tutulurdu. Tikintinin tezləşdirilməsi və xərclərin azaldılması üçün məktəb komissiyası layihənin müəllifi mülki mühəndis F.A.Nikulindən "fasad tərəfə fikir verməsini ...eyni tipdə olmasını" tələb etdi. Nikulin məktəb layihəsini iki variantda: fasadın simmetrik və asimmetrik kompozisiyasında təqdim etdi.

1910-cu ilin proqramı üzrə tikilməsi nəzərdə tutulan məktəb binalarının, yəni: 1) Çəmbərəkənddə; məhəllə 23, Verxne-Kladbişenskaya küçəsində; 2) Şamaxinkada; məhəllə 249, 5-ci Parallelnaya və Şemaxinskaya küçələrinin tinində; 3) şəhərin dağlıq hissəsində, məhəllə 32; 4) Zavağzal rayonunda, məhəllə 478, 2-ci Slobodskaya küçəsində; 5) 399-cu məhəllə, Torqovaya (Nizami) və Kaspiyskaya küçələrinin tinində və s. tərəfimizdən naturada aparılan tədqiqi göstərmişdir ki, onların hamısında fasad kompozisiyaları sahənin dərinliyinə çəkilməyərək öz asimmetrikliyini qoruyub saxlamışdır.

Məktəblərin memarlığını nəzərdən keçirən komissiya detalları sadələşdirmək fikrinə gəldi və şəhərin baş arxitektoru





Borisoqlebskinin göstərişinə müvafiq olaraq Nikulinə bunu yerinə yetirmək təklif olundu. Məktəb binalarının layihələrinə düzəlişlər edən K.İ.Hacıyev fasadın memarlıq kompozisiyasına əlavələr etmişdi: "bina fasadının divarları alatava daşından, çıxıntılar isə daha gözəl olan Bibi-Heybət daşından işlənsin".

Beləliklə, "birtipli" məktəb binasının memarlığı bir növ müştərək olaraq layihələşdirilir, müəllif-memara isə başqalarının çox vaxt qeyri-peşəkar ideya və fikirlərinin icraçısı rolu ayrılırdı. Öz çoxsaylı layihələri və tikililəri ilə məşhur olan memar E.A.Skibinski məktəb binalarının birtipli tikilməsinə qarşı çıxdı və ayrılmış hər bir sahəyə və fasad memarlığının həllinə fərdi yanaşma tələb etdi. Təcrübəli memarın bu etirazları qəbul edilmədi və şəhərin yuxarıda qeyd olunmuş məhəllələrində birtipli məktəblər inşa edildi.

1911-ci ildə tikilən məktəb binalarının çoxu ikimərtəbəli idi. Öz memarlığına görə bunlar bir-birinə bənzəyən sıravi tikililər idi. Bu binalar hörgüsünün yüksək keyfiyyəti ilə seçilirdi ki, bu da şəhərin ucqar yerlərində məhəllələrin memarlığına görə gözə çarpmayan yaşayış tikililərinin fonunda fərqlənən məktəb binalarının görünüş ifadəliliyini artırırdı. Lakin memarlığın və planlaşdırmanın birtipli olması şəhərin məktəb binalarının sürətlə və operativ şəkildə inşasına imkan verdi; layihənin fərdi işlənməsində buna nail olmaq çətin olardı.

Həyatın özü memarları yaranmış vəziyyətdə düzgün olan müsbət qərarlara istiqamətləndirirdi. Məktəb gigiyenası nöqteyi-nəzərindən, bu məktəblər çox optimal istiqamətə malik idi. Demək olar bütün sinif otaqları üzü cənuba – cənub-şərqə yönəlmişdir. Ancaq məktəb binalarının layihələrini tərtib edən zaman pedaqoji personalın və mütəxəssislərin



Fasad fraqmenti. Rəsm – Ş.S.Fətullayev.

məktəb gigiyenası məsələləri üzrə rəyi nəzərə alınmırdı. Bunun nəticəsində bir çox qüsurlar ortaya çıxdı, "məktəb üçün tikilən evlər məhz elə məktəbin özü üçün yararsız olaraq qaldı" [93].

Məktəblərdə rekreasiyalar əvəzinə geniş dəhlizlər nəzərdə tutulmuşdur ki, bu da pedaqoqların və gigiyenistlərin fikrinə görə sanitar tələblərə cavab vermirdi. Məktəb sahələrii kiçik, meydançalar isə - kafi ölçüdə deyildi. Siniflərdə pəncərə çərçivələrinin düzgün olmayan konstruksiyası ucbatından ventilyasiya yox idi, sobaların sayı kifayət deyildi və s. Layihələşdirmə zamanı mütəxəssislərlə məsləhətləşmələr aparılsaydı, yeni tikililərdə bu qədər böyük qüsurlar olmazdı. Məhz buna görə onlardan biri kədərlə qeyd edirdi ki, "yaxşı iş görmək azdır, bundan başqa - işi yaxşı görməyi bacarmaq da gərəkdir" [93].



*Mülki mühəndis Zivər bəy Əhmədbəyov (1873-1925).*

Bakıda yeni məktəb binalarının tənqidi tək elə ona görə müsbət nəticə verdi ki, Nikulinin layihəsi üzrə 1912-ci ildə tikilməsi nəzərdə tutulan yeddi əlavə məktəb binasının inşası təsdiq edilmədi. Yeni, təkmilləşdirilmiş məktəb layihəsi işlənib hazırlandı. Belə ki, əgər əvvəl layihə üzrə sinif otaqlarının ölçüsü 7,12 x 8,53 idisə, indi 6,4 x 9,25, dəhlizin eni isə 4,98 metr yerinə 5,69 metr tələb olunurdu.

1912-ci ildə Bakıda ümumi təhsil elan edildi və bununla bağlı perspektiv üçün məktəb binalarının inşası planı ortaya çıxdı. Bu plana görə, 10 il müddətində ümumi ibtidai təhsili həyata keçirmək və bu zaman ərzində, yəni 1910-1919-cu illərdə 271 sinifdən ibarət, ümumi dəyəri 1 111 000 rubl təşkil edən yeni məktəb binalarının inşasını şəhər öz üzərinə götürdü. Siniflər illər üzrə bu sayda bölüşdürülmüşdü: 1911-ci ildə - 79, 1912-ci ildə - 48, 1913-cü ildə - 32, 1914-cü ildə - 25, 1915-ci ildə - 23, 1916-cı ildə - 25, 1917-ci ildə - 18, 1918-ci ildə - 10, 1919-cu ildə - 11 sinif.

Bakıda məktəb tikintisi planından gec də olsa yalnız 1911-ci və 1912-ci illərin proqramı tamamilə yerinə yetirilmişdir. 1914-cü ildə başlanan müharibə tikintini davam etdirməyə mane oldu. 1911-1912-ci illərin məktəb binaları Bakıda ümumi təhsilin tətbiqi ilə bağlı geniş proqramla nəzərdə tutulmuş bu sıradan yeganə tikililərdir.

Neft Sənayeçiləri Qurultayının Şurası tərəfindən şəhərlə yanaşı, Bakının neft mədənləri rayonlarında da (Sabunçu, Zabrat, Balaxanı) memarlıq-planlaşdırma nöqteyi-nəzərindən maraq doğuran bir sıra məktəb binaları tikilmişdir.

XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanın digər şəhərlərində, məsələn Gəncədə, Nuxada, Zaqatalada, Göyçayda da məktəblər və tədris binaları tikilirdi. Bütövlükdə bunlar hamısı hər bir şəhərin memarlıq-tikinti siyasətinin özəlliklərini əks etdirir və bir elə estetik üstünlüklərə malik deyil. Yalnız Göyçay şəhəri üçün modern üslubda Bakıda tərtib olunan (1917-ci il) məktəb layihəsi öz fərdi traktovkasını almışdır. Zaqatala qadın gimnaziyası modern üslubun sakit və mütənasib formalarında daha maraqlı tərzdə tərtib edilmiş və tikilmişdir (1910-cu illər).

**Tamaşa binaları.** XIX əsrin ikinci yarısından şəhərlərin iqtisadi rifahının artması mədəni həyatın canlanmasına, Avropanın teatr və sirk sənətinə marağın güclənməsinə səbəb olur. Azərbaycanda ilk həvəskar teatr tamaşası 1848-ci ildə Şuşada qoyulmuşdur. Şuşanın iqtisadi cəhətdən əlverişli güzəranı burada tamaşa binalarının, teatrın, sirkin yaranmasına səbəb oldu. Sırf bu məqsədlər üçün xüsusi binalar tikilmirdi, teatr və sirk tamaşaları üçün buna uyğun müxtəlif iri binalardan istifadə edilirdi.

*Teatrlar.* Şuşa teatrı özəl binada yerləşirdi. Müasirlərin fikrincə, o "gözəl dekorasiyalara, zövqlə işlənmiş lojalara malik idi və çoxsaylı tamaşaçı cəlb edirdi" [253]. Elə həmin məqalədə Şuşada Lambergerin sirk tamaşalarının göstərildiyi sirkin mövcudluğundan xəbər verilirdi.








*Bakı. "Səadət" məktəbinin binası. Baş plan, fasad, kəsim. Mülki mühəndis Zivər bəy Əhmədbəyov (1912-1913-cü illər).*

Beləliklə, yeni memarlıq mövzusu – tamaşa qurmaları mövzusu - olan tamaşa binaları artıq XIX əsrin birinci yarısının sonlarında Azərbaycan şəhərlərinin strukturuna daxil idi. Baxmayaraq ki, tamaşa qurmaları şəhərlərin həcm-fəza kompozisiyasında tam iştirak etmirdilər, lakin öz yeniliyi və xarakteri ilə öz varlıqlarını ifadə edirdilər.

Qubemiya mərkəzi olan Şamaxı öz mədəni səviyyəsi ilə bir çox Qafqaz şəhərlərinin arasında seçilirdi. Burada 1857-ci ildən əhalinin artan marağına səbəb olan həvəskar tamaşalar qoyulurdu və bu hal yerli teatr həvəskarlarını 1858-ci ildə şəhərdə teatr təşkil etmək fikrinə gətirdi [433].

Belə bir məsul qurma üçün Şamaxıda yer tapmaq çətin idi. Özəl binalar uyğun gəlmirdi, dövlət binası isə yox idi. Yeni teatr binasının inşasına vəsait də olmadı. Ancaq çıxış yolu tapıldı. Şəhərin mərkəzi rayonlarının birində "Duz mağazası"nın köhnə, boş iri daş binası təşəbbüskarların diqqətini cəlb etdi [153, 239]. Ölçülərinə və şəhərin planlaşdırma strukturunda yerləşməsinə görə "duz mağazası"nın binası bu məqsəd üçün daha münasib idi. Qafqaz namestnikindən dövlət binasının istifadəsi üçün razılıq alındı və Şamaxı sakini Ağa bəy Zeynal bəy oğlu onun rekonstruksiyası üçün 1500 rubl vəsait ayırdı.

İcazə alındıqdan və vəsait ayrıldıqdan sonra tikinti işlərinin aparılması üçün binanın yenidənqurma layihəsi tərtib olunmalı idi.



*Abşeron. Sabunçu kəndində 2-ci məktəbin binasının layihəsi. Ön fasad. 2-ci mərtəbənin planı. 1900-cü illər.*



Lakin quberniya memarı italyan L.Kambiaco bu vaxt Şamaxıda deyildi – onu xidməti işlə bağlı Tiflisə köçürmüşdülər. Şəhər teatrının təşkilatçıları Kambiaconun gedişindən sonra şəhər memarı olan müavini Qasım bəy Hacıbababəyova müraciət etdilər. Məşhur yerli memar Kərbəlai Əli Rəcəb oğlunun yanında böyük peşəkar məktəb keçən və sonradan Kambiaconun rəhbərliyi altında çalışan, Cavad və Şamaxı şəhərlərinin baş planının müəllifi Qasım bəy Şamaxı quberniyası daxilində çoxsaylı yaşayış, ictimai və ayin binaları inşa etmişdir.

Lakin teatr binasının layihəsi, onun planlaşdırması, bu tip binalara dair tələblər Zaqafqaziya şəhərləri üçün, özəlliklə də Şamaxı üçün yeni memarlıq mövzusu idi. Memar Qasım bəy Avropa teatr binalarının spesifikasını bilməsə də, "istedadlı bir insan kimi, işin mahiyyətini dərk edərək, şəhər teatrının çox özəl bir layihəsini tərtib etdi. [433]". Peşəkar teatrın xeyli sonralar yaranmasına baxmayaraq, Şamaxı teatrı Azərbaycanda ilk tamaşa binası olmuşdur.

Teatr binasının yaranması şəhərin mədəni həyatında böyük hadisəyə çevrildi. O şəhərin tikilişinin həcm-fəza strukturunda əhəmiyyətli rol oynadı [401], şəhərin mərkəzi rayonunun planlaşdırma strukturuna təsir etdi və buranın tamaşa günlərində canlanma dərəcəsinə görə Cümə məscidinin qarşısındakı ticarət meydanını üstələyən Teatr meydanının təşəkkülünə səbəb oldu [278]. Hakimiyyətin təmsilçiləri ilə təntənəli görüşlər də burada keçirilirdi. Əvvəlki "duz mağazası"nın köklü rekonstruksiyasından sonra yeni teatr binasının istər xarici görünüşünə, istərsə də daxili interyerinə görə memarlıq baxımından cəlbedici göstəriciləri vardı.

Teatr binası həm şəhərin memarlıq görünüşünə, həm də şamaxılıların həyatına üzvi bir şəkildə daxil oldu. "Şamaxıda teatr, yəni improvizasiya səhnəsində tamaşa mənasında teatr deyil, məhz teatr binasıdır - parteri, lojaları və rayokları ilə...", - deyə müasirlərdən biri yazırdı [433]. Səhnənin rahat görünüşünü təmin edən geniş maili zalın 100 yerlik parteri vardı, yan tərəflərin hərəsində yeddi loja, səhnə ilə üz-üzə isə qapalı tip üç loja yerləşirdi ki, bunlara da varlı azərbaycan qadınları üçün "yaxşı hündürlük və böyük ölçü" verilmişdi [433]. Lojalar parter üzərindən kifayət qədər qaldırılmışdır ki, bu da onların altında əlavə yerlərin quraşdırılmasına imkan vermişdir. Lojaların üstündəki gözəl rayok qübbə tipli tavanla örtülən teatr zalının tutumunu artırırdı.

İşlərin çətin şəraitdə aparılmasına baxmayaraq, çünki "duz mağazası"nın teatr qurmasına çevrilməsi asan işlərdən deyil, zal çox effektli görünür, yaxşı işıqlanırdı və tamaşaçı üçün rahat idi. Teatrın açılışı 17 aprel 1858-ci ildə oldu və təntənəli şəkildə qeyd olundu. Səhnədə ilk tamaşa göstərildi. Şamaxı teatr binası kimi ictimai qurma əldə etdikdən sonra yeni həyata başladı. "Afişalar əldən ələ gəzir, bilet almaq üçün insanlar şəhərin müxtəlif tərəflərindən buraya tələsirdi, axşamlar tamaşaya tələsən varlıların ekipajları küçədə taqqa-turuq salır, teatrın girişində yerli və gəlmə bəylərin atları sürtüşür və kişnəşirdi. Polis var gücü ilə vurnuxurdu ki, burada bir hadisə baş verməsin" [433].

Bəs Şamaxı teatrının zahiri görünüşü, onun Qasım bəy tərəfindən hazırlanmış planlaşdırma strukturu necə idi? Bu məsələ Azərbaycanda teatr binaları inşasının tarixinin tədqiqi üçün ayrıca maraq doğurur. Teatrın memarlığının və planlaşdırmasının bərpasına kömək edəsi qrafik materiallar, yəni planlar, fasadlar və ya digər çertyojlar indiyədək tapılmamışdır. Tərəfimizdən mərkəzi və yerli arxivlərdə aparılmış axtarışlar, təəssüf ki, müsbət nəticə vermədi. Tamaşa zalının ümumi təsvirini əldə rəhbər tutaraq, müəllif Şamaxı teatrının rekonstruksiyasının layihə sxemini tərtib etmişdir [274]. Qafqaz memarları arasında belə bir tapşırığın öhdəsindən gələn ilk memar Qasım bəyin yaradıcılığında bu hadisə mühüm yer tuturdu. Parterin tutumu (100), lojaların sayı (17) və onların tamaşa zalına nisbətən yerləşməsi, lojaların altında əlavə yerlər, rayokun mövcudluğu haqqında məlumatlar, eləcə də o zamana aid teatrların inşasına dair xüsusi ədəbiyyat [187] – bütün bunlar ümumilikdə Şamaxı teatrının rekonstruksiya sxeminin tərtibinə imkan yaratdı.

100 yerlik parterdən savayı tamaşa zalında lojaların altında müvafiq aralıqla 120 əlavə yer quraşdırılmışdı. Tamaşa zalı boyunca yerləşdirilən lojalar 70 yer tuturdu, yəni dörd yer lojadan, səhnə ilə üz-üzə yerləşən rayok isə 90 yerə malik idi. Beləliklə, Şamaxının şəhər teatrı orta hesabla 400 yerlik nəzərdə tutulmuşdu ki, bu da Zaqafqaziyanın 25 000 əhalisi olan quberniya mərkəzi üçün sanballı rəqəm idi.

Müqayisə üçün qeyd edək ki, 1891-ci ildə Bakının 107 215 nəfərlik əhalisi üçün yeganə (Tagiyev) teatr 578 yerdən ibarət idi [346, s. 86]. Səhnə ilə birlikdə tamaşa zalından savayı foye, dəhlizlər, lojaya və rayoka aparan pilləkənlər kimi elementlərin xarakteristikasını müəyyən etmək, artist otaqlarını nəzərə almaq lazım idi. Teatr tamaşalarının uğuru, tamaşaçıların böyük axını hansısa dərəcədə zalın rahatlığı, interyeri, tamaşaçıların antrakt zamanı rahat gəzişə biləcəyi geniş foye və dəhlizlərlə ilə təmin olunurdu.

Teatrın memarlıq baxımından işlənməsi yerli memarlıq ənənələrinə əsaslanırdı.

Şamaxı teatrı 1859-cu ilin mayında baş verən zəlzələdə varlığına son qoyanadək xeyli müddət mədəni mərkəz kimi çıxış etmişdir. 1868-ci ildə Qafqaz

namestniki vilayət qubernatorlarından əyalət teatrları haqqında məlumat tələb edəndə, Bakı qubernatoru məlumat verirdi ki, quberniyada yeganə teatr binası "yerli əhalinin səhnə tələblərini müəyyən səviyyədə qarşılayan, ancaq sonradan... sınıq-salxaqlığına görə uçub-dağılan" Şamaxıdakı bina idi.



*Şamaxı ş. Şəhər Teatrının planı və fasadı. Memar Qasım bəy Hacıbababəyov. 1858-ci il. (Rekonstruksiya – Ş.S.Fətullayev)*



Azərbaycanda teatr binalarının inşası tarixində yeni mərhələ şəhərin və Bakı quberniyasının inzibati və ictimai həyatının cəmləndiyi keçmiş qəza şəhəri olan Bakıda teatr binasının inşasından başladı. İlk vaxtlar quberniya idarələrini və digər təşkilatları Bakıya köçürən zaman bu şəhər geniş quberniyanın mərkəzi qismində oynamalı olduğu rola hazır deyildi.

Bakıda yerli əhalinin teatr binasına olan ehtiyacı qubernator tərəfindən də qəbul edilirdi. "Bakının yüksək cəmiyyətindən" xanımların təşəbbüsü ilə memar Qasım bəy tərəfindən XIX əsrin 60-cı illərində tikilmiş ikimərtəbəli özəl binada (indi Nizamı adına Muzeyin binası) yerləşən Bakı Kübar Cəmiyyətinin zalında hər qış həvəskar tamaşalar oynanırdı.

Geniş sahədə yerləşən zalın bir tərəfdən estradası vardı və o rəqs gecələrində qadınlara qonaq otağı kimi xidmət edirdi, tamaşa günlərində isə - bütün teatr atributlarına malik improvizasiya səhnəsinə çevrilirdi. Əgər belə bir yerləşgə həvəskar tamaşaların tələblərinə uyğun gəlsə də, peşəkar teatrın yaradılması üçün xüsusi bina və yaxud bu məqsədlər üçün məxsusi rekonstruksiya olunmuş Şamaxıdakı tipli bina lazım idi.

1872-ci ildə neftli torpaqlara görə otkup (icarə) sisteminin ləğvi və 1878-ci ildə Bakıda şəhər özünüidarəsinin tətbiqi istər şəhərin sənayecə inkişafı üçün, istərsə də şəhər təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb etdi. Eyni zamanda ictimai həyat da canlanmış, Bakı kimi iri kapitalist şəhərində əhalinin tələblərinə müəyyən dərəcədə cavab verməyə qabil mədəni-məişət qurmaları yaranmışdır.

1880-cı ildən şəhər idarəsi ayrı-ayrı şəxslərin şəhərin qələbəlik yerlərində teatr, sirk və digər tamaşa binalarının inşası haqqında ərizələri ilə dolu idi. Xüsusən də Teatr (Petrovskaya) meydanı və Mixaylovsk bağı (Bakının sağlamlıq zonası) kimi gediş-gəlişli yerlərinə böyük tələb var idi. Teatr antreprenerlərindən biri Veroni-Vest şəhər idarəsindən "Bakıya layiq" teatr-sirk binasının inşası üçün sahə ayrılmasını istədi, lakin bir şərtlə ki, bu hüquq bir daha heç kimə verilməsin. Beləliklə, ilk dəfə Bakıda teatr binasının inşası üçün ərizə 6 oktyabr 1880-cı ildə verilmişdir. Veroni-Vestin ardınca idarəyə yay teatrının inşası üçün Mixaylovsk bağında sahə ayrılması barədə şəkil əlavə edilən daha bir ərizə daxil oldu.

Bakıda teatr işi zəif inkişaf edirdi, peşəkat teatr üçün daimi bina yox idi. Tezliklə şəhərdə iki "teatr" deyilən bina yarandı, lakin heç biri səhnə tamaşaları üçün qətiyyən uyğun deyildi. Yerli "Kaspi" qəzetinin müxbiri yazırdı: "Biri həbsxananın yanında üfunət qoxusu verən dəhlizdə; digəri isə köhnə sirkdə - yenə də iy-qoxulu bir yerdə idi. Hər iki truppa oynamır, adamı əsəbiləşdirən keyfiyyətsiz dramları tamaşaya qoyur və qəpik-quruş qazanırdı [330]".

Teatr tamaşaları xüsusən də 1873-cü ildə Azərbaycan milli peşəkar teatrı yarandıqdan sonra ildən-ilə yerli əhali arasında populyarlıq qazanırdı [13]. Bu şəraitdə məşhur Bakı milyonçusu H.Z.Tağıyevin ağlına Bakıya "əsl teatr binası" bəxş etmək ideyası gəlmişdi [330]. 1882-ci ildə o, təsdiq edilməsi üçün idarəyə öz şəxsi ərazisində Qorçakovskaya və Merkuryevskaya küçələrinin tinində tikiləcək binanın layihəsini təqdim etmişdi. Sahə şəhərin mərkəzində yerləşirdi və məkan baxımından bütün üstünlüklərə malik idi, hətta bu baxımdan varlılar yaşyan mərkəzi məhəllələrdən bir az kənarda yerləşən Teatr meydanını üstələyirdi.

Burada buğda anbarı kimi istifadədə olan iri bina yerləşirdi: bu geniş məkanı onun sahibi köklü sürətdə rekonstruksiya edərək teatr üçün uyğunlaşdırmaq qərarına gəlmişdi. Bu sifarişi alan memar binanın öz funksional təyinatına uyğun olması üçün böyük planlaşdırma və konstruktor işləri görməli oldu. Layihə 35 vərəq üzərində hazırlandı. Binanın ucaldılmasına mühəndis-texnoloq Ferdinand Lemkul nəzarət edirdi.

XIX əsrin sonlarında tikilən Tağıyev teatrı Bakıda bu qəbildən yeganə kapital bina olaraq, öz fəaliyyəti dövründə dəfələrlə rekonstruksiyaya məruz qalmış, yanmış və yenidən bərpa edilmişdir.

Və hər dəfə onun memarlıq-planlaşdırma kompozisiyası, interyer bəzəkləri və fasad dekorunun keyfiyyəti yaxşılaşdırılmışdır. Təəsüf ki, arxivlərdə nə ilkin, nə də sonrakı çertyojlar qalmışdır. Xüsusən də təfərrüatlı təsvir olunmadığından teatrın və tamaşa zalının erkən vaxtlardakı memarlıq görünüşünü təsəvvür etmək çətindir.



*H.Z.Tağıyev Teatrı. Ön fasad. (Çertyoj – Ş.S.Fətullayev) Ümumi görünüş. Tağıyevin albomundan fotoşəkil.*







1883-cü ilin sonlarında teatr Lemkulun nəzarəti altında inşa edildi və 23 noyabrda binanın təhvil-təslimi üzrə xüsusi komissiya planlaşdırma, konstruktiv və yanğından mühafizə kimi çoxsaylı qüsurların qeyd edildiyi akt tərtib etdi. Aktda əsasən birinci mərtəbə ilə zalın yuxarı yarusları arasında, məhdud sayda pilləkən və qapılar səbəbindən lojalar qalereyası ilə kifayət qədər əlaqənin olmadığı qeyd edilirdi.

Artist otaqları da həmçinin nahamvar şəkildə həll olunmuşdu ki, bu da son zamanlar tez-tez müşahidə edilən, səhnədə baş verən yanğınlar zamanı böyük təhlükə yaradırdı. Aktda qeyd olunurdu ki, açıq taxta çatqılı səhnə qutusunun ikiköbərli dam örtüyü də yanğına həssasdır. Teatr binasının məhz bu hissəsi yanğına daha çox məruz qalır. Və komissiya bu böyük qüsuru aradan qaldırmağı tələb etmişdi. Bundan əlavə, aktda daha 10 bənd qeyd olunmuşdur ki, bunlar da teatr sahibi tə-

*H.Z.Tağıyev Teatrı. Səhnə ilə birlikdə tamaşa zalı. Tağıyevin albomundan fotoşəkil. 1900-cü il.*



rəfindən "ehtimaldan kənar olmayan yanğına qarşı təhlükəsizlik" tədbirləri görülməsini tələb edirdi.

Yeni teatr binasının bütün qüsurları onun nəticəsi idi ki, tamaşa binaları inşasının spesifikasını və texnologiyasını bilməyən memar burada planlaşdırma, konstruktiv və arxitektur xassəli çətinliklərlə üzləşmişdi.

Hər halda, bu qurma necə olmuş olsa da, XIX əsrin sonlarında Bakının ehtiyac duyduğu teatr binası şəhərə hədiyyə olundu. Teatrda yaruslar və parterlə birgə təqribən 578 yer var idi [346]. Foye və digər yerləşgələri bir kənara qoysaq, tamaşa zalının müvafiq memarlıq interyerinin olmadığı yerli mətbuatın tənqid predmetinə çevrilmişdi [330].

Bakının baş planına görə, tamaşa qurmalarının inşası üçün sirkin müvəqqəti binasının yerləşdiyi Teatr meydanı nəzərdə tutulmuşdu, bura məkan genişliyinə, havalanmasına və yaxşı işıqlanmasına görə Tağıyev Teatrına nisbətən daha çox tamaşaçı cəlb edərdi.

Mahiyyət etibarilə tamaşa qurması olan teatr, heç bir cəhətdən cəlbedici deyildi, zaman keçdikcə, ictimai həyat və şəhər inkişaf etdikcə bina ziyarətçilərə daha miskin və səliqəsiz təsir bağışlayırdı. Fasadların və interyerinin dəyişdirilməsi ilə onun köklü rekonstruksiyası tələb olunurdu. Sadə tavanı təzələmək, yerlərin artırılması üçün lojaların ikinci sırasını (benuar) düzəltmək, zalın teatr binasına xas olmayan sərt düz künclərini axarlı cizgilərlə bir təhər yumşaltmaq, ümumilikdə isə tamaşaçıda müsbət emosiyalar yaratmaq məqsədilə zalı memarlıq nöqteyi-nəzərindən yeniləmək lazım idi. Bütün bunlara qazla və yaxud elektriklə işıqlanma əlavə edilməli idi ki, bunu teatr yalnız 1890-cı ildə ala bilmişdi.

Yaranmış şərait və dövri mətbuat bütün qurmanın memarlıq-planlaşdırma strukturunun dəyişdirilməsini tələb etsə də, Tağıyev heç nəyi yaxşılaşdırmaq fikrində deyildi. Görəndə ki, teatr populyarlıqdan məhrumdur və ildən-ilə teatr binası kimi onun aksiyaları düşür, o, öz tikilisindən birdəfəlik qurtulmaq istədi.

Bu barədə hətta yerli mətbuatda məlumat yayıldı ki, "cənab Tağıyev özünün yeganə şəhər teatrını uçurmaq, yerində üçmərtəbəli ev tikdirmək qərarına gəlmişdir. Bu yay binada iş başlanacaq". Demək olmaz ki bu qərar şəhərin teatr truppalarının ürəyindən oldu, çünki sahibi buranı uçurduqdan sonra onlar işsiz qalacaq və görkəmsiz də olsa tamaşa verə bildikləri bu binadan məhrum olacaqdılar.

Tağıyev Teatrı binasının uçurulma məsələsi çıxdıqda və bunun nəticəsində şəhərin teatr binasından məhrum olma ehtimalı yarananda Bakının işgüzar adamları arasında gəlir mənbəyi nöqteyi-nəzərindən teatra maraq oyandı. Onlardan biri Bakıda Teatr meydanında "Nümunəvi teatr binasının inşası üzrə ortaqlıq" adlı səhmdar cəmiyyət yaratdı [373]. Cəmiyyət ilk əvvəl şəhər hakimiyyətindən sahənin uzunmüddətli və qarşılıqsız istifadəsi üçün razılıq almalı idi ki, tikilmiş bina sonradan şəhərin mülkiyyətinə keçsin.

Yerli mətbuatın verdiyi məlumata görə, layihənin memarlıq-planlaşdırma proqramı genişliklə nəzərdə tutulmuşdu. Təəssüf ki, bu özəl teatr layihəsi arxivə verilməmiş və qorunub saxlanmamışdır, bu səbəbdən də bizim nə layihəni tərtib edən memar haqqında, nə də Bakının təklif olunan yeni şəhər teatrı binasının bədii üstünlükləri haqqında mülahizə yürüdə bilmək üçün onun memarlıq-planlaşdırma həlli haqqında konkret məlumatımız var. Fasadın arxitekturası üçün "yanmış Vyana teatrı fasadının surətindən istifadə etmiş, daxili planlaşdırmanı isə Stokholm şəhər teatrı binasından götürmüşlər, gələcək teatrın inşasına dair layihə də orada tərtib edilmişdir" [373].





Şəhərdə İ.V.Qoslavski, K.B.Skureviç, İ.K.Ploşko və s. kimi bacarıqlı memarların çalışmalarına baxmayaraq, cəmiyyətin təşkilatçıları teatr layihəsini Bakı memarlarına sifariş etməmək və tamamilə yeni layihə, daha doğrusu Avropanın məşhur teatr binalarının kombinə edilmiş surətini əldə etmək qərarına gəlmişdilər.

Ola bilsin ki, surət Bakı torpağına bağlanmaqla uğurlu tərtib edilmişdir, ancaq bəlli olduğu kimi, yamsılama memarın sənətkarlığından xəbər vermir. Hər halda sifarişçilər "Qafqaz Pensilvaniyası"nın (Bakını o zaman belə adlandırırdılar) paytaxtı üçün binanın memarlıq-planlaşdırma həllini İsveç memarının layihəsi əsasında yerinə yetirməyi istəmişdilər. Avropanın iki paytaxt şəhərinin – Vyana və Stokholmun məşhur teatr binalarının nümunəsi əsasında tərtib edilmiş xarici layihə "işgüzar adamlarla və Plutonun xidmətçiləri ilə məskunlaşmış milyonlar" şəhəri üçün ən özəl reklam idi.

"...Cəmiyyəti"nin diqqətini cəlb edən Stokholm Kral Opera Teatrı XIX əsrin sonlarında baş verən yanğından sonra memar A.İohanson tərəfindən 1894-1898-ci illərdə yenidən qurulmuşdur. Professor N.F.Xomutetski özünün "Stokholm" adlı kitabında yazırdı: "Üçyaruslu zalı olan opera teatrının arxitekturası XIX əsrin sonlarına xas olan və əksər Avropa teatrlarının tikildiyi adi simasız memarlıq formalarında həll edilmişdir" [296].

Lakin teatr binasının tikildiyi illərdə eklektika və stilizatorçuluq dövrün üslubu sayılırdı; memarlıq tarixçilərinin son zamanlaradək memarlığın bu istiqamətinə kifayət dərəcədə diqqət yetirmədiklərinə, arxitekturada tənəzzül istiqaməti deyə bu təzahürə etinasız yanaşmalarına baxmayaraq, onun müsbət tərəfləri də vardı.




Bakı. H.Z.Tağıyev Teatrının planı. 1893-cü il.



Bakı. H.Z.Tağıyev Teatrının planı. 1883-1918-ci illər.

Təəccüblü deyil ki, Stokholm Kral Opera Teatrı öz daxili planlaşdırması, tamaşaçı zalının kompozisiyası ilə Bakıda nümunəvi teatr binası tikməyə hazırlaşanlarda böyük təəssürat oyatmışdı. Ola bilsin, Bakı üçün teatr layihəsinin müəllifi İsveç memarı İohanson olmuşdur, Cəmiyyətin təsisçilərindən olan Bakı varlıları böyük mükafat müqabilində bu işi elə Stokholmdaca ona sifariş vermişlər, çünki Bakının işgüzar dairələrinin Avropa ölkələri və Şərqlə ticarət və sənaye əlaqələri geniş idi. İohansonun müəllifik ehtimalı digər memarın iştirakını istisna etmir.

"Nümunəvi teatrın inşası üzrə Ortaqlıq" Cəmiyyətinin təsisçiləri 6 oktyabr 1897-ci il tarixində Şəhər Dumasına Teatr meydanında sahə ayrılması haqda müraciət etdilər. Burada üçmərtəbəli teatr binasının "ən möhkəm daşdan, həm də Avropadakı nümunəvi teatr binalarının planı üzrə fasadın üzü əsas küçəyə istiqamətləndiriləık" tikilməsi nəzərdə tutulurdu. Təsisçilərin niyyətincə, teatrın işıqlandırılması texnikanın ən son nailiyyətlərindən yararlanaraq həyata keçiriləcəkdi.

Bakı cəmiyyətində xarici memarın layihəsi üzrə yeni teatr binasının inşası haqqında çoxsaylı söz-söhbətlər tacir N.Şaqidanovu öz geniş passajı üzərində teatr texnikasının ən yeni nailiyyətlərinin tətbiqi ilə Vyana teatrı nümunəsində teatr tikdirmək fikrinə gətirdi. Passaj üzərində teatrın tikintisinə başlanmamış Bakı Artistlər Cəmiyyətinin Şurası artıq gələcək binanın sahibi ilə onun kirayəsi haqqında danışıqlara başlamışdılar. Layihə üzrə binaya "bir neçə yaruslu lojası, foyesi və tamaşaçılar üçün hər rahatlığı olan gözəl teatr zalı, geniş bilyard zalı, musiqi məşğələləri, xor və orkestr üçün otaq, kart oyunları üçün rahat yerləşgələr daxil idi".

Şaqidanovun Rinq-ştrassedə yerləşən Vyana teatrı nümunəsində teatr binası tikdirmək qərarına gəldiyi vaxtdan bir il keçdi. Passaj üzərində yeni teatrın layihəsi tərtib edildi; onun xarici memarlara sifariş olunması və ya yerli memarlar tərəfindən tərtibi haqqında məlumat isə yoxdur. Onu bilirik ki, nə Bakıda nümunəvi teatrın inşası üzrə təsisçilər, nə də passajın sahibi teatrın tikilməsi üçün ciddi ərizə vermişlər, baxmayaraq ki, bunun üçün hər imkanları vardı.

Yeni teatrın tikintisi haqqında söhbətlərin getdiyi həmin bu vaxtlarda Bakıda hələ də sökülməmiş Tağıyev Teatrı fəaliyyətini davam etdirməkdə idi. Şəhər tikililəri arasında mövcud teatrın, şübhəsiz, rəqabət apara bilməyəcəyi iki təmtəraqlı və həcm cəhətdən monumental teatr binasının üzə çıxacağı ehtimalı Tağıyevi narahat edirdi.

Görünür, şəhərdə gedən teatr kampaniyası müəyyən rol oynadı və bu Tağıyevi öz teatrını yeniləmə işi ilə ciddi məşğul olmağa vadar etdi. Teatrın rekonstruksiya layihəsinin tərtibi və bütün memarlıq-tikinti işlərinə nəzarət 1898-ci ildə mülki mühəndis P.İ.Koqnovitskiyə (1871-1934) tapşırıldı [408]. Teatrın memarlıq-planlaşdırma strukturuna əhəmiyyətli dəyişiklik etmək istəməyən Koqnovitski, balaca düzəliş işləri ilə kifayətləndi ki, bu da faktik olaraq tamaşaçı zalını əvvəlki kimi azifadəli və cazibəsiz saxlayaraq nə onun ümumi həllini, nə də Merkuryevskaya küçəsində baş giriş tərəfdən fasadın memarlığını yaxşılaşdırdı. Koqnovitski tərəfindən tərtib edilmiş layihə teatrın sahibinin şəhərə Bakının gələcək teatrları ilə rəqabət edə biləcək doğrudan da çox dəbdəbə ilə işlənmiş bir teatr binası hədiyyə etmək məqsədinə heç cür cavab vermirdi.

Tağıyevin dəvəti ilə Koqnovitski ilə birgə teatrın rekonstruksiyasında istedadlı memar Qoslavski də iştirak edirdi və öz yaradıcılıq fantaziyasına sadiq qalaraq, əla layihə yaratmışdı. Tikintinin ilk





günlərindən işlər iki növbə ilə çox uğurlu gedirdi. Qoslavskinin rəhbərliyi altında tikilən teatr istər ümumilikdə, istərsə də detallarda effektli icra edilmiş və gözəl işlənmiş əsl teatr binası olmalı idi [408].

Teatrın layihələşdirilməsi və tikintisi üzrə çox böyük işlər görülmüşdür. Teatrın əsas mərkəzi hissəsi və tamaşaçı zalı fəza, kompozisiya və dekor cəhətdən köklü sürətdə dəyişdirilmişdi. Tamaşaçı zalında yerlərin sayı 1200-ə çatdırılmış, yəni demək olar iki dəfə artırılmış və zal daha tutumlu olmuşdu. Buna artıq mövcud olan loja yarusları və parter arasında yeni loja yarusunun qubernator lojası ilə bir səviyyədə qurulması sayəsində nail olunmuşdu.

Tamaşaçı zalında yeni yarusun yaradılması zal boyu yan dəhlizlərin və vestibüldə iki pilləkənin qurulmasını tələb etdi. Tamaşaçı zalında yerlərin çoxalması əsasən zala tərəf 3 metr çıxarılmış və səhnə ilə üzbəüz çuqun sütunlar üzərində qurulmuş iki balkon yarusu sayəsində mümkün olmuşdu. Birinci yarusun balkonunun mərkəzində teatr sahibinin lojası yerləşmişdi. Yuxarı yarusun balkonu liter lojalarının sökülməsi və qalereyanın yenilənməsi sayəsində daha tutumlu olmuşdu. Daha yaxşı görünüş üçün tamaşaçı zalı xeyli maili qurulmuşdur ki, bu da parterdəki tamaşaçıları böyük narahatlıqdan qurtarmışdı.

Orkestrin yeri də yeni tərzdə həllini tapdı. O tamaşaçı zalından bir az aşağıda yerləşdirilmişdi, rezonans üçün isə döşəmənin altından əks qübbə quraşdırılmışdı. Zalın maili olması ilə əlaqədar, təbii ki, səhnə də bir az aşağı enmişdi.

Zalın ümumi strukturunda aparılan bütün bu dəyişiklik onun istismar və kompozisiya keyfiyyətlərini xeyli yaxşılaşdırdı: genişlənmiş parter, iki yarus lojalar, yuxarı və aşağı balkonlar əmələ gəldi. Zalın forması nalvari cizgi aldı və bunun sayəsində lojalardan səhnəyə çox yaxşı görünüş açıldı. Əvvəlki cazibəsiz tamaşaçı zalının yerinə səhnədən renessans stilində yapma detallarla zənginləşdirilmiş və noxudu qızılıya çalan rəngə boyanmış partera, lojalara və balkona tamamilə başqa, daha effektli görünüş açılırdı. Mavi məxmərlə işlənmiş loja və baryerlər tamaşaçı zalının rəng çalarını tamamlamışdı ki, Qoslavskinin istedadına hörmət edən Tağıyev də memardan məhz bunu istəmişdi. Öz memarlıq əsərləri ilə şəhər arxitekturasının stil istiqamətini müəyyən edən Qoslavskini Qafqaz mətbuatında "Qafqaz Rastrellisi" adlandırırdılar.

Teatrın köklü rekonstruksiyası zamanı yalnız tamaşaçı zalı deyil, həm də əsas qrupun baş vestibül, foye, bufet və s. kimi digər yerləşgələri də yenilənmiş və təmir olunmuşdu. Vestibüldən tamaşaçılar bufetin bahalı divar kağızları ilə işlənmiş geniş zalına və teatrın ikinci yarusunda quraşdırılan foyeyə gedən pilləkənlərə çıxırdılar.

Bu qrupa daxil zalların kompozisiya özəyi olan foye memarların xüsusilə diqqət mərkəzində idi. Şərq stilində yerinə yetirilmiş və müvafiq rənglərə boyanmış zəngin arxitektur işləmə elə bil ki tamaşaçını təmtəraqla bəzədilmiş tamaşaçı zalına girişə hazırlayırdı. Foye üçün məxsusi olaraq, zəngin işlənmiş interyerin ümumi memarlıq həllinə daxil olan şərq stilində terrakota sobaları sifariş olunmuşdu. Kaşı sobalar teatrın bütün zallarında və dəhlizlərində quraşdırılmışdı. Dəhlizlərdə və sanitar qruplarda divarların və döşəmələrin üzlənməsində istifadə olunan üzləmə tikinti materialları, tometa və kaşı plitələr burada müasir tikinti texnikasının mütərəqqi materialları kimi tətbiq edilmişdi.

Fasadların memarlığı şərq üslubunda icra edilmişdi; əsas fasad öz təyinatına

uyğun şəkildə, ancaq ciddiliklə, sadə formalarda işlənmişdir. Cərgəvi tikilən dar küçə teatrın əsas fasadının daha təmtəraqlı işlənməsinə, teatr qurmasının obrazını daha qabarıq şəkildə vurğulamağa imkan vermirdi. Birinci mərtəbənin girişlərinin düzbucaqlı açırımları və ikinci mərtəbənin pəncərələrinin nalşəkilli açırımı fasadların memarlıq dekorunun əsas elementləri idi. Divar səthinin hörgü zamanı açıq və tünd rənglərin növbələşdirilməsi üsulu sayəsində effektli işlənməsi olmasaydı, giriş və pəncərələr üzərində dekorativ elemetlər və detallar, profillənmiş qurşaqlar kimi plastik vasitələrin yoxluğu teatrın ön fasadının memarlığını kasadlaşdırardı.

Tağıyev Teatrının binası həm də texniki cəhətdən təkmilləşdirilmiş, elektrik işıqlandırma çəkilmişdi. Fəaliyyətdə olan istilik və ventilyasiya sistemi publika və artistlər üçün bütün yerləşgələrdə rahat atmosfer yaradırdı. Zalların zəngin yapma bəzəkləri, tamaşaçı zalının dekorunda istifadə edilən rənglərin effektli harmoniyası, loja yaruslarının nalvari yerləşməsi – bütün bunlar ümumilikdə teatra yaraşıq verirdi. İndi artıq Bakıda yeganə olan Tağıyev Teatrı həm tamaşaçıları, həm də teatr truppalarını qəbula hazır idi.

1909-cu ildə teatr yandı. Onu yenidən tikmək lazım gəlirdi. Teatra axının çoxaldığını və onun şəhərdə hələ də yeganə teatr binası olmasını nəzərə alan Tağıyev, zalı genişləndirməyi və yerlərin sayını artırmağı qərara aldı. Memar İ.V.Qoslavski (1865-1904) artıq həyatda deyildi və yeni teatrın layihəsinin tərtibi adı indiyədək müəyyən edilməyən memara tapşırıldı.

Teatrın 1909-cu ildə şəhər rəisinin təsdiqinə təqdim edilmiş layihəsi çox güman ki, texniki cəhətdən tam və düzgün tərtib edilmədiyindən düzəliş və əlavələr üçün geri qaytarılmışdır [414]. Layihədə teatr tamaşaçılarının sayına nisbətən çıxışların keçicilik qabiliyyəti nəzərə alınmırdı; istilik sistemi, süni ventilyasiya yox idi, hərçənd ki, teatrın Qoslavski tərəfindən tikildiyi vaxt (1899-1900) bu məsələlər uğurla həll edilmişdi. Teatrların quruluşu və saxlanılması üzrə Bakı şəhər rəisinin əmri əsasında qəbul edilmiş icbari tələblərdən xeyli texniki kənarlaşmalar teatr sahibini layihəni yenidən hazırlatmağa məcbur etdi [414].

Əvvəlki ikimərtəbəli teatr binasının yerinə üçmərtəbəli, əlavə 600 nəfərlik daha tutumlu bina tikildi. Əsas fasadın eni də genişləndirilmiş, divarların hündürlüyü isə 6,75 metr artırılmışdı. Bu kimi dəyişiklik qalereyanın tavanını qaldırmağa, balkon cərgələrinin sayını iki dəfə artırmağa (dörd cərgə yerinə səkkiz cərgə oldu) imkan verdi.

Artıq tamaşaçı zalının yan oturacaqlar yerinə parteri – parterin künclərində liter lojaları, birinci yarusun lojaları və amfiteatrı, balkon və qalereyası var idi [112]. Mərkəzi lojanın yanlarına hər iki tərəfdən dörd loja əlavə olunmuşdu. Aşağı lojalardan biri qubernator lojası üçün, üç liter loja isə tamaşaçılar üçün ayrıldı. Mərkəzi loja ilə qonşu olan iki loja teatr sahibinin ailəsi üçün nəzərdə tutulurdu. Beləliklə, səhnə ilə üzbəüz olan əsas lojalar teatrın sahibinə, şəhər rəisinə və qubernatora aid idi.

Tamaşaçı zalı qarşısındakı yerləşgələrin planlaşdırması da dəyişdirilmişdi. Kassa birinci avanzalın sağ küncünə köçürülmüş, ikinci avanzalın yuxarı hissəsində isə teatrın sağ və sol hissələrinin lojalarını və amfiteatrını birləşdirən balkon quraşdırılmışdı. Çay bufeti ikinci mərtəbədə, ümumi bufet isə teatr binasının sahəsini xeyli genişləndirən əlavə tikilmiş binada yerləşdirildi. Sözügedən bu əlavə binanın ikinci mərtəbəsində həm də xüsusi geniş zal – foye yerləşirdi. Beləliklə, şərq stilində düzəldilmiş



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

əvvəlki foye çay bufetinə, teatrın yeni hissəsinin foyesi isə köhnə planlaşdırmaya nisbətən, şübhəsiz, xeyli yaxşılaşdırılan daxili planlaşdırmada mühüm yer tutdu.

Tamaşaçı zalında yeni lojaların, balkon cərgələrinin əmələ gəlməsi ilə müvafiq olaraq səhnə də dəyişikliyə uğramışdı. Səhnə xeyli genişləndirilmişdi ki, bu da ümumilikdə zalın interyerinin həllində əlverişli şəkildə əksini taparaq, ona təntənəli və yaraşıqlı görünüş verirdi. Suflyor budkası yoxa çıxmış və öz yerini Peterburqda Mariinsk Teatrının konstruksiyası əsasında yaradılmış xüsusi qurğuya vermişdi. Bu qurğu səhnə uzunu boyu onunla elə birləşdirilmişdi ki, tamaşaçı onun varlığını hiss edə bilməzdi [112]. Səhnənin ön pərdəsinin hündürlüyü 7,82 metr, eni 12,09 metr idi. Bu ölçülər tamaşaçı zalının miqyasından, böyük qrup artistlərin iştirakı ilə teatr və konsert tamaşaları üçün səhnə hissəsinin imkanlarından xəbər verirdi.

"İstər teatrın özü, istərsə də onun nəcib elektrik çılçıraqları da daxil olmaqla yeni şəraiti, olduqca xoş təsir bağışlayır", - deyə o zamanın yerli qəzeti yazırdı [112].

Üçüncü mərtəbənin artırmasının fasadının həlli zamanı memar ikimərtəbəli fasadın üslub xüsusiyyətlərini qoruyub saxlamağa çalışmışdır. Lakin ümumi kompozisiya, fasad detallarının kobud şəkildə modelləşdirilməsi və işlənməsi yerli memarlıq ənənələri hissindən məhrumluqdan ziyan çəkirdi, baxmayaraq ki, müəllif işin əvvəlində bu əsas prinsipləri izləmək istəmişdi. Mahiyyət etibarilə, bu nə tektonik, nə də dekorativ şəkildə işlənmişdi, sadəcə teatr fasadının ifadəsiz hissəsinə çevrilmiş oldu. Yeni teatrın təntənəli şəkildə dualanma mərasimi 30 sentyabr 1910-cu il tarixdə oldu. Bakı teatrallarının köhnə tanışı olan rəssam Mavrodinin dekorasiyaları əsasında tamaşalara baxmaq üçün publika yenidən tamaşaçı zalını doldurdu [386].

1 fevral 1918-ci ildə Tağıyev teatrı yenidən yandı. Binanın yalnız daş və dəmir-beton karkası qalmışdı. Binaya dəyən ziyanın qiymətləndirilməsi və onun bərpası üzrə xüsusi texniki komissiya təşkil olundu. Baxışdan sonra Bakı mühəndisləri bu nəticəyə gəlmişdilər ki, ziyan binanın əsasən taxta hissələrinə dəymişdir və 3-4 ayın içində binanı bərpa etmək mümkündür.

Teatr bir də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, 1921-1922-ci illərdə bərpa olundu. Bu zamanadək teatr binasından salamat qalan yalnız binanın fasadları idi. Həm planlaşdırma, həm də arxitektura cəhətdən tamamilə yeni teatr binası tikilməli idi. Teatrın layihəsini Bakının baş memarı, şəhərin bir çox iri yaşayış, ictimai və ayin qurmalarının müəllifi olan mülki mühəndis Zivər bəy Əhmədbəyov tərtib etmişdi [275].

Teatrın açılışı haqqında o illərin respublika mətbuatında qeyd edilirdi ki, "Bakının teatr həyatı çox dəyərli nailiyyətlə - köhnə teatrın təmiri deyil, viranəlik üzərində tikilmiş yeni teatr binasi ilə zənginləşdi: teatr çox gözəl təəssürat bağışlayır" [426]. Ancaq cəmi 1195 yer tutan (bunlardan lojalarda – (benuar, 1-ci və 2-ci yaruslar – 49 loja) – 218, parterdə - 576, amfiteatrda – 105, balkonda – 296 yer) tamaşaçı zalının əsas sxemini Əhmədbəyov ümumilikdə olduğu kimi saxlamışdı [336, s. 152].

XIX əsr – XX əsrin əvvəllərində Bakıda yaşayış çox baha idi. Biletləri yüksək qiymətə olan mövcud teatr hami üçün deyildi. Xalq evlərinin tikintisinə ehtiyac yaranmışdı. Rusiya İmperiyasının bir çox şəhərlərinin timsalında Bakı şəhər idarəsi Bakıda Xalq Evi tikməyə qərar vermişdi. Bu məqsədlə 20 yanvar 1901-ci il tarixində sahə memarı mülki mühəndis Q.M.Termikelova qısa müddət ərzində tikintinin ümumi dəyərinin hesablanması ilə Xalq Evinin eskiz layihəsini hazırla-

maq tapşırıldı. Ancaq şəhər idarəsi Xalq Evini məlum səbəblərdən, yəni vəsait çatışmazlığından tikdirə bilmədi. Lakin Neft Sənayeçiləri Qurultayının Şurası öz vəsaiti hesabına Sabunçu və Balaxanı kəndlərində ciddi order memarlığı formasında xalq evləri tikdirdilər [365].

Şəhər Xalq Evinin tikilməsi məsələsi tezliklə gündəmdən çıxarıldı, çünki iki antreprener – Zelinski və Kamski – eyni zamanda Xalq evləri tipində İctimai teatr üçün bina tikmək qərarına gəlmişdilər. Antreprenerlər tərəfindən təqdim edilən teatr tipi Xalq evini və yaxud ümumi teatrı çox gözəl əvəz edə bilərdi. Teatrın tikintisi şəhərə hansı qiymətə başa gələcəyini müəyyənləşdirmək istəyən şəhər idarəsi, imperiyanın müxtəlif şəhərlərindən, xüsusən də Kiyev, Odessa, Xarkovdan bu məsələyə dair arayış almaq üçün sorğu ilə müraciət etmişdi.

Xarkovun şəhər idarəsi öz cavabında bakılı həmkarlarına nəsihət kimi bir maraqlı qeyd edirdi ki, "teatr tikməklə şəhər gəlir götürmək məqsədi deyil, maarifləndirmə məqsədi güdür və bu səbəbdən xərclənmiş sərmayə geri qayıtmır".

Yanğından sonra tamailə yenilənmiş və yaxşılaşdırılmış Tağıyev Teatrında son işlər qurtardıqdan sonra 1910-cu ildə Mayılov qardaşları Bakıda öz ərazilərində böyük, müasir işıqlandırması olan yeni bir teatr binası tikmək qərarına gəldilər.

Rusiyanın kapitalizm dövründə teatr binalarının inşası tarixində Mayılov teatrı xüsusi yer tutur. O zamanın tikinti texnikasının səviyyəsini nəzərə alsaq, bu bina rekord müddətdə tikilmişdi. 1800 yerdən ibarət teatr binası 10 aydan az zaman ərzində inşa edilmişdi.

Ərazinin sahibləri təsdiq edilmiş layihə üzrə teatr binasının bünövrəsinin tökülməsi və zirzəmilərinin quraşdırılması üçün şəhər rəisinə 27 aprel 1910-cu il tarixində icazə ərizəsi ilə müraciət etdilər. Razılıq proseduruna vaxt sərf etmək istəməyən Mayılovlar, tikinti işlərinə mümkün qədər tez başalamağa çalışırdılar ki, tikintini qış mövsümünədək başa çatdıra bilsinlər. Lakin bu kimi əməllər tikinti intizamına zidd olduğundan onlara tikinti üçün razılıq verilmədi.

"Kaspi" qəzetinin yazdığına görə, teatrın renessans üslubunda layihəsini mülki mühəndis N.Q.Bayev tərtib etmişdir [372]. Təəssüf ki, teatrın layihəsi arxivlərdə qorunub saxlanmamışdır, çünki buranın sahibləri çertyojları müvəqqəti istifadə üçün götürərək, onları tikinti bölməsinə qaytarmamışlar. Bu səbəbdən Bakıda tikiləcək yeni teatr binasının layihə həllinin ilkin variantını indi təqdim etmək mümkün deyildir.

Mayılovlar teatr layihəsinin təsdiqini gözləmədən tikinti işlərinə başladılar, ancaq qanunsuz əməllərinə görə onlardan tikintini dayandırmaq tələb olundu. Baxmayaraq ki, işlər rəsmi olaraq dayandırılmışdı, elə də sərt olmayan nəzarət tikintini öz nəzarəti və məsuliyyəti altında aparan Bayevə daş işlərini davam etdirmək imkanı verdi.

Mayılovlar layihəni təsdiq üçün təqdim edərkən bildirmişdilər ki, onlar tərəfindən bütün yanğından mühafizə tədbirləri (teatr tikintisində əsas tələblərdən biri) görülmüş, binanın perimetri üzrə yanğınsöndürən maşınlar üçün sərbəst keçidlər qoyulmuş, dörd ehtiyyat çıxışı var, zal istisna olmaqla, bütün örtüklər yanğına davamlıdır, nəzərdə tutulmuş elektrik işıqlandırma və hava istilik sistemləri teatrın binasından kənarda yerləşdirilmiş və kifayət sayda yanğınsöndürmə kranları quraşdırılacaqdır.

Şəhər rəisi tərəfindən "Peterburq şəhərinin Bakı üçün də mütləq olan daş teatr binalarının inşası üzrə tələbləri ilə əlaqədar" teatr layihəsinin nəzərdən keçirilməsi zamanı məlum oldu ki, binanın ərazidə yer-





ləşməsi layihədə göstərilən yanğından mühafizə tələblərinə cavab vermir.

Yanğınsöndürmə əməliyyatları üçün Bayev tərəfindən ərazinin baş planında binanın ətrafı boyu 4 metr ölçüdə yer qoyulmalı olduğu halda, əslində yalnız 2,1 metr ayrılmışdır ki, bu da bu cür iri ictimai tikililər bir yana, heç adi binalar üçün də tikinti nizamnaməsinin normativ tələblərinə tamamilə zidd idi.

Teatr binası layihəsinin işlənib hazırlanmasında yanğından mühafizə normalarına riayət olunmaması səbəbindən Mayılovlar üçün layihənin təsdiqi rədd edildi və bundan sonra onlar layihəni bu kimi tikililərə dair qoyulan tələblərə uyğun şəkildə yerinə yetirməyə tələsdilər.

Mayılovlar teatrı binanın ərazinin mərkəzində yerləşdirilməsi və dar yerlərdə binanın ətrafında 9,6 metr enində boş yerin qoyulması ilə 1620 tamaşaçı üçün layihələşdirilmişdir. Teatr binasına əsas giriş Torqovaya küçəsindən idi və elə buradan da bilavasitə keçiddən lojalara aparan iki pilləkən quraşdırılmışdır. Kifayət sayda ehtiyat çıxışları yanğın zamanı tamaşaçıların teatr binasından tam evakuasiyasını təmin etməli idi.

Konstruktiv cəhətdən teatr binasında ənənəvi daş konstruksiyalarla yanaşı istər örtüklərdə, istərsə də binanın aparıcı divarlarında dəmir-betondan geniş istifadə edilmişdir. Tamaşaçı zalının aşırımlarını və səhnəni Bayev dəmir-beton qapanaqla örtməyə risk etmədi. Onlar zal üzərində dəmir tağ çatqılar, səhnə üzərində isə taxta çatqılar üzərində dəmir örtüklü konstruksiya təşkil edirdilər. Teatr, səhnə tərəfdən yerləşdirilmiş zirzəmilərlə, tamaşaçı zalında ikiyaruslu, foyedə isə üçyaruslu düşünülmüşdür.

Birinci yarusda 776 yerdən ibarət parter yerləşirdi ki, buraya tamaşaçılar bilavasitə foyenin ümumi eni 4,98 metr olan dörd qapısından və hər birinin eni



*Bakı. Xalq Evinin eskiz layihəsi. Plan, kəsim. Mülki mühəndis Q.M.Termikelov. 1901-ci il.*

1,42 metr olan yan dəhlizlərin dörd qapısından daxil olurdular. Hesablamalar göstərirdi ki, qapının hər metrinə 776:15≈52 (tamaşaçı) düşür, yol verilən optimal norma isə 1 metr üçün 75 tamaşaçıdır. Zalın ikinci yarusunda yanlardan altı nəfərlik iki liter lojası və dörd nəfərlik 28 loja yerləşirdi. Liter lojalar şəhər rəisi üçün ayrılmışdır. Yan dəhlizlərdən giriş və çıxışları, küçə ilə rahat əlaqəsi olan iki pilləkən bilavasitə lojalara aparırdı.

Səhnə ilə üzbəüz Bayev ikinci yarusun davamı kimi lojaları yox, amfiteatr və qalereyanı yerləşdirdi ki, bu da ona teatrda yerlərin sayını artırmaq imkanı verdi.

406 yerdən ibarət amfiteatra birinci yarusun foyesindən ümumi eni 4,27 metr təşkil edən iki pilləkən (pilləkənin 1 metrinə 406:6 təqribən bərabərdir 68 tamaşaçı – bu da norma daxilindədir) vasitəsilə daxil olunurdu. Bu pilləkənlərin küçəyə bilavasitə çıxışı vardı ki, bu da amfiteatrda oturan tamaşaçılara ehtiyac olduqda, teatrın qalan hissəsindən keçməyərək teatrın



*Bakı. Mayılovlar teatrının binası. Ön fasadın ümumi görünüşü. Ön (cənub) fasad.*







binasını asanlıqla tərk etmək imkanı verirdi. Həmin qayda 328 yerdən ibarət qalereya üçün də tətbiq olunmuşdur – buraya giriş bilavasitə küçədən pilləkənlərlə idi. Səhnənin altında zirzəmidə artistlər üçün foye, statistlər üçün iki otaq, bərbərxana və dörd artist otağı yerləşdirilmişdir. Teatrın birinci yarusunda kassalar yerləşən vestibül, 473,4 kvadrat metr ölçüdə geniş foye, 3,2 metr enində yan dəhlizlər, sanitariya qovşaqları, artist otaqları, 776 yerlik parter, 227,6 metr sahəsi olan səhnə və 63,7 kvadrat metrlik səhnə baryeri var idi. İkinci yarusda lojalar, amfiteatr və qalereyalar, eləcə də amfiteatr üçün foye və bufet yerləşirdi. Amfiteatr foyesi üzərində, üçüncü yarusda, foye, qalereya və sanitariya qovşaqları vardı.

Məhdud ərazidə yerləşən və köhnə binanın təzələnməsi ilə tikilən və bu səbəbdən də sonrakı rekonstruksiyası zamanı layihəçilərin işini xeyli çətinləşdirən Tağıyev Teatrından fərqli olaraq, yeni teatr layihənin tərtibi zamanı bir çox üstünlüyə malik idi. Məhz elə bu səbəbdən teatr klassik sxem üzrə (vestibül qrupu, tamaşaçı zalı və səhnə) yaradıldı. Bu da binanın rahat və səmərəli daxili planlaşdırmasına imkan verdi.

Teatrın şəhər idarəsində nəzərdən keçirilmiş və Bakı şəhər rəisi tərəfindən qəti sürətdə yalnız 22 iyun 1910-cu ildə təsdiqlənən layihəsi tikintinin aparılması üçün layihə sənədi kimi qanuni qüvvəyə mindi. Tikinti işləri prosesində Bayev teatrın layihəsinə əlavə eyvanlar və dekorativ zal kimi düzəlişlər etmişdi.

Teatrın inşasının əvvəlində götürülmüş yüksək temp bu iri ictimai qurmanın başa çatmasınadək azalmadı. Qeyd edək ki, teatrın tikilməsi dövründə (29 aprel 1910-cu ildən 27 fevral 1911-ci ilədək) tikinti işləri hər növbədə 200 işçi olmaqla, 3 növbə ilə həyata keçirilmişdir. Tikintinin tempi düşməsin deyə gecələr tikinti meydançası projektorlarla işıqlandırılırdı. Teatr binasının inşası zamanı tikinti işlərinin düzgün təşkili Bakının bu iri tikilisini ən qısa zamanda və uğurla başa çatdırmaq imkanı verdi.



*Mərtəbələrin planları. Mülki mühəndis N.Q.Bayev. 1910-1911-ci illər. (Çertyoj – Ş.S.Fətullayev).*

19 fevral 1911-ci il tarixində başa çatmış tikintini Bakı şəhər rəisi Martınov mühəndis E.Rıbçinskinin müşayiəti ilə nəzərdən keçirdi. Baxış zamanı izahatları Bayev verirdi. 24 fevral 1911-ci il tarixində bütün tikinti işlərinin sona yetməsi münasibəti ilə tikintinin yoxlanılması üçün texniki komissiya təşkil olundu. Mühəndis E.Rıbçinski, memar A.A.Nikitin və şəhərin baş memarı K.A.Borisoqlebskinin daxil olduğu teatr komissiyası 26 fevral 1911-ci il tarixində yeni teatra ətraflı baxış keçirdi. 12 bənddən ibarət aktda bina sahiblərindən 20 mart 1911-ci il tarixinədək qeyd edilmiş qüsurları aradan qaldırmaq tələb edilirdi. Bu qüsurlara baxmayaraq, şəhər rəisi tərəfindən 28 fevral 1911-ci il tarixində Mayılov teatrının mövsümi açılışına razılıq verildi. Teatrın tikilmə müddəti və keyfiyyəti o zamanlar üçün nümunəvi idi [46].

Binanın memarlıq həlli, ümumi kompozisiyası və həcm quruluşu əhəmiyyətli teatr binası kimi onun məzmununu ifadə

edir. Modern və ona xas stilizasiya fasadın və interyerin dekorativ işlənməsini müəyyənləşdirir. Şəhər duması (Bakı Soveti) binasının inşasından sonra Bakının digər tikililərində də tətbiq edilməyə başlanan sement suvağının və kərpicin ahəngi üzərində qurulmuş dekor tikinti materiallarının arxitektur keyfiyyətinin və onların istifadəsinin özünəməxsus yoxlanışı idi. Mayılov teatrı Bakı arxitekturasında sönməyə başlayan, yalnız çox maraqlı Avropa stilinin son sədası idi.

Teatrın fasadının simmetrik kompozisiyası mərkəzi hissədə xeyli irəli çıxan dörd dirəkli portik-eyvan və cinahları qoruyan iki bütöv qüllə ilə vurğulanmışdır. Arxasında parter və amfiteatr foyelərinin yerləşdiyi yuxarı mərtəbənin eyvana baxan böyük açırımı ümumi şüşələnmə tələb edirdi, ancaq açırımın şaquli dirəklər vasitəsilə ənənəvi hissələnmə üsulu məsələnin həllinin konstruktiv hissəsi üzərində üstünlük təşkil edirdi. Optimal aşırımlarda dəmir-beton bəndlərinin istifadəsi aralıq dirəklərini istisna edirdi. Fasadın ümumi həllində şaquli xətt divar səthindəki cinahların ritmi sayəsində dominant mövqe tuturdu ki, bu da teatrın memarlıq traktovkasının xarakterini müəyyən etmişdir. Şəhərin yaşayış evlərinin tikintisində tətbiq edilən və fasad kompozisiyasını tamamlayan yalançı günbəzli qüllələr tikilinin siluetinə memarlıq kütlələrinin dinamikasını daxil etdilər və qeyri-adi bədii effekt yaratdılar.

Divar fasadının memarlıq elementləri ilə zənginləşmiş detalları fonunda teatrın inşası prosesində yaradılmış portik-eyvan öz ciddi sadəliyi ilə seçilir. İşıq və kölgə oyunu, şübhəsiz, fasadın kompozisiya strukturunu canlandırır və onun zahiri görünüşünün estetik tərəfini açıb göstərməyə kömək edir. Tağ açırımlarının iri formaları, fasadın əsas hissələrinin proporsional hissələnməsi, relyef detallarının ahəngdar palitrası teatrın özünəməxsus ifadəli monumental kompozisiyasını yaradır.

Memarlıq kütlələrinin ifadəsində Bayev hər zaman ümumiləşdirici şəkildə işləyirdi və bu səbəbdən də onun kompozisiyalarının xarakterində tikililərə monumentallıq verən formaların ağırçəkililiyi vardır. Teatr fasadının traktovkasında məhz bu üzə çıxır.

Avropa klassikası "təmiz şəkildə" ona yad idi. Öz tikililərində o, bir çox memarlar üçün dövrün stili hesab edilən modern üslubundan istifadə etməyə çalışırdı. Ancaq Bakıdakı binanın memarlıq kompozisiyasının əsasında detalların modelləşdirilməsi ilə modern dursa da, fasadların işlənməsində klassik istiqamətin hissələnmə tələbi qorunub saxlanırdı. Bu teatr fasadının səthinin həllində də özünü göstərir.

Foyenin və tamaşaçı zalının yapmalarla zənginləşdirilmiş interyeri istər ümumi kompozisiya cəhətindən, istərsə də detalların işlənmə xarakterinə görə güclü təsir bağışlayır.

XX əsrin əvvəllərində şəhərin teatrlar yerləşən hissəsində demək olar cərgəvi xarakterli yeni ictimai mərkəz yaranırdı. Torqovaya küçəsinin tinindən başlayaraq Stanislavskaya küçəsinədək şəhərin iri məhəllələrə və gəlirverən evlərə malik bu rayonunun memarlıq obrazını müəyyənləşdirən məktəb, sinaqoq və əhəmiyyətli ölçüləri olan digər binalar tikilmişdir.

Bakıda, xüsusi binalar olan Tağıyev və Mayılov teatrları ilə yanaşı teatr zalları üçün uyğunlaşdırılmış bir sıra yerləşgələr istifadəyə verilmişdir. Buna misal üçün Olqinskaya küçəsində həkim Qarabəyovun evində "Ekspress", Petrovskaya meydanında Qarşılıqlı Kredit Cəmiyyətinin binasında "Odeon", Birja meydanında "Rekord", Mariinsk parkının yaxınlığında "Ampir" və Dəmiryol teatrını göstərmək olar.





Bu yerləşgələrlə yanaşı adətən şəhərin ümumi tikililəri arasında öz memarlıq həllinə görə fərqlənən binalarda konsertlərin, tamaşaların keçirildiyi digər zallar da vardı. Bu kimi binalar sırasına A.Kandinovun layihəsi əsasında 1887-ci ildə tikilən M.Nağıyevin gəlirberən evinin bir hissəsini tutan və Krasnovodskaya küçəsi, 12-də yerləşən (indiki Zabitlər evi) İctimai Məclisin qış klubu aiddir.

İctimai Məclisin binasının memarlığında tikilinin funksional məzmununa və memarın ustalığına cavab verən formalarda İtaliya renessansının üsul və elementlərindən istifadə olunmuşdur. Fasad kompozisiyasının əsas hissələrinin məhz bu stildə ümumi ardıcıllığında (iki yuxarı mərtəbəni zalın pallada üsulu pəncərələri və detalların plastik işlənməsi ilə birləşdirən relyefli pilyastrların yerləşdirilməsi) qıraq hissələrin artıq dərəcədə açılması və onun əsas formalarının akademik işlənməsi sayəsində bir quruluq duyulurdu.

1880-ci illər Bakı üçün memarlığın klassik istiqamətin himayəsində formalaşma illəri idi. Öz yaradıcılıqları sayəsində memarlar və mülki mühəndislər əyalət memarkığını yüksək sənət səviyyəsinədək qaldırmışlar; otra əsrlər dövründə Azərbaycan memarlarının əsərləri kimi, onların da əsərləri Bakının memarlıq obrazında dərin iz buraxmışdır.

İctimai məclis binasının yay yerləşgəsi (indiki M.Maqomayev adına Filarmoniya binası) məhz bu kimi tikililərə aiddir. 1910-1912-ci illərdə mülki mühəndis Q.M.Termikelovun layihəsi üzrə şəhərin ən yaxşı, əlverişli sahəsində - Nikolayevskaya və Sadovaya küçələrinin tinində inşa edilmiş, Bakı amfiteatrının ikinci terrasının yüksək işarətində yer alan bu bina tək tikili üçün sahənin ayrıldığı Qubernator bağı ilə deyil, həm də XX əsrin əvvəllərində formalaşan ətraf peyzajla çox gözəl ahəng yaradırdı.

Bakı İctimai Məclisinin başçıları 1907-ci ildə bağda yay klubunun tikilməsi üçün şəhər dumasına ərizə ilə müraciət etdikdə rəsmi şəxslərin çoxu etiraz etmişdi, çünki bu 200-dən artıq çoxillik ağacın qırılması demək idi. Lakin 1908-ci ildə İctimai Məclisin Qubernator bağında tikiləcək yay klubunun layihəsi bağın sahəsinin 1664,92 kvadrat metrədək ixtisarı sayəsində təsdiq edildi. Layihə bütünlükdə 1910-cu ildə işlənib hazırlandı və təsdiqlənmə üçün şəhər idarəsinin tikinti komissiyasına təqdim olundu.

1911-ci ildə klubun tikintisinə başlanan zamanadək dəniz kənarında mühəndis Məmmədhəsən Hacinskinin təşəbbüsü ilə salınan və 17 323, 44 kvadrat mert ərazini tutan bulvar var idi. 1912-ci ilin sonlarında şəhər tikililəri artıq yeni bir bina ilə - İctimai Məslisin pallada arxitekturası formalarında memar tərəfindən zövqlə və böyük ustalıqla icra olunmuş yay klubu binası ilə zənginləşdi.

Termikelovun seçdiyi pallada ruhlu italyan renessansı tikilinin obrazlı həllinə daha çox uyğun idi. Binanın memarlıq-planlaşdırma ideyası və tikinti üçün sahənin yerləşdiyi məkan, əlverişli relyef və məkanın iqlim özəllikləri bunu öncədən müəyyənləşdirirdi.

İctimai Məclis layihəsində Termikelov çox mənzərəli və ifadəli kompozisiya yaratdı (mövzuya uyğun). İşıq və kölgənin həcm kütlələrinin plastik ifadə vasitəsi kimi istifadə olunduğu terrasların, eyvanların çoxluğu ilə bina bir az renesans çağının italyan villalarını xatırladırdı.

Bucaq sahə binanın kompozisiyasında simmetriyanı qoruyaraq planlaşdırma həllinin seçimini müəyyənləşdirdi. Plan aydın və sadə şəkildə, lüzumsuz dəhlizlərsiz və keçidlərsiz hazırlanmışdı. Bütün kapital divarlar qarşılıqlı olaraq əlaqələndirilmiş və vahid konstruktiv









*Bakı. Nikolayevskaya küç. 2-də İctimai Məclisin yay binası (indiki M.Maqomayev adına Filarmoniya). Ümumi görünüş. Baş plan, kəsim. 1912-ci il. Mülki mühəndis Q.M.Termikelov.*

sxem təşkil etmişdi. Planda ellipsvari formada olan zal klubun digər yerləşgələri ilə birləşərək memarlıq-planlaşma kompozisiyasının mərkəzi idi. Konstruktiv rakursdan binanın əsas həcmi ilə bağlı olmayan və əlavə tikili təsiri bağışlayan giriş Nikolayevskaya küçəsi tərəfindən vestibülü olan dəyirmi taxta pavilyon şəklində qurulmuşdur.

Binanın ümumi strukturunda qış zalı ilə yanaşı İctimai məclisin çoxplanlı həcm-fəza kompozisiyasının vacib elementi kimi çıxış edən musiqi yerinə malik yay zalı da var idi.

Binanın həcm-fəza həllində ərazinin relyefi böyük rol oynayırdı və memar arxitektur kütlələrə estetik ifadəlilik vermək üçün bundan ustalıqla istifadə etmişdir. O binanın bütün arxitektonikasını dənizə, mənzərəli Bakı buxtasına baxan terraslar üzərində qurmuşdur.

Cənub tərəfdən baxanda bina klassik orderlərdən istifadə olunmaqla incəlik və nəcibliklə işlənən təntənəli çoxyaruslu kompozisiya təsiri bağışlayır. Binanın əsas həcmi arxitektur kütlələrin artmasının ritmik əsaslarında, yəni yan cinahlardan mərkəzə doğru tikilmişdir. Bütün həcm-fəza strukturunu dekorativ fənərli günbəz və cinahlardan qoruyan minarə tipli düz bürclər başa çatdırmışdır.

Qurmanın çox gözəl verilmiş silueti istedadlı ustadın əl işindən xəbər verir.

Bütövlükdə binanın və onun ayrı-ayrı hissələrinin proporsiyaları, detalların ustalıqla işlənməsi və onların son renessans stilində nəciblikla yerinə yetirilməsi yaddaşlarda İntibah dövrünün Palladio, Serlio və digər ustalarının arxitektur obrazlarını canlandırır. Qüllələrə və onların mənzərəli siluetlərinə heyran olmamaq mümkün deyildir. Doğrudur, onlar bir az dekorativdir, ancaq binanın kompozisiyasına o qədər ekspressiya və dinamika qatırlar ki, şəksiz onun memarlıq ifadəliliyinin əhəmiyyətli elementləri kimi çıxış edirlər.

Termikelov dekorativ işləmələrinin fasad mövzusunun inkişafını davam etdirən qış konsert zalının interyerini də çox maraqlı şəkildə həll edir. Bu binada memarlığın daxili və xarici məzmun vəhdətini pozan eklektikaya yer yoxdur. Yalnız ən yaxşı mənada arxitektur təfəkkürün məntiqinə tabe olan İtaliya renessansının stilizasiyası vardır ki, bu-







*Bakı. Nikolayevskaya küç. 2-də İctimai Məclisin yay binası Konsert zalının interyeril. Mülki mühəndis Q.M.Termikelov. 1912-ci il.*

nun da arxasından proporsiyaların saflığı, formaların gözəlliyi və vəhdətin harmoniyası açılır.

Bu binanın inşası ilə şəhər ətraf pejzaja çox uyğunlaşan renessans arxitekturasının gözəl bir tikilisini əldə etmiş oldu. Bu bina bizim günlərdə də şəhər tikilişləri arasında öz memarlıq bənzərsizliyində qalmaqdadır.

*Sinematoqraflar.* XX əsrin əvvəllərində bu ictimai qurmalarla yanaşı Bakının tamaşa müəssisələrinin planlaşdırma və inşasına yeni memarlıq mövzusu – səssiz kinoların nümayişi üçün sinematoqraf binaları daxil olur. Hamının imkanına uyğun və ucuz sinematoqraf tezliklə publikanın rəğbətini qazandı. Bakıda ilk sinematoqraf binası 1909-1910-cu illərdə mülki mühəndis I.K.Ploşkonun layihəsi əsasında (indiki Dövlət Kukla Teatrı) yeni bulvarda tikildi [419].

Bu binanın inşası ilə bağlı bir çox debatlar olmuşdur. Sinematoqraf layihəsi şəhər rəisi tərəfindən 1909-cu ildə təsdiq olunmuş və artıq yeni binanın inşasına başlanılmışdı, lakin gözlənilmədən şəhər hakimiyyəti elan etdi ki, "belə bir tikinti gəzinti və istirahət üçün nəzərdə tutulmuş bulvarda mümkün deyildir. Pavilyon bulvarın simasını dəyişəcək, sıxlıq yaradacaq və bu səbəbdən sökülməlidir".

Sinematoqraf binasının ilk əvvəl bulvarın məhz hansı hissəsində tikilməsini müvafiq çertyojların yoxluğu səbəbindən müəyyənləşdirmək mümkün deyildir. Yeni binanı bulvarın sonunda, "Qafqaz və Merkuri" cəmiyyəti anbarlarının yanında ucaltdılar, 1910-cu ilin iyununda isə sinematoqraf "Fenomen" adı altında fəaliyyət göstərməyə başladı. Burada da uyğunsuzluq baş verdi. Bulvarda bu kimi binaların inşası haqqında çox münaqişələr olsa da, Ploşkonun fransız renessansı stilində tikilmiş və bu istedadlı memar tərəfindən ona xas ustalıqla yerinə yetirilmiş binası insanları artıq o fikrə saldi ki, "Qafqaz və Merkuri" cəmiyyətinin yöndəmsiz anbarları sinematoqraf kimi təmtəraqlı binanın yanında tamamilə yersizdir [325].

"Fenomen" bulvarda görünəndə burada hələ sıx yaşıllıq yox idi. Güllüklərə və xiyabanlara bölünən bulvar bədii maraq doğurmurdu və bu səbəbdən fasad detallarının incəliklə işləndiyi sinematoqrafın nəcib arxitekturası dəniz kənarında dominant mövqe tuturdu. Müasirlər qeyd edirdilər ki, "içəridən bina doğrudan da gözəl tikili təsiri bağışlayır" [429]. Əslində, "Qafqaz və Merkuri" cəmiyyətinin anbarlarını nəzərə almasaq, ətraf tikililərin təsirindən uzaq olan "Fenomen" binası şəhərin digər ictimai binaları ilə müqayisədə daha əlverişli yerdə yerləşirdi. Onun kifayət qədər hündür stilobat üzərində yerləşən iri orderlə işlənmiş və sürahibənd attiklə tamamlanmış əsas fasadı dəniz kənarında son dərəcə baxımlı və təntənəli kompozisiyası ilə seçilirdi.

Cinahlarda yerləşən rifli səthə malik iki saxta günbəz binanın ümumi siluetini canlandırır və hansısa dərəcədə şəhərin bütün sanballı qurmalarının memarlığı üçün ənənəvi olan kompozisiya üsulunu davam etdirirdi. Bu üsul şəhərin tikilişində üslub vəhdətinə və müəyyən arxitektur fərdiyyətçiliyə xidmət edirdi.

Əsas fasadın mərkəzi hissəsi açıq pilləkənin apardığı girişin yarımdairəvi tağı ilə vurğulanmışdır. Fasad kompozisiyasının təmtərağı künclərdə qoylmuş heykəllərlə gücləndirilmişdir. Qeyd etmək lazımdır ki, Bakıda arxitektura və heykəltəraşlığın sintezi ilk dəfə məhz Ploşko yaradıcılığında öz əksini tapmış, o, sonralar da dəfələrlə bu üsula müraciət etmiş, lakin binanın arxitektur kompozisiyasında heykəltəraşlığın fəal iştirakı olmadan məsələnin lakonik həlli ilə məhdudlaşırdı



*Bakı. Bulvarda "Fenomen" sinematoqraf binasının (indiki Kukla Teatrı) ümumi görünüşü. Mülki mühəndis İ.K.Ploşko.*

(misal üçün, M.Muxtarovun sarayı, 1911-1912-ci illər – indiki Səadət sarayı, polyak kostyolu, 1909-1912-ci illər).

"Fenomen" sinematoqrafının publika üçün qalereyaları olan klassik stildə tikilmiş yan fasadları da yaxşı işlənmişdir, ancaq qəbul olunmuş xırda order əsas fasadın iri orderinə uyğun gəlmirdi və buradan da binanın mərkəzi və yan hissələrinin miqyasında uyuşmazlıq yaranırdı. Üzərində restoranların yerləşdirilməsi məqsədilə qalereyaların üstündə eyvanların quraşdırılması şübhəsiz ki, binanın təntənəli-monumental görkəmini korladı və onun arxitektur ifadəsini bir qədər azaltdı.

Kinoteatrın açılışı zamanı administrasiya bulvarda yeni sinematoqrafın texniki və arxitektur üstünlüklərini geniş reklam edərək bildirirdi ki, hər 15 dəqiqədən bir havasının tamamilə dəyişdiyi zal geniş və gözəldir, burada ventilyasiya sahəsində son nailiyyətlərdən və xüsusi ozonatordan istifadə olunmuşdur; zərərli hesab edilən sorucu ventilyasiya axınlı ventilyasiya ilə əvəz olunmuşdur; zala hava ozonatordan, soyuducu kanallardan və filtrdən keçirildikdən sonra verilirdi [429]. "Fenomen"in binası 10 il ərzində sinematoqraf, kazino kimi istifadədə oldu. 1921-ci ildə mülki mühəndis Zivər bəy Əhmədbəyovun layihəsi üzrə o köklü rekonstruksiyaya uğradı və "Satir-Aqit" adlı fəhlə teatrı üçün uyğunlaşdırıldı.

Digər sinematoqraf və yaxud artıq kinoteatr adlandırılan bina naməlum memarın layihəsi üzrə inşa edilən və Qoqol və Molokanskaya küçələrinin tinində yerləşən "Mikado" idi. Binanın planlaşma





strukturunu vestibül, tamaşaçı zalı və publika üçün yan qalereyalarla müəyyənləşən qeyri-mürəkkəb sxem təşkil edirdi.

Ancaq burada klassik, modern və "Çin" stili elementlərinin konqlomeratını nümayiş etdirən kinoteatr arxitekturasının qabarıq şəkildə ifadə olunan eklektizmi şəhərin mərkəzi hissəsinin küçə tikililərinin və məhəllələrinin ümumi xarakterinə kəskin disharmoniya qatdı. Əsas fasad maraqlı şəkildə həll olunmuşdur və tamaşa binasının daxili məzmununa cavab verir.

Fasadın tağ açırımları olan aşağı hissəsi teatr mövzusunda barelyefli frontonlarla başa çatan plastik şəkildə işlənmiş yuxarı hissə ilə qarşılaşdırılır.

İkinci mərtəbədə "Çin" stilində künc pavilyonunun quraşdırılması kompozisiyanın ciddi stilinə aşkar uyğunsuzluq qatır. Öz zamanında "Kiçik şəkillər" adlı əsərində F.M.Dostoyevskinin bəhs etdiyi mədəni cəhətdən inkişaf etməmiş sifarişçinin kaprizi idimi bu, yoxsa orijinal iş görmək istəyən memarın yaradıcılıq səhvi idi – məlum deyil. Hər halda, ətraf tikililərə tamamilə yad olan "Çin» stili uğur qazanmamış və binanın Bakı Fəhlə Teatrı üçün (indiki S.Vurğun adına Rus Dram Teatrı) köklü rekonstruksiyasından sonra bütünlüklə aradan qaldırıldı.

Beləliklə, Bakının arxitekturasında bina kompozisiyasının aktiv elementi qismində heykəltəraşlığın istifadə edilməsinin daha bir nümunəsi əmələ gəldi. Bu zamanadək şəhərin ictimai qurmalarının fasadında heykəllərdən istifadəyə yol verilmirdi. Göstərilmiş ayrı-ayrı səylər bunun istifadəsinin istiqamətini müəyyən etmirdi, baxmayaraq ki, qurmaların funksional məzmunu buna işarə edirdi.

Beləliklə, nə Mayılov qardaşları teatrında, nə də İctimai Məclisin yay klubunun mənzərəli kompozisiyasında heykəltəraşlıq qurmaların obrazının bə-

*Bakı. "Mikado" sinematoqrafı. (Rəsm – Ş.S.Fətullayev).*



dii açılışında iştirak etmirdi. Fasadın işlənməsində bahalı dekorativ element olan heykəllərə sifarişçilər etinasız yanaşırdılar. Yaşayış evlərinin interyerində divarüstü və plafon rəssamlıq üstün tutulurdu (bu kimi həllin maraqlı nümunəsi kimi Persidskaya küçəsi, 24-də yerləşən ev – indiki Memarlar evi çıxış edə bilər).

İmkanlı sahiblərin binalarında demək olar bütün pilləkən qəfəsləri müxtəlif xarakterli və məzmunlu mənzərələrlə bəzədilirdi. Dekorativ heykəltəraşlıq Tağıyev sarayının (mülki mühəndis İ.V.Qoslavski, 1893-1902-ci illər), Muxtarov sarayının (mülki mühəndis İ.V.Ploşko, 1911-1912-ci illər) interyerində, Qrubşiçin Nikolayevskaya, 23-də yerləşən evinin həyətində (mülki mühəndis K.B.Skureviç, 1895-ci il) tətbiq edilmişdir.

"Fenomen" və "Mikado"dan başqa kinoteatrlar əsasən yaşayış evlərində və passajlarda yerləşirdi. Belə ki, kinoteatr "Mulen-Elektrik" (1911) Olqinskaya küçəsindəki passajda yerləşirdi (indiki Caparidze küçəsi, 6-da ərzaq mağazası), ev sahibi Haciyevin dar həyətində isə (indiki "Vətən" kinoteatrı) kinematoqrafik seanslar üçün yay bölməsi olan xalq tamaşaçı zalı tikildi (1915).

Yalnız "Fenomen" və "Mikado" arxitektur həllinin və tikinti keyfiyyətinin müxtəlifliyinə baxmayaraq şəhər tikililəri arasında müvafiq yer tutdular, keçmişdə təkcə yaşayış və ayin qurmaları ilə tanınan şəhərin obrazına keyfiyyət cəhətdən yenilik qatdılar.

*Sirklər.* Teatrlar, sinematoqraflar və konsert zalları ilə yanaşı, XIX əsrin 80-ci illərində Bakıda müvəqqəti və ya daimi xarakterli sirklər göründü. Onlar adamların sıx olduğu yerlərdə, bazar yaxınlıqlarında və ya şəhər meydanlarında yaradılırdı. Bakıda Nikolayevskaya küçəsində Taurekin truppası üçün taxta sirkin ilk inşa layihəsi 1882-ci ildə təqdim olunmuşdur və o zaman şəhərin bu gələcək arteriyası müvafiq tikilişlərə və planlaşdırma nizamına malik deyildi. Burada, bazar meydanında balaqanlar düzəldilir, improvizasiya edilmiş səhnədə səyyar aktyorlar çıxış edir, kəndirbazlar öz məharətlərini nümayiş etdirirdilər. Taurekin truppası sirk binasının tikilməsi üçün yer seçimində bunu nəzərə aldı və tezliklə xeyli publikanı cəlb edən tamaşalar verməyə başladı.

Taurek sirkinin tikintisindən sonra Teatr meydanında arxitektor A.Koşinskinin layihəsi üzrə Forrer sirkinin binasını ucaltdılar (1883-cü il). Təəssüf ki, qrafik materialların yoxluğu onun arxitektur kompozisiyası, fasad və interyerinin işlənməsi haqqında rəy bildirməyə imkan vermir. Bakı memarlarının yaradıcılığının tərifində xəsislik göstərən yerli mətbuat Teatr meydanındakı sirkin ümumi xarakteristikasına az da olsa aydınlıq gətirir. Əsas söhbət tamaşaçı zalından gedir: "Sirkin daxili görünüşü və işlənməsi A.Koşinskiyə tərif qazandırır. Qazla işıqlandırma da pis deyildir: səhnə yaxşıdır, hərçənd ki, Forrer bir nöqsana yol vermişdir – o pərdənin üzərində müxtəlif yerli tacirlərin reklam sərgisini yerləşdirmişdi".

Məkanın genişliyinə, işıqlandırılmasına və havalandırılmasına görə Forrer sirki öz zamanında Tağıyev Teatrı ilə rəqabət apararaq "müqayisə edilməz dərəcədə çox publika cəlb edirdi". Zaman keçdikcə sirkin sahibləri dəfələrlə dəyişir, tez-tez yanğına məruz qalan sirkin binası da yenilənirdi. O yenidən tikilir və funksional cəhətdən görkəmi dəyişirdi. Belə ki, 1890-cı illərdə o artıq teatr-sirk kimi fəaliyyət göstərirdi, 1893-cü ildə bina yandıqdan sonra isə onun yenilənməsi üzrə layihə tərtib edildi. Sirk tamaşaları üçün istifadə edilən bütün bu binalar hansısa dərəcədə qeyri-kapital xarakter daşıyır və şəhər tikilişlərini zənginləşdirmirdi.





1904-cü ildə Nikitin qardaşları Torqovaya küçəsində teatr-sirkin daş binasını tikdilər. Mərkəzi hissədə ikimərtəbəli, yanlarda isə birmərtəbəli olan bu bina cərgəvi tikililər sırasında yerləşirdi və tamaşa binaları üçün vacib olan müvafiq girişlərə malik deyildi. Sirk binasının ikimərtəbəli hissəsinin memarlıq həllində yerli memarlığın mahiyyətinə varmadan Şirvan-Abşeron memarlıq motivlərindən istifadə edilmişdi. Sıravi layihələşdirici tərəfindən milli memarlıq formalarından səthi istifadə baxımlı qurma yaratmağa imkan vermədi və o sıravi məhəlli tikili olaraq qaldı.

Elektrik işıqlandırması və buxar istilik sistemi olan geniş tamaşaçı zalına malik Nikitinlər teatrı qısa müddət fəaliyyət göstərə bildi. Bura 1905-ci ildə yandı. Rekonstruksiyası 1906-cı ildə mülki mühəndis N.E.Marçenkonun layihəsi üzrə həyata keçirildi.

XIX əsrin sonlarına doğru teatr, kinoteatr və konsert zallarının binaları Azərbaycanın digər şəhərlərində də görünməyə başladı. Bakıda Tağıyev teatrı binasının tikintisi başa çatdıqdan sonra (1883-cü il) teatr üçün xüsusi bina 1891-ci ildə Şuşada quruldu. İlk vaxtlar burada həvəskar tamaşalar qoyulurdu. Bəlli olduğu kimi, şuşalılar geniş özəl evin bu məqsədlər üçün uyğunlaşdırıldığı teatrla hələ 1848-ci ildən tanış idilər. Yeni teatr binasının inşası isə şuşalıların teatra olan marağını artırmaqla yanaşı, həm də şəhərin mənzərəli görünüşünü yeni ictimai qurma ilə zənginləşdirərək onun memarlıq quruluşunda mühüm rol oynadı.

Yelizavetpol quberniyasının mərkəzi olan Gəncə və yaxud Yelizavetpol da ictimai qurmaların inşasında geri qalmaq istəmirdi. XIX əsrin sonları XX əsrin əvvəllərində Forrerin Gəncə-çayın kənarındakı üçmərtəbəli özəl binası klub halına gətirilərək istifadəyə verilir. Ancaq





*Nikolayevskaya küç-də Taurek truppası Sirkinin layihəsi. Fasad, kəsim, plan. Memar A.Koşinski. 1882-ci il.*

onun mansard mərtəbəsinin hündür dam örtüyünə malik yarımalman, yarımflamand fasad memarlığı qorunub saxlanır. Bu ictimai qurmanın funksional

məzmununa uyğun olaraq onun yalnız daxili planı dəyişir. Lakin Bakı klubunda olduğu kimi, banketlərin, teatr tamaşalarının keçirilə biləcəyi bəzəksiz yan otaqları olan daxili dəhliz klub binasının əsas məqsədlərinə cavab vermirdi. Forrerin binasının memarlığına münasibətdə qeyd edək ki, öz uzaq yurdlarının memarlıq formaları və motivlərini yeni vətənlərinə gətirən, Gəncə, Yelenendorf, Annenfelddə yaşayan alman kolonistlərinin sayəsində bu bina şəhərin tikilişinə böyük təsir göstərmişdi.

Bir neçə ildən sonra Forrerin binası köklü rekonstruksiyadan sonra şəhər teatrı kimi istifadəyə verildi, baxmayaraq ki, funksional tələblərə tamamilə cavab vermirdi. 1920-ci illərdə Gəncədə yeni teatr layihəsi üzrə müsabiqə elan edildi. Müsabiqə iştirakçıları arasında Tağıyev Teatrını və "Fenomen"i rekonstruksiya edən Bakının baş memarə Zivər bəy Əhmədbəyov da var idi.

Gəncədə Forrerin şəhər teatrının mövcudluğu bu tipdə binaların inşasına yönələn səyləri istisna etmirdi. 1913-1914-cü illərdə mülki mühəndis S.Fyodorov tərəfindən "tikintisi Forrer teatrının yanında planlaşdırılan konsert zalı üçün daş ev" layihəsi tərtib edilir.

Planlaşdırma həllinə görə bina xüsusi üstünlüklərə malik deyildi: vestibülün yanında bu kimi qurmalar üçün çox önəmli olan geniş foye yox idi. Geniş təkmarşlı pilləkən ikinci mərtəbəyə, arxasında 11,23x20,6 kavadrat metr sahəni tutan konsert zalının və estradanın yerləşdiyi avanzala aparırdı. Estradanın sahəsinə dekorasiyalar anbarı və iki artist otağı (kişi və qadın) birləşirdi. Üçüncü mərtəbədə bir tərəfdən avanzal və xorlar, digər tərəfdən isə bufet və sanitariya qovşaqları yerləşirdi. Yuxarı mərtəbələr arasında əlaqə səmərəli qurulmamışdı: geniş təkmarşlı pilləkənin yanında ikinci mərtəbədən ikimarşlı pilləkən quraşdırılmışdı. Belə bir yerləşdirmə yararlı sahəni azaltmışdı.

Binanın memarlıq işini modern üslubda qurulan fasadın qorunub saxlanmış çertyojundan (binanın planını mühəndis S.Fyodorov tərtib etmiş, fasadın çertyoju isə adının oxunuşu aydın olmayan memar tərəfindən imzalanmışdır) müəyyənləşdirmək olar. Tin sahəsində yerləşməsi binanın həcm həllini də öncədən müəyyən edirdi. Binanın ümumi kompozisiyası həcmlərin artımı üzərində, yəni yan fligellərdən mərkəzə doğru qurulmuş və ifadəli cizgiyə malik taraşlı günbəzlə başa çatan hündür bucaq hissə ilə bərkidilmişdir. Konsert zalının bucaq hissəsinin kompozisiya quruluşu hansı dərəcədəsə mülki mühəndis A.Kalqin və Q.Termikelovun layihəsi əsasında Bakıda tikilən bank binasına (indiki "Bilik" cəmiyyətinin binası) bənzəyir.

Müəlliflər tərəfindən bank binası modern üslubda olduqca koloritli təqdim edilmiş və ustalıqla işlənib hazırlanmışdır. Konsert zalı binasının arxitekturasında həcm kompozisiyasının qurulmaındakı dinamikaya baxmayaraq, formalar tamamilə başqa - daha sakit və mütənasib tərzdə verilmişdir. Burada yalnız karnizin bir neçə elementi və dam örtüyünün xarakterik dəmir məhəcəri moderni xatırladırdı. Layihə səlis və aydın cizgilərlə üzə çıxarılan fasadın plastik strukturunda memarlıq formaları ilə ciddi rəftar olunduğunu göstərirdi. Ümumiyyətlə, Gəncədə modern az da olsa şəhər qurmalarının memarlığında öz əksini tapmışdır.

***

Azərbaycanda inşası XIX əsrin ikinci yarısından başlayan tamaşa qurmalarının inkişafı tarixində şəhərin memarlıq-planlaşdırma strukturuna daxil ola biləcək teatr binaları ucaltmağa təşəbbüs müşahidə olunur. Şübhəsiz, şəhərlərin kapitalist məcrada inkişafı genişləndikcə torpaq sahələrinin bahalığı, şəhər ərazisinin isə məhdudluğu səbəbindən hər zaman bu kimi qurmaların düzgün həcm-fəza həllinə nail olmaq mümkün olmurdu. Məsələn, Bakıda Tağıyev və Mayılovlar teatrları cərgəvi tikilən sıx məhəllələrdə qaldı, Şamaxıda isə Qasım bəy teatrı Teatr meydanının təşəkkül tapmasına və tikilişinə səbəb oldu.

Beləliklə, Azərbaycanın tamaşa qurmaları tikililərin müxtəlif memarlıq məziyyətlərinə baxmayaraq, şəhərlərin planlaşdırma və tikilişinə tamamilə yeni məzmun gətirdilər və şübhəsiz, onların bədii görünüşünü özünə görə maraqlı və monumental tikililərlə zənginləşdirdilər.

**Ayin qurmaları.** Yalnız XIX əsrin ikinci yarısında bir çox şəhərlərdə və yaşayış məntəqələrində iqtisadi rifah yaxşılaşmağa doğru getdikdə, öz həcmi və silueti ilə şəhərin və ya kəndin həcm-fəza strukturunda aparıcı yer tutan iri məscidlər tikilməyə başlandı, hərçənd XIX əsrin birinci yarısında ayin qurmaları Azərbaycan şəhərlərinin planlaşdırmasında və tikilişində önəmli yer tutacaq qədər miqyaslı və monumental deyildirlər.

*Məscidlər.* Azərbaycan şəhərlərinin və yaşayış məntəqələrinin bədii simasında öz yerini uzun müddət ərzində qoruyub saxlayan məscidlər kompozisiya elementlərinə çevrilərək bu gün də gözdən keçirilən dövrün memarlıq abidələri olaraq qalmaqdadır. Cox zaman məscidin siması ifadəli kompozisiya yaradaraq vertikal minarə və günbəzin həcmi ilə müəyyənləşir.

İslam memarlığı arxitektur kütlələrin koloritli və özünəməxsus xüsusiyyəti ilə fərqlənən müəyyən kompozisiya sxemi yaratmışdır. Bu sxem Azərbaycanın bir çox ayin qurmalarının fəza həllinin əsasını təşkil edir.

Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsindən dərhal sonra digər problemlərlə yanaşı, Şimali Azərbaycan ərazisini əhatə edən müsəlman əyalətlərində ayin binalarının inşa məsələsini həll etməyə başladılar. Bu məqsədlə 1805-ci ilin fevralında Tiflisdə mühəndis-poruçik Lastrov iki variantda məscid layihəsi hazırladı. Yerli şəraitə, müsəlman memarlığının memarlıq-planlaşdırma xüsusiyyətlərinə dair biliyin olmaması, ayin qurmaları haqqında zəif məlumatlılıq ortaya uğursuz layihələr çıxardı. Rusiya müsəlmanları üçün məscid layihəsinin tərtibinə ikinci cəhd 1828-ci ilin dekabrına təsadüf edir. Çar hakimiyyətinin göstərişinə əsasən yaşayış məntəqələrində məscidlərin inşasının tezləşdirilməsi və fərdi layihələr üzrə vaxta qənaət üçün 1829-cu ildə I Nikolay tərəfindən təsdiq edilmiş "tatar məscidlərinin inşası üçün nümunəvi plan və fasad" adlı sənəd işlənib hazırlanmışdır.

Ancaq bu layihə yerli dini və memarlıq xüsusiyyətlərinə cavab vermədiyi səbəbindən Qafqaz Müsəlmanları Ruhani İdarəsi tərəfindən qəbul edilmədi.

Sonralar Azərbaycanın ayin qurmalarının inşasında yerli memarlar kimi, öz həyatını və yaradıcılığını Azərbaycanla, onun memarlıq irsi ilə bağlayan əcnəbi memarlar da iştirak edirdilər [460, s.123].

Ümumilikdə Azərbaycan ərazisində iqtisadi, təbii və tarixi xüsusiyyətlər nəticəsində ayin binaları və qurmalarının memarlığını və planlaşdırmasını kapitalizm dövrünün konkret bölgə üçün səciyyəvi olan istiqamətdə müəyyənləşdirən müxtəlif zona və bölgələr qərarlaşdı.

Burada demək olar ki, keçmişin ənənələrini müəyyən dərəcədə davam etdirən bir sıra yerli memarlıq məktəbləri yarandı. Buradan da Azərbaycan ərazisini xüsusilə ayin binalarının memarlığının fərdi keyfiyyətlərə malik, çox zaman bədii məziyyətləri ilə fərqlənən

Bakı-Abşeron, Quba-Qusar, Gəncə-Qarabağ, Şəki-Zaqatala, Naxçıvan və Lənkəran kimi bir neçə arxitektur bölgələrə ayırmaq imkanı yarandı.

Ayin qurmalarının hər bölgədə öz şəxsi qrupunu təşkil edən müəyyən memarlıq-planlaşdırma xüsusiyyətlərilə təqdim olunduğu halda, onları bölgələr üzrə, lakin o zamana aid Azərbaycan memarlığının inkişafının ümumi qarşılıqlı əlaqəsi mövqeyindən nəzərdən keçirmək daha məqsədəuyğun olardı.

Ayin qurmaları daha ifadəli və hərtərəfli şəkildə əsasən Bakı-Abşeron, Gəncə-Qarabağ, Şəki-Zaqatala bölgələrində təmsil olunmuşdur. Bu bölgələrin ayin qurmalarında demək olar bütöv bir dövr – memarlıq sənətində ziddiyyətlər dövrü əks olunur. Və eyni zamanda o keçmişin abidələrindən heç də geri qalmayan parlaq və baxımlı binaların yaranması ilə səciyyələnir. Məhz kapitalizm dövrünün ayin qurmaları hündürlük dominantları olaraq Azərbaycan şəhərlərinin yaşayış tikilişlərinə ton verərək, öz aparıcı mövqelərin saxlamışlar.

Bakı-Abşeron və Gəncə-Qarabağ regionlarında həcm-fəza həllinə görə müəyyənedici olan ayin qurmaları tipləri yaradılır. Onlar öz zamanı üçün arxitektur kütlələrin "klassik" bədii quruluşunu, siluet ifadəliliyini və konstruktiv elementləri əks etdirirlər. Bölgələrin hər birinin memarlıq-tikinti ənənələri bu binaların həcm-fəza həllinin işlənməsinə təsirini göstərirdi.

Bakı-Abşeron bölgəsinin ayin qurmalarının kompozisiyasında günbəzin aydın ifadə olunmuş həcmi və tipik minarə vertikalı dominant mövqe tutur ki, bu da sözügedən bölgə üçün səciyyəvi sayılan məscid tipini müəyyən edirdi. Bakı-Abşeronun ayin qurmaları memarlığının bir qədər eklektizmi ilə böyük aşırımlı daş günbəzlə örtülü ibadət zalının daxili fəzasının quruluşu milli memarlığın böyük nailiyyətidir. Məscidlərin daxili fəzasının təşkilinin belə bir strukturu onun ətraf tikilişlər arasında əhəmiyyətini artırır, eyni zamanda qurmaların həcm traktovkasına, memarlıq simasına və siluetinə təsir göstərirdi.




*Tiflis. Məscid layihəsi. Fasad, plan, kəsim. Mühəndis-poruçik Lastrov. 1805-ci il.*







*Tiflis. Məscid layihəsi. Plan, fasad. Mühəndis-poruçik Lastrov. 1805-ci il.*



*Peterburq. Məscid layihəsi. Fasad, plan. A.N.Melnikov. 1829-cu il.*

Bakı-Abşeronun dini binalarının fərdiliyi gözdən keçirilən dövrdə Azərbaycan memarlığında onların tutduğu yeri müəyyən edir. Sözsüz, bu bölgənin heç də bütün qurmaları istər memarlıq, istərsə də planlaşdırma nöqteyi-nəzərindən eyni dərəcədə qiymətləndirilə bilməz, çünki onların inkişaf prosesi mürəkkəb və qeyri-müntəzəm şəraitdə keçmişdir. Abşeronun adi məhəllə məscidi ilə Bakının monumental Təzəpir məscidi arasında bütöv bir memarlıq epoxası uzanır. Burada yerli memarlıq ənənələri və yeni Avropa təsirləri toqquşur və bu qarşılıqlı təsir nəticəsində yerli olan özünəməxsusluğunu itirməyərək yeni keyfiyyət çalarları əldə edir.

Şərq memarlığınını müəyyən stilizasiyasına baxmayaraq, Bakı-Abşeron bölgəsinin ayin qurmaları ümumilikdə onları tək Yaxın Şərqin ayin memarlığından deyil, eləcə də Azərbaycanın digər bölgələrindən fərqləndirən yerli xüsusiyyətlərlə malik idilər. Ola bilsin, bu qurmalar fərqli sosial-iqtisadi şəraitdə yaradıldığına görə heç də keçmiş dövrün abidələri kimi bənzərsiz deyildir, stil nəcibliyi ilə də fərqlənmirdilər, ancaq onlardan geridə də qalmırdılar.

Plana görə Bakı-Abşeron bölgəsinin ayin qurmalarını iki tipə ayırmaq olar: günbəz-mərkəzli və üçnefli. Ətraf tikilişlərə uyğun gələn qabarıq ifadə olunmuş həcmi, silueti və miqyası ilə günbəz-mərkəzli tikililər daha baxımlı idi.

Üçnefli olan digər məscid tipi də maraqlı idi, lakin onun həcmində minarələrin vertikalı dominant idi, günbəz isə yerli memarlığın əlamətlərini daşıyır və baş məhdud aşırım nefinin mərkəzi fəzasını tamamlayırdı.

*Bakı-Abşeron bölgəsi ayin qurmalarının ümumi görünüşləri, baş planları (Rəsmlər – Ş.S.Fətullayev, 1963).*









*Bakı-Abşeron bölgəsi ayin qurmalarının əsas tiplərinin memarlıq-planlaşdırma təsnifatı. (Ş.S.Fətullayeva görə, 1963).*







*Bakı. İçərişəhər. Bəy məscidi. Ön fasad, plan, baş plan, kəsim. 1895-ci il. (Ölçmə və çertyoj – Ş.S.Fətullayev).*

Hər iki tipdə olan ayin qurmalarının təkamülü yerli memarlığın inkişaf xəttini davam etdirir, lakin bu, məscidlərin obraz həllindən irəli gələn yeni tələblərə uyğun formada deyildir. Ayin qurmalarının inkişafını gözdən keçirilən dövrün vahid memarlıq zəncirinin mühüm vasiləsi olan məscidlər üzərində izləmək olar.

Bakı qalasında 1895-ci ildə Bəy məscidinin inşası yerli memarlıq ənənələri çərçivəsində ayin qurmalarının yeni memarlıq axtarışlarının başlanğıcı oldu. Məhz burada ilk dəfə Şirvanşahlar dövrü Bakı memarlıq məktəbi üçün səciyyəvi olan həcmi-fəza kompozisiyasından istifadəyə cəhd göstərilmişdir. Lakin bu tikilidə, minarəni və məscidin azifadəli daş günbəzini nəzərə almasaq, Bakı Şirvanşahlar sarayı kompleksinin klassik qurmaları ilə ümumi heç nə yoxdur.

Məscidin interyeri vestibül və üçnefli ibadət zalından ibarətdir. Azərbaycanda ibadət zalının üçnefli hissələnməsi ilə məscidin planlaşdırma sxemi XIX əsrin ikinci yarısından başlayaraq müşahidə olunur. Həm də məscidin belə bir sxemi tək Bakı-Abşeron bölgəsinin səciyyəvi özəlliyi deyil, Şirvan, Qarabağ, Quba, Şəki-Zaqatala bölgələrində də geniş tətbiq edilirdi. Bənzər tipdə tikililərə feodalizm dövrü türk ayin qurmaları arasında da rast gəlinir.

Üçnefli məscidlərin yaranması böyük həcmli fəzanın örtülməsinin konstruktiv həlli ilə bağlıdır. İbadət zalının nisbətən kiçik günbəzlərlə örtülməsi zamanı ehtiyac olduqda planlaşdırma kompozisiyasının ümumi prinsipini pozmadan məscidin daxili fəzasını sərbəst şəkildə istənilən istiqamətə genişləndirmək olurdu.

Bəy məscidi elə tərzdə həll edilmişdir ki, burada Avropa, şərq və yerli memarlıq-konstruktiv prinsiplər qarşılaşmışdır. Burada heç bir motivlə örtülməyən aşkar eklektika müşahidə olunur, çünki fasadın həcm-fəza kompozisiyasında və traktovkasında order memarlığının hissələnmə və elementlərindən, pəncərələrin nalvari formalarından və yerli memarlıq ruhunda portaldan istifadə edilmişdir.

Müasir binalarda keçmişin itirilmiş memarlıq motivlərini və elementlərini bərpa etmək cəhdi uğur qazanmadı, çünki bu cəhd bölgələrin memarlıq mühiti ilə zəif tanış olan və obrazların inkişaf mahiyyətinə varmadan onları səthi dərk edən memarlar tərəfindən göstərilmişdi. Lakin orta əsr memarlığı elementlərindən istifadə və yerli koloritli binaların inşası Azərbaycan memarlığında milli-romantik istiqamətin inki-











*Bəy məscidi. Minarə fraqmenti.*

şafına səbəb oldu. Bu nöqteyi-nəzərdən Bəy məscidi yalnız aralıq mərhələ sayıla bilər, fəqət burada da yerli yaradıcılığa yaxın dekor əlamətlərini görmək olar. Bu əsasən daxili strukturda özünü göstərmişdir. Günbəzə dayaq olan oxvari tağların yarımdairəvi formaya yaxın zəif konturla ifadə edilməsinə baxmayaraq, interyerin, sütunların, daşıyıcı tağların və memarlıq detallarının quruluş xarakterini orijinala, yəni Bakı Şirvanşahlar sarayı kompleksinə bənzətmə arzusu ilə işlənmişdir.

Daha aydın şəkildə bunu Şirvanşahlar sarayı kompleksindəki Divanxana binasının order sisteminin mexaniki şəkildə böyüdülərək öz təbii proporsiyalarını itirən forma və detallarının ifadəsində izləmək olar ki, bu da məscidin daxili fəzasının ümumi həllində öz əksini tapmışdır. Buna baxmayaraq, bu tikili zamanına xas olan nöqsanları ilə Bakı-Abşeron memarlığının əsasında yaradılmış ilk ibadət binası idi. Bəy məscidinin memarlığının eləcə də sözügedən bölgənin ayin tikililərinin işlənməsində istiqaməti müəyyən edir.

Sonralar Bakı-Abşeronun əkcər məscidləri cüzi stilistik kənarlaşmalara baxmayaraq, ümumi memarlıq ideyasını saxlamaqla inşa edilirdi. Bakıda Karantinnaya küçəsi, 23-də yerləşən Qasım bəy məscidi buna misal ola bilər (memar Məşədi Mirzə Qafar İsmayılov, 1890-cı illər).

Qasım bəy məscidinin ümumi planlaşdırma strukturunda Bəy məscidinin ibadət zalının sxemindəki eyniliyə baxmayaraq, artıq yeni konstruktiv elementin əlamətləri müşahidə edilir: ön fasad tərəfdən ibadət zalının qarşısında şüşələnmiş daş qalereya qurulmuşdur. Bu kimi qalereyalar Azərbaycanın yaşayış tikintisində geniş yayılmışdır. Məsciddəki bu qalereya həm özünəməxsus portik kimi, həm də eyni zamanda rahat, yaxşı işıqlandırılmış vestibül kimi çıxış edir ki, bunun da ideyası sonradan inkişaf etdirilmiş şəkildə mülki mühəndis Zivər bəy Əhmədbəyov tərəfindən Bakının İttifaq məscidində təqdim olunmuşdur.

Qasım bəy məscidinin minarəsi XIX əsr – XX əsrin əvvəllərinə aid yeganə belə tikilidir. Burada klassik orijinala, yəni Şirvanşahlar sarayı kompleksindən saray məscidinin minarəsinə yaxın olan incə proporsiyalar, miqyaslılıq və rəsmlər izlənilir.

Bakı-Abşeronun ayin qurmaları arasında İçəri-şəhərdə inşa edilmiş öz ori-





jinal planlaşdırması və tökmə kaşılarla bəzədilmiş konusvari günbəzi ilə Cümə məscidi (1309-1310-cu illər) diqqəti cəlb edir [269, s. 166]. Onun XIX əsrin sonlarındakı yanuçuq vəziyyəti və bərbad görünüşü Bakının zəngin sakinlərindən Hacı Şirəli Dadaşovu keçmiş tikilinin yerinə yeni müasir məscid binası inşa etmək fikrinə gətirmişdi. 1899-cu ildə qədim məbədin yerində yeni məscid tikilmişdir.

Cümə məscidi ibadət zalının genişliyi ilə fərqlənirdi. Onun girişi portalla vurğulanmış, interyeri isə çoxsaylı yarımdairəvi pəncərələrlə işıqlanır. Mehrab öz təyinatına uyğun dekorativ tərtibata malik idi.

Fasadların yonulmamış daşla hörgüsünün düz konturları, karnizlərin klassik profilləri, cüt yarımdairəvi pəncərələr, portalın incə naxışları və nəhayət, məscidin kompozisiyasını tamamlayan ornamentli günbəz – bütün bunlar jurnalistə aşağıdakıları qeyd etmək imkanı verirdi: "Buraya daxil olarkən siz orijinal, xüsusi bir yerə girdiyinizi, hansısa zamanlarda güclü, möhtəşəm və tamamilə orijinal sivilizasiyanın elementləri və qalıqları ilə əhatə olunduğunuzu hiss edirsiniz. Mavritan incəsənəti, özünəməxsus xüsusiyyətlərinin bu məbəddə əks olunduğu ərəb sivilizasiyası cizgilərinin harmoniyası, formalarının nəcibliyi və stilinin reallığı ilə sizə uzaq, ancaq əbədi qalan keçmişi xatırladır və siz hiss edirsiniz ki, bu bənzərsiz harmoniya, bu xüsusi nəciblik və həyatilik bütün dövrün insanları üçün əbədi olaraq rahatlıq gətirəcək və onları bu məbədə cəlb edəcəkdir"[11].

İbadət zalının daxili planlaşdırmasında Bəy və Qasım bəy məscidlərində olduğu kimi neflərə hissələnmə prinsipi eynilə təkrarlanır. Daxili fəzanın əsasını təşkil edən oxvari tağlar elə bil ki, interyerdə cüt renessans pəncərələrinin nə dərəcədə yersiz olduğunu vurğulayır.



*Bakı. Bazarnaya (H.Hacıyev) küç-də Qasım bəy məscidi. Minarə fraqmenti. Memar M.M.K.İsmayılov. 1896-1899-cu illər.*

Arxitektur mahiyyəti nəzərə alınmadan istifadə edilən müxtəlif motiv və formalar tamlığın vəhdətini pozmuş, eklektika yaratmışdır. Buna baxmayaraq, Cümə məscidi memarlıq həllinin səviyyəsinə görə Bəy məscidindən daha üstündür və daha yaxşı işlənmişdir. Burada binanın miqyası və onun həcm kompozisiyası düzgün seçilmişdir. Lakin forştadtın şəhərsalma sistemində bu məscidlər iştirak etməmişlər, hərçənd İçəri şəhərin tikilişində onlar ümumi

kompozisiyanın aktiv elementləri kimi çıxış edirdilər. Buna baxmayaraq, məhz onların mövcudluğu təbii ki kapitalist Bakının tikilişinə öz obrazlı həlli ilə daxil olan Təzəpir və İttifaq məscidlərinin binaları üçün zəmin yaratdı.

Təzəpir məscidi Bakının şəhərsalma strukturunda xüsusi yer tutması ilə yanaşı həm də öz həcmi-fəza həllinə və memarlıq önəminə görə Abşeronun ayin qurmalarının inkişafında tamamilə yeni mərhələni ifadə edir. 23 iyul 1905-ci il tarixində birmərtəbəli adi məscidin yerində Təzəpir məscidinin təməl daşı qoyulmuşdur (mülki mühəndis Z.B.Əhmədbəyov). Məscidin Təzəpir rayonunda qeyd olunduğunu göstərən Bakının 1796-cı il planına görə köhnə məscidin yerində daha qədim tikilinin olduğu üzə çıxır [241, s. 119].

Bakı müsəlmanları tərəfindən cümə məscidi inşası məsələsi hələ 1893-cü ildə qaldırılmışdır. Bu zaman Sabir adına bağ və ona yaxın ərazilərdə qala divarları yaxınlığında forştadtda iri ayin qurmasının inşası ideyası yaranmışdır. Məscid ətrafında fəvvarəli, kaskadlı və digər kiçik arxitektur formalı parkın yaşıl massivini salmaq nəzərdə tutulurdu. Lakin quberniya administrasiyası məscidin bu sahədə tikilişinə icazə verməmişdi.

Cümə məscidinin şəhər mərkəzindən xeyli aralıda tikilməsinə baxmayaraq, Təzəpir məscidinin yüksəklikdə rahat yerləşməsi, şəhərin bir çox rayonlarından əla görünüşü bu binanı gözəl siluet oriyentiri edir. Xüsusilə də bu, şəhər tikililərinin ikimərtəbəli olduğu vaxtlarda daha çox hiss olunurdu.

Çoxsaylı ziyarətçilər üçün nəzərdə tutulan böyük həcmli məscid yerli memarlığın monumental formalarında həll edilmişdir. Bakıda bu miqyasda daşdan ayin qurması ilk dəfə inşa edilirdi və təbii ki, məscidin layihələşdirilməsi zamanı memar əsas arxitektur-planlaşdırma və həcm-fəza xarakteristikalarını üzə çıxarmaq məqsədilə müsəlman Şərqinin məhşur örnəklərinə müraciət etmişdir.

Məscidin detallarının forma və elementlərinin ərəb Şərqinin memarlığı ilə ümumiliyinə baxmayaraq, Təzəpirin həcm quruluşu, onun modelləşdirilməsi yerli memarlıq xüsusiyyətlərinin mahiyyətindən irəli gəlirdi ki, bu da xarakterinin Bakıda Şirvanşahlar sarayı məscidinin minarəsi ilə oxşar olan Təzəpir minarələrinin forma və detallarına nəzər yetirdikdə aşkara çıxır. Şərqin təsiri məscidin dərin milli koloritini üstələmir, çünki Q.N.Çubinaşvilinin düzgün qeyd etdiyi kimi bunsuz "nə bədii cəhətdən tamamlanmış, nə də hətta bədii incəsənət əsərləri olur" [302, s. 260].

Təzəpir məscidinin ön fasadı arxasından günbəzin möhkəm konturunun göründüyü cinahdan qoruyan minarələrlə üçtağlı dərin portik-eyvan kimi çıxış edir ki, bu da həcmin simmetrik-ox həllində aydın və təntənəli kompozisiya yaradır.

Bakı-Abşeron bölgəsində üçtağlı portik-eyvan və cinahdan qoruyan minarələrlə məscidin fasad kompozisiyası ilk dəfə binanın görkəminin təntənəli ifadəsi kimi istifadə olunurdu. XIX əsrin ikinci yarısında adi memarlıq vasitələrlə ayin qurmalarının sadəliyi və monumentallığının nümayiş etdirildiyi Şirvanın və Qarabağın bəzi məscidləri bu kimi üsulla həll edilmişdir. Onlarda kapitalizm çağına aid məscidlərin memarlığına orijinallıq elementi verən yerli memarların iştirakı özünü göstərir.

Təzəpir məscidi Azərbaycan xalq memarlarından fərqli kateqoriyalarla düşünən Avropa təhsilli peşəkar memarın yaradıcılığıdır və bu səbəbdən də ayin qurmasının işlənməsində onun memarlığı müəyyən ciddiliyi və peşəkarlığı ilə fərqlənir.

Kvadrat planda olan məscid daxili fəzada bir geniş, alçaq silindrik boyun üzərindəki sferik qübbə ilə örtülən ibadət







*Təzəpir məscidi. Ön fasad.*



*Bakı. Təzəpir məscidi.*
*Yan fasad. Mülki mühəndis*
*Z.B.Əhmədbəyov. 1905-1914-cü illər.*



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ




*Bakı. Təzəpir məscidi. Ön fasad. Plan, kəsim. (Ölçmə və çertyoj – Ş.S.Fətullayev).*

zalına (19,6x19,6) malikdir. İnteryerin dekorunda yerli memarlığın memarlıq elementlərindən istifadə edilib, başqa sözlə, onda qübbəli barabanı saxlayan oxvari tağın iri formaları tətbiq edilmişdir.

Təzəpir məscidinin memarlıq-fəza kompozisiyası boyun üzərində dayanmış qübbə ilə örtülü ibadət zalının iri həcmi və bir-birini tamamlayan və qurmanın tektonik strukturunu sərgiləyən minarələri ilə yetərincə aydın ifadə olunmuşdur. Lakin məscidin estetik qavrayışının kəskinliyi minarələrin ikinci yarusunun başlanğıcda nəzərdə tutulanla müqayisədə qısaldılmış olması səbəbincə itmişdir. Məscidin boynun relyefli konturda cizgilənmiş oxvari pəncərələr tacına malik daş qübbə ilə

*Bakı. Təzəpir məscidi. Yan fasad. İbadət zalının interyeri. Mülki mühəndis Z.b.Əhmədbəyov. 1905-1914-cü illər.*



bitən əsas həcminin böyük hündürlükdə olması və yuxarıya ucalan vertikal ikiyaruslu minarələri ayin qurmasının effektli kompozisiya ideyasını ifadə etmiş olardı. Bakı amfiteatrının yüksəklik işarətlərində qərar tutan məscidin belə bir traktovkası ona şəhər üzərində hakim mövqe qazandırardı ki, quberniya administrasiyası buna yol verə bilməzdi. Odur ki, onlar təkidlə minarələrin yalnız birinci yarusa qədər ucaldılmasına nail olmuşdular.

Təzəpir məscidinin ifadəliliyi uğurlu coğrafi mövqe seçimi, düzgün şəhərsalma miqyası və siluet kompozisiyasının həcmliliyi, üstəgəl üçtağlı portik-eyvanın, minarələrin və qübbənin bütövlükdə inandırıcı kontur cizgiləri ilə öncədən müəyyən olunmuşdu. Məscidi şəhərin ən fərqli nöqtələrindən seyr etdikdə, onun ən başlıca cəlbediciliyi - effektli memarlıq-fəza kompozisiyası yaradan həcmli modelləşdirməsidir.

Eyni zamanda məscidin monumental xarakterini, kompozisiyanın bütövlüyünü və ciddiliyini, əhəngdaşını əla, kamillik dərəcəsinə çatdırılıncayadək işləməklə inşaat işlərinin yüksək keyfiyyətini qeyd etməliyik. Bunda öz işinin böyük mütəxəssisləri olan ustaların əməyi az deyildir. Təzəpir məscidinin tikintisində Hacı Abbas - baş bənna, usta Hacı Xeyrulla və Məmmədhənifə - üzlük hörgü işini aparan bənnalar, usta Kərbəlayı Mirzə (1855-1955), Salman Atayev və Soltan - daşyonanlar, eləcə də Kərbəlayı Məcid və Kərbəlayı Sadıq - məscidin interyer tərtibatçıları kimi adlı-sanlı memarlar iştirak etmişdilər.

Təzəpir məscidinin ucaldılmasının nəticəsi bu oldu ki, Bakıda və Abşeronda yeni ayin qurmalarının tikintisinə başlanıldı. Təzəpir cümə məscidi öz monumental görünüşü və memarlığı ilə iri Abşeron kəndlərinin sakinlərini öz məscidlərinə başqa gözlə diqqət yetirməyə məcbur etdi.

Bu qurma Əmircan, Buzovna, Maş-





tağa, Binəqədi, Binə, Nardaran və digər kəndlərdə öz həcminə görə böyük ölçülü məscidlərin inşasında örnək oldu, onların həcm-fəza və planlaşdırma strukturuna bədii məzmun da verilirdi. Bu məscidlərlə yanaşı, adi arxitekturalı çoxlu dini binalar da tikilirdi. Bu tip məscidlərə İran Azərbaycanının kənd yerlərində rast gəlinir [386].

Bakı-Abşeron bölgəsinin ayin qurmalarında kompozisiyada, həcm-fəza həllində və dekorativ motivlərin işlənməsində varislik müşahidə olunur. Hər bir növbəti qurmada əvvəli qurmanın təcrübəsindən, dekorun bu və digər üsul və elementlərindən bir növ istifadə olunur, onlar yeni ayin qurmalarının memarlıq kompozisiyasında öz yerini tapırdılar. Əsas etibarilə onlar memarlıq baxımından XVIII-XIX əsrlərin qovşağında ucaldılmış ayin qurmaları ilə müqayisədə yaxşılaşdırılmış görünüşdə inşa olunmuşdular.

Abşeron məscidləri arasında Əmircan kəndindəki öz həcm həllinin miqyası, siluetinin ifadəliliyi və arxitektura kütləsinin baxımlı traktovkası ilə seçilən Muxtarov məscidini (1908-ci il) qeyd etmək gərəkdir. Hündürlüyü 40 metrə çatan iki vertikal minarəsi ilə bu məscidin silueti Əmircan kəndinin hüdudlarından uzaqlardan, bir- və ikimərtəbəli üfqi yaşayış evlərinin arasından seçilir. Azərbaycanın digər şəhərlərində bu hündürlükdə minarələr yoxdur. Şərq şəhərləri və yaşayış məntəqələrinin özünəxas uğurlu vertikal oriyentiri olmaqla, Məscidin planlaşdırma kompozisiyası olduqca yığcam və məzmunlu qurulmuşdur. Minarələrlə flankirlənən (yanlanan) vestibül vasitəsilə kvadrat formalı, diametri 11,26 m qübbə ilə örtülü olan geniş ibadət zalına (13,6x13,6 m) daxil olurlar. Zalın interyerinə qübbəli boynu saxlayan taxçalı, cizgiləri etibarilə yayqın dörd konstruktiv tağ daxildir. Tağların başdan-başa ornamentlə örtülü olmasına baxmayaraq, onların cizgi xətləri o dərəcədə böyükdür ki, tağlar bütövlükdə ifadəli memarlıq konstruksiyası yaradırlar. Ümumiyyətlə, interyer boyun və qübbəyə qədər ornamental cizgilərlə doludur. Lakin tağ taxçalarının xonçalı hamar divarları daxili fəzanın qalan hissəsi ilə kütlə müqayisəsinin təzadını yaradır. Ciddi səthli konstruktiv tağlar sayəsində interyerin demateriallaşması müşahidə olunmur. İbadət zalı taxçalardakı pəncərələrdən və boyundakı 14 pəncərədən daxil olan və bərabər şəkildə paylanan işıqla dolub-daşır.

Muxtarov məscidinin planlaşdırmasında mehrabla üzbəüz konstruktiv tağların bütün eni boyunca uzanan, qadınlar üçün bölmə təşkil edən yarımqövs apsidaların peyda olması maraqlıdır. Ağacdan şəbəkə arakəsmə ilə əsas zaldan ayrılan ikimərtəbəli apsida məscidin daxili fəzasını böyüdür və interyer kompozisiyasına yeni bir element qazandırır; Azərbaycanın ayin qurmalarının strukturunda belə bir planlaşdırma üsuluna ilk dəfə rast gəlinir. Apsida özünü qabarıq səthi ilə elə təəssürat yaradır ki, həcminə görə o qədər də böyük olmayan ibadət zalı fəza dərinliyinə malikdir.

Muxtarov məscidi başlanğıcda baş usta kərbəlayı Əhməd tərəfindən rəhbərlik edilən yerli ustalar tərəfindən inşa olunurdu, sonrasında layihə Əhmədbəyov tərəfindən işlənmiş və tamamlanmışdı. Kompozisiyanın qurulma prinsipi Təzəpirin obrazını xatırladır, təbii ki, sonuncunun təsiri altında yaradılıb, lakin burada Bakının cümə məscidində ikiyaruslu minarələrin həyata keçirilməyən ümumi ideyası davam etdirilir.

Muxtarov məscidində minarələrin ikiyaruslu kompozisiyası Azərbaycanın ayin qurmalarının bu sayaq həllində yeganə haldır və bənzəri yoxdur. Bəlli olduğu kimi, cizgilərin zərifliyi və propor-

*Abşeron. Əmircan kəndi. Muxtarov məscidi. Minarələr. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1908-1909-cu illər.*










*Abşeron. Əmircan kəndi. Muxtarov məscidi. Ön fasad. Planları, kəsim. (Ölçmə və çertyoj - Ş.S.Fətullayev)*



*Əmircanlı usta Kərbəlayı Əhməd (1908-1909-cu illər). Muxtarov məscidinin inşaatçısı.*

sional hissələnmənin mütənasibliyi və ahəngi ilə fərqlənən bu sayaq kompozisiyadan Osmanlı-türk memarlığında, son dərəcə özünəxas traktovkada olsa da, geniş istifadə olunur [437]. Elə burada minarələrdə digər proporsiyalara, digər hissələnmələrə, Bakı-Abşeronun XIX-XX əsrlərin demək olar bütün memarlıq qurmalarında istifadə olunmuş yerli memarlığa xas ənənələrə əməl edilmişdir.

Əsas həcm üslubi baxımdan bir-biri ilə heç də razılaşdırılmayan formalar və detallarla yüklənmişdir.

Fasadların dekorativ işlənməsində yerli və Avropa memarlığının element və detallarından barokko sınmaları üslubunda istifadə edilmişdir, bu özəlliklə qübbənin boynunda duyulur. Ön fasad portal şəklində verilsə də, onun modelləşdirilməsi, pəncərə yerlərinin, detal cizgilərinin yerləşdirilməsi o qədər də uğurlu deyildir. Ola bilsin məscidin tikintisində ustaların iştirakı (memar cəlb edilmədən) onun memarlığında belə bir həll doğurmuşdur. Yalnız xalq memarının Avropa memarlığı əsasında inşa olunmuş şəhər binaları ilə səthi tanışlığı belə bir traktovkanı ortaya çıxara bilərdi.

Məscidin ən effektli və ifadəli hissəsi - minarələrdir; onların proporsiyası, balkonların stalaktit (salxıt) cizgiləri və üst hissədə başaçatdırma ustalıqla yaradılmışdır. Minarələr məscidin həcminin bütün kompozisiyasına heykəltəraşlıq əsəri xarakteri verir. Məscidin ümumiləşdirilmiş forması möhtəşəm görünür, və bu - qurmanın son dərəcə üstün cəhətidir. Təzəpir məscidinin həcm-fəza strukturunun başlıca prinsiplərindən Muxtarov kənd məscidində - Abşeronun monumentallığı və obrazının gerçəkliyi ilə seçilən yeganə vertikal ayin kompozisiyasında istifadə edilmişdir.

Binəqədi kəndindəki başqa bir məscid (1908-ci il) öz həllini bir qədər başqa planda, daha sadə üslubda tapmışdır. Məscid kəndin ən hündür nöqtəsində qərar tutur, ətraf tikililərə münasibətdə mövqeyi yaxşıdır və öz silueti ilə möhtəşəm bir oriyentir kimi uğurla işləyir. Bu sayaq ayin qurmalarının fərqləndirici cizgisi kəndin tarixi topoqrafiyasında dürüst seçilmiş məkandır. Məscidlər şəhərsalma miqyasına fəal təsir göstərir ki, bu da Abşeron landşaftında onların önəmini artırır.

Abşeronun az qala bütün kəndləri bölgənin dağlıq relyefi üzündən tikililərin pilləvari xarakterinə malikdir və siluetdə dinamik piramidal cizgi ilə ifadə olunur. Yüksəkliyin zirvəsi ondan az dinamik olmayan vertikal minarəli məscid kompozisiyası ilə təsbit olunur. Arxitektura kütləsinin məkanın relyefi ilə bir bütöv təşkil edən belə bir dinamikası, heç şübhəsiz, ifadəli bədii kompozisiya yaradır.

Binəqədi məscidi kəndin mərkəzində yerləşir və onun hündürlük dominantıdır. Planda məscid - düzbucaqlıdır, vestibül hissəyə və kvadrat ibadət zalına bölünmüşdür. Zal, adətən olduğu kimi, dairəvi boyunda konusvari çadırı saxlayan sütunlu oxvari tağlardan qurulmuşdur. Ayin qurmasının həcm həlli kasad memarlıq vasitələri, fasadların düzgün hissələnməsi, ifadəli silueti ilə ifadə edilmişdir. Bu qurmada yerli ənənələrə yaxınlaşmaq, Abşeron memarlığının forma və element detallarından istifadə ilə məhdudlaşmaq cəhdi müşahidə olunur. Təkcə giriş portalı Avropa təsirinin bəzi cizgilərinə malikdir. Lakin məscidin bütün kompozisiyası - tikinti materialı olaraq daşın memarlıq məntiqini ifadə edən daş konstruksiyalı qurmalar prinsipinə sədaqəti ilə fərqlənən yerli memarlıq məktəbinin bədii irsidir. Məscid şaquli və üfqi həcmlərin ağıllı nisbəti, xətlərin ciddiliyi və siluetin ifadəliliyi ilə diqqəti özünə çəkir.





İttifaq məscidi (2 mart 1912-ci il – 3 dekabr 1913-cü il) bölgənin ayin qurmalarına maraqlı misaldır. Məscidin layihəsi Əhmədbəyov tərəfindən tərtib edilib və 1911-ci ildə təsdiqlənmişdir, 1912-ci ildə isə Bakının tikililərin seyrək olduğu şimal-şərq hissəsində Qanlıtəpə səmtdə, təqribən Krasnovodsk 76 və 8-ci Qanlıtəpə küçələrinin tinində köhnə birmərtəbəli tikilinin yerində məscid binasının təməli qoyulmuşdur.

Məscid Krasnovodsk küçəsinə münasibətdə bucaq altında dayanır, bu səbəbdən onun həcm qavrayışı yaranır və o, həyət fəzası tərəfdən yaxşı görünür. Həyətin hüdudları məscidin ucaldıldığı təpənin qırağı boyunca keçib gedir və oradan birmərtəbəli tikililərin sıralandığı dərəyə mənzərə açılırdı.

Yüksəklik məscid üçün onu əhatə edən bu səmtin azdəyərli tikililərindən azad edən vasitə, bir növ təbii pyedestaldır. Məscid landşafta əla uyuşur və hansı nöqtədən baxılırsa, həmişə fokusda, insanların görmə sahəsindədir. Binanın bu sayaq görükən olması - şəhər şəraitində nadir haldır. Şübhəsiz, memar məkanın topoqrafik imkanlarından məharətlə faydalanmış və belə bir yer məscidin məkan quruluşunda öz müsbət rolunu oynamışdır.

Təzəpir məscidindən fərqli olaraq İttifaq məscidinin plan həlli daha intim xarakter daşıyır ki, bu da onun məhəllə məscidi kimi təyinatı ilə müəyyən olunur. İbadət zalının ümumi kvadrat həcminə - şərqdən portal-vestibül, arkada-eyvan və küncdə - ələhiddə dayanmış minarə, şimaldan - qadınlar üçün bölmənin ikimərtəbəli həcmi, cənubdan isə - mehrab yerləşən apsida bitişikdir.

İbadət zalının taraşlanmış hündür boyun üzərindəki qübbəsi ilə həcmi və kvadrat təməl üzərində düz minarə İttifaq məscidinin memarlıq kompozisiyasının əsasını təşkil edir. Portalın düzgün proporsiyası bitişik arkada-eyvan ayin qurmasının başlıca komponentlərini üzvi şəkildə tamamlayır. Burada hündür boyun üzərindəki qübbə obrazın biçimlənməsində və kompozisiyanın açılımında Təzəpir və Əmircandakı Muxtarov məscidləri ilə müqayisədə daha fəal iştirak edir.

Alçaq boyun üzərində yastılanmış qübbədən imtina etməklə, müəllifin onun rolunu xüsusilə məscidin ümumi siluetindəki önəmini inkişaf etdirilmiş boyun qurğusu vasitəsilə vurğulamaq cəhdi gözdən qaçmır. Beləliklə, qübbə artıq təkcə içdən daxili fəzanı təşkil edən həcm elementi kimi deyil, həm də memarlıq kompozisiyasının əsas hakim forması kimi iştirak edir.

Bakı-Abşeron bölgəsinin bundan əvvəl gözdən keçirdiyimiz ayin qurmalarında, özəlliklə Təzəpir və Muxtarov məscidlərində qübbə həcm elementi olaraq təqdim edilir, lakin bu, İttifaq məscidində, ardınca isə Şamaxinka səmtdə yerləşən Soltanəli məscidindəki inkişaf dərəcəsində işlənməmişdir. İttifaq məscidində ibadət zalının əsas həcminə memarlıq baxımından yaxşı işlənmiş, onunla bir bütöv təşkil edən və qurmanın ümumi xarakterində aparıcı yeri müəyyən edən boyunlu qübbə qoyulur.

İttifaq məscidinin fəza strukturu böyüyən həcm kontrastı və memarlığın yerli və şərq elementlərindən istifadə üzərində qurulub ki, bu da yetərincə baxımlı və effektli qurma yaratmağa imkan vermişdir. Məğrib ölkələri memarlığının, xüsusən də arkada-eyvanın həllində, nalşəkilli tağları olan portal kompozisiyasında və detalların səciyyəvi ornamental işlənməsində müəllifə müəyyən təsir göstərdiyi göz önündədir.

Bu və digər qurğunu layihələşdirərkən memarlar o vaxtlar bəlli memarlıq örnəklərinə sərbəst şəkildə müraciət edir-



*Abşeron. Binəqədi kəndi. Cümə məscidi. Ümumi görünüş. Abşeronun Novxanı kəndindən Usta Ağabala və Hüseynbala. 1909-1914-cü illər.*

dilər. Məscidin layihəsini tərtib edərkən Əhmədbəyov, təbii ki, müsəlman memarlığı ənənələrindən faydalanmışdı.

İttifaq məscidində portalın bəzi elementləri və detalları, şərəfənin stalaktit karnizi, divarların ornamental başlıq bəzəyi bu memarlıq ünsürlərinin Təzəpir məscidinin memarlığı ilə eyniyyətindən söz açır, lakin bununla belə memara öz siluetinə və bədii kompozisiyasına görə maraqlı olan müstəqil memarlıq əsəri yaratmaqda mane olmamışdır. Məscid XX əsrin başlanğıcının memarlıq abidəsi olaraq şəhərin müasir tikinti simasına uğurla daxil ola bilmişdir.

Divarların üzlənməsi, memarlıq detallarının işlənməsi, daş üzərində oyma rəssam-daşyonanlar tərəfindən böyük məharətlə icra olunmuşdur. İttifaq məscidinin tikintisində Təzəpir məscidi, Bakı Şəhər Duması və s. binaların tikintisindən yaxşı tanınan daşyonan usta Salman Atayev işləmişdi.

Bakı-Abşeron bölgəsinin ayin qurmaları arasında Persidskaya və 1-ci Qanlıtəpə küçələrinin tinində yerləşən Soltanəli məscidi xeyli maraq doğurur. Layihə 1910-cu ilin sonları - 1911-ci ilin əvvəllərində tərtib edilmiş, 1912-ci ilin yanvarında təsdiqlənmişdir.

Qurmanın müəllifini müəyyənləşdirməkdə çətinlik yaranır, belə ki, məscidləri bəlli olduğu kimi, Zivər bəy Əhmədbəyov və İ.K.Ploşko layihələşdirirdi. Lakin Bakıda Ploşko məscid inşa edibmi? - bu suala cavab vermək çətindir, çünki tərəfimizdən Əhmədbəyovun arxivində aşkar edilmiş və 1909-cu ildə tərtiblənmiş layihədən iki fotosurət Şamaxı Cümə məscidinə və tikintisi həyata keçirilməyən başqa bir məscidə aiddir. Özü də naməlum məscidin layihəsində Bakıda 1909-cu ildən sonra inşa edilmiş məscidlərə yaxın olan heç bir özəllik aşkar edilmir. Bu layihədə məscidin mərkəzə uyğunlaşdırma xarakteri aydın xətlərlə, ümumiləşdirilmiş formalarla, memarlığın bir qədər modernist cizgiləri ilə işlənmişdir. Minarə vertikalı Osmanlı-türk memarlığının aşkar təsiri altında çəkilmişdir, halbuki qübbəaltı boyun Orta Asiya mənşəlidir. Hər halda, memarın bu qurğuya daha müasir planda baxmaq, müsəlman memarlığının hamıya bəlli ənənəvi formalarından müəyyən dərəcədə uzaqlaşmaq, onu yeni üsullarla həll etmək cəhdi müsbət önəm daşıyırdı.

Soltanəli məscidi, bucaq sahəsinin küçəyə nisbətdə yerləşməsi nəzərə alınmaqla, şərq memarlığının ənənəvi formalarında qurulmuşdur. Sahənin dar olması (450 kvadrat metrə yaxın) həm məscidin daxili həcmini, həm də həyət boşluğunun səlis planlaşdırmasının təşkilini tələb edirdi. Ərazinin məhdudluğu sifarişçilərin monumental ayin qurması inşa etmək tələbini istisna etmirdi. Belə bir tapşırığın verildiyi halda vertikal həcm kompozisiyası zərurəti doğurdu ki, müəllif də bunu təklif etmişdir. Sahənin bucaq hissəsi kiçik sahəli həyətə ayrılır, qalan hissəni isə vestibülü olan ibadət zalı və buraya bitişik minarə qurğusu tuturdu.

Məscidin minarəsi Persidskaya küçəsinə baxır, ibadət zalı isə Qanlıtəpə küçəsinə açılır, daş hasar və darvazaların təmtəraqlı tağı sayəsində bir növ dərin ti-








*Abşeron. Binəqədi kəndi. Cümə məscidi. Kəsim, baş plan, plan. Abşeronun Novxanı kəndindən Usta Ağabala və Hüseynbala. 1909-1914-cü illər.*



*Bakı. Hacı Əjdər bəy Aşurbəyovun İttifaq məscidi. Krasnovodskaya küç. (Səməd Vurğun) 76. Minarə fraqmenti. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1912-1913-cü illər.*

kiliş təəssüratı yaranırdı. Bitişik tikilidən çıxış yarımqaranlıq vestibülə aparır, ibadətə gələn buradan oktoqonal formalı, gur işıqlı, oxvari profilli tağlı-taxçalı ibadət zalına daxil olurdu. Zalda kompozisiyanın parlaq ifadə edilmiş vertikal ifadəsi hakimdir. Bakı-Abşeronun daxili fəzanın dərinliyə və perspektivaya malik olduğu digər məscidlərindən fərqli olaraq, bu ibadət zalında vertikal üstünlük təşkil edir: zalın təqribən 22 metrlik hündürlüyü başqa bir ritm və hissələnmə, başqa bir memarlıq-bədii ovqat yaradır.

Məscid kompozisiyasının vertikallığı, onun memarlıq həlli hansısa bir dərəcədə belə bir fikir oyadır ki, ola bilsin, bu - İ.K.Ploşkonun əsəri olsun.

Bakı-Abşeron bölgəsinin ayin qurmalarında ibadət zalının quruluşunun maraqlı bir özəlliyi müşahidə edilir: interyerin tərtibatında stilizatorçuluq və eklektikanın müəyyən əlamətlərinin, nazik bir təbəqəsinin olmasına baxmayaraq, qurmanın memarlıq-konstruktiv özəyi iri oxvari tağlar üzərində qurulur və onlar fəza həllinin əsasını təşkil edirlər. Məhz onlar yerli memarlıq ənənələrinin özünəmxsusluğunu və XIX-XX əsrlərin qovşağında onların dayanıqlığını sərgiləyən başlıca elementlərdir.

Bakının maraq doğuran ayin qurmaları sırasına şəhərin yuxarı hissəsində, Poçtovaya və Verxne-Naqornaya küçəsi 32-nin tinində inşa edilmiş Haşımov məscidini (memar A.V.Eyxler, 1899-1909-cu illər) də aid etmək olar.

Bu misalda ayin qurmaları memarlığının yaşayış məhəllələrinin sıravi tikililərinə təsirini, ətraf mühitin həcm-fəza strukturunun dəyişməsini və şəhər tikililərinin səciyyəvi siluetinin meydana çıxdığını izləmək mümkündür.

Bakının kütləvi yaşayış evləri kompozisiyanın vertikallığı ilə seçilmirdi, onlar əsasən yaşayış binalarının kubşəkilli həcmləri ilə təmsil olunurdu. Bax bu səbəbdən Bakı amfiteatrının terraslarında yerləşən, göyə zillənən minarələri və böyük həcmli qübbələri olan dini binalar şəhər tikililərinin tipik çoxpilləli cizgisini yaradırlar.

İndi şəhərin tarixi məhəllələrinin rekonstruksiyası zamanı bununla hesablaşmamaq olmur, çünki buna məhəl qoymamaq qiymətli memarlıq irsinin memarlıq özəlliklərinin itirilməsinə doğru aparır.

Haşımov məscidi küçələrin qırmızı xəttindən bir qədər uzaqlaşdırılıb və hündür hasarla əhatəyə alınmışdır. Darvazadan içəri girən mömin həyət boşluğunun dar zolağına düşür, uzunsov proporsiyalı portal onun oxu boyunca yerləşmişdir. Portalın arxasında vestibül gəlir, oradan ox üzrə mehrabla tamamlanan zalın üçnefli planlaşdırma strukturu açılır. Tağların profili, qübbənin ağırlığını saxlayan özəklər - ənənəvi olaraq oxvaridir. Bu sayaq memarlıq-planlaşdırma sistemi gözdən keçirilən epoxanın məscidləri üçün klassikaya çevrilmişdi. Mərkəzi nefin tağların bundan əvvəlki köndələn aşırımı ilə kəsişməsinin üzərində sütunlu tağların sakit ritminə, məscidin daxili fəzasına bir dinamika bəxş edən qübbəli boyun ucalır. Qübbə memarlıq formalarının lokal vasiləsini pozaraq, ibadət zalının kompozisiyasını səslənməyə və eyni zamanda öz həcmi və silueti ilə küçəyə «işləməyə» məcbur edir.

Haşımov məscidinin həm planının, həm də binanın ümumi kompozisiyasının memarlıq həlli plastikdir.

Məscidin ümumi fonunda lociyanın iri formalı tağlı açırımlarından sərgilənən, bütövlükdə üzü şəhərə baxan və məkanın relyefi sayəsində hündür stilobatda qərar tutmuş şərq fasadı xüsusilə maraqlı görünür.

Cənubda məscidin memarlıq kompozisiyasını Bakı-Abşeron bölgəsinin digər məscidlərindəki minarələrin memarlığı ilə oxşar cizgilərə malik, lakin öz fərdiliyini qoruyub saxlamış olan daralan minarə vertikalının zərif cizgisi tamamlayır.

Bakının ayin (və təkcə ayin yeri funksiyası daşımayan) qurmalarını təhlil edərkən bir daha bu fikrin üzərinə dönmək lazım gəlir ki, yalnız fasad divarının hörgüsü deyil, həm də istisnasız olaraq daşdan memarlıq elementləri və detallarının hamısı onlara yüksək estetik dəyəri təmin edir.

Bunun nəticəsində Bakı binalarının əksəriyyəti onların arxitekturası az və ya çox dərəcədə düzgün həll edildikdə, daş üzərində oymanın virtuoz ifası hesabına ən dərin təəssürat doğurur. Bənnaların və oymaçıların sənət qüdrəti layihələrin memarlıq ideyasından nəinki geri qalır, əksinə bir çox hallarda onları üstələyir. Bir şey şübhə doğurmur: əgər bu layihələr əsasında ucaldılan bir çox binaların inşası daşdan deyil və lazımi səviyyədə aparılmasaydı, onlar son dərəcə adi, heç nə ilə diqqəti özünə çəkməyən binalar olardı.

Binə kəndində məscidin (1913-1916-cı illər) obrazlı həlli diqqəti çəkir. Öz kompozisiyasına görə bu məscid Quba bölgəsi məscidlərini (Quba Cümə məscidi, Əniq, 1911-ci il, Avaran, 1829-cu il və s. məscidləri) xatırladır, lakin memarlıq həllinin tektonikası, bütün binanın işlənməsində xətlərin ciddiliyi və məhdudluğu ilə güclüdür.

Bakı-Abşeron bölgəsinin ayin qurmalarının tikintisində daha əlverişli sosial-iqtisadi şərait (sənaye və ticarətin daha yüksək inkişafı) üzündən yeni kompozisiya üsulları və dekorativ motivlər, öz epoxasına cavab verən daha monumental qurmalar yaradılır. Bu işdə memarların professional ustalığı və ayin qurmalarının obrazlarına bədii elementlər əlavə edən bənnaların sənətkarlığı sayəsində tikintinin yüksək keyfiyyəti xeyli rol oynamışdır.

Güclü memarlıq ənənələri və milli memarlığın maraqlı abidələri ilə zəngin olan Gəncə-Qarabağ bölgəsində Avropa memarlığı dərin köklər ata bilməyib və yerli üsullar tərəfindən udulmuşdur. Bu, yerli memarlığın inşaat və arxitektura ənənələrindən daha dolğun istifadə edildiyi ayin tikililərində izlənir. Qarabağ bölgəsinin kəndləri və şəhərləri Avropa arxitekturasının təsirinə daha az məruz qalmışdır, burada kapitalizm, məsələn, Bakıda olduğu qədər, memarlıq sferasına nüfuz edə, bu bölgənin milli dayaqlarını və ənənələrini yerindən oynada bilməmişdi.



*Abşeron. Buzovna kəndi. Cümə məscidi portalının fraqmenti. 1900-cü illər.*

Qarabağda XIX əsrin ilk yarısında və ikinci yarısının əvvəlində özünəxas memarlıq məktəbi qərarlaşmışdı, bu məktəbin lideri XIX əsrin sonlarına qədər Kərbəlayı Səfixan Qarabaği (1788-1910) idi. Onun yaradıcılığı Qarabağ ərazisi ilə məhdudlaşmayaraq, Azərbaycan hüdudlarından kənara çıxmışdı. Bu qarabağlı memarın populyarlığına Aşqabatda onun tərəfindən 1880-ci illərdə inşa edilən Qarabağlılar məscidi və Odessada Tatar məscidi (1870-ci il) şahidlik edir [284, s.136].

Kərbəlayı Səfixan Qarabaği - Azərbaycanın tikinti ənənələrindən və yerli materiallardan səmərəli və məharətlə istifadə üzərində qurulmuş yerli memarlıq prinsiplərinə və memarlıq üsullarına riayət edən xalq memarlarının sonuncusu idi.

Qarabağ bölgəsinin ayin qurmaları istisnasız olaraq Qarabağinin yaradıcılığı ilə təmsil olunur. Bu memar öz fəaliyyətinə hələ 1860-cı illərdə Bərdə şəhərində başlamışdır. 1868-ci ildə onun tərəfindən qədim İmamzadə məqbərəsi üzərində məscid inşa edilmişdir [241, s.38]. Məscidin professor Ə.V.Salamzadənin kitabında gətirilən plan xarakteristikasının təfsilatına [241, s.38] varmadan, təkcə mərkəzi qübbədən və dörd künc minarəsindən ibarət maraqlı həcm-fəza kompozisiyasını qeyd edək.

Bərdədə məscidin belə bir strukturu Azərbaycan memarlığında yeganə olaraq qalır. Kərpicdən ucaldılmış cüt minarələrə Azərbaycanın müxtəlif şəhər və kəndlərinin orta əsr abidələrində, məsələn, Naxçıvanda (XII əsr), Sultaniyyədə (XIV əsr) rast gəlinir, lakin onlar əsas həcmlə bir bütöv təşkil etməyərək əsasən məscidlərin həyatlərinə girişin portal hissəsində yanları tuturlar. Bərdədə və bir qədər əvvəl (XIX əsrin təqribən 50-60-cı illərində) Şuşa məscidlərində uzun







*Abşeron. Saray kəndi. Məscidin interyeri. 1899-cu il.*

fasilədən sonra memarlıq kompozisiyasının bu elementini daxil etməyə başlayırlar. O, traktovkanın özünəməxsusluğu, proporsiyaları, minarə belvederlərinin İran, Türkiyə və Orta Asiyanın ayin qurmalarının bu sayaq elementlərindən tamamilə fərqlənən kontur cizgiləri ilə maraqlıdır.

Memar Qarabağinin yaradıcılığı sayəsində Qarabağ bölgəsi daxili fəzanın yalnız ona xas təşkili - onlara söykənən oxvari tağlı, qübbə örtüklü daş sütunlar sırası, hissələnmə və dekorativ bəzəklərin ciddiliyi ilə məscidlərin vahid tipini əldə etmişdir.

Qarabağ bölgəsinin başlıca məscidləri (əsasən Ağdam, Şuşa və Füzulidə) üçnefli sistemlə təmsil olunurlar, burada iki birinci nef kompozisiyaya ciddi şəkildə simmetrikdir. İbadət zalı - məscidin aparıcı vəsiləsi - konstruktiv təməlin dekorativ süniliyinə yol verilmədən, interyerin memarlıq həllini formalaşdıran konstruktiv elementlər (sütunlar, tağlar, qübbə) üzərində qurulmuşdur.

Aydın konstruktiv sistem məscidlərin daxili fəzasının tektonikasını müəyyən edir. Yalnız bu elementlərin qarşılıqlı bağlılığı, onların perspektivada çulğalaşması, optik dərinliyi, məşhur Qarabağ xalçalarının əlvan boyaları interyerin arxitekturasını yaradırlar. Bu imkanların sərgilənməsinin başlıca mənbəyi - kobudtəhər sütunlarla təmsil olunan daş konstruksiyalar, özək-qübbələri çiynində saxlayan oxvari tağların yayğın, möhkəm cizgiləridir. Burada saxta dekorativ qapanaqlara üz tutulmadan açıq tipli konstruksiyalar təqdim edilir.

Məscidlərin arxitektura kütləsi və interyerlərinin belə bir tektonikası - memar Kərbəlayı Səfixan Qarabaği yaradıcılığının xarakterik özəlliyidir [284, s.53].

Qarabaği ayin qurmasının daxili məkanını neflərə və qadınlar üçün ikimərtəbəli qalereyaya bölməklə hissələnmənin müəyyən bir kompozisiya üsulunu işləyib hazırlamışdı. Bu üsuldan onun inşa etdiyi məscidlərdə yerli özəlliklər nəzərə alınmaqla dəfələrlə istifadə edilmişdi. İnteryerlərin birtipliliyinə sütun cizgilərinin standartlığı, onların proporsional cərgəsi, cizgilərinin çəkilişinə görə koloritli və konstruktivcəsinə səmərəli oxvari tağların xarakteri və miqyas vəhdəti hesabına nail olunmuşdur ki, bunlar məscidlərin strkturu üçün olduqca vacibdir. İnteryerlərdə konstruksiyaların təmiz xətlərinin fonunda hansı bir dərəcədəsə mehrablar (taxçalar) müəyyən bir dekorativliyi ilə seçilir. Onlar cizgi xətlərinin ümumi ciddiliyini qoruyub saxlayır, Bakı məscidləri mehrablarının xüsusi olaraq diqqəti özünə çəkən mürəkkəbləşdirilmiş kompozisiyalarından fərqlənirlər.

Qarabağinin inşa etdiyi digər tikililərdən tamamilə fəqlənən Ağdam məscidi (1868-1870-ci illər) - bu yerin öz həftə-





*Abşeron. Binə kəndi. Səlim məscidi. Fasad, plan. Kəsim, baş plan. Əmircan kəndindən usta Mirzə Malik. 1913-1916-cı illər.*

bazarı olan iri yaşayış məntəqəsinə çevrildiyi vaxtlarda ucaldılmışdır. Ağdam məscidinin planı kvadratşəkillidir; ibadət zalı səlisliklə neflərə və ikimərtəbəli qalereyalara ayrılmışdır. Bu kimi kompozisiya daxili fəzanın memarlıq mahiyyətini həcm və plastika baxımından ifadə edən açıq konstruktiv formalar üzərində qurulur. Memar tərəfindən bu qurmada Qarabağın gözdən keçirilən epoxaya aid ayin binalarının interyerlərinin sonralar klassik sxemə qədər inkişaf edən başlıca səciyyəvi cizgiləri qeyd edilmişdir.

Lakin memarlıq dilinin Ağdam məscidinə xas olan ciddiliyi və sadəliyi sonralar fasadların kompozisiya həllinin mürəkkəbləşdirilməsi hesabına (Şuşa məscidi) itirilmişdir. Ağdam məscidində milli memarlığın arxitekturanın ciddi dili ilə ötürülən orijinallığını, özünəxaslığını qoruyub saxlamış olan yerli tikinti ənənələri daha qabarıq çıxış edir. Avropa eklektikası və stilizatorçuluğunun hələ sirayət etmədiyi Ağdam məscidi memarın yaradıcılıq məhsuludur, bu memar öz təcrübəsinə və yerli ənənələri bildiyinə söykənməklə, tikinti materialları və memarlıq üsullarından ağılla istifadə etməklə, düşünə-düşünə inşa edir.

Beləliklə, Qarabaği qurmanın kənardan gətirilmə və yad təsirlərdən xali olan memarlıq və konstruktivlik baxımından həqiqiliyinə nail olur. Ağdam məscidinin arxitekturasına yerli şərq memarlığının bir bütöv təşkil edən, məhəlliçilik vurğusu olmayan, milli özəlliklərlə, məişət və təbiət şəraiti ilə şərtlənən sağlam bünövrəsi qoyulmuşdur.

Memarlıq irsindən istifadəyə münasibətdə ən yaşarı və dayanıqlı bölgələrdən biri memar Qarabağinin çalışdığı Qarabağ bölgəsi olmuşdur. Lakin yerli memarlıq ənənələri inkişaf etdirilməyib və Qarabağda müasir tikinti işlərində







*Abşeron. Nardaran kəndi. Cümə məscidi. Cənub fasad, plan. 1899-cu il. (Ölçmə və çertyoj - Ş.S.Fətullayev).*

istifadə edilmir [54, s.179]. Şuşada XIX əsrdə yaşayış evləri təbii-iqlim xüsusiyyətləri nəzərə alınmaqla səmərəli inşa edilmişdir; onların strukturuna açıq pilləkənlər, dövrələmə qalereyalar və balkonlar daxil olmuşdur [273, s.115].

Öz memarlıq konsepsiyalarını hələ Bərdə məscidinin rekonstruksiyası zamanından inkişaf etdirməyə başlamış Kərbəlayı Səfixan Qarabaği tərəfindən Şuşada ucaldılan ayin qurmaları xalq memarlığından bu istifadə prinsipləri üzrə tikilmişdir.

Şuşa şəhərinin mərkəzi meydanından şimal-şərqə doğru 150 metrlik məsafədə Gövhər ağa tərəfindən inşa etdirilmiş Aşağı məscidin ətrafında qurmalar kompleksi yerləşmişdir. Bu kompleksə məsciddən başqa memar Qarabaği tərəfindən 1870-ci illərin əvvəllərində ucaldılmış müxtəlif təyinatlı tikililər: mədrəsə, yaşayış evləri və dükanlar daxildir. Məscid və mədrəsə köhnə ayin qurmasının yerində ucaldılıb və ümumi planlaşdırma sxeminə və eləcə də vahid memarlıq kompozisiyasına malikdir. Məscid və mədrəsənin bir bütöv təşkil etdiyi belə bir memarlıq-planlaşdırma üsulu İslam memarlığında (İspaniyadan Orta Asiyaya və Hindistana qədər) yetərincə geniş yayılmış təzahürdür, lakin Azərbaycanda bu sayaq binalar bizim gözdən keçirdiyimiz örnək istisna olmaqla, qorunub saxlanmamışdır [466, 492].

Lakin ənənəvi üsullarla traktovka edilmiş məqbul planlaşdırma sxemi, hətta tikinti işlərinin getdiyi dönəmdə zamanın tələblərinə cavab vermirdi; onun mahiyyətində konservatizm elementləri vardı. Bu, yerli memarlığın arxitektura-planlaşdırma üsullarının dayanıqlığını bir daha təsdiq edir.

Aşağı məscidin ön fasadı bədii şəkildə traktovka olunmuş lociya portiki və plastikcəsinə işlənmiş ikimərtəbə yan qanadlarla vurğulanmışdır. Burada portalın ənənəvi tipi tədricən öz yerini Ağdam məscidində hələ də saxlanan portik-lociyaya verir. Belə bir kompozisiya - portik və portal arasında aralıq vasilədir, çünki bu memarlıq üsulunun yenisinə çevrilmə prosesi davam etməkdədir. Mərkəzi oxvari tağ və onun konstruktiv forması bundan xəbər verir, memar onlardan imtina etməyərək ənənəvi memarlıq üsulundan yeni tərzdə faydalanmağa çalışır. Aşağı məscidin planlaşdırma sxemi üçnefli və böyük olmayan qübbəni çiynində saxlayan dörd sütunlu Ağdam məscidinin ideyasını davam etdirir.

Şuşa şəhərinin mərkəzinin ümumi planlaşdırma sxemində Cümə məscidi və ya Gövhər ağanın Yuxarı məscidi hakim mövqe tutur.

Məscid 1768-ci ildə Qarabağ hökmdarı İbrahim xanın əmri ilə inşa edilmişdir. Bütün XIX əsr ərzində məscid dəfələrlə








*Abşeron. Nardaran kəndi. Cümə məscidi. Kəsim, baş plan. 1899-cu il. İbadət zalının interyeri.*





*Binə kəndi. Səlim məscidi. Ümumi görünüş. usta Mirzə Məlik. 1813-1816-cı illər.*

yenidənqurma və rekonstruksiyalara məruz qalmışdır. İbrahim xanın tikdirdiyi köhnəlmiş məscidin yerində onun qızı Gövhər ağa tərəfindən yeni, daha böyük və daha yaxşı dekorativ, Qarabağ xanlarının əzəli şan-şöhrətlərinə cavab verən məscid inşa etdirilmişdir (1837-1838-ci illər) [107, s.101]. Təəssüf ki, bu yeni məscidin memarının kimliyi barədə əlimizdə bilgi yoxdur.

Gövhər ağanın birinci məscidinin (1837-1838-ci illər) uçurulmasını və onun yerində Qarabaği tərəfindən yenisinin inşa olunmasının (1883-1884-cü illər) səbəbləri bəlli deyildir [209, s.59]. Hər halda, o, əvvəlki memarlıq-planlaşdırma sxemindən (mərkəzi-qübbəli) imtina etmiş və bu ayin qurmasının Ağdam məscidi və Şuşada Aşağı Gövhər ağa məscidində istifadə edilən həlli ideyasını inkişaf etdirmişdir.

Şuşada Kərbəlayı Səfixan Qarabaği əsas etibarilə Yuxarı Gövhər ağa məscidinin ön fasadının ümumi traktovkası üzərində işləmişdir. Bu məsciddə portikeyvan daha geniş açılmışdır və faktik olaraq bütün ön fasadı tutur, halbuki Aşağı məsciddə o hələ qapalı xarakter daşıyır, onun həcm-fəza funksiyaları hələ tam üzə çıxarılmır. Yuxarı məscidin memarlıq kompozisiyası bədiiliklə yoğrulub və ön fasadı plastik, lakin bütün Şuşa memarlığı kimi təmkinli, ciddi və əzəmətli biçimlərdə həllini tapmışdır.

Burada, məsələn, Bakı binalarında olduğu kimi, daş memarlığının incə profilləri, oyma və zəngin bəzəkvurma yoxdur. Şuşada müxtəlif sahəli və formalı on yeddi məhəllənin mövcudluğu [37, s.12-13] buna müvafiq olaraq onların ictimai





*Ağdam. Məscid. Plan, kəsim. Memar K.S.Qarabaği 1868-1870-ci illər. (Ölçmə və çertyoj - Ş.S.Fətullayev) İbadət zalının interyeri.*

mərkəzlərini də müəyyən etmişdir. Məscid, hamam, dükan və fəvvarələr-köşklər kimi ictimai qurğuların inşası əsas etibarilə mərkəzi məhəllədə aparılmışdır.

Məhəllədə böyük olmayan, lakin ifadəli formalı məscidlər onları əhatə edən yaşayış evləri ilə həmahəng, kasad memarlıq vasitələri ilə həll edilmişlər, onlar eynilə şəhərin ictimai qurğuları kimi yerli memarlıq üsullarının ciddi prinsipləri üzərində ucaldılmışlar. Ön fasadlar dərin portik və ya soğanvari arkada-lociya şəklində təqdim edilmişlər.

Məhəllə məscidlərinin ibadət zallarının böyük əksəriyyəti örtük qübbə-özəyi çiynində saxlayan sütunların yaratdığı üçnefli struktura malikdir. Hündür dam örtüyü interyerdə böyük həcmdə təqdim olunan və görmə planında onların daxili fəzasını genişlədən bu elementləri gizlədir. Məhəllənin planlaşdırmasının və tikinti işlərinin aparıcı oyektləri olan məscidlər inşa edilərkən yerli memarlığın üslubi özəlliklərinin daha dayanıqlı olduğu üzə çıxır. Bir qayda olaraq, məscidlərin interyerlərində və portiklərində sütunlar kimi bir çox memarlıq elementləri səkkizvəchli, tağlar və tağbəndlər - oxvari formada icra edilmişlər.

Bu elementlər ayin xarakterli qurmalarda yerli ustalara bəlli və adiləşmiş olan estetik məzmunlu funksiya daşıyırdı.

Şuşanın demək olar bütün məhəllə məscidləri memar Qarabağinin bilavasitə iştirakı ilə inşa edilib və onun yaradıcılığına məxsusdur. Bu qurmalar şəhərin strukturuna fəal elementlər kimi daxil olmuş və Şuşa binalarının memarlıq-bədii kompozisiyasına təsir göstərmişdir.

Füzuli şəhərində (keçmiş Karyagino kəndi) 1889-cu ildə inşa edilmiş məscid







*Ağdam. Məscid. Ümumi görünüş. Memar K.S.Qarabaği 1868-1870-ci illər.*




*Şuşa. Gövhər ağanın Aşağı məscidi. Fasad, kəsim. Plan. Memar K.S.Qarabaği 1874-1875-ci illər. (Ölçmə - memarlar D.Allahverdiyeva, İ.Utsın).*

- memar Qarabağinin bizə bəlli olan son işlərindən biridir. Həcm etibarilə böyük olmayan (12,02x16,37 m) bu məscid girişin sağ tərəfdə, oxvari tağlı portalın dərinliyində yerləşdirilməsi sayəsində asimmetrik həllə malikdir. İbadət zalı - kvadrat planda olub, daxili fəzası eynilə Ağdam və Şuşa məscidlərində olduğu kimi üçnefli hissələnmə şəklindədir. Onda memarlıq həllinin eyni konstruktiv sxemi izlənir, memar tərəfindən Qarabağın iri şəhər və məhəllə məscidlərində sınaqdan keçirilmiş eyni prinsiplər təkrarlanır.




Qarabaği tərəfindən Horadiz kəndində inşa edilmiş məscid də həmin tipdədir, lakin onda ön fasadın kompozisiyası tamamilə başqa xarakterdədir. Açıq, balkona aparan və həyətə keçid verən taxta pilləkənli fasadın kompozisiyası ayin qurmasının fasadından çox, Şuşa evlərinin fasadını xatırladır.

Qarabağ bölgəsinin, özəlliklə ayin qurmalarının memarlığı, mövzunun iş-







*Şuşa. Gövhər ağanın Aşağı məscidi. Şimal fasadı. Həyət.*





*Şuşa. Gövhər ağa məscidi. Ümumi görünüş. Memar K.S.Qarabaği. 1883-1884-cü illər.*

lənməsi, arxitektura həlli, həcm kütlələrinin monumental sırası, yerli memarlığın prinsipləri və ənənələrinin qorunub saxlanmasına görə ayrıca yer tutur.

XIX əsrin ikinci yarısından başlayaraq, yerli memarlarla yanaşı ayin qurmalarını peşəkar memarlar da layihələşdirir və inşa edirdilər. Onlar yerli memarlıq ənənələrinə nəinki etinasız qalır, əksinə formal da olsa, onların özəlliklərinə yaxınlaşmağa çalışırdılar. Misal üçün, Gəncənin şəhərətrafı olan Bağmanlarda Bala Bağman və Ozan küçələrindəki məscidlərin 1883 və 1884-cü illərdə tərtiblənmiş layihələrini qeyd etmək olar. Hər iki layihədə həm planın işlənməsində, həm də həcm həllində məscidlərin eynitipli sxemi təqdim olunmuşdur. Onların həcm həlli üçün portalın dərin taxçası və yanlarda iki kiçik yerləşgə, eləcə də oxvari cizgili qübbə ilə örtülmüş mərkəzi ibadət zalı xarakterikdir.

Bu məscid tipi - Gəncədə memar və alim Şeyx Bahauddin tərəfindən inşa edilmiş məşhur Cümə məscidinin sadələşdirilmiş variantıdır [241, s.27]. Məscid layihələrinin bir çox tərtibçiləri yerli ənənə ilə Avropa memarlığı arasında kompromis həll axtararkən Cümə məscidinə isnad edirdilər ki, bu da ön fasadların hissələnməsində əksini tapırdı. Məscidlərin memarlığının ümumiləşdirilmiş xarakterinə baxmayaraq, onlarda forma və həcmlərin kompozisiya








*Şuşa. Mərkəzin baş planı və Gövhər ağa məscidi. Plan, kəsim, şimal fasadı. Memar Kərbəlayı Səfixan Qarabaği. 1883-1884-cü illər. (Ölçmə və çertyoj - Ş.S.Fətullayev).*

baxımından qurulmasında yerli spesifika duyulmaqdadır. Qazax şəhəri bölgəsində, məsələn, Dağ Kəsəmən kəndində də (1899-cu il) regional memarlıq özəlliklərinin qorunub saxlandığı maraqlı məscidlər yaradılırdı.

Öz memarlıq ənənələri və abidələri ilə yaxşı tanınan Şamaxı bölgəsi XIX əsrin ikinci yarısında, xüsusilə Şamaxı şəhəri tez-tez baş verən dağıdıcı zəlzələlər nəticəsində böhran yaşayır. Şirvanşahlar paytaxtının qədim və orta əsr abidələrindən indiki zamanda heç nə qalmamışdır. Bizim günlərədək gəlib çatmış Şamaxı Cümə məscidi XX əsrin əvvəllərində, 1902-ci ildə zəlzələ zamanı dağılan köhnə məscidin bünövrəsi üzərində mülki mühəndislər Zivər bəy Əhmədbəyov və İ.K.Ploşkonun layihəsi əasında inşa olunmuşdur.

Şamaxı Cümə məscidi İslam memarlığının VIII əsrə aid qədim abidəsi olaraq təkcə tarixi planda deyil, həm də özünəxas daxili planlaşdırmasına görə Zaqafqaziyanın görkəmli ayin qurmaları sırasına məxsusdur. Şamaxı Cümə məscidinin XIX əsrə qədərki tikinti dövrləşməsi barədə demək olar heç nə bəlli deyildir. Onun formalaşmasının başlanğıcı yüzillərin dərinliklərinə gedir, o çağlara aid qrafik və ya mətn xarakterli materiallar isə əlimizdə yoxdur. Şirvan və Dərbənd tarixinin bir çox tədqiqatçıları, bir qayda olaraq, bu məscidin adını belə çəkmirlər, baxmayaraq ki, Şamaxı şəhərinin tarixi və mədəniyyəti bilavasitə

*Şuşa. Məhəllə məscidləri. Planlar. (E.V.Avalov çəkmişdir).*









*Gəncə. Ozan məscidinin layihəsi, 1884-cü il.*

onunla bağlıdır [201]. Təbii ki, başlanğıcda ərəblər şəhərdə bir zaldan və mehrabdan ibarət, üzü Məkkəyə baxan kiçik bir məscid inşa etdirmişdilər.

Bu məscid şəhərin digər tikililərindən heç nə ilə seçilmirdi, lakin eyni zamanda öz məzmununa görə, heç şübhəsiz, yeni bir ayin qurmasının cizgilərini ifadə edirdi ki, bu da hansı bir dərəcədəsə onun memarlıq simasında əksini tapırdı. Məscid ərəblərin rəhbərliyi altında tikilsə və tikintiyə başlıca istiqaməti onlar vermiş olsa da, yerli memarlıq-tikinti kadrlarının iştirakı şübhə doğurmur.

Bəllidir ki, ərəblər öz fəaliyyətlərinin başlanğıcında yerli ustaların xidmətlərindən geniş istifadə edir, bu ustalar yaratdıqları tikililərdə onlara bəlli olan və adiləşmiş memarlıq-tikinti üsullarından öz yaradıcı peşələri üzündən şüuraltı olaraq istifadə edirdilər. Bu şərait və regional iqtisadi imkanlar yerli müstəqil memarlıq məktəbinin və İslam memarlığında istiqamətin inkişafına rəvac vermişdir.

Şamaxı məscidinin ilkin nüvəsinin memarlıq həlli və həcm ifadəsi, ola bilsin, qübbə tipli tavandan istifadə nəticəsində qəbul olunmuşdur ki, bunu yerli konstruktiv üsullar və tikinti materialı - tağbənd örtmə ucaltmağa imkan verən əhəngdaşı diktə etmişdir. Bu təzahür çox qədim ənənəyə malik idi və yaşayış evləri və ictimai qurğularda tağbənd örtmə qurmaların tətbiqi tamamilə qanunauyğundur.

Hər halda, şəhər tikililəri arasında ayin xarakterli yeni qurmanın peyda olması məscidin ətrafında bütöv bir qurmalar kompleksinin əmələ gəlməsinin və bu

*Gəncə. Bala Bağman məscidinin ümumi görünüşü.*



*Gəncə. Bala Bağman məscidinin layihəsi. 1883-cü il.*







sahənin Şamaxının ictimai-ticarət mərkəzinə çevrilməsinin təməlini qoymuşdur.

İslam dini öz yerini möhkəmlətdikcə, məscidlər, özəlliklə cümə məscidləri memarlığına və bəzəklərinə maksimum diqqət yetirilən obyektlərə çevrilir. Cümə məscidlərinin tərtibatında və genişləndilməsində şəhərlər bir növ öz aralarında bəhsə girirdilər, bu işin gedişində ilkin nüvə köklü şəkildə rekonstruksiya edilir, ya da yeni tikilinin altında yoxa çıxır, bu yeni tikinti ona tamamilə başqa formalar və həcmlər, deməli, yeni memarlıq cizgiləri bəxş edirdi.

Bizim günlərədək gəlib çatmış Şamaxı Cümə məscidi XX əsrin başlanğıcında məscidin köhnə bünövrəsi üzərində inşa edilmişdir ki, bu da bizə onun ən qədim plan quruluşunu aydınlaşdırmağa və təyin etməyə imkan verir, çünki «şəriətin tələblərindən birinə görə, məscidlər yenidən qurularkən binanın əvvəlki planını maksimum qoruyub saxlamaq gərək idi» [14]. Deməli, əgər şəriətin hökmünə hər halda əvvəlki dönəmlərdə, yəni min ildən çox müddət ərzində ciddi əməl edilmiş olduğunu fərz etsək, o halda bizim qarşımızda, xırda-para düzəlişlər istisna olmaqla, kompozisiyanın orijinal traktovkası ilə çox qədim mənşəli planlaşdırma həlli canlanır. Uzun düzbucaqlı planda, uzunluğu 47 metr və eni 28 metrə yaxın olan bu məscidin üç müstəqil kvadrat bölməyə ayrılan, bir-biri ilə açırımlarla əlaqələndirilən olduqca geniş bir zalı vardır. Məscidin belə bir planlaşdırması prinsip etibarilə, hansı bir dərəcədəsə, bizə ərəb memarlığının geniş məlum olan planını - onunla eyni dönəmdə (VIII əsr) təməli qoyulan Dəməşqdə Əməvilər məscidini və Kordovada Böyük məscidi xatırladır [143, s.12]; bu plan binanı əsas oxdan hər iki tərəfə doğru, qurğunun bütövlükdə memarlıq və konstruktiv mahiyyətini pozmadan, genişləndirməyə imkan verir.

Dərbənd Cümə məscidi və Orta Asiyada Dehistan Cümə məscidi (XIII əsr) planın ümumi sxeminə görə Şamaxı Cümə məscidinə yaxınlaşır [230, s.112]. Şamaxı Cümə məscidi iç fəzanın öz üçhissəli daxili hissələnməsi ilə Orta Asiyanın bəzi məscid-namazgahlarını (XI-XII əsrlər) xatırladır [230, s.117] ki, bu da müsəlman Şərqi ölkələrinin sıx qarşılıqlı əlaqələrini və qarşılıqlı təsirlərini təsdiqləyir. Eyni zamanda, o dönəmin bu tipli məscidlərini və Şamaxı Cümə məscidini gözdən keçirərkən plan həllinin bütün gözəçarpan ümumiliyi ilə yanaşı, onların bir ayin qurması olaraq konsepsiyası Şamaxı Cümə məscidində qətiyyən təkrarlanmır.

Cümə məscidinin iç fəzasının müstəqil ayırmalara üçbölməli hissələnməsinin planlaşdırma strukturu öz mehrabı ilə təcrid edilmiş özəkləri inkişaf etdirmək ideyasını qoruyub saxlamaqda davam edir. Hələlik keçmiş çağların ayin qurmaları tikintisi praktikasında vahid həcm ölçüsündə bir-biri ilə yanaşı arakəsmələrlə bölünmüş, hərəsinin üzü dəqiqliklə Məkkəyə istiqamətlənməklə öz mehrabı olan üç qonşu zalın mövcud olduğu belə bir üsula rast gəlinməmişdir.

Şamaxı şəhəri yaxınlığında, qonşu Ağsu kəndinin 3 kilometrliyində C.Aleksandroviç (Nasıfi) 1918-ci ildə yandırılmış olan kiçik bir məscidin xarabalığını hələ 1926-cı ildə aşkarlamışdı. Təfsilatlı təhqiqatın gedişində aydın olmuşdu ki, onun planlaşdırma həlli Şamaxı Cümə məscidi ilə eynidir.

Bu diyarda məscid tikintisinin başlanması xəlifə Validin qardaşı, Şirvanın və Dağıstanın fatehi və bu ölkələrdə İslamı yayan Əbu Müslümün zamanına, yəni VIII əsrə təsadüf edir. Müxtəlif inşaat dönəmlərinin hörgü qalıqlarına əsaslanmaqla, Aleksandroviç bu nəticəyə gəlmişdi ki, bu məscid qədim çağlara aiddir. Gerçəkdən, Şamaxı və Ağsu məs-

cidləri - eyni epoxanın tikililəridir. Onlar Şirvan qrupu abidələrinə mənsubdur, onların planlaşdırma həlli - İslam memarlığında nadir təzahürdür.

Onların ilk tədqiqatçıları (prof. V.A.Zummer və C.Aleksandroviç) məscidlərin sxeminin bu dərəcədə qeyri-adi planlaşdırılmasına - üç mehrabın mövcudluğuna hər hansı bir izah verə bilməmişdilər. Hər halda, əgər Cümə məscidinin ilkin nüvəsi mehrablı bir bölmədən ibarət olmuşsa da, zaman keçdikcə dərin eyvanlı üçzallı sistemə transformasiya edilmişdir.

Ola bilsin, orta yüzillər Azərbaycanın mədəniyyətində və incəsənətindəki bu çiçəklənmə dönəmində (XII-XIII əsrlər) Şamaxı Cümə məscidinin planlaşdırma strukturunda, hər üç zalın özünün müəyyən təyinatı olmaqla, qəti formalaşma baş vermişdir.

Güman etmək olar ki, mərkəzdəki - daha gözəl və yaraşıqlı zal Şirvanşah və onun məiyyəti üçün idi, yan zallarda isə sıravi əhali namaza dururdu.

Ağsu kəndindəki məsciddə Şamaxı Cümə məscidinin planlaşdırma üsulu ola bilsin təkrarlanmışdı. Düşünmək olar ki, bu zəmanədən (XII-XIII əsrlər) başlayaraq Cümə məscidinin planlaşdırılmasında rekonstruksiya, restavrasiya və ya əsaslı təmirlə bağlı memarlıq və konstruktiv səpkili dəyişikliklər istisna olunmaqla, bir elə əsaslı dəyişiklik baş verməmişdir. «Qurmanın tarixçəsinə gəldikdə, əfsuslar olsun ki, yanğın zamanı (1918-ci ildə) məscidin köhnə binasından salamat qalmış qədim yazıları olan kitabə məhv olmuşdur» [14, s.30].

Bununla belə, tərəfimizdən Şamaxı Cümə məscidinin inşa tarixinə işıq salan qiymətli və çox mühüm məlumat əldə edilmişdir. Zəlzələdən sonra şəhər bu dərəcədə böyük dağıntının səbəblərini aydınlaşdırmağa çalışan xüsusi komissiya tərəfindən müayinə olunmuşdu. Həmin vaxt Tiflisdən gəlmiş geoloq Şahqulu Qacar «Cümə məscidinin təməlindəki ərəbcə yazıya görə onun müsəlman tarixinin 126-cı ilinə aid olduğunu təyin etmişdir». Beləliklə, Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir və Dərbənd məscidindən (734-cü il) sonra Zaqafqaziyada ən erkən məsciddir [278, s.108].

Şamaxının planlaşdırmasında və aparılan inşaat işlərində Cümə məscidinin bir tarixi abidə olaraq önəmi hamılıqla etiraf olunur və buna görə Qafqazın ali hakimiyyət orqanlarının diqqət predmeti idi. Bu münasibət Qafqazın ali hakimi general-leytenant Yermolovun knyaz Madatova məktubu ilə bir daha təsdiqlənir. O yazırdı: «Ərzaqın təcili olaraq böyük Cümə məscidindən başqa bir binaya daşınmasına göstəriş verilməsi gərəkdir. Mühəndis-zabitə göstəriş verin ki, zəruri təmir işini aydınlaşdırmaq üçün məscidin dəqiq planını çəksin və mənə göndərsin» [241, s.233]. Qədim məscidin planı, eləcə də onun görünüşünün qrafik cizgisi hələlik aşkar edilməmişdir. Cümə məscidinin naturadan bizə bəlli olan yeganə rəsmi 1847-ci ildə rus rəssamı Q.Qaqarin tərəfindən çəkilmişdir. O, öz rəsmlərində Azərbaycanın digər şəhərlərinin də memarlıq abidələrini təsvir etmişdir.

Qaqarinin çəkdiyi rəsm Cümə məscidini, şübhəsiz, şəhəri haqlamış zəlzələlər və digər təbii fəlakətlərlə bağlı təmirlərə və dekorun dəyişdirilməsinə baxmayaraq, qədim çağlardan qalan həcmində təcəssüm etdirir. Cümə məscidini miqyası və monumentallığı Zaqafqaziyanın ən iri ayin qurmalarından birini təsəvvürə gətirməkdən ötrü yetərincə inandırıcılıqla verilmişdir. Məscidin simmetrik-ox kompozisiyası qübbənin konus forması ilə vurğulanmışdır. İç fəzanın üçbölməli hissələnməsi fasadda tabe xarakterli böyük mərkəzi və kiçik yan qübbələrlə əks olunmuşdur, bu səbəbdən tərkib hissələri böyük ifadəlilik, ümumi həll isə - baxımlılıq kəsb edir.

Memarlıq kütləsinin dinamikasına hesablanmış qübbə məscidin üfqi həcminə qarşı qoyulmuşdur. Qaqarinin rəsm əsərindən görünür ki, məqsədə yetə bilmişlər. XIX əsrə doğru məscid öz əzəli gözəlliyini itirmişdi. Ön fasadın arxitekturası yumşaq və həcmli cizgilənmiş əvvəlki formaları uzaqdan-uzağa xatırladır, burada fasadın oxvari arkadası memarlıq kompozisiyası ilə təmtəraqlı traktovkada verilmişdir.



*Qazax rayonu. Dağ Kəsəmən kəndi. Məscidin ümumi görünüşü. 1899-cu il.*



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ

Dini qurmaların mənimsənilmiş həcm-fəza kompozisiyası islamın ilk yüzillərində bu tipli çoxlu sayda binada dəfələrlə, nəticə etibarilə yerli interpretasiyada təkrarlanmışdır ki, bu da heç şübhəsiz, müsəlman memarlığının üslub istiqamətini əks etdirmişdir [491].

Şamaxıda 1859-cu ildə qopan müdhiş zəlzələ onun qəti olaraq bir inzibati-ticarət mərkəzindən sıravi əyalət şəhərinə çevrilməsinin əsasını qoymuşdur. Zəlzələdən sonra Şamaxının bərpasında, onun düzgün və mütəşəkkil məhəllələr üzrə tikilməsində və onun plan strukturunun qorunub saxlanmasında quberniya və şəhər memarı Qasım bəy Hacıbababəyovun (1811-1874) böyük rolu olmuşdur. O, çoxlu sayda yaşayış, ictimai, dini və digər utilitar binaları və qurmaları layihələşdirmiş və inşa etmişdir. Şamaxı şəhər teatrı (1858-ci il), hamam, Cümə məscidi ilə qonşuluqda qoşa minarəli Təzə məscid (1870-ci il) və s. kimi tikililər şəhərin həcm-fəza və memarlıq-planlaşdırma strukturunda dayaq və aparıcı mövqe tuturdular. Təzə məscid onun tikintisinə 100 min rubl ianə verən tacir Hacı Məmmədrzanın vəsaitinə inşa olunmuşdu.

Əsasən doğma Şamaxıda işləmiş olan Qasım bəy Hacıbababəyovun zəngin yaradıcılıq irsindən biz hələlik çox az sayda qurmanı aşkarlaya bilmişik. 1859-cu il zəlzələsinin vurduğu xəsarətlərdən sonra Cümə məscidinin əsaslı rekonstruksiyası məhz bu dönəmə aiddir.

Bu tikintidə Qasım bəyin birbaşa iştirakını göstərən bilgimiz yoxdur, lakin o illərdə onun nüfuzu və şəhər memarı vəzifəsi, şübhəsiz, ondan söz açır ki, Şamaxının başlıca dini ocağı - Cümə məscidi bilavasitə Hacıbababəyovun rəhbərliyi altında rekonstruksiya edilirdi. Əsaslı dəyişiklik məscidin üst hissəsinin örtüyündə edilmişdi ki, bu da siluetin xarakterinin qismən dəyişməsində özünü göstərmişdi.

Rusiyadan gətirilən yeni tikinti materialları, özəlliklə dəmirdən dam örtüyü təbəqələri məscidin daş qübbəsini örtməyə, qədim bəzəkləri və interyer naxışlarını atmosfer yağıntılarının dağıdıcı təsirindən xilas etməyə imkan vermişdi. Qübbələrdəki örtük büzməli - aşkar bir şəkildə dekorativ, lakin Cümə məscidi kimi sanballı bir qurma üçün tamamilə özünü doğruldan idi. Mərkəzi qübbə cizgiləri və xarakteri Təzə məscidin minarələrinin şərəfə hissəsini təkrarlayan yüngül belvederlə tamamlanır. Şamaxının ayin qurmalarında memarlıq formalarının belə bir varisliyi son dərəcə dayanıqlı ənənəyə malik idi ki, bu, mülki mühəndis Zivər bəy Əhmədbəyovun yaradıcılığında da (İmamlı məscidinin layihəsi. 1910-cu il) asanlıqla izlənir.

Rekonstruksiya, ola bilsin, Cümə məscidində sonrakı dağılmanın qarşısını alıb, lakin eyni zamanda başlıca qədim stilistik özəlliklərin itirilməsinə səbəb olmuşdur. Cümə məscidi fəza formalarının tektonikliyini, qədim siluetin ifadəliliyini və memarlıq kütləsinin dinamikasını itirmişdir. Müvafiq materiallar əldə olmadığından ön fasadın memarlıq baxımından işlənməsinə toxunan dəyişiklik hələlik məlum deyildir. Əgər məscidin ümumi görünüşü konstruktiv tədbirlərlə bağlı olaraq ayin qurmasının ilkinliyini itirmişdirsə də, interyer hələ öz zərif dekorunu qoruyub saxlayırdı: «Və gerçəkdən, məscid, özəlliklə onun daxili bəzəkləri onu Zaqafqaziyada digər məscidlərdən kəskin şəkildə fərqləndirir. Qədimdən qalma qiymətli xalçalar, qəndillər və məscidin divarlarında neçə-neçə nəsilləri dəyişmiş olan freskalar arxeoloq üçün böyük maraq kəsb edir». Lakin zahiri rekonstruksiyaya baxmayaraq, məscid konstruktiv baxımdan böyük







Şamaxı. Cümə məscidinin layihəsi. Fasad. Mülki mühəndis İ.K.Ploşko. 1909-cu il.




Şamaxı. Cümə məscidi. Plan. Mülki mühəndislər Zivər bəy Əhmədbəyov və İ.K.Ploşko. 1909-cu il.

*Şamaxı. İmamlı məscidinin layihəsi. Fasad, plan. Mülki mühəndis Z.b.Əhmədbəyov. 1910-1917-ci illər.*





dəyişikliyə məruz qalmamışdı. «Onun daxili çox genişdir, yonma daşdan inşa edilib və o dərəcədə möhkəm divarları var ki, neçə-neçə zəlzələyə dözmüşdür».

Cümə məscidi XX əsrin əvvəllərinə qədər şəhərin mərkəzi olaraq qalmaqda davam edirdi. Məscidə məxsus olan böyük ərazi müxtəlif təyinatlı, yaşıl bağ massivi ilə əhatəyə alınmış bütöv qurmalar kompleksi idi. 1971-ci ildə arxeoloji qazıntılar zamanı qədim portalın - Cümə məscidinin həyət ərazisinə mərkəzi girişin qalıqları üzə çıxarılmışdı. Ərazinin plan quruluşu Azərbaycanın orta yüzillər dönəminin ayin qurmaları üçün tipikdir.

Bu yaşıl massivin dərinliyində öz geniş həyəti ilə Cümə məscidi qərar tutmuşdu, həyətin mərkəzini böyük bir hovuz və öz kölgələrini qədim məbədin üzərinə salan çoxəsrlik əzəmətli ağaclar bəzəyirdi. Ağaclar təkcə məscidə deyil, həm də mədrəsəyə, mərkəzi binanın hər iki tərəfində yerləşmiş dükanlara da kölgə salırdı.

Özünün kompozisiya önəmini saxlamaqla Cümə məscidi kompleksi 1902-ci ildə Şamaxıda böyük dağıntı törətmiş növbəti iri zəlzələ bu məscidə də ciddi zərər vuranadək öz həcmi və silueti ilə şəhər tikililəri üzərində ucalmaqda davam edirdi. Qədim Şamaxının bəzəyi olan möhtəşəm memarlıq abidələrini izsiz-soraqsız məhv edən təbii fəlakətlərə öz tarixində artıq bir neçə dəfə məruz qalan bu şəhərin bərpası üçün vəsait axtarışına başlanılmışdı. Şəhər hər dəfə xarabalıqların arasından boy atıb qalxmışdı, lakin bu, keçmişin itirilməsi, Şirvanşahlar paytaxtının memarlıq salnaməsinin parlaq səhifələrinin yoxa çıxması hesabına olmuşdu.





1903-cü ilin oktyabrında Cümə məscidinin bərpasına ianə toplanışı üzrə komitə təşkil edilmişdi. Komitə qarşısında Şirvanın varlığının və əzəmətinin simvolu olan, yüzillər boyunca ayaqda qalmış bu yarıuçuq məscidin qorunub saxlanması kimi məsul vəzifə dayanırdı.

Onu tamamilə bərpa etmək ölçü çertyojlarının və digər materialların yoxluğu üzündən çətin idi. Başqa bir yol - qədim bünövrəni saxlamaqla, yeni bir Cümə məscidinin inşası idi. Əfsuslar olsun ki, komitə ikinci variant üzərində dayanaraq, məscidi böyük dəyəri olan nadir memarlıq abidəsi kimi qiymətləndirmədi, halbuki onun freskaları, arabeskləri, interyer bəzəkləri iç fəzaya Şərqin bir çox ayin qurmalarını fərqləndirən plastika əsrarəngizliyi, çəkisizlik, yüngüllük və perspektiva bəxş edirdi. «Hətta məscidin xarabaları özünə hörmət doğurur, uçmuş divarlar belə digər tikililərdə olduğu kimi dağılıb-parçalanmayıb, onlar sadəcə bütöv bir şəkildə yıxılıblar və sanki bir bütün qaya parçasından ibarətdirlər...».

Tanınmış fransız memarı Oqyüst Perre tərəfindən söylənmiş bu unudulmaz ifadəni Şamaxı Cümə məscidinə də aid etmək olar: «Arxitektura hətta xarabalar qoynunda da gözəl olmalıdır». Tezliklə bu qədim məscidin yarıuçuq binası bünövrəsinə qədər söküldü və yeni məscidin inşasına başlandı.

Məscidin tikintisi üzrə komitə əslən Şamaxı şəhərindən olan Zivər bəy Əhmədbəyova Cümə məscidinin yeni layihəsini tərtibləməyi, lakin bununla birlikdə uçub dağılmış binanın konturlarını saxlamağı və qismən bünövrənin mövcud hissələrindən istifadəni təklif etmişdi.

Tikinti işlərinin qızğın çağında (kürsü hörülmüş, mərkəzi mehrabla birlikdə arxa divar qismən hörülmüş və yan hissələrin tikintisi davam edirdi) memar və komitə arasında anlaşılmazlıq yarandı. İşlər dayandırıldı və Əhməd bəy tikintini tərk etdi. Komitə məscidin layihələşdirmə işini davam etdirmək xahişi ilə mülki mühəndis İ.K.Ploşkoya müraciət etdi. Lakin Ploşko Zivər bəy Əhmədbəyovun plan quruluşunu qoruyub saxlamaqla, özünün memarlıq həlli variantını təklif etmişdi.

Avropanın fərqli tarixi üslublarında layihələrin tərtibinə vərdiş edən Ploşko üçün bu sıravi bir bina deyildi. Şamaxı Cümə məscidini layihələşdirərkən o, artıq mövcud olan plan quruluşu və qismən görülmüş tikinti işi ilə kifayətlənmədi. Məscidin layihəsini tərtib etməzdən öncə ona Bakı və Şamaxının ayin binaları ilə tanış olmaq, Şirvanşahlar saray kompleksinə, hər zaman Bakı memarlarının öyrənmə və tədqiqat predmeti olan Bakı qalası məscidlərinin minarələrinə diqqətlə göz yetirməsi lazım gəlmişdi [251]. Heç şübhəsiz, Bakıda forştadtda bu yaxınlarda inşa edilmiş Təzəpir Cümə məscidi də Ploşkonun diqqətini çəkməyə bilməzdi. O, əlbəttə, Şamaxı məscidinin Əhmədbəyov tərəfindən tərtiblənmiş layihəsi ilə tanış olmuşdu. Nəhayət, onun sərəncamında Orta Asiya, Yaxın və Orta Şərq memarlığının əla uvrajları vardı. Beləliklə, yetərincə natura və illüstrasiya materiallarına, mühəndis və memar-layihəçi təcrübəsinə malik olmaqla, o vaxtlar professional mühitdə deyildiyi kimi, ona «şərq üslubunda» layihə tərtibləmək çətin deyildi.

Bu vaxtlar Bakıda müxtəlif traktovka və interpretasiyada «şərq memarlığında» bir neçə bina inşa olunmuşdu. O vaxtlar Avropa eklektikası və stilizatorçuluğunun çiçəkləndiyi bir mühitdə milli irsdən tənqidi istifadə gəlmə memarların ciddi öyrənmə predmeti deyildi. Əhmədbəyov öz memarlıq konsepsiyasını məhz bu planda qurdu [274].

İ.K.Ploşko 1909-cu ildə layihəni komitəyə təqdim etdi, burada İslamın





*Göyçay. Məscid layihəsi. Fasad, plan. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1906-1917-ci illər.*

memarlıq obrazları ayin qurmasının mahir interpretasiyasında öz bədii təcəssümünü tapmışdı [259]. Öz həcm həllinin xarakterinə görə bu, statik bir qurma olmadan, ciddi simmetrik kompozisiyadır. Son dərəcə baxımlı və çoxplanlı olan bu bina memarlıq dinamikasının kontrast əsasları üzərində qurulmuşdur. Ön fasadın oxvari arkadasının üfqi həcmi üzərində dərinliklərdən irəli çıxarılmış və mavi səmaya ucalan, yüngül pavilyonlu açma balkonları çiynində saxlamış stalaktit karnizə qədər daralan qəddqamətli minarələr hakim mövqe tutur. Minarələrin vertikallığı bərk gərilmiş tel kimi son həddə çatdırılmışdır. Şirvanşahlar saray ansamblının əks-sədası olan möhtəşəm silueti biz bu memarlıq motivinin prizmasından görürük.

Siluet kompozisiyası əsas hissələrin həcm modelləşdirməsini doğurmaqla, onun keyfiyyət strukturunu müəyyən etmişdir. Planın üçbölməli hissələnməsi iç fəzanın üzə çıxarılmasında heç də sonuncu rol oynamır, bu isə, təbii ki, müəlliflər tərəfindən həcmin mərkəzdə hakim vurğuya qədər inkişaf etdirilmiş, bucaqlarda dekorativ minarələrlə dəstəklənmiş üç qübbə şəklində təklif olunan zahiri tamamlanmanın xarakterində əksini tapmışdır. Burada eləcə də təzadlılıq ideyası, lakin başqa planda çıxış edir - hündür silindrik boyun üzərində Orta Asiya memarlığına xas sferik-konusvari qabırğalı qübbə yan hissələrin yastı qübbələri ilə qarşı-qarşıya dayanmışdır.

Həcm kütlələrinin bu sayaq traktovkası qurmanın şəhərin memarlıq-planlaşdırma strukturunda hakim mövqeyi ilə müəyyən olunan mərkəzi-ox həllini parlaq şəkildə ifadə edir. Ön fasadın mərkəzi oxunda yerləşmiş olan giriş qübbə ilə tamamlanan, stilizə edilmiş portik şəklindədir, Cümə məscidinin baxımlı həcm-fəza kompozisiyasını tamamlayan təmtəraqlı geniş pilləkən ona aparır.

Arkadalı portikin motivi Böyük Moğolların son epoxasındakı hind-müsəlman memarlığının obrazlarına gedib çıxır [466]. Üslubi baxımdan eklektika memarlığı, məscidin ümumi üslubuna yerli kolorit vermək cəhdinə baxmayaraq, bütövlükdə qurma üzərində üstünlük təşkil edir.

Böyük maddi vəsaitlərin yoxluğu üzündən məscidin tikintisi ləng gedirdi, lakin qurmanın ümumi həcmi cinah minarələr və mərkəzi qübbə olmadan başa çatdırılmışdı. Qübbələrin metal karkas konstruksiyası - Varşavada sifariş verilmişdi; iş əla görülmüşdü və məscidin iç fəzasına bəzək verirdi. Tikintini sona qədər baş çatdırmaq mümkün olmadı, 1918-ci ildə vətəndaş müharibəsi zamanı isə məscid yanğından xeyli ziyan çəkdi.







*Göyçay. Məscid. Ümumi görünüş. Mülki mühəndis Zivər bəy Əhmədbəyov. 1906-1917-ci illər.*

Yeni məscidin divarına qoyulmuş qədim kitabələr də alovlarda məhv olmuşdu [14].

Qeyd edək ki, məscidin tikintisi zamanı ön fasadın həllində layihədən yayınmaya yol verilmişdi. Mərkəzi giriş-portal ilə tək sütunlar üzərindəki arkada sadələşdirilmişdi: onu cüt sütunlu düzbucaqlı açırımlar əvəz etmişdi. Açırımların dəqiq ifadə edilmiş mərkəzsiz ritmi kompozisiyanın layihə müəllifinin ümid etdiyi kəskin qavrayışı vermir. Məscid siluetinin mühüm elementi - minarələr - ucaldılmadı, çünki naturada onların yeri müəyyən edilməmişdi. Ola bilsin, bu geri çəkilməni vəsaitə qənaət diktə etmiş və iş icraçısı Cahangir bəy Sadıqbəyov layihə müəllifinin icazəsi ilə işləri bu planda aparmışdı. Sütunların, onların kapitellərinin başlıca detal elementlərinin çəkilməsində, karnizlərin həllində və həcmlərin tamamlanmasında müəllifin ideyalarından tam istifadə edilmişdi. Təbii ki, ilkin layihədən bu kimi geriçəkilmə kompozisiyanın memarlıq həllinin keyfiyyətini aşağı salmışdı.

İşin yüksək səviyyəsi və əla daş materialından - əhəngdaşından istifadə Cümə məscidinin tikintisi üzrə komitənin vəsaitə qənaət naminə razılıq verdiyi təhriflərin yerini müəyyən dərəcədə doldururdu.

Azərbaycanın memarlıq tarixində Cümə məscidinin önəmi o qədər böyükdür ki, onun memarlıq, arxeoloji və elmi-tədqiqat planında öyrənilməsi bu qədim ayin qurmasının tarixinin tam mənzərəsini bərpa etməyə, eləcə də Şirvan-Abşeron memarlıq məktəbinin bir çox aspektlərinə işıq salmağa imkan verir.

Şamaxıda Cümə məscidi ilə eyni zamanda Zivər bəy Əhmədbəyovun layihəsi əsasında başqa bir - İmamlı məscidi də inşa edilmişdi. Bir qədər əvvəl, 1906-cı ildə

**Şəki-Zaqatala bölgəsi ayin qurmalarının başlıca tiplərinin memarlıq-planlaşdırma təsnifatı (Ş.S.Fətullayevə görə)**

| Yaşayış məntəqəsi | Adı | Tip | İnşaat tarixi | Plan | Kəsim | Fasad |
|---|---|---|---|---|---|---|
| Aşağı Tala k. | | Beşnefli | 1901-1910-cu illər |  | | |
| Əliabad k. | | Dördnefli üçüncü | 1876-cı il |  | | |
| Balakən k. | | Üçnefli üçüncü | 1867-1877-ci illər |  | | |
| Güllük k. | | Eynilə | XIX əsr |  | | |
| Mosul k. | | İkinefli | 1887-1890-cı illər |  | | |
| Faldar k. | | Eynilə | 1833-cü il |  | | |
| İti Tala k. | | Eynilə | 1910-cu il |  | | |
| Tasmalı k. | | | 1917-ci il |  | | |





Əhmədbəyov Göyçay şəhəri üçün məscid inşa etmişdi. Mahiyyət etibarilə, Əhmədbəyov Göyçay məscidinin ideyasını xalq memarlığı üsullarından istifadə etməklə İmamlı məscidində inkişaf etdirir.

Şəki-Zaqatala bölgəsinin ayin qurmaları, məsələn, Qarabağ bölgəsinin ayin qurmalarından fərqli olaraq, Azərbaycan memarlığının inkişafının ümumi zəncirində tamamilə müstəqil bir vəsilə təşkil edir [287, s. 81-106]. Şübhəsiz, burada iqlim, sosial-iqtisadi şərait və memarlıq ənənələri yer alır və onlar bu bölgənin ayin qurmalarının təşəkkülünə və formalaşmasına təsir göstərirdi.

Yerli tikinti materiallarından - fasad bəzəklərində işlədilən bişmiş kərpic və çaydaşının tətbiqi və interyerdə ağacdan geniş istifadə şəhər və kənd məscidlərinin memarlıq-fəza quruluşunu əvvəlcədən müəyyən edirdi. Yeri gəlmişkən, kənd məscidləri həcm və memarlıq ifadəliliyinə görə şəhər məscidlərini üstələyir. Onların iri həcmləri və əlahiddə dayanmış 25-40 metr hündürlükdəki minarələri, məsələn, Şəkinin baş cümə məscidindəki kimi, daha güclü təəssürat oyadır və emosional təsir göstərir.

Ayin qurmalarının həllində Şəki-Zaqatala bölgəsi çoxobrazlı memarlıq-planlaşdırma üsulları ilə Şəki, Qax, Zaqatala-Balakən qrupları kimi gözdən keçirilə bilər, çünki onların hər birində memarların öz prinsipləri və ucaldılan binaların xarakterinə öz münasibətləri müşahidə olunur. Bu, qurmaların planlaşdırma strukturu, həcm fəzasının həlli və memarlıq traktovkası ilə müəyyən edilir.

Bu bölgə məscidlərinin strukturunda səciyyəvi təzahür müşahidə edilir: şimala doğru, yəni Şəkidən Zaqatalaya getdikcə daxili planlaşdırma daha inkişaf etmiş forma alır və hətta mürəkkəbləşir (Tala, Balakən, Danaçı, Muxax, Əliabad, Mosul, Yengian, Varxian və digər kəndlərdəki məscidlər). İbadət zalının təşkil sistemindən asılı olaraq Şəki-Zaqatala bölgəsinin ayin qurmalarını - iki-, üç-, dörd və beşnefli tiplərə ayırmaq olar.

Şəki qrupunun - Cümə məscidləri (Yuxarı və Aşağı məscidlər), Axund məscidi, Dodu məscidi və Cumaçay məscidi - çox halda portikin açıq qalereyası ilə uzun düzbucaqlı şəklindədir, onun arxasında böyük aşırımın rahatlıqla örtülməsi üçün daş və ya ağac dayaq dirəkləri ilə bölünən ibadət zalı yerləşir.

Ayin qurmalarının, hətta cümə məscidlərinin iç fəzalarının memarlıq həllinin kasadlığına heç nə ilə haqq qazandırılmır. İnteryer dekorunun yeganə elementi olan mehrablar da diqqətdən kənarda qalmışdır. Halbuki, bildiyimiz kimi, Şəkidə yaşayış evlərinin müstəsna dərəcədə incə işləməli buxarılar və interyer memarlığına daxil olan digər dekorativ elementlərlə tərtibatına gözəl misallar mövcuddur.

İbadət zallarının örtük konstruksiyalarını çiyinlərində saxlayan dirəklərin kobud formaları ilə (Şəkidə Aşağı Cümə məscidi) yanaşı, onların həcm-fəza həllinə zalın yuxarı hissəsinin tamamlanmasının yeni forması nüfuz edir. Onun zalın ağac örtüyü formalarının konstruktiv özəllikləri ilə şərtlənən tağbənd cizgisi gözdən keçirilən qurmaların interyerinə özünəməxsusluq verir. Zal örtüyünün belə bir xarakterik formasına Qax rayonunun təkcə bir kəndində (Qaşqaçay) müəllif tərəfindən müayinə olunmuş məsciddə rast gəlinir.

Şəki qrupunun ayin qurmalarında ibadət zallarının memarlığında məscidlərin iç fəzasını xeyli zənginləşdirən tağbənd, qübbə və tağlardan istifadə edilmir; Qax-Balakən qrupunda tağ hakim elementdir. Şəki qrupunda ağac örtüklü tağbənd forması ilə yanaşı praktikada konstruksiyaların açıq forması da (məsələn, Cumaçay kənd məscidində) var.

Şəki qrupu məscidlərinin memarlığında fərqli bədii variasiyalarda bişmiş kərpic və çaydaşı kimi yerli tikinti materialları genişliklə işlədilmişdir. Binaların memarlıq kompozisiyasının təməlində zamanın sınağından çıxmış və kütləvi evtikmədə müsbət nəticələr vermiş sağlam xalq memarlığı ənənələri dayanır. Bu taxça tağlarından, dərin portiklərdən və kölgəli eyvan-lociyalardan geniş istifadə edilmiş məscidlərdə xüsusilə gözə çarpır. Buna Şəkidə Aşağı Cümə məscid (1880-ci illər) misal ola bilər.

Ayin qurmalarının həcm-fəza strukturunda, onların obraz məzmununun açılımında memarlar kompozisiyanın effektiv memarlıq elementinə - minarələrə mühüm yer ayırırlar. Şəki qrupu şəhər tipli bir neçə ayin qurması: Cümə məscidi (Yuxarı və Aşağı), Ağamalıoğlu küçəsindəki məscidlə təmsil olunmuşdur. Kənd məscidlərinin minarəsi yoxdur, onları binanın dam örtüyü üzərindəki kiçik belvederlər əvəz edir.

Ayin qurmalarının Qax qrupu - Şəki və Zaqatala qrupları arasında aralıq vəsilədir. Bu, yeni kompozisiya üsulları və motivlərinin, daha ifadəli həcm işlərinin yaradılmasına rəvac vermişdir.

Qax rayonunun tərəfimizdən müayinə olunmuş bütün kənd məscidləri XIX əsr - XX əsrin əvvəllərində inşa olunmuşdur. Kəndlərin plan strukturunda onlar bu yaşayış yerlərinin tikililərində onların önəmini əvvəlcədən müəyyən etməklə, daha məsul və mühüm qovşaqda yer tuturlar [287, s.81].

Qax rayonunun məscidlərində hələ Şəki qrupunda qəbul edilmiş ümumi, lakin cizgilərinə görə daha kamil və ifadəli olan planlaşdırma sxemi inkişaf etdirilmişdir. Uzununa və eninə oxların səlis düzülüşü, planın bayır və daxili dayaqların konstruktiv addımları ilə üst-üstə düşən modul bölgüsü məntiqi struktur təşkil edir. İbadət zalının plan həllində köndələn istiqamətdə sütun-dayaqların sayından asılılıqda uzununa istiqamətdə neflərin daxili strukturu müəyyən edilir. Bir qayda olaraq, məscid binası planının baş kompozisiya oxu - mehraba istiqamətlənməklə köndələndir; buna uyğun olaraq məscidin planlaşdırma sxemi işlənmişdir.

İbadət zalının həcm-fəza strukturunda sütunlar və ya dayaq dirəkləri və tağlar müstəqil əhəmiyyətə malikdir, onlar mahiyyət etibarilə interyerin memarlıq həllini yönləndirirlər.

Halbuki Şəki qrupu məscidlərində sütunlar daha çox halda konstruktiv-utilitar xarakterə malikdir, burada səkkizvəchli dirək və ya sütun memarlıq elementi olaraq interyerin ümumi kompozisiyasının formalaşmasında fəal iştirak edir. Onlar üzərində örtük konstruksiyasının dayandığı yarımqövs tağların iri formalarını çiyinlərində saxladıqda bu daha çox gözə çarpır. Tağlar məscidlərin interyer strukturunun tektonikasını, özü də müxtəlif - ən təmkinli variantdan (Marsan kənd məscidi, 1912-ci il) daha mürəkkəb variantlaradək (Çudulu kənd məscidi, 1863-1893-cü illər, Güllük məscidi, 1890-cı il) vurğulayırlar. Vahid memarlıq motivi təşkil edən bu formalarla yanaşı, məscidlərin interyerləri pilyastrlar, hamar tağ taxçaları, hissələnmənin incə profilləri və mehrabların dekorativ bəzəyi sayəsində müvafiq plastik dolğunluğa qovuşmuşlar. Bunlar ibadət zallarında elə bir fon yaradırlar ki, konstruktiv formalar ayin qurmalarının daxili bəzəyində fəal elementlərə çevrilir.

Bu memarlıq vurğularına baxmayaraq, məscidlərin interyerləri ciddi sadəliyi qoruyub saxlayır. Onlarda ötən epoxaların abidələrində möhtəşəmliklə təqdim olunan dekorativ ornament elementləri və ərəb xəttatlıq örnəkləri







*Nuxa. Aşağı Cümə məscidi. Həyət fasadı. XIX əsr.*



*Qax rayonu. Güllük kəndi. Məscid. Ön fasad. 1890-cı illər. (Şəkil - Ş.S.Fətullayev).*

yoxdur. Təkcə Bakı-Abşeron bölgəsi məscidlərində bu istiqamətdəki zəngin ənənə yaşadılıb, məsələn, Təzəpir, İttifaq, Soltanəli və s. kimi qurmalarda «şərq üslubunun» cizgiləri qorunub saxlanmışdır.

Tağın ümumi kompozisiyanın inkişafında iştirak etmədiyi Qax-mahal məscidi (1867-ci il) istisna olmaqla, bütün qalan məscidlər ön fasadda portik və portal şəklində yarımqövs tağların fərqli variasiyalarında vahid memarlıq mövzusu təşkil edirlər. Burada tağ - ön fasadın quruluşunda fərdi forma kimi götürülən Şəki qrupu qurmalarından fərqli olaraq aktiv elementdir. Portikin həllində yarımqövs tağların daha konkret ifadəsi bundan irəli gəlir.

*Qax rayonu. Tasmalı kəndi. Məscid. Ümumi görünüş. 1917-ci il. usta Loğman Qasım oğlu. (Şəkil - Ş.S.Fətullayev).*



*Qax rayonu. Qaşqaçay kəndi. Məscid. Ümumi görünüş. 1905-ci il. (Şəkil - Ş.S.Fətullayev).*







Məscidlərin ön fasadının kompozisiyasının yaradılmasında tağlardan istifadənin: bir mərkəzi tağlı (Çudulu kənd məscidi, 1863-1893-cü illər), mərkəzdə üçtağlı portik-lociya və ikimərtəbəli yan aralıqlarla (Güllük kənd məscidi, 1890-cı il), beştağlı portikli (Tasmalı kənd məscidi, 1917-ci il, usta Loğman Qasım oğlu) və yeddıtağlı portikli (Qaşqaçay kənd məscidi, 1905-ci il) kimi üsulları mənimsənilmişdir.

Onların hamısı fasadların hissələnməsinin kompozisiya üsulları, səkkizvəchli dayaq dirəklərinin eyniyyəti ilə binanın miqyası sayəsində öz fərqləndirici özəlliklərini qoruyub saxlayır. Özü də fasadların, o cümlədən ön fasadların dekorativ işlənməsi kərpicin və çaydaşının bədii keyfiyyətlərindən maksimum istifadə əsasında ən məhdud vasitələrlə həll edilirdi. Suvaqla örtülməyən kərpic hörüyün cizgiləri və tağların konstruksiyası fasadın dekorunda memarlıq elementləri kimi görünür. Bu sayaq üsuldan XIX əsrdə mülki, eləcə də yaşayış evlərinin tikintisində geniş istifadə edilib ki, bu da heç şübhəsiz, ayin memarlığına da sirayət etmişdir [242, s.156].

Zaqatala qrupu məscidləri sıravi tikililər olsalar da, bütövlükdə bu bölgənin ayin qurmalarının ən inkişaf etmiş tipinə mənsubdur. Məscidlər öz miqyaslarına, həcmlərin kompozisiya quruluşuna görə yüksək peşəkarlıq səviyyəsində inşa edilmişlər.

Qax qrupu ayin qurmalarının strukturunda məscidin ön fasadının portiki başlıca memarlıq vurğusudur. Zaqatala qrupunda bu sayaq üsulla yanaşı yan fasadlarda da binanın həcminin portiklərlə zənginləşdirilmə tendensiyası müşahidə edilir. Məsələn, Mosul kəndindəki məscid (1787-1893-cü illər) ön fasadın müstəqil portiki və yan fasadların portalı ilə təmsil olunub, halbuki Faldar kənd məscidində (1823-1833-cü illər), Qandax kənd məscidində (1887-1913-cü illər), Danaçı kənd məscidində (1912-ci il) portik yeganə sıra ilə ön fasadı və yan fasadlardan birini dolama keçir. Burada biz məscidlərin həcm kütlələri strukturunun ümumi inkişafını, onun tədricən həcm plastikası ilə, yəni yan fasadlarda onların divarlarının sərt səthini pozan portik-eyvanlarla zənginləşdirildiyini görürük. Məsələn, bu ideya beşnefli ibadət zalının üç tərəfdən dərin portiklə əhatəyə alındığı Aşağı Tala kənd məscidində (usta Eldar oğlu Məhəmməd, 1901-1910-cu illər) öz parlaq ifadəsini tapmışdır.



*Qax rayonu. Qaşqaçay kəndi. Məscid. Plan, kəsim. 1905-ci il. (Ölçmə və çertyoj - Ş.S.Fətullayev).*





*Qax rayonu, Güllük kəndi. Alban Armatian məbədi. V-VI əsrlər. Fasad, plan. (Ölçmə və rekonstruksiya - A.B.Qaraəhmədova, Ş.S.Fətullayev).*

Deməli, Zaqatala qrupunun ayin qurmaları planlaşdırma strukturunda ön fasadda portik-eyvanla (Əliabad kənd məscidi, 1876-cı il, Balakən məscidi, 1867-1877-ci illər, Qabaqçöl məscidi, 1853-cü il) yanaşı, bu tikililərin arxitekturasını zənginləşdirən digər kompozisiya üsullarından istifadə ilə də diqqəti çəkir. Ümumiyyətlə öz obraz ifadəsinə görə, Şəki-Zaqatala bölgəsi məscidləri o dərəcədə dünyəvi xarakter daşıyır ki, ayin qurmalarından çox, mülki binalara bənzəyirlər. Zaqatala qrupu məscidlərinin daxili planlaşdırmasında bu bölgənin digər qruplarındakı eyni kompozisiya üsulları müşahidə edilir, lakin daha çox başlıca memarlıq formalarının miqyasına diqqət yetirilir.

Bu qurmalarda memarlıq kompozisiyasının başlıca elementi - binanın xarakterini müəyyənləşdirən iri formalı yarımqövs tağdır. Fasadların və interyerlərin hissələnməsi, memarlıq elementləri və detalları bu formaya tabe edilmişdir.

Bu bölgədə yarımqövs tağların yayılmasının dərin tarixi kökləri var, çünki keçmiş çağlarda buralar Qafqaz Albaniyasının bir hissəsi idi və tağlar onun memarlığında əksini tapmışdı. Qum kəndindəki bazilika (VI əsr), Ləkit (VI əsr), Mamrux (VII əsr) kəndlərindəki məbədlər, Yeddi Kilsə kompleksi (IX əsr) və digərləri kimi [269, s.33] Şəki-Zaqatala bölgəsinin ərazisinə səpələnmiş və bizim günlərədən qorunub saxlanan sonrakı dönəmlərə aid qədim abidələr təsdiq edir ki, yarımqövs tağlar - genetik baxımdan keçmiş çağların memarlıq forması - yerli memarlıqda geniş istifadə edilirmiş və XIX-XX əsrlərin qovşağında hələ öz önəmini itirməmişdi.

Bu memarlıq formasının bölgənin ayin qurmalarında tətbiqi onlara müəyyən özünəməxsusluq verib ki, bu da onları Azərbaycanın digər bölgələrinin bu kimi tikililərindən fərqləndirir.

Şəki-Zaqatala bölgəsinin ayin qurmalarının memarlıq kompozisiyasında minarələr mühüm rol oynayır. Onlar yaşıllığa qərq olmuş bağ-bağatların və sıx yerləşməyən bir- və ikimərtəbəli evlərin fonunda öz 25-40 metrlik vertikalları ilə aydın görünürlər. Bu kimi minarələr heç də bütün məscidlərdə yoxdur, onlardan bir çoxunun binanın damüstü örtüyünün üzərindəki kiçik belvederi var (Quba və Lənkəran bölgəsində olduğu kimi), digərlərində minarə də, belveder də ümumiyyətlə yoxdur.

Şəki qrupunda minarələr Yuxarı və Aşağı cümə məscidlərinin, Ağamalıoğlu küçəsindəki məscidin (1870-ci il) həcm kompozisiyalarında iştirak edir. Qax qrupunda minarələr Qax-mahal kənd məscidində (1867-ci il) və Çudulu kənd məscidində (1863-cü il) mövcuddur. Şəkidə Yuxarı Cümə məscidinin və Qax-mahal məscidinin minarələri binanın həcminə daxil edilib və konstruktiv baxımdan əlaqəlidir, digərləri (Zaqatala qrupu minarələri də daxil olmaqla) - ələhiddə dayanmış vertikallardır.

Zaqatala qrupunun öz proporsiyalarına və dekorativ bəzəklərinə görə ən effektli və bədiilik baxımından ifadəli məscid minarələri Mosul, Əliabad, Balakən, Varxian, Lahıc kəndlərindədir. Əgər Şəkidə Yuxarı Cümə məscidinin, Qax-mahal və Çudulu kənd məscidlərinin minarələri memarlıq formasının, proporsiyaların qurulmasının ümumi prinsiplərinə və siluetin eyniyyətinə malikdirsə, və bu müəyyən dərəcədə onları Qarabağ bölgəsi minarələri ilə yaxınlaşdırırsa, bütün digərləri minarələrin kompozisiyasının memarlıq həllinə memarların müstəqil yanaşmasının ifadəsidir ki, bu, təkcə Şəki-Zaqatala bölgəsi üçün səciyyəvidir.

Bir qayda olaraq, minarələr - dini binaların ümumi kompozisiyasının ayrılmaz hissəsidir və məscid sahələrinin planlaşdırılmasında əsas həcmdən 8-15 metr məsafədə onlara müəyyən bir yer ayrılır. İri formalı tağları olan məscidin üfqi həcminə qarşı qoyulan 25-40 metrlik planda dairəvi və ya səkkizvəchli, yuxarıya doğru daralan minarə vertikalının yer aldığı memarlıq kompozisiyası memarlara böyük bədii imkanlar verirdi. Yerli inşaatçılar bundan əla bir şəkildə faydalanaraq ayin qurmalarının güclü emosional təsir göstərən orijinal həcmfəza həllini yaratmışlar.

Bişmiş kərpicdən hörülən vəchlənmiş minarələrin dik gövdələri bütöv




*Qax rayonu, Ləkit kəndi. Alban məbədi. VI-VII əsrlər. Plan.(Ölçmə və rekonstruksiya - A.B.Qaraəhmədova, Ş.S.Fətullayev).*

hündürlüyə hesablanmış memarlıq konsepsiyası təəssüratı yaradırlar. Minarə öz ifadəli silueti ilə kompozisiyanın bədii dəyərini artırırdı. Onun bütün hündürlük həcmi həndəsi xarakterli tillərin relyefli ornamental cizgisi sayəsində memarlıq-plastik forma alırdı. Relyef üzlərin əsas səthindən dərinləşdirilmiş ornamental motivin hesabına əmələ gəlmişdir; bu tərzdə işlənməklə, o, sanki minarənin həcmini «canlı» memarlıq formasına çevirmişdir. Divar səthlərinin bu tərzdə işlənmə üsulu yerli mənzil tikintisinə xasdır və minarələrin arxitekturasında cəsarətlə istifadə edilmişdir.

Əlahiddə dayanmış minarə vertikalı - müsəlman Şərqi ölkələrinin memarlığında kifayət qədər yayılmış təzahürdür. Buna Hindistan, Orta Asiya, Əfqanıstan və Türkiyədə rast gəlinir [477, 493]. Kompozisiya həllinə görə üslubi baxımdan onların öz məhəlli özəllikləri vardı, lakin bu kimi kompozisiyalar müsəlman Şərqi ölkələrinin memarlığının inkişafında başlıca olaraq orta yüzillər dönəminə aid idi.

Şəki-Zaqatala bölgəsi ayin qurmalarının minarələri XIX əsrin ikinci yarısında eləcə də kərpicdən, lakin hündürlük kompozisiyasının hissələri və traktovkasına proporsional olan fərqli formalarda inşa edilmişdir. Onlar xeyli dərəcədə incələşdirilməklə vahid arxitektura forması təşkil edirdilər, bu halda mürəkkəb olmayan iri ornamental motiv gövdənin konstruktiv kənarlarını örtürdü.

Burada minarələrin Şərq ölkələri üçün səciyyəvi olan, monumental vertikal kompozisiyanın vüqarlı dekorativ forma aldığı zəngin üz örtüyü yoxdur.

Şəki-Zaqatala bölgəsi minarələrinin memarlıq həllinin ciddiliyi və konstruktiv formanın səlisliyi, yerli memarlıq ənənələri ilə sıx qarşılıqlı bağlılıq onlara özünəməxsusluq gətirmiş və bədii effektin təzahürünə kömək etmişdir.

Əgər Azərbaycanın digər bölgələrinin gözdən keçirilən dönəmə aid minarələri memarlıq kompozisiyasına, hissələrin proporsiyasına və dekorativ quruluşuna görə Yaxın Şərq ölkələrinin memarlığı ilə səsləşərək müəyyən dərəcədə keçmişlə varisliyi qoruyub saxlayırsa, Şəki-Zaqatala bölgəsinin bu baxımdan analoqu yoxdur və Azərbaycan üçün bənzərsizdir.

Cənubi Dağıstan qrupu ilə müqayisə etdikdə Şəki-Zaqatala bölgəsinin ayin qurmalarının memarlıq-planlaşdırma həllində son dərəcə maraqlı təzahür müşahidə olunur: Şəki-Zaqatala bölgəsi ilə analoji iqlim, dini, sosial-məişət şəraitinə malik olan Cənubi Dağıstanın kənd məscidlərinin əksəriyyəti bir ibadət zalına və cənub fasadı qarşısında mehrab hissəli qalereyaya malik birmərtəbəli binalardan ibarətdir [292, c.134]. Bunun nəticəsində Dağıstan məscidlərinin cənub fasadı onun həcm strukturunda başlıca yer tutmaqla, kompozisiya baxımından mühüm elementə çevrilmişlər. Lakin öz həcmləri ilə qalereyanın eninin yarıdan çoxuna daxil olan mehrablar onun funksional önəmini pozmuşlar, hərçənd cənub fasadının arxasında onların məcidlərin ümumi kompozisiyasında üstün yerləri qorunub saxlanmışdır [191, s. 76-77]. Eyni zamanda memarların Cənubi Dağıstan məscidlərinin həm fasadlarının, həm də ibadət zallarının işlənməsində arxitektura elementlərinə və detallarına ayırdıqları xüsusi diqqəti də qeyd etmək gərəkdir.

Prinsipial baxımdan bu iki mühüm məqam Cənubi Dağıstanın ayin qurmalarını Şəki-Zaqatala bölgəsinin eyni binalarından fərqləndirirdi. Birincisi, bu bölgədə, bir qayda olaraq, məscidlərin ön fasadları dərin portikli şimal fasadlarıdır, demək olar bütün gün kölgədə qalır, cənub fasadlarına isə kompozisiyada köməkçi rol ayrılır. İkincisi, heç də az







*Zaqatala rayonu. Əliabad kəndi. Məscid. Fasad fraqmenti. 1876-cı il.*



*Zaqatala rayonu. Aşağı Tala kəndi. Məscid. Fasad fraqmenti. 1901-1910-cu illər.*



*Zaqatala rayonu. Məscid interyerləri. (Şəkil Ş.S.Fətullayevindir).*

önəmli olmayan məqam - bədii obrazda arxitektura detallarına yetərincə diqqət yetirilmədiyi və lazımınca qiymətləndirilmədiyidir. Lakin bütün bunlar ayin qurmalarının həcm-fəza həlli, memarlıq formalarının iri miqyası, siluetin ifadəliliyi, strukturun model sistemindən istifadə edilən planlaşdırma səlisliyi və konstruktiv sxemin rasional seçimi ilə kompensasiya edilmişdir.

Şəki-Zaqatala bölgəsinin ayin qurmaları, özəlliklə Zaqatala qrupu, öz bənzərsizliyi və bədii dilin ifadəliliyi ilə XIX - XX əsrin başlanğıcının Azərbaycan memarlığında mühüm yer tutur.

Azərbaycanın müxtəlif bölgələrində arxitekturanın, özəlliklə ayin qurmalarının memarlığının nə dərəcədə öz xüsusiyyətlərinə, öz prinsipial memarlıq-kompozisiya və planlaşdırma həllinə malik olduğunu Lənkəran bölgəsində izləmək mümkündür. Bol atmosfer yağıntıları, zəngin bitki örtüyü, Lənkəran bölgəsinin subtropik iqlimi açıq qalereyalı, eyvanlı evlərin yaradılmasına rəvac vermişdir. Bu evlərin onların bütün özünəməxsusluğu ilə bərabər, Azərbaycanın digər bölgələrində gördüyümüz evlərlə hansısa bir yaxınlığı vardır [242, s.163]. Maraqlıdır ki, bunu, xarakterik həcm-fəza və kompozisiya quruluşu etibarilə, ayin qurmalarının arxitekturası haqqında söyləmək olmaz.

Planlaşdırma baxımından Lənkəran bölgəsi məscidləri əsasən birkameralı iba-







*Nuxa. Aşağı Cümə məscidi. Minarə. XIX əsr.*

*Zaqatala rayonu. Əliabad kəndi. Məscid minarəsi. XIX əsr.*



*Lahıc kəndi. Məscid minarəsi. XIX əsr.*









*Mosul kəndi. Məscid minarəsi. XIX əsr.*



*Balakən. Məscid minarəsi. XIX əsr.*

dət zalından ibarətdir, çox halda ona bitişik xidməti məqsədlər üçün yerləşgələri olur. İbadət zalları rahat yerləşmək və arakəsməni bərkitmək üçün ortadan ağac dayaq dirəkləri ilə ayrılmışdır.

Məscidlərin planlarının ümumi proporsiyası 1:25-dir. Ön fasadlar, bir qayda olaraq cənub fasadlarıdır. Məsələn, Şəki-Zaqatala bölgəsində fasadlarda müşahidə edilən eyvanlar və ya portiklər yoxdur. Bu cizgi məscidlərin planlaşdırma sxemini müəyyən etmişdir. Əgər Şəki-Zaqatala bölgəsi məscidlərində mehrablar cənub fasadlarında, Dağıstan məscidlərində olduğu kimi, kiçik həcmlərlə ayrılmışdırsa, Lənkəran bölgəsində onlar həcm etibarilə heç nə ilə ifadə edilməyib ki, bu da onların vahid kompozisiya üsulu ilə həllinə imkan vermişdir (Qızılavar kəndi, XIX əsr, Səfləkəran, XIX əsr, Şahağacı, XIX əsr, Astara, XIX əsr).

Lənkəran bölgəsinin bütün məscidləri - birmərtəbəlidir, nisbətən hündür olmayan podium üzərindədir və paralelpiped şəklindədir. Divar materialları - bişmiş kərpicdir. Xeyli dərəcədə, az qala məscidin ümumi eninin üçdə biri qədər irəli çıxarılmış hündür kirəmit dam örtüyü - ayin qurmalarının həcm kompozisiyasının ayrılmaz hissəsidir.

Beləliklə, üfqi həcm intensiv rəngli, xeyli irəli çıxarılan, hündür dördköbərli kirəmit dam örtüyü Lənkəran bölgəsi məscidlərinin özünəxas həcm-fəza simasını müəyyən etmişdir. Qalereyanın eni boyunca dam örtüyünün, böyük miqdarda atmosfer yağıntılarının düşdüyü zona üçün xarakterik olmaqla, xeyli irəli çıxarılması portiksiz ötüşməyə imkan vermişdir.

Lənkəran bölgəsinin ayin qurmalarının özünəməxsusluğuna Güney Azərbaycan memarlıq ənənələri ilə sıx bağlı olan kompozisiya forması və üsulları da xeyli dərəcədə təsir göstərmişdir [387].

Lənkəran bölgəsi məscidlərinin həm planlaşdırma, həm də memarlıq baxımından təhlili ayin qurmalarının vahid tipi haqqında nəticə çıxarmağa imkan verdi. Planda məscidlər, bir qayda olaraq, birkameralı, güney və gündoğar tərəfdən işıqlanan, şimal və qərb fasadları isə demək olar pəncərə yeri olmayan, başdan-başa hörülü binalardır. Baş fasadlar məscidlərin kompozisiyasının mərkəzi oxuna münasibətdə simmetrikdir və, əgər bəzi hallarda xidməti yerləşgələr ibadət zalına bitişik olsa da (fasadda bu pəncərə və qapı yerləri ilə vurğulanıb), bu, fasadların həllinin ümumi xarakterinə heç bir şəkildə təsir göstərməmişdir.

Fasadlar dərin olmayan düzbucaqlı çərçivə-taxçalarla işlənmiş, onlara yarımdairəvi qapı və oxvari pəncərə açırımları daxil edilmişdir. Memarlıq kompozisiyasının belə bir sxemi Gərmətük (1906-cı il), Viyən (1883-cü il), Xolmili (1886-cı il), Səpnəkəran (XIX əsr) və digər kəndlərdə təkrarlanır.

Fasadların memarlığında dekorativ kərpic hörgüsü xüsusilə də çərçivələrin müstəvisində geniş tətbiq olunmuşdur. Belə bir üsul məscidlərin fasadlarına xüsusi bədii kolorit vermişdir. Məscidlərin əlvan rəsmli rəngli şüşə şəbəkəli oxvari pəncərələrinin iri açırımları onları XVIII əsrin yaşayış binaları, özəlliklə saray memarlığı ilə yaxınlaşdırır [246, s.327]. Məscidlərin kompozisiyasında bu memarlıq elementləri ilə yanaşı dam örtüyünün böyük çıxıntısı iştirak edir. Yaruslu konsolların effektiv sistemi ilə işlənmiş bu çıxıntı məscidin üfqi həcmini hündür dördköbərli kirəmit dam örtüyü ilə birləşdirən mühüm memarlıq motivi kimi də çıxış edir.

Məscidlərin memarlığında hündür və görünüşü etibarilə ifadəli minarə kimi mühüm elementdən bu bölgədə demək olar istifadə edilməmişdir. Kiçik bir minarənin əlavə edildiyi ayin qurmasına





yeganə misal olaraq Pensər kəndindəki məscid (XIX əsr) göstərilə bilər, onun işlənmə arxitekturası öz forma və dekorativ bəzəklərinə görə Rəşt şəhəri (Güney Azərbaycan) məscidlərinə son dərəcə yaxındır [387, s.188].

Əgər Lənkəran bölgəsinin kənd məscidləri özündə yerli memarlıq üslubunun bənzərsizliyini və özünəməxsusluğunu qoruyub saxlayırsa, Lənkərandakı Aşağı Bazar məscidi - yerli ənənələrə order sisteminin təsirinə misaldır. Bu təsir giz hörgüsü, qapı və pəncərə açırımlarının yarımdairəvi tağını profilləmə, əsas qurşaqların hissələnməsi və s. kimi üsullardan istifadədə ifadə olunmuşdur. Bütün bu xüsusiyyətlərinə rəğmən, Aşağı Bazar məscidi Lənkəran bölgəsinə xas ənənəvi tipli ayin qurmalarının planlaşdırma və həcm-fəza xarakteristikasını qoruyub saxlamışdır ki, bu da məhəlli memarlığın hətta yeni sosial-iqtisadi şəraitdə yaşamaq qabiliyyətini təsdiqləyir.

Quba-Qusar bölgəsinin ayin qurmaları həm memarlıq kompozisiyasına görə, həm də planlaşdırma həllinə görə Azərbaycanın digər regionları ilə müqayisədə başqa tipdədir. Onlar memarlıq formalarının bənzərsizliyi və detalların aydın cizgiləri ilə fərqlənirlər.

Quba-Qusar bölgəsinin ayin qurmaları Quba şəhər məscidləri istisna olmaqla, məsələn, Şəki-Zaqatala bölgəsinin ayin qurmaları kimi monumental xarakterə malik deyillər. Quba-Qusar bölgəsinin məscidləri böyük özünəxaslığa malikdir, həcm-fəza kompozisiyasına görə daha fərqli, interyerlərin həllində daha maraqlıdır.

İslamın yayılmasının erkən dönəmində Quba-Qusar bölgəsinin ayin qurmalarının inkişafı haqda materiallar əldə yoxsa da, güman etmək olar ki, məscidlər əsasən birkameralı, təkcə bir daxili zala malik imişlər. Alıç kəndindəki bu bölgədə ayin qurmaların daha erkən dö-




*Lənkəran. Böyük Bazar məscidi. Fasad, plan. XIX əsr. (Ölçmə - A.Süleymanov, R.Toniyan).*




*Lənkəran. Kiçik Bazar məscidi. Fasad, plan. XIX əsr. (Ölçmə - Ş.S.Fətullayev).*

nəminə aid olan məscid (1709-cu il) yerli məscidlərin obraz həlli və strukturun daxili planlaşdırmasının xarakteri haqqında ümumi təsəvvür yaradır. Məscidin düzbucaqlı həcminin üstü belvederlə yekunlaşan dördköbərli kirəmitlə örtülüdür.

Bölgənin ayin qurmalarının bu ən sadə həcm-məkan kompozisiyası binanın əsas hissəsinin mürəkkəbləşdirilməsinə doğru müəyyən dəyişikliyə baxmayaraq, funksional məzmun ifadəsinin hakim forması olaraq qalmaqda davam etmişdir.

Ayin qurmalarının həm həcm-fəza, həm də memarlıq-planlaşdırma baxımın-

dan həllində bu kimi dayanıqlığını ənənəvi yerli tikinti materiallarından (bişmiş və çiy kərpicdən, mühüm konstruktiv element olaraq ağacdan) istifadə edilməklə yerli memarlığın ənənələrindəki varisliklə, bölgənin təbii-iqlim özəllikləri ilə bağlılıqda gözdən keçirmək gərəkdir. Və bölgə memarlığının başlıca cizgilərinin bütün bu məcmusunda tikintinin kompozisiya və bədii üsulları əmələ gəlmiş, səlisləşmişdir. Onlar ayin qurmalarının ən müxtəlif tiplərini sərgiləməklə, ardıcıl şəkildə inkişaf etmişdir.

Aşağıda məscidlərin həcm strukturunun variantları təqdim edilir: 1) qalereyasız, 2) fasadın önündə qalereya ilə, 3) ön fasadda portiklə, 4) ibadət zalının təkcə bir daxili fəza yerləşgəsi planında səkkizbucaqlı formasında, 5) qübbə örtüklü birkameralı, 6) ibadət zalının lojalı qübbəsi ilə.

Quba-Qusar bölgəsi ayin qurmalarının tiplərinin belə bir müxtəlifliyi onları Azərbaycanın və Dağıstanın digər bölgələrinin məscidlərindən fərqləndirir. Quba-Qusar bölgəsi və Dağıstanın yaxın təbii-iqlim və inşaat xüsusiyyətlərinə baxmayaraq, burada ayin qurmalarının inşasında başlıca ümumi həcm-fəza və kompozisiya üsulları hasil olunmamışdır. Məsələn, Dağıstanda Yuxarı Stal kəndindəki məscid istisna olmaqla, nə səkkizbucalı planda, nə qübbəli binalar, nə də belvederlə dördköbərli kirəmit örtük altında məscidlər inşa edilirdi. Lakin fiqurlu tiraltısı olan ağac sütunlardan istifadə edilən qalereyaların və interyerlərin bədii həllində bu iki məktəb arasında ağac işləmədə qarşılıqlı bağlılıq və qarşılıqlı təsir hiss olunur. Bu işdə, heç şübhəsiz, mahir xalq ustaları böyük sənət örnəkləri yaratmağa nail olmuşlar, çünki onların yaratdıqları memarlıq elementləri və detallar binaların həcm-fəza strukturuna estetik gözəllik bəxş

*Lənkəran rayonu. Məscid portalı fraqmenti. XIX əsr.*









*Viyan kəndi. Məscid. 1883-cü il.*



*Məscid. Karniz konsollarının yaruslu sistemi. XIX-XX əsrlər.*



*Lənkəran. Kiçik Bazar məscidi. Giriş qapısından fraqment. 1904-cü il.*



*Lənkəran. Kiçik Bazar məscidinin ümumi görünüşü. 1904-cü il.*

edir, əsl xalq memarlığı əsərləri kimi onların bədii dəyərini yüksəldir.

Ayin qurmalar elə obyektlər idi ki, bölgənin memarlıq, tikinti və bədii ənənələri onlarda sanki fokusda imiş kimi əksini tapırdı. Yaşayış yerlərinin plan strukturunda daha məsul şəhərsalma mövqeyi tutmaqla, dini binalar yerli memarlığın xarakterik cizgilərini, xalq memarlığının yaradıcılıq prinsiplərini və onların fərdi özəlliklərini üzə çıxarırdı. Quba-Qusar bölgəsi ayin qurmalarının memarlıq-inşaat üsullarındakı ümumiliyə baxmayaraq, hər bir qurmaya memarın yaratdığı obyektə şəxsi münasibəti hopmuşdur, tiplərin - Alıç kəndindəki kiçik məsciddən tutmuş, Quba şəhərində qübbəsinin diametri 16 metr olan Cümə məscidinin səkkizbucaqlı formasınadək müxtəlifliyi bundan doğur.

*Məscidlərin birinci tipi*: qurma qalereyasız olmaqla tək bircə ibadət zalından ibarətdir (Alıç kəndində 1709-cu il, Alpan kəndində 1807-ci il, Təngəaltı kəndində 1890-cı il və s. məscidlər). Ayin qurmalarının bu örnəkləri bir növ birinci tip dini binaların inkişaf təkamülünü nümayiş etdirir. Alıç kəndindəki məscid - ən sadə tipdir, lakin qapı taylarının tərtibatına və işlənməsinə xalq ustasının o qədər fantaziyası və sənətkarlığı sərf olunmuşdur ki, bu elementlərin hər biri bədii əsərlərdir. Bunlarda həndəsi rəsmlərin ornamental motivləri ərəb yazısı ilə incə bir şəkildə çulğalaşır.

Fasad elementlərinin və eyni zamanda bədii ağac işləməsinin belə bir kompozisiya həlli Quba-Qusar bölgəsi dini binalarının memarlığında nadir təzahürdür, hərçənd ağac işləmə, özəlliklə sütunların və tiraltıların işlənmə sənəti yüksək səviyyədədir.

Bu, ağac işləmənin bədii ənənələrinin dayanıqlığından və varisliyindən söz açır. Məsələn, Şəki-Zaqatala bölgəsində də ağac işləmə yayılmışdır, lakin bu əsasən minbərlərin yaradılmasında özünü göstərir, onların icra səviyyəsi sadə oyma işinin çərçivəsindən kənara çıxır. Şəki-Zaqatala

bölgəsindəki minbərlərin əksəriyyəti bədii ağac oyma üzrə əsl dekorativ-tətbiqi sənət əsərləridir. Bu planda heç bir bölgə Şəki-Zaqatala ilə müqayisə edilə bilməz.

Alpan kənd məscidinin (1807-ci il) memarlıq-planlaşdırma həlli qalereyasız məscidlərin layihələşdirilməsi və tikintisinin ibadət zalının daha inkişaf etmiş daxili tərtibatı ilə bir növ növbəti mərhələsidir. İnteryerin kompozisiyası boyuna uzadılmış kərənlər üzərində qurulmuşdur, onlar fiqurlu tiraltılarla iki qatar sütunlar sisteminin köməyi ilə məscidin üst örtüyünü saxlayırlar. Oyma naxışlarla zəngin ağac sütunlar daha çox fiqurlu tiraltını deyil, özünəxas kapiteli formasını saxlayır: sütun və dinamik cizgili kapitel vahid bədii bütövdür və ibadət zalının interyerində əla işləyir. Burada ayin qurmalarının inkişaf prosesi Quba-Qusar bölgəsi ayin qurmalarının həcm-fəza strukturundakı, ibadət zallarının interyerinin daxili quruluşundakı kiçik dəyişiklikləri də aydın bir şəkildə sərgiləyir.

Təngəaltı kənd məscidinin (1878-ci il) timsalında bu əla görünür. Onun həcm-fəza kompozisiyası ənənəvidir, lakin fasadların memarlıq traktovkası tamamilə yeni bir tərzdə həll edilib - o, üsulların və formaların sərbəst quruluşunun klassik prinsiplərinə əsaslanır. Burada rəsmi memarlıq məktəbinin yerlərdə yayılan təsiri özünü hiss etdirir. Bununla belə, məscidin binası orijinallığı və koloriti itirmiş olsa da, həcm kompozisiyasının ciddiliyi və bədii dilin ifadəliliyi ilə fərqlənir.

Məscid fasadlarının traktovkasının belə bir dəyişmə prosesi kapitalist münasibətlərinin inkişafı dövründə yeni kompozisiya üsullarının, memarlıq binalarına baxışda yeni estetik tələblərin diyara nüfuz etməsi üzündən qaçılmaz idi.

*Məscidlərin ikinci tipi:* fasadların qarşısında qalereyaların mövcudluğu (Zindanmuruq, 1825-ci il, Susay, 1850-ci il, Xuray, 1866-cı il, Üçgün, 1860-cı il, Neydün, 1878-ci il və s. kəndlərdəki məscidlər). Bu məscidlər həcm-fəza baxımından daha gözəl, daha şairanə təsir bağışlayır. Burada da bütün memarlıq nyüansları ilə birlikdə dərin emosional və əsl milli əsər yaratmış ustaların fərdi cizgiləri ifadə olunmuşdur. Ümumi həcm kompozisiyası ilə yanaşı, bu tipə aid olan binalarda böyük sənətkarlıqla işlənmiş ağac sütunlar fəal rol oynayır. Bu tendensiya bölgənin ayin qurmalarına yeni bədii məzmun verir, kompozisiya palitrasını genişləndirir və yaşayış məskənlərinin şəhərsalma sistemində onların əhəmiyyətini artırır.

*Məscidlərin üçüncü tipi:* baş fasadda portikin mövcudluğu. Bu tip Quba şəhərində maraqlı bir örnəklə (Səkinə xanım məscidi, 1854-cü il) təmsil olunmuşdur.

Məscidin həcm kompozisiyasının qurulmasında belveder və dövrələmə dördköbərli üst örtüyü qorunub saxlanmışdır. Səkinə xanım məscidi düzbucaqlı planda-dır, həm memarlıq baxımından, həm də ibadət zalının daxili fəzanın həllində tamamilə başqa bir xarakterə malikdir, hərçənd həcm traktovkası bu bölgənin ənənəvi tikinti üsullarının dayanıqlığını ifadə edir. Məscidin həcm-fəza kompozisiyası monumentallığı ilə fərqlənir, fasadlar həm üfqi, həm də şaquli baxımdan proporsional hissələnmənin səlisliyi ilə fərqlənir. Bu binada kompozisiyanın həllinə daha peşəkar yanaşma, Quba-Qusar bölgəsinin bir çox ayin qurmaları ilə müqayisədə memarlıq və konstruktiv vasitələrdən daha səmərəli istifadə hiss olunur.

Memarlıq formalarının cizgi aydınlığı, fasadlarda bədii elementlərin yerləşdirilmiş olması, giriş oxunun portalla vurğulanması burada Avropa memarlıq məktəbi ilə tanış olan bir memarın çalışdığından söz açır. Lakin ibadət zalında mərkəzi qübbəni çiynində saxlayan iki







*Qusar rayonu. Xuray kəndi. Məscid. Portikin sütunu. 1866-cı il.*



*Quba rayonu. Susay kəndi. Məscid. İbadət zalının girişi. 1850-ci il.*

sıra sütunlarla planlaşdırma sxemi yerli mənşəlidir. Bu, xüsusən də iç fəzada özünü göstərir, burada bucaq qübbələri sistemi və aralıq tağbəndlər mərkəzi qübbəyə hesablanmışdır. Divarların zəngin plastikası, interyerin həcmliliyi, pəncərələrin və taxçaların oxvari tağları ibadət zalının maraqlı bir kompozisiyasını əmələ gətirmişdir. Bu da xarakterikdir ki, məscid interyerinin həcmli elementlərlə (qübbə, tağbəndlər) qurulması zahiri görünüşdə əksini tapmayıb, ayin qurmalarının ənənəvi stereotipini qoruyub saxlamışdır.

Səkinə xanım məscidinə bənzər məscid tipi yeganə misaldır. Belə bir sistem inkişaf edə bilməyərək öz yerini ağac memarlığı interyerinə və konstruktiv elementlərə vermişdir. Səkinə xanım məscidinin ümumi memarlıq kompozisiyası, fasadların qurulma üsullarına, memarlıq və dekorativ formalar seçiminə təsiri özünü Quba rayonunun Rustov kəndindəki Ərdəbil məscidində hiss etdirir.

*Məscidlərin dördüncü tipi:* ibadət zalının təkcə bir iç fəza ilə səkkizbucaqlı formasında olması. Bu sayaq məscid tipi - faktik olaraq yalnız Quba-Qusar bölgəsinə mənsubdur və onun meydana gəlməsi müxtəlif səbəblərlə bağlı ola bilər. Məscid planının belə bir forması Şirvan və Dərbənd məqbərələrinin təsiri altında və ya xalq memarının fərdi yaradıcılığı sayəsində meydana çıxa bilərdi. Ola bilsin, belə bir plan variantı Yerusəlimdəki məşhur Qübbət-üs-Səxrə (yəni Qaya üzərində qübbə, ona Ömər məscidi də deyilir və müsəlmanların ziyarət etdikləri müqəddəs məkanlardan biridir) ilə tanışlıqdan sonra üzə çıx-

mışdır. Bölgədə səkkizbucaqlı planda məscidin görünməsinə münasibətdə nə kimi fərziyyələr irəli sürülür-sürülsün bu, Azərbaycanın ayin memarlığının nailiyyətidir (Quba Cümə məscidi, XIX əsr, Avaran, 1829-cu il, Yasab, 1886-cı il, Lecət, 1887-ci il, Yuxarı Ləgər, 1895-ci il, Bala Qusar, XIX əsr, kənd məscidləri).

Azərbaycanda səkkizbucaqlı plan formasında məscidlərə Zaqatala rayonunun Yengian kəndində (1910-cu il), eləcə də Dağıstanda Yuxarı Stal kəndində rast gəlinir.

*Quba rayonu. Neydün kəndi. Məscidin ümumi görünüşü. 1878-ci il.*







Avaran kəndindəki məscid 1829-cu ildən sonralar inşa edilib, hərçənd interyer divarlarının birində məhz bu inşaat tarixi həkk olunmuşdur; çox güman ki, kitabə köhnə məsciddən götürülmüşdür. Ona görə də Quba Cümə məscidini bu növ ilk tikili saymaq gərəkdir, qalan kənd məscidləri isə sonuncunun təsiri altında yaranmışdır. Quba Cümə məscidi - monumental tipli kərpic tikili olmaqla, həm həcm-fəza, həm də ibadət zalının həllinə görə daha bitkindir. Cümə

*Quba. Cümə Məscidinin ümumi görünüşü. XIX əsr.*



məscidinin plan cizgisi hardasa Yuxarı Stal məscidinin planını xatırladır. Bu, künc yarımhalqaları elementlərinin traktovkasının xarakterində, interyerin oxvari taxçalarının quruluşunda və qübbə örtüyünün konstruksiyasında ifadə olunur. Cümə məscidinin interyeri, özəlliklə friz hissə və qübbə həndəsi fiqurlarla zərif şəkildə bəzədilmişdir. 16 metrlik diametri olan qübbə Şərq sənətinin ən yaxşı ənənələri əsasında qurulmuş və zəngin frizlə və interyer yarımsütunlarının yuxarı hissəsi ilə yaxşı uzlaşır.

Avaran kəndindəki məscid həcm-fəza kompozisiyasına və zahiri görünüşünə görə Quba şəhər Cümə məscidini xatırlatsa da, öz konstruktiv xüsusiyyətlərinə, özəlliklə də qübbənin quruluşuna görə



*Qusar rayonu. Avaran kəndi. Məscidin ümumi görünüşü. 1829-cu il.*





tamamilə fərqli həll variantına malikdir. Burada qübbə yüngüldür, ağacdandır və konstruktiv baxımdan qurulması daha asan və daha ucuz başa gələndir.

Ağac materialından qübbələr, eləcə də ayin qurmalarının səkkizbucaqlı plan forması - Quba-Qusar bölgəsinə mənsubdur (Əniq, 1911-ci il, Bala Qusar, XIX əsr, Birinci Nügədi, 1899-1909-cu illər, kəndlərindəki məscidlər). Bölgənin dini binalarının ağac materialından inşa edilmiş, dəbilqəvari qübbələri konstruktiv üsulların müxtəlifliyi ilə fərqlənir və yaşayış yerlərinin siluetinə yeni bədii məzmun bəxş edir.

Ayin qurmalarında ağac materialından qübbələrin qurulması maraqlı həcm-fəza və memarlıq-planlaşdırma

*Qusar rayonu. Bala Qusar kəndi. Məscidin ümumi görünüşü. XIX əsr.*







*Quba rayonu. Birinci Nügədi kəndi. Məscid. Kəsim. Baş plan. 1909-1912-ci illər. Məscid minarəsi. 1898-ci il.*

kompozisiyalarının həyata vəsiqə almasına səbəb olmuşdur (Əniq, Birinci Nügədi kəndlərindəki məscidlər). Birinci Nügədi kəndindəki məscid bölgənin dini binalarının ən müxtəlif tiplərini özündə ehtiva etmişdir. Burada fasadlarda qalereyalarla kubşəkilli həcm, daxili planlaşdırmada isə - iki mərtəbədə dövrələmə qalereya ilə daha zəngin elementli ibadət zalı təqdim olunur. İbadət zalının mərkəzi hissəsi ağac materialından işlənmiş, cizgisinə görə və konstruktiv xüsusiyyətinə görə ifadəli qübbə ilə örtülmüşdür. Həcm və memarlıq kütlələrinin quruluşunun bənzəri yoxdur.





Bu memarlıq kompozisiyasının maraqlı davamı kimi birkameralı və qübbə örtüklü (beşinci tip) Əniq kənd məscidinin binası göstərilə bilər.

Kvadrat planlı (14,40x15,05 m) məscidin üstü ağac materialından dəbilqəvari cizgidə qübbə ilə örtülmüşdür, damda əsas həcmin künclərində isə dekorativ minarə qurulmuşdur. Bu məsciddə maraq doğuran həcm-fəza kompozisiyası və ibadət zalı interyerinin qübbənin bədii işləməli plafonu ilə həllidir. Quba-Qusar bölgəsi ayin qurmalarında dekorativ boyakarlıq gözəçarpan yer tutmuşdur. Bu hal məscid interyerinin xarakterinin dəyişdirmişdir. Sonuncu daha nikbin şəkil almış, keçmişin ayin qurmaları ilə müqayisədə daha koloritli olmuşdur.

Ayin qurmalarının altıncı tipinə ibadət zalının üstündə lojalı qübbəsi olan məscidlər aiddir (Xil kəndindəki məscid, 1913-cü il). Lakin Xil və Birinci Nügədi məscidlərinin ibadət zalının həllində planlaşdırmanın və istismar keyfiyyətlərinin tədricən dəyişdiyi (yaxşılığa doğru) müşahidə olunur. Məscidlərin ibadət zalının iç fəzası pəncərə yerlərinin çoxluğu, ikinci mərtəbədə qadınlar üçün qalereyanın rahat quruluşu və dekorativ boyakarlıq sayəsində, İslamın ayin qurmalarının başlıca planlaşdırma prinsiplərini pozmadan, dünyəvi xarakter kəsb edir.

Quba-Qusar bölgəsi məscidlərində daha bir özəllik müşahidə olunur, bu da onda ifadə edilir ki, onlarda ifadəli dominant kompozisiya elementi - minarə yoxdur. Bölgənin ayin qurmalarında minarə əsas həcmin dördköbərli dam örtüyündə belvederlə əvəz edilmişdir. Birinci Nügədi məscidində bölgədə yeganə olan minarə Dağıstan memarlığının təsiri altında inşa edilmişdir. Bu, minarənin plan xarakterində, getdikcə daralan gövdə həllində, arkatur frizli yastı karnizdə ifadə olunur. Ayin qurmalarının memarlıq kompozisiyasının aparıcı elementi olaraq minarə Quba-Qusar bölgəsində, eləcə də qübbə Dağıstan məscidlərində lazımi dərəcədə inkişaf yolu keçməmişdir. Bununla birlikdə Quba-Qusar bölgəsində öz memarlıq-planlaşdırma və kompozisiya xüsusiyyətləri qərarlaşmış, bunlar XIX – XX əsrin əvvəllərində Azərbaycanın yerli memarlıq məktəblərinin birinin ayin qurmalarının xarakterini müəyyən etmişdir.

* * *

Gözdən keçirilən epoxada Azərbaycan memarlığının ümumi inkişaf prosesi onun memarlığında regional istiqamətlərin yerli ənənələr əsasında maraqlı və ifadəli binaların yaranması ilə şərtlənən qərarlaşmasını da müəyyən etmişdir. Azərbaycanın müxtəlif bölgələrində ayin qurmalarının arxitekturasında vahid milli memarlığın ümumi inkişafının fonunda onların özünəməxsusluğunun mühüm cizgilərini təşkil edən öz spesifik özəllikləri formalaşmışdır.

# III FƏSİL.

## SƏNAYE BİNALARI VƏ NƏQLİYYAT QURMALARININ MEMARLIĞI

Eyni vaxtda sənayenin, dəmiryol nəqliyyatının, ticarətin inkişafını, eləcə də əmək məhsuldarlığının artımını doğuran kapitalist münasibətlərinin inkişafı bunadək tikinti və memarlıq praktikasında bəlli olmayan spesifik xarakterli tikililərin və qurmaların müxtəlif növlərinin (neft emalı zavodları, pambıqtəmizləyici fabriklər, elektrik stansiyaları) üzə çıxmasına rəvac verdi.

Qurmaların müxtəlif tiplərinin üzə çıxmasını iri sənayenin inkişafı şərtləndirmişdi. Zavodların, fabriklərin, anbar binalarının, dokların, liman körpülərinin və s. üzə çıxması yeni memarlığın - Azərbaycan şəhərləri və yaşayış yerlərinin tikilib abadlaşdırılmasında ayrıca yer tutan sənaye memarlığının meydana gəlməsini doğurdu.

Bu vəziyyət XIX əsrin ikinci yarısında Rusiya sənayesinin öz tempinə görə təkcə sənayecə inkişaf etmiş ölkələri - İngiltərə və Fransanı deyil, hətta gənc kapitalist ölkəsi olan Almaniyanı üstələyən ümumi inkişafı ilə bağlı idi. Rusiyada kapitalizmin belə bir inkişaf prosesi kapital yığımına və imperiyanın ucqarlarında iri sənaye ocaqlarının yaranmasına gətirib çıxarmışdı, ona görə də artıq XIX əsrin ortalarında Suraxanıda Kokorev və Quboninin neft emalı zavodları (1859-cu il), Gədəbəydə Simensin misəritmə zavodu (1865-ci il) və s. kimi sənaye müəssisələrinin meydana çıxması təəccüblü deyildi. Lakin Azərbaycanda sənaye memarlığının qərarlaşması, formalaşması və inkişafı müəyyən sosial-iqtisadi səbəblər üzündən onu bu baxımdan bütün Rusiyanın sənaye memarlığından ayıran öz xüsusiyyətləri və istiqamətləri vardı.

Abşeronda neft sənayesinin inkişafı dərhal Bakı bölgəsini ön plana çıxarır. Azərbaycanda kapitalizmin inkişaf epoxasında bir-birinə qarşı qoyulan iki fərqli xarakterdə və istiqamətdə sənaye zonası müəyyənləşdi. Bir tərəfdə Abşeron sənaye qovşağı, yəni neft profilli iri zavodlarla təmsil olunan Bakı və onun rayonları [6, s.28], digər tərəfdə isə Azərbaycanın onun çoxsaylı ipəksarıyıcı müəssisələri, pambıqtəmizləyici fabrikləri, araqçəkmə, misəritmə, mis və kobalt zavodları və s. ilə yerdə qalan geniş hissəsi vardı [262, s.252].

Azərbaycan sənayesinin regionlara bu şəkildə bölünməsi hələ onların bir-birindən təcridindən söz demirdi. Əksinə, onlar öz aralarında, özəlliklə də Zaqafqaziya dəmiryolunun Bakı qolu açıldıqdan (1983-cü il) sonra, sıx bağlı idilər.

Azərbaycanda sənayenin müxtəlif sahələrinin inkişafı ilə memarlıq-planlaşdırma və həcm-fəza həllinə öz tələblərini irəli sürən sənaye memarlığı da qərarlaşmağa başlayır. Kapitalizm epoxasının memarlığı eklektika və stilizatorçuluq dönəmi olaraq son zamanlara qədər tədqiqatçıların diqqətini cəlb etmirdi, bu barədə ümumi xarakterli mülahizələrlə kifayətlənirdilər ki, bu da onun inkişaf yolları haqqında doğru-dürüst təsəvvür yaratmırdı. Odur ki, gözdən keçirilən dönəmin Rusiya sənaye memarlığı barədə monoqrafiyanın yoxluğu təəccüb doğurmur, baxmayaraq ki, sənaye obyektlərində yeni konstruksiyalar və tikinti materialları sınaqdan keçirilir, bunlarda çağdaş memarlığın sadəliyi və rasionalizmi ifadə edilirdi. Azərbaycanın sənaye memarlığı məsələlərini gözdən keçirərkən başlıca olaraq yerli materiala əsaslanmaq, yalnız qurmaların təhlili zamanı epizodik olaraq rus və xarici ədəbiyyata üz tutmaq lazım gəlir.

Azərbaycanda 1860-cı illərə qədər praktik olaraq fabrik-zavod sənayesi yox idi, burada yalnız sənayenin inkişafının ilkin mərhələsi yer alırdı (sənətkarlıq və xırda əmtəə istehsalı) [262, s.124]. Bütün məhsullar sırf utilitar - məhsul buraxma təyinatlı binalarda hazırlanırdı. Belə bir şəraitdə sənaye memarlığının doğulması üçün zəmin ola bilməzdi. Bu vəzifə Azərbaycanın fabrik-zavod sənayesi üçün XIX əsrin ikinci yarısından başlayaraq həll edildi.

Azərbaycanın sənaye zonaları və ya bölgələrinin qurmalarının müxtəlif xarakterdə olması səbəbincə onların hər birini əlahiddə olaraq, sənaye memarlığının ümumi təhlilinə müəyyən düzəlişlər etməklə gözdən keçirmək münasib və məqsədəuyğundur.

Bakı zonası başlıca olaraq neft sənayesi, onun strukturu və texnologiyaları ilə bağlı olan zavodlarla təmsil olunmuşdu. Burada binaların neft Bakısının sənaye peyzajında möhkəm yer tutmuş ayrıca tipi əmələ gəlmişdir.

İlkin vaxtların fotogen və ya fotonaftil deyilən zavodları barədə əlimizdə nə layihə, nə də natura materialları var. Buna baxmayaraq qeyd etmək olar ki, onların memarlıq tərtibatı sıravi evtikmə çərçivəsindən kənara çıxmamışdır. Azərbaycanın gerçək sənaye memarlığının səhifəsini açan ilk bina - Bakıdan 16 km məsafədə olan Suraxanıda Kokorevin 1859-cu ildə, "yanacaq qazı (sönməz yanar odlar) şəklində müftə yanacaqdan istifadə etməkdən ötrü" atəşpərəstlərin qədim məbədi ilə yanaşı inşa etdiyi zavoddur. Zavod məşhur alman kimyaçısı, buraya Kokorevin dəvəti ilə işlərin icrası və bütün işlərin qurulması üçün öz assistentini göndərmiş olan Libixin planı əsasında tikilmişdi [428, s.6]. Sonralar isə məhsul buraxılışının texniki baxımdan yaxşılaşdırılmasında D.İ.Mendeleyev bilavasitə iştirak etmişdi [262, s.285].

Libix və Mendeleyev kimi görkəmli kimyaçıların iştirakından, xarici maşınlarla təchizatdan, geniş ərazini tutmasından çıxış etsək, Kokorevin zavodu o illərdə inşa olunmuş bir çox fotogen zavodlardan fərqli olaraq orijinal memarlıq görünüşü və yaxşı abadlığı və səliqə-sahmanı ilə seçilirdi. Bir soraq kitabçasında qeyd edilir ki, zavod "nəsə bir abbatlıq görüntüsündə" [73, s.290] inşa olunub və atəşpərəstlərin məbədinin divarlarına bitişikdir.

Ola bilsin, məbədin həcm-fəza kompozisiyası zavod qurmasının xarakterinin ümumi həllini pıçıldayıb, üstəlik də fotonaftil zavodlar meydana çıxarkən istehsal texnologiyası mürəkkəb deyildi. Zavod ərazisində ucaldılmalı olan tikililər görünüş etibarilə həyətinin ortasında yerləşib, dörd borusundan daim yanar alov çıxan atəşpərəst məbədinin siması əsas götürülməklə qavranılmışdı.

Neft mədənlərinə şamil olunan son dərəcə qeyri-effektiv otkup (icarə) sistemi Azərbaycanda neft sənayesinin inkişafına əngəl törədirdi. Yalnız 1872-ci ildə onun ləğvindən sonra neft sənayesində və Azərbaycanın sənaye memarlığında yeni era başlanmışdır. Bu dərhal neft emalı zavodlarının sayının xeyli çoxalmasına, onların istehsal gücünün artmasına gətirib çıxarmışdır. "Otkupun ləğvindən heç iki-üç ay keçmədi ki, bir-birinin ar-

dınca zavodlar işə düşməyə başladı. Mənzilləri zavodlara uyğunlaşdırmağa başladılar. Mənzilləri neftlə, özü də ən primitiv bir şəkildə qızdırdıqlarından şəhər sözün gerçək mənasında his və tüstü ilə örtülmüşdür" - deyə V.Simonoviç "Rusiyada neft və neft sənayesi" kitabında yazır. [248, s.41]

Çoxsaylı neft emalı zavodları 1870-ci illərin əvvəllərində sistemsiz olaraq şəhər torpaqlarında böyük sahələr tuturdular. Neft sənayesinin intensiv inkişafı ərazinin əsas etibarilə şərq istiqamətində, üç paralel yol - Balaxanskaya, Suraxanskaya və Telefonnaya küçələri boyunca mənimsənilməsinə rəvac verdi. Forştadt (bayır şəhər, şəhərətrafı) ilə belə bir qonşuluq nə onun genişlənməsinə, nə də əhalinin əlverişli həyat şəraitinə uyğun gəlirdi: zavod tikililəri artıq xeyli böyük sahələr tutur, bu sahələr mütəşəkkil olsa da, ümumilikdə öz əsaslı tikililəri ilə, borularından daim his və tüstü çıxan zavod korpusları ilə qeyri-münasib ərazilərə çevrilirdilər.

Bir tərəfdən, əhalinin narazılığı, digər tərəfdən - ictimai şüurun oyanması quberniya hakimiyyətini məskun yerlərin qonşuluğunda zavod rayonunun inkişaf probleminə ciddi yanaşmağa məcbur etdi, bu hal şəhərin normal şəkildə genişlənməsi üçün böyük əngələ çevrilə bilərdi.

Quberniya administrasiyası fotogen (neft) zavodlarının şəhərin örüş torpaqlarına köçürülmə məsələsini qaldırdı. 1870-ci ildə bu torpaqlarda zavod tikintisi üçün sahələr ayrılması haqqında təklif irəli sürüldü. Qarşıya çıxmış problem o qədər mühüm idi ki, tezliklə, üç yol rayonunda artıq çoxlu sayda fotogen zavodların mövcudluğuna baxmayaraq, sabiq Qafqaz namestnikinin 147 zavodun şəhər məhəllələrinə yaxınlığı səbəbincə uçurulması haqda hökmü çıxdı".

Bu aktla faktik olaraq şəhər daxilində böyük bir zavod rayonu ləğv edildi, baxmayaraq ki, neft sənayeçiləri bu zavodlara iri məbləğdə kapital qoymuşdular.

Şəhərin və ictimaiyyətin maraqlarının xeyrinə olaraq mülkiyyətçilərin hüquqlarının belə bir miqyasda pozulması - kapitalist Bakısı tarixində müstəsna haldır.

**1876-cı il planı.** Zavod rayonunun şəhərin örüş yerinin şərq sərhədlərində yerləşdirilməsi üçün yeni körpünün planlaşdırma layihəsi tərtib olundu. Bu layihə əsasında da şəhər hüdudları daxilində ləğv edilmiş olanların yerində yeni fotogen zavodlar ucaldıldı. Beləliklə, qismən Keşlə kəndinin otlaq yerlərində və sakinlərin bağ-bostan sahələrinin yerləşdiyi şəhərə aid örüş yerlərində öz adını qaralmış zavod tikililərindən götürən Qara şəhər yarandı. Qara şəhər hüdudları xaricində fotogen zavodların inşası "şəhərdə sanitar şəraitin yaxşılaşdırılması səbəbi ilə" ciddi yasaq edilmişdi.

Bu planla forştadtın yaşayış məhəllələrindən xeyli aralıda (2 kilometrdən çox) sənaye zonasının əsası qoyuldu [97, 98]. Belə bir qərar tarixi baxımdan son dərəcə əlamətdar idi, çünki Rusiya şəhərləri tarixində ilk dəfə administrasiyanın qərarına əsasən məskun yerlərdən xeyli aralıda şəhərin yaxşı planlaşdırılmış sənaye rayonu meydana gəlmişdi. 1876-cı ilin planlaşdırma layihəsinə əsasən, Qara şəhər düzbucaqlı məhəllələr şəbəkəsi əldə etdi. Geniş və düz magistrallar sənaye rayonunun iri məhəllələrini birləşdirirdi. Bu magistrallardan biri çoxsaylı liman körpüləri ilə bilavasitə bağlı olan şəhər meydanında sona çatırdı.

Çoxsaylı xırda məhəlləri və dar küçələr şəbəkəsi olan forştadtın planlaşdırması ilə müqayisədə Qara şəhərdə yeni epoxa üçün xarakterik olan iri planlaşdırma miqyası aydın şəkildə müəyyən





olunmuşdu; bundan başqa layihəçilər sənaye rayonunun məskun yerlərdən uzaqlaşdırılmasının vacibliyini aydın dərk edirdilər.

Bakı yaxınlığında neft sənayeçilərinin fəaliyyət səhnəsinə çevrilən Qara şəhər belə bir şəraitdə meydana çıxdı; neft təsərrüfatı ilə sıx bağlı olan, texniki baxımdan yaxşı təchizata, yüksək istehsal gücünə malik neft emalı və digər zavodlar burada inşa edilirdi. Burada faktik olaraq Abşeronda tikintinin inkişafının özünə xas şəraiti üzündən regional özəlliklərə malik sənaye memarlığı qərarlaşır və formalaşırdı.

İri zavodların binaları, onların texniki təchizatı və getdikcə genişlənməsi zavod ərazisinin iriləşməsinə və mürəkkəbləşməsinə gətirib çıxardı. Düzbucaqlı şəklində məhəllələrə bölünən Qara şəhər yaxşı təşkil olunmuş sənaye zonası təəssüratı yaradırdı. Lakin onun getdikcə genişlənməsi Ağ şəhərin - Qara şəhərin təbii davamının yaranmasına səbəb oldu.

Zavod məhəllələrinin sıralanmış tikililəri öz yerini Nobel qardaşlarının iri neft sənayesi firmasının, "Xəzər-Qara dəniz neft və ticarət cəmiyyəti"nin, "S.M.Şibayev və Ko. birliyi"nin və s. geniş təsərrüfatlarına verdi. Bütün bu müəssisələr şəhərin sənaye rayonunun özəyini təşkil edirdi. Dəmiryol bu sənaye zonasını Zaqafqaziya dəmiryolunun ümumi xətti ilə birləşdirirdi. Lakin mütəşəkkil planlaşdırma strukturuna, münasib və rahat yollarına baxmayaraq, Qara şəhər zavodların istismarının sanitar rejiminə riayət edilmədiyi üzündən bu yerin yaranmasından az sonra səliqə-sahmansız bir əraziyə çevrilmişdi.

Belə bir vəziyyət Şəhər Dumasını 1884-cü ilin mayında "Qara şəhərdə və Bakı şəhərində zavodların tikilmiş olduğu şəhər məhəllələrində tikinti məsələsinə dair" icbari qaydalar haqqında qərar verməyə məcbur etmişdi. Qərarda bu kimi tələblər irəli sürülürdü: bütün zavod sahibləri 1 sentyabr 1884-cü il tarixədək öz zavodlarının korpusları boyunca eni 2 metr olan səkilər salmalı, küçə tərəfdən hər hansı dikdir və maneəni aradan götürməlidirlər. Atmosfer yağıntılarının və soyuducu qurğulardan buraxılan suların axıb getməsi üçün səkilər boyunca daşdan hörülmüş üstüaçıq novların çəkilməsi təklif edilirdi. Axıntı novlarının təmiri və nasazlığının aradan qaldırılması zavod sahiblərinə və icarədarlara həvalə edilirdi. Çox maraqlıdır ki, zavodlardan hər hansı tullantıların dənizə yönəldilməsi qadağan edilir və onları məhv edilmək üçün şəhər idarəsinin göstərdiyi yerə axıtmaq tövsiyə olunurdu. Təbiidir ki, bu tələblərə heç bir zavod sahibi tərəfindən əməl edilmirdi. Elə həmin qərarla küçə xətti boyunca zavodu fonarla işıqlandırmaq təlimatı verilirdi, bu fonarlar bir-birindən azı 42 metr məsafədə qoyulmalı idi. Küçəni və səkini hətta müvəqqəti olsa belə sərbəst hərəkətə əngəl törədən əşyalarla və s. tutmaq qadağan edilirdi.

Zavod sahibləri heç bir qayda və ya qərarla yerli-dibli hesablaşmır və Qara şəhər ərazisini sənaye və məişət tullantıları ilə zibilləməkdə və doldurmaqda davam edirdilər. İş burasında idi ki, zavodlar istismar edilərkən böyük miqdarda işlənmiş suları zavod ərazisindən xüsusi borularla dənizə axıtmaq tələb olunurdu. Bir çox zavod sahibləri bunu etmədiklərindən, Qara şəhər ərazisində çoxlu sayda bataqlıq əmələ gəlmişdi, bu səbəbdən şəhərin bu rayonuna xalq arasında "böyük bataqlıqlar ölkəsi" adı verilmişdi. Təkcə 1902-ci ildə Qara şəhər fəhlələrinin çoxsaylı şikayətlərindən sonra şəhər idarəsi onlardan birini - xəstəxana ilə üzbəüz olan və havanı zəhərləyən bataqlığı torpaqla doldurmağa başlamışdı.

"Kaspi" qəzetinin müxbiri 1902-ci ildə yazırdı: "Qaraşəhərlilər maraqlanır-

lar, şəhər bu ilk bataqlığın doldurulması ilə kifayətlənəcək, yoxsa "ölkənin" dərinliklərinə doğru irəliləməkdə davam edəcək?" Belə bir fikir söylənirdi ki, məkanın havasının sağlamlaşdırılması üçün bataqlıqların doldurulmasına çəkilən məsrəflərin bir hissəsini zavod sahiblərinin boynuna qoymaq gərəkdir, çünki Qara şəhərin bataqlıqları onların təqsiri üzündən əmələ gəlmişdir.

Aydındır ki, XIX əsrin sonlarına doğru 67 neft emalı və 38 çuqun və misəritmə zavodunun yerləşdiyi mürəkkəb təsərrüfatlı bu sənaye rayonundakı durum yaşayış üçün əlverişsiz şəkil almışdı.

İri sənayenin bir yerə cəmləşdirilməsi buna rəvac verdi ki, Bakı XIX-XX əsrlərin qovşağında, V.İ.Leninin obrazlı ifadəsi ilə desək, "balaca bir şəhərdən Rusiyanın birinci dərəcəli sənaye mərkəzinə çevrildi..." [2, s.491]. 1914-cü ilə doğru Bakı rayonunun sənayesi əvvəlki zaman ilə müqayisədə daha da genişləndi, əhalisi isə ikiqat artdı. Burada təkcə neft profilli zavodlar deyil, həm də yüngül, yeyinti, tikinti və sənayenin digər sahələrinin fabrik-zavod müəssisələri təmsil olunurdu.

Spesifik texnoloji özəlliklərə malik olan fotogen zavodlar sənaye tikintisinin xarakterini də müəyyən edirdi. Geniş sahələr başlıca olaraq zavod korpuslarının perimetri boyunca tikililərlə örtülür və ya xam neft anbarları, çəllək emalatxanaları, təmizləyici bölmələr və yaşayış binaları üçün ayrılırdı. Zavod ərazisində həyətin ortasında çox vaxt neft qalıqları üçün rezervuar olurdu. Zavod sahəsini təşkil edən binaların bütöv bir kompleksinin tutduğu ərazi ümumi planda özünü funksional baxımdan doğruldan aydın planlaşdırma sxemi ilə fərqlənirdi.

Bakının yaşayış məhəllələrinin tikilişində sahələrin daxili planlaşdırma sistemsizliyi və xaotiklik müşahidə olunurdu, zavod ərazisində isə texnoloji proses sahənin rasional şəkildə mənimsənilməsini şərtləndirirdi.

Başlanğıcda zavod ərazisinin planlaşdırmasının ümumi sxemində zavodun özü kiçik bir ərazini tuturdu, çünki neft məhsullarının hasiledilmə texnologiyası 1870-ci illərdə nisbətən məhdud və sadə idi.

Şamaxı sakini Abbas Tağıyevə məxsus olan və şəhər torpağında yerləşən fotogen zavodun ən erkən planlarından biri arxivdə tərəfimizdən aşkarlanmışdır. Bu plan 1874-cü ilə aiddir. Bu zavod 1872-1873-cü illərdə yanmışdır. Onun bərpa layihəsi kiçik əlavələrlə işlənib və 1874-cü il sentyabrın 30-da Bakı qubernatoru tərəfindən təsdiqlənmişdir. Maraqlıdır ki, brandmauer divarla əhatəyə alınmış zavod ərazisinin üz tərəfi ilə bütün eni boyunca ticarət dükanları yerləşmişdir. Bir sahədə zavodun dükanlarla uzlaşdırılması şəhərdə yalnız Bakının yaşayış məhəllələrindən aralıda Qara şəhər rayonu meydana gələnə qədər müşahidə olunurdu. Sahənin tikilişində həcmlərin memarlıq baxımından üzə çıxarıldığı müşahidə olunmur. İşin utilitar tərəfi üstün idi ki, bu da fotogen zavodun texnoloji prosesi ilə bağlı idi.

Bakıda R.E.Nobel tərəfindən 1875-ci ildə satın alınmış Ağ neft zavodu da eyni xarakterdə idi. Sonralar Nobel qardaşlarının çalışmaları ilə bu zavod çox iri və fasiləsiz işləyən neft emalı zavoduna çevrilmişdi [428].

Lakin XIX yüzilin artıq 70-ci illərinin sonlarına doğru zavod binalarının inşasında, onların həcm-fəza və memarlıq strukturunda ümumi görünüşün yaxşılaşdırılmasına yönələn dəyişiklik gözə çarpır. Bu o vaxt mümkün oldu ki, zavodların təşkili zamanı mütəxəssislərin - mühəndis-layihəçilərin və memarların təcrübəsindən istifadə edilməyə başladı və onlar kasad memarlıq vasitələri ilə sənaye binalarının





xarakterini ifadə etməyə çalışırdılar. Zavod korpuslarının həcmlərinin işlənməsinə, order memarlığı elementlərindən imtina edilməməklə, onlar tədricən müəssisənin texnoloji prosesləri ilə müəyyən edilən sənaye tikintisi prinsiplərini daxil edirdilər.

Qara şəhərdə M.Mustafayevin fotogen zavodunun 7 fevral 1878-ci ildə təsdiqlənmiş layihəsi məhz belə bir layihə idi. Fotogen zavodun və təmizləyici bölmənin həcmləri öz miqyası, əsas oxların ritmi və fasadların memarlıq baxımından işlənməsi ilə zavod ərazisində yerləşən kontorlar, yaşayış evləri kimi binalardan xeyli fərqlənirdi. Zavod və onun bölməsi memarlıq baxımından vahid orqanizm təəssüratı yaradırdı. Zavod, eləcə də digər obyektlər, simmetriyanın klassik sistemi üzrə, bu ənənə hələ güclü olan vaxtlarda tikilmişdi.

Hətta texnoloji proses elə razılaşdırılıb ki, simmetriya oxu pozulmasın, ona görə də pəncərə açırımlarının ritmi ilə yanaşı, zavod borularının da ritmi mövcuddur. Layihə müəllifi nəzərə alıb ki, sexdaxili fəzanın işıqlandırılması üçün adi pəncərə açırımları yetərsizdir. O, pəncərələrin yuxarı sırasını layihəyə daxil etmiş, bununla da divarların qapalı müstəvisini pozmuşdur.

Zavodun fasadlarının order memarlığının elementləri ilə işlənməsinə və müəyyən bir divar plastikasının qorunub saxlanmasına baxmayaraq, həcmin traktovkası hər halda, sənaye memarlığının doğulmaqda olduğunu vurğulamaqla, binanın sənaye xarakterini açıq göstərir. Lakin fasadların həllində hələ də binanın təyinatına cavab verməyən üsulların və motivlərin qorunub saxlanmasına can atmaq üstün idi. Misal üçün, 1880-ci illərin fotogen zavodlarının layihələrində binanın konstruktiv əsasını hansı bir dərəcədəsə vurğulayan təmkinli memarlıq motivləri ilə yanaşı, portal kompozisiyası kimi formalar da, lakin ümumiləşdirilmiş şəkildə daxil edilirdi.

Fotogen zavodlarla yanaşı sənaye zonasının qurmalar kompleksinə gözdən keçirilən dönəmdə Azərbaycanın sənaye memarlığını öyrənmək üçün maraq doğuran müxtəlif anbar binaları daxil edilmişdir.

Anbar sahəsi və anbar binası layihəsinin səlis və aydın işlənməsi, eləcə də onun buraya xidmət göstərən, neft məhsulları və digər materialların dəniz gəmiləri ilə daşınmasını təmin edən liman körpüsü ilə əlaqələndirilmiş olması diqqətə layiqdir. Obyektlərin özünün həcm-fəza strukturu da maraq doğurur. Ağ neft anbarının dərin kurdoner ilə həll edilmiş planlaşdırmasında binanın funksional və konstruktiv özəllikləri əksini tapmışdır. Əsas üçaşırımlı yerləşgənin və yan qanadların dayaqlarının səlis addımları fasadlarda azca irəli çıxmış kontrforsların ritmi ilə qabarıq əks olunan sərt konstruktiv sistem yaratmışdır. 1878-ci və 1882-ci illərin fotogen zavodlarında fasadlarda kürəkilərdən istifadə edilsə də, onlar konstruktiv xarakterdən daha çox, dekorativ xarakter daşıyır.

Üfqi hissələnmə və dekorativ detalları ilə order memarlığı ənənələri hətta sənaye qurmalarının layihələşdirilməsində hələ güclü və yaşarı idi. Doğrudur, bütün bunlar nə dərəcədəsə sənaye obyektinin funksional məzmunundan irəli gələn yeni vəzifələrə uyğun olaraq interpretasiya edilirdi. Bax bu səbəbdən o illər Bakısında fasadların bu sayaq işlənməsi ilə binaların inşası qanunauyğun təzahür sayıla bilər.

O vaxtlar Bakı hələ müəyyən memarlıq siması almamışdı. Orderli və ordersiz memarlıq onun sərbəst traktovkasında yerli memarlar tərəfindən şəhərin tikilməsində təzəlikcə özünə yol açırdı. Və təəccüblü deyil ki, şəhərin sənaye qurmalarının layihələşdirilməsində memarların öz gündəlik praktikasında



*Bakı. Qara şəhər. Fotogen zavodun layihəsi. Məşədi Abdulbaqi Məşədi Mustafa oğlu. 1878-ci il.*

işlətdikləri arxitekturanın imkanlarından istifadəyə can atmaq mövcud idi.

Ağ neft anbarı layihəsində həm iç fəzada, həm də bayır üzün traktovkasında tamamilə yeni cizgilər çıxış edir. Buna qədər zavod yerləşgələrinin konstruktiv bünövrəsini qurmanın funksional imkanlarını məhdudlaşdıran vahid uzununa oxla iki köndələn aşırım təşkil edirdi. O illər böyük aşırımlar atmağı hələ bacarmırdılar, bu səbəbdən texnoloji prosesləri həyata keçirmək üçün geniş fəza yaratmaq hələ mümkün deyildi.

Ortası hündür üçaşırımlı örtük sxemi işlənib hazırlandı. Arxitektur-konstruktiv sxemin bazilika tipinin, heç şübhəsiz, sıravi ikiaşırımlı tipdən böyük üstünlüyü vardı: qurğunun ümumi daxili fəzası genişlənir, əmək əməliyyatlarının daha səmərəli paylanmasına nail olunur, yuxarı yan işıqlandırmanın qurulmasına şərait yaranır, eləcə də konstruksiya yüngülləşdirilirdi.

Bakının sənaye tikintisində belə bir sxem dərhal əsas götürüldü, hakim sxemə çevrildi və geniş bir şəkildə tətbiq edilməyə başladı. Ağ neft anbarının fasad traktovkası da az maraq doğurmur. Öz ciddi xətləri, konstruktiv plastikası və arxitektur ardıcıllığı ilə anbar binasının funksional məzmununu sərgiləyir. Anbar binasının mərkəzi hissəsi Mustafayev və digərlərinin zavodlarında fasadların işlənməsini fərqləndirən izafi detallar olmadan, fasadda kontrforsların ritmi ilə ifadə edilmişdir. Baş fasadda böyük olmayan qurşaq "nef"lərdən birini tamamlayır, onun arxasındakı dərinlikdə əsas həcmdən irəli çıxan yuxarı yan işıqlandırmanın şüşələnmiş zolağı çıxarılır. Kontrforslar binanın daxili fəzasının üçhissəli bölgüsünü vurğulamaqla, yan fasada keçir.

Fasadda əsas həcmdən kurdonerin yan qanadlarına keçid son dərəcə məharətlə edilmişdir. Belə ki, aşırımların konstruktiv addımı yan qanadlar üçün də eyni olduğundan, kontrforslarla işləmə olmadan, şaquli kürəkilərin ritmi saxlanılır. Anbar binasının bu hissəsi fasadda bütöv (yəni açırımsız) divarla təqdim olunur. Kürəkilərin yerli səciyyəli oxvari tağlı müstəvi taxçalarda ifadə olunan ritmi anbar həcminin əsas hissəsi ilə vəhdətdə müəyyən bir plastika yaradır.

Anbar binasının arxitektura kompozisiyası son dərəcə effektiv bir şəkildə, aydın cizgilərlə və böyük taktla çəkilmişdir ki, bu hal o vaxtların sənaye tikintisini heç də həmişə fərqləndirmirdi. Bu kompozisiya-








*Bakı. Qara şəhər. Fotogen zavodun layihəsi. Fasad. 1880-ci illər.*

da divar müstəvisinin dekorla işlənmiş olması xüsusilə diqqəti çəkir, bu motivlər orta yüzillər Azərbaycan memarlığında yetərincə geniş yayılmışdı: müstəvi taxçaların ritminə tağlar daxil edilir, bunun sayəsində məlum dərinliyə və perspektivaya nail olunurdu. Ağ neft anbarının arxitekturasında kapitalizm epoxasında layihələrin tərtibində memarların aludə olduqları "şərq üslubu" adı verilmiş saxta psevdomavritan dolğunluğuna üz tutulmadan, ilk dəfə olaraq yerli memarlıq formaları və motivlərindən istifadəyə cəhd edilmişdir. Sonralar arxitektorlar milli memarlığa üz tutarkən təkəmseyrək layihələrdə və tikintilərdə Qara şəhərdəki ağ neft zavodunun arxitekturasında əksini tapan həmin sadəliyə və ifadəliliyə nail olmuşlar.

Qara şəhərdə digər bir daş anbarı layihəsində (memar A.Koşinski, 1882-ci il) sənaye qurmasının tamamilə əks həlli təklif edilmişdir. Çox böyük anbar binası, ikimərtəbəli yaşayış evi, anbarlar və malların qəbulu üçün taxta platformalar məhəllənin planlaşdırmasına üzvi şəkildə daxil edilmişdir. Qurmalar kompleksi buraya yanaşma yollar və xüsusi liman körpüsü ilə sıx bağlıdır.

Anbar layihələşdirilərkən o vaxt üçün son dərəcə mütərəqqi sistemdən - özünəməxsus modul şəbəkədən istifadə olunmuşdu. Anbar üçün ayrılan bütün sahə uzununa və eninə əsaslı divarlar oxu ilə doqquz kvadrat bölməyə ayrılmışdı. Bütün bölmələr, öz növbəsində, içəridə ağac materialından dayaqlarla uzununa və köndələn beş bərabər gözə bölünmüşdür. Beləliklə, anbarın bütün daxili planlaşdırması vahid konstruktiv sxemə tabe edilmişdir. Bu sayaq memarlıq-planlaşdırma üsulu böyük iqtisadi effekt və tikinti meydançasında hazırlanmış "standart" elementlərin tikintidə səmərəli tətbiqinə imkan vermişdi. Sənaye tikintisində "tikintini "standartlaşdırmağı" asanlaşdıran, onu tez bir zamanda və qənaətcilliklə başa çatdırmağa rəvac verən" [268] modul şəbəkə üzrə layiləndirmə metodunun Bakı praktikasında tətbiq edilmədiyinə baxmayaraq, onun müsbət tərəfləri göz önündədir.

Anbar ərazisi istehsalat əməliyyatlarının rahatlığı üçün üç bölmənin köndələn oxu üzrə birləşdirilən, ortasından rels yolu keçən üç müstəqil şöbəyə bölünmüşdür. İkimərtəbəli anbarda bölmələr dayaqlar sayəsində beşgözlü konstruktiv sxem təşkil edirlər. Anbar nəqliyyatı üçün ayrılan orta gözün üzərində dam

*Bakı. Anbar layihəsi. Memar A.Koşinski. 1882-ci il.*

*Bakı. Qara şəhər. Ağ neft anbarı layihəsi. Fasad. Kəsim. Memar A.Koşinski. 1882-ci il.*



















yan hissələrdən yuxarıda qurulmuşdur. Bundan əvvəl təsvir edilən anbarda olduğu kimi, o, yüksəldilmiş həcm hissəsini əmələ gətirir. Pəncərələrin üfqi lenti müntəzəm işıqlandırma yaradır.

Anbar binasının sadəliyi ilə seçilən memarlıq-konstruktiv sxemi öz ifadəsini fasadın traktovkasında da tapmışdır. Anbarın uzunsov fasadı sırf utilitar xarakterinə baxmayaraq, ifadəlilikdən məhrum deyildir. Fasad müstəvisinin hüdudlarından kənara çıxan köndələn əsas divarlar onun divarlarının monotonluğunu bölür və eyni zamanda anbar yerləşgəsinin bir neçə bölmədən ibarət olan daxili fəzasının konstruktiv mahiyyətini vurğulayır. Hər bölmənin mərkəzi hissəsi fasadda tinləmələrin ritmi ilə ifadə olunmuşdur. Beləliklə, fasadda qurğunun strukturu ilə tamamilə razılaşdırılmış olan əsas və ikinci dərəcəli oxlar üzə çıxarılmışdır.





Anbar fasadının həllinin təməlinə bu qurmanın həcmində mümkün və yerində olduğu dərəcədə ordersiz memarlığın üsul və formaları qoyulmuşdur. Fasadın mərtəbələr üzrə hissələnməsi (birinci mərtəbənin hündür kürsülükdə dərin və ikinci mərtəbənin yüngülləşdirilmiş gizlə), yuxarı mərtəbədə frontonlarla başa çatdırılan oxvari tağlı tinləmələrin ritmi plastik və maraqlı bir kompozisiya yaratmışdır. Memar oxvari tağları təkcə tinləmələrin yuxarı hissəsində konstruktiv fasad elementi kimi deyil, həm də dekorativ element kimi daxil etməklə, karniz xəttini pozaraq binanın başaçatdırmasında müəyyən bir qərarsızlıq yaratmışdır. Bütün bunlar bu sayaq qurmaların müsbət keyfiyyətlərini azaltmır, üstəlik də şəhərin bir çox yaşayış evləri belə bir memarlıq həllinə malik deyildi.

Anbar binalarındakı tağ formaları yuxarıda təsvir edilən, yerli Azərbaycan

memarlığı xarakterində istifadə edilmiş tağlardan xeyli fərqlənir. Onlarda cizgilər daha sərbəst və rəvan olmaqla, ölkənin digər vilayətləri və Şərqin müsəlman ölkələrindəki bina tağlarını xatırladır. Bu kimi tağ formaları müharibədən sonrakı illərdə Sovet Azərbaycanı memarlığında geniş tətbiq edilmişdir.

Tədricən, neft sənayesi inkişaf etdikcə, zavod ərazilərinin planlaşdırılması və tikintisi də mürəkkəbləşirdi. Zavod sahiblərinin binalara XIX əsrin 70-ci və 80-ci illərinin əvvəllərinin layihələrində əksini tapan, hansı bir şəkildəsə bu və digər dərəcədə xoş görkəm verməyə çalışmaları artıq yoxa çıxır. Zavod ərazisində həcmi 800 tona çatan və daha çox olan nəhəng neft anbarı hakim mövqe tutur, daha böyük həcmdə dəmir rezervuarlar, soyuducu qurğuları ilə qazanxana, nasos qurğuları və s. bölmələr peyda olur. Şəhərin sənaye zonası XIX - XX əsrlərin qovşağında sənaye peyzajı təsiri bağışlayırdı: ağac materialından buruq vışkalarının fonunda neft kəmərləri hörümçək torunu andırırdı.

"Nobel qardaşları" şirkətinin zavodları 110 hektardan çox ərazini tuturdu. Azərbaycanın neft təsərrüfatında öz sanbalına görə Nobellər öz kapitalları və sənaye müəssisələri ilə ilk yerdə dayanırdılar. Nobellərə mənsub olan zavod ərazisi Qara şəhərin şərq hissəsində və Ağ şəhərlə sərhəddə yerləşir,

Qara şəhərin qalan hissəsinə bərabər, hətta ondan çox olan bir ərazini tuturdu. Bu qədər ərazidə öz yığcam özəyi ilə Qara və Ağ şəhərə qarşı qoyulan, Qara şəhərin əksər Bakı zavodlarının qərar tutduğu dağınıq məhəllələri olmayan, faktik olaraq müstəqil bir sənaye şəhəri yerləşmişdi.

Nobellərin on üç zavodundan altısı neft emalı kateqoriyasına mənsub idi, qalan yeddisi isə ya birincilərin istehsalı üçün zəruri olan məhsulları hasil edir, ya da neftin emalı zamanı və onun məhsulları təmizlənərkən alınan tullantıları emal edir, yaxud da istehsal alətlərini və ya nəqletmə, yerdəyişdirmə vasitələrini hazırlayır və təmir edirdilər. Bu zavodların yanında fəhlələr üçün məktəb və bina, yaşayış evləri, ağ neftin, mazutun və neftin saxlanması üçün tutumlar, soyuducu qurğular, elektrik bölməsi və Villa Petrolea yerləşmişdi [38].

Bütün bu müxtəlif xarakterli və təyinatlı çoxsaylı tikililər və qurğular 30 il ərzində tədricən, "Nobel və qardaşları" şirkəti müəssisələrinin istehsal gücü getgedə artdıqca inşa olunmuşdular. Lakin Nobellərə məxsus olan bu çox geniş ərazi Qara şəhərin dəqiq planlaşdırılmış küçələri və məhəllələri ilə bütün qərb hissəsində olduğu kimi, mütəşəkkil və səlis planlaşdırma elementinə malik deyildi.

Şirkət istehsal həcmini artırdıqca qonşu sahələri də alaraq onları öz mülklərinə birləşdirir, buralarda ehtiyac olduqca tikinti işləri aparırdı. Məhz bu ərazidə bütövlükdə mürəkkəb bir struktur peyda oldu, hərçənd zavodlar və digər qurmalar rasional şəkildə layihələşdirilmiş və müstəqil planlaşdırma qrupu təşkil edirdilər. Abşeronun özünəxas iqlim özəllikləri səbəbincə, zavodlarda neft məhsullarının əsas emal prosesi zavod kublarında, açıq havada gedirdi. Atmosfer yağıntılarının demək olar yoxluğu əvvəlcədən neft emalı zavodlarının planlaşdırma həllini də şərtləndirirdi. Açıq səma altındakı kub bölmələrinin yanında qurmalar meydana çıxır, burada işlərin aparılması üçün çoxsaylı qurğular yerləşdirilirdi.

Bakının neft emalı zavodlarının spesifik siması burdan irəli gəlirdi: kvadrat kəsitli metal kubların paralel sırası, çoxsaylı kərpic borular və görkəmsiz, biçimsiz daş tikililər...







Bakı. Qara şəhər. Estlander və Otmanın duda zavodunun layihəsi. 1888-ci il.

Əgər az gücə malik qapalı tipli zavodların bəzi layihələrində fasadlara pilyastr, zərbilər (arxivoltlar) və s. şəklində dekor elementləri vermək cəhdləri vardısa, açıq havada qurğuları olan iri zavodlarda buna yanaşma bir qədər başqa idi. Burada şaquli kərpic borular, metal kublar və qazanlar, tikililərin daş divarları və hasarlar sənaye peyzajı yaradır, qurmaların adi memarlığını sıxışdırıb aradan çıxarırdı.

Zavod rayonu 1880-ci illərdən başlayaraq neftin saxlanması üçün zavodların arasındakı sərbəst sahələrdə yerləşən dəmir rezervuarlarla dolurdu. Zavod tikililərinin yanında və ya fonunda olan bu iri silindrik formalar sənaye rayonunun simasına yeni element gətirdi və, heç şübhəsiz, Abşeronun bu zonasını canlandırırdı.

Nobellər başlanğıcda zavodların zahiri görünüşünə bir elə önəm vermir, təkcə utilitar tərəfə diqqət yetirirdilər. Zaman keçir, sənaye qurmalarına münasibət dəyişir, özünəxas həcm-fəza strukturu ilə bir neçə zavod peyda olur, onlarda həmin epoxanın sənaye memarlığının xarakterik cizgiləri özünü göstərirdi. Onlara Anhidrid zavodunu (1902-1906-cı illər), Sürtkü yağları zavodunun təmizləyici bölməsini (1884-cü il), eləcə də mexaniki emalatxanaları aid etmək olar.

Bakı-Abşeronda 1880-ci illərdə sənaye obyektlərinin tikintisində mühəndis A.V.Bari tərəfindən Peterburqda təsis edilmiş texniki kontor mühüm rol oynamışdı, ona istedadlı mühəndis V.Q.Şuxov başçılıq edirdi. Şuxovun mühəndislik fəaliyyəti faktik olaraq Qara şəhər sənaye obyektlərinin - Musa Nağıyevin, Nobelin, Lianozovun və digərlərinin zavodlarının tikintisindən başlanmışdı. Şuxov Bakıda Bari firmasının təmsilçisi olaraq öz tikinti və konstruktor ideyaları və fikirlərindən yeni prinsipial həll yollarına nail olunmasında istifadə edirdi [161, s.19].

Nobel zavodunun 1884-cü ildə yağtəmizləyici bölməsinin böyük binasının inşası Bakı zonasının sənaye tikintisində yeni mərhələ oldu. Texnoloji tsiklin rahatlığı üçün və geniş iç fəzanın daha



*Bakı. Qara şəhər. «Nobel qardaşları» şirkətinin neft emalı zavodu. 1880-ci il.*

yaxşı işqlandırılması üçün dam örtüyünün pilləvari formasından istifadə edilmişdi. Ön fasadın üfqi traktovkası və köndələn fasadın pilləvari cizgisi həll yolunun təməlində texnoloji proseslərin özəllikləri dayanan bu sənaye qurmasının ifadəli həcmini yaradırdı [428, s.119]. Belə bir üsul tikintinin memarlıq-konstruktivlik məsələsini uğurla həll etməyə imkan yaratmışdı.

Köhnə Sulfat turşusu zavodunun yanında tikilmiş yeni Anhidrid zavodu (1882-ci il) fasadda aydın şəkildə ifadə edilmiş üç bölməli bir geniş zavoddan ibarət idi. İkimərtəbəli sağ qanad (sulfat turşusu zavodu) - ciddi simmetrik, orta əsr memarlığı elementləri ilə, mərkəzdə və binanın bucaqlarında dekorativ qülləciklərlə qeyd edilmişdi. Qurğunun sol qanadı (Anhidrid zavodu) - binanın üst hissəsinin maili müstəvi sisteminin həcmli həlli sayəsində tamamilə müasir və yetərincə ifadəlidir [428, s.125]. Bu sayaq həll variantı həcmfəza özəklərin üst örtüyünün yuxarı yan işıqlandırmasından istifadəyə imkan verən konstruktiv özəllikləri ilə şərtlənmişdir. Burada sənaye tikintisində təzəlikcə görünən yeni memarlığın cizgiləri çıxış edirdi [268, c. 1, s.155].

Anhidrid zavodunun layihə müəllifi bu qurğuda yeni memarlıq-konstruktiv həll tapıntılarını əks etdirmişdir, lakin o hələ klassik ənənə və eklektikanın əsiri olaraq qalır: orta əsr səciyyəli memarlığı olan fasadın bir hissəsi daha mənalı və həcminə görə daha tektonik olan digəri ilə qarşılıqlı əlaqədən tamamilə məhrum edilmişdi.

İri mühəndis-texniki qüvvələrin mövcudluğu böyük həcmli müəssisələrin qurulması üçün zəmin yaratmış olsa da, Bakı bölgəsində yeni sənaye memarlığı Avropadakı genişlik və miqyaslılıqdan məhrum idi. Berlindəki Elektrozavod (1911-1912-ci illər, memar P.Berens) və Turbin zavodu (1909-cu il, memar P.Berens), Lüblindəki Kimya zavodu (1911-ci il, memar T.Pelçik) və s. bu kimi qurmalar Abşeronda meydana çıxmadı [268]. Memarlar yeni materiallarda və konstruksiyalarda qurmanın estetik mahiyyətini verməyə çalışsalar da, memarlığın bu vərdiş etmədikləri istiqamətində iş təcrübəsinin yoxluğu öz sözünü deyirdi.

Bakı sənaye bölgəsində müxtəlif zavod qurmaları ilə yanaşı elektrik stansiyalarının binaları görkəmli yer tuturdu. Həcm həllinin xarakterinə görə onlar öz funksional təyinatlarına cavab verir və sənaye qurmaları memarlığının ümumi sxemini inkişaf etdirirdilər. Elektrik stansiyalarının geniş iç fəzası fasadlardakı pəncərə açırımları və fonarlar vasitəsi ilə ikitərəfli işıqlandırmaya malik idilər; bu üsuldan Bakı praktikasında geniş istifadə olunurdu. Elektrik stansiyalarına az və ya çox dərəcədə ifadəli sima verməkdən ötrü pəncərə açırımlarını ciddi biçimli haşiyələrlə, aralıqları (divarın pəncərə və qapılar arasındakı hissəsini) - yastı tağlarla və s. bəzəyir, bütün bunlardan arxitektura müəyyən dərəcədə plastik şəkil alırdı. Lakin bunlar XX əsrin başlanğıcında sənaye qurmalarının memarlığına irəli sürülən tələblərə cavab vermirdi.

Bəzən elektrik stansiyası binasının stilistik qapanağı faktik olaraq klassik memarlığın bol elementlərinin və detallarının altında itib-batırdı. Bunu biz Qara şəhərdəki elektrik stansiyasının binasında görürük. Yalnız dam örtüyü üzərində ucalan hündür metal borunun qara silueti bir sənaye qurması olaraq onun təyinatından xəbər verirdi. Dekor elementinə bu sayaq yanaşmaya vaxt ötdükcə əks münasibət yaranırdı. Pəncərə və qapı açırımlarının və binanın digər hissələrinin his və tüstüdən qaralmış zərif işlənmiş profili və detalları demək olar gözdən keçirilmir və onun memarlıq obrazında iştirak etmirdilər.

Bakıda zavod qurmaları ilə yanaşı onlardan bir çoxu yaşayış məhəllələrinin əhatəsində yerləşən və bu səbəbdən şəhərin memarlıq simasında öz izlərini qoyan çoxlu sayda fabrik, dəyirman, dok inşa edilmişdi. Ağa Bala Quliyev və Skobolev qardaşlarının dəyirmanları, Balaxanskaya küçəsində Mirzəbəyov qardaşlarının tütün fabriki öz həcminə görə xüsusilə iri qurmalar idi. Skobolevlərin buxar mühərriki ilə işləyən dəyirmanının hündür beşmərtəbəli binası müvafiq dekorativ bəzəklərlə işlənmişdi. Bu binanın bucaq hissələri frontonlarla vurğulanmışdır. Hamar suvaq vurulmuş divar müstəviləri gizlərli kürəkilərlə beş mərtəbə hündürlüyündə hissələnmişdir. Karnizlərin klassik tipli profilləri böyük olmayan tağ frontonları ilə qırılır. Dəyirmanın pəncərələri haşiyələrlə çərçivəyə alınmışdır ki, bu, fasadların dağınıqlığı təəssüratı oyadır. Binanın bir hissəsinin memarlıq formalarının bu tərzdə xırdalanması ilə yanaşı, dekorun - utilitar təyinatlı qurma obrazı yaradan yastı vertikal kürəki ritmi ilə digər növü də mövcuddur.

Burada dekorativ qapanaqlardan qaçmağın və yalnız qurmanın memarlıq-konstruktiv özəlliyindən irəli gələnlərin tətbiqinin zəruriliyini diktə edən özünəxas memarlıq üsullarından istifadə edilmişdir. Bu halda eklektika qurmanın konstruktiv mahiyyətini üstələyir. Utilitar qurğu ona xas olmayan memarlıq kamilliyinə qovuşurdu.

Təəssüf ki, dəyirman həcm traktovkası ilə deyil, məhz bununla müasirlərdə xoş təəssürat oyadırdı. İndiki zamanda bu dəyirman fasadı rekonstruksiya edilmədən iri inzibati-ictimai binaya uyğunlaşdırıla bilər.



II BÖLMƏ. ŞƏHƏRLƏRİN VƏ YAŞAYIŞ YERLƏRİNİN TİKİLİŞİNDƏ ƏSAS BİNA TİPLƏRİ



*«Nobel qardaşları» şirkətinin zavodu. Neft emalı zavodunun yağtəmizləyici bölməsi. 1884-cü il. (Şəkil - Ş.S.Fətullayev).*



*«Nobel qardaşları» şirkətinin yeni Anhidrid zavodu. 1880-ci illər. (Şəkil - Ş.S.Fətullayev).*



*Bakı. Qara şəhər. Elektrik stansiyası. 1890-cı illər. (Şəkil - Ş.S.Fətullayev).*





Quliyevin buna qonşu sahədə yerləşən dəyirmanı nisbətən kiçik həcmə malikdir. Perimetri boyunca birmərtəbəli xidməti və digər yerləşgələrin tikildiyi sahənin mərkəzində ucaldılmış olan bu binanın layihəsi sırf utilitar binanın lakonik formalarında işlənmişdir. Pəncərə və giriş açırımlarının və detalların xarakteri hər halda bu binanı ətraf tikililərdən seçir və ona müəyyən bir önəm bəxş edir.

Bakının fabrik-zavod tikililərinin memarlıq həllində iki ifratçılıq üstün idi: onlardan birincisi bundan ibarət idi ki, fasadlar dekorativ elementlərlə doldurulur, bunlar qurmanın funksional özəlliklərini gizlədirdi, və ikincisi - ondan ibarət idi ki, tikilidə heç bir memarlıq dekor elementi olmurdu.

Azərbaycanın o dönəmə aid maraqlı sənaye qurmaları sırasına Tağıyevin toxuculuq fabriki də (mülki mühəndis İ.V.Qoslavski) aiddir. Bakı yaxınlığındakı Zığ kəndi səmtdə toxuculuq fabrikinin yaradılması üçün iki zəmin: ucuz yanacaq (neft), xammal (pambıq) və satış bazarı (İranda və Orta Asiyada) vardı. "Və əgər Moskvada və ya Lodzda əyirici-toxucu fabriklərin işləri yaxşı gedirdisə, eyni fabriklər bizdə daha yaxşı təmin olunmuşdur. Nefti və ya pambığı 1000 verst daşıyıb aparmaq lazım gəlmir, məhsulu geriyə - istehlak bazarına doğru həmin 1000 versti qət edərək səyahətə göndərmək də lazım gəlmir. Əgər pambıq-parça işi üçün belə bir əlverişli şərait varsa, ondan istifadə etməmək və Zaqafqaziyada ikinci Lodz yaratmamaq günah olardı" [405]. Tağıyev bu şəraitdən bacarıqla istifadə etmiş və geniş bir ərazidə (24 hektar) tikintisi 1900-cü ildə başa çatan fabrik və digər qurmaların bütöv bir kompleksini ucaltmışdı.

Məsələn, "Nobel qardaşları" şirkətinin istehsal artdıqca yaranan və genişlənən zavod qurmalarından fərqli olaraq, Toxuculuq fabriki bütün köməkçi qurmaları ilə bir bütöv kimi planlaşdırılmışdı. Fabrikin ətrafında yaxşı təşkil edilmiş, geniş küçələri və ərazinin həcm-məkan kompozisiyasının mərkəzi olan kiçik bir meydanı ilə fabrik qəsəbəsi yaranmışdı.

Tikililər fəhlə və qulluqçular üçün bir və ikimərtəbəli binalardan ibarət idi. Fabrik və qəsəbənin sərhədində iri pəncərəli və işıqlı sinif otaqları olan geniş məktəb binası yerləşdirilmişdi. Məktəb və meydan qəsəbənin ictimai mərkəzini təşkil edirdi, qəsəbənin bütün tikililəri bu səmtə istiqamətlənmişdi. Bura Abşeronda xüsusi olaraq planlaşdırılmış ilk fəhlə qəsəbəsi idi.

Abşeronda fəhlə qəsəbələrinin inşası barədə məsələ ilk dəfə Neft sənayeçilərinin 1899-cı ildə keçirilmiş XIII Qurultayında, Toxuculuq fabrikinin tikintisi ilə eyni vaxtda qaldırılmışdı. Bu məsələ xeyli kəskin bir şəkildə qarşıda dayansa da, qəsəbənin salınması hər dəfə təxirə düşürdü. Yalnız 1914-1915-ci illərdə yerölçən V.A.Bubnov tərəfindən neft-mədən fəhlələri üçün iki qəsəbənin: Keşlə və Bibi-Heybətin layihələri tərtib olunmuşdu. Lakin bu layihələr həyata keçirilmədi [62].

Tağıyevin toxuculuq fabriki Bakıdan şimal-şərqdə, Zığ kəndi səmtdə, dəniz sahilində yerləşirdi. Tikinti üçün ərazinin dürüst seçimi İran, Orta Asiya və Rusiya limanları ilə bilavasitə əlaqəni təmin edirdi.

Əsas etibarilə dəniz sahili boyunca uzanan fabrik qurmaları kompleksi əsas korpusdan, su şirinləşdiricilər binasından və 58 metrlik tüstü borusu olan elektrik stansiyasından ibarət idi.

Dəniz sahilində tikilmiş korpusda materialın ağardılması, işlənməsi və rənglənməsi üzrə əməliyyatlar aparılırdı. Fabrikin əsas korpusu və elektrik stansiyası arasında uzunluğu 320 metr, rels

yolu və neft kəməri olan ağacdan liman körpüsü qərar tuturdu.

Planda fabrikin əyirici-toxucu korpusu uzunluğu 214 metr və eni 107 metrə qədər olan, sərbəst sahəli sexlərin yerləşdiyi geniş düzbucaqlı qurmadan ibarət idi. Korpusun birmərtəbəli binası fasadlarda adi pəncərələrdən məhrumdur. Yuxarı yan işıqlandırmanın dam örtüyünün maili qurulmuş səthi vasitəsilə həyata keçirilmiş rasional həlli yetərincə işığın bərabər şəkildə düşməsinə səbəb olurdu.

Sexlərin geniş iç fəzasının böyük aşırımları metal boruların saxladığı ağac fermalarla bağlanır, bu üzdən interyer vahid sərbəst və geniş fəza kimi qavranılırdı. Sexlərin açıq konstruktiv formalı və elementli interyerlərində sənaye qurmasının Azərbaycan memarlığının həmin inkişaf mərhələsindəki funksional məzmunu əks olunmuşdur. Maşın bölməsi xüsusilə maraqlıdır, burada döşəmə ağ-qara metlax plitalarla döşənmişdi, onun fonunda müasir texniki avadanlığın metallik formaları aydın seçilirdi. Qurmanın, özəlliklə də fabrikin əsas korpusunun texniki tərəfi yüksək səviyyədə həllini tapmışdır. Əyirici bölmədə havanın yetərli dərəcədə rütubətliliyini saxlamaqdan ötrü rütubətləndirici sistem tətbiq edilmişdir. Korpusun altında yerləşdirilmiş ventil-

*Bakı. Torqovaya küç-də (indi Nizami) Skobolev qardaşları dəyirmanının ümumi mənzərəsi. 1904-cü il.*









*Bakı. Zığda H.Z.Tağıyevin Toxuculuq fabriki. Ümumi görünüş. 1900-cü il. Mülki mühəndis İ.V.Qoslavski. (Şəkil - Ş.S.Fətullayev).*

yatorlar bayırdakı havanı içəri vururdular; bununla da sexlərdə nisbi normal gigiyenik şəraitə nail olunurdu.

Qurmanın funksional və texniki tərəfi fabrikin əsas korpusunun sadə və lakonik formalarda yaradılmış fasadlarının memarlıq həllini təyin etmişdir. Sexlərin dam örtüklərinin 214 metrlik front üzrə ritmik şəkildə uzanan diş-diş forması və hündürlüyü 13 metrə yaxın və bir-birindən xeyli aralı olan, lakin əsas korpusun uzunsov həcmlərinə bitişən iki kvadratşəkilli qüllə ciddi və ifadəli memarlıq-fəza kompozisiyası yaradır. Fasadın diş-diş formalı dam örtüyü ilə cizgilənən hamar müstəvisi hündür olmayan, üstünə yanğın ehtimalına qarşı su çənləri yerləşdirilmiş qüllələrin həcmləri ilə təzad yaradırdı.

Fabrikin bütün həcmləri istehsalın funksional özəlliklərinə uyğun olaraq qurulub; onlar sənaye memarlığı həllinə örnəkdirlər. Burada hələ 1870-ci illərdə fabrik-zavod qurmalarının layihələri tərtib edilərkən tikililərə daha mötəbər görkəm verməyə çalışmaqla istifadə olunan dekorativ üsullar yoxdur. Bu onların daxili məzmununa uyğun gəlmirdi. O illərdə qurmaların funksional təyinatına cavab verən sənaye memarlığı örnəyi yaratmağı bacarmırdılar. Lakin canlı memarlığın axtarışları XIX-XX əsrlərin qovşağında eklektika və stilizatorçuluğun faktik olaraq hakim mövqe tutduğu mülki binalarda deyil, məhz bu obyektlərdə duyulurdu.

Fabrikin əsas korpusunun memarlıq həllinin xarakteri sənaye tikintisinin o illərdəki inkişaf şəraitində istehsalın strukturu ilə təyin olunur. Analoji memarlıq-konstruktiv üsul sonralar öz ifadəsini Bakının digər sənaye qurğularında, özəlliklə Nobellərin Anhidrid zavodunda (1902-1906-cı illər) həllini tapdı. Toxuculuq fabrikinin memarlığında tikintinin strukturuna əvvəlkilərdən fərqli yanaşma tələb edən, öz spesifik texnoloji prosesləri ilə sənaye qurmasının qarşısında duran vəzifələr artıq əksini tapmışdır.

Şübhəsiz, Toxuculuq fabrikinin memarlığı onun həcm-fəza həllinin obrazlı ifadəsi ilə Bakı-Abşeron bölgəsinin sənaye memarlığının inkişafında yeni mərhələ idi. Kompleksin bütün binaları yerli əhəngdaşı ilə tikilib, özü də fabrik tikililərinin, özəlliklə əsas korpusun fasadı yarımtəmiz, zədə vurulan yonma daşla ucaldılmışdır. Təkcə məsul divar qovşaqları, qüllələrin küncləri və dam örtüyünün başaçatdırma hissəsi təmiz yonulan daşla hörülmüş, bu da fabrik binalarının tektonik xarakterini vurğulamışdır.

Fabrik layihələşdirilərkən İ.V.Qoslavski "ən yaxşı elmi qüvvələri iş prosesinə və yerli şəraitin özəlliklərindən irəli gələn bütün texniki çətinliklərin aradan

qaldırılmasına cəlb etmişdi" [405]. Fabrik binasının tikintisi 1 183 000 rubla başa gəlmişdi.

Sonralar Tağıyev fabriki genişləndirmiş, lifdarama, kəmər-boyaq aparaturası bölməsi üçün bir sıra yeni binalar, hamam, fabrik dükanı, gözətçi otağı və s. tikdirmişdi. Bunların tikintisi 1909-cu ilə qədər davam etmişdi. Bu müddət ərzində fabrik tikililəri üçün ayrılan sahə demək olar ikiqat artaraq 44 hektara çatmışdı. Bu genişlikdə ərazidə magistrala çıxan münasib yanaşma yolları və daxili hərəkət yolları ilə vahid fabrik kompleksi yerləşmişdi.

Zığda Toxuculuq fabrikinin inşası Sovet hakimiyyəti illərində onun bazasında V.İ.Lenin adına çox böyük bir Kombinatın yaradılması və Abşeron yarımadasının bu barsız-bəhərsiz sahəsinin Bakının iri yaşayış rayonuna çevrilməsi üçün təməl rolunu oynadı.

Əgər Bakı sənaye bölgəsi başlıca olaraq neft profilli zavodlar və tikililərlə təmsil olunursa, Azərbaycanın qalan hissəsində yüngül, yeyinti və ipək-sarıyıcı obyektlər tikilmişdi. Azərbaycanın dağ-mədən sənayesi Gədəbəy, Qalakənd misəritmə zavodları, Daşkəsən misəritmə və kobalt zavodları ilə əlahiddə mövzudur.

Arxivlərdə qorunub saxlanmış qrafik materiallara əsasən, ipək-sarıyıcı, pambıqtəmizləyici fabriklərin, biyan kökünün emalı zavodunun, şərab zavodlarının inşasını və memarlığını təsəvvürə gətirmək olar.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda ipəkçiliyin sürətlə inkişaf etdiyinə və böyük sayda ipək-sarıyıcı fabriklərin inşa olunmasına (başlıca olaraq Şəki-Zaqatala və Qarabağ bölgəsində) baxmayaraq, tikililərin xarakteri haqqında yalnız 1890-cı illərin layihələrinə əsasən mühakimə yürütmək olur. Bu fabriklərin binaları birmərtəbəli və sadə planlıdır, çox halda onların barama açmaq üçün bir geniş və uzunsov binası və ona bitişik qazanxanası olur [262, s.386].

Mülki mühəndis N.Marçenko tərəfindən Şəki şəhəri üçün 1890-cı illərdə tərtib olunmuş bir sıra fabrik layihələri sənaye memarlığı baxımından diqqəti heç nə ilə - nə həcmi, nə də formaları ilə çəkir. Şəki üçün memar A.Vergiles tərəfindən 1891-ci ildə işlənmiş bir neçə layihə müəyyən bir maraqdan məhrum deyil: müəllif, ordersiz memarlığın hissələnməsini prinsipcə saxlamaqla, kasad vasitələrin köməyi ilə fabrik tikilisinin simasını verməyə çalışmışdır.

Şuşa şəhərində ipək-sarıyıcı zavodun (XX əsrin əvvəlləri) binası böyük pəncərə açırımları və dar aralıq yerləri (divarın qapı və pəncərələr arasındakı hissəsi) ilə fərqlənirdi; bu bina özündə sənaye memarlığının cizgilərini daşıyırdı. Şəkidə ipək-sarıyıcı fabrikə ən uğurlu misal Törə-Soltanın yerli memarlığın ən yaxşı ənənələri əsasında tikilən fabrikidir. Kasad memarlıq vasitələri ilə, yalnız bədii hörgü üsulundan istifadə edilməklə, sənaye qurğusunun ifadəli kompozisiyasına nail olunmuşdur.

Zaqafqaziya dəmiryolunun Yelizavetpol stansiyası yaxınlığında biyan kökünün emalı üçün 23 yanvar 1891-ci ildə təsdiqlənmiş layihə başqa xarakterdə idi. Zavodun tikinti dəyəri 90 000 rubl təşkil etmişdi. Zavod artıq 1891-ci ilin sonunda - 1892-ci ilin əvvəlində hazır məhsul verməyə başlamışdı [262]. Mülki mühəndis Molodtsov tərəfindən layihələşdirilmiş bina ümumi planla birləşdirilən bir ikimərtəbəli hissədən ibarət idi. Bina özünün kiçik pəncərələri olan fasadı, yastı divarları və uzun zavod borusu ilə sənaye memarlığına nəsə bir yenilik gətirmirdi.

Qeyd etmək gərəkdir ki, Azərbaycanın bu sənaye bölgəsində, Bakı bölgəsindən fərqli olaraq, layihə tərtibçiləri





ümumilikdə, yaşayış evi və ya anbar xarakterli utilitar binalarla müqayisədə qurmaların artıq tamam başqa tələblərin irəli sürüldüyü funksional məzmununu diqqətə almadan ənənəvi memarlığa əməl edirdilər.

Hacıqabul stansiyasında Pambıqtəmizləyici zavodun layihəsi (1912-ci il) başqa bir kateqoriyaya mənsub idi. Binanın həcminin işlənməsi, pəncərələrin iki mərtəbədə yerləşdirilməsi və çardaqlar onun sənaye qurması olduğunu üzə çıxarır. Binanın planı texnoloji prosesə uyğun olaraq yan tikili ilə üç bölməyə ayrılan uzun düzbucaqlı şəklindədir; onun birinci və ikinci mərtəbələrində yetərincə sayda pəncərələri vardır. Pilləkəndə dəmir-beton konstruksiyalar layihələşdirilmişdir. Qurğunun həcminə uğurla uzlaşdırılan ağac dirəkli çardağın hündür örtüyü və ikinci mərtəbənin müasir cizgili üfqi şüşələnmə lenti sənaye memarlığının müsbət misallarına aid edilməli olan həll yaratmışdır.

Azərbaycanın qərb bölgəsinin sənaye peyzajı Simens qardaşlarının Gədəbəy, Qalakənd və Daşkəsən misəritmə zavodları ilə təyin olunur. Bu zavodların yaradılması Cənubi Rusiyaya xarici kapitalın, mühəndislərin və fəhlələrin böyük kütlələr halında köçürüldüyü və köçürülməkdə olduğu dönəmlə bağlıdır [2, s.488]. Prussiya təbəəsi Valter Simens 1864-cü ilin mayında çar xəzinəsindən Gədəbəydə zavod inşa etməkdən ötrü əkinçilik üçün 55 hektar yararlı və 18 hektar yararsız torpaq əldə etmişdi.

Yerli iş adamları tərəfindən 1855-ci ildə yaradılmış kiçik bir zavodun yerində Simens qardaşları Gədəbəydə o vaxt üçün rekord bir müddətdə iri misəritmə zavodu inşa etdilər. Onun tikintisinə 1 874 393 rubl vəsait sərf etmişdilər.

Simenslərin işində belə bir operativlik sənaye baxımdan az mənimsənilmiş



*Bakı. Vorontsov küç-də (Əzizbəyov) Terentyevin Spirt zavodunun binası. Fraqment. Mühəndis İ.A.fon der Nonne. 1890-cı il. (Şəkil - Ş.S.Fətullayev).*

ərazini "qamarlamaq" istəyindən irəli gəlmişdi. V.İ.Lenin bu barədə yazmış və qeyd etmişdi ki, "son zamanlar xarici kapitalistlər öz kapitallarını həvəslə Rusiyaya köçürür,

Rusiyada öz fabrik və zavodlarının bölmələrini yaradır və yeni müəssisələr üçün şirkətlər təsis edirlər. Hökumət kapitala heç bir yerdə olmayan dərəcədə bu qədər rəğbətlə və yaltaqlıqla yanaşdığından, onlar hərisliklə gənc ölkənin üstünə cumurlar, fəhlələr isə Qərbdəki ilə müqayisədə az mütəşəkkil və müqavimətə az qabildirlər, fəhlələrin yaşayış səviyyəsi və bu səbəbdən əmək haqqı xeyli aşağıdır, odur ki, xarici kapitalistlər çox böyük, öz



*Nuxa. Z.Qafar oğlunun Baramaaçan fabrikinin layihəsi. Mülki mühəndis N.Y.Marçenko. 1890-cı il.*

vətənlərində eşidilməmiş və görünməmiş qazanc əldə edə bilirlər" [1, s.98].

Zavod ağac kömürü ilə işləyirdi, onu Şamxor-çayın hər iki sahili boyu uzanan meşə massivlərindən alırdı. Simenslər bu məqsədlə 1866-cı ildən 1883-cü ilə qədər ümumilikdə 21 800 hektar meşə sahəsi əldə etmişdilər. Meşələrin qırılması bu bölgənin təbii sərvətlərinə böyük ziyan vurmuşdu. Yalnız 1883-cü ildə Zaqafqaziya Dəmir Yollarının Bakı sahəsinin işə salınmasından sonra meşələrin vəhşicəsinə qırılması dayanmışdı, belə ki, Gədəbəy və Qalakənd zavodları Bakıdan neft yanacağı almağa başlamışdılar.

Zavod məhsullarının daşınıb aparılması üçün Gədəbəy və Qalakənd zavodları səmtdə 1884-cü ilin yanvarında Azərbaycanda ilk dəfə olaraq dar raylı dəmiryol çəkilmiş, bu yol zavodları öz arasında və mədənlərlə birləşdirmişdi. Gədəbəy zavodunun memarlıq planlaşdırma həlli haqqında məkanın ümumi görünüşünün bir neçə fotoşəklindən (1905-ci il) başqa əldə müəyyən məlumat yoxdur. Onlara əsasən müəyyən etmək olur ki, vertikal boruları olan zavod qurmaları Abşeron sənaye qovşağının qurmalarına xas memarlıq layihələrində





işləndiyi kimi deyil, utilitar xarakterli tikililərdən ibarət imiş. Zavod qurmalarının qənşərində yaşayış və digər tikililərin yerləşdiyi qeyd edilir.

Sənaye və məskun ərazilərin sərhədində alman mülki memarlığının neoqotik üslubunda həllini tapan inzibati təyinatlı bina yerləşir. Ümumilikdə zavod rayonunun məskun hissəsinin simasında alman memarlığının ruhu onun üçün xarakterik olan kirəmitli hündür dam örtükləri, ağac detalları ilə aşkar hiss olunur, çünki zavodun mühəndis-texniki personalı əsasən almanlardan ibarət idi, onlar binaları layihələşdirərkən öz uzaq vətənlərinin memarlığını əsas götürürdülər.

Gədəbəy bölgəsində texniki baxımdan yaxşı təchiz edilmiş və planlaşdırma baxımından yaxşı işlənmiş çoxlu şərab zavodları tikilmişdi. Gəncə yaxınlığındakı Yelenendorf və Annenfelddə məskunlaşmış alman kolonistləri buna rəvac vermişdilər. Onlar öz ölkələrində evtikmə işinin memarlıq-tikinti ənənələrini buraya köçürmüşdülər.

Zaqafqaziya dəmiryol xəttinin açılması, sonralar onun Rusiyanın daxili vilayətləri ilə bağlanması iqtisadiyyat, sənaye, ticarət və s. sahələrdə böyük rol oynadı [24]. Zaqafqaziyada ilk dəmiryol Potidən Tiflisədək çəkilmiş, bütün xətlə birbaşa hərəkət 1872-ci ildə açılmışdı. Lakin Azərbaycan üçün bu epoxa Zaqafqaziya Dəmir Yollarının Bakı sahəsinin Tiflisdən Bakıyadək açılması, Xəzər və Qara dəniz sahillərinin birləşdirilməsi (1883-cü il) ilə başlanmışdı. Dəmiryol xəttinin Azərbaycanın zəngin vilayətlərindən çəkilib aparılması bitişik yaşayış yerlərinin ümumi iqtisadi səviyyəsini artırdı, onları Ümumrusiya bazarına bağladı.

O vaxtdan Bakı nefti sərbəst şəkildə Zaqafqaziyanın şəhər və kəndlərinə daşınır, dəmiryol xətti boyunca və ya cazibə zonasında yerləşən sənaye obyektlərini xammalla təmin edirdi.

Dəmiryolun Bakı sahəsi çox tez bir zamanda zavod yollarının dalan xətləri ilə şaxələnməyə və müəssisələrin fasiləsiz işini təmin etməyə başladı. Eyni zamanda dəmiryol vağzalları, depolar, su qüllələri, stansiyaların yanında bu sayaq

*Nuxa. Abramovun buxarla işləyən İpəksarıyıcı fabrikinin layihəsi. Memar A.Q.Vergiles. 1891-ci il.*



tikililər kompleksi kimi spesifik xarakterli, bütün dəmiryol xətti boyunca bərabər şəkildə kiçik hissələrlə yerləşdirilmiş bütöv bir silsilə qurmaların həyata vəsiqə almasını doğurdu. Bu kompleksdə əsas yer, şübhəsiz, vağzal binasına və vağzalyanı meydana məxsusdur, bura şəhər haqda ilk təəssürat yaradan məkan, onun bir növ vizit vərəqi idi [309, s.250].

Avropada ilk vağzalların tikintisi (1804-cü il) şəhər ərazisinin sərbəst sahələrində, ətraf tikililərin sıxışdırmadığı yerlərdə gerçəkləşdirilirdi. Şəhərlər böyüdükcə və genişləndikcə vağzal binaları onların stansiya xidmətləri ilə birlikdə şəhər məhəllələrinin sıx tikililərinin arasında qalmış oldu. Çoxsaylı stansiya qurğuları, rels yolları, parovozların tüstüsü iri şəhərlərin mərkəzində təbii mühitin xeyli dəyişməsinə gətirib çıxardı.

*Nuxa. Məbud Hacı Əbdürrəhim oğlunun İpək-sarıyıcı zavodunun layihəsi. 1908-ci il.*




Qərbi Avropa və Rusiyanın dəmiryol vağzalları XIX əsrin ikinci yarısından etibarən dəmiryol vağzallarının memarlığında, özəlliklə onun interyerində artıq müəyyən bir istiqaməti meydana gətirmişdi [309].

Vağzalların başlıca fərqləndirici özəlliyi - debarkaderlərin iri aşırımlı tağlı örtməsi idi (Lyüis Kyubittin layihəsi əsasında tikilmiş Kinqs-Kross vağzalı, 1852-ci il, Londonda N.U.Barlou tərəfindən 1808-ci ildə tikilmiş Sent-Pankras, Peterburqda Moskva vağzalı, memar K.A.Ton, 1850-ci illər).

Tədricən, vağzal binası planının ümumi sxemi mürəkkəbləşdikcə və sərnişin axınları artdıqca, geniş vestibüllər, paylayıcı zallar (konkorslar) peyda olur, vağzalların həcm-fəza həllinə güclü təsir göstərirdi. Zaqafqaziya Dəmir Yollarının vağzalları, özəlliklə Azərbaycan ərazisindəki vağzallar yerli şəraitə uyğun olaraq başqa miqyasa, başqa ölçülərə malik idi, kiçik şəhərlərin və stansiyaların sərnişinlərinə xidmət göstərirdilər. Dəmiryolun Bakı sahəsində yolların və stansiya binalarının yerləşmə layihələri 1881-ci ildə Peterburqda tərtib olunmuşdu. Bakı, Yelizavetpol və Hacıqabul kimi ən mühüm stansiyalar üçün vağzal binaları və vağzalyanı meydanların onların fərdi xarakterini müəyyən edən müstəqil layihələri işlənmişdi.

Kiçik aralıq stansiyalarda vağzal binaları və vağzalyanı meydanlar eynitipli layihələr əsasında tikilməli idi. Bakı sahəsi stansiyalarının xarakterik özəlliyi vağzalların memarlığının vahid şərq üslubu idi, onlar dəmiryolun bütün xətti boyunca yerləşir və bir növ Bakı sahəsi istiqamətinə ümumi motiv verirdi. Bütün dəmiryol xətti boyunca vağzal bina-







*Nuxa. Törə Soltanın İpək-sarıyıcı zavodunun binası. 1890-cı illər.*

*Gəncə. Biyan kökü emalı zavodunun layihəsi. Mülki mühəndis Q.V.Molodtsov. 1891-ci il.*








larının memarlığında belə bir vəhdəti, heç şübhəsiz, Tiflisdən Bakıya qədər 545 kilometrlik panoramın özünəxas simasını sərgiləyən müsbət təzahür saymaq gərəkdir.

Qurmalarda eklektika və stilizatorçuluğun konstruktiv həqiqət üzərində hakim olduğu bir dönəmdə, onların strukturunun əksər vağzalların daxili məzmununu dürüst əks etdirməsinin tələb olunduğuna baxmayaraq, əksər vağzal binaları arxitekturanın yanlış aspektində həllini tapmışdı: dəmir karkas qapanaq tağbəndlərin üz suvağının altında gizlədilirdi və s.

Zaqafqaziya Dəmir Yolları Bakı sahəsinin vağzal binalarının qəbul edilmiş memarlıq-konstruktiv sxemininin təməlinə yerli tikinti materiallarına, tikinti işlərinin icrasının daha qənaətcil və daha rasional üsullarına istinad edən regional daş memarlığının prinsipləri daxil edilmişdi. Təsadüfi deyil ki, onlarda tağbənd örtüyün baha metal konstruksiyalar tələb edən böyük aşırımları yox idi. Lakin bu qurmaların simasında dəmiryol nəqliyyatı sərnişinlərinə xidmət göstərən binanın daxili məzmununa cavab verən rasional memarlıq həlli yoxdur. Onlar daha çox Şərqin müsəlman ölkələrinin saray qurmaları ilə tutuşdurula bilərdi [514]. Lakin o dönəm vağzallarının memarlıq-planlaşdırma həlli obrazlı "vağzal" memarlığı ifadəsinə uzun illər xeyli dərəcədə təsirini göstərdi.

Stilizatorçuluğa baxmayaraq, gözdən keçirilən epoxada dəmiryolun Bakı sahəsi vağzal binalarının simasında buna qədər Azərbaycan memarlığına bəlli olmayan müəyyən bir memarlıq obrazı yaradılır. Etiraf etmək gərəkdir ki, Bakı, Gəncə, Hacıqabul, Naxçıvan, Culfa, Xaçmaz, Dərbənd vağzalları nümunəvi binalar, bəziləri isə onların tikilib abad edilməsi ilə aparıcı binalar idi. Bakı, Gəncə, Hacıqabulda vağzal binalarının tikintisinin getdiyi zamanlarda onlar memarlığına və öz miqyaslarına görə ifadəli və əla işlənmiş fasadları ilə şəhər tikililərini üstələyirdilər.

Vağzalların memarlıq-planlaşdırma kompozisiyaları - ciddi bir şəkildə simmetrikdir. Vağzal binalarında klassik simmetriya ənənələri o dərəcədə güclüdür ki, digər kompozisiya üsulları diqqətə alınmırdı, baxmayaraq ki, çox vaxt tikintinin məqsədyönlülüyü üçün bina kompozisiyasının gerçəkliyə uyğun və sərbəst həlli tələb olunurdu.

Dəmiryolun Bakı sahəsinin tikintisi haqqında məsələyə 22 dekabr 1879-cu ildə icazə verilmiş, 8 may 1883-cü ildə isə yol istismara verilmişdir [24]. Dəmiryolun çəkilişi ilə paralel olaraq Tiflisdən Bakıyadək bütün yol boyunca stansiya qurmaları da layihələşdirilir və tikintisi aparılırdı. Gəncə və Hacıqabulun II klas sərnişin stansiyaları binalarının layihələri 1881-ci ildə, Bakı I klas sərnişin stansiyası binasının layihəsi isə 10 noyabr 1882-ci ildə təsdiqlənmişdi.

Gəncə və Hacıqabul üçün vağzal binalarının layihələri bir müəllif tərəfindən tərtiblənmiş, Bakı vağzalının layihəsinin işlənib hazırlanmasında isə memarlar qrupu iştirak etmişdi. Layihəçilər vağzal binasını şərq üslubunda layihələşdirmək tapşırığı almışdılar ki, bu da onların yerli koloritini müəyyən dərəcədə şərtləndirmişdi.

Gəncə üçün sərnişin vağzalı binasının planı əsasən vestibül və gözləmə zalının yerləşdiyi mərkəzi qrupdan və poçt, teleqraf, yeməkxana, bufet və sair yerlərlə yan qanadlardan ibarət idi. Binanın mərkəzindəki vestibül qrupu sərnişinlərin rahatlığı üçün tələb olunan sadəliyə və aydınlığa malik deyildi. Vestibülün qarşısında mərkəzdə bilet kassaları olan portal deyilən dar bir yerləşgə vardı, burada həmişə çoxlu sərnişin yığışardı ki, bu da onların vestibülə və ondan ötərək gözləmə zalına keçmələrini

çətinləşdirərdi. Bilet kassaları vestibüldə də yerləşmişdi: onlar perronla bilavasitə birləşdirilməmişdi, onunla əlaqə gözləmə zalı vasitəsilə həyata keçirilirdi. Sərnişinlərin aralıq vəsiləsindən perrona yer dəyişmələri böyük rahatsızlıq yaradırdı.

Lakin layihəçilərdən, özü də tikintinin bu sahəsində yetərincə təcrübəsi olmayanlardan dəmiryol nəqliyyatının bütün spesifik özəlliklərini nəzərə almağı tələb etmək olmazdı.

Vağzal binasının köndələn divarların ağırlığını daşıyan qurğu üzərində qurulan konstruktiv sxemi öz əsası etibarilə daha qənaətcildir. Vağzal binasının həcm kompozisiyası onun mənzərəli simasını müəyyən edən plan həllindən doğurdu. Mərkəzdə qübbənin mürəkkəb cizgisi ilə vestibul qrupu hakim mövqe tuturdu. Bayırdan baxanda o effektli görünürdü, lakin interyerdə hissələrə parçalanmış bu psevdomavritan qübbəsi yoxdur. Fasad kompozisiyasında effekt naminə memarlar teztez qurmanın tektonikasını pozurdular və buna görə də daxili və zahiri struktur arasında uçurum yaranırdı. Bu halda vestibül hissə pavilyon şəklində təqdim olunub, onun tənasübü ikimərtəbəli yan rizalitlərlə təmin edilmişdir. Fasadın üfqi sisteminə dekorativ qülləciklər daxil edilib, lakin binanın memarlıq kompozisiyasına onlar gözədəyər heç nə əlavə etməyiblər, təkcə öz elementlərinin narahat ritmləri ilə ümumi quruluşu pozurdular. Bütövlükdə, fasad kompozisiyasının bu mənfi nyüanslarına baxmayaraq, qübbə ilə yekunlaşan portalın dərin tağı ilə onun yüngül şərq arxitekturası vağzalyanı meydanın ümumi fonunda olduqca effektiv qavranılırdı. Perron tərəfdən vağzal binası, bütün bu kimi qurmalarda olduğu kimi, nazik metal dirəklər üzərində geniş çardağa malik idi.

Dəmiryol xətləri, sərniişnlər üçün çardaq, su qülləsi onu xatırladırdı ki, bu qurma nəqliyyat təyinatlıdır, ərəb Şərqinin tikilisi deyildir.

Plan baxımından Hacıqabul stansiyasının vağzal binasında Gəncə vağzal binası ilə müqayisədə yeni heç nə əlavə edilməyib: elə həmin plandan vestibüllə birlikdə mərkəzi qrup yerləşgələrə, tərəflər üzrə perrona çıxışa malik gözləmə zallarına hissələmə prinsipi və xidməti otaqların ikimərtəbəli qanadı yer alır. Vağzal binasının həcm kompozisiyasının memarlıq həllində ərəb Şərqinin saray qurmalarının üsulları və motivləri qəbul edilmişdir. Burada Qahirə memarlığının da, ərəb dünyasının qərb vilayətlərinin də müəllif tərəfindən uvrajlardan gələn traktovkada istifadə edilmiş elementləri vardır.

Müəllif Gəncə və Hacıqabul üçün sərnişin vağzallarını layihələşdirərkən Şərq memarlığının mahiyyətinə varmamışdır, o, kompozisiyanın formal həlli üçün, ümumi üslubi xarakteristikanı vermək üçün münasib olan formaları və motivləri əldə rəhbər tutmuşdur. Ondan bu və digər memarlıq kompozisiyası yaradılarkən üsluba analitik yanaşma da tələb olunmurdu. Hacıqabul stansiyasında vağzal binasının layihə müəllifi dəmiryol üçün qurma layihələşdirmiş olsa da, faktik olaraq mənzərəli villa kompozisiyası yaratmışdı, vağzalyanı bağın yaşıl fonunda onun ağ divarları olduqca effektli görünürdü.

Qeyd etmək gərəkdir ki, müəllif, arxitekturanın sanki formal traktovkasına baxmayaraq, hər halda müəyyən bir dərəcədə müsəlman memarlığının xarakterik ovqatını və koloritini tutmağı bacarmışdır.

Vağzal binaları demək olar müəllif layihəsinə tam uyğun şəkildə tikilmiş və o dönəmin ən yaxşı qurmalarından biri sırasına daxil olmuşdur. Təəssüf ki, onların təsiri vağzalyanı meydandan o yana yayılmamışdır, çünki Gəncədə ar-







*Gəncə. Vağzalın ümumi görünüşü. (Şəkil - Ş.S.Fətullayev).*

xitektura və tikintinin keyfiyyəti onun səviyyəsinə qədər qalxa bilməmiişdir.

Gəncə və Hacıqabul vağzallarının binaları Bakıda 1 klas sərnişin binasının layihəsi 10 noyabr 1882-ci ildə təsdiqləndiyi vaxt artıq tikilib başa çatdırılmışdı. Bakı vağzalı binasının layihəsi Zaqafqaziya Dəmir Yollarının bütün bu sayaq binalarından təkcə yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilmiş fasadların və interyerlərin memarlıq baxımından işlənməsi ilə deyil, həm də tikilinin xarakteri və miqyası ilə fərqlənirdi.

Sərnişin binası və stansiya qurğuları üçün binaları şərq yaşayış məhəllələrinin neft-mədən rayonlarına: Balaxanı, Sabunçu və sairə və Qara şəhərin cazibə zonasında olan çoxsaylı liman körpüləri ilə sahil zolağına aparan yolların kəsişməsində nəzərdə tuturdular. Deyilən sahədə bütün bu elementlərin cəmləşdirilməsi mühüm ticarət-sənaye əhəmiyyəti daşıyır, münasib relyef isə sərnişin binası və dəmiryol stansiyası tikililərinin mövqeyini müəyyən edirdi.

Gələcək vağzal binası və vağzalyanı meydanın yerində sahəsi 4 hektara yaxın özəl bağın yaşıl massivi vardı və tikinti zamanı bu massiv məhv edildi.

Vağzal binası iki səviyyədə: şəhər tərəfdən ikimərtəbəli, perrondan isə - birmərtəbəli layihələşdirilmişdi ki, bu da tikilinin həcm-fəza strukturunu müəyyən etmişdi. Planlaşdırma layihəsi klassik sxem üzrə: mərkəzi vestibül qrupu və aralıq qrup - yan vəsilələr və flankir mövqeyində rizalitlər şəklində qurulmuşdu. Birinci mərtəbədə vestibülün ətrafında: kassalar, baqaj şöbəsi, vağzalın xidməti otaqları və s. qruplaşdırılmışdı, ikinci mərtəbədə - poçt, teleqraf, gözləmə zalları və s. idi. Vağzalın bütün memarlıqplanlaşdırma kompozisiyası yüksək memarlıq çalarında, həcm modelləşdirməsinin əzəmət və təmtəraqlılığına uyğun traktovka edilmişdi.

K.B.Skureviçin 1908-ci ildə "Zodçiy" dərgisində dərc edilmiş məqaləsindən bəlli olur ki, Bakı vağzalının müəllifi - peterburqlu memar X.K.Vasilyevdir [251]. Lakin bu atribusiyanı həqiqətə uyğun saymaq olmaz, çünki tərəfimizdən SSRİ Mərkəzi Dövlət Tarix Arxivində aşkar edilən orijinal çertyojlarda layihəçinin imzası ümumiyyətlə yoxdur. İnqilabaqədərki yerli mətbuatda aşkar edilmiş, vağzal binasının təqdis edilməsi və açılması dövrünə aid məlumatlar memar Skureviçin bu məqaləsinə son dərəcə tənqidi yanaşmağa məcbur etdi, çünki onun bir çox məlumatları mətbuat xəbərləri ilə üst-üstə düşmür.

"Bakinskiye izvestiya" qəzetinin 12 yanvar 1884-cü il sayında Bakı vağzalının 10 yanvar 1884-cü ildə açıldığı xəbər verilir, burada o illərin Bakısı üçün bu nadir binanın layihələşdirilməsində və



*Yelizavetpol st-da vağzal binasının layihəsi. Fasadlar. 1881-ci il. Planlar, kəsimlər.*

tikintisində iştirak edənlər barədə təfsilatı ilə söz açılır. "Başlanğıcda mavritan üslubunda olan binanın layihəsi professor Bruni tərəfindən tərtib edilmiş və rəssam Drittenpreys tərəfindən işlənmişdi, bədii detalların işlənməsinə memar N.L.Qlebov rəhbərlik etmiş, binanın ucaldılmasını memar L.Z.Rossi icra etmişdi.

Vağzalın layihələşdirilməsi və tikintisi barədə bu kimi təfsilatlı bilgilər bizə qeyd etməyə imkan verir ki, tikinti işi - göstərilən müəlliflərin kollektiv yaradıcılıq məhsuludur, bununla belə X.K.Vasilyevin vağzalın layihəsinin yaradılmasında iştirakı istisna edilmir.

Binanın memarlıq-həcm kompozisiyası - parlaq ifadəli mərkəzi hissədən yan rizalitlərin sakit formalarınadək təzadlı təməl üzərində qurulub. Ön fasadın traktovkasında kompozisiyanın klassik üsulları hakimdir, onların sayəsində Şərq memarlığı vasitələri ilə ifadə edilən struktur öz həllini tapır.

Elementlərin və detalların ümumi stilizasiyasına baxmayaraq, Şərq motivləri və formalarından bacarıqla və sərbəst şəkildə istifadə edilmişdir.

Binanın ümumi kompozisiyasının layihədə bu qədər "şirəli" bir şəkildə mənzərəli təqdimi plastiklikdə və detallarda itkilərin hesabına bir qədər azalmışdır. Bina kompozisiyasındakı əzəmət, arxitektura kütləsinin hissələnməsi, müxtəlif nöqtələrdən effektli qavrayış Bakı vağzalına şəhər binaları arasında məsul yer tutmasını təmin etmişdir. "Bakıya hələ çatmamış şərqdə Xəzər dənizinin tünd yaşıl zolağı görünür. Sonra dağlar dənizin qarşısını kəsir və qatar Bakı yaxınlığında çox gözəl və qəşəng vağzalla bəzədilmiş hansısa bir çuxurda dayanır" [134].

Vağzalın interyeri, özəlliklə tağlı qalereyaya gedən öndəki açıq pilləkənləri ilə vestibül hissə ondan az bədii effekt vermirdi. Şərq xalçalarını xatırladan, zəngin ornamentlərlə bəzədilmiş divarlar, nisbətən təmkinli tonla həll edilmiş











*Hacıqabul st-da vağzal binasının layihəsi. Fasadlar. 1881-ci il.*

plafona keçən stalaktit qurşaqlı karnizlə başa çatırdı; müasirin rəyincə, "çox ehtişamlıdır və hətta digər yerləşgələri kölgədə qoyur".

Zərif işləməli şahanə pavilyonu ilə təmtəraqlı açıq pilləkən binanın sağ qanadında yerləşən birinci klas gözləmə zalı və padşah otaqlarına aparırdı, bu hissə yüksək keyfiyyətli bəzək və tamamlama işi, incə duyumlu proporsiyaları ilə fərqlənirdi. Müəyyən bir üsluba malik padşah otaqları, özəlliklə bir sənət əsəri olaraq işlənmiş qonaq otağı müəlliflərin böyük zövq sahibi olduqlarından söz açır. Stilizatorçuluğa baxmayaraq, müəlliflər şərq memarlığına müraciətdə məharət və bacarıq nümayiş etdirmişdilər.

Vağzalyanı meydan ekipajlar üçün yanaşma yolları və yeni salınmış yaşıllıqla tənzimlənmişdi, bu tinglər sonralar vağzal binasının görünüşünü örtən sıx kölgəli bağa çevrilmişdi.

Bu binada bir ideyaya - şərq memarlığının yayındırıcı obrazlarını qəbul etməyən müəlliflərin sərəncamında olan həmin formal yaradıcılıq imkanları ilə vahid üslub sistemində bina yaratmağa tabe etdirilmiş daxili və zahiri memarlıq traktovkasında ziddiyyət yoxdur.

Memarları bunda təqsirləndirmək mümkündürmü ki, bu qurmanı "canlı" arxitektura axtarışlarının yeni-yeni başladığı bir dönəmdə layihələşdirərkən onlar müxtəlif xarakterli və məzmunlu tarixi üslub istiqamətlərinə müraciət etmişlər? [268, c.I, s.35].

XIX əsr memarlarının keçmişin tarixi üslublarına ənənəvi müraciətləri - memarlıq sənətinin tənəzzülünün bir növ etiraf edilməsi, konstruksiyaların imkanlarından müasir tələblərə uyğun istifadəni bacarmadıqları və epoxanın texniki nailiyyətlərinə münasibətdə konservativlikləri idi. Bütün bunlar o zamanın əksər memarlarının yaradıcılığında əks olunurdu.

Bax buna görə təəccüblü deyildir ki, uzaq Peterburqda Azərbaycan üçün texniki və tikinti imkanlarını və yerli şəraiti









*Bakı st-da vağzal binasının layihəsi. Fasad. 1882-ci il. 1-ci mərtəbənin planı.*



*Bakı. Dəmiryol vağzalının ümumi görünüşü. (Şəkil - Ş.S.Fətullayev).*



*Naxçıvan st-da vağzal binası. Şəhər tərəfdən fasad. 1900-cü il.*

nəzərə almadan belə bir planda layihələr işlənirdi.

XX əsrin başlanğıcında Zaqafqaziya dəmiryol vağzallarının memarlıq-planlaşdırma strukturunda bir elə dəyişiklik gözə çarpmır. Planın elə həmin klassik simmetriyası, əsas zalları yerləşdirmə prinsipi və onların ümumi kompozisiyada yerləri saxlanırdı. Fasadların memarlığına modern üslubun yeni motivləri nüfuz edir, lakin onlar qurmaların daxili mahiyyətinə toxunmurlar. Faktik olaraq binaların həllində yalnız zahiri qapanaq dəyişir, bu da dekorativ planda baş verir, həcm-fəza kompozisiyası isə klassik sxemin başlıca cizgilərini qoruyub saxlayırdı. Modern üslub burada bu üslub istiqamətinin bir qayda olaraq bağlandığı həmin atektonik formaları almırdı. Order memarlığının sakit formaları modernist elementlərlə pozulmurdu. Sonuncular daha çox vağzal binalarının təməlində klassikanın proporsional hissələmə prinsipinin dayandığı ümumi kompozisiyasında itib-batırdılar.

Buna misallara Culfa, Naxçıvan və s. stansiyaların sərnişin binalarının layihələri aiddir.

Azərbaycanda dəmiryol çəkilişi (nəqliyyat qurğularının digər növləri ilə yanaşı) müasir körpüsalma işinin inkişafına rəvac verdi. Metal konstruksiyalı bir-, iki- və çoxaşırımlı, eləcə də tağlı daş körpülər salınırdı. Aşırımın uzunluğundan və aralıq dayaqların sayından asılı olaraq körpünün konsturksiyası da, onun konturları da dəyişirdi. Körpü layihələri işlənib hazırlanarkən cəsarətli mühəndis qərarları yox idi, onlar nə bədii özəllikləri, nə obrazlı ifadənin estetik im-

*Naxçıvan st-da vağzal binası. Ümumi görünüş.*









*Dəmiryol vağzalının binası. Portal.*



Tiflis. Kurqulu-çay və Kürək-çay üzərində körpülərin layihəsi. Fasad, plan, kəsim. Layihəni poruçik A.Q.Çarnetski işləyib. 1842-ci il.

kanları ilə seçilirdi. Dəmiryol körpüləri ilə yanaşı xeyli yolötürücü və şəhərdaxili körpülər, eləcə də dağ çayları üstündə, məsələn, İlisu kəndində Kürmük-çay üzərindəki körpü kimi ağacdan kiçik körpülər də inşa olunmuşdu.

XIX əsrin ilk yarısında bir çox körpülərin tikintisi bir sıra maraqlı layihələr işləyib hazırlamış mühəndis A.Çarnetskinin adı ilə bağlıdır. Bu layihələr yerli ustalar tərəfindən həyata keçirilmişdi. Gəncə şəhərində Gəncə-çay üzərində 1843-cü ildə inşa olunmuş üç daş dayaq üzərində dayanmış dördaşırımlı ağac körpünün layihəsi də bunlara aiddir. Ağac konstruksiyalarla birlikdə dayaqların konturları şəhərin strukturuna aktiv element kimi daxil olan ifadəli kompozisiya təəssüratı oyadırdı. Azərbaycanlı ustalar Zaqafqaziyanın digər şəhərlərində, özəlliklə Tiflisdə də körpülərin inşasında iştirak etmişdilər. Məsələn, məşhur usta Məmməd Pirməmməd oğlu Tiflisdə 1843-cü ildə Kür çayı üzərində Metex körpüsünün tikintisində bilavasitə iştirak etmişdi. Quba şəhərində Qudyal-çay üzərində (mülki mühəndis A.Şuşerov, 1895-1897-ci illər) və Bakı yaxınlığında Sumqayıt-çay (prof. İ.Pravdzik, 1900-cü illər) üzərindəki körpülər maraqlı misallardır. Qudyal-çay üzərindəki körpü - çoxaşırımlıdır (14 aşırım), uzunluğu 275 metr və eni 8 metrə yaxındır, olduqca ifadəli və monumental kompozisiyaya malikdir. O, bişmiş kərpicdən iri formalı tağları ilə Qudyal-çayın mənzərəli sahillərinə yaraşıq verir. Bu sayaq miqyasda və memarlıq kompozisiyasında körpü gözdən keçirilən epoxada Azərbaycanda yeganədir. Onun tikintisində xalq memarlarının çoxillik təcrübəsi və məharətindən istifadə olunmuşdu. Şübhəsiz, Qudyal-çay üzərindəki körpünün layihə müəllifi məşhur çoxaşırımlı Gəncə və Xudafərin körpüləri ilə tanış idi, sonuncuların təsiri Qubadakı bu monumental körpünün bütün simasında özünü hiss etdirir.

XX əsrin başlanğıcında Azərbaycanda ən müxtəlif, kiçik, lakin özünə görə maraqlı dəmir-beton körpülər layihələşdirilir və inşa edilirdi. Arpa-çay üzərində yol körpüsü layihəsi buna misal ola bilər. Üçaşırımlı körpünün ümumi uzunluğu 35 metr təşkil edir. Aralıq dayaqlar, üst örtüyün kərənləri, köndələn bağlar bütövlükdə bədii dəyərdən məhrum olmayan zərif konstruktiv sxem təşkil edirdi.

* * *







Gəncə (Yelizavetpol) şəhərində Gəncə-çay üzərində körpü layihəsi. Layihəni poruçik A.Q.Çarnetski işləyib. 1843-cü il.



Quba. Qudyal-çay üzərində körpü. Fraqment. Mülki mühəndis A.M.Şuşerov. 1893-1895-ci illər.





*Sumqayıt çayı üzərində daş körpü layihəsi. 1900-cü illərin çertyoju. Mülki mühəndis B.K.Pravdzik.*

Yerli xammal bazasında inkişaf edən Azərbaycan sənayesi özünəxas sənaye memarlığının yaranmasına rəvac vermişdir. Neft emalı, nefttəmizləyici və bu sahə ilə bağlı digər zavodlar, mis, kobalt, biyan kökü, pambıqtəmizləyici, tütün, ipək-sarıyıcı fabriklər və istehsalın digər yerli növləri qurmaların xarakterində və tipində öz izlərini qoymuşlar. Bu qurmalar kapitalist epoxasının sosial-iqtisadi tələbatı ilə bağlı olaraq yaranırdı.

Kapitalizm epoxasında Azərbaycanda mülki memarlığa xeyli təsir göstərmiş mütərəqqi konstruksiyalar və memarlıq üsulları ilə sənaye qurmaları yaranır və formalaşırdı. Sənaye qurmalarının neft istehsalı profili ilə sıx bağlı olan tipləri Abşeronun təbii şəraiti üzündən spesifik sima kəsb etmiş və Azərbaycanın müasir memarlığının inkişafına yeni istiqamət vermişdir.



# III BÖLMƏ

## XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN ŞƏHƏR MEMARLIĞININ BƏDİİ İSTİQAMƏTLƏRİ

# I FƏSİL.

# MİLLİ-ROMANTİK İSTİQAMƏT

XVIII əsrdə ölkənin parçalanmış vəziyyətdə olması, feodal ara müharibələri, ticarətin zəifləməsi tikinti və memarlığın inkişafına imkan vermirdi. Keçmişlə bilavasitə əlaqələr müəyyən dərəcədə itirilmişdi, XVI-XVII əsr abidələrində möhtəşəmliklə təmsil olunan memarlıq-inşaat ənənələri zəifləmişdi. "Hətta ustaların yaxın keçmişin ənənələrindən istifadə edərək adi və memarlıq nöqteyi-nəzərindən məqbul sayılan qurmalar yaratdıqları hallarda, onların naturada icrası inşaat sənətinin zəiflədiyini göstərir " [241, s.11].

Xırda xanlıqlar böyük iqtisadi imkanlara malik deyildi; xanlar bütün vəsaitləri öz paytaxtlarının, şəhər-qalaların möhkəmləndirilməsinə və öz iqamətgahları olan saraylarının tikintisinə xərcləyirdilər. Bu həm Quzey, həm də Güney Azərbaycana aiddir. [77, s.169].

Ayin və mülki qurmaların tikintisinə hökumətdən və ayrı-ayrı şəxslərdən böyük sifarişlər ala bilməyən memarlar və xalq sənətkarları, əsasən sıravi evtikmə tikililəri və kiçik miqyaslı xatirə qurmaları ilə kifayətlənməyə məcbur idilər.

Bu qurmalar nə memarlıq, nə də konstruktiv həll örnəkləri oldular. Buna baxmayaraq, yerli memarlıq ənənələri öz həyat qüvvəsini qoruyub saxlamışdı, onlar keçmişin sənətini indiki zamanla bağalyır və gələcək inkişafa körpü salırdı.

Azərbaycan Rusiyaya birləşdirildikdən sonra onun memarlığının inkişafı üçün son dərəcə mürəkkəb bir vəziyyət yarandı. Rus-İran (1826-1828) və Rus-Türk (1828-1829) müharibələri və ölkənin var-yoxdan çıxması ilə bağlı Zaqafqaziyadakı sosial-iqtisadi mühit inşaat sənətinin yüksəlişinə rəvac vermirdi. Çar üsul-idarəsinin bərqərar olması ilə eyni vaxtda şəhərlərə yavaş-yavaş, lakin planlı bir şəkildə Avropa memarlığı nüfuz edir.

XVIII əsrin böhranından hələ özünə gəlməyən Azərbaycan memarlığı ona yad olan memarlıq-planlaşdırma üsulları ilə qarşılaşır. Yeni Avropa memarlığını qavramağa hələ hazır olmayan yerli memarlıq, təbii ki, öz inkişafı üçün o qədər də əlverişli olmayan mühitə düşmüşdü. Belə bir şəraitdə onu növbəti böhran gözləyirdi, çünki şəhərlərin tikilişi tədricən əsas etibarilə hərbi mühəndislərin - XIX əsrin birinci yarısının aparıcı layihəçilərinin əlinə keçir. Onlar isə mülki memarlıqda kifayət qədər mahir deyildilər.

Öz dərin kökləri ilə uzaq keçmişlərə gedən xalq memarlığının gücü məhz bu vaxtlarda üzə çıxır. Memarlar bu yeni şəraitdə yerli olanı, bənzərsiz olanı, hətta geriləmə dönəmində öz fərdi memarlıq-bədii keyfiyyətlərindən məhrum olduqlarına baxmayaraq, itirməməyə çalışırdılar. Prof. Y.S. Yaralovun belə bir fikri ilə razılaşmamaq mümkün deyildir ki, "hər hansı, həm kənd, həm şəhər memarlığı xəlqi ola bilər, və onun obyektiv dəyər göstəricisi və xəlqiliyinin tərifi o olmalıdır ki, o, xəlqi xarakterin tipik cizgilərini nə dərəcədə düzgün əks etdirir, nə dərəcədə yaşarıdır və onun formaları xalq üçün nə dərəcədə asan anlaşılandır" [310, s.127].

Bu baxımdan tikintinin kütləvi növü – ev tikintisi daha səciyyəvidir. Ölkənin fərqli iqlim şəraiti olan müxtəlif bölgələrində, memarlara və xalq arasından çıxmış ustalara yaxın və tanış olan memarlıq və kompozisiya üsulları bazasında evlər tikilirdi. Bununla yanaşı binaların ümumi memarlıq həllində müəyyən rasionalizm - vəsaitə qənaət və tikinti materiallarından istifadədə tələbkar olmamaq müşahidə edilir.

Azərbaycan evlərinin memarlıq kompozisiyasının təməlində keçmişin bəlli formaları – oxvari tağ, portal, tağbəndlər, qübbə, günbəz, şəbəkə dayanır və onlardan bu və digər iqlim zonalarında həcm-fəza strukturunun işlənməsində özünəməxsus tərzdə istifadə olunur. Bu formaların bir çoxu yalnız yaşayış evlərinin deyil, ayin, məişət və memorial qurmaların inşasında da tətbiq edilirdi.

Beləliklə, XIX-XX əsrin əvvəllərində Azərbaycan memarlığı iki istiqamətdə: 1) yaşayış məntəqələrinin strukturunda tutumlu yer tutan məhəlli memarlıq; 2) XIX əsrin əvvəllərində çox zəif təmsil olunan, lakin hərbi inzibati hakimiyyətin səyi və Zaqafqaziyada işləyən rus memarlarının yaradıcılığı sayəsində getdikcə inkişaf edən Avropa memarlığı istiqamətində inkişaf edirdi.

Əvvəlcə Azərbaycan memarlığında bu iki istiqamət yanaşı inkişaf edirdi. Yerli memarlar və xalq arasından çıxmış ustalar fərdi sifarişçilərin icraçıları idilər, kompozisiya əsasında ənənəvi yerli memarlığın üslub istiqamətini müəyyən edən, onlara tanış üsul və formaların dayandığı qurmalar tikirdilər.

Əsasən bir- və ikimərtəbəli, ön tərəfdən uzunluq ölçüsü nisbətən böyük olmayan evlər milli memarlığın yerli xüsusiyyətləri, ənənələri və eləcə də tikinti materialları ilə uzlaşan üsullarını əks etdirir, həcm kütlələrinin plastik tərəfinə təsir göstərirdi. Azərbaycan memarlığının inkişafının bu çox vacib cizgisi ölkənin müxtəlif bölgələrində fərqli şəkildə üzə çıxır: "Qurmaya ətraf mühitdən götürülən materialın daxil edilməsi qurmanı üzvi baxımdan onunla bağlayır. Mahiyyət bu daxiletmənin xarakterində, kəmiyyətində və üsullarındadır" [310, s.74]. Məsələn, əhəngdaşı – Şirvan-Abşeron və Qarabağ zonalarında əsas tikinti materialıdır. Şirvan-Abşeron zonasının rahat işlənən, isti çalarlı yumşaq əhəngdaşı ustalara qurmaların memarlığına conuncuların plastik tərəfini sərgiləyən elementləri və formaları cəsarətlə tətbiq etmək imkan verir ki, bu da həm tikililərin xarakterində, həm də ümumi memarlıq kompozisiyasında əksini tapır.

Məsələn, birinci zonadan fərqli olaraq, Qarabağ zonasında, o cümlədən Şuşada, memarlıq kompozisiyasında soyuq çalarlı bərk əhəngdaşından istifadə fərqli yanaşma tələb edirdi. Kompozisiya quruluşunun qeyri-adiliyi, yığcamlıq və sadəlik, memarlıq detallarının kasadlığı və monumentallıq – şəhər memarlığının, o cümlədən evlərin xarakterik cizgisidir [273, s.116]. Lakin hər zonada və ya bölgədə yaşayış binaları fasadlarının öz tərtib üsulu vardı.

XIX əsrin birinci yarısının sonlarında Azərbaycanda, bütün Zaqafqaziyada olduğu kimi, quberniya mühəndisləri və memarları vəzifələrinin təsisi yerli mülkü tikintiyə Avropa memarlığının geniş hücumunun başlanğıcını qoydu.

Bu zamandan etibarən, XIX əsrin birinci yarısında mülki tikintidə hələ gözəçarpan rol oynayan və memarlıq ənənələrinin yayıcıları olan yerli memarlıq məktəbləri öz təsirlərini itirməyə başladılar. Onlar müəyyən dərəcədə öz yerlərini

yaradıcılığı Avropa memarlığı təməlində dayanan memarlara və mühəndislərə verməli oldular. Təəccüblü deyil ki, XIX əsrin ikinci yarısından başlayaraq, xüsusilə layihələrin müvafiq qrafik formada iki nüsxədə mütləq quberniya hakimiyyəti tikinti şöbəsinin təsdiqinə təqdim edilməsi haqda Qafqaz namestnikinin qərarından sonra vəziyyət yerli memarların və xalq arasından çıxmış ustaların ziyanına dəyişdi.

Layihələrin qrafik formada tərtibi belə bir tərzdə icra işinə hazırlığı olmayan yerli memarlar və xalq arasından çıxmış ustalar üçün mürəkkəb və böyük zəhmət tələb edən iş idi. Onlar faktik olaraq administrasiyanın iradəsi ilə böyük memarlıq "oyunundan" sıxışdırılıb çıxarılır və ikinci plana keçirlər. Yerli memarlar əsasən kiçik şəhərlərdə və kənd yerlərində işləyir və eləcə də hələlik müvafiq qrafik tərtibat tələb etməyən ayin qurmalarının tikintisi ilə məşğul olurdular.

Azərbaycan şəhərlərinin tikilişinə nüfuz edən Avropa memarlığı yerli memarları və xalq arasından çıxmış ustaları yeni forma və elementlərdən müəyyən dərəcədə faydalanmaqdan ötrü onun özəlliklərinə diqqət yetirməyə məcbur etdi. Bütün bunlar yaradıcı şəkildə qavranılır, həzm olunur və evlər və ayin qurmaları tikintisində yeni traktovka alır və yerli memarlıq təməlində inkişaf edirdi.

Bu baxımdan, onların təbii şəraitdən, ənənələrdən və tikinti materiallarından asılılıqda hasil olunan fərdi memarlıq xüsusiyyətləri ilə, Şuşa və Nuxanın evləri göstərilə bilər. Şuşa evləri fasadlarının memarlığı üçün kənarlıqsız açırımları ilə hamar divarlar, ahəngdaşı hörgüsünün müstəsna gözəlliyi xarakterikdir. Küçəyə baxan ön fasadların sərt ciddiliyi ilə yanaşı, əhalinin məişət şəraiti ilə bağlı olan həyət (əsas) fasadlarının obrazlı ifadəsində tamamilə başqa bir görünüş müşahidə olunur. Mərtəbələrin düz sıralı ağac sütunlu açıq və bağlı qalereyaları, təravətli işıq və kölgə oyunu evlərin sərt görünüşlü küçə fasadları ilə effektli təzad təşkil edir. Yaşayış binalarının memarlıq həllində bu təzad yaratma üsulu Şuşa şəhərinin memarlığında milli özünəməxsusluğun cizgilərini sərgiləyir.

Ənənələri ilə zəngin olan Nuxa şəhərində evlərin memarlığı Avropa memarlığının təsiri altında başqa bir traktovka aldı, lakin eyni zamanda kompozisiya həllinin öz fərqliliklərini də qoruyub saxlaya bildi [374, 271]. Fasadların memarlığı plastikliyi və yumşaqlığı ilə fərqlənir ki, bu da ornamental motivlər üçün element qismində, qədim abidələrə və ənənəyə hörmətdən irəli gəlməklə, kərpicdən istifadə ilə bağlıdır. Burada bina fasadlarının həllində elə bir bədii dərinliyə nail olunmasa da, yeni şəraitdə yaxın keçmişin memarlıq irsinə yeni gözlə baxmaq cəhdi müsbət nəticə vermişdir. Yeni tikiliş yalnız Nuxaya xas cizgilərə malikdir və üslubi baxımdan xalq memarlığına yaxındır. Divar materialı qismində ümumilikdə eyni materialdan - bişmiş kərpicdən istifadə ilə Nuxa memarlığı Gəncə, Quba və Lənkəran memarlığından bölgə memarlığında yerli stilistik özəllilləri daha qabarıq əks etdirməsi ilə fərqlənir.

Yerli memarlığın cizgiləri daha çox XIX əsrin ikinci yarısında Azərbaycanın müxtəlif bölgələrində memarlar və xalq arasından çıxmış ustalar tərəfindən yaradılan ayin qurmalarında üzə çıxır və ətraf tikilişlərə fəal təsir edir. Məscidlərin layihəsi işlənərkən memarlıq irsi ilə sərbəst rəftar müşahidə olunur, lakin qurmaların konstruktiv əsasını təşkil edən ənənəvi üsullar və formalar böyük gücə malikdir və memarlıq-planlaşdırma kompozisiyasına təsir göstərir. Lakin yerli memarlar keçmişə ehtiramla yanaşarkən köhnə memarlıq motivlərini heç





də təkrarlamırdılar. Yeni şəraitdə onlar memarlıqda yeni səhifələr açan yeni memarlıq kompozisiyaları yaradırlar.

Bunu özəlliklə yerli memarlığın xeyli uğurlar əldə etdiyi Qarabağ və Şəki-Zaqatala bölgələrində aydın şəkildə izləmək olar.

Qarabağda belə bir təzahür məşhur memar Kərbəlayı Səfixan Qarabağinin məhsuldar yaradıcı fəaliyyətinin nəticəsi idi. Belə ustadlar "qərarlaşmış təsəvvürləri və zamanın təqdis etdiyi ənənələri kökündən yıxıb uçururlar. Milli düşüncə tərzinin və ya xarakterin cizgilərini yalnız bu millətə xas və yaxın spesifik formalarda axtaran böyük sənət ustadları bunu daha dolğunluqla və inandırıcılıqla ifadə edirlər - onların yaradıcılığının milli özünəməxsusluğu bundan ibarətdir" [310, c.92-93].

Memar Kərbəlayı Səfixan Qarabaği Təbrizin yaxınlığında yerləşən Əhər adlı balaca şəhərdə dünyaya gəlmişdir. O, Şərq memarlığının xarakterik elementləri olan tağ, günbəz və tağbənd kimi memarlıq konstruksiyalarının qurulmasına böyük önəm verən Təbriz memarlarının yanında əla bir memarlıq-inşaat məktəbi keçmişdi [131]. Şərq memarı - ilk öncə qurmanın memarlıq kompozisiyasını əmələ gətirən elementlərlə əməliyyat aparan konstruktordur.

Ayin binaları, Şərq memarlığının oxvari tağ, günbəz və tağbənd kimi konstruktiv elementlərinin əsasında qurulur. Onlar örtmələrin konstruktiv addımını, deməli, tağbənd və qübbələrin aşırımlarını müəyyən edirlər. Bu konstruktiv elementlərin əsasında tikilən ayin qurmasının daxili fəzası saxta üsullar və formalardan xali olan əcl memarlıqdır.

Ayin binalarının həllinin bu sayaq prinsipi Kərbəlayı Səfixan Qarabağının də yaradıcılıq istiqamətini müəyyən etmişdir. XIX əsrin ikinci yarısında Qarabağ xanlığının keçmiş paytaxtı olan və hazırda intensiv tikinti işlərinin getdiyi Şuşa şəhərinə gələn memar fəal surətdə evlərin və ayin binalarının, özəlliklə sonuncunun inşasına qoşulur. Onun məhsuldar yaradıcılıq fəaliyyəti belə bir əlverişli mühitdə inkişaf etmişdi; burada o, Qarabağın görkəmli memarı kimi ta-

*Quba rayonu. Alpan kəndi. Məscid interyeri. 1808-ci il.*



nındı. Bu tanınma sonralar ona vətəndən uzaqlarda məscidlər inşa etməsinə imkan yaratdı [274, s. 136].

Qarabağinin bütün yaradıcılığı, rövnəqli gözəllik və detallarla zənginləşdirmə olmadan yerli memarlığın forma və motivlərinə əsaslanır. Kərbəlayı Səfixan tərəfindən məhdud, lakin məharətlə istifadə edilmiş memarlıq vasitələri ilə inşa edilən ayin qurmalarının demək olar



*Nuxa. Alcanbayovların evinin fraqmenti. 1896-cı il.*





hamısının həcm kütlələrinin həllində memarlıq kompozisiyalarının vahid prinsipial sxemi vardır. Bu vasitələr memarın əlində məscidlərin ciddi və ifadəli kompozisiyalarını əmələ gətirən materiala çevrilir.

Məscid binasının ön fasadının mərkəzini, bir qayda olaraq, cinahdan keşikçiləri xatırladan iki minarə ilə qorunan portal kompozisiyası və ya portik-eyvan tutur. Qurmanın əsas həcminin oxvari formalı dərin portalla hissələnməsinin sakit üfüqiliyi məscidin memarlıq kompozisiyasına böyük fəallıq elementləri gətirən minarələrin düz qamətli dinamikası ilə pozulur. Adətən portallar ön fasadın ümumi divar kütləsindən ayrılmır, profillənmir. Oxvari tağ-portalın ciddi cizgi xətti asketikdir, yaxşı proporsiyalarda qurulub və fasadların hamar divarlarının fonunda onun kompozisiyadakı önəmini daha qabarıq vurğulayır.

Ayin qurmasının həcm və fəza kompozisiyası yalnız iki minarənin əlavə edilməsi ilə deyil, həm də gövdələrin ikirəngli ornamental işlənməsi ilə zənginləşdirilir. Doğrudur, bədii zənginliyə və şirələnmiş rəngli kərpic mozaikasından istifadəyə görə onlar XVI-XVII əsr abidələrindən geri qalır, lakin mütənasib proporsiyalar, opnamental motivlər və rəng tikilinin ümumi həcmi ilə, sadə və aydın hissələnmə ilə birlikdə vahid memarlıq kompozisiyası təşkil edir.

Bərdə şəhərində "İmamzadə" məqbərə-məscidi (1868) və Ağdam şəhərindəki məscid (1879), ardınca Şuşanın möhtəşəm məscidlərində (1870-1880) inkişaf etdirilən məhz belə bir memarlıq planında traktovka olunur. Memar Kərbəlayı Səfixan Şuşanın cümə məscidlərində ayin qurmalarının həcm quruluşunun ümumi istiqamətini davam etdirdi. O, ön fasadların memarlığını mürəkkəbləşdirməyə getdi. Oxvari formalı birtağlı portal kompozisiyasının yerinə Kərbəlayı Səfixan məscidin ön fasadında vəchli sütunlarda mərkəzi tağdan və yanların tabe yarımqövs tağlarından ibarət portik-eyvan daxil edir (məsələn, Aşağı Gövhər ağa məscidi, 1870-ci illər).

Portikin kompozisiyasında tağların iştirak etdiyi belə bir memarlıq həll üsulu Şahbulaq qalasında Pənah xan məscidində və Şuşada Mehmandarovlar məscidində də istifadə edilmişdir [5, s.399]. Lakin nə birinci, nə ikinci məscidlərdə bu üsul müstəqil, fəal təsirə malik memarlıq kompozisiyası yaradan dərəcədə işlənmişdi. Bu vəzifə, onun sələflərinin təklif etdiyi memarlıq kompozisiyasını inkişaf etdirərək, Gövhər ağa məscidində portik-eyvanın plastik və ifadəli həllinə nail olan memar Kərbəlayi Səfixanın öhdəsinə düşdü. Ön fasadın vertikal kürəkilərlə işlənməsi, daşların müəyyən bir tərzdə bölünməsi və onlardan bəzi önəmsiz elementlərdə sərbəst, özünə xas istifadə edilməsindən duyulur ki, memar Avropa memarlığından götürülmüş yeni motivlərə yad deyildir, lakin bununla belə yerli memarlığın prinsiplərini saxlamışdır.

Şuşa Cümə məscidinin və Yuxarı Gövhər ağa məscidinin memarlığı Qarabağinin yaradıcılığında XIX əsrin ikinci yarısının yerli memarlığında stilistik özəlliklərin inkişafının yeni mərhələsi oldu. Bu məscidlərdə o, portik-eyvan mövzusunu daha açıq və inandırıcı formada – üçtağlı portik şəklində inkişaf etdirməkdədir. Portikin yarımqövs tağlarının iri addımlı aşırımları artıq başqa - Aşağı məscid ilə müqayisədə daha sanballı və təntənəli miqyas yaradır. Orada ön fasad özünün yan hissələri və xırdalanmış ümumi strukturu üzündən bir qədər dağınıq qavranılır ki, bu da kompozisiyanın işlənməsindən müəyyən qeyri-məmnunluq doğurur. Görünür, memar özü də bunu hiss edirdi.





*Bərdə. İmamzadə məqbərəsi. Ümumi görünüş. Memar K.S.Qarabaği. 1868-ci il.*

Özünün sonrakı işində - Cümə məscidində (1883) Qarabaği ön fasadın gərəksiz dağınıqlığından imtina edir və onu daha təmkinli formalarda traktovka edir. Cümə məscidinin dərin və açılmış üçtağlı portikinə qarşı, Aşağı məsciddə olduğu kimi, fasadın kürəkilərlə vurğulanan açırımsız yan hissələri qoyulmuşdur. Lakin burada yan hissələrin funksiyaları tamamilə başqa məqsədə xidmət edir – onlar minarələrin silindrik gövdələri üçün kürsiyyədir.

Memar tikinti materiallarından - çətin işlənən mərmərəbənzər əhəngdaşı və iki çalarda bişmiş kərpicdən bacariqla istifadə etmişdir. Məscidin əsas həcminə əhəngdaşı ilə, minarələrə isə kərpiclə üzlük çəkilmişdir.

Məscidin tağların detallarının kasad elementləri, giriş portalının vəchli sütunları, portik tağbəndinin oxvari forması, eləcə də epiqrafik yazıların mürəkkəb hörmə naxışı ilə qeyd olunan ön fasadın traktovkası üslub özəlliklərinə yeni tələblərin hopmuş olduğu yerli memarlıq üçün xarakterikdir.

Qarabağ zonasının ayin binalarımda əsas həcmlər üçün mərmərəbənzər əhəngdaşından və minarə vertikalları üçün iki çalarda bişmiş kərpicdən istifadə – XIX əsrin ikinci yarısında Azərbaycan memarlığında qurmaların yeni kompozisiya həllini doğuran yerli memarlığın inkişafında vacib vəsilədir. Ayin binalarının həcm kütləsinin rənglər nisbətinə keçmişin memarlığında rast gəlinmir.

Memar Kərbəlayı Səfixan tərəfindən onun zəngin yaradıcılıq praktikasında istifadə edilən bu uğurlu bədii üsul, onun müasir cizgilərin qarşısını kəsmədən, ənənələrlə, milli memarlığın özəllikləri ilə nə dərəcədə bacarıqla rəftar etdiyini göstərir. "Ənənələr, - deyə Y.S. Yaralov yazır, - fərqli milli mədəniyyətlərin qarşılıqlı təsirlərini özündə ehtiva edən yaradıcı-novatorların axtarışları ilə daima zənginləşir" [310, s.134]. Bu mülahizəni öz zəmanəsi ilə həmahəng qurmalar yaratmış qarabağlı memarın yaradıcılığına da tamamilə aid etmək olar. Onları Azərbaycanın digər bölgələrinin bina memarlığına aid etmək olmaz. Bu binalar son dərəcədə fərdidir: onlar Qarabağ memarlıq məktəbinin obrazlar qalereyasıdır, çünki onlarda nəinki ənənələrin yeni ictimai-iqtisadi şəraitdə yaşamaq qabiliyyəti təsbit edilib, həm də yerli memarlığın sonrakı inkişaf imkanları açılıb göstərilmişdir.

XIX-XX əsrlərin qovşağında Bakıda və Rusiyanın şəhərlərində coşqun şəkildə inkişaf edən eklektika və stilizatorçuluq Kərbəlayı Səfixan Qarabaği yaradıcılığından yan keçmişdir. Xalq memarlığının sağlam ənənələri yeni memarlıq və bədii məqsədlərə xidmət etməkdən ötrü yetərincə dayanıqlı və çevik çıxmışdı. V.Xazanovanın yazdığı kimi, "əsrlərin qovşağında bu rayonda (yəni Qarabağda – Ş.F.) və başqa şəhərlərdə çoxmərtəbəli evlərin və ictimai binaların yerli tiplərində, təbii ki, milli memarlığın üsulları mövcuddur" [290, s.12]. Bu üsullar daha qabarıq şəkildə məscidlərin interyerinin həllində onların son dərəcə ciddi memarlıq formaları ilə üzə çıxırlar. Oxvari tağları daşıyan vəchli daş sütunlar və günbəzlərin yumşaq formaları vahid memarlıq kompozisiyası təşkil edir. Memar ondan müxtəlif variasiyalarda istifadə etməklə, sadəlik və ifadəliliyə nail olur və yad mənşəli elementlərə əl atmır.

Azərbaycanın müxtəlif bölgələrində eyni vaxtlarda öz yaradıcılıqlarında yerli memarlıq-inşaat ənənələrinə və kompozisiya üsullarına isnad edən yerli memarlar tərəfindən xeyli sayda ayin binaları inşa edilir. Burada Şəki-Zaqatala bölgəsinin qurmalarını qeyd etmək olar, onlar öz portik-eyvanları və planlaşdırmaları ilə haradasa və nələrdəsə Xilafət



*Zaqatala rayonu. Danaçı kəndi. Məscidin ümumi görünüşü. 1912-ci il.*

dönəmi Məqrib ölkələrinin memarlıq obrazlarını xatırladır [491].

Binaların, o cümlədən ön fasadların memarlıq kompozisiyası ən məhdud vəsaitlərlə həll olunur: kərpicin və çaydaşının bədii keyfiyyətlərindən maksimum istifadə olunur. Tağların suvaqla örtülməyən kərpic hörgüsü və konstruksiyasının xarakteri binanın kompozisiyasının memarlıq elementi kimi işləyir. Tağ kompozisiyanın fəal ifadə olunmuş elementidir və binanın bədii obrazının açılmasında ona fərdi forma kimi baxılır.

Şəki-Zaqatala bölgəsinin ayin qurmalarında tağların yarımqövs formasının geniş tətbiqi onlara özünəməxsusluq verir, onları Azərbaycanın başqa bölgələrində inşa edilən bu növ tikililərdən fərqləndirir. Ümumiyyətlə isə, bu bölgənin məscidləri özünün obrazlı ifadəsinə görə ayin qurmasından çox, mülki binalara yaxındır. "Yaşayış evlərinin monumentallığa meyl edən memarlığı hörgüdə iri ölçülü dağ və çay daşları parçalarının tətbiqi ilə uzlaşmada" ayin qurmalarına da güclü təsir göstərir [104, s.108]. Yaşayış evlərində XIX əsrin əvvəlinə kimi ölkənin cənub və şərq vilayətlərinin ayin qurmalarına və yaşayış evlərinə xas olan memarlıq motivlərindən: məscid, mədrəsə, karvansara və s. fasadlarının tərtibatında tətbiq edilən portik-eyvanların oxvari tağları ilə xarakterik hamar düzbucaqlı taxçalardan istifadə olunur .

Yerli memarlar, qonşu Dağıstanda olduğu kimi, Azərbaycanın da sıravi ev tikintisində geniş tətbiq edilən ənənəvi üsul və memarlıq formalarına müraciət edirdilər [292]. Bu səbəbdən, burada ayin qurmalarının kanonik tipi inşa edilmir, yeni kompozisiyalı həlli ilə, yeni stilistik traktovkası ilə özünəməxsus məscid tipi yaradılır ki, bu da Şəki-Zaqatala bölgəsində memarlığın inkişafını müəyyən edir.







*Zaqatala rayonu. Muxax kəndi. Məscidin ümumi görünüşü. 1899-cu il.*



*Zaqatala rayonu. Göyəm kəndi. Məscidin ümumi görünüşü. 1899-cu il.*

Bu baxımdan ayin qurmalarının ümumi həcminin ayrılmaz hissəsi olan minarələrin memarlığı səciyyəvidir. Kərpicdən hörülmüş vəchli minarələrin düz gövdələri hündürlük dominantı qismində çıxış edir. Səkkizüzlü planda olan bu minarələr öz ifadəli siluetləri ilə orijinal bədii kompozisiya yaradırlar. Hündürlüyü 40 metrdən çox olan vəchli və ya silindrik minarələrin memarlıq-plastik işlənməsi üzlərin ornamental-həndəsi cizgisi sayəsində mümkün olmuşdur. Rəsmin relyefinə ornamentin dərinləşdirilməsi hesabına nail olunmuşdur. Bu tərzdə icra edilməklə, o, minarələrin həcmini canlı memarlıq formasına çevirmişdir. Divar səthlərinin işlənməsinin bu sayaq üsulu zəngin kərpic ortamentasiyasının tətbiq edildiyi yerli yaşayış evləri tikintisinə xasdır. Eyni zamanda, formaların monumentallığı, minarələrin memarlıq kompozisiyasının ifadəliliyi, ornamental həllin plastikliyi və kolorit zənginliyi bu qurmalara Şəki-Zaqatala bölgəsi memarlığının inkişafında böyük dəyər bəxş edir.

Xalq memarlığının, xüsusilə də yaşayış tikililərinin xarakterik cizgiləri ilə Lənkəran bölgəsinin qurmaları memarlıq kompozisiyasının maraqlı traktovkası ilə fərqlənir.

XIX əsrin birinci yarısında Azərbaycanda memarlığın yerli xüsusiyyətlərini qoruyub saxlayan ayin qurmaları inşa edilsə də, onlarda XVII-XVIII əsrlərdə ölkənin cənub vilayətlərində müşahidə edilən şirələnmiş rəngli kərpicin əzəlki dekorativ dolğunluğu artıq yox idi.

Yaxın Şərq ölkələrində çalışmış Avropa memarları, öz binalarında barokko, ampir və modern cizgilərindən ardıcıl surətdə istifadə edirdilər [519] ki, bu da memarlığın milli özəlliklərinin itirilməsinə və Şərq memarlığının şah əsərləri fonunda eklektika və stilizatorçuluğun inkişafına rəvac verirdi [417]. Memarlıqda bu ümumavropa cərəyanı – keçmişin tarixi üslublarının dirçəldilməsi – əlverişsiz sosial-iqtisadi şəraitdə olan Yaxın Şərq ölkələrinə nüfuz etməklə, faktik olaraq yerli milli məktəblərin dağılmasına gətirib çıxardı. Öz klassik proobrazlarından uzaq olan Avropa üslublarında, lakin yeni şəraitdə, yerli tikinti materiallarından və yerli ustalar tərəfindən tikilən binalar göründü; onlar şəhərlərin tikilişinə daxil oldular və vətəndaşlıq hüququ əldə etdilər [486].

XIX əsrin ikinci yarısından Azərbaycanda milli memarlıq müəyyən bir arxitektur ton verən ayin qurmalarında özünü daha qabarıq göstərirdi. Bu dövrdə yerli memarlarla yanaşı Avropa məktəbinin memarları da, xüsusilə Peterburq Mülki Mühəndislər İnstitutu və İmperator Rəssamlıq Akademiyasının yetirmələri çalışır, onlar yerli memarlıq ənənələrini öz bildikləri kimi anlayır və istifadə edirdilər. İlk belə bir cəhdi Bakı şəhərinin Qala qapılarının layihələşdirilməsində Bakı memarı A.Koşinski göstərmişdi (1878). Layihə italyan intibahının portal kompozisiyası üslubunda, lakin darvazaların oxvari tağı - yerli memarlığın yeganə elementi ilə tərtib olunmuşdur. Üslubun bu sayaq səthi qavranması, təbii ki, memara yaradıcılıq uğuru vəd etmirdi. Bütün kompozisiya olduqca süst çəkilib, qalanın sərt görünüşlü divarları ilə heç bir bağlılığı yox idi. Təsdiqlənmək üçün Peterburqa göndərilən Qala Qapıları layihəsinin memarlıq həlli rədd edilmişdi. Qəbul edilən layihəni təkrar olaraq hərbi mühəndis-polkovnik Poppen Peterburqda tərtib etmişdir (2 avqust 1878).

Şübhəsiz, Poppen müsəlman Şərqinin memarlığı və istehkam tikililəri ilə tanış idi ki, bu da ona qala qapısının memarlıq kompozisiyasının həllini Şərq memarlığının ciddi və ifadəli formalarında tapmağa imkan vermişdi. Qa-








*Bakı. Şəhər saat qülləsinin layihəsi. Fasad, kəsim, plan. Memar E.Y.Skibinski. 1891-ci il.*

pıların əla çəkilmiş dördmərkəzli oxvari tağı profilləmə və formaların bitkinliyi sayəsində plastik baxımdan qala qurması memarlığının zənginləşdirilmiş və yerində olan elementi kimi verilir. Bakı qala divarlarına üzvi şəkildə uzlaşdırılan qapıların memarlıq kompozisiyası, memarların yerli memarlığın üslub xüsusiyyətlərinə uğurlu müraciətinin nümunəsidir və onun mülki tikinti praktikasında istifadə imkanlarını açırdı.

Eyni zamanda order memarlığında tərbiyə olunmuş və əllərində şəhərlərin tikilişinə dair layihə-smeta sənədlərini cəmləşdirmiş olan gəlmə memarlara yerli memarlıq formaları və kompozisiya üsulları yad deyildi. Şərait onlardan məişətin yerli xüsusiyyətlərini, mədəni-məişət qurmalarına irəli sürülən tələblərlə hesablaşmağı tələb edirdi. Bu özəlliklə yerli tipdə hamamlar layihələşdirilərkən öz sözünü deyirdi, bu halda belə bir qurmanın funksional özəlliklərini nəzərə almaq zəruri idi. Hamamların həcm-fəza həllinin təməlində dayanan günbəzlər, tağbəndlər və oxvari tağlar onların memarlıq xarakteristikasını müəyyən edirdi.

Əgər daxili struktur yerli memarlığın cizgilərini əks etdirirdirsə, fasadların hissələri yeni memarlıq tələblərinə uyğun tikilmişdir. Yalnız yastı damın üzərindəki günbəzlərin həcmləri bu tikililərin funksional məzmununu qeyd edirdi.

Azərbaycanın şəhər və kəndlərinin planlaşdırmasında və tikilişində ayin və məişət qurmaları (məscid və hamamlar) üslub xüsusiyyətlərinin müxtəlifliyinə baxmayaraq həcm-fəza həllində ənənələrin dayanıqlığını qoruyub saxlayırdılar. Bunun nəticəsində onlar ölkə şəhərlərinin memarlıq-planlaşdırma strukturunda yerli memarlığın ən səciyyəvi obyektlərinə çevrildilər.

Bununla yanaşı, XIX əsrin ikinci yarısından başlayaraq gəlmə memarlar onların diqqətini həcmləri və kompozisiya quruluşu ilə cəlb edən ayin qurmalarının layihələşdirilməsinə və tikintisinə müraciət edirlər. Lakin məscid tikmək, məsələn, hamam layihəşdirməkdən daha çətindir, çünki birincilərin spesifikası yerli memarlığı daha dərindən bilməyi tələb edir, əks halda yaradıcılıq uğursuzluğu qaçılmazdır.

Bakı qalasında1870-1880-ci illərdə naməlum memar tərəfindən Bəy məscidi tikilmişdir. Mili memarlıq abidələri ilə zəngin olan Bakı qalasının ərazisi, şübhəsiz, müəllifə ayin qurmalarının mövcud örnəkləri ilə tanış olmağa imkan verirdi. Burada məscidin ənənəvi planlaşdırmasından, daş oymalı portaldan, daş günbəzdən və minarə vertikalından istifadə edilmişdir. Bütün bu memarlıq kompozisiyası Avropa order sisteminin prinsipləri üzərində, lakin sərbəst traktovkada qurulmuşdur ki, nəticədə eklektik xarakterli tikili yaratmışdır. Məscidin binasında memarlıq istiqamətlərinin iki üslubunu – yerli və Avropa üslublarını bir-birinə qarışdırmaqla, müəllif görünür bədii effekt əldə etmək istəyirmiş.

Yerli memarlığın aşkar elementi olan minarənin balkonunun (şərəfə) stalaktit kəmərini müəllif akant yarpaqlarla əvəz edib, baxmayaraq ki, Şirvanşahlar saray kompleksindəki minarənin proporsiyalarını və ümumi cizgilərini təkrarlamağa çalışmışdır. Bəy məscidinin hörgüsünün yüksək keyfiyyəti və daş üzərində oyma heyranlıq doğursa da, bunu element və detalların işlənməsi haqda söyləmək olmaz.

Eklektika, özü də materialın bərbad bir şəkildə təqdimində Salyan məscidində də müşahidə edilir (1867). Binanın vurğulanmış portal kompozisiyası ilə memarlıq formaları və həll üsulları yerli ənənələrə uyğundur. Lakin portalın yuxarı hissəsi zəngin plastikliyə malik xal əmələ gətirsə də, order və qotikanın fərqli elementlərinin qatışığından tərtib edilmişdir.





Bəlli olduğu kimi, XIX-XX əsrlərin qovşağında Bakı Çar Rusiyasının iri sənaye mərkəzinə çevrilir. Burada, neft və onunla əlaqəli digər təsərrüfat sahələri ilə sıx bağlılıqda olan xüsusi sənaye memarlığı inkişaf edir. Neftayıran və neft emalı zavodları ilə yanaşı şəhərin sənaye zonasında böyük anbarlar tikilir. Məhz bu qurmaların memarlığında hələ 1878-ci ildə az və ya çox dərəcədə onların formalaşmasında iştirak etməklə, Şərq memarlığının elementləri və formaları da özlərinə yol açırdı.

Ciddi formada tikilmiş, anbar yerləşgəsinin strukturuna tabe olan qurmanı bu sıradan maraqlı bir misal kimi göstərmək olar. Anbarın daxili fəzasında dirəklərin addımı fasadın hissələnməsini də müəyyən edir. Fasadın pəncərə açırımları ilə hissələrə bölünən sol və açırımsız sağ divarları vahid həcm təşkil edir. Fərqli şəkildə həllinə baxmayaraq onlar qurmanın ümumi memarlıq kompozisiyasına tabedir.

Fasadın açırımsız divarı – binanın monoton hissəsi hamar düzbucaqlı oxvari taxçalarla işlənmişdir. Belə bir üsul müsəlman Şərqinin memarlığında məscidlərin daxili həyətlərinin və mədrəsələrin bayır divarlarının işlənməsində kifayət qədər genişliklə istifadə edilirdi [437].

Bu situasiyada bu üsul anbar binasının həllində daha münasib olmuş və onun fasadı ciddi, lakin ifadəli dekorasiya əldə etmişdir. Sənaye xarakterli belə bir qurma, onun sadə təyinatına baxmayaraq, memarlıq və konstruktiv nöqteyi-nəzərdən yaxşı həll edilmişdir. Sənaye həyəcanları dövründə memarlıq irsinə müraciət etməyə və öz kompozisiyasında keçmişə xas xətlərin təmizliyi və formaların ciddiliyindən istifadə etməyə macal tapmış layihə müəllifinə qiymət vermək lazım gəlir.

Belə bir xarakteristika şəhərin eyni sənaye zonasında tikilən digər anbar qurmasına aid edilə bilməz, baxmayaraq ki, layihəni yerli üslub istiqamətində həll etməyə cəhd göstərilmişdir. Hər iki qurma eyni təyinata malikdir, lakin fasadların memarlıq məzmunu mənasında fərqli traktovka edilir. XIX-XX əsrlərin qovşağında milli memarlığın inkişafında ikinci ilə müqayisədə birinci layihənin əhəmiyyəti bununla müəyyən edilir.

Bu dövrdə Azərbaycanda milli memarlığın geniş miqyasda dirçəldilməsi, onun Avropa stilizatorçuluğuna və eklektikasına qarşı qoyula bilməsi üçün münasib sosial-iqtisadi şərait yox idi. Əgər Rusiyada hələ XIX əsrin ikinci yarısından memarlıqda "rus üslubunun" [155, s.10], sonrasında isə "qeyri-rus" üslubuna daha dərin və tənqidi münasibətin yaranmasına gətirib çıxaran, əvvəlcə memarların, sonra isə boyakarların başlatdığı milli formalar axtarışı aparılırdısa [47, s.143], Azərbaycanda vəziyyət qat-qat mürəkkəb idi.

Mülki tikintidə kök salan Avropa memarlığı, bu problemi həll edə biləcək milli kadrların kifayət qədər olmaması, məhdud memarlıq-bədii mühit və mədəni-məişət şəraiti Azərbaycan memarlığında milli üslubun geniş inkişafına rəvac vermirdi. Bax bu səbəbdən memarlıqda milli üsul və formalardan istifadənin hər hansı təzahürü, onun inkişafı üçün, mədəni-məişət və ayin qurmalarının ucaldılması ilə kifayətlənən yerli memarlığın təbliği üçün çox böyük önəm kəsb edirdi.

Müxtəlif xarakterli və təyinatlı çoxsaylı qurmaları ilə Zaqafqaziya dəmiryolunun çəkilişi, 1883-cü ildə Tiflis-Bakı dəmiryol xəttinin açılması Azərbaycan memarlığına Misirdən İspaniyaya kimi Ərəb Şərqinin memarlığı kimi anlaşılan "oriyental" və ya mavritan deyilən üslubun nüfuz etməsinin başlanğıcını qoydu.

Dəmiryol xəttində əsas memarlıq obyekti Azərbaycanın Bakı, Gəncə, Ha-

*Bakı. H.Z.Tağıyev sarayının (indiki Azərbaycan Tarix Muzeyi) binası. Şərq zalının interyeri. Mülki mühəndis İ.P.Qoslavcki. 1898-1902-ci illər.*

cıqabul, Culfa və sair kimi iri stansiyalarında sərnişin vağzallarının binaları oldu. Layihələr Qafqaz namestnikinin göstərişi ilə Peterburqda tərtib olunurdu. Zaqafqaziyanın müsəlman əyalətlərinin şərq xarakterini nəzərə alaraq, binalar yerli memarlıqla müəyyən dərəcədə ümumi cizgiləri olan "şərq üslubunda" tikilmişdir. Layihələşdirilmiş vağzal binalarının fərdi memarlıq simaları ilə müstəqil həcm-fəza kompozisiyası vardı. Onların hər birində Məqrib ölkələrinin klassik Avropa memarlığının kompozisiya üsullarından istifadə edən rus memarının yaradıcılıq prizmasından keçərkən dəyişən memarlıq formaları və motivləri kifayət qədər inandırıcılıqla əks olunmuşdur. Lakin onların hamısı öz üslub və bədii xüsusiyyətləri ilə həm materialın təqdimində, həm də mövzunun özünün bu istiqamətdə işlənməsində şəksiz maraq doğurur.

Gözəl həcmləri, yerli memarlığa yad olmayan xarakterik memarlıq forma və elementləri ilə bu vağzal binalarının inşası onların şəhər tikilişlərinin üslubi baxımdan zənginləşməsində imkanlarını üzə çıxarmışdı.

Vağzalların bu stildə həll edilən memarlığı Bakı memarlarını yaradıcılıq işlərində istifadə etmək üçün ilkin mənbə olaraq yerli memarlığa daha ciddi diqqət yetirməyə məcbur etdi.

Vağzalların Peterburqda hazırlanan layihələri əsas etibarilə bəlli uvrajlar üzrə hazırlanırdı. Bütün bunlarla yanaşı, binaların memarlıq kompozisiyasında müəyyən ümumiləşdirmələrə baxmayaraq, memarlar Şərq memarlığının ruhunu saxlaya bilmişdilər. Memarlıq həllinin bədii gözəlliyi həcmlərin plastikası və dekorativ elementlərinin incə bəzəkləri ilə uzlaşırdı. Bu xüsusilə də Bakı vağzalının binasında daha inamlı və qabarıq şəkildə vurğulanmışdır. Burada iri həcmlər tətbiq edilmişdir. Əhəngdaşı hörgüsündə açıq və tünd sıraların növbələnməsi binaya hamar detallar hesabına deyil, bacarıqla seçilmiş tikinti materialının fakturası hesabına plastiklik verir. Bununla yanaşı vağzalın memarlığında üstəlik hissələnmə xətlərinin və detalların elementlərinin izafi quruluğu müşahidə olunur. Bəzəklərin incəliyinə və həllin bədii gözəlliyinə baxmayaraq, binanın kompozisiyasının traktovkası bir qədər nəzəridir. Doğrudur, bu hal o illərin əksər binaları üçün də səciyyəvi idi.

Bakı tikililərində binaların daha dolğun şəkildə əksini tapan şərq üslubu Azərbaycan memarlığında milli-romantik cərəyanın inkişafının başlanğıcı oldu. Bunun birbaşa nəticəsi memar X.K.Vasilyev tərəfindən milyonçu H.Z.Tağıyev üçün teatrın fasadlarının işlənməsi oldu.

Teatrın fasadlarının memarlığında vağzalın fasadlarının həllində istifadə edilən daş hörgüsünün açıq və tünd sıralarla növbələnməsi üsulundan istifadə edilmişdir.

Vağzal və teatr binalarının memarlığı Bakı tikililərinin memarlıq istiqamətini dəyişən şərq üslubundan istifadənin başlanğıcı oldu. Bu üslub özünü, məsələn, hamam kimi utilitar qurmalarda, lakin yerli memarlığın həcm və formalarını saxlayaraq daha sərbəst traktovkada göstərdi. Belə bir kompozisiya üsulu günbəzlərin səciyyəvi siluetləri və həcmləri ilə: oxvari açırımları ilə qurmaların memarlıq formalarına zidd deyildi. 1886-cı ildə mühəndis-texnoloq F. Lemkul tərəfindən tərtib edilən hamam layihəsində, məhz bu memarlıq xüsusiyyətləri qurmanın həcmləri və formalarının ciddi və ifadəli verilməsində əks etdirilmişdir.

Şərq üslubu (qismən yerli işləmədə) demək olar inqilabaqədərki dövrün bütün Bakı memarlarının yaradıcılığında, yaşayış evləri layihələrində və tikintisində











*Bakı. Ağa Bala Quliyevin Persıdskaya (indiki Poluxin) küçəsi 24 ünvandakı evi. Fasad fraqmenti. Memar Y.Skibinski 1899-cu il.*

xeyli yer tutur. Ondan memar və mülki mühəndislər Zivər bəy Əhmədbəyov, İ.Qoslavski, Y.Skibinski, K.Skureviç, İ.Ploşko, Q.Termikelov, İ.Edel və A.Eyxler istifadə edirdilər. Y.Skibinski və İ.Edel tərəfindən eyni vaxtda (1895-ci il) tərtib edilmiş üçmərtəbəli yaşayış binalarının layihələri demək olar vahid memarlıq kompozisiyası təşkil edir. Müəlliflərin dəst-xəttini ayırmaq çətindir - bu mövzunun işlənməsində onlar nə qədər eynidir və fərdilikdən məhrumdurlar. Halbuki İ.Qoslavski və K.Skureviç böyük olmayan ikimərtəbəli ev layihələrində kasad memarlıq vasitələri – sözün hərfi mənasında oxvari formalı bir portal tağı və məhdud dekor elementləri ilə qurmanın yerli koloritini verməyə çalışırdılar.

Hər halda, daha çox öyrənilmiş və möhtəşəm uvrajlarda təqdim olunan Şərq (Ərəb) memarlığı memar-praktiklərin diqqətini Bakı və Abşeron memarlığı ilə müqayisədə daha çox cəlb edirdi. Buradan da, İ.Qoslavskinin Tağıyev sarayının baş zallarından birini bəzəyərkən Kordova xilafəti və Məqribin "odlu-alovlu" memarlığına nə səbəblən uyduğu bəlli olur [491]. Müəllifə qiymət vermək lazımdır – o, Ərəb Şərqinin ruhunu və füsunkarlığını yalnız interyerin memarlıq bəzəklərində deyil, ümumi qammanı və müvafiq ovqatı yaradan mebellərin həllində də, parketin naxışında da məharətlə verə bilmişdir.

Lakin memarlıq irsindən XIX-XX əsrlərin qovşağında Bakıda Persidskaya küçəsi 24 ünvanda (hazırda Memarlar Evi) Ağa Bala Quliyevin 1899-cu ildə bilavasitə Şirvanşahlar sarayı memarlığının təsiri altında inşa edilmiş yaşayış




*Bakı. Yaşayış evinin layihəsi. Fasadlar. Memar İ.V.Edel. 1895-i il.*

evində memar Y.Skibinski daha müəyyən və qabarıq şəkildə istifadə edir. Yaşayış evinin fasadının traktovkasında memar şərq və yerli memarlıq motivlərini sərbəstliklə daxil edir. Memar binanın üslub məsələsinə, o çağın bir çox memarları kimi, qərarlaşmış stilizatorçuluq istiqamətini dəf etməyə cəhd göstərmədən yanaşır [273, s.70]. Binanın həcm kompozisiyası bütöv həll edilib və böyük plastikliyi ilə seçilir. Ikinci mərtəbə rizalitlərinin künc hissələrinin stalaktit sisteminə söykənən konxaların qabırğalı yarımqübbəsi ilə portallarla və daş üzərində bədii oyma ilə örtülü timpanlarla vurğulanan bu kompozisiyalar memarlıq süjetinin mənşəyini göstərir. Fasadların memarlığında şərq memarlığı elementlərindən istifadə olunmasına baxmayaraq, portallar miqyasına və proporsiyasına görə üstün mövqeyini saxlayır və binanın ümumi kompozisiyasını yerli milli üslubda traktovka edirlər.

Əgər vağzalın və Tağıyev Teatrı fasadının memarlığı daşla işlənmədə belə bir plastik zəmin almış olsaydı, onda bu yerli memarlıq ənənələrinə və daş üzərində oyma sənətinə yaxın olardı.

Ön fasadın uğursuz memarlıq kompozisiyasına və detallarla həddən artıq yüklənməsinə baxmayaraq, Quliyevin evi şərq üslubunda tikilən digər binaların fonunda seçilir. Bu binanın memarlığının dəyəri, İ.Edelin və Y.Skibinskinin, məsələn, 1895-ci ilin yaşayış binaları layihələrində müşahidə olunduğu kimi, şərq üslubundan adi istifadənin hüdudlarından kənara çıxır. Burada yerli memarlıq üsullarından istifadə, onun motivləri və formalarının səthi tətbiqi ilə müqayisədə daha effektlidir; yaşayış evinin üslub xüsusiyyətlərinin həlli üçün ilk mənbəyə daha düzgün müraciət







*Bakı. Yaşayış evinin layihəsi. Fasad. Memar Y.P.Skibinski. 1895-ci il.*

müşahidə olunur. Keçmişin irsinə belə bir müraciət Azərbaycan memarlığında milli-romantik cərəyanı dərinləşdirir, XX əsrin əvvəllərində onun inkişafına imkan yaradır və bunun nəticəsində yaşayış, ayin və sənaye xarakterli qurmalar üzə çıxır.

Lakin yerli professional memarlıq məktəbinin, eləcə də rus memarlıq məktəbinin tikililəri geniş vüsət almayaraq, öz yerini müxtəlif üslub istiqamətlərinə vermişdi. Bakının memarlığı Avropa memarlığının orderli və ordersiz sisteminə əsaslanırdı, hərçənd bu sistem özünün bütün ciddiliyi və klassikliyi ilə müsəlman Şərqinin memarlığında istifadə üçün daha sərbəst traktovkada qəbul edilmişdi. Prinsipcə, belə bir yanaşma yerli və şərq memarlığının üslubi özəllikləri ilə ziddiyyətə girmirdi.

Bəllidir ki, ilk müsəlman tikililərində, özəlliklə antik mədəniyyət abidələri ilə zəngin Məqrib ölkələrində, antik və xristian məbədlərinin sütunlarından geniş istifadə olunurdu [74, s. 68]. Sonralar memarların bunun əsasında yaratdıqları şəxsi orderləri, digər yerli memarlıq formaları ilə birlikdə incəlik və zəriflіklə həyat sahələrinin quruluş strukturuna, Tunisin [514], Əlcəzairin [482] və Mərakeşin bir çox saraylarının və yaşayış evlərinin qalereyalarına və interyerlərinə daxil olaraq onların kompozisiya-bədii istiqamətini müəyyən etmişdilər.

Məhz buna görə də Ramazanovların Bakı qalasındakı yaşayış evi (hazırda Gertsen küçəsi, 24) dördmərtəbəli evin fasadında plastik zənginləşdirmə qismində klassik proporsiyalı pilyastrlar əlavə edilməklə yerli və şərq üsullarını order sisteminə uyğunlaşdırmaq cəhdi olaraq, bu baxımdan şəksiz maraq doğurur. Bu binada şərq memarlığının detal və mövzularından istifadə edilsə də, onda Tiflisdən Peterburqa qədər digər şəhərlərin bir çox qurmalarını fərqləndirən "oriyental" üslubundakı həll ümumiliyi qətiyyən yoxdur. Ramazanovların evində incə detalların cizgilənməsi və işlənməsi, onların ornamental düzülüş sxemi, xətlərin və profillərinin daş memarlığına xas olan səlisliyi təsdiq edir ki, Bakı qalasının memarlıq abidələrinin yaxınlıqda olması layihə müəllifinə təsir göstərmişdir.

Bakının yaşayış tikintisində yerli üslub xüsusiyyətlərinə yaxınlaşan memarlıq formaları və kompozisiya üsullarının inkişafına ərəb memarlığı, özəlliklə Məmlüklər çağının Qahirə memarlığı prizmasından baxmaq olar. Bu tamamilə təbiidir, çünki iqlim, məişət və dini xüsusiyyətlərin və ənənələrin yerli şəraitlə bir çox ümumiliyi var və onun kompozisiyasına yüngül tipli balkonlar, erkerlər və lociyalar daxil etmək yolu ilə yaşayış evlərinin memarlığının iş-

lənməsində sərbəstliklə istifadə olunur. Yerli memarlıq ənənələrinə uyğun olaraq hazırlanan daş elementlər və detallar onlara onun inkişafının spesifik xüsusiyyətləri ilə izah olunan milli kolorit bəxş edir [310, s.75].

Lakin Bakı üçün bu memarlıq mövzüsunun Peterburqda işlənib hazırlanması, təbii ki, yerli işdən fərqli olaraq, tamamilə başqa bir həllə malik olacaqdı, hərçənd üslub baxımından şərq şəraitinə yaxınlaşmış olur. Bakıda, həm kompozisiya seçimində, həm də materialın gözəl şərq memarlığı vasitələri ilə verilməsində, yüksək bədii üstünlükləri ilə seçilən bir neçə layihə və gerçəkləşdirilmiş bina cəciyyəvidir. Bununla belə, layihə müəlliflərinin ideyaları iqtibas etdikləri ümumi memarlıq mənbəsinə baxmayaraq, onların hamısı fərqlidir. Müsəlman Şərqi memarlığının "oxunuşuna" fərdi yanaşma konkret, lakin ifadəli kompozisiyalar doğurur.

Memarlıq akademiki Q.D.Qrimmin Bakı üçün tərtib etdiyi, 1900-cü ildə müsabiqənin birinci mükafatını almış gəlirverən ev layihəsi bu sıradan olan memarlıq işlərinə aiddir [362]. Böyük bir məhəllə layihə müəllifi tərəfindən vahid həcm kimi gözdən keçirilir, onun memarlığı isə, aydın ifadə olunmuş bucaq və aralıq vurğuları ilə - Qahirə məscidlərinin minarələrini xatırladan qüllələrin vertikalları sayəsində şərq koloritini uğurla əks etdirir. Binanın bucaq hissələri, yaşayış evinin memarlıq kompozisiyasının özülünü təşkil edən "minarələr" qrupu ilə xüsusi effektivliklə cizgilənmişdir. Birinci mərtəbənin fasadlarının qalereyalarının oxvari sırataǧları ondan az maraq doğurmur, bunlar rəsminə və proporsiyalarına görə oxvari tağların qurma kompozisiyalarının əsas elementini təşkil etdiyi müharibədən sonrakı dövr (1950-ci illər) Azərbaycan memarlığının motivlərini xatırladır.

Qrimmin layihəsində yaşayış evinin memarlığı əsas və tabe elementlər üzərində qurulub – azca irəli çıxarılmış balkonlarla lokal açırımlar vəsiləsi bucaq və aralıq vurğularına qarşı qoyulur. Gəlirverən evin memarlığının müsəlman Şərqinin Bakının yerli əhalisinin iqlim və məişət şəraitinə daha yaxın olan göz oxşayan motivləri və bəzək elementləri ilə həll edilməsi, yerli özəlliklərə tətbiqən bu kimi binaların tikilməsinə imkan yaradırdı. Əfsuslar olsun ki, Qrimmin layihəsi həyata keçirilmədi.

Arxiv materialları ondan söz açır ki, Bakı memarları binaların layihələrini tərtib edərkən, Şirvan-Abşeron memarlıq məktəbinin ənənələrinə yaxınlaşmaqdan ötrü bir çox hallarda yerli, şərq memarlıq formalarına və bəzək motivlərinə müraciət edirdilər. Bunu 1895-ci ildən 1906-cı ilə qədər Bakıda əvvəl sahə memarı, sonra isə şəhər memarı vəzifəsində çalışan və bu kimi layihələr hazırlayan mülki mühəndis K.B.Skureviç də qeyd edir [462]. O, şəhərin iri, kapital binalarla tikilişini aparan, eyni zamanda onun memarlığının üslub istiqamətini müəyyən edən memarlardan biri idi. O illər Bakısının tikilmə dövrü haqqında Skureviç öz məzmunlu məqaləsində yazırdı: "Yerli memarların keçmişlə - xan sarayı ilə harmoniya təşkil edən təmiz binalar tikmək cəhdləri Avropa tərzində bina tikmək arzusu ilə toqquşurdu, o dərəcədə ki, əgər layihə ərəb-İran üslubunda tərtib edilirdisə, bina hər halda hər bir quberniya şəhərində gördüklərimiz evlərdən o yana getmirdi" [251]. Skureviçin məqaləsi 1908-ci ildə dərc olunmuşdur, yerli memarlığın gizli imkanlarını üzə çıxaran milli-romantik üslubda binalar isə sonralar tikilmişdir. Milli üslubda olan binalar Bakının inqilaba qədərki dövrünün memarlıq-planlaşdırma strukturunda kifayət qədər geniş yer tutur və





Sovet Azərbaycanı memarlarının yaradıcılığına, onların bu üslub istiqamətinə rəğbətini müəyyən etməklə, gözəçarpan təsir göstərmişdir.

Milli memarlıq üslubunda tikilən binalara ən uğurlu misal kimi Sadıqov qardaşlarının Nikolayevskaya küçəsi 21 ünvanda yerləşən yaşayış evini göstərmək olar (mülki mühəndis Q.M.Termikelov, 1912-ci il). 1909-cu ildə bu binanın layihələşdirilməsinə ümumrusiya müsabiqəsi elan edilir və bunun nəticəsində birinci mükafatı Termikelov alır [120, 361]. Binanın memarlığı - şərq üslubunda, lakin ustalıqla edilmiş interpretasiyadadır; yerli iqlim şəraiti lociya və eyvanlar bolluğunu doğurmuşdur. Bina əla kompozisiya quruluşu və yerli memarlığın zərif elementləri və detalları ilə vurğulanmışdır. Əgər yaşayış evinin memarlığı özündə stilizatorçuluğun cizgilərini daşımış olsa belə, onun görünüşünə o qədər səmimilik və cazibə hopub ki, tikilməsindən 70 ildən çox vaxt keçdikdən sonra da bu bina Bakının tikilişində öz bədii əhəmiyyətini itirməmişdir. "Sadıqovların evinin obyektiv memarlıq dəyəri Azərbaycan milli memarlığının inkişafının realist yollarının axtarışından ibarətdir" [264, s. 16].

XIX əsrin sonunda Azərbaycan memarlığında Q.b.Hacıbababəyov, X.K.Vasilyev, Q.İsmaylov, İ.V.Qoslavski, K.B.Skureviç, Y.Y.Skibinski, İ.V.Edel, A.V.Eyxler kimi memarların əsərləri ilə hazırlanan milli-romantik istiqamət 1905-ci il Birinci Rus inqilabından sonra, "dünya kapitalizmi, - V.İ. Leninin yazdığı kimi, - və 1905-ci il rus hərəkatı Asiyanı tamamilə oyatdığı" [3, s.146] zaman mülki mühəndislər Z.b.Əhmədbəyov, İ.K.Ploşko və Q.M.Termikelovun yaradıcılığında daha aydın və açıq bir surətdə üzə çıxmağa başlayır. Rılskilərin Politseyskaya küçəsi 11 ünvanda yerləşən yaşayış evi (mülki mühəndis İ.K.Ploşko, 1912-ci il) və Mərdəkanda ilahiyyatçı alim Əbdül-Turabın məqbərəsi (mülki mühəndis İ.K.Ploşko, 1912-ci il) milli-romantik istiqamətdə həll edilmişlər.

Milli memarlığın maraqlı nümunələrinə yerli və Avropa memarlıq motivlərinin toqquşduğu Naxçıvan şəhərində yerləşən Xan evini (XIX əsrin ikinci yarısı) aid etmək olar.

Yerli memarlığın üslub xüsusiyyətlərinin inkişafında XIX-XX əsrlərin qovşağında Bakı-Abşeron bölgəsində ayin qurmaları tikintisinin geniş vüsət alması əhəmiyyətli rol oynayır. Bu, yerli memarlığın inkişafında yeni bir keyfiyyət mərhələsi oldu, bundan belə ona Azərbaycanın inqilabaqədərki və Sovet dövrü memarlarının marağı artıq zəifləmir.

XIX-XX əsrlərin qovşağında ayin qurmaları tikilişlərin sosial-iqtisadi şəraitlə bağlı yeni miqyasını, yeni kompozisiya üsulları və memarlıq formalarını müəyyən etdi. Ayin qurmalarında şərq memarlığının bəzi elementləri və formalarından istifadə edilməsinə baxmayaraq, onlar Şərq məscidlərinin bizə tanış və məşhur örnəklərini qətiyyən təkrarlamır.

Memarlar məscid layihələrində daş günbəzlər və xarakterik minarələr sayəsində həcm-fəza kompozisiyasında Abşeron koloritini qoruyub saxlayan memarlıq motivləri və formalarını sərbəstliklə traktovka edirlər.

Beləliklə, burada ayin qurmalarının ümumiləşdirilmiş, keçmişlə bağlantıların itirilmədiyi obrazının yeni tipi əmələ gəlmişdir. Memarlığın bu tərəfi keçmişin binalarının elementlərini və detallarını xırdalığına qədər təqlid etməkdən daha vacibdir. Təbii-iqlim şəraitinə cavab verən binaların həcmi və quruluşu Bakı-Abşeron bölgəsinin ayin qurmalarının memarlıq ifadəliliyini müəyyən edirdi.

Ayin qurmalarının memarlıq kompozisiyasına bu bölgədə XVII-XVIII



Bakı, İçərişəhər. Ramazanovların yaşayış evi. Ümumi görünüş.1890-cı illər.

əsrlərin tikililərində rastlanmayan açıq sıratağlar qalereyası, monumental portal-lociyalar, yastı damlar üzərində irihəcmli günbəzlər və Bakı qalası ərazisindəki abidələrdən örnək olaraq götürən minarə vertikallrı kimi elementlər daxil edilmişdir. Burada portal tağlarının timpanlarını örtən daş üzərində oymanın qədim ənənəsi və minarələrin balkon-şərəfələrini saxlayan mürəkkəb stalaktit karnizlər və Quran ayələrinin incə hörmə yazıları da unudulmamışdır.

Bakı memarlarının yaratdığı ayin qurmalarında həcm kütlələrinin tam harmoniyasına və xətlərin təmizliyinə heç də həmişə nail olunmurdu, lakin onların milli özünəməxsusluğu üslubi baxımdan yerli memarlığın forma və motivlərinə yaxın olması ilə müəyyən edilirdi. Qasım bəy məscidi (memar Q.İsmayılov, XIX əsrin sonu), Təzəpir (mülki mühəndis Z.b. Əhmədbəyov, 1905-1914), Şamaxı Cümə məscidi (mülki mühəndis Z.b. Əhmədbəyov və İ.K.Ploşko, 1909-1918), Əmircan qəsəbəsində Muxtarov məscidi (mülki mühəndis Z.b. Əhmədbəyov, 1908-1909), İttifaq məscidi (mülki mühəndis Z.b. Əhmədbəyov,1912-1913-cü illər), Bakıda Persidskaya və 1-ci Kanni -tapinskaya küçəsinin kəsişməsində yerləşən Soltanəli məscidi və s. bu baxımdan səciyyəvidir. Onların hamısında yerli "ruh" var, ayin qurmalarının bədii obrazının formalaşmasında öz estetik funksiyalarını yerinə yetirən yerli memarlığa və konstruktiv formalara malikdirlər. Bakı-Abşeron bölgəsi memarlığının özünəxaslığını əks etdirən bu memarlıq obrazlarını Yaxın Şərq ölkələrinin və hətta Azərbaycanın başqa vilayətlərinin memarlığına aid etmək çətindir. Onlarda yerli məktəbin üsulları və formaları bu dərəcədə üstünlük təşkil edirlər.

Məscid layihəsində (Mülki mühəndis İ.K.Ploşko.1909-cu il.) yeni obraz yaratmaq və minarəni modernləşdirilmiş İstanbul formaları ilə başa çatdırmaq cəhdləri uğurla nəticələnmədi. Memarlıq baxımından maraq doğurmasına baxmayaraq bu qurma tikilmədi. Ikiyaruslu







Bakı ş.-də Tumayev qardaşlarının evinin müsabiqə layihəsi. Memar Q.D.Qrımm. 1900-cü il.

qoşa minarəli məscid mövzusu Əmircan kəndindəki Muxtarov məscidində istifadə edilib; onda yerli memarlıq formaları və detalları saxlanılmışdır. Azərbaycanın ayin qurmalarının bu kimi memarlıq kompozisiyaları tamamilə yeni olsa da, onun üzə çıxması öz xarakterik konstruksiyaları ilə yerli daş memarlığının prinsiplərinə zidd deyildi. Əksinə, məscidin siluet kompozisiyası üzərinə daha məsul memarlıq vəzifələri götürürdü, çünki ayin qurmasının ətraf tikililərin əhatəsindəki ifadəliliyi onun mütənasib quruluşundan, elementlərin ciddi surətdə işlənməsindən, bəzəklərin keyfiyyətindən asılı idi.

Qeyd edək ki, XIX-XX əsrlərin qovşağında Bakının az qala bütün şəhər tikilişi Avropanın klassik memarlıq üsulları bazasında gerçəkləşdiyi vaxtlarda, əsasən ayin qurmaları öz koloritlı həcmləri, gözəl siluetləri və daş üzərində oymanın ən yaxşı ənənələrində ucra edilmiş plastik detalları ilə rəhbər rol oynayırdı.

Eyni zamanda milli ənənələr yaşayış, mülki və sənaye qurmalarının memarlığında özünə yer tapır, yeni prinsiplər və memarlıq irsinə münasibətin işığında inkişaf edirdi. Məsələn, əgər Səadət məktəbində (mülki mühəndis Z.b.Əhmədbəyov, 1912-1913-cü illər) şərq memarlıq formaları və detalları, peşəkarlıqla cizgilənmiş olsa da, öz varlığını hələ müəyyən dərəcədə sürdürürsə, 6-cı Paralel döngəsi 1-də yerləşən yaşayış evində (mülki mühəndis Z.b.Əhmədbəyov, 1914-1916-cı illər) milli irsə fərqli münasibət müşahidə olunur [275].

Yaşayış evinin ön fasad kompozisiyası yalnız onun memarlıq məzmununa müəyyən dinamika gətirən asimmetriya üsulları ilə deyil, həm də daşın fakturasına görə fərqli taktik istifadə vasitəsi ilə təzadlar üzərində qurulub, o bir növ yaşayış evinin kompozisiyasının bədii özəyinin – giriş portalının açılımı üçün zəmin hazırlayır. Portal birbaşa kürsülükdən boy verir və gözəlliyinə görə yerli memarlıq formalarında müstəsna kompozisiyaya çevrilir.

Memarın rəğbəti bütünlüklə Şirvan-Abşeron məktəbinədir və Bakıda Şirvanşahlar saray ansamblındakı portal qurmalarına xüsusi üstünlük verir. Bu ansamblın portal kompozisiyasının əsas prinsiplərini qoruyub saxlamaqla, Əhmədbəyov yaşayış evinin girişini izafi bəzək elementləri

və detallarsız, müasir evlərə olan tələblərə uyğun traktovka edir.

Klassik proporsiyalı, öz həllinə görə çoxplanlı, bunun sayəsində əldə olunan məlum dərinlik və perspektivaya malik portal möhtəşəmliklə cizgilənmiş tağlar şəklində təmtəraqlı girişdən ibarətdir. Tağ cizgiləri xətlərinin təmizliyi və memarlıq kütlələrinin incə proporsional nisbəti onu harmonik qurmaya çevirir. Binanın həcmində portalın dəyərliliyi yarımtəmiz yonma daşdan ucaldılmış fa-

*Sadıqov qardaşlarının Nikolayevskaya (Kommunist) küç. 21-də yaşayış evi. Fasad fraqmenti. Mülki mühəndis Q.M.Termikelov, 1912-ci il.*







sadın bir hissəsinin fonu sayəsində daha da güclənir.

Bu halda, Persidskaya küç-si 24 ünvandakı yaşayış evində olduğu kimi, zəngin, bahalı stalaktit tağbəndə, ornamentləşdirilmiş müstəvilərə və detallar bolluğuna ehtiyac yox idi. Memar fasad hörgüsünün təzad üsulu və cüzi memarlıq vəsaitləri ilə effektdə böyük ifadəliliyə nail olmuşdur. Bu yaşayış evi Əhmədbəyovun milli memarlıq irsinin planauyğun şəkildə mənimsənilməsi



*Sadıqov qardaşlarının Nikolayevskaya (Kommunist) küç. 21-də yaşayış evi. Fasad fraqmenti. Mülki mühəndis Q.M.Termikelov, 1912-ci il.*

*Abşeron. Mərdəkan kəndi. Axund Əbdül-Turabın məqbərəsi. Plan, kəsim.*




*Məqbərə sütunlarından dekorativ fraqment. Mülki mühəndis İ.K.Ploşko, 1908-ci il.*



yoluna özünəməxsus və yaradıcı çıxışı idi, o, kiçik yaşayış evindən tutmuş iri ictimai qurmaya qədər - özünün bütün işlərində buna can atmışdır.

Beləliklə, memarların Azərbaycan memarlığının inkişafının bu mərhələsində qurmanın üslub özəllikləri haqqında təsəvvürləri tədricən dəyişirdi. Öz yerini müasir memarlıq estetikasını yaradan yeni tikinti materiallarına və konstruksiyalarına verməli olan memarlıq vasitələri ilə təmkinli rəftar hesabına binaların struktur həllinə daha rasional yanaşma yarandı.

Lakin yerli memarlığın motivləri və formaları memarların diqqətini yenə də cəlb etməkdən qalmırdılar. Əksinə, Birinci Dünya müharibəsi ərəfəsində bu təmayül gücləndi və mülki və sənaye tikintisində geniş istifadə edilməyə başladı. İlk növbədə o öz əksini 190 km uzunluğunda olan Şollar su kəmərinin çoxsaylı qurmalarında tapdı. Geniş bir məkanda müxtəlif həcmli və məqsədli tikililər inşa edildi. Bu obyektlərin layihələşdirilməsi və tikintisi mühəndis V.Lindelin rəhbərliyi altında Bakı mühəndisləri və memarları tərəfindən həyata keçirilirdi.

*Abşeron. Mərdəkan kəndi. Axund Əbdül-Turabın məqbərəsi. Ümumi görünüş.*





*Naxçıvan. Xan sarayı. Ön fasad fraqmenti. XIX əsr.*

Bakı su kəməri qurmalarının üslub əsası olaraq order sistemi deyil, yerli memarlığın forma və elementləri götürülmüşdü. Bu obyektlərdə Azərbaycan memarlığında milli-romantik cərəyanın tendensiyaları yerini möhkəm bir şəkildə bərkitdi. Layihələr tərtib edilərkən layihəçilər müəyyən bir üslubla kifayətlənmirdilər – üslubun sərbəst seçimi onlara böyük yaradıcılıq imkanları verirdi. Lakin yerli memarlıq formalarında həll edilən bütün tikililərdə əsas memarlıq kütlələrinin bölüşdürülməsinin vahid traktovka manerası və üslub sistemi müşahidə olunur.

Təəssüf ki, bu maraqlı memarlıq obyektlərinin atribusiyasını müəyyən etmək hələlik mümkün olmadı. Lakin şübhəsizdir ki, onlar böyük diqqətə layiqdirlər, çünki Azərbaycan irsinin fərdi xüsusiyyətləri onlarda belə bir miqyasda və belə bir traktovkada aydın ifadə olunmuşdur. Bu artıq XIX əsrin ikinci yarısında Bakı dəmiryol vağzalının binalarında təqdim olunan "mavritan" incəsənətinin obyektləri deyil, XX əsrin əvvəlinin mülki və sənaye tikintisinin tam dərk edilmiş memarlıq əsərləridir.

Bu tikililərdən ən əlamətdar olan Bakı yaxınlığındakı nasos stansiyası maşın şöbəsinin binasıdır [1914-cü il]. Maşın şöbəsi oxvari formalı pəncərələrdən işıqlanan, geniş zala malik uzunsov sənaye binasından ibarətdir. Memarlığının təməlində binanın kəllə fasadlarının iri formalı tağlarla başa

*Rüskilərin Politseyskaya (Məmmədəliyev) küçəsi 11 ünvanda yerləşən yaşayış evi. Ümumi görünüş. Mülki mühəndis İ.K.Ploşko, 1912-ci il.*





*Bakı. Məscid layihəsi. Perspektiva. Mülki mühəndis İ.K.Ploşko. 1909-cu il.*







*Bakı. İçəri-şəhər. Cümə məscidinin portalı. 1899-1900-cü illər.*



*Bakı. Səadət məktəbinin binası. Fasadın mərkəzi hissəsindən fraqmentlər. Mülki mühəndis Z.b.Əhmədbəyov. 1912-1913-cü illər.*

çatdırılmasından irəli gələn oxvari cizgiyə malik dəmir fermalardan ibarət örtmə konstruksiyasının rəsminə qədər, yerli formalar və kompozisiya üsulları dayanır.

Maşın şöbəsinin fasadlarının memarlığı Azərbaycanın orta əsr ictimai qurma həyətlərinin ruhunda həll edilib, yəni səthlərin ritmik hissələnməsi ilə portal tipli özəklərin vahid tipini təşkil edir. Lakin burada qurmanın funksional məzmununa və bundan irəli gələn tələblərə müvafiq olaraq fasadların memarlığı da həllini tapmış olur. Binanın fasadında kifayət qədər tanınmış kompozisiya üsulundan istifadə edilsə də, lakin artıq qarşıya sənaye qurmasına verilən tapşırıqlar proqramına və müəllifin stilistik rəğbətinə uyğun olaraq tamam başqa vəzifələr qoyulur.

Maraqlıdır ki, açıq-aşkar istehsalat xarakterli qurmanın həcm-fəza kompozisiyası ayin tikililərinin memarlıq formaları və dekorativ elementlərinin cizgilərini daşıyır, lakin bu məxsusi interpretasiyadadır. Ilk öncə bunlar fasadların birinin mərkəzi hissəsində əsas vasiləni təşkil edən qısaboy dekorativ minarələr, eləcə də Abşeron tipli hündür minarələrdir. Binanın belə bir mənzərəli kompozisiyası





effektli görünsə də, hər halda özünü heç nədə doğrultmur.

Bir zamanlar oxşar kompozisiya Şamaxı Cümə məscidinin layihəsində (1909 il) mülki mühəndis İ.K.Ploşko tərəfindən təklif edilmişdi, lakin o vaxt yan minarələr tikilməmişdi. İ. Ploşkonun tərtib etdiyi Cümə məscidi layihəsi ilə heç şübhəsiz tanış olan müəllif, ola bilsin, bu ideyadan maşın şöbəsinin layihəsini hazırlayarkən istifadə etmək qərarına gəlir. Bakıda baş memar vəzifəsindən imtina edən və layihə işləri ilə məşğul olan Ploşkonun bu tikintininin layihəsini hazırladığı barədə ehtimallar var.

Yerli memarlıq mühitinə üslub cəhətdən yaxın olan və yerli memarlıq ənənələrinə daha hörmətli münasibət şəraitində işlənib hazırlanan Bakı su kəməri tikililərinə XX əsrin əvvəllərində Azərbaycanın milli memarlığının inkişafının mühüm mərhələsi kimi baxmaq lazımdır. Bakı su kəməri binalarının memarlığı Bayılda yerləşən iri elektrik stansiyasının (hazırda Krasin ad.) üslub həllinə təsirini göstərmişdir [375] və bununla da təsdiqlənir ki, Azərbaycan memarlığında milli-romantik istiqamət getdikcə genişlənərək inkişaf edir və öz aktivində müxtəlif profilli və xarakterli tikililər vardır.

XIX-XX əsrin əvvəllərində Avropa eklektika və stilizatorçuluğun təsirinin güclü olduğu bir şəraitdə yerli memarlığın üslub xüsusiyyətlərinin inkişafı, yeni sosial-iqtisadi şəraitlə üzləşdikdə keçmişlə əlaqəsini itirməyən xalq ənənələrinin həyati qüvvəsi, yerli memarlıq üsullarının mütərəqqiliyi müəyyən edirdi. Yerli təbii-iqlim şəraiti və mənzil tikintisinin əsrlər boyunca təkmilləşmə yolu keçmiş memarlıq-planlaşdırma üsulları Azərbaycanın yeni şəhər evlərinin formalaşmasına gözəçarpan təsir göstərir. Bu cəhətdən Bakıda XIX-XX əsrlərin qovşağında tikilən yaşayış evləri səciyyəvidir [272, s.123].



*Bakı. Səadət məktəbinin binası. Fasadın mərkəzi hissəsindən fraqment. Mülki mühəndis Z.b.Əhmədbəyov. 1912-1913-cü illər.*

Mənzil layihəsi üzərində işləyərkən Avropa təhsilli memarların qarşısında evin plan həllinin vərdiş edilmiş üsullarından, Rusiya şəhərlərinin mənzil planlaşdırmasından imtina etmək və yerləşgələrin daha məqsədəuyğun sayılan ikicərgəli yerləşdirmə sistemini qorumaqla, yerli üsullara yaxınlaşmaq problemi dayanırdı. Yerləşgələrinn ikicərgəli yerləşdirilməsi və həyət tərəfdən şüşəbəndli Bakı yaşayış evlərinin planlaşdırılmasının geniş yayılan tipi Bakının bir çox yeni evlərinin memarlığında da öz əksini tapdı. Bu mövzunun faydalı olmağına

*Bakı. Z.b.Əhmədbəyovun yaşayış evinin portalı. Mülki mühəndis Z.b.Əhmədbəyov. 1914-1916-cı illər.*









*Şollar su kəmərinin nasos stansiyası binası (Bakı yaxınlığında). Ümumi görünüş. Foto. 1914-cü il.*

baxmayaraq, Bakı məhəllələrinin dar və dərin həyətlərinə açılan şüşəbəndlərin, məsələn, Şuşa, Nuxa, Quba və Gəncə şəhərlərinin yaşayış evlərində olduğu kimi, detallı dekorativlik və memarlıq baxımından işlənməsinə bir elə ehtiyac yox idi. Zaman keçdikcə şüşəbəndləri müəyyən dərəcədə işlənmiş şəkildə və balkonla uzlaşdırılmaqla binanın həcm elementi qismində fasadlara çıxarmağa başlayırlar. Bakıda bu mövzu geniş yayıldı və çox vaxt binanın bütün kompozisiyası hər bir evin həcm həllinin başlıca elementi olaraq bu tip balkonlara tabe edilirdi.

# II FƏSIL.

## AVROPA ÜSLUB İSTİQAMƏTLƏRİ

XIX-XX əsrlərin qovşağında Azərbaycan memarlığının inkişafı, bəlli olduğu kimi, stilizatorçuluq və eklektika dövrünə təsadüf etmişdi. "Bizdən əvvəlki bütün epoxa – XX əsr üslubun olmaması ilə səciyyələnir. Bu əsr çoxlu sayda üslubları yenidən təkrarlayırdı, lakin özünün heç bir üslubu yox idi" - o çağın memarlığı belə təsvir edilir [116, s.465]. Bu hal Azərbaycanın da memarlığında, o cümlədən Bakıda eklektika istiqaməti üçün geniş meydan açır, qurmaların konstruksiyası, polad, şüşə və dəmir-beton haqqında anlayışları kökündən dəyişən yeni materiallardan istifadə yolu ilə köhnə tikinti və konstruktiv üsullara düzəlişlər edilirdi.

Memarlar konstruktiv element kimi çox vaxt yeni tikinti materiallarından istifadəyə can atır, çox vaxt sonuncuların bədii tərəflərinə məhəl qoymur, beton və dəmir-betonun imkanları ilə hesablaşmırdılar. Dəmir-betonun mənimsənilməsi bu mütərəqqi materialın təbiətinə və xassələrinə dərindən zidd olan memarlıq forma və motivlərinin tətbiqi ilə yanaşı gedirdi [231].

Memarın əlinə əvvəllər gerçəkləşməsi şübhə ilə qarşılanmış ideyaları həyata keçirməyə imkan verən material düşmüşdü. Lakin dəmir-betondan nəinki örtmə, tir və digər konstruksiyalar üçün qurmaların konstruktiv elementi kimi, həm də yeni, yalnız ona xas arxitekturanı yaratmağa imkan verən material kimi istifadə etməyə çalışmaq özünü bütün gücü ilə göstərmirdi. Əksinə, memarlığın konstruksiyadan ayrılması daha da dərinləşir, tədricən memarlıq sahəsinə daxil olan və memarlıqda uzun müddət hökmranlıq edən köhnə formaları sındırıb dağıdan yeni texnikanın qarşısında qorxu hissi duyulurdu. Hər halda, yeni texniki üsullar və tikinti materialları, əksər memarların mühafizəkarlığına baxmayaraq,

Asta-asta, lakin memarlıq formaları və motivlərinə gözəçarpan təsir göstərməklə, dönmədən özünə yol açırdı.

XIX əsrin sonlarına doğru - XX əsrin əvvəllərində bütün bu axtarışlar və memarlığı konstruksiya ilə birləşdirmək və onlara düzgün traktovka vermək cəhdləri qismən memarlıqda yeni, modern adlanan istiqamətin üzə çıxması üçün müəyyən bir zəmin oldu [90, s.76]. Modernistlər memarlığı köhnə üsullardan və detallardan xilas etməyə çalışırdılar. Onlar, öz fikirlərincə, böyük şəhərin tempini və ritmini ifadə edən tamamilə yeni formalar, yeni kompozisiya üsulları yaratdılar, yeni bəzək süjetləri tətbiq etdilər. Əvvəlcə onların cəhdləri fasadların bəzəkli işlənməsi ilə bitirdi, özü də bütün detalların və formaların şəklinin tamam dəyişməsinə, konstruksiyaların üstünün örtülməsinədək gəlib çıxır, eyni zamanda bu dəmir-betonun imkanlarını nümayiş etdirir, onun tektonikasını açıb göstərirdi.

Onun formasını dəyişmiş memarlıq detalları ilə, qeyri-təbii pozada heykəlləri və formalarda harmonikliyin yoxluğu ilə səciyyələnən erkən modernlə müqayisədə sonrakı dönəm modern memarlığı qurmaların fəza həcmlərinin qurulmasında daha lakonikdir.







*Naxçıvan. Dəmiryol vağzalının binası. Fasad fraqmenti. 1900-cü illər.*

Bununla birlikdə, modernist qurmaların memarlıq-bədii təsirinin bəzi mənfi tərəflərinə baxmayaraq, modern müasir materiallara xas yeni formalar axtarışının ilk dəfə başlandığı təcrübə meydanına çevrilmişdi [508]. Buna görə də modernin "memarlıq kütlələri" sahəsindəki uğuru, yəni binaların bədii-ifadəli, həcm-fəza quruluşu ötüb-keçilməz qaldı və memarlığın sonrakı inkişafına, konstruktivizmin özünə qədər böyük təsir göstərdi [47, s.34].

Fasadların memarlığında həcmli kompozisiyalarını qurulmasının və forma yaradıcılığının müxtəlif xarakterli olduğunu qeyd enməklə, nəzərə almaq lazımdır ki, yaşayış evlərinin və mülki qurmaların plan həlli, o çağın tikinti texnikasının inkişaf tələblərinə cavab verən prinsipial sxemlərin təşkilində böyük bir səlislik əldə etmişdi. Tikiliş üçün nəzərdə tutulan sahədən qənaətlə istifadə, qurmaların rasional planlaşdırma quruluşu, mümkün qədər xərcləri minimuma endirməyə çalışmaqla yanaşı həll variantlarının sadəliyi - XX əsrin əvvəllərində modern memarlığı xarakterizə edən cizgilərdir.

Lakin modern memarlığı, onun qurmaların plan həllinin məqsədəuyğunluğundan, konstruksiyaya rasional yanaşmaqdan və memarlıq obrazının



*Gəncə. Zinger binasının ümumi görünüşü. 1900-cü illər.*

düzgün açılımından irəli gələn başlıca prinsipləri memarların əksəriyyəti tərəfindən səthi qəbul edildi və müsbət effekt vermədi. Bu, bir yeni üslub olaraq modernə mənfi münasibətə səbəb oldu və onun müasir memarlıq cərəyanı olaraq əhəmiyyətini heçə endirdi. Modernin bu xüsusiyyətlərinə baxmayaraq, onun təsiri fərqli üslub həlli ilə sonrakı tikililərdə hələ uzun müddət hiss edilirdi.

Modern üslubu özünün həcmlərin memarlıq həllinə, obrazın bədii quruluşuna, müasir memarlığın vəzifələrinin dərindən qavranılmasına münasibəti ilə XIX-XX əsrlərin qovşağında ən mütərəqqi istiqamət sayılırdı.

Digər üslub istiqamətləri kimi, modern də Azərbaycanda vətəndaşlıq hüququ qazandı və şəhərlərin, əsas etibarilə Bakının memarlıq simasına öz sanballı töhfəsini verdi. Bakı moderni XX əsrin əvvəllərində böyük kapitalist şəhərinin tempinin və ritminin ifadəsini tapa biləcəyi memarlıq həcmlərinin xüsusi ekspressiyası ilə, kompozisiya və konstruktiv üsulların dinamikası ilə fərqlənmirdi. Modernin memarlıq və dekorativ vasitələrinə baxmayaraq, Bakı tikililərində Renessansın klassik kompozisiyalarının sakit müvazinəti üstünlük təşkil edirdi. Memarlıqda yeni üslubun xarakterini vurğulamaqla, Bakı memarları heç də vərdiş



III BÖLMƏ. XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN ŞƏHƏR MEMARLIĞININ BƏDİİ İSTİQAMƏTLƏRİ



*Bakı. Fiqarov qardaşlarının yaşayış evi. Abşeronskaya küç. 7. Ümumi görünüş. 1912-ci il. Mülki mühəndis N.Q.Bayev.*

etdikləri kompozisiya üsullarından imtina etmir, bu imkanlardan yeni binaların həllində yerli şəraiti nəzərə almaqla istifadə etməyə çalışırdılar.

Bakıda, yaşayış evlərindən başqa, modern üslubu şəhərin tikilişində mühüm yer tutan bir neçə inzibati-ictimai bina (Tiflis Bankı, mülki mühəndislər A. Kalqin, Q. Termikelov, 1901; Şimal Bankı, 1903-1905; Mayılov qardaşlarının teatrı, mülki mühəndis N.Bayev, 1910-1911; Musa Nağıyev adına xəstəxana, mülki mühəndis N.Bayev, 1914-1918) ilə də təmsil olunur. Bütün tikililər həm həcm həlli, həm də memarlıq-kompozisiya ifadəsi baxımından fərdidir. Təbii ki, belə bir yanaşma onların şəhərin tikilişindəki memarlıq traktovkasının əhəmiyyətini müəyyən edirdi.

Modern üslubunda tikilən inzibati-ictimai təyinatlı binalardan ən ifadəlisi Tiflis Bankının binasıdır. Onun kompozisiyası tikilinin bucaq hissəsinin həll xarakteri ilə vurğulanmış memarlıq kütlələrinin dinamik başlanğıcı üzərində qurulmuşdur. Dərin kölgəli tağlı frontonların yayqın xətləri detalların incə cizgiləri, ornamental motivlərin zərifliyi və üslubun duyğusu sayəsində modernin dekorativ formalarını açıb göstərən kompozisiyanın plastik inkişafının əsasını təşkil edir. Binanın künc hissəsinin plas-



*Bakı. Musa Nağıyevin Molokanskaya (Xaqani) küç-si 47-də gəlirverən evi. Ümumi görünüş. Mülki mühəndis İ.K.Ploşko. 1910-cu il.*

tika zənginliyi yan qanadların fasad dekorunun təmkinliliyi ilə vurğulanır.

Bunun üzərində bank binasının memarlıq kompozisiyası qurulmuş, onun üslubu modernin ifadəli vasitələrinin köməyi ilə, əksər tikililərə xas olan izafi təmtəraqsızlıqla və fopma yaradıcılığına əl atılmadan verilmişdir.

Bakıda modern üslubunda tikilmiş maraqlı binalar sırasına Şemaxinskaya küçəsi 12-də Kərbəlayı İsrafil Hacıyevin yaşayış evini aid etmək olar (mülki mühəndis İ.K.Ploşko, 1912-ci il). Özünün həcm kütlələrinin modelləşdirməsi ilə yaşayış evinin ümumi kompozisiyası klassik hissələnmə ənənələrinin pozulduğunu göstərir. Əgər fasadın quruluşu böyük həcmli işıq və kölgə vasitələri ilə həll edilməyibsə də, kompozisiya quruluşu yetərincə dinamikdir və parlaq modernə xas cizgilərə malikdir.

Fasadın işlənməsi yeni memarlığın formalarının bədii və eyni zamanda ifadəli anlayışını verir. Fasadın kompozisiyasının özü yan cinah rizalitlərinin iki bürcəbənzər başaçatdırması ilə, mərtəbə tağları açırımlarının səciyyəvi xətləri, modernə məxsus profilləri ilə, detalların zənginliyi ilə memarlığın ayrı bir aləmini yaratmışdır. Detal zənginliyi bütövün harmoniyasını pozmur. Tağların timpanlarının bəzək motivlərinin, rizalitlərin başaçatdırmasının əla çəkilişi və daş üzərində dərin relyefli oyma ilə verilmiş ayrı-ayrı memarlıq detalları Bakı modernini beton və suvaqdan yapmaları ilə Moskva və Peterburq modernindən fərqləndirir. Fasadın plastikası karnizin sınma xətlərində, tağ açırımlarının perspektiva həllində, modernin memarlıq detalları ilə divar səthinin özünün müstəvisində davam edir. Hacıyevin ya-

*Bakı. A.Hacıyevin Şamaxinkada yaşayış evi. Ümumi görünüş. Memar A.Polyakov. 1912-1914-cü illər.*













şayış evinin memarlığı - Bakı moderninə bir himndir.

Bakının modernist qurmaları müxtəlif üslublarda həyata keçirilmiş digər tikililərlə yanaşı, özünün uğurla tapılmış kompozisiya üsulları ilə, memarlıq kütlələrinin yeni traktovkası ilə, eklektika memarlığının statikliyini və birrəngliyini pozub dağıdan təravətli dekorativ formaları və motivləri ilə şəhərin memarlığında möhkəm yer tuturlar. Modern üslubunda tikilən bir çox yaşayış evinin zahiri tərtibatında öz prinsipial xüsusiyyətlərini qoruyub saxlasalar da, onlar XIX əsr memalığından miras qalan ənənəvi həll sxemini davam etdirirlər [47, s.130].

Bakı moderninin fərqləndirici cizgisi əsasən fasadların tektonik strukturunu müəyyən edən fakturalı suvaq, müxtəlif çalarlı üzlük kərpic və mayolika plitələr kimi bəzək materialları deyil, yerli əhəngdaşının bütün konstruktiv və bədii xüsusiyyətlərindən istifadə edilməsidir. Modern üslubunda tikililərin memarlıq simasının monumentallığı və bitkinliyi və onların digər üslubi sistemdə işlənmiş binalarla vəhdəti üzlük və bəzək materialının ümumiliyidən - daşdan, klassik Avropa memarlığının elementlərindən və detallarından sərbəstliklə istifadədən doğur.

Modern üslubunun müsbət özəllikləri şübhə doğurmur, çünki o, memarları qurmaların memarlıq-konstruktiv strukturuna yeni gözlə və dərindən nəzər salmağa, memarlığa müasir tələblər baxımından kompozisiya üsullarının məntiqini dərk etməyə məcbur edir və 20-ci illər funksionalizminin təşəkkülünə gətirib çıxaran rasionalist tendensiyaların inkişafına rəvac verirdi.

Modernin Rusiyada və Azərbaycanda qısamüddətli dövrü ayrı-ayrı memarların klassikaya, o cümlədən palladionçuluğa uyması ilə əvəzləndi [196]. Onlar öz mahiyyətində tektonik həqiqilikdən məhrüm olan tikililərin daxili məzmununa cavab verməsələr də, Palladionun sadə və aydın memarlıq kompozisiyaları modernin qəliz və təmtəraqlı tikililərindən sonra müasir memarlıq məsələlərinin həllində daha məqbul idi. "Memarlıq – həyatla bu qədər sıx bağlı olan sənətdir və yalnız keçmiş çağların dahiyanə əsərlərinin təkrarı olaraq qala bilməz" [188, s.35]. Bütün bu qurmalar, nə qədər uğurla tikilmiş olsalar da, müasir memarlığın mahiyyətini əks etdirmirdi.

XVII əsrin sonundan başlayaraq, Rusiya şəhərlərinin memarlığı, əksər hallarda klassik üsullar əsasında qurulurdu və bütün sonrakı dövrlərdə order sistemi Rusiya memarlığının təməl daşına çevrilmişdi [223]. Lakin Azərbaycan şəhərləri üçün klassik memarlıq tamamilə yeni təzahür idi. Rus klassisizmi üslubunda tikilən dövlət binalarının ilk layihələrini, renessans üslubunda icra edilmiş effektli kompozisiyalardan bütöv bir yüzil – təkcə Avropanın deyil, həm də yaradıcılıq planında hər hansı meylin onun uzaq ucqarlarının tikilişlərində əks olunan Rusiyanın da memarlığında dərin ziddiyyətlərlə dolu bir zaman ayırır.



*Bakı. K.İ.Hacıyevin Şamaxinkada yaşayış evi. Plafon. Mülki mühəndis İ.K.Ploşko. 1912-ci il.*

*Bakı. K.İ.Hacıyevin Şamaxinkada yaşayış evi. Ümumi görünüş. Mülki mühəndis İ.K.Ploşko. 1912-ci il.*



*Bakı. K.İ.Hacıyevin Şamaxinkada yaşayış evi. Fasad fraqmenti. Mülki mühəndis İ.K.Ploşko. 1910-cu il. (Rəsm – Ş.S.Fətullayev).*

Rus klassisizmi ayrı-ayrı layihələrdə və tikililərdə Azərbaycan ərazisində Avropa memarlığına yavaş-yavaş yol açırdı, lakin güclü və yaşamağa qabil olan yerli memarlıq və ənənəvi üslublar ona qarşı dururdular. Quberniya mərkəzi olan Şamaxıda milli çalarlı klassisizm şəhər tikililərində gözəçarpacaq dərəcədə üstünlük təşkil edirdi, lakin çox tezliklə öz yerini XIX əsrin 60-cı illər memarlığının ümumi istiqamətlərinə - stilizatorçuluq və eklektikaya verdi. Bu baxımdan Bakının memarlığı daha səciyyəvidir.

Bakının bir- və ikimərtəbəli yaşayış binalarının açınmsız, bütöv divarlı kubik həcmləri ilə, yerləşgələrin bircərgəli planlaşdırması ilə, dekorativ bəzəkləri hər hansı plastik formadan məhrum olan memarlığı iri və orta burjuaziyanın tələblərinə cavab vermirdi. Bax bu səbəbdən köhnə yaşayış evlərinin memarlığı öz yerini daha açıq və sanballı olan yeni tendensiyalara və formalara verdi. Şəhərin yeni memarlığı İçərişəhərin tikililəri ilə əlaqəli deyildi, kapitalist şəhərinin memarlıq simasının təşəkkülündə uyğunsuzluq yarada bilməzdi, hərçənd, şübhəsiz, qaladakı tikilişlərin müəyyən təsirini özündə hiss edirdi. Bu baxımdan Bakının inkişafı müəyyən dərəcədə Peterburqun formalaşmasının başlanğıc dövrünü xatırladırdı, orada da Avropa memarlığı şəhər tikilişində əsas motiv olmuşdu.

Gözdən keçirilən dövrdə Bakının memarlıq siması son dərəcə qısa müddət ərzində qərarlaşır; o eklektikliyi, lakin bununla yanaşı öz fərdi üslub istiqaməti ilə səciyyəvidir. Kapitalizm dövründə Bakıda tətbiq edilən üsullardan ən çox italyan renessansının forma və motivlərinə üstünlük verilirdi. Bakıda renessans üslubunda memarlıq - sırf şərti addır. Renessans kompozisiyasının quruluşu, prinsip və üsulları burada mövcüd olan şəraitlə və ya sifarişçinin təkidi ilə kəskin surətdə dəyişirdi. Belə şəraitdə renessansın üslub vəhdəti və harmoniya prinsipinə riayət etmək çətin idi.

Bakı tikililərində "renessanssayağı" memarlıq – hər şeydən öncə traktovka olunun order sisteminin onun klassik quruluş prinsiplərinin pozulması ilə iradi tətbiqidir. Bununla yanaşı o, səciyyəvi xüsusiyyətlərdən də məhrum deyil: birincisi, yerli tikinti materialı – əhəngdaşı order sistemi ilə gözəl bir şəkildə uzlaşırdı və ikincisi, memarların istifadə etdiyi xalq memarlığının yerli forma və motivləri kompozisiyanın bütövlüyünü pozmur və klassik memarlıq formalarına yad olmurdular.

Bakıda renessansın ən gözəl prinsiplərini əks etdirən tikililər az deyil: "Formaların məntiqi mütənasibliyi, konturların düzxətliliyi, proporsiyaların ciddi





sadəliyi hər şeydən üstündür" [26, s.22], lakin eklektika epoxası ona xas olan özəllikləri ilə üslubun zahiri təmizliyinə öz təsirini hiss etdirir. Burada binanın fasadının üfüqi və şaquli hissələnməsinin uzlaşdırılmış olduğu, ayrı-ayrı hissələrin bir-birinə və bütövlükdə binaya nisbəti səciyyəvidir. Klassik orderin proporsional qanunauyğunluqlarının tətbiqi, daşıyıcı və özünü daşıyan hissələrin ifadəliliyinə riayət edilməsi, kürsülüyün, mərtəbələrarası qurşaqların irəli çıxarılması və nəhayət, bina həcminin zəngin bəzəkli karnizlə başa çatdırılması – bütün bunlar kompozisiya detallarının ətraflı düşünülməsi və aydın çəkilməsinin nəticəsidir. Fasadların qabarıq plastikliyi, divarların üzərində işıq və kölgələrin və klassik profillərin oyunu, detalların gözəl işlənməsi –"renessanssayağı" binaların səciyyəvi əlamətidir. Lakin bəzi hallarda fraqmentar tərzdə çəkilməsinə baxmayaraq detalların, forma və motivlərin bolluğu kompozisiya vəhdətini bir qədər pozur və memarlıq vasitələrinin çoxluğu ilə gözü yorur.

Bakıda mərkəzi məhəllələr üç- və dördmərtəbəli binalarla tikilmişdir. Fasadın həlli üçün əsasən yuxarı mərtəbələrdə plastik vasitə kimi sütun və pilyastrlardan istifadə edilir, çünki əksər hallarda qabarıq hörülmüş mərtəbələr, bir növ stilobat kimi xidmət edirdi. Məlumdur ki, Bakı dar küçəli balaca məhəllələrə bölünüb. Çoxmərtəbəli binaların tikintisi belə bir şəraitdə həyata keçirilirdi. İlk dördmərtəbəli binanın tikintisinə 1897-ci ildə, beşmərtəbəli binanın isə - 1909-cu ildə icazə verilmişdir.

*Bakı Telefonnaya (28 Aprel) küç. 46-da Musa Nağıyevin yaşayış evi. Mülki mühəndis İ.K.Ploşko. 1908-1910-cu il.*





*Bakı. Məktəb layihəsi. Fasad fraqmenti. Mülki mühəndis İ.K.Ploşko.*

Şəhər küçələri dəhliz şəklində bölünürdü və bununla yanaşı məhəllə tinlərinin həllində birtipli üsula çevrilmiş kompozisiya-planlaşdırma üsulu yaranmışdı.

Ümumi memarlığa zərər dəymədən, bütün həcmin həlli ilə birlikdə binanın tin hissəsinin memarlığına xüsusi diqqət yetirilirdi. Memarlar küçə perspektivasında tində yerləşən binanın kompozisiya əhəmiyyətini nəzərə alır və eyni zamanda, planlaşdırma üsulunu tətbiq edərək, mümkün qədər qırmızı xətlərin sətri tikilişində monotonluğa yol verməməyə çalışırdılar. Birtipli həllin tətbiqinə baxmayaraq, hər bina fərdi sima əldə edirdi.

Əksər hallarda fasadların işlənməsində tinləmədən və kompozisiyanın plastik vasitəsi olaraq sütunlar və ya pilyastrlardan istifadədə ifadə olunan ümumi tendensiya izlənir.

Künc sütunları və pilyastrlar iki yuxarı mərtəbəni birləşdirərək çox halda iri miqyasda həll edilirdi. Orderin qurulmasında ümumi qanunauyğunluğu qoruyub saxlamaqla, memar onun tərkib elementlərinin siyahısına tam riayət etmirdi. Bəzən orderin rəsmi də eklektik olurdu. Qurmaların kompozisiyasında iri orderin mövcudluğu çox vaxt binanın bütün sonrakı elementləri üçün bünövrəyə çevrilərək, onları ümumi niyyətə tabe edir və ona monumentallıq cizgiləri bəxş edirdi.

Klassik memarlıq ehtiyatlarından götürülmüş zəngin plastika ilə dolu Bakı binaları fasadlarının kompozisiyası bu vasitələrlə məhdudlaşmırdı. Binaların, xüsusilə yaşayış evlərinin memarlığına quruluşca və memarlıq həllinin prinsiplərinə görə fərqli olan çoxsaylı eyvan və erkerlər üzvi şəkildə daxil olurdular. Bu iki fəza elementi təkcə fasadın kompozisiyası ilə deyil, binanın planı ilə də sıx bağlı idi.

Şəhər tikililərinin memarlığı memarların hüsn-rəğbətindən və məharətindən asılı olaraq müxtəlif üslubi variasiyaları ilə klassik sistemdə həll edilirdi. Yerli şərait, eləcə də məhdud sahələrdə yerləşdirilən şəhər məhəllələrinin planlaşdırma xüsusiyyəti fasadlarda klassik tipli portiklər və monumental sütunlar sırası ilə həcm-fəza kompozisiyaları yaratmağa imkan vermirdi. Tiflisin bir sıra yaşayış evləri və ictimai binalarında yer alan keçmişin klassik örnəklərindən burada istifadə edilmir [43], kompozisiyalar sifarişçinin tapşırığı və istəyi nəzərə alınaraq, klassik memarlıq sisteminin prinsipləri ilə razılaşdırılmaqla, lakin daha sərbəst ifadədə, müəyyən üsul və formalar əsasında tərtib edilirdi.

Bakıda daşdan tikilmiş qurmaların bədii ifadə metodu olaraq, order və ordersiz memarlığın təsviri vasitələri divar materialının konstruktiv mahiyyətini, onun tektonik məntiqini pozmadan əks etdirirdi. Qurmanını sanbalı və klassik sisteminin memarlıq formalarında traktovka edilmiş obrazların monumentallığı bundan irəli gəlir. Tikililərin memarlıq kompozisiyasının sərbəst həlli, XIX-XX əsrlərin qovşağında memarlığın ümumi istiqamətləri ilə şərtlənir, Bakı memarları məsələləri məlum formalarda, uzaq Avropa obrazlarının mahiyyətinə dərindən varmadan, "fasadların adi kompozisiya sxemlərinə onların zahiri görünüşünü müxtəlifləşdirən ayrı-ayrı klassik detallar və formalar əlavə etməklə kifayətlənərək" həll edirdilər [47, s. 181]. Lakin Bakı memarlarının öz tikililərinə ifadəlilik vermək üçün klassik memarlıq üslubunun bütün imkanlarından məharətlə faydalandıqlarını inkar etmək olmaz.

Bakıda tikilmiş və mühüm memarlıq dəyəri ilə fərqlənən əksər binaların məziyyəti Bakı daşının bədii keyfiyyətlərinə və mükəmməl surətdə işlənməsinə borcludur. Mürəkkəb profillər və detallar, binaların bütöv fraqmentləri heyrət doğuran ustalıqla işlənmişdir. Misilsiz daşyonanlar, əsl daş heykəltəraşları olan Usta Hənifə, Usta Soltan və Usta Salman kimi virtuozların əl işlərinə bizim günlərdə də heyran qalmamaq olmur. Bir çox qurmaların bu qədər baxımlı alınmasında onların da çox dərəcədə payı vardır. Onlar eynilə A.Koşinski, Qasım bəy Hacıbababəyov, Məşhədi Mirzə Qafar İsmayılov, İ.Edel, İ.Qoslavski, K.Skureviç, İ. Ploşko, Zivər bəy Əhmədbəyov, Q. Termikelov kimi rəssamlardır.

Milli özünəxaslığın bir çox mənəvi cizgilərinin itirilməsinə səbəb olan kapitalizm çağı, milli memarların həmişəyaşar, solmayan sənətini məhv edə bilmədi. Xalq arasından çıxmış bu ustalar daşın dilini anlaya bilir, keçmişin ruhunu sanki qurmaların canına hopdururdular. Abşeron və Bakı abidələrində, o cümlədən Şirvanşahların saray ansamblında təcəssümünü tapmış daş işləmələrin çoxəsrlik ənənəsi, kapitalizm çağının tikililərində bütünlüklə üzə çıxdı. E.Y.Kupfer yazırdı: "Tikililərin zahiri memarlığı ümumiyyətlə tarixi mənada

III BÖLMƏ. XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN ŞƏHƏR MEMARLIĞININ BƏDİİ İSTİQAMƏTLƏRİ

*Bakı. Qara şəhərdə Yusuf Nağıyevin yaşayış evinin layihəsi. Memar M.Q.İsmayılov. 1896-cı il.*









hər hansı bir müəyyən üslubdan çox, onların təyinatından və daxili quruluşundan, eləcə də işlədilən tikinti materialının xassəsindən və növündən asılıdır, onun texniki və estetik keyfiyyətlərindən hər zaman faydalanmaq və onları imkan daxilində fasadda göstərmək lazım gəlir" [168, s.290]. Bu fikir Bakının bir çox tikililərinin memarlıq simasında bütünlüklə gerçəkləşdirilmişdir.

Əgər Bakı memarları əhəngdaşından deyil, başqa materialdan istifadə etmiş olsaydılar, renessans, qotika və s. memarlıq formalarındakı eyni bədii nəticəni və monumentallığı əldə edə bilməzdilər. Memarlar modern dövründə tikinti praktikasına daxil olmuş şirəli kərpicdən və çox vaxt da kərpiclə uzlaşmada daşdan istifadə edirdilər. Fasadın qoşa tikinti materialı – daş və kərpiclə hörülməsi tikililərə bir növ yenilik gətirir və müasirlik verirdi və, əlbəttə, Bakı memarları da, klassik memarlığın onlar üçün adiləşmiş formalarından imtina etməyərək, buna çalışırdılar.

Bakının mərkəzi məhəllələrində torpaq sahələrinin çox bahalı olması üzündən sifarişçilər memarlardan onların sahələrindən maksimum dərəcədə istifadə etməyi tələb edirdilər. Bax bu səbəbdən Bakıda memarların yaradıcılığında, şəhər tikililərinin estetik xüsusiyyətlərini gücləndirən portikli, sütunlu və kurdonerli memarlıq kompozisiyalarından demək olar istifadə edilmir. Bakıda bu kimi kompozisiya və memarlıq üsulları ilə layihələşdirlilən və tikilən binalar adi binaların fasadlarının müstəvi traktovkasının ümumi fonunda şəhər mərkəzinin tikiliş ifadəliliyini daha da artırardı.

Bu üsula xarakterik misal olaraq, N.P.Tverdoxlebov, Qafar İsmayılov, N.A. fon der Nonne və başqaları ilə birlikdə Bakı şəhərinin order memarlığı təməlində tikilişinin əsasını qoyan memar A. Koşinskinin hazırladığı yaşayış evi layihəsini (1884-1886) göstərmək olar. Onlar şəhər tikililərinin düzgün kompozisiya həlli ilə müəyyən olunan üslub məzmununa aydınlıq və məqsədyönlülük gətirdilər. Klassik memarlığa və ondan istifadəyə peşəkarcasına yanaşmaları ilə onlar sifarişçiləri öz yaradıcılıqlarına hörmətlə yanaşmağa məcbur etdilər. Eyni zamanda, şəhər məhəllələrinin tikilişində onların gördükləri çox böyük işlər yaradıcılığı XIX əsrin sonu - XX əsrin əvvəllərində cərəyan etmiş memarlar üçün bünövrə təşkil edirdi.

Əsasən yaşayış evlərinin order sisteminin səciyyəvi kompozisiya üsulları ilə sərbəst rəftarda həll edilən çoxsaylı layihələri və tikilməsi işi memar A.Koşinskiyə məxsusdur. Başqa layihələrlə müqayisədə A.Koşinskinin layihələşdirdiyi yaşayış evi həm üslubi təmizliyinə görə, həm də kompozisiya həlli ilə fərqlənir. Bu bina rus klassisizminin ən gözəl ənənələri ilə tikilən klassik quruluşlu fasad ilə saraytipli ikimərtəbəli evdir. İkinci mərtəbədəki ion orderinin dördsütunlu portiki və pilyastrlı yan rizalitlər sanki birinci mərtəbənin kobud daş hörgüsünün üzərində saxlanılır. Mərtəbələrdə tağların ritmi və möhtəşəm görünüşdə işlənmiş attikalı karniz fasadın həcm-fəza kompozisiyasını tamamlayır. Bundan başqa, Koşinski üslubun xalisliyini saxlamağa və klassik memarlığı ifadə etməyə can atmış, həcmli kompozisiya yaratmağa, küçənin müstəvi strukturunu qırmağa və ona yeni məzmun verməyə (küçə-dəhlizlər şəraitində bu çox vacib idi) çalışmışdı. Təəssüf ki, bu layihə həyata keçirilmədi.

Şəhərsalma nöqteyi-nəzərindən ən uğurlu misal olaraq (şəhərin başqa binaları ilə müqayisədə) Sadovaya küçəsinin ən yüksək işarətində yerləşən Deburun evini göstərmək olar. N.A. fon der Nonne plan və memarlıq həllinin fərdiyyəti







*Bakı. Sadovaya (Çkalov) küç. 1-də Mirbabayevin gəlirverən evi. Memar P.Ştern. 1891-1896-cı illər.*

ilə fərqlənən bu binanı A.Koşinski layihəsinin təsiri altında layihələşdirmiş və inşa etmişdi (1888-1890).

XIX əsrin sonu Avropa klassik memarlığının şəhər tikilişlərinə fəallıqla nüfuzetmə dövrü idi. Lakin bu memarlıq bir elə işləkliyi və kompozisiya üsulları və memarlıq formalarının inkişafı ilə, proporsiyaların incəliyi və ümumi görünüşün yüksək keyfiyyəti ilə seçilmirdi.

XIX əsrin 90-cı illərində Bakıya Peterburq Mülki Mühəndislər İnstitutunun İ.V.Qoslavski, K.B.Skureviç, İ.K.Ploşko, Z.b.Əhmədbəyov, Q.M.Termikelov və s. kimi istedadlı yetirmələrinin gəlişi şəhər memarlığının üslub istiqamətini müəyyən etdi [277]. Keçmişin müxtəlif üslublarının Bakı memarlarının yaradıcılığına geniş sirayət etməsinə baxmayaraq, şəhərin tikilişində klassik təməlli memarlıq üstünlük təşkil edirdi. Qoslavski, İsmayılov, Skureviç, Ploşko, Termikelov və başqa memarların işləri klassik memarlıqdan istifadənin mühüm mərhələsi oldu və Torqovaya küçəsi 50 ünvandakı yaşayış evinin (mülki mühəndis Q.M.Termikelov, 1912 il) və İctimai Məclisin yay binasının (həmin müəllif, 1910-1912-ci illər) tikintisində buna bir növ yekun vurulmuş oldu.

İctimai Məclis binasının həcm-fəza kompozisiyasının həllində məkanın relyefi önəmli rol oynadı, bu vəziyyət, memara onun imkanlarından memarlıq

*Bakı. K.A.Aşurovun yaşayış evinin layihəsi. Memar M.M.K.İsmayılov. 1896-cı il.*

kütlələrinin estetik ifadəsi üçün məharətlə faydalanmağa şərait yaratmışdı. Termikelov binanı şəhər mənzərəsində iştirak edən, çoxsaylı yelkənli gəmiləri olan Bakı buxtasına, üzü dənizə baxan terraslar üzərində tikdi.

Binanın memarlıq-bədii tərəflərinin tam açılımı üçün məntəqənin şərait xüsusiyyətlərinə maksimum diqqət tələb olunurdu, üstəlik də binanın həcminin qərar tutduğu bağın yaşıllığı ətraf fəzanın quruluşunda iştirak edirdi. Binanın memarlıq üslubunu ətraf mühitə uyğun bir şəkildə bacarıqla seçmək lazım gəlirdi. Palladian ruhundakı italyan renessansı tikilinin obraz həllinə daha uyğun idi. Termikelov da bu üslub üzərində dayandı.

Rusiyada italyan intibahının, xüsusilə A.Palladionun yaradıcılığının öyrənilməsini ilk mənbələrə görə İ.V.Joltovski [219] başlamış, sonralar isə V.A.Şuko, M.S.Lileviç, M.M.Peretyatkoviç və F.İ.Lidval davam etdirmişdilər [188, s.63]. Memarlıq sənətinin istedadlı təmsilçiləri, bəlli olduğu kimi, Bakıda da var idi. Müxtəlif memarlıq üslubları ilə işləyərkən, onlar italyan intibahına üstünlük verirdilər. İ.V.Qoslavski Bakıda 1892-1893-cü illərdə bu memarlıq üslubunda artıq bir sıra layihələr hazırlamışdı. Onun əl işlərindən olan H.Z.Tağıyev sarayının fasadında və onunla qonşu olan binada (indi Malıgın küçəsi 2) və eləcə də digər tikililərdə renessans təqdim edilmişdir [460]. Qoslavski, əsl rəssam kimi, zamanın memarlığının mahiyyətini anlamağa çalışır, lakin klassik keçmişin cazibədarlığını məharətlə və özünəməxsus tərzdə ifadə edirdi.

İctimai Məclisin layihəsində Termikelov da memarlıq həllinin belə bir yolunu seçmişdi. Bu qurma 1910-cu ildə rus memarlığının ümumi neoklassisizm məcrasında yaranan memarlıq kompozisiyasının bütün çalarlarını və incəliklərini





ifadə edən, fərdi obraz olaraq klassik memarlığa və sütunlara himndir [290, s.12].

Klassik memarlığın təsiri altında Abşeronda Balaxanı kənd qəbiristanında Eldarzadə ailəsinin məqbərəsi (1914) tikilmişdir. Burada yunan məbədinin quruluş prinsipi xatirə tikilisinin ifadəli kompozisiyasının əsası kimi götürülüb, lakin memarlıq və konstruktiv formalar sərbəst biçimdə traktobka olunur. Məqbərənin həcm-fəza həlli plastik və gözəl kompozisiyadan ibarətdir, incə daş oymalı klassik proporsiyalı akroteriyalı frontonlar bu xatirə tikilisinə xüsusi ifadə verir. Friz və aradivarlar üzərindəki ərəb yazısının epiqrafik hörməsi müsəlman dəfn yerinin məzmununu xatırladır.

Azərbaycan memarlığında müxtəlif üslub istiqamətləri ilə yanaşı qotik üslub da, kütləvi tikintidə olmasa da, yaşayış və mülki memarlığın ayrı-ayrı obyektlərində özünə yer tapır. Bu üslubda ilk tikililər Gəncə yaxınlığında kiçik məskənlər olan Yelenendorf və An-













*Bakı. Nikolayevskaya (Kommunist) küç-də tək ev layihəsi. Kəsim, fasad. Memar A.Koşinski. 1881-ci il.*









*Abşeron. Balaxanı kəndi. Eldarzadə ailəsinin məqbərəsi. Ümumi görünüş. 1914-cü il.*

nenfeld alman kəndlərində göründü, Gədəbəy mədənlərinin inzibati binalarında əksini tapdı.

Gədəbəydə iri sənaye kompleksinin sənaye və mülki obyektlərinin layihəçi-mühəndisləri Almaniyadan gəlmiş mədən sahiblərinin həmvətənləri idilər. Kəndin və mədənin Yelelendorfda və Annenfelddə kirxalar və Gədəbəy mədənlərinin əsas binası və s. kimi əhəmiyyətli tikililərinin roma-qotika üslubunda olması bundan doğurdu. Bu üslub istiqamətini daha parlaq ifadə edən ayin qurmaları mühüm yer tuturdu. Doğrudur, bu tikililər bir elə proporsiya zərifliyi, kompozisiyaların və memarlıq formalarının yüksək keyfiyyəti ilə seçilmirdi, onları fərqləndirən obraz həllinin sadəliyi və ifadəliliyi idi. Bütün bunlar, şübhəsiz, onların memarlıq-fəzan strukturunun açılmasına kömək edirdi. Ayin və inzibati binalarının qotik üslubda tikilməsi Bakının monumental qurmalarında bu üslubun daha da irəliləməsi üçün həlledici önəm kəsb edirdi.

Bakıda lüteran kirxası 1895-1897-ci illərdə A.V.Eyxlerdən Yelenendorf koloniyasındakı kirxanı xatırladan memarlıq obrazı yaratmağı tələb edən alman mənşəli sakinlərin təşəbbüsü ilə tikilmişdir. Bu dövrdə əsas bina tiplərinin müəyyən stilizatorçuluq sistemi artıq bərqərar olmuşdu: kirxa və kostyollar bir qayda olaraq qotik üslubda, təhsil müəssisələri və vağzallar – italyan renessansı üslubunda, teatr və konsert zalları – renessans və barokko üslubunda tikilirdi [135, 383].

Memar Eyxler Bakı kirxasının layihəsini hazırlayarkən Yelenendorf koloniya kilsəsinin nə memarlıq kompozisiyasını, nə də həcm həllini təkrarladı. Onun özünə xas dəst-xətti vardı.

Dərin erudisiya və yüksək peşəkarlıq Eyxlerə kirxanın memarlığını alman qoti-

*Gəncə. Yelenendorf kəndi. Kirxa binası. Ümumi görünüş. 1859-cu il. (Rəsm – Ş.S.Fətullayev).*










*Bakı. Telefonnaya (28 Aprel) küç. 17-də kirxa binası. Fasad. Memar A.B.Eyxler. 1895-1897-ci illər. (Rəsm – Ş.S.Fətullayev).*





*Bakı. Kostel layihəsi. Fasad, ümumi görünüş. Mülki mühəndis İ.K.Ploşko. 1912-ci il.*

kasının ən yaxşı ənənələrində işləyib hazırlamağa imkan verdi [474]. Tikinti və bəzək işlərinin yüksək keyfiyyəti kirxa binasını sıravi tikilişlərdən fərqləndirir.

Kirxanın bir qülləli vertikal kompozisiyası düz proporsiyalar, qurmanın əsas bölmələrinin aydın hissələnməsi, qotik elementlərin dekorativ izafiliyinə yol verilmədən həcm plastikliyi, eləcə də detalların səlis işlənməsi sayəsində olduqca ifadəlidir. Ciddi, bir qədər irəli çıxan səciyyəvi pilonlar dekorativ frontonla başa çatan mərkəzi portalın əhəmiyyətinə bir qədər kölgə salır, frontonun köbərləri krabblar və xaççiçəklə bəzədilmişdir. Heç şübhəsiz, Marburqdakı müqəddəs Yelizaveta kilsəsi Eyxlerə müəyyən dərəcədə ilham vermişdi, hərçənd burada həm qurmanın miqyası, həm də həcm-fəza kompozisiyasının həllində qarşıya qoyulan məsələ xeyli sadə idi.

Bakıda 1909-cu ildə qotik üslubda mülki mühəndis İ.Ploşkonun rəhbərliyi altında tamamilə fərqli memarlıq traktovkasında layihələşdirilən və inşa edilən digər maraqlı tikili - polyak mənşəli vətəndaşlar üçün müqəddəs Mariya katolik kostyolu idi [325].

Ploşko kostyol layihəsi üzərində işləyərkən Polşanın məşhur qotik kilsələrini təkrarlamadı, lakin bununla belə, polyak qotikasına xarakterik olan xüsusiyyətləri bədiiliklə ifadə etdi. Polyak qotikası, fransız ya alman qotikasına xas olan memarlıq və bəzək formalarının təmtəraqlığı və gözəlliyi ilə fərqlənmirdi. Polyak kostyollarının memarlığı daha sadədir, lakin memarlar öz kompozisiya və bəzək üsullarından istifadə edərək daha çox gözəllik əldə etdilər.

Bakı kostyolunun ön fasadı plastik ikiqülləli kompozisiya şəklində ifadə





olunur. Kostyolun yaxşı tapılmış silueti pillə-pillə tərtib edilən damüstü örtüyün iri köbər xətti ilə, köbər xətlərinin üzərindən çıxan millərin vertikal qabırğaları ilə, eləcə də damı krabblarla bəzədilmiş açıq tipli vəchli bürclərlə müəyyən edilir. Fasadın aşağı hissəsi sərt plastikliklə, ümumi kompozisiyaya münasib şəkildə daxil edilmiş portal və pəncərə-qızılgüllə qeyd olunur.

Yan fasadlar həcm strukturunun dəyərini gücləndirən kontrforslarla və arkbutanlarla hissələrə bölünüb.

Eyxlerin alman kirxası və Ploşkonun polyak kostyolu arasında Bakıda qotik üslubda bütöv bir sıra binalar tikilib, məsələn: Vorontsovskaya küçəsi 19-da yaşayış evi (mülki mühəndis İ.V.Qoslavski, 1895-1897), Persidskaya küçəsi 13-də Rotşildin kontoru (mülki mühəndis K.B.Skureviç, 1899), Nikolayevskaya küçəsi 10-da İsmailiyyə binası (mülki mühəndis İ.K.Ploşko, 1908-1913), Persidskaya küçəsi 6-da Muxtarov sarayı (mülki mühəndis İ.K.Ploşko, 1911-1912) və s.

Bu tikililərin əksəriyyəti qotikanın müxtəlif milli variantlarında ucaldılmışdır; onlar bu kimi qurmaları tikən memarların peşəkar ustalığını səciyyələndirən yüksək bədii özəlliklərə malikdir.

Vorontsovskaya küçəsi 19-dakı yaşayış evi qotikanın təravətli formalarında tikilən tamamilə müasir binadır. Memar özündəki daş memarlığına olan hüsnrəğbəti gizlətmir, onun bədii tərəflərini açmağa çalışır, üstəlik də ahəngdaşı bu özəllikləri üzə çıxarmağa imkan verirdi.

Bakıda üslubdakı İsmailiyyə binasının qotikası öz Venetsiya inikasında (Dojlar Sarayının təsiri olmamış deyil) daha parlaq təqdim olunur. Olduqca möhtəşəm və plastik bir şəkildə işlənmiş bu ikimərtəbəli saray, memarlıq kompozisiyalarının ziddiyyətləri üzərində qurulmaqla, dərin emosiya, memarın işinə və daşda memarlıq simfoniyası yaradan daş ustalarının məharətinə heyranlıq hissləri doğuran harmonik qurmadır. Burada Venetsiya qotikası oxvari tağların müsəlman formaları ilə Bakı mənzərəsinə sərbəstliklə uyuşur və öz italyan təməlini qoruyaraq, müəyyən dərəcədə yerli memarlıq ənənələrinə yaxınlaşır.

Ploşko İsmailiyyənin layihəsini hazırlayarkən qotikanın memarlıq motiv və formalarından, onların obrazın ifadəliliyini təravətli dekorativ elementlər və detallarla açan konstruktivlikliyindən ustalıqla istifadə etmişdir; bütün bunlar ona rəvac verib ki, bina yüksək bədii məzmun əldə etmişdir. Bu gün İsmailiyyə binasının Bakının mərkəzində nə kimi yer tutduğunu sübuta ehtiyac yoxdur. Nikolayevskaya küçəsinin baş hissəsində tikilən bina öz təntənəli və nəcib memarlıq kompozisiyası ilə hündürlük işarətində uğurla qərar tutmuşdur.

Əgər F.Şextelin Moskvada qotika üslubunda tikdiyi S.Morozovun sarayı "özü ilə bədii tendensiyaların dəyişməsində dönüş zamanını bildirir və beləliklə, bu və digər bədii üsullardan istifadədə dönüş hesab edilirsə" [158, s.20], buna çatmaq üçün Şextel ona qotikanı yenidən "kəşf etməyə" kömək edən bir sıra memarlıq axtarışlarından və fəlsəfi ümumiləşdirmələrdən keçib gəlmişdi. İsmailiyyə binasının qotikası Ploşkonun "kəşfi" deyildir, çünki A.Eyxler və İ.Qoslavski Bakıda bu istiqamətdə artıq müəyyən işlər görmüşdülər. Lakin Ploşko sələflərindən daha çox nailiyyət əldə etdi - İsmailiyyə Bakıda bu üslubun klassik əsərinə çevrildi.

Sənaye rəqabəti kapitalizm dövründə rəqabətin digər növlərini, o cümlədən memarlıq rəqabətini də doğururdu. Zənginləşmiş burjualar öz şöhrətpərəstliklərini təmin etmək üçün geniş memarlıq-tikinti proqramına xü-

*Bakı. Persidskaya (Poluxin) küç. 13-də Rotşildin kontor binası. Ümumi görünüş. 1898-1899-cu illər. Mülki mühəndis K.B.Skureviç.*





*Bakı. İsmailiyyə binası. Mülki mühəndis İ.K.Ploşko. 1908-1913-cü illər.*



*Bakı. İsmailiyyə binası. Fasad fraqmenti.*

susi məna verirdilər. Bu hal daha aydın şəkildə Muxtarovun sifarişində özünü göstərmişdi, Ismailiyyəni bərk xoşlayan Muxtarov öz sarayını, Ploşkonun onun üçün layihəni hazırlayarkən nəzərdə tutduğu milli-şərq üslubunda deyil, məhz qotika üslubunda tikdirməyi qərara almışdı.

Muxtarov sarayının binasının mərkəzini tində yerləşən qüllələr təşkil edir, fransız qotikasında çox incə işlənmiş detallı fasadları ilə seyrçinin qarşısında əzəmətlə dayanır [192]. Binanın təkcə krabbla və qotikanın digər bəzək elementləri ilə bəzənən baş portallı ümumi memarlıq kompozisiyası maraq doğurmur. Fasadın üzərində kəsişən tağları saxlayan nazik sütunlü lociyalar həcm plastikasının xüsusi bir aləmini yaradır. Əgər İsmailiyyədə obraz möhtəşəmliyi müşahidə olunursa, burada fransız qotikasının xəfifliyi və zərifliyi tam şəkildə açılır.

Binanın üslubu onun daşda genişlik və dərinliklə həkk olunan mahiyyətini müəyyən edir, memar daşın bədii keyfiyyətlərindən məharətlə maksimum istifadəyə can atmış və bunu bacarmışdı. Sarayın siluet kompozisiyası da az ifadəli deyidir, bu siluet ətraf tikilişlərin arasından öz fialları ilə effektliklə ucalır. Lakin sifarişçi memardan yerləşgələrin fərqli üslublarda işlənməsini tələb etdiyinə görə burada fasadların və interyerlərin vəhdəti mövcüd deyil. Qotika üslubunda ağac bəzəklə işlənmiş kitabxana möhtəşəmdir.

Muxtarov sarayı – bu üslub istiqamətində inşa edilən sanballı binalardan biridir və XX əsrin əvvələrində şəhərin ən yaxşı tikilisi idi. Qotik üslubda az say-










*Bakı. İsmailiyyə binası. İnteryer. Plan.*

*Bakı. Vorontsovskaya (Əzizbəyov) küç. 19-da yaşayış evi. Ümumi görünüş.*









*Bakı. Vorontsovskaya (Əzizbəyov) küç. 19-da yaşayış evi. Fasadlar. 1895-ci il. Mülki mühəndis İ.V.Qoslavski.*









*Bakı. Persidskaya (Poluxin) küç. 6-da Muxtarov sarayının binası. Ümumi görünüş və fasad fraqmenti. Mülki mühəndis. İ.K.Ploşko. 1911-1912-ci illər.*





da qurma ucaldılmasına baxmayaraq bu iki bina şəhərin memarlığına öz yüksək estetik keyfiyyətləri ilə daxildir və onun tikilişində sanballı yer tuturlar.

* * *

Azərbaycan memarlığı XVIII-XIX əsrlərin qovşağında mürəkkəb sosial-iqtisadi şəraitə baxmayaraq öz həyat qabiliyyətini qoruyub saxlayır, bu da ona ölkənin Rusiyanın kapitalist təsərrüfatının ümumi məcrasına düşməsindən sonra yeni əlverişli mühitdə inkişaf imkanı əldə etdi.

XIX-XX əsrin əvvəllərində Azərbaycan memarlığı bir-birinə təsir göstərən iki istiqamətdə inkişaf edir: bunlar - bina və qurmaların öz kompozisiya prinsipləri ilə yerli milli memarlıq və bütün üslubi istiqamətləri ilə Avropa memarlığıdır.

Yerli memarlıq məktəbləri müxtəlif məntəqələrdə milli memarlığın inkişafına yaradıcılıqları ilə yeni həyat verən memarların və xalq arasından çıxmış ustaların fəal iştirakı sayəsində, yaşayış və ictimai qurmaların fərdi simasının inkişafına və qorunub saxlanılmasına kömək edirdilər.

Avropa üslubunda çalışan memarlar öz işlərində yerli memarlığın xüsusiyyətlərindən istifadə etməyə çalışır, binaların həcm-fəza kompozisiyalarında onların bədii mahiyyətini daha aydın göstərən üsullardan istifadə edirdilər. XIX əsrin sonlarının memarlarında yerli memarlığa olan bu maraq gələcəkdə Azərbaycan memarlığında milli-romantik istiqamətin yaranmasına səbəb oldu.

Milli-romantik istiqamətdə qurubyaradan mülki mühəndislər İ.V.Qoslavski, K.B.Skureviç, İ.K.Ploşko, Z,b.Əhmədbəyov və Q.M.Termikelovun yaradıcılığı yerli memarlıq irsinə hörmətin və onun xüsusiyyətlərini tənqidi dərketmənin nəticəsidir.



*İmran Hacıqasımov – Bakıda bütün monumental qurmaların, o cümlədən Muxtarov sarayının (1911-ci il) inşaatçısı.*

Yerli üslubi xüsusiyyətlər qorunan zaman Azərbaycanda, xüsusilə Bakı, Gəncə, Naxçıvanda Avropa tarixi üslubları da inkişaf etməyə başladı. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərinin tikililərinin eklektika və stilizatorçuluğuna baxmayaraq bu üsulların şəhər tikililərində özünü göstərməsi Azərbaycanın sovet dövrü memarlığının formalaşmasının təməlini təşkil etməklə, Azərbaycan memarlığının inkişafında yeni mərhələ idi.

*Bakı. Persidskaya (Poluxin) küç. 6-da Muxtarov sarayının binası. Mərkəzi hissə. Portal. Mülki mühəndis. İ.K.Ploşko. 1911-1912-ci illər.*

# XÜLASƏ

Ölkə Rusiyaya birləşdirildikdən sonra yaranan ictimai-iqtisadi və siyasi şərait sayəsində və kapitalist münasibətlərinin digər müsəlman Şərq ölkələrindən tez inkişaf etməsi üzündən, Azərbaycan memarlığı XIX əsrin sonu - XX əsrin əvvəllərində yalnız Azərbaycan memarlıq tarixində deyil, Yaxın və Orta Şərqin memarlığında da xüsusi yer tutur.

Bu vəziyyət XIX – XX əsrin əvvəllərinin Azərbaycan memarlığını müsəlman Şərqinin geniş məkanında müstəsna dəyərə malik təzahür kimi gözdən keçirməyə məcbur edir, bu vaxtlar memarlığın inkişafında memarların iradi yaradıcılıq təşəbbüsləri fəal surətdə üzə çıxmış, şəhərlərin tikilişi isə ümumi yüksəlişə və abadlaşdırmaya rəvac verən müəyyən tənzimləyici istiqamət əldə etmişdir.

Rusiyaya birləşdirildikdən sonra Azərbaycanın şəhərsalmasına tamamilə yeni memarlıq və planlaşdırma xarakterli tamamilə yeni təzahürlər nüfuz etmiş, şəhərlərin memar-şəhərsalıcının iştirakı olmadan yaranan nizamsız və sistemsiz strukturu onların təsiri altında zahirən xeyli dərəcədə dəyişmişdi. İlk öncə bu şəhərin baş planının tərtibi, şəhərlərdə aparılan ibtidai şəhərsalma tədbirləri, məsələn, magistral və ikinci dərəcəli yolların salınması, şəhərin tikilişini nizamlamaq məqsədilə onun ayrı-ayrı hissələri arasında qarşılıqlı əlaqə, şəhərsalma intizamının tətbiqi və Azərbaycan şəhərlərinin bundan sonrakı planlı inkişafı üçün zəruri şəraitin yaradılması idi.

Kapitalist münasibətlərinin inkişafı ilə bağlı XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan şəhərləri memarlıq-planlaşdırma baxımından mühüm dəyişikliklərə məruz qaldılar; onların arasında neft sənayesinin mərkəzi olaraq Rusiyanın ən iri şəhərlərinin sırasına daxil olan Bakı xüsusilə seçilir.

Azərbaycanda şəhərsalmanın inkişaf prosesində tarixi şəhərlərin planlaşdırma strukturunun dəyişməsi ilə yanaşı, XIX-XX əsrlərin qovşağında şəhərlərə çevrilən xeyli yaşayış məntəqəsi meydana gəldi, onlarda yerli təbiət və iqlim xüsusiyyətləri nəzərə alınmaqla dövrün ümumi şəhərsalma tendensiyası əksini tapdı. Onların yeni baş planlarının əsasını təşkil edən aydın və dəqiq planlaşdırma sisteminə malik olan bu şəhərlərin rolu və əhəmiyyəti sosialist yenidənqurması zamanı xüsusilə gözə çarpmağa başladı. Azərbaycanın müəyyən sosial-iqtisadi şəraitdə inkişaf edən bütün tarixi və yeni şəhərlərini coğrafi və mədəni-məişət faktorları səbəbincə özünəməxsus və spesifik cizgilər fərqləndirir.

XIX əsrin ikinci yarısından Azərbaycanın şəhər və yaşayış məntəqələrində, ölkənin müxtəlif bölgələrinin memarlıq-planlaşdırma ənənələrindən asılılıqda fərdi xüsusiyyət kəsb etmiş ən müxtəlif tipli yaşayış evləri ilə güclü tikilişi gedirdi. Yaşayış evləri tiplərinin fərqliliyini müxtəlif bölgələrdə geniş təmsil olunan kompozisiya üsullarının, dekorativ elementlərin və motivlərin və konstruktiv həllin zənginliyi müəyyən etmişdir. Şəhər evlərinin bütün tipləri arasında Bakının yaşayış evləri kompozisiyanın peşəkarlıqla işlənmiş olması və detalların çəkilmə mədəniyyəti ilə seçilir.

Yaşayış evləri tikintisi ilə yanaşı, inzibati-ictimai qurmaların Azərbaycan memarlığında indiyədək nə forması, nə də məzmunu ilə məlum olan, ölkədə kapitalist münasibətlərin inkişafı nəticəsində üzə çıxmış yeni tiplərinin tikintisi də aparılırdı. Ənənəvi karvansaralar, hamamlar və ayin qurmaları ilə birgə şəhər dumalarının, idarə və bank binalarının, teatr və konsert zallarının, yeni tip mehmanxanaların və təhsil müəssisələrinin tikintisi Azərbaycan şəhərlərinin və yaşayış yerlərinin tikilişinə yeni keyfiyyət prinsipləri gətirdi.

Azərbaycan şəhərlərinin XVIII əsrdəki tikilişi və memarlıq siması şəhərsalma və memarlığın XIX-XX əsrin əvvəllərindəki ümumi inkişaf tempi ilə heç cür müqayisə oluna bilməz, çünki onlar memarlıq dəyərinin əks qütblərində dayanmışlar. Bu xüsusilə də, onların monumental fasadları, həcm traktovkaları və memarlıq formalarının verilməsi ilə ölkənin bütün bölgələrinin, o cümlədən Bakı-Abşeron və Şəki-Zaqatala bölgələrinin ayin qurmaları üçün səciyyəvidir. XVIII əsr və hətta XIX əsrin əvvəlləri yeni ictimai-iqtisadi şəraitdə yerli memarlığın cizgilərinin bu qədər parlaq və özünəməxsus şəkildə əks olunduğu qurmaların bu sayaq miqyasını və həcm həllini görməmişdi. Kompozisiyaların zənginliyi, memarlıq və konstruktiv formaların müxtəlifliyi, fasadların ciddiliyi və plastikliyi Azərbaycanın ayin qurmalarının üslub istiqamətini və onların şəhərlərin və yaşayış yerlərinin şəhərsalma strukturundakı xüsusi yerini müəyyən edir.

XIX əsrin son rübündə sənayenin və dəmiryol nəqliyyatının inkişafı Azərbaycanın bir çox şəhərlərinin ümumi iqtisadi tərəqqisinə əhəmiyyətli dərəcədə kömək etdi. Lakin sənaye tikintisi, Azərbaycan iqtisadiyyatında və şəhərsalmasında mühüm yer tutan Bakı istisna olmaqla, bu şəhərlərin simasını müəyyən etmirdi. Bakının inkişafı üçün sənaye həlledici əhəmiyyətə malik idi və bu, ölkənin iqtisadi potensialında da əksini tapırdı.

Bakının məhz neftçıxarma və neft emalı sənayesi Azərbaycan sənaye memarlığının geniş miqyasda qərarlaşmasına və inkişafına səbəb oldu, mülki tikinti obyektlərinin rasional planlaşdırması və konstruktiv həllinin yaranmasına təsir göstərdi.

Dəmiryol nəqliyyatı obyektləri və körpü tikintisi də az maraq doğurmurdu. Çoxaşırımlı şəbəkəli dəmir və daş konstruksiyaların yaradılması Azərbaycan memarlığının bu sahəsində yeni addım olmuşdur.

Köhnə memarlıq ənənələri məcrasında əsasən yerli milli memarlığın üstünlük təşkil etdiyi müsəlman Şərq ölkələrindən fərqli olaraq, XIX-XX əsrin əvvəllərinin Azərbaycan memarlığı, ölkə Rusiyaya birləşdirildikdən sonra iki istiqamətdə: dərin milli ruhlu yerli və Avropa memarlığı istiqamətində inkişaf etməyə başladı. Lakin bu iki memarlıq istiqaməti XIX əsrin birinci yarısınadək mahiyyətcə müstəqil surətdə inkişaf edirdi. Hər iki istiqamət bir-birinə yad idi və bu səbəbdən yeni memarlıq prinsiplərinin mahiyyətini əks etdirmirdilər. Tədricən, şəhər tikintisi genişləndikcə yerli milli memarlıq məktəbi və Avropa memarlığı arasında mövcud olan manea hər iki istiqamət tərəfindən aradan qaldırıldı, ardınca gözəçarpan qarşılıqlı təsir şəraitində yanaşı inkişaf etməyə başladılar ki, bu da yerli memarlığın özünəməxsus üslub istiqamətinin yaranmasına rəvac verdi.

Müəllif tərəfindən illüstrativ, arxiv, sənədli və ədəbi mənbələr, başlıcası da şəhərlərin və yaşayış yerlərinin natura

müayinəsi materialları bazasında bütöv bir yüzilin memarlığının araşdırılması nəticəsində Azərbaycan memarlığı tarixinin ən az tədqiq edilmiş və ən çox ziddiyyətləri olan epoxasını ardıcıllıqla açıb göstərmək mümkün olmuşdur.

Bu epoxa, ziddiyyətlərinə baxmayaraq, şəhərin tarixi məhəllələrinə daxil olan və birlikdə dəyəri müasir şəhərsalmada heç bir şübhə doğurmayan həmin şəhərsalma toxumasını təşkil edən çox böyük memarlıq mirası qoymuşdur; bu miras xalqımızın qiymətli sərvəti olaraq dövlət tərəfindən qorunmalıdır.

Mədəni irsin böyük əhəmiyyəti hələ 1918-ci ildə Sovet hökumətinin V.İ.Lenin tərəfindən imzalanmış: onun dövlət tərəfindən mühafizəsi haqqında dekreti ilə qeyd olunmuşdur. Leninin bu müddəalarının əhəmiyyətini bütün ittifaq respublikalarında, o cümlədən Azərbaycanda tarix və mədəniyyət abidələrini mühafizə cəmiyyətlərinin yaranması təsdiqləyir.

Mədəni irs haqqında müddəalar şəhərlərin inkişafının, yenidənqurmasının qarşısında və müasir şəhərsalmanın qarşısında duran vəzifələrin işığında bu araşdırmanın məqsədyönlülüyündən və aktuallığından söz açır. Gözdən keçirilən dövrün çox böyük Azərbaycan memarlıq irsi böyük elmi və praktik əhəmiyyət daşıyır, çünki onda bütöv bir epoxanın inkişafı əksini tapmış, bu dövrdə Yaxın Şərq ölkələri memarlığının fonunda orijinal memarlıq istiqaməti formalaşmışdır. Bu mirası gələcək nəsillər üçün qoruyub saxlamaq gərəkdir.



# ƏLAVƏLƏR

Əlavə 1

## Monoqrafiya müəllifinin araşdırdığı, "Azərbaycan memarlıq abidələrinin toplusu"na daxil edilmiş və dövlət mühafizəsi altına alınmaq üçün tövsiyə edilmiş memarlıq əsərlərinin SİYAHISI

| № | Ünvan | Obyekt | Tarix | Müəllif |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | BAKI | | | |
| 1. | Əzizbayov küç., ev 4 | Adamovların yaşayış evi | 1867-1895 | |
| 2. | — — ev 6 | Yaşayış evi | 1886 | |
| 3. | — — ev 7 | — — | 1900 | |
| 4. | — — ev 8 | — — | 1896 | |
| 5. | — — ev 9 | — — | 1898 | |
| 6. | — — ev 10 | — — | 1900 | |
| 7. | — — ev 11 | — — | 1890 | |
| 8. | — — ev 12 | — — | 1880 | |
| 9. | — — ev 13 | Məlikovların yaşayış evi | 1900 | |
| 10. | — — ev 16 | Yaşayış evi | 1890 | |
| 11. | — — ev 19* | Məlikovların yaşayış evi | 1895 | Mülki müh. İ.V.Qoslavski |
| 12. | — — ev 20 | Yaşayış evi | 1880 | |
| 13. | — — ev 21 | — — | 1896 | |
| 14. | — — ev 23 | — — | 1898 | |
| 15. | — — ev 25 | — — | 1886 | Müh. N.A.fon der Nonne |
| 16. | — — ev 36 | — — | 1890 | Memar M.M.Q.İsmayılov |
| 17. | — — ev 40 | Terentyevin araq zavodu | 1883 | Müh. N.A.fon der Nonne |
| 18. | — — ev 49 | Yaşayış evi | 1902 | Mülki müh. Q.M.Termikelov |
| 19. | Əliyev küç., ev 102 | — — | 1916 | |
| 20. | — — ev 115 | — — | 1900 | |
| 21. | — — ev 124 | — — | 1900 | |
| 22. | — — ev 153 | — — | 1890 | |
| 23. | — — ev 163 | — — | 1900 | |
| 24. | — — ev 203 | — — | 1908 | |
| 25. | — — ev 204 | Məlikovların yaşayış evi | 1900 | |

* *Ulduzla işarə edilmiş binalar Azərb. SSR NS tərəfindən təsdiq edilmiş 2 aprel 1988-ci il tarixli 140 saylı memarlıq abidələri siyahısına daxil edilmişlər.*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 26. | Əliyev küç., ev 205 | Yaşayış evi | 1902 | |
| 27. | Abşeronskaya küç., ev 7 | Fiqarovların yaşayış evi | 1909 | Mülki müh. N.Q. Bayev |
| 28. | H.Aslanov küç., ev 3 | Yaşayış evi | 1907 | |
| 29. | — — ev 5 | — — | 1908 | |
| 30. | — — ev 11 | — — | 1894 | |
| 31. | — — ev 13 | — — | 1897 | |
| 32. | — — ev 21 | — — | 1908 | |
| 33. | — — ev 23 | Qasım bəy məscidi | 1896 | Memar M.M.Q.İsmayılov |
| 34. | — — ev 31 | Yaşayış evi | 1896 | |
| 35. | — — ev 32 | — — | 1900 | |
| 36. | — — ev 36 | — — | 1894 | |
| 37. | — — ev 37 | — — | 1908 | |
| 38. | — — ev 52 | — — | 1900 | |
| 39. | — — ev 53 | — — | 1909 | |
| 40. | — — ev 55 | — — | 1889 | |
| 41. | — — ev 56 | — — | 1911 | |
| 42. | — — ev 80 | — — | 1908 | |
| 43. | — — ev 85 | — — | 1872-1887 | |
| 44. | — — ev 113 | — — | 1910 | |
| 45. | Bayramov küç., ev 8 | — — | 1886 | Müh. N.A.fon der Nonne |
| 46. | — — ev 10 | — — | 1892 | |
| 47. | — — ev 16 | — — | 1908 | |
| 48. | — — ev 17 | Quliyevlərin yaşayış evi | 1911 | Mülki müh. F.A.Nikulin |
| 49. | — — ev 18 | Yaşayış evi | 1900 | |
| 50. | — — ev 19 | — — | 1889 | |
| 51. | — — ev 23 | Mayılov qardaşlarının yaşayış evi | 1891 | Memar M.M.Q.İsmayılov |
| 52. | — — ev 24 | Yaşayış evi | 1894 | Memar A. Varşamov |
| 53. | Basin küç., ev 27 | — — | 1900 | |
| 54. | — — ev 29 | Əzizbəyov ad.xəstəxana binaları kompleksi | 1888-1913 | N.A.fon der Nonne, İ.V.Qoslavski, Z.b.Əhmədbəyov |
| 55. | — — ev 33 | Rzayevin yaşayış evi | 1894 | Memar İ.V.Edel |
| 56. | — — ev 39 | İsa bəy və Kazım bəy Hacinskinin yaşayış evi | 1908 | |
| 57. | — — ev 61 | Oğlanlar gimnaziyasının binası | 1911-1913 | Mülki müh. K.A. Borisoqlebski |
| 58. | Buynakski küç., ev 3 | Yaşayış evi | 1913 | Mülki müh. V.S. Sərkisov |
| 59. | — — ev 8 | Yaşayış evi | 1896 | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 60. | Buynakski küç., ev 9 | Yaşayış evi | 1897 | |
| 61. | — — ev 10 | — — | 1889 | |
| 62. | — — ev 11 | — — | 1901 | |
| 63. | — — ev 12 | — — | 1895 | |
| 64. | — — ev 13 | — — | 1898 | |
| 65. | — — ev 14 | — — | 1886 | |
| 66. | — — ev 17 | — — | 1897 | |
| 67. | — — ev 29 | H.Z.Tağıyevin yaşayış evi | 1899 | |
| 68. | Vidadi küç., ev 33 | Yaşayış evi | 1890 | |
| 69. | — — ev 73 | — — | 1910 | |
| 70. | — — ev 88 | — — | 1904 | |
| 71. | — — ev 89 | — — | 1887 | |
| 72. | — — ev 105 | — — | 1912 | |
| 73. | — — ev 133 | — — | 1896 | |
| 74. | — — ev 140 | Rzayevin yaşayış evi | 1909 | |
| 75. | — — ev 141 | Yaşayış evi | 1910 | |
| 76. | — — ev 149 | — — | 1912 | |
| 77. | — — ev 152 | — — | 1911 | |
| 78. | — — ev 179 | — — | 1893 | |
| 79. | Ü.Hacıbəyov küç., ev 1 | — — | 1896-1902 | Mülki müh. A.S.Kandinov, Q.M.Termikelov |
| 80. | — — ev 3 | — — | 1896 | |
| 81. | — — ev 5 | — — | 1897 | |
| 82. | — — ev 7 | — — | 1897 | |
| 83. | — — ev 8 | — — | 1907 | |
| 84. | — — ev 9 | — — | 1906 | |
| 85. | — — ev 15-17 | — — | 1896 | |
| 86. | — — ev 19 | — — | 1909 | |
| 87. | — — ev 21 | — — | 1900 | |
| 88. | — — ev 24 | — — | 1912 | |
| 89. | — — ev 25 | — — | 1900 | |
| 90. | Hacıyev küç., ev 9 | Karvansara | 1885 | Mülki müh. N.P.Tverdoxlebov, A.S. Kandinov |
| 91. | Qoqol küç., ev 3 | Yaşayış evi | 1890 | |
| 92. | — — ev 4 | — — | 1880 | |
| 93. | — — ev 9 | Şəmsi Əsədullayevin yaşayış evi | 1896 | Memar İ.V.Edel |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 94. | Qoqol küç., ev 12 | Yaşayış evi | 1911 | |
| 95. | – – ev 13 | – – | 1897 | |
| 96. | – – ev 15 | – – | 1912 | |
| 97. | – – ev 16 | Murtuza Muxtarovun yaşayış evi | 1896-1910 | Memar İ.V.Edel, mülki müh. İ.K.Ploşko |
| 98. | – – ev 20 | Baylərovun yaşayış evi | 1908 | Mülki müh. İ.K.Ploşko |
| 99. | – – ev 28 | Bala bəy Aşurbəyovun yaşayış evi | 1904 | Mülki müh. İ.V.Qoslavski |
| 100. | Qorku küç., ev 3 | Yaşayış evi | 1886 | |
| 101. | – – ev 5 | – – | 1886 | |
| 102. | – – ev 7 | – – | 1896 | |
| 103. | – – ev 10 | – – | 1909 | |
| 104. | – – ev 11 | – – | 1889 | |
| 105. | – – ev 13 | – – | 1911 | |
| 106. | – – ev 18 | – – | 1889 | |
| 107. | – – ev 32 | – – | 1901 | |
| 108. | – – ev 33 | – – | 1903 | |
| 109. | – – ev 34 | – – | 1904 | |
| 110. | Verxnaya Naqornaya küç., ev 32 | Haşımovun məscidi | 1899-1908 | Memar A.V.Eyxler |
| 111. | C.Cabbarlı küç., ev 4 | K.A.Hacıyevin yaşayış evi | 1912-1914 | Memar A.Polyakov |
| 112. | – – ev 12 | K.İ.Hacıyevin yaşayış evi | 1912 | Mülki müh. İ.K.Ploşko |
| 113. | – – ev 14 | Yaşayış evi | 1900 | |
| 114. | – – ev 15 | – – | 1900 | |
| 115. | – – ev 18 | – – | 1899 | |
| 116. | – – ev 24 | – – | 1899 | |
| 117. | – – ev 28 | – – | 1900 | |
| 118. | Caparidze küç., ev 3 | Olqinskaya küçəsindəki mağazalar | 1912 | Mülki müh. K.A.Borisoqlebski |
| 119. | – – ev 4 | Tağıyev pasajı (univermaq) | 1898 | Mülki müh. K.B.Skureviç |
| 120. | – – ev 6 | Lalayev pasajı | 1883-1896 | Mülki müh. N.P.Tverdoxlebov, memar Y.Y.Skibinski |
| 121. | – – ev 8 | Lalayevin yaşayış evi | 1870-ci illər | |
| 122. | Dmitrov küç., ev 21 | Yaşayış evi | 1910 | |
| 123. | 28 aprel küç., ev 3 | – – | 1897 | |
| 124. | – – ev 4-6 | Musa Nağıyevin yaşayış evləri | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 125. | – – ev 5 | Yaşayış evi | 1895 | Memar İ.V.Edel |
| 126. | – – ev 7 | – – | 1890 | |
| 127. | – – ev 9 | – – | 1890 | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 128. | 28 aprel küç., ev 10 | Musa Nağıyevin yaşayış evi | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 129. | – – ev 11 | Yaşayış evi | 1910 | |
| 130. | – – ev 14 | – – | 1911 | |
| 131. | – – ev 15 | Yaşayış evi və kirxa | 1896 | |
| 132. | – – ev 17 | Yaşayış evi və kirxa | 1895-1897 | Memar A.V.Eyxler |
| 133. | – – ev 28 | Yaşayış evi | 1908 | |
| 134. | Zevin küç., ev 1 | – – | 1897 | |
| 135. | – – ev 2 | – – | 1886 | |
| 136. | – – ev 3 | – – | 1898 | |
| 137. | – – ev 4 | Dadaşovun yaşayış evi | 1912 | |
| 138. | – – ev 5-7 | Yaşayış evi | 1890 | |
| 139. | – – ev 6 | – – | 1896 | Memar O. Simonson |
| 140. | – – ev 9 | Mixaylovsk küçəsində mağazalar | 1899 | |
| 141. | – – ev 11 | Hacıbaba Haşımovun yaşayış evi | 1908 | |
| 142. | Kamo küç., ev 44 | Yaşayış evi | 1900-cü illər | |
| 143. | Qarayev küç., ev 4 | – – | 1909 | |
| 144. | – – ev 12 | Mehdiqulu bəy Aşurbəyovun yaşayış evi | 1899 | |
| 145. | – – ev 14 | Yaşayış evi | 1909 | |
| 146. | – – ev 19 | Bazar-passaj | 1913 | Mülki müh. A.A.Nikitin |
| 147. | Ketsxoveli küç., ev 103 | Yaşayış evi | 1909 | |
| 148. | Q.İsmayılov küç., ev 5 | Əmiraslanovun yaşayış evi | 1912 | Müh. Hacı bəy Axundov |
| 149. | – – ev 8 | Yaşayış evi | 1897 | |
| 150. | – – ev 9 | – – | 1911 | |
| 151. | – – ev 12 | – – | 1886 | |
| 152. | – – ev 16 | – – | 1887 | |
| 153. | – – ev 19 | Hacı Qurban Aşurovun hamamı | 1886 | |
| 154. | – – ev 30 | Yaşayış evi | 1900 | |
| 155. | – – ev 35 | – – | 1903 | |
| 156. | – – ev 48 | Hamam | 1886 | |
| 157. | – – ev 66 | Yaşayış evi | 1901 | |
| 158. | – – ev 71 | – – | 1903 | |
| 159. | – – ev 82 | – – | 1900 | |
| 160. | – – ev 89 | Ağa Səmədin hamamı | 1900-cü illər | |
| 161. | – – ev 92 | Yaşayış evi | 1904 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 162. | Q.İsmayılov küç., ev 125 | Yaşayış evi | 1897 | |
| 163. | — — ev 130 | — — | 1899 | |
| 164. | — — ev 133 | — — | 1911 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 165. | — — ev 135 | — — | 1902 | |
| 166. | — — ev 137 | — — | 1910 | |
| 167. | Korqanov küç., ev 4 | — — | 1886 | |
| 168. | — — ev 6 | — — | 1891 | |
| 169. | — — ev 7 | Zeytsin yaşayış evi | 1895 | |
| 170. | — — ev 8 | Yaşayış evi | 1893 | |
| 171. | — — ev 9 | Dildarovun yaşayış evi | 1897 | |
| 172. | — — ev 10 | Yaşayış evi | 1892 | |
| 173. | — — ev 11 | Dadaşovun yaşayış evi | 1916 | Mülki müh. F.A.Nikulin |
| 174. | — — ev 14 | Tağıyev qardaşlarının yaşayış evi | 1912 | Mülki müh. Q.M.Termikelov |
| 175. | — — ev 21 | Yaşayış evi | 1899 | Mülki müh. İ.V.Qoslavski |
| 176. | — — ev 23 | Musa Nağıyevin yaşayış evi | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 177. | — — ev 24 | Yaşayış evi | 1904 | |
| 178. | — — ev 27 | — — | 1908 | |
| 179. | — — ev 31 | — — | 1910 | |
| 180. | — — ev 89 | — — | 1903 | Mülki müh. İ.K.Ploşko |
| 181. | — — ev 97 | — — | 1901 | |
| 182. | Kommunist küç., ev 21 | Sadıqov qardaşlarının yaşayış evi* | 1912 | Mülki müh. Q.M.Termikelov |
| 183. | — — ev 2 | İctimai Məclis* (Filarmoniya) | 1912 | Eyni |
| 184. | — — ev 4 | Bakı Şəhər Duması (Bakı Soveti) | 1900-1904 | Mülki müh. İ.V.Qoslavski |
| 185. | — — ev 6 | Orta məktəb | 1901-1904 | Mülki müh. D.D.Buynov |
| 186. | — — ev 8 | H.Z.Tağıyevin qızlar məktəbi | 1898-1901 | Mülki müh. İ.V.Qoslavski |
| 187. | — — ev 10 | "İsmailiyyə"* (Azərb SSR EA)* | 1908-1913 | Mülki müh. İ.K.Ploşko |
| 188. | — — ev 25 | Yaşayış evi | 1892 | Mülki müh. İ.V.Qoslavski |
| 189. | — — ev 27 | — — | 1893 | Eyni |
| 190. | — — ev 31 | Mirzəbəyovların yaşayış evi | 1917 | Mülki müh. V.S.Sərkisov |
| 191. | — — ev 33 | Müq.Nina məktəbi | 1888 | Mülki müh. D.D.Buynov |
| 192. | — — ev 35 | Babayevin yaşayış evi | 1886 | Memar M.M.Q.İsmayılov |
| 193. | — — ev 37 | Yaşayış evi | 1901 | |
| 194. | — — ev 39 | — — | 1910 | |
| 195. | — — ev 41 | — — | 1912 | Mülki müh. İ.K.Ploşko |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 196. | Krupskaya küç., ev 25 | Yaşayış evi | 1899 | |
| 197. | — — ev 40 | Aşurovun hamamı | 1883 | Müh. F.A.Lemkul |
| 198. | — — ev 57 | Yaşayış evi | 1896 | |
| 199. | — — ev 62 | — — | 1902 | |
| 200. | — — ev 65 | — — | 1901 | |
| 201. | — — ev 70 | — — | 1897 | |
| 202. | — — ev 74 | — — | 1907 | |
| 203. | — — ev 76 | — — | 1896 | |
| 204. | — — ev 78 | — — | 1904 | |
| 205. | — — ev 80-82 | — — | 1900-cü illər | |
| 206. | Kirov küç., ev 8 | — — | 1892 | Memar İ.V.Edel |
| 207. | — — ev 29 | — — | 1898 | |
| 208. | — — ev 63 | Şəmsi Əsədullayevin yaşayış evi | 1914 | |
| 209. | Karaul döngəsi, ev 8 | Əlibəyovların yaşayış evi | 1902 | Memarlıq akad. A.Prokofyev |
| 210. | Lenin pr., ev 20 | Texniki peşə məktəbi | 1900 | Mülki müh. İ.V.Qoslavski |
| 211. | — — ev 25 | Yaşayış evi | 1900 | |
| 212. | — — ev 32 | Yaşayış evi | 1912 | Memar A.Polyakov |
| 213. | — — ev 37 | — — | 1912 | |
| 214. | — — ev 43 | — — | 1910 | |
| 215. | — — ev 49 | Kirxa (kinoteatr) | 1901 | |
| 216. | — — ev 66 | Məktəb | 1910 | |
| 217. | Malıgin küç., ev 3 | Şimal bankı | 1903-1905 | |
| 218. | — — ev 4 | H.Z.Tağıyev sarayı | 1893-1902 | Mülki müh. İ.V.Qoslavski |
| 219. | — — ev 5 | Yaşayış evi | 1890 | |
| 220. | — — ev 6 | — — | 1896 | Memar Y.Y.Skibinski |
| 221. | — — ev 7 | — — | 1898 | Mülki müh. İ.V.Qoslavski |
| 222. | — — ev 8 | — — | 1899 | |
| 223. | — — ev 10 | — — | 1896 | |
| 224. | — — ev 11 | — — | 1914 | |
| 225. | — — ev 12 | — — | 1896 | |
| 226. | — — ev 13 | Musa Nağıyevin "Yeni Avropa" mehmanxanası | 1913 | Mülki müh. İ.K.Ploşko |
| 227. | — — ev 14 | Yaşayış evi | 1904 | |
| 228. | — — ev 17 | — — | 1887 | |
| 229. | — — ev 16-18 | — — | 1912 | Memar A.Polyakov |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 230. | Məmmədəliyev küç., ev 1 | – – | 1893 | Mülki müh. İ.V.Qoslavski |
| 231. | – – ev 2 | – – | 1912 | Mülki müh. A.A.Nikitin |
| 232. | – – ev 7 | – – | 1886 | |
| 233. | – – ev 8 | – – | 1890 | Memar Y.Y.Skibinski |
| 234. | – – ev 9 | – – | 1888 | |
| 235. | – – ev 10 | Yaşayış evi | 1892 | |
| 236. | – – ev 11 | Rılskilərin yaşayış evi | 1912 | Mülki müh. İ.K.Ploşko |
| 237. | – – ev 12 | – – | 1896 | Memar Y.Y.Skibinski |
| 238. | – – ev 13 | – – | 1897 | |
| 239. | – – ev 14 | – – | 1912 | |
| 240. | – – ev 15 | Yaşayış evi | 1900 | |
| 241. | – – ev 16 | – – | 1900 | |
| 242. | – – ev 19 | – – | 1914 | Mülki müh. A.A.Nikitin |
| 243. | – – ev 20 | – – | 1896 | Memar İ.V.Edel |
| 244. | M Hüseyn küç., ev 61 | – – | 1906 | |
| 245. | – – ev 79 | Axundovun yaşayış evi | 1912 | Müh. Hacı bəy Axundov |
| 246. | – – ev 80 | Yaşayış evi | 1911 | |
| 247. | – – ev 86 | – – | 1911 | |
| 248. | Mirzə Fətəli küç., ev 1-3 | – – | 1909 | |
| 249. | – – ev 5 | – – | 1900 | |
| 250. | – – ev 28 | – – | 1887 | |
| 251. | – – ev 43 | – – | 1904 | |
| 252. | – – ev 45 | – – | 1909 | |
| 253. | – – ev 52 | – – | 1898 | |
| 254. | – – ev 105 | Qoşa hamam | 1889 | |
| 255. | P.Montin küç., ev 35 | Yaşayış evi | 1897 | |
| 256. | – – ev 36 | – – | 1896 | |
| 257. | – – ev 44 | – – | 1889 | |
| 258. | – – ev 51 | – – | 1888 | |
| 259. | – – ev. 52 | – – | 1908 | |
| 260. | – – ev 65 | – – | 1910 | |
| 261. | – – ev 74 | – – | 1908 | |
| 262. | – – ev 91 | – – | 1895 | |
| 263. | – – ev 94 | – – | 1884 | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 264. | P.Montin küç., ev 116 | – – | 1899 | |
| 265. | Müsəvi küç., ev 7 | Yaşayış evi | 1884 | |
| 266. | Mustafa Sübhi küç., ev 15 | – – | 1904 | |
| 267. | – – ev 28 | Təzəpir məscidi | 1905-1914 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 268. | – – ev 63 | Yaşayış evi | 1908 | |
| 269. | – – ev 121 | Hacıyevin yaşayış evi | 1910 | |
| 270. | Muxtadır küç., ev 3 | Mitrofanovun yaşayış evi | 1903 | Memar İ.V.Edel |
| 271. | Myasnikov küç., ev 3 | Yaşayış evi | 1892 | Mülki müh. A.S.Kandinov |
| 272. | – – ev 4-6 | – – | 1897 | |
| 273. | – – ev 5 | Tiflis Kommersiya Bankı | 1901 | Mülki müh. A.Kalqin, Q.Termikelov |
| 274. | – – ev 8 | Kolesnikovun yaşayış evi | 1891 | Memar İ.V.Edel |
| 275. | – – ev 14 | Yaşayış evi | 1916 | Mülki müh. A.A.Nikitin |
| 276. | Neftçilər pr., ev 65 | Əmiraslanovun yaşayış evi | 1907 | Mülki müh. İ.K.Ploşko |
| 277. | – – ev 81 | Dadaşovun yaşayış evi | 1911 | |
| 278. | – – ev 89 | Karvansara | 1882 | |
| 279. | – – ev 91 | – – | 1892 | |
| 280. | – – ev 103 | İsa bəy Hacinskinin yaşayış evi | 1912 | |
| 281. | – – ev 105 | Yaşayış evi | 1909 | |
| 282. | Nizami küç., ev 62 | Yaşayış evi | 1908 | |
| 283. | – – ev 92 | Skobolev qardaşlarının dəyirmanı | 1909 | |
| 284. | – – ev 93 | Musa Nağıyevin yaşayış evi | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 285. | – – ev 95 | Maylov qardaşlarının teatrı | 1910-1911 | Mülki müh. N.Q.Bayev |
| 286. | – – ev 115 | Texniki cəmiyyətin binası | 1899 | Mülki müh. İ.V.Qoslavski |
| 287. | Ostrovski küç., ev 31 | Yaşayış evi | 1887 | |
| 288. | – – ev 54 | – – | 1909 | |
| 289. | – – ev 56 | – – | 1907 | |
| 290. | – – ev 58 | – – | 1887 | |
| 291. | – – ev 59 | İsa bəy Aşurbəyovun yaşayış evi | 1898 | |
| 292. | – – ev 68 | Yaşayış evi | 1896 | |
| 293. | – – ev 70 | H.Z.Tağıyevin yaşayış evi | 1895 | Mülki müh. İ.V.Qoslavski |
| 294. | – – ev 76 | Hamam | 1887 | |
| 295. | – – ev 79 | Yaşayış evi | 1911 | |
| 296. | – – ev 80-82 | – – | 1909 | |
| 297. | – – ev 91 | – – | 1888 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 298. | 1 May küç., ev 52 | — — | 1889 | |
| 299. | — — ev 55 | — — | 1897 | |
| 300. | — — ev 57 | — — | 1887 | |
| 301. | — — ev 61 | — — | 1896 | |
| 302. | — — ev 78 | Məktəb | 1906 | |
| 303. | — — ev 82 | Yaşayış evi | 1909 | |
| 304. | — — ev 84 | — — | 1896 | |
| 305. | — — ev 89 | — — | 1892 | |
| 306. | — — ev 112 | — — | 1896 | |
| 307. | — — ev 114 | "Fantaziya" hamamı | 1887 | |
| 308. | — — ev 115 | Yaşayış evi | 1886 | |
| 309. | — — ev 122 | — — | 1904 | |
| 310. | — — ev 141 | — — | 1893 | |
| 311. | — — ev 153 | — — | 1911 | |
| 312. | — — ev 155 | Məscid | 1883 | |
| 313. | — — ev 158-160 | Yaşayış evi | 1909 | |
| 314. | — — ev 186 | — — | 1895 | |
| 315. | — — ev 188 | — — | 1896 | |
| 316. | — — ev 195 | — — | 1897 | |
| 317. | — — ev 202 | Yaşayış evi | 1911 | |
| 318. | — — ev 207 | — — | 1886 | |
| 319. | — — ev 216 | Məktəb | 1912 | |
| 320. | Poluxin küç., ev 6 | Muxtarovun sarayı | 1911-1912 | Mülki müh. İ.K.Ploşko |
| 321. | — — ev 12 | Yaşayış evi | 1896 | |
| 322. | — — ev 13 | Rotşildin kontoru | 1899 | Mülki müh. K.B.Skureviç |
| 323. | — — ev 24 | Ağa Bala Quliyevin yaşayış evi* | 1899 | Memar Y.Y.Skibinski |
| 324. | — — ev 26 | Yaşayış evi | 1896 | Memar M.M.Qafar İsmayılov |
| 325. | — — ev 30 | — — | 1894 | Memar M.M.Qafar İsmayılov |
| 326. | — — ev 41 | Hamam* | 1890 | |
| 327. | — — ev 83 | Hamam | 1888 | |
| 328. | — — ev 97 | Yaşayış evi | 1898 | |
| 329. | — — ev 141 | Axund hamamı* | 1887 | |
| 330. | — — ev 201 | Uşaq xəstəxanası* | 1914-1916 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 331. | H.Cavid küç., ev 37 | Hacı Aslan hamamı* | 1912 | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 332. | S.Vurğun küç., ev 2 | Qarşılıqlı Kredit Cəmiyyətinin binası | 1883 | Müh.N.A.fon der Nonne |
| 333. | — — ev 4 | Hacı Mustafa Rəsulovun yaşayış evi | 1899 | |
| 334. | — — ev 8 | Yaşayış evi | 1895 | |
| 335. | — — ev 10 | — — | 1902 | Memar İ.V.Edel |
| 336. | — — ev 12 | İctimai Məclisin binası | 1890 | Mülki müh. A.S.Kandinov |
| 337. | — — ev 13 | Yaşayış evi | 1911 | Mülki müh. V.S.Sərkisov |
| 338. | — — ev 14 | Musa Nağıyevin yaşayış evi | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 339. | — — ev 21 | Tağıyev qardaşlarının yaşayış evi | 1896 | Memar İ.V.Edel |
| 340. | — — ev 22 | Yaşayış evi | 1898 | |
| 341. | — — ev 24 | Dadaşovun yaşayış evi | 1916 | |
| 342. | — — ev 76 | Hacı Əjdər bəy Aşurbəyov məscidi | 1912-1913 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 343. | B.Sərdarov küç., ev 24 | Məktəb | 1912 | |
| 344. | S.Yefimov küç., ev 9 | Yaşayış evi | 1892 | |
| 345. | — — ev 35 | — — | 1888 | Memar M.M.Qafar İsmayılov |
| 346. | — — ev 37 | — — | 1898 | |
| 347. | Sverdlov küç., ev 75 | Hacı Soltanəli məscidi * | 1910 | |
| 348. | Tolstoy küç., ev 89 | Yaşayış evi | 1887 | Mülki müh. İ.K.Ploşko |
| 349. | — — ev 123 | — — | 1883 | |
| 350. | — — ev 131 | — — | 1911 | |
| 351. | — — ev 156 | — — | 1897 | |
| 352. | — — ev 160 | — — | 1898 | |
| 353. | — — ev 187 | Məktəb | 1900-cü illər | |
| 354. | Fioletov küç., ev 6 | Adamovların yaşayış evi | 1910 | Mülki müh. Q.M.Termikelov |
| 355. | Xaqani küç., ev 1 | Yaşayış evi | 1890 | |
| 356. | — — ev 4 | — — | 1897 | |
| 357. | — — ev 9 | — — | 1896 | Memar İ.V.Edel |
| 358. | — — ev 18 | — — | 1884 | Mülki müh. A.S.Kandinov |
| 359. | — — ev 20 | — — | 1896 | |
| 360. | — — ev 25 | — — | 1915 | Mülki müh. V.S.Sərkisov |
| 361. | — — ev 47 | Musa Nağıyevin yaşayış evi | 1912 | Mülki müh. İ.K.Ploşko |
| 362. | Çkalov küç., ev 1 | Mirbabayevin yaşayış evi | 1896 | Memar P.Ştern |
| 363. | — — ev 9 | Deburun yaşayış evi | 1891 | Müh.N.A.fon der Nonne |
| 364. | Şaumyan küç., ev 8 | H.Z.Tağıyev teatrı | 1883 | |
| 365. | — — ev 19 | Yaşayış evi | 1889 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 366. | Şaumyan küç., ev 20 | — — | 1898 | |
| 367. | — — ev 21 | — — | 1890 | |
| 368. | — — ev 23 | — — | 1892 | Mülki müh. A.S.Kandinov |
| 369. | — — ev 25 | — — | 1896 | Memar N.A. fon der Nonne |
| 370. | — — ev 27 | Bank binası | 1899 | Mülki müh. K.B.Skureviç |
| 371. | — — ev 33 | Poçt binası | 1899 | Eyni |
| 372. | — — ev 39 | Kommersiya məktəbinin binası | 1912 | Mülki müh. Q.M.Termikelov |
| 373. | L.Şmidt küç., ev 12 | Sinaqoqa | 1910 | |
| 374. | — — ev 25 | M.Muxtarovun yaşayış evi | 1910 | Mülki müh. İ.K.Ploşko |
| 375. | Şors küç., ev 84 | Aslan bəy Hacinskinin yaşayış evi | 1908 | |
| 376. | — — ev 102 | Ağası bəy Aşurbəyovun yaşayış evi | 1898 | |
| 377. | — — ev 103 | Qasım bəy məscidi | 1897 | |
| 378. | — — ev 105 | Cabbar Hacıyevin yaşayış evi | 1903 | |
| 379. | — — ev 130 | Əliyevin hamamı | 1883 | Müh. F.A.Lemkul |
| 380. | — — ev 136 | Hənifə Səlimovun yaşayış evi | 1910 | |
| 381. | — — ev 138 | Cəbiyevin yaşayış evi | 1911 | |
| 382. | — — ev 144 | Yaşayış evi | 1908 | |
| 383. | — — ev 165 | — — | 1913 | |
| 384. | — — ev 174 | — — | 1899 | |
| 385. | — — ev 176 | — — | 1898 | |
| 386. | — — ev 213 | — — | 1910 | |
| 387. | — — ev 215 | — — | 1904 | |
| 388. | — — ev 219 | — — | 1912 | |
| 389. | — — ev 223 | Məktəb | 1901 | Memar A.Eyxler |
| 390. | Engels küç., ev 19 | Həsənov qardaşlarının yaşayış evi | 1910 | |
| 391. | Moskva pr., ev 5 | Yaşayış evi | 1912 | |
| 392. | İkinci Paralel küç., ev 63 | — — | 1902 | Memar A.Eyxler |
| 393. | | Dəmiryol vağzalının köhnə binası | 1883 | İlkin layihə prof.Bruni tərəfindən tərtib edilmişdir, rəssam Dritten-preys işləmişdir; badii detalların işlənməsinə N.L.Qlebov rəhbərlik edirdi, tikintini memar L.Z.Rossi yerinə yetirdi |
| 394. | Qoqol küç. | Musa Nağıyev adına xəstəxana (Semaşko) | 1914-1918 | Mülki müh. N.Q. Bayev |
| 395. | Qala | Bəy məscidi | 1895 | |
| 396. | — — | Cümə məscidi | 1899 | |
| 397. | Qala, Gertsen küç., ev 22 | Yaşayış evi | 1890 illər | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 398. | Qala, Gertsen küç., 24 | Ramazanovların yaşayış evi | 1890-cı illər | |
| 399. | Qala, A.Zeynallı küç., ev 45 (Minaretskaya) | Qəni Məmmədovun yaşayış evi | 1908 | |
| 400. | Qala, B.Krepostnaya, ev 28 | Məşədibəyovların yaşayış evi | 1914 | Mülki müh. İ.K.Ploşko |
| 401. | Qala, M.Krepostnaya, ev 121 | Xanlarovların yaşayış evi | 1891 | Memar M.M.Qafar İsmayılov |
| 402. | Qala, M.Krepostnaya, ev 14 | Karvansara | 1863 | |
| 403. | Qala, Maqomayev küç., ev 76 | Yaşayış evi | XIX əsr | |
| 404. | — — ev 78 | — — | XIX əsr | |
| 405. | Qala, 3-cü Maqomayev döngəsi, ev 3 | — — | 1890 | |
| 406. | Qala, 7-ci Maqomayev döngəsi, ev 4 | — — | 1890-cı illər | |
| 407. | Qala, Məmmədyarov küç., ev 43 | — — | XIX əsr | |
| 408. | — — ev 55 | — — | XIX əsr | |
| 409. | Qala, Sabir küç., ev 7 | Hüseynovların yaşayış evi | 1896 | Mülki müh. K.B.Skureviç |
| 410. | — — ev 13 | Yaşayış evi | 1840 | |
| 411. | — — ev 15 | — — | 1873 | |
| 412. | — — ev 17 | — — | 1870 | |
| 413. | Qala, Firdovsi küç., ev 17 | — — | XIX əsr | |
| 414. | — — ev 19 | Xanlarovlar məscidi | 1893 | |
| | **ABŞERON** | | | |
| 415. | Əmircan | Murtuza Muxtarov məscidi* | 1908 | Mülki müh. Z.b. Əhmədbəyov, usta Kərbəlayı Əhməd |
| 416. | Əhmədli | Abutalıb hamamı | 1887 | |
| 417. | — — | Məscid | 1907 | |
| 418. | Balaxanı | Eldarzadələr məqbərəsi | 1914 | |
| 419. | Binə | Məscid* | 1913 | |
| 420. | Binə | Mehdi hamamı | 1852 | |
| 421. | Binəqədi | Məscid | 1909-1914 | |
| 422. | Binəqədi | Hamam | 1916 | |
| 423. | Bilgəh | Abdin məscidi | 1813 | |
| 424. | — — | Hacı Abdulla məscidi* | 1899 | |
| 425. | — — | Albəndi hamamı* | XIX əsr | |
| 426. | — — | Seyid Ağa hamamı | XX əsr | |
| 427. | — — | Molla Əliqulu oğlu hamamı | XIX əsr | |
| 428. | Buzovna | Məscid | XX əsr | |
| 429. | Hökməli | — — | 1894 | |
| 430. | — — | — — | XVIII əsr | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 431. | Güzdək | — — | 1870 | |
| 432. | Digah | — — | 1852-1874 | |
| 433. | — — | — — | XVIII əsr | |
| 434. | Zabrat | — — | 1902 | |
| 435. | — — | Hamam | 1898 | |
| 436. | Keşlə | — — | 1899 | |
| 437. | Qobu | Hacı Abdulla hamamı | 1882 | |
| 438. | Məhəmmədli | Məscid | 1819 | Usta Hacı Məhəmmədli |
| 439. | Məhəmmədli | Şahsevən məscidi | XVIII əsr | |
| 440. | Mərdəkan, Kolxoz küç., 35 | Məscid | XVIII əsr | |
| 441. | Mərdəkan, 26 komissar küç., ev 92 | Hamam | XIX əsr | |
| 442. | Mərdəkan, | Abu-Turab məqbərəsi* | 1908 | Mülki müh. İ.K.Ploşko |
| 443. | — — | Şeyx-Kazım hamamı | 1899 | |
| 444. | — — | Murtuza Muxtarovun villası | 1890-cı illər | |
| 445. | — — | H.Z.Tağıyevin villası | 1896 | |
| 446. | — — | Şəmsi Əsədullayevin villası | 1897-1901 | |
| 447. | — — | Teymur bəy Aşurbəyovun villası | 1901 | |
| 448. | — — | İsa bəy Hacinskinin villası | 1912 | |
| 449. | — — | Əziz bəy Aşurbəyovun villası | 1900-cü illər | |
| 450. | — — | Quliyevin villası | 1900-cü illər | |
| 451. | — — | Villa (hazırda uşaq sanatoriyası) | XX əsr | |
| 452. | Maştağa | Keçənlər məscidi | 1876 | |
| 453. | — — | Məhəmməd Kərim məscidi (kolxoz bazarının yanında) | 1875 | |
| 454. | — — | Cümə məscidi | 1889 | |
| 455. | — — | Aydəmir məscidi* | 1900 | |
| 456. | — — | Hacı Aslan məscidi* | 1766 | |
| 457. | — — | Kərbəlayı Hüseyn məscidi* | 1871 | |
| 458. | — — | Qum-hamamı* | XVIII-XIX əsr | |
| 459. | — — | Şamxal hamamı | 1883 | |
| 460. | Nardaran | Cümə məscidi | 1900 | Usta Bəyali |
| 461. | — — | Məscid | 1877 | |
| 462. | — — | Hamam | XIX əsr | |
| 463. | — — | — — | XIX əsr | |
| 464. | — — | — — | XIX əsr | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 465. | Novxanı | Təzə məscid | 1904 | |
| 466. | — — | Hamam | 1907 | |
| 467 | Pirşağı | Məscid | 1908 | |
| 468. | — — | — — | XVIII əsr | |
| 469. | — — | Hamam | XIX əsr | |
| 470. | — — | — — | 1892 | |
| 471. | Ramana | Məscid | 1913 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 472. | Ramana, H.Hacıyev küç., ev 9 | Hamam | 1904 | |
| 473. | Ramana, H.Hacıyev küç., ev 17 | — — | 1911 | |
| 474. | Ramana | — — | XVIII əsr | |
| 475. | Sabunçu | Məscid | XX əsr | |
| 476. | — — | Hamam | XIX əsr | |
| 477. | Saray | Məscid | 1899 | |
| 478. | Zirə | Hamam | XVIII əsr | |
| 479. | Zirə | Hamam | XIX əsr | |
| 480. | Türkan | Məscid | 1905 | |
| 481. | Hövsan | — — | XX əsr | |
| 482. | Xırdalan | — — | 1902 | |
| 483. | — — | — — | XX əsr | |
| 484. | — — | Hamam | 1902 | |
| 485. | Şüvəlan | Qəbiristan məscidi | 1893 | |
| 486. | — — | Hamam | XIX əsr | |
| 487. | — — | Tağı bəy Səfərəliyevin villası | XX əsr | |
| 488. | — — | Kərbəlayı İsrafil Hacıyevin villası | 1912 | |
| 489. | — — | Xanlarov qardaşlarının villası | 1912 | |
| 490. | Şağan | Məscid | 1890 | |
| | **AĞDAM RAYONU** | | | |
| 491. | Ağdam | Məscid | 1868 | Memar Kərbəlayı Səfixan Qarabaği |
| | **AĞDAŞ RAYONU** | | | |
| 492. | Ağdaş, Lenin küç | Karvansara | XIX əsr | |
| 493. | — —, Lenin küç. | Bina (hazırda şəhər soveti) | XIX əsr | |
| 494. | — —, Lenin küç., ev 65 | Yaşayış evi | XX əsr | |
| 495. | — —, Şeyxzadə küç. | Hamam | 1911 | |
| 496. | — —, Sabir küç. | Məscid | XIX əsr | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 497. | Ağdaş, Engels küç., ev 14 | Qızılbaş məscidi | 1883 | |
| 498. | – –, Əzizbəyov küç., ev 86 | Məscid | | |
| | ASTARA RAYONU | | | |
| 499. | Astara | Məscid* | XIX əsr | |
| 500. | Ərçivan | Kərbəlayı Həmid Abdulla hamamı* | 1806 | |
| 501. | – – | Məscid | XIX əsr | |
| 502. | Pensər | Məşhədi Abu-Talıb hamamı* | XIX əsr | |
| 503. | – – | Hacı Cahanbaxış Məscidi* | XIX əsr | |
| 504. | – – | Hacı Teymur məscidi * | XIX əsr | |
| 505. | Şahağac | Məscid* | XIX əsr | |
| 506. | – – | Hamam | 1910 | |
| 507. | Artupa | Məscid | 1903 | |
| 508. | Vaqo | – – | 1905 | |
| 509. | Kiləkəran | – – | 1905 | |
| 510. | Kakanos | – – | 1907 | |
| 511. | Maşxan | – – | 1905 | |
| 512. | Məscid məhəllə | – – | 1905 | |
| 513. | Miki | – – | 1915 | |
| 514. | Siyaku | – – | 1905 | |
| 515. | Xamaşom | – – | 1910 | |
| 516. | Sıhakəran | Məscid | 1900 | |
| | AĞSU RAYONU | | | |
| 517. | Qaraqoyunlu | Məqbərə | 1902 | |
| 518. | – – | – – | 1897 | |
| 519. | – – | Üç stelalı nekropol | XIX əsr | |
| 520. | – – | 17 stelalı nekropol | XIX əsr | |
| 521. | Padar | Məscid | XX əsr | |
| 522. | – – | Bilal Əfəndi Məscidi | XIX əsr | |
| | BALAKƏN RAYONU | | | |
| 523. | Balakən | Məscid* | 1867-1877 | |
| 524. | Qullar | Məbəd | | |
| 525. | – – | – – | | |
| 526. | Aralıq-bina | Qədimi məbəd | | |
| 527. | Mazımçay | – – | | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 528. | Katex | Məscid | 1912 | |
| 529. | Qabaqçöl | – – | 1853 | |
| 530. | Katex | – – | XIX əsr | |
| 531. | – – | – – | XIX əsr | |
| 532. | Püştətala | – – | XIX əsr | |
| 533. | Ititala | – – | 1910 | |
| 534. | Xalatala | – – | XIX əsr | |
| 535. | Darvazbinə | Alban məbədi | | |
| 536. | Hənifə | Məscid | XIX əsr | |
| | CƏLİLABAD RAYONU | | | |
| 537. | Cəlilabad | Hamam | XIX əsr | |
| 538. | Prişib | – – | XIX əsr | |
| 539. | Xasıllı | Məscid | XIX əsr | |
| | CƏBRAYIL RAYONU | | | |
| 540. | Cəbrayıl | Sultan Allahverdi hamamı* | XIX əsr | |
| 541. | Dədəli | Məscid | XIX əsr | |
| 542. | Horadiz | – – | XIX əsr | Memar Kərbəlayı Səfixan Qarabaği |
| 543. | Şıxlar | Sultan Məcid hamamı | XVIII əsr | |
| | ZAQATALA RAYONU | | | |
| 544. | Car | Məscid | XVIII-XIX əsr | |
| 545. | Çökəkoba | – – | 1906 | |
| 546. | Göyəm | – – | 1895 | |
| 547. | Dardoqqaz | – – | XIX əsr | |
| 548. | Birinci Tala | – – | XIX əsr | |
| 549. | Muxax | – – | 1899 | |
| 550. | Mazıx | – – | 1885 | |
| 551. | Qəbizdərə | – – | XIX əsr | |
| 552. | Beretbinə | – – | XIX əsr | |
| 553. | Uzuntala | – – | XIX əsr | |
| 554. | Paşan | Alban memarlığına aid tikililər | VII əsr | |
| 555. | – – | Məscid | 1925 | |
| 556. | Maqov | – – | XIXəsr | |
| 557. | Oytala | – – | XIX əsr | |
| 558. | Elayrıc | – – | XIX əsr | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 559. | Danaçı | Cümə məscidi | 1912 | |
| 560. | Aşağı Çardaxlar | Məscid | XIX əsr | |
| 561. | Tala | Alban məbədi | | |
| 562. | — — | Cümə məscidi | XIX əsr | |
| 563. | Yuxarı Çardaxlar | Məscid | XIX əsr | |
| 564. | Qarqay | — — | XIX əsr | |
| 565. | Qalal | — — | XVIII əsr | |
| 566. | Kebeloba | — — | XIX əsr | |
| 567. | Mamrux | Alban məbədi | VII əsr | |
| 568. | — — | Məscid | XVII əsr | |
| 569. | Gözbarax | — — | XVIII əsr | |
| 570. | Çobankol | — — | XIX əsr | |
| 571. | Qımır | — — | 1899 | |
| 572. | Lahıc | — — | XIX əsr | |
| 573. | Əliabad | Minarəli məscid | 1876 | |
| 574. | Mosul | — — | 1787-1890 | |
| 575. | Faldarlı | Məscid | 1833 | |
| 576. | Yengian | — — | XX əsr | |
| | **QAZAX RAYONU** | | | |
| 577. | Qazax | İsrafil ağa məscidi | 1899 | |
| 578. | — — | İsrafil ağa hamamı | XX əsr | |
| 579. | Daş Salahlı | Alban məbədi | VII əsr | |
| 580. | Əli Bayramlı | Türbə | 1904 | |
| 581. | — — | Məscid | 1909 | |
| 582. | — — | Məscidin yanında yaşayış evləri | XIX əsr | |
| 583. | Dağ Kəsəmən | Türbəli məscid | 1895 | |
| 584. | Göyəzən dağı | Qala | XII-XIV əsr | |
| | **QASIM-İSMAYILOV RAYONU** | | | |
| 585. | Qızılhacılı | Məscid | XIX əsr | |
| 586. | Səfiqurd | Türbə | XX əsr | |
| 587. | Borsunlu | — — | XX əsr | |
| | **QAX RAYONU** | | | |
| 588 | Qax-mahal | Məscid | XIX əsr | |
| 589. | Qaşqaçay | — — | 1906 | |
| 590. | Ləkit | — — | XIX əsr | |
| 591. | Güllük | — — | XIX əsr | |
| 592. | Tasmalı | — — | XX əsr | |
| 593. | Laləpaşa | — — | 1912 | |
| 594. | Marsan | — — | 1910 | |
| 595. | Çudulu | Minarəli məscid | 1863-1892 | |
| 596. | Əmbərçay | Məscid | XIX əsr | |
| 597. | Oncallı | Məscid | XIX əsr | |
| 598. | Sarıbaş | — — | XIX əsr | |
| 599. | Zəyəm | — — | 1911 | |
| 600. | İlisu | — — | XVIII əsr | |
| | **KİROVABAD (GƏNCƏ) ŞƏHƏRİ** | | | |
| 601. | Vorovski küç. | Şahsevənlər məscidi | 1880-ci illər | |
| 602. | 26 Bakı komissarı küç. | Qırxlar məscidi | 1880-ci illər | |
| 603. | — — | Bala-Bağman məscidi | 1884 | |
| 604. | Sovxoznaya küç. | Qızıl-Hacılı məscidi | 1877 | |
| 605. | — — | Ozan məscidi | 1884 | |
| 606. | — — | Qazaxlar məscidi | 1880-ci illər | |
| 607. | Gəncə-çayın sağ sahili | Hamam | 1900-cü illər | |
| 608. | Nizami küç., ev 58 | Yaşayış evi | XIX əsr | |
| 609. | — — ev 60 | — — | XIX əsr | |
| 610. | — — ev 62 | — — | Eyni | |
| 611. | — — ev 64 | — — | — — | |
| 612. | — — ev 68 | — — | — — | |
| 613. | — — ev 73 | — — | — — | |
| 614. | — — ev 77 | — — | — — | |
| 615. | — — ev 86 | — — | — — | |
| 616. | — — ev 95 | — — | — — | |
| 617. | Lenin küç., ev 46 | — — | XIX əsr | |
| 618. | — — ev 118 | — — | XX əsr | |
| 619. | — — ev 122 | — — | Eyni | |
| 620. | — — ev 124 | — — | — — | |
| 621. | — — ev 126 | — — | — — | |
| 622. | — — ev 140 | — — | — — | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 623. | Lenin küç., ev 165 | Yaşayış evi | — — | |
| 624. | — — ev 166 | — — | — — | |
| 625. | — — ev 167 | — — | — — | |
| 626. | — — ev 169 | — — | — — | |
| 627. | — — ev 171 | — — | — — | |
| 628. | — — ev 173 | — — | — — | |
| 629. | — — ev 175 | — — | XX əsr | |
| 630. | — — ev 176 | — — | Eyni | |
| 631. | — — ev 180 | — — | — — | |
| 632. | — — ev 182 | — — | — — | |
| 633. | — — ev 199 | — — | — — | |
| 634. | — — ev 201 | — — | — — | |
| 635. | — — ev 205 | — — | — — | |
| 636. | — — ev 241 | — — | — — | |
| 637. | K.Marks küç., ev 19 | — — | — — | |
| 638. | — — ev 15 | — — | — — | |
| 639. | — — ev 38 | — — | — — | |
| 640. | — — ev 49 | — — | — — | |
| 641 | — — ev 51 | — — | — — | |
| 642. | — — ev 53 | — — | — — | |
| 643. | — — ev 55 | — — | — — | |
| 644. | — — ev 57 | — — | — — | |
| 645. | — — ev 59 | Ticarət dükanları | XX əsr | |
| 646. | Vaqif küç., ev 115 | Yaşayış evi | — — | |
| 647. | — — ev 119 | — — | — — | |
| 648. | — — ev 121 | — — | — — | |
| 649. | — — ev 125 | — — | — — | |
| 650. | — — ev 135 | — — | — — | |
| 651. | — — ev 149 | — — | — — | |
| 652. | — — ev 159 | — — | — — | |
| 653. | — — ev 160 | — — | — — | |
| 654. | — — ev 161 | — — | — — | |
| 655. | — — ev 168 | — — | — — | |
| 656. | — — ev 170 | — — | — — | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 657. | Vaqif küç., döngə 5, ev 18 | Yaşayış evi | — — | |
| 658. | Vaqif küç., döngə 9, ev 1 | — — | — — | |
| 659. | Kommunist küç., | — — | | |
| | — — ev 3 | — — | 1911 | |
| 660. | — — ev 18 | — — | XX əsr | |
| 661. | — — ev 19 | — — | — — | |
| 662. | — — ev 20 | — — | — — | |
| 663. | — — ev 31 | — — | — — | |
| 664. | — — ev 34 | — — | — — | |
| 665. | Əzizbəyov küç., ev 31 | — — | — — | |
| 666. | — — ev 43 | — — | 1909 | |
| 667. | — — ev 46 | — — | 1913 | |
| 668. | — — ev 62 | — — | XX əsr | |
| 669 | — — ev 66 | — — | XX əsr | |
| 670. | — — ev 68 | — — | Eyni | |
| 671 | — — ev 82 | — — | — — | |
| 672. | — — ev 85 | — — | — — | |
| 673. | — — döngə 5, ev 19 | Su dəyirmanı | XIX əsr | |
| 674. | — — ev 170 | Yaşayış evi | 1909 | |
| 675. | — — ev 184 | — — | XX əsr | |
| 676. | — — ev 186 | — — | Eyni | |
| 677. | — — ev 193 | — — | — — | |
| 678. | — — ev 222 | — — | — — | |
| 679. | — — ev 224 | — — | — — | |
| 680. | — — ev 244 | — — | — — | |
| 681. | — — ev 254 | — — | — — | |
| 682. | — — ev 258 | — — | — — | |
| 683. | — — ev 260 | — — | — — | |
| 684. | — — ev 264 | — — | — — | |
| 685. | — — ev 271 | — — | — — | |
| 686. | — — ev 281 | — — | — — | |
| 687. | — — ev 299 | — — | — — | |
| 688. | — — ev 302 | — — | — — | |
| 689. | — — ev 309 | Yaşayış evi | — — | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 690. | Əzizbəyov küç., ev 371 | — — | — — | |
| 691. | Musabəyov küç., ev 13 | — — | — — | |
| 692. | — — ev 23 | — — | — — | |
| 693. | — — ev 27 | — — | — — | |
| 694. | — — ev 28 | — — | — — | |
| 695. | — — ev 30 | — — | — — | |
| 696. | — — ev 34 | — — | XX əsr | |
| 697. | — — ev 62 | — — | — — | |
| 698. | — — ev 182 | — — | — — | |
| 699. | Sabir küç., ev 2 | Zingerin mağazası | — — | |
| 700. | — — ev 4 | Yaşayış evi | — — | |
| 701. | — — ev 5 | — — | — — | |
| 702. | — — ev 8 | — — | — — | |
| 703. | — — ev 10 | — — | — — | |
| 704. | — — ev 11 | — — | — — | |
| 705. | — — ev 12 | — — | — — | |
| 706. | — — ev 13 | — — | — — | |
| 707. | — — ev 14 | — — | — — | |
| 708. | — — ev 19 | — — | — — | |
| 709. | — — ev 21 | — — | — — | |
| 710. | — — ev 22-24 | — — | — — | |
| 711. | — — ev 26 | — — | — — | |
| 712. | — — ev 28 | — — | — — | |
| 713. | — — ev 30 | — — | — — | |
| 714. | — — ev 31 | — — | — — | |
| 715. | — — ev 33 | — — | — — | |
| 716. | — — ev 34 | — — | — — | |
| 717. | — — ev 37 | Yaşayış evi | XX əsr | |
| 718. | Şaumyan küç., ev 43 | — — | Eyni | |
| 719. | — — ev 137 | — — | | |
| 720. | — — ev 221 | — — | — — | |
| 721. | — — ev 236 | — — | — — | |
| 722. | Caparidze küç., ev 11 | — — | — — | |
| 723. | — — ev 31 | — — | — — | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 724. | — — ev 70 | — — | — — | |
| 725. | — — ev 76 | — — | — — | |
| 726. | Fioletov küç, ev 91 | — — | — — | |
| 727. | — — ev 110 | — — | — — | |
| 728. | Ayna Sultanova küç., ev 2 | — — | — — | |
| 729. | — — ev 4 | — — | — — | |
| 730. | — — ev 8 | — — | — — | |
| 731. | — — ev 10 | — — | — — | |
| 732. | — — ev 12 | — — | 1911 | |
| 733. | Qorki küç. | Hamam | XX əsr | |
| 734. | — — ev 85 | Yaşayış evi | Eyni | |
| 735. | — — ev 87 | — — | — — | |
| 736. | — — ev 89 | — — | — — | |
| 737. | Gəncə küç., ev 4 | — — | — — | |
| 738. | — — dönga 2, ev 2 | — — | — — | |
| 739. | — — dönga 9, ev 3 | — — | — — | |
| 740. | Çexov küç., ev 1 | — — | — — | |
| 741. | — — ev 2 | — — | — — | |
| 742. | — — ev 10 | — — | 1910 | |
| 743. | — — ev 11 | — — | XX əsr | |
| 744. | — — ev 13 | — — | 1909 | |
| 745. | — — ev 24 | — — | 1909 | |
| 746. | Ş.Rustaveli küç., ev 9 | — — | XX əsr | |
| 747. | 1 May küç., ev 41 | Yaşayış evi | 1915 | |
| 748. | — — ev 43 | — — | XX əsr | |
| 749. | — — ev 45 | Yaşayış evi | XX əsr | |
| 750. | — — ev 49 | — — | — — | |
| 751. | Vorovski küç., ev 38 | Günbəzli ev | XVIII əsr | |
| 752. | — — ev 54 | Yaşayış evi | XX əsr | |
| 753. | — — ev 25 | — — | Eyni | |
| 754. | — — ev 7 | — — | — — | |
| 755. | — — ev 9 | — — | — — | |
| 756. | Ozan küç., ev 9 | — — | — — | |
| 757. | — — ev 16 | — — | 1908 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 758. | Ozan küç., ev 30 | — — | 1922 | |
| 759. | İsmayılov küç., ev 12 | — — | XX əsr | |
| 760. | İ.Məmmədov küç., ev 80 | — — | Eyni | |
| 761. | — — ev 84 | — — | — — | |
| 762. | — — ev 101 | — — | — — | |
| 763. | — — ev 105 | — — | 1911 | |
| 764. | — — ev 114 | — — | XX əsr | |
| 765. | Krivonosov küç., ev 1 | — — | Eyni | |
| 766. | Peçat küç., ev 1 | — — | — — | |
| 767. | — — ev 3 | — — | — — | |
| 768. | — — ev 5 | — — | — — | |
| 769. | — — ev 7 | — — | — — | |
| 770. | — — ev 9 | — — | — — | |
| 771. | — — ev 12 | — — | — — | |
| 772. | — — ev 15 | — — | — — | |
| 773. | — — ev 16 | — — | — — | |
| 774. | Vorontsov bağı (V.Lenin ad. mədəniyyət və istirahət parkı) | Yaşayış evi | 1848 | |
| 775. | Hacıkənd | Rus kilsəsi | 1893-1895 | Mülki müh. N.K.Marçenko |
| 776. | — — Qorodskaya küç., | Forerin mehmanxanası | XIX əsr | |
| 777. | — — ev 27 | Yaşayış evi | 1880-cı illər | |
| 778. | — — ev 29 | — — | Eyni | |
| 779. | — — ev | — — | — — | |
| | **QUBA RAYONU** | | | |
| 780 | Quba | Ərdəbil məscidi* | 1897 | |
| 781. | — — | Axund məscidi | 1909 | |
| 782. | — — | Səkinə xanım məscidi* | 1854 | |
| 783. | — — | Cümə məscidi* | XIX əsr | |
| 784. | — — | Türbə və stelalı köhnə qəbiristan | XVIII-XIX əsr | |
| 785. | Quba, Dzerjinski küç., ev 26 | Yaşayış evi | XIX əsr | |
| 786. | Quba | Köhnə tikililər olan mərkəzi meydanda yaşayış evləri | XIX-XX əsr | |
| 787. | Rustov | Məscid | 1903 | |
| 788. | Alpan | — — | 1808 | |
| 789. | Susay | — — | 1850 | |
| 790. | Uzun-meşə | — — | 1876 | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 791. | Qımıl | Məscid | XIX əsr | |
| 792. | Üçgün | — — | XIX əsr | |
| 793. | Birinci Nügədi | — — | 1899-1909 | |
| 794. | İkinci Nügədi | — — | XIX əsr | |
| 795. | Neydün | — — | 1878 | |
| 796. | Alıç | — — | 1709 | |
| 797. | Alıç-Digah | — — | XIX əsr | |
| 798. | Amsar | — — | 1854-1868 | |
| 799. | Erfi | — — | XIX əsr | |
| 800. | Erfi | — — | 1903 | |
| 801. | Möhüc | — — | XIX əsr | |
| 802. | Digah | — — | Eyni | |
| 803. | Təngaltı | — — | 1913 | |
| 804. | Quba | Hündür günbəzli hamam* | XIX əsr | |
| 805. | Quba | Qudyal-çay körpüsü | 1897 | Mülki müh. A.M.Şuşerov |
| | **QUSAR RAYONU** | | | |
| 806. | Hil | Məscid | 1912-1916 | |
| 807. | Yasab | | 1886 | |
| 808. | Bədirqala | — — | 1846 | |
| 809. | Yuxarı Ləgər | — — | 1895 | |
| 810. | Zindanmuruq | — — | 1825 | |
| 811. | Əniq | — — | 1911 | |
| 812. | Xuray | — — | 1866 | |
| 813. | Caqar | — — | 1880 | |
| 814. | Köhnə Xudat | — — | XIX əsr | |
| 815. | Gündüzqala | — — | Eyni | |
| 816. | Avaran | — — | 1829 | |
| 817. | Balaqusar | — — | XIX əsr | |
| 818. | Həsənqala | — — | 1797 | |
| 819. | Bədişqala | — — | XIX əsr | |
| 820. | Çetkun | — — | 1895 | |
| 821. | İmamqulukənd | — — | 1904 | |
| 822. | Erfi | — — | XIX əsr | |
| 823. | Çilagir | — — | 1853 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 824. | Ləcət | — — | 1887 | |
| | **QUTQAŞEN RAYONU** | | | |
| 825. | Qutqaşen | Cümə məscidi | 1899-1906 | |
| | **GÖYÇAY RAYONU** | | | |
| 826. | Göyçay | Cümə məscidi | 1906-1917 | Mülki müh. Z.b. Əhmədbəyov |
| 827. | Göyçay, Lenin küç., ev 64 | Hamam | XX əsr | — — |
| | **LƏNKƏRAN RAYONU** | | | |
| 828. | Lənkəran | Mir Əhməd xan Talışinskinin evi | XX əsr | |
| 829. | — — | Hacı Mirzə hamamı | XIX əsr* | |
| 830. | — — | Hacı Qurban hamamı | XIX əsr* | |
| 831. | — — | Avropa tipli hamam | XX əsr | |
| 832. | — — | Böyük bazar məscidi | XIX əsr | |
| 833. | — — | Kiçik bazar məscidi | 1906 | |
| 834. | Olxovka | Məscid | XIX-XX əsr | |
| 835. | Beladi | — — | XX əsr | |
| 836. | — — | Hamam | Eyni | |
| 837. | Vilvan | Məscid | — — | |
| 838. | Türkoba | — — | XIX əsr | |
| 839. | Gərmətük | — — | 1906 | |
| 840. | Balaşürük | — — | XIX-XX əsr | |
| 841. | Girdanı | — — | XX əsr | |
| 842. | Havzova | — — | Eyni | |
| 843. | Aşağı Nüvədi | — — | XIX əsr | |
| 844. | Seydakərəm | — — | Eyni | |
| 845. | Viyən | — — | 1883 | |
| 846. | Sütəmurdov | — — | XIX əsr | |
| 847. | Kərgəlan | — — | Eyni | |
| 848. | Şağlaküçə | — — | 1904 | |
| 849. | Lüvəsər | — — | XIX əsr | |
| 850. | Şiləvər | — — | Eyni | |
| 851. | Digah | — — | — — | |
| 852. | Rvo | — — | 1906 | |
| 853. | Xolmili | — — | 1886 | |
| 854. | Şıxakəran | — — | XIX əsr | |





| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 855. | Şağlasər | — — | XX əsr | |
| 856. | Cil | Məscid | 1906 | |
| 857. | Şağlasər | Hamam | XX əsr | |
| 858. | Separadi | Məscid | Eyni | |
| 859. | Səpnəkəran | — — | — — | |
| | **MASALLI RAYONU** | | | |
| 860 | Masallı | Hamam | XIX əsr | |
| 861. | — — | Məscid | Eyni | |
| 862. | Boradigah | — — | 1853 | |
| 863. | Qızılavar | — — | XIX əsr | |
| 864. | Ərkivan | — — | Eyni | |
| 865. | Şərəfə | — — | — — | |
| 866. | — — | Hamam | XX əsr | |
| | **XANLAR RAYONU** | | | |
| 867. | Xanlar (keçmiş Yelenendorf) | Kirxa | 1859 | |
| 868. | Xanlar, | | | |
| | — — Kirov küç. | Mehmanxana | XIX əsr | |
| 869. | — — ev 38 | Yaşayış evi | Eyni | |
| 870. | — — ev 56 | — — | — — | |
| 871. | — — ev 34 | — — | — — | |
| 872. | — — ev 25 | — — | — — | |
| 873. | — — ev 22 | — — | — — | |
| 874. | — — ev 15 | — — | — — | |
| 875. | — — | Forerin şərab zavodu | — — | |
| | **XAÇMAZ RAYONU** | | | |
| 876. | Xaçmaz stansiyası | Dəmiryol vağzalı | | |
| 877. | — — | Su qülləsi | | |
| 878. | Xudat stansiyası | Dəmiryol vağzalı | XX əsr | |
| | **ŞAMXOR RAYONU** | | | |
| 879. | Şamxor | Kirxa | 1909 | |
| | **ŞƏKİ RAYONU** | | | |
| 880. | Şəki | Ömər əfəndi məscidi | XIX əsr | |
| 881. | — — Ağamalıoğlu küç. | Məscid minarəsi | Eyni | |
| 882. | — — | Dərə hamamı | — — | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 883. | Şəki | Abdulxalıq hamamı | — — | |
| 884. | — — | Yeraltı hamam | — — | |
| 885. | — — qışlaq, Lenin küç. | Məscid | — — | |
| 886. | — — qışlaq | Cümə məscidi | XX əsr | |
| 887. | — — | Baş Cümə məscidi | Eyni | |
| 888. | — — | Minarə və məscid | 1808 | |
| 889. | — — | Güllü qarı məscidi | XIX əsr | |
| 890. | — — qışlaq | Hamam | Eyni | |
| 891. | — — Şəkinskaya küç., ev 111 | Dadanovların yaşayış evi | — — | |
| 892. | — — ev 196 | — — | — — | |
| 893. | — — ev 196a | — — | — — | |
| 894. | — — ev 198 | — — | — — | |
| 895. | — — | Zülfüqarovların yaşayış evi | 1890 | |
| 896. | — — | Əliyevlərin yaşayış evi | 1900-cü illər | |
| 897. | — — Vidadi küç., ev 5 | Alcanbəyovların yaşayış evi | XIX əsr | |
| 898. | — — | Alcanbəyov Fərhadın yaşayış evi | 1890-cı illər | |
| 899. | — — | Salmanın baramaaçan fabriki | 1890-cı illər | |
| 900. | Dodı | Məscid | XX əsr | |
| | ŞUŞA | | | |
| 901. | Aşağı məhəllə | Gövhər ağa məscidi | 1874 | |
| 902. | — — | Cümə məscidi | 1883 | |
| 903. | — — | Saatlı məscidi | 1883 | |
| 904. | — — Mamayı məhəlləsi | Məscid | XIX əsr. | |
| 905. | — — Çölqala məhəlləsi | — — | Eyni | |
| 906. | — — Cülfalar məhəlləsi | — — | — — | |
| 907. | — — Çuxur məhəllə | — — | — — | |
| 908. | — — Hacı Yusifli məhəlləsi | Məşhədi Şükür Mirsiyab oğlunun karvansarası | 1890 | |
| 909. | — — | Xanlıq Muxtarın karvansarası | XIX əsr | |
| 910. | — — | Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası | XIX əsr | |
| 911. | — — | Səfərovların karvansarası | XIX əsr | |
| 912. | — — | Hacı Qulunun yaşayış evi | 1856-1859 | |
| 913. | — — | Uğurlu bəyin yaşayış evi | XIX əsr | |
| 914. | — — | Zöhrabbəyovların yaşayış evi | Eyni | |
| 915. | — — | Camqarovların yaşayış evi | 1890-cı illər | |





Əlavə 2

## BAKI KÜÇƏLƏRİNİN VƏ MEYDANLARININ KEÇMİŞ VƏ İNDİKİ ADLARI

### KÜÇƏLƏR

Aziatskaya – P. Montin
Armyanskaya – M.Qorki
Bazarnaya – H.Hacıyev
Balaxanskaya – Basin
Balaxanı şossesi – Moskva pr.
Baryatinskaya – Fioletov
Birjevaya – Ü. Hacıbəyov
Bondarnaya – Dmitrov
Verxnaya Priyutskaya – Ketsxoveli
Verxnaya Taza-pirskaya - Mustafa Sübhi
Vokzalnaya – Puşkin
Vorontsovskaya – Əzizbəyov
Vrangelskaya – Qarayev
Qimnaziçeskaya – Tolstoy
Qorçakovskaya – Malıgin
Qubernskaya – Nizami
Zavedenskaya – B. Sərdarov
Kamenistaya – Şors
Kanni-tepinskaya – Sverdlov
Karantinnaya – H.Aslanov
Kaspiyskaya – Leytenant Şmidt
Kladbişenskaya – Parkovaya
Kolyubakinskaya – S.Yefimov
Krasnokrestovskaya – Buynakski
Krasnovodskaya – S.Vurğun
Kubinskaya – Qubanov
Maqazinnaya – S.Osepyan
Mariinskaya – Korqanov
Merkuryevskaya – Şaumyan
Milyutinskaya – Myasnikov
Minaretskaya – A.Zeynallı
Mixaylovskaya – Zevin
Molokanskaya – Xaqani
Bolşaya Morskaya – Kirov pr.
II Aleksandr sahil küçəsi – Neftçilər pr.
Nikolayevskaya – Kommunist
Nobelevskaya – Fəhlə pr.
Nijnaya priyutskaya – Kamo
Birinci Paralel – İskra
Dördüncü Paralel –H.Cavid
Persidskaya – Poluxin
Pozepovskya – Engels
Politseyskaya – Məmmədəliyev
Poçtovaya – Ostrovski
Petrovskaya naberejnaya – Neftçilər pr.
Olqinskaya – Caparidze
Orlovskaya – Muxtadır
Ofitserskaya – Musəvi
Sadovaya – Çkalov
Spasskaya – Q.İsmayilov
Stanislavskaya – Lenin pr.
Suraxanskaya – 1 May
Telefonnaya – 28 aprel
Torqovaya – Nizami
Tatarskaya – Krupskaya
Nijnaya Taza-pirskaya – Mirzə Fətəli
Serkovnaya – Vidadi
Sisianovskaya – Əli Bayramov
Şamaxinskaya – C.Cabbarlı
Çadrovaya – M.Əliyev
Çemberekendskaya – Lermontov

### MEYDANLAR

Aşumovskaya (Dumskaya) – Gənclər
Birjevaya – 26 Bakı komissarı
Voronstsovskaya – Şamaxinkada bazar
Parapet – K.Marks ad.
Kubinskaya, Bazarnaya – Füzuli
Yarmaroçnaya – S.Vurğun

Əlavə 3

## QƏBUL EDİLMİŞ İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| Mİ | - Memarlıq irsi (Moskva) |
| ADU | - Azərbaycan Dövlət Universiteti (Bakı) |
| ANİ | - Azərbaycan Neft İnstitutu (Bakı) |
| AzPİ | - Azərbaycan Politexnik İnstitutu (Bakı) |
| AEAM | - Azərbaycan SSR EA Məruzələri(Bakı) |
| ÜMT | - Ümumi Memarlıq Tarixi (Moskva) |
| İRCCQ | - İmperator Rus Coğrafiya Cəmiyyətinin Qeydləri (Tiflis) |
| AEAX | - Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Bakı) |
| ANİX | - Azərbaycan Neft İnstitutunun Xəbərləri (Bakı) |
| BŞDX | - Bakı Şəhər Dumasının Xəbərləri (Bakı) |
| ADUŞFX | - Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq Fakültəsinin xəbərləri (Bakı) |
| AEATIEA | - Azərb SSR Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (Bakı) |
| ƏT | - Əsərlər Toplusu |
| AEARƏF | - Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar Fondu (Bakı) |
| OADU | - Orta Asiya Dövlət Universiteti (Daşkənd) |
| LİTİ | - Leninqrad İnşaat İnstitutu |
| TDU | - Tbilisi Dövlət Universiteti |
| Azərb SSR MDTA | - Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivi (Bakı) |
| SSRİ MDTA | - SSRİ Mərkəzi Dövlət Tarix Arxivi (Leninqrad) |
| SSRİ HDDMDA | - SSRİ Hərbi Dəniz Donanmasının Mərkəzi Dövlət Arxivi (Leninqrad) |
| SSRİ MDHTA | - SSRİ Mərkəzi Dövlət Hərbi Tarix Arxivi (Moskva) |
| Gürc. SSR MDA | - Gürcüstan SSR Mərkəzi Dövlət Arxivi |
| Azərb. SSR MDKFFSA | - Azərbaycan SSR Mərkəzi Dövlət Kinofonofotosənədlər Arxivi |



# ƏDƏBİYYAT SİYAHISI


1. Ленин В.И. Проект и объяснения программы социал-демократической партии// Поди. собр. соч. —Т. 2.—С. 81-110.
2. Ленин В.И. Развитие капитализма в России//Полн. собр. соч.—Т. 3.—С. 1-609.
3. Ленин В.И. Пробуждение Азни// Полн. собр. соч.—Т. 23,—С. 145-146.
4. Ленин В.И. Империализм, как высшая стадия капитализма//11олн. собр. соч.—Т. 27.— С. 299-426.
5. Абуее О.-б. Ханский дворец в Баку// Каспий.—1917.— № 120.
6. Абрамов М.Я. Апшеронский промышленный узел.— Баку: Азернешр, 1971.— 166 с.
7. Авалов Э.В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика. — Баку: Элм, 1978.—112 с.
8. Авалов Э.В. О некоторых особенностях архитектуры оборонительных сооружений Шуши//Изв. АН АзССР. Сер. Лит., яз. и иск-во - 1972,— № 2.— С. 115-125.
9. Авалов Э.В. Архитектура шахбулагских построек //Изв. АН АзССР. Сер. Лит., яз. и иск-во,—1973, - № 2. С. 109-118.
10. Авалов Э.В. К вопросу формирования кварталов Шуши //Изв. АН АзССР. Сер. Лит., яз. и иск-во.—1973. - №3 - С. 81-85.
11. Агаев А-б .В мечети //Касппй.—1903 - 16 нояб.
12. Аааев А.-б. Шушинско-евлахская железнодорожная ветвь // Каспий.- 1903 - 46.
13. Азимов А.Х. Современная архитектура ОАР: Автореф, дис, ... канд. архит.—М.— 1969.-19 с.
14. Александрович Д. (Насыфи). Шемаха// Изи, Азерб. археолог, ком.—Баку, 1926,—Вып. 2.
15. Алескеров Г.А. К истории образования центральных кварталов Баку и вопросы их реконструкции//Изв.АН АзССР. Сер. Обществ, наук.— 1960,— № г.— С. 115-130.
16. Алибегов И. Жилищные условия рабочих Черного города.- Баку, 1905.— 31 с.
17. Алиева А.А.Азербайджанский театр за 100 лет, - Баку: Азерб. гос. изд-во, 1974, 111 с.
18. Ализаде Г.М. народное творчество Азербайджана и его прогрессивные традиции – Баку; изд. Ан.АзССР, 1963-228 с.
19. Алтухов М.Н. и др. Обзор трёх конкурсных проектов водоснабжения г. Баку из реки Куры – М. 1894 – 91 с.
20. Аль Джадер Саад Основные вопросы градостроительства в аграрных района Ирака; Автореф., дис., кандидат архитектуры, М -1969 – 23 с.
21. Аль Султани Халед. Национальные элементы арабской архитектуры в современном строительстве общественных зданий, Автореф., дис., кандидат архитектуры, М -1973 – 25 с.
22. Амиров А. Очерк развития вопроса водоснабжения г. Баку – 1984, 87 с
23. Апышков Н. рациональное в новой архитектуре – Баку, 1904 87с.
24. Аргунтинский-Долгоруков А. История сооружения и эксплуатации Закавказской железной дороги за 25 лет её существования, 1871-1896 – Тифлис, 1896 – 682 с.

25. Аргутинский-Долгоруков А. Закавказская железная дорога и её экономическое значение – Тифлис, 1896 – 183 с.
26. Аркин Д.Е. архитектура эпохи французской буржуазной республики – М 1950 – 79 с.
27. Архангельский М. Городское хозяйство в Баку до и после революции 1917 года – Красный Баку, 1923 - № 2-5 –С 23-48.
28. Ашурбейли С.Б. Очерк истории средневекового Баку – Баку; изд-во Ан.АзССР – 1864, 336 с.
29. Баев Н.Г. К вопросу о постройке рабочего посёлка в Баку – Коммунальная жизнь - 1922 - № 2 – С 16-18.
30. Баранов Н.В. Композиция центра города – М; Стройиздат, 1964 – 193 с.
31. Барановский Г.В. Юбилейный сборник сведений о деятельности бывших воспитанников Института гражданских инженеров (Строительного училища), 1842-1892 – Спб, 193.
32. Барановский Г.В. Архитектурная энциклопедия второй полвины XIX века – СПб, 1908 – Т.2 - 732 с.
33. Бартенев И. А., Батажкова В. Н.. Русский интерьер XVIII—XIX веков.—Л.: Стройиздат, 1977.—128 с.
34. Бартольд В. В. Отчет об осмотре древнего мусульманского кладбища в г. Баку (13 и 14 мая 1904 г.) - М.: Наука. 1966 - Т. 4. - 495 с.
35. Бартольд В. В. Ориентировка первых мусульманских мечетей. - М.: Наука, 1966 - Т. 6. - 784 с.
36. Бауэр Людвиг и Вайничке Хуго. Забота о ландшафте и охрана природы: Пер. с нем. – М: Прогресс, 1971.-264 с.
37. Бахарлы М. Ахвалаты-Карабах//Респ. рукопис. фонд АН АзССР.- Инв № 19929. (Произведение написано в Шуше в 1888 г.).
38. Беликов С. А. Вилла «Петролеа»// Вышка.—1956,—11 сент.
39. Беликов С. А. За зеленый Баку.—Баку, 1932.-67 с.
40. Березин И, Я. Путешествие по северной Персии.—Казань, 1852.
41. Березин И. Я. Путешествие по Дагестану и Закавказью.— М., 1849.—128 с.
42. Берже А. Фетх Али-шах и его дети// Кавказ.—1868. (Особое прибавление.—Вып. 1).
43. Беридзе В. В. Архитектура Тбилиси. 1801—1917. (На груз, яз.) —Тбилиси: Сабчато Сакартвело, 1963.—149 с.
44. Бенкендорф А. О мерах к улучшению жилищ служащих и рабочих на бакинских нефтяных промыслах (доклад 13 очередному съезду нефтепромышленников в Баку).—Баку, 1899.—45 с.
45. Бертенсон Л. Бакинская нефтяная промышленность к заводы в санитарном вра-чебном отношении:—СПб., 1897,—69 с.
46. Боголюбов Н.Н. 60 лет в оперном театре.—М., 1967,—303 с.
47. Борисова Е.А., Каждан Т.П. Русская архитектура конца XIX - начала XX вв.— М.: Наука, 1971.—237 С.
48. Борисоглебский К.А. Пояснительная записка к эскизному проекту городской скотобойни в г. Баку.—Баку, 1910.—7 с.
49. Бородина В. Ф. Архитектура Турции XII-XIX вв.//ВИА.- Т. 8. - М: Стройиздат, 1969.—С. 427—476.
50. Врандт Б. Из поездки в Баку//Вестник Европы.- 1900.-Т. 5, кн. 9.- С. 281-301.
51. Бретаницкий Л. С. Мамиконов Л. Г, и др. Наука – М,, 1948.-41 с.
52. Бретаницкий Л.С, Саламзаде А.В. Кировабад. —М.: Госстройиздат, 1960,—136 с.
53. Бретаницкий Л.С, Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. - М.: Наука, 1966.- 558 с.
54. Вретаницкий Л.С., Саламааде А.В. Архитектура советского Азербайджана.-- М.: Стройиздат, 1972.—264 о.
55. Бронеевский С. Новейшие географические и исторические известия о Кавказе.— М.. 1823.—Ч. 1,—119 с.
56. Бунин А.В., Саваренская Т.Ф. История градостроительного искусства.- М.: Стройиздат, 1979.—495 с.
57. Буров А.К. Об архитектуре. - М.: Госстройиздат, 1960.—145 с.
58. Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 год.—СПб. 1869.— Ч. 1-548 с,
59. Бутник-Сиверский Б.С. К проблеме изучения города Баку в архитектурном отношении//Науч. архив Ин-та истории АН АзССР. - Инв. № 629, 630.
60. Бутник-Сиверский Б.С. Исторический план. г. Баку//Науч. архив Ин-та истории АН АзССР. - Инв. .№ 679, 680.
61. Бутник-Сиверскцй Б.С. Как строился бакинский Александро-Невский собор//Науч. архив Ин-та истории АН Аз.ССР. - Инв. ,№ 536, 537.
62. Быч Л.Л. К вопросу об устройстве рабочих поселков в бакинском промысловом районе. - Баку, 1915.—21 с.
63. Варшавский Я.К. К вопросу о постройке новой городской глазной больницы//; ИБГД - 1916. -№ 3 - 5.
64. Васильев А.Е. Опыт разведение древесных пород на набережной г. Баку// Каспий -1903 - N° 179.
65. Вебер А. Рост городов в девятнадцатом столетии; Пер. с англ.- СПб., 1903.- 464 с.
66. Везиров Г.-б. Шуша//Каспий. 1901. - К 238.
67. Вейденбаум Е.Г. Путеводитель по Кавказу. --Тифлис, 1888.- 434 с.
68. Вейденбаум Е.Г. Старая крепость в Елисаветполе//Тифлисский листок. -1900.- № 13.
69. Вейденбаум Е.Г, Кавказские этюды.- Тифлис, 1901—320 с.
70. Верещагин В.В. Путешествие по Закавказью в 1864- 1865 гг //Всемирный путешественник, - СПб.. 1870, - Т. 7.-С. 209—304.
71. Виноградов В. М. Театральные здания вчера, сегодня и завтра. - М.: Стройиздат, 1971.-165 с.
72. Виолле ле Дюк, Эжен Эммануэль. Беседы об архитектуре.: Пер. с фр.- М, изд-ВАА, 1937.- Т. 2. - 340 с.
73. Владыкин М. Путеводитель и собеседник в путешествии но Кавказу.- М., 1885. - 366 с.
74. Власюк А.И. Архитектура России.// ВИА - Т. 10.- М.: Стройиздат, 1972.-С, 33 - 137.
75. Волынский В. Куба//Кавказ,—1872.- № 105.
76. Воронина В.Л. Народное жилище арабских стран. -М.: Стройиздат, 1972.-141 с.
77. Воронина В.Л. Архитектура средневекового Ирана//ВИА,- Т. 8,- М.: Стройиздат, 1969.- С. 144 - 182.
78. Воронина В.Л. Архитектура арабских стран//ВИА. - Т.8 - М.: Стройиздат, 1969.- С. 15-109.
79. Вороное Н.И. Сборник статистических сведений о Кавказе,- Тифлис, 1869.-127 с.
80. Гагарин- Г.Г. Рисунки и наброски с натуры. - СПб.. 1902.—20 с.
81. Гаджиев М.А. Естественные облицовочные камни Азербайджана и их приме-ние в современном строительстве: Автореф. дис. … канд. техн. наук.- Баку, 1956,- Науч. архив Ин-та строит, мат-лов и сооружений им. С. А. Дадашева,- 21 с.
82. Гаджи-Заде А.М. Ковальская Н.Я. Баку; Экон.-геогр. очерк. - М.: Просвещение 1970.- 94 с.
83. Гайсинский А.Я., Горюкин В. А., Полтавцев А.Н., Силиваник К.Е. Больницы//Руководство по проектированию и оборудованию, - М, 1953,- 312 с.
84. Гарнье Ж.В., Шабо Ж. Очерки географии городов.— М.: Прогресс, 1967, - 424 с.
85. Гассерт К. Города: Пер. с нем. - М,. 1912.—131 с.

86. Гераскин Я.С. Архитектура русской текстильной фабрики XIX - начала XX вв. Автореф. д-ра архитектуры, -М., 1972. 80 с.
87. Герсеванов М.Н. Общий обзор каменных строительных материалов в Кавказском и Закавказском крае//Сб. сведений о Кавказе. - Тифдис, 1872. - Т. 2. - С. 345 - 348.
88. Гибберд Ф. Градостроительство. - М.; Гоестройиздат, 1954.- 364 с.
89. Гидион 3. Архитектура железа и железобетона во Франции. - М., 1937. 152 с.
90. Гидион 3. Пространство, время, архитектура - М,: Стройиздат, 1975. - 566 с.
91. Гилъяр А. Царь-абад и шелковая промышленность Ширвана//Кавказ. - 1859. - 89. 90.
92. Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств в природе, - СПб., 1785. - 336 с.
93. Голосов Г. О новых городских школах //Каспий – 1912, № 38.
94. Гольдзамт Э. Уильям Моррис и социальные истоки современной архитектуры. Пер. с пол. – Стройиздат – 1973 – С. 174.
95. Григорьян Г. Строительная деятельность города Баку за 1911-1915 гг// ИБГД – 1917, № 1-3.
96. Груза И. Теория города- М . Стройиздат, 1972 – 246 с.
97. Гулишамбаров С. И. План Черного города – СПб – 1879,- 12 с.
98. Гулишамбаров С.И. План Черного города (близ города Баку) – СПб, 1886, 1809, 18 с.
99. Гуляницкий Н.Ф. О композиции зданий в ансамблевой застройке Москвы периода классицизма – М, Стройиздат, 1976.
100. Гуляницкий Н.Ф. Градостроительная основа творческого метода Б.И. Стасова, М, Стройиздат, 1976.
101. Давидович В.Г., Чижикова Т.А. – Александр Иваницкий, – М, Стройиздат, 1973 – 118 с.
102. Дадонов В. Социализм без политики// Города-сады будущего в настоящем – М, 1913 – 109 с.
103. Даниляк Я. Зелёные насаждения Баку – Баку, Азернешр, 1935, - 121 с.
104. Датиев С., Мотис Д. Жильё XVIII-XIX вв Закатальского района//Памятники Азербайджана – Баку,- Азернешр, 1950 – С 103-110.
105. Демин К. Бакинское среднетехническое училище: Исторический очерк, 1883- 1913 гг. – Баку, 1913 - 83 с.
106. Джабаров А.А. Кировые крышие – Баку, 1938 – 50 с.
107. Джеваншир Азмед-бек. История Карабахского ханства (с 1747 по 1805 гг) – Баку. Изд-во АН АзССР, 1961 – 104 с.
108. Джеваншир М.Д. История Карабаха – Баку, изд-во АН АзССР, 1959,- 139 с.
109. Джехангир М.М. Описание урочища Геок-чай//Кавказ – 1874, - № 33.
110. Джей Дагестани. Карабахские письма //Каспий- 1916 - № 187.
111. Джей Дагестани. Охрана памятников старины //Каспий- 1914 - № 129.
112. Джанеридзе Г. Новый Татиевский Театр//Каспий – 1901 – 19 сент.
113. Диван-бек. Вести из Нухи//Кавказ – 1852 – № 22.
114. Диканский М.Г. Жилищная нужда и строительные товарищества – Харьков, 1908.
115. Диканский М.Г. Квартирный вопрос и социальные опыты его решения – М, 1912.
116. Диканский С.Г. Вопросы эстетики в постройке городов,- Зодчий.- 1914. -, №1 42.
117. Диканский С.Г. Постройка, городов, их план и красота, - Пг,, 1915.- 306 е.
118. Дубелир Г.Д. Планировка городов.- СПб., 1910. - 79 с.
119. Дубелир Г. Д. Городские улицы и мостовые, - Киев. 1912, - 407 с.
120. Дубов Д.Д. Памяти архитектора Термикелова//Архитектура СССР, - 1959, № 1,- С. 63.







121. Дубровин И. Ф. Закавказье от 1803 - 1806 гг.- СПб.. 1866. 542 с.
122. Дюма А. Кавказ, - Тифлис, 1869. - 221 с.
123. Евляхов И. Неделя в Баку//Кавказ. - 1861, - 98, 100.
124. Евлахов И. Тифлисские караван-сараи. - Тифлис, 1852.-- 183 с.
125. Еелина П.А. Из истории строительства учебных заведений первой половины XIX века //Русское искусство XVIII - первой половины XIX века, - М.: Наука, 1971. - С. 76 - 112;
126. Егоров П. II, Елисаветполъ//Кавказ - 1852, - № 18.
127. Егоров П. II. Ленкорань//Кавказ, - 1852. - № 25.
128. Егоров П. II. Мои поездки но Карабаху в 1849 году//Русский инвалид.- 1857.- № 239, 241- 244,
129. Ермолов, Могилевсцкй. Описание Карабахской провинции, представленное пол-ковником Ермоловым и стат. советником Могилевским в 1823 году, - Тифлис, 1866. - 54 с,
130. Енш А. К. План и застройка городов, - СПб., 1914, - 380 с.
131. Жуковский А. Неизданные древности Баку// Архитектурный вестник, - 1859. - Т. 2,- С. 16-17.
132. Залесская Л.С. Курс ландшафтной архитектуры. - М.: Стройиздат. 1964. -184 с.
133. Зардаби Г.-б. Избранные статьи и письма,- Баку, 1962, - 488 с.
134. Захарьин П.Н. Кавказ и его герои// Святыни. богатства и народы, - СПб., 1902,-487 с.
135. Захватович Я. Польская архитектура, Варшава. 1967, - 543 с.
138. Зейдлиц Н.К. Очерк южно-каспийских портов и торговли. - Тифлис, 1870.
137. Зейдлиц Н.К. Список населенных мест Бакинской губернии. - Тифлис, 1870.
138. Зелинский С. П. Закаталы//Кавказ. - 1872, - № 102, 108.
139. Зитте К. Городское строительство с точки зрения его художественных принципов. - М., 1925,-234 с.
140. Зубов Д. Карабахский астролог, или основание крепости Шуши в 1752 году//Исторический закавказский роман. - М., 1834. - Ч. 1, 2, — 114 с.
141. Зубов Ш. Картины Кавказского: края. - СПб., 1834. - Ч. 1; СПб, 1835.- Ч, 2, - 234 с.
142. Зубов П. Шесть писем о Грузии и Кавказе, писанные в 1833 году.- М,. 1834.- 267 с.
143. Зуммер В.М. Художественные памятники Азербайджана.- Баку, 1926.-138 с.
144. Иваницкий А. П. Планировка г. Баку. 1924-1927 гг.//Пояснительная записка.: (Архив Бакгорисполкома), - 220 с.
145. Иконников А.В. Архитектура города, - М.: Стройиздат, 1972, - 215 с.
146. Ильин Л.А, Планировка населенных: мест в Азербайджане. - Баку, 1931.- 64 с.
147. Ильин Л.А. Ансамбль в архитектуре города//Архитектура СССР.- 1935, - № 5 - С. 41-50.
148. Ильин Л. А. Архитектурные проблемы планировки Баку/Проблемы архитекторы - М, 1937 - Т. 2 – С 112-126.
149. Ильюшкин П. Курортное благоустройство Апшерона//Красный Баку - 1925 - № 10. - С. 24-30.
150. Исмайлов Э.Л. Планирование городов Азербайджана; На азерб. яз. - Баку: Азернешр, 1974.- 72 с.
151. Истомин Я. Путевые заметки//Кавказ,- 1881.- № 41.
152. Кануков Э.И. Архитектура промышленных сооружений Азербайджанской ССР (1920-1965 гг.); Автореф. дис. канд. архитектуры, Баку, 1966 - 34 с.
153. Касимое Г.А. К истории азербайджанского театра ///Театр в Шемахе. - Баку. ДАНА - № 6,- Т.11 С. 442- 444.
154. Каспари А.А. Покоренный Кавказ; Очерки исторического прошлого и

современного положения Кавказа с иллюстрациями. - СПб., 1904, 124 с.
155. Кириченко Е.И. Федор Шехтель. – М. Стройиздат, 1973,—135 е.
156. Кириченко Е.И. Русская. архитектура 1830-1910-х годов. М. Искусство, 1978, - 309 с.
157. Кириченко Е.И. Москва на рубеже столетий, - М.: Стройиздат, 1977 - 182 с.
158. Клоднццкий Ф. Город Баку и его окрестности в санитарном отношении// уМедицинская топография - Тифлис, 1867 -118 с,
159. Ковальский Г П Большой город и города-сады. - Киев, 1916. - 231 с.
160. Ковальская-Ильина П.В, Декоративные насаждения г. Баку, - Баку, Азернешр, 1936. - -127 с.
161. Кавелълан Г.М, Творчество инженера В.Г. Шухова.— М.; Госстройиздат. 1961. - 362 о.
162. Кондаков С. И. Юбилейный справочник Императорской Академии художеств. 1764 – 1914 - СПб., 1915. - Т. 2,- 350 с.
163. Конопка С.Р.. Кавказ //Северный Кавказ и Закавказье.- Тифлис, 1914 - 148 с.
164. Константное В. Куба - уездный город Дербентской губернии//Кавказский календарь на 1852 год. - Тифлис. 1851, - С. 334 -338.
165. Константинов К. К вопросу об истории города Нухи. - Баку, 1927. - 29 с. 1.
166. Крастинтш Я. А. Развитие архитектуры Риги: второй половины XIX - начала XX зв. //Строительная политика и практика//Автореф. дис., канд. архитектуры.- Рига, 1973. - 20 с.
167. Крыжановсвий М. Литературно-художественный альбом Закавказского края. Гос. Публ. б-ка им. Салтыкова-Щедрина (Отдел; рукописей).
168. Купффер Э. ЖИЛОЙ дом//Руководство для проектирования и возведения: современных жилищ - СПб., 1914.
169. Лавров В.А. Вопросы архитектурно-планировочного: ансамбля.//Архитектура ССОР. – 1935 г. - №5 - С. 51-56.
170. Лавров В. А. Город и его общественный центр. - М.:| Стройиздат, 1964, - 190 с.
171. Лавров В. А Развитие планировочной структуры исторически сложившихся городов - М,: Стройиздат, 1977. - 175 с.
172. Лавров II.И. Интересные сады Закавказъя //Кавказское сельское хозяйство – 1894, - № 52.
173. Лазарев Л. Ганжа//Кавказ,—1846, - № 87.
174 . Мысль, 1976. - 217 с.
175. Лебединский В.И. В удивительном;: мире, камня, - М,:; Недра, 1973, - 198 с.
176. Лебединский В.И., Кириченко Л. П. Камень и человек. - М.: Наука, 1974- 215 с.
177. Левенсон Э. К жилищному вопросу в Баку//Каспий, - 1917, - № 231.
178. Легкобытов В. Бакинская провинция//Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношении. - СПб. 1836, - Ч. 4. 401 с.
179. Лившиц Я. К вопросу о курортах на побережье Апшерона//Красный Баку, - 1925 - № 5 - С. 43-52.
180. Лившиц Я. Перепланировка города Баку//Красный Баку – 1925 – №8 – С 38-47.
181. Линдлей Е.Г. Пояснительная записка к проекту водоснабжения города Баку - Баку, 1909 – 14 с.
182. Линдлей Е.Г. Пояснительная записка к проекту канализации города Баку - Баку, 1925 - 17 с.
183. Линдстром М.В. Кавказский альманах на 1904 года – Тифлис, 1903 – 119 с.
184. Липранди А.П. Кавказ и Россия - Харьков, 1911- 262 с.
185. Листов П.Н. Ипполит Монигетти - М; Стройиздат – 1976, - 144 с.
186. Лукомский Г.К. Старинные театры - СПб – 1913, с 173.
187. Лукомский Г.К Памятники старинной архитектуры России//Наша провинция – Ч.1. – СПб – 1916 – 232 с.
188. Лукомский Г.К Современный Петроград – Пг – 1917 г. – 90 с.
189. Любимова Г.Н. К истории бакинского водопровода//ИБГД – 1915 - №5,6.
190. Любимова Г.Н. Культовые постройки агульских селений горного Дагестана// Памятники культуры – М; 1961- №3.
191. Любимова Г.Н. Хан-Магомедов С.О. Народная архитектура Южного Дагестана –М; Госстройиздат, 1956 – 101 с.
192. Лясковская О.А. Французская готика – М; Искусство, 1073 – 173 с.
193. Макаров А. Закавказье в торговом отношении – М, 1884 – 43 с.
194. Мамедзаде К.М. Строительное искусство Азербайджана (IV –XVI вв) На аз. яз – Баку, Элм,1978 – 207 с.
195. Махарадзе Ф. Строительная деятельность в Баку за 25 лет//ИБГД – 1914-1915 – № 5,6.
196. Мачинский В. Архитектурные заметки //Зодчий – 1914 - № 25.
197. Мелъунов Г. О южном береге Каспийского моря – Спб, 1863 –Т.3. кн.2 – 173 с.
198. Месхиа Ш.А. Города и городское строительство феодальной Грузии (XVII-XVIII вв.) – Тбилиси, 1959 – 140 с.
199. Мижуев Н.Г. Сады-города – Пг, 1916, - 215 с.
200. Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX вв. – Баку, Азерб. Гос- изд-во, 1966 – 318 с.
201. Минорский В.Ф, История Ширвана и Дербента – М, Наука, 1963, - 265 с.
202. Мир Мехти Хазани Китаби Тарихи Карабаг. (РФ, АН АзССР, Инв № В-3386/22391).
203. Мирза Адигезалъ-бек. Карабаг-наме - Баку, 1950.
204. Мирха Юсиф Карабаеи. Тарихн-Сафа: Пер. с фарс, на азерб. яз. Б. Мирзазаце - НАИИАНА. инв. № 3935.
205. Михайловский Е.В. Реставрация памятников архитектуры - М,: Стройиздат, 1971 - 190 с.
206. Москвич Г. Иллюстрированный практический путеводитель по Кавказу. - Одесса, 1904. - 571 с.
207. Вадеждин Я.Л. Кавказский край// Природа и люди. - Тула, 1895 - 447 с.
208. Нейматова М.Х. Эпиграфика Джума-мечети селения Мосул//ДАНА, 1959- № 8.
209. Нейматова М.Х. Надписи Джума-мечети в городе Шуше. – Баку//Изв. АН АзССР – 1961- № 1 - С. 45 -59.
210. Непринцев М.И. Социалистическая планировка Ордубада//За социалист. коммун, хозяйство ЗСФСР, - 1932 - № 1 - С. 46- 52.
211. Непринцев М.Н. Социалистическая планировка Нахичевани//За соц. коммун. хоз-во ЗСФСР.- 1932 - № 2, 3, - с. 49-56.
212. Никитин А.А. На верном пути//10 лет АПИ-АНИ. 1921-1931 - Баку, 1931 - 25 с.
213. Никитин К.А. Шуша//Кавказ. – 1871 - № 25.
214. Новиков А.И. Записки городского головы, - СПб., 1905.- 241 с.
215. Огородников П. На пути в Персию// Ваку -Астара//Дело – 1875, №12 – СПб - 217 -249.
216. Огранович И.А. Описание Ленкорани//Кавкаа – 1872 - № 125. 130.
217. Окиншгвич А. К постройке хирургической больницы им. Мусы Нагиева// ИБГД, 1916, - № 3 - 5.
218. Оленов В.И. Курорты Азербайджана. - Баку, 1928. - 144 с.
219. Ощепков В. И., Жолтовский И.В. - М,: Госстройиздат, 1955,- 254. с.
220. Перевещиков Н. Баку в кармане: Путеводитель, - Тифлис, 1902.- 67 с.
221. Пиляеский В.И. Градостроительные мероприятия и образцовые проекты в России в начале XIX века//Архитек-

турная практика в история архитектуры, - Л-М.; Госстройиздат, 1958.
222. Пилявский В.И. Стасов-архитектор. - Л,; Госстройиздат, 1963. -251 с.
223. Пилявский В.И. Палладианство в русской архитектуре//Изв. вузов. Сер. Стр-во и архитектура - 1969 - С. 8-12.
224. Писемский А.Ф. Путевые очерка, - СПб., 1911 -778 с.
225. Потто В.А. Кавказская война – СПб, 1885 – 164 с.
226. Потто В.А. Могилы и памятники Кавказа/Памятники Елисаветполя//Тифлисский листок. – 1899 - № 13; 1900. - № 14.
227. Потто В.А. Утверждение русского владычества на Кавказе, - Тифлис, 1901.
228. Пугаченкова Г.А. Садово-парковое искусство Средней Азии в эпоху Тимура и тимуридов. - Ташкент. 1951. (Сб. науч. тр./Среднеаз. гос. ун-т; Вып. 23). -143-169 с.
229. Пугаченкова Г.А. Искусство Афганистана, - М.: Искусство, 1963. - 246 с.
230. Пугаченкова Г.А. Искусство Туркменистана. - М.: Искусство, 1967, - 326 с.
231. Раафат А.А. Железобетон в архитектуре, - М.: Госстройиздат, 1963, - 203 е.
232. Регелъ А. Изящное садоводство и художественные сады, - СПб., 1896, – 134 с.
233. Ремпель Л.И. Архитектура Ближнего Востока//Архитектура СССР. - 1935, - № 7, - С. 51 - 57.
234. Ремпель Л.И., Пугаченкова Г.А, История искусств Узбекистана. - М.: Искусство, 1965 - 687 с.
235. Рзаев П.К. Северные ворота крепостных стен г. Баку//"Памятники архитектуры Азербайджана. - Баку, Азернешр, 1950. - 42 с.
236. Римша А.И. Градостроительство в условиях жаркого климата, - М.: Стройиздат, 1972.-223 а.
237. Ростовцев Г. И. Исследование жизни рабочих бакинских нефтяных промыслов, - Баку, 1916, - 851 с.
238. Саймоида Д. Архитектура и ландшафт. - М: Стройиздат. 1.965. - 193 с.
239. Саламзаде А.В. Прогрессивное значение присоединения Азербайджана к России для развития его архитектуры в XIX веке // Искусство Азербайджана. - Баку, 1956, - Т. 5.
240. Саламзаде А.В. Градостроительство Азербайджана в XVI-XIX вв.//Искусство Азербайджана. - Баку, изд-во АН АзССР, 1959: - Т. 8. - С. 160 -197.
241. Саламзаде А.В. Архитектура Азербайджана XVI–XIX вв.— Баку, изд-во АН АзССР, 1964,- 253 с.
242. Саламзаде А.В., Садыхзаде А.А. Жилища Азербайджана в XVIII–XIX вв.- Баку, изд-во АН АзССР, 1961— 168 с.
243. Сегаль И.Л. Елисаветпольская губерния. - Кавказский вестник, - 1909, - №4 -Кн. 25. -С. 70-86. - Кн. 26. - С. 68-81— Кн. 27.-С. 46-67.
244. Сегаль И.Л. Елисаветпольская губерния/Впечатления//Кавказский вестник. 1902.-Кн. 28. - С. 43-65 - Кн. 29. - С 68 - 81.- Кн. 29. - С. 11 -37.
245. Сегаль И.Л. Древняя Албания и ее города//Кавказ. - 1907. - № 204.
246. Сидоров В. По России. Путевые заметки и впечатления//Практические сведения для туриста. - СПб., 1897. - Вып. 2.
247. Симаков С. Город Баку//Современное состояние г. Баку. Морско сборник. - 1866. - №2.
248. Симанович В. Нефть и нефтяная промышленность в России: Историко-статистический очерк. -СПб., 1909.
249. Скальковский К. Краткие впечатления по Кавказу. - СПб., 1885.
250. Сколимовский К.Г. О проектировании плана города Дальнего//Зодчий. - 1904, - № 12 - 14.- С. 141-146.
251. Скуревич К.Б. Баку//Зодчий.- 1908. - № 34.-С. 121-137.
252. Скуревич К.Б. Иосиф Викентьевич Гославский//Изв. Общ-ва гражд. инженеров. - 1904. - № 2.





253. Сливицкий А. Из Шуши//Кавказ, - 1848, – 23 окт.
254. Смирнов В. Развитие города Баку// Коммунальная жизнь - 1923, - № 1, - С. 12-18.
255. Спасский-Автономов К.Ф. Жизнь в Баку//Кавказ, -1853. - № 37.
256. Спасский-Автономов К.Ф. Баку: Статистические очерки некоторых, городов Кавказа и Закавказского края// Кавказский календарь на 1852 год. - Тифлис, 1851.
257. Степанов А. О промышленном зодчестве//Зодчий. - 1915.- № 12. 13.--С. 119 - 138.
258. Стернин Г.Ю. Художественная жизнь России на рубеже XIX-XX веков,- М.: Искусство, 1970,- 293 с.
259. Стешенко Л.А., Тепферов В.Д. О памятниках истории и культуры. - М.: Юр. лит., 1977, - 55 с.
260. Султанов И.В. Памятники зодчества средних веков и магометанского искусства. - СПб., 1908. - 387 с.
281. Сумбатзаде А.С. Кубинское восстание в 1837 году. - Баку, изд-во АН АзССР, 1961. - 124 с.
262. Сумбатзаде А.В. Промышленность Азербайджана в XIX веке. - Баку, изд-во АН АаССР, 1964 - 500 с.
263. Суслова А.В., Славина Т.А. Владимир Суслов.— Л.: Стройиздат, 1978, - 168 с.
264. Тигранян Э.А. Архитектор Габриэль Термикелов//Автореф. дис., .канд. архитектуры. - Ереван, 1972. - 35 с.
265. Ткачев Г. Путевые заметки//Кавказ – 1859 - №9.
266. Тимофеенко В.И. Архитектурное градостроительное развитие Одессы с конца XVIII века до 1917 года//Автореф. Дис… канд искусствовед – Л. 1968 – 24 с.
267. Тодоров Н. Балканский город XV–XIX веков: Социальноэ-экономическое и демографическое развитие – М, Наука, 1976 – 515 с.
268. Уиттик А. европейская архитектура XX века – М, Госстройиздат, 1960 – Т.1 – 283 с: М. Стройиздат, 1964 – Т.2 – 204 с.
269. Усейнов М.А., Бретаницкий Л.С., Саламзаде А.В. История архитектуры Азербайджана – М. Гостройиздат, 1063 – 396 с.
270. Успенский Г.И. На Кавказе: Воспоминания, 1883 - СПб - 1968.
271. Фатуллаев Ш.С. Городской жилой дом Нухи в конце XIX – начале XX вв// ИАНА – Сер. обществ. наук – 1960 - № 5.
272. Фатуллаев Ш.С. Архитектура Баку на рубеже XIX –XX веков //ИАНА – Сер. обществ. Наук – 1961 - №6.
273. Фатуллаев Ш.С. Жилые дома в застройке городов Азербайджана на рубеже XIX –XX веков – Баку, изд-во Ан АзССР, 1963 – 118 с.
274. Фатуллаев Ш.С. Азербайджанские архитекторы второй половины XIX начал XX веков: тез. доклад на 3 Закавказ. Конфер. историков наук 0 Тбилиси, изд. АН Груз.ССР, 1969 – 136 - 137.
275. Фатуллаев Ш.С. Архитектор Зивэрбек Ахмедбеков//Альманах искусства «Гобустан» - Баку, Азернешр, 1970 - № 2 (6).
276. Фатуллаев Ш.С. Ленинградские архитекторы в столице Азербайджана// Строительство и архитектура Ленинграда – 1972 - № 12 – С 23-24.
277. Фатуллаев Ш.С. Гражданские инженеры в Баку//30 научн. конф. ЛИСИ: Тез. докл. – Л., изд-во ЛИСИ, 1972 – С. 9-12.
278. Фатуллаев Ш.С. Джума-мечеть в Шемахе (VIII-XX вв.)//ИАНА – Сер.лит. яз и искусства – 1973 - № 1 – С 108-121.
279. Фатуллаев Ш.С. Градостроительное развитие города Кубы в конце XVIII и XIX вв.//ИАНА - Сер. лит . яз и искусства – 1974 - №1.
280. Фатуллаев Ш.С. Градостроительство Баку XIX – начала XX вв.- Л. Стройиздат, 1978 – 285 с.

281. Фатуллаев Ш.С. Проектирование и постройка здания Бакинской городской думы//Альманах искусств «Гобустан» - Баку, изд-во Мин. Культ. АзССР, 1974, № 1 (21).
282. Фатуллаев Ш.С. Архитектурно-планировочное развитие лечебных зданий Азербайджана на рубеже XIX и начала XX вв.//ИАНА. - Сер, лит. яз. и искусства. - 1975.М 2 - С. 103 - 113.
283. Фатуллаев Ш.С. Архитектурное наследие Азербайджана и его использование в творчестве бакинских архитекторов на рубеже XIX-XX вв,// ИАНА. -Сер. лит.. яз. и искусства - 1976.- № 4. С. 57 -59.
284. Фатуллаев Ш.С. «Бакинская готика» на рубеже XIX–XX вв.//Альманах искусств «Гобустан». - Баку, изд-во Мин. культ. АзССР, 1978. - № 4.- С. 53-57.
285. Фатуллаев-Фигаров Ш. Зодчий Кербалай Сэфи-хаи Карабаги//Альманах искусств «Гобустан» - Баку, изд-во Мин. культ АзССР. 1977.-Л 2. - 215 с.
286. Фатуллаев-Фигаров Ш. Жилые дома бакинской крепости на рубеже XIX –XX вв.// Альманах искусств «Гобустан» - Баку, изд-во Мин. культ. АзССР, 1978. - №2, - С. 42 -46.
287. Фатуллаев Ш.С. Народное зодчество Шеки-Закатальской зоны Азербайджана (На примере: культовых сооружений): Искусство.– Бухарест, изд-во Румынской Академия наук, 1977. - Т. 14. - С. 81-106.
288. Фатуллаев Ш.С. Модерн в архитектуре Баку//ИАНА. - Сер. лит.. яз. я искусства. - 1979 - № 1 - С. 111-117.
289. Фон дер Нонне Н.А. План существующего и проектированного расположения губернского города Баку, с показанием предлагаемого урегулирования я распространения. - СПб., 1901 - 6 с.
290. Хазанова В.Э. Советская архитектура первых лет Октября. 1917-1925 гг.- Мл Наука, 1970, - 212 с.
291. Халпачъян О.Х. Гражданское зодчество Армении М.: Стройиздат, 1971. - 248 с.
292. Хан-Магомедов С.О. Лезгинское народное зодчество - М.: Наука, 1969 – 181 с.
293. Ханыков В.В. Экспедиция и Хорасан. - М.: Наука, 1973. - 214 с,
294. Ховен И.И. Иллюстрации к путевым заметкам по Закавказью//Иллюстрация, - 1861, - Т. 7 - № 152.-С. 17, 18.
295. Хомутецкий В.Ф. Архитектура России с середины XIX века по 1917 год// Авто-. реф. дисс. ... д-ра искусствовед - М. - Л., 1955 - 32 с: Гос. б-ка им. Б. И. Ленина (Москва).
296. Хомгецкий В.Ф. Стокгольм.— Л.: Стройиздат, 1969. -78 с.
297. Хонарфар. Чахарбаг//По Ирану.— М.: Наука, 1973 - С. 255-264.
298. Цховребова Т.И. Из истории зеленого строительства Баку - Искусство Азербайджана - Баку, изд-во АН АзССР, 1956, - Т. 5.
299. Чабров Г.Н. Русские архитекторы дореволюционного Туркестана (1865 - 1916 гг.)//Архитектурное наследие Узбекистана.— Ташкент, изд-во АН УзССР, 1960 - 249 с.
300. Чантурия В.А. История архитектуры Белоруссии: Дооктябрьский период. - Минск: Высшая школа, 1969. - 263 с.
301. Чеканова О.А. К вопросу о развитии свободных композиций в русской архи-тектуре середины XIX века (На примере застройки Петергофской дороги). - Л., изд-во ЛИСИ. 1965. - 24 с.
302. Чубинашвили Г.Я. Иранские влияния в памятниках архитектуры Грузия//Труды Иранского конгресса, - М.-Л.. 1939, - С. 252 -261.
303. Шапсович М.С. Весь Кавказ: промышленность, торговля и сельское хозяйство Северного Кавказа и Закавказья.- Баку, 1914.





304. Швидковский О.А. Градостроительная культура социалистической Чехословакия. - М.: Гостройиздат, 1963. - 391 с.
305. Шувалов Е. География населения: - М.: Просвещение, 1977.-160 с.
306. Э.К. Очерки Баку//Светоч. - 1860, - Кн. 5.- С. 35-48.
307. Эфендизаде Р.М. Планировка и застройка жилых районов Баку (1920 - 1967 гг.).- Баку, Элм, 1971.- 124 с.
308. Юницкий А. История церквей и приходов Бакинской губернии (1815-1905 гг.) -Баку, 1906, -188 с.
309. Явейн И. Г. Архитектура железнодорожных вокзалов, - М., 1938. 303 с.
310. Яралов Ю.С. Национальное и интернациональное в советской архитектуре. - ж: Стройиздат, 1971, - 349 с.
311. Адрес-календарь на 1920 год. - Баку. 1920.
312. Азербайджанские известия - известия. Баку, 1920.
313. Анты, собранные Кавказской археологической комиссией за разные годы. - Тифлис, 1904. - Т, 12,
314. Альбом архитектурных проектов, исполненных студентами Института граждан-ских инженеров в 1903- 1904 гг. – СПб, 1914. - Вып. 1.
315. Альбом видов, городов и исторических картин. - М., 1882.
316. Альбом чертежей, составленный воспитанниками института гражданских инже-неров. - СПб., 1888.
317. Атлас Азербайджанской ССР. - Баку –Москва, 1968.
318. Атлас Азиатской России. - Спб., 1914.
319. Архитектурный альбом. - СПб.. 1889.
320. Бакинская городская дума: Об утверждении городской управой .проектов частных лип. - Баку, 1898.
321. Бакинская городская управа. Строительный отдел: Отчет по постройке Ольгинских рядов. - Баку, 1912.
322. Бакинская городская управа. Строительный отдел: Отчет но достройке школь-ных зданий первой очереди.— Баку, 1912.
323. Бакинский настольный календарь за 1904 год, - Баку, 1903 - (Справ, книга с планами города Баку и окрестных промыслов).
324. Бакинский справочный календарь за 1897, 1898 гг.- Баку, 1896, 1897.
325. Бакинский спутник. Баку, 1908-1913 (Справ.).
326. Бакинский торгово-промышленный сборник, - Тифлис: изд. Д.Х. Тутаева, 1901, - Т. 1- 4,
327. Баку, Бакинская губерния. - СПб., 1867 - 1871 - Т. 1-4.
328. Баку и его окрестности. - Тифлис. 889, 1891.
329. Баку//Кавказский календарь на 1874 год. Тифлис, 1873.
330. Бакинский театр//Каспий» - 1889. - №143.
381. Бакинский торговый порт. - Баку. 1910.
332. Бакинское женское русско-мусульманское училище//Каспий. - 1901,- № 188.
333. Большие города, их общественное, политическое и экономическое значение: Сб. статей. - СПб., 1905.
334. Большой всемирный настольный атлас. СПб., изд-во Тов-ва А. Ф. Маркса, 1910.
335. Бюллетени совета Союза инженеров и техников. - Баку, 1919. - № 2-5.
336. Весь Баку в кармане.- Баку, 1925. (Адресная и справочная книга).
337. Вопросы озеленения города Баку :а его окрестностей. - Баку, 1930,-79 с.
338. Город и время: Сб. статей - М.: Стройиздат. 1973, 302 с.
339. Города-садына Апшеронском полуострове//Коммунальная жизнь,- 1923.- № 2, 3.
340. Дневник 2 съезда представителей кавказских городов по вопросам са-

нитарного благоустройства//Изв. Тифлисской городской думы: Приложение - Баку, 1913.
341. Доклад Бакинской городской управы о благотворительных поселках (1897-1909 гг.). - Баку, 1909.
342. Доклад Бакгоруправы по земельному бюро//ИБГД – Баку, 1915 - №1.
343. Доклад Бакгоруправы 10 июня 1914 года о постройке новой городской больницы//ИБГД – Баку, 1913 - №2.
344. Доклад земельного бюро Бакгоруправы об урегулировании 26 кварталов Чемберекендского района г. Баку//ИБГД – Баку, 1916 - №3-5.
345. Доклад управы Бакинской городской думы по земельным вопросам//ИБГД – Баку, 1895 -1911 гг.
346. Ежегодник города Баку на 1893 год – Баку, изд-во Мишон, 1893.
347. Ежегодник России за 1909 год- СПб, 1910.
348. Елисаветполь//Каспий – 1898 - № 56
349. Елисаветполь//Каспий – 1902 - № 184
350. Железнодорожный театр//Каспий – 1903 - №189.
351. Жизнь Кавказа – СПб – 1910- № 3-4.
352. Жилище бакинских нефтепромысловых рабочих – Баку, 1914.
353. Журнал Министерства внутренних дел – 1838 г - № 1-3.
354. Записки к вопросу о благоустройстве Бакинского торгового центра, 1908-1909 гг - Баку, 1910.
355. История Азербайджана – Баку, Изд-во Ан АзССР, 1960 – Т.2 -953 с.
356. Исторический очерк Бакинского женского учебного заведения св. Нины – Баку, 1898 г.
357. Исторический очерк развития железных дорог в России с их основания по 1897 год включительно – СПб, 1898.
358. Историческое описание города Елисаветполя//Кавказский календарь на 1854 год – Тифлис, 1853.
359. Из Елисаветполя//Каспий – 1902 - № 169.
360. К конкурсу проекта коммерческого училища г. Баку//Зодчий -1904 - № 8, С 94-96, ; 16 – С.199.
361. Конкурс на составление проекта жилого дома бр. Садыховых//Зодчий – 1909 - № 36, С 362.
362. Конкурсный проект доходного дома для бр. Тумаевых//Зодчий – 1900 - № 4-5, С42-46.
363. Консервация и реставрация памятников и исторических зданий//П. Гацпола, Х.Дайфуку, Э.А Конелли и др.; Пер с фр. Н.И. Суходрев и К.С. Розенбаума.—М: Стройиздат, 1978 - 320 с.
365. Краткий обзор деятельности съезда Бакинских нефтепромышленников по народному образованию за время с 1897 по 1912 гг.— Баку, изд. А. А. Куинджи, 1913.
366. Материалы для описания русских коммерческих портов и истории их сооружений. - 1887 г. и далее.
367. Морской сборник.- СПб, 1866.- Т. 86.- №2.
368. Муниципальная программа комитета бакинских мусульманских общественных организаций//Каспий. - 1917. - № 171.
369. Методика реставрации памятников архитектуры/А.С. Алтухов, Г.Б. Алферов, В.И. Балдин, Л.А. Беляев и др. - М.; Стройиздат, 1977. - 168 с.
370. Некролог. И.В. Гославский//Зодчий. - 1904, - № 8.- С. 93.
371. Несколько замечаний касательно мусульманских мечетей Закавказского края// Кавказ. - 1885. - № 161.
372. Новые постройки в городе Баку//Бакинский спутник-справочник. - Баку, изд-во Пинеса, 1912.
373. Новый театр//Каспий. - 1897. - № 210; 1898. - № 75.
374. Нуха, Этнографическое описание города с рисунком//Иллюстрация. – 1861 - № 152.
375. Обзор бакинской нефтяной промышленности за два года национализации (1920-1922 гг.). - Баку, изд-во Азнефть, 1922.
376. Обзор Елисаветпольской губернии за 1910 год. - Тифлис, 1912.
377. Обзор фабрик и заводов Бакинской губернии, - Тифлис, 1890.
378. Обозрение российских владений за Кавказом. - СПб., 1836.
379. Об утверждении городской управой проектов построек частных лиц. - Баку, 1898.
380. Общество городов-садов//Каспий. - 1917. - № 230.
381. Общество гражданских инженеров// Известия. - 1895 г. и далее.
382. Оздоровление города//Каспий. - 1901. - № 113.
383. О Ленкорани я некоторых достопримечательностях в ханстве: Обозрение российских владений за Кавказом. - СПб, 1836.
384. О лесонасаждении в Баку//Каспий, - 1894.- № 173.
385. О постройке мусульманской больницы//Каспий. - 1904. - № 252.
386. Освящение театра//Каспий. - 1910 - № 222.
387. От Астары до Астарабада: На фарс, яз. - Тебриз. 1349 г. иранского летосчисления.
388. Отзыв жюри по конкурсу на составление проекта здания Коммерческого у училища в г. Баку//Зодчий. - 1904 - № 50. - С. 571— 576.
389. Откуда произошли Белый город и Баилов мыс, выгодно ли их присоединение к городской территории?// Каспий. - 1902. - №249.
390. Отчет Бакинской городской Михайловской больницы за 1909 год. - Баку, 1910.
391. Отчет инвентарного бюро на 1 января 1915 Г.//ИБГД. - Баку, 1915.
392. Отчет о состоянии городских начальных и двухклассных училищ, содержимых на средства Бакгоруправы (1894-1903 гг.). - Баку, 1904.
393. Отчет по постройке школьных, зданий первой очереди. - Баку, 1912.
394. Отчет по замощению городских улиц за период с 1 апреля 1908 по 1 апреля 1911 г. - Баку, 1912.
395. Отчет по постройке Ольгинских рядов.- Баку, 1912.
396. О городских подъездных путях//Бакинские язв. - 1903. № 134.
397. Открытие промысловой больницы в Сабунчах//Каспий, 1899, - № 8.
398. Открытие первой русско-мусульманской школы//Каспий. - 1901. - № 219.
399. Очерки Закавказья, с рисунками крепости Шуши, станции Шах-булаг и Аскерана//Иллюстрация. - 1861. - № 167.
400. Очерки, крепости Шуши и всего Карабаха//Северная пчела. - 1831. - №210 - 212.
401. О Шемахинском театре//Театрально-музыкальный вестник, - 1858. —, № 30.
402. Памятная книжка бакинского Коммерческого училища/1 сентября 1904 - 1 сентября 1909 гг. - Баку, 1910.
403. Памятная книжка Елисаветпольской губернии на 1914 год. - Тифлис, 1913.
404. Памятники архитектуры и современная городская застройка/НИИ теории, истории и перспектив, проблем сов. архитектуры. - М.: Стройиздат, 1973. - 151 с.
405. Первая в Закавказье фабрика обработки волокнистых веществ. - М., 1902.
406. Перепись города Баку. 1913 г. – Баку, 1915.
407. Перепланировка города//Каспий. - 1915 - № 53.
408. Переустройство театра Г.З.А. Тагиева//Каспий. - 1899, - № 212.
409. План-путеводитель по городу Баку на 1894 год. - Баку, изд. М.Н. Суворова, 1894.



ƏDƏBİYYAT SİYAHISI

410. План города Баку – Баку, изд. М.Н. Суворова, 1892.
411. По вопросу о водоснабжении Михайловской больницы//Каспий – 1898 - № 140.
412. Постройка здания технического училища//Каспий – 1898- №181.
413. Постройка новой городской больницы//Каспий – 1914 - № 20.
414. Проект нового Театра Тагиева//Каспий – 1909 - № 202.
415. Путевые заметки: Дербент, Баку, Ленкорань//Кавказ – 1858 -№ 40, 42-45.
416. Сады Апшеронского полуострова и деревня Бузовны//Кавказ – 1850 - № 2,4, 5.
417. Санитарное состояние города Шуши //Каспий – 1900 - № 93.
418. Сборник материалов для описания местностей и племен Кавказа – Тифлис, 1891.
419. Синематограф на бульваре//Каспий -1909- № 170.
420. Справочная книга старожила – Изд. 2-е – Ч.1 –Тифлис, 1889.
421. Справочный ежегодник города Баку на 1892 год – Баку. Изд. А.Н. Суворова, 1895.
422. С развалин г. Шемахи//Докл. Е.Н. марченко – 26 апреля 1902 //Изд. О-ва граждан. инженеров- СПб, 1902 - № 2 – С.62-79.
423. Старожил: Наши гульбищные сады// Каспий – 1908 - № 142.
424. Строитель//Под редакцией Г.В. Барановского – Спю, 1894-1905 гг.
425. Строительные планы города//Каспий – 1908 - № 204.
426. Театр им. Буниатзаде (быв. Тагиевский)//Бакинский рабочий – 1922 – «11.
427. Теория и практика реставрационных работ: сб № 3 – М., Стройиздат, 1972- 152 с.
428. Тридцать лет деятельности Товарищества нефтяного производства бр. Нобель, 1879-1909 – СПб, 1909.
429. «Феномен»//Каспий – 1910 - № 34.
430. Царица Каспий(город Баку)//Живописная Россия – 1905 - № 6-9 – С. 21, 22, 30, 34, 35.
431. Урочище Аджикент//Каспий – 1902 - № 161.
432. Черногородская больница//Каспий – 1894 - № 3.
433. Шемахинский театр//Кавказ – 1858 - № 52.
434. Ahrens P.Die Entwicklung der Stadt – Teheran, Opleden, 1966.
435. Aru K.A. Türk hamamları Etudil - İstanbul, 1949.
436. Arseven C.E. Sehircilik – İstanbul, 1937
437. Aslanpara O. Turkish art and architecture – London, 1971.
438. Be'mont F. Les villes İran des cites clantrefols. L'urbanisme contemporain – Paris, 1969.
439. Benevolo L. Storia dell'architectura moderna – Torino, 1955.
440. Benoit F. L'architecture de İ'Orient medieval et moderne – Paris, 1912.
441. Blunt W.A. A Persian spring – London? 1957.
442. Bolak O/ Hastsaneleriniz eski zamanlardan bugüne kadar yapilan hastanelerimizin tarihi ve memari etüdü – Ustanbul, 1950.
443. Boulanger R. İran. Paris, 1956.
444. Brentjos B. Die orientalistische Welt – Berlin? 1972.
445. Brown P. Indian architecture. Islamic period – Bombay, 1958.
446. Burchard J., -Buch-Brown A. The architecture of America. A social and cultural history – Boston-Toronto, 1961.
447. Carswell J. New Julfa. The Armenian churches and othe buildings – Oxford, 1968.
448. Coste P. Monuments modernes de la Perse – Paris, 1867.
449. Desai Z. Mosques of India, 1966.
450. Dubeux M. L. La Perse – Paris, 1841.
451. Dude D. Innenarchitektur syrischer Standhaüser des 16 bis 18 Jahrhunderts – Beirut, 1971.





452. Duhousset İ.E. The voyage to Persia.
453. Edmund N. Bacon Design of cities – New York, 1974.
454. Eldem S.H. Türk evi plan tipleri – İstanbul, 1955.
455. Egli E. Sinan – der Baumeister osmanischer Qlanzzeit, 1954.
456. Egli E. Geschichte des Stadtebanes, 1967.
457. Erckert. Der Kaukasus und seine – Völker – Leipzig, 1882.
458. Esquer G. Akger et sa region - Paris – Grenoble, 1957.
459. Fatullayew Sz.Architekt J.Ploşzko – Warszawa, Architektura, 1967, №11.
460. Fatullayew Sz. Architekci polscy w Baku, Josef Goslawski – Architektura, 1969, № 6, Warszawa.
461. Fatullayew Sz.. Tworczose architektowpolakow w Azerbeidjzanie (w okresie kapitalizmu). Teka komisji urbanistyki i architektury, T. V11, Krakow, 1973.
462. Fatullayew Sz. Architektura Azerbejdzanu w okresie kapitalizmu. Teka komisji urbanistyki i architektury, T.X. Krakow, 1976.
463. Fatullajew Sz. Tworczoso Kazi-mierza Skorewicza w Baku. -Architektura, 1973, N. 6, Warszawa.
464. Fernandez C. Residencias españolas. - Madrid, 1956.
465. Fitch J.M. American building - the historical forces that shaped it - Houston, Mifflin Company, 1966.
466. Franz H.G. Hindustische und islamische Kunst Indien. - Leipzig, 1967.
467. Gabriel A. La Turquie. - Terre d'histoire et d'art, 1956.
468. Ganxba F. Voyage dans la Russie meridionale etc, T. IL - Paris, 1826.
469. Geist J.F. Passagen. ein Bautyp des 19. - Jahrhunderts. 1970.
470. Ghirshman R., Minorsky V., Sanghvi R. Persia, the immortal kingdom, - London, 1971.
471. Goknil U.V. living architecture Ottoman. — London, 1966.
472. Gottschalk H.L., Spuler B., Kähler H. Die Kultur des Islams. - Frankfurt am Main, 1971.
473. Grabai O. The formation of Islamic art. — New Haven-London, 1973.
474. Grass W. Gotik und Spätgotik.
475. Grumebaum G.E. Die Islam Stadt. Salculum 6. 1955.
476. Иammitzsch M. Der moderne Theaterbau. — Berlin, Wasmulh, 1906.
477. Hürlimann M. Delhi, Arga, Fateh-pur Sikri.— London, 1965.
478. Henry J. D. Baku — an eventful history, — London, 1905.
479. Hurlar J. L'Iran aujourd'hue. — Paris, 1972.
480. Hoag J. L'architecture islamiaque.— Paris, 1969.
481. Homayonn G.A. Iran in europäischen Bildzeugnissen von Ausgang des Mittelalters bis ins achtzehnte Jahrhundert, Band I. II. - Teheran, 1970.
482. Isnard H. L'Algerie,— Paris — Grenoble, 1954.
483. Jaspert F. Vom Städtebau del' Welt. — Berlin, Safari-Verlag, 1958.
484. Jetkin S.K. Islam mimarisi. — Ankara, 1959.
485. Jetkin S.K. L'architecture turque en Turquie. — Paris, 1962.
486. JoJa C. Contributions to the knowledge of the civil architecture of Istanbul. Revue Poumaine d'histoire de l'art Serie beaux-arts. V. IX, 1972, N. 1.
487. Kaufmann E. The rise of an American architecture. New York, Washington. London, 1970.
488. Keles R. Sehirciligin kuramsal temelleri. — Ankara. 1972.
489. Klaproth J. Geographisch-historische Beschreibung des öştlischen Kaukasus - Weimar, 1814.
490. Klinghardt K. Türkische Bäder mit 85 Abbildungen und einer Karte. — Stuttgart, 1927.
491. Kühnel E, Maurische Kunst;— Berlin, 1924.

492. Kühnel E. Islamic art and architecture. — London, 1966.
493. Kuran A. The mosque In early Ottoman architecture. — Chicago — London, 1968.
494. Lisowski B. Skrajnie awangardowa architektura XX wieki (1900-1914). — Krakow. 1962.
495. Lohor J. Les habitations a bon marche et un art nouveau pout le peuple. — Paris, 1903.
496. Lockwood G. Bricks Brownstone the New York Row House, 1783-1929 - an architectural and social history. — McGraw. 1972.
497. Lockhart, L. Persian cities. — London, 1960.
498. Loza S. Arcbitekci i budowniczowie w Polsce — Warszawa, 1954.
499. Lockhart L. Persian (album). — Köln, 1957.
500. Minorsky V. Iran and Islam.— Edinburg, 1971.
501. Miller B. Beyond the sublime porte. — London, 1931.
502. Monteil V. Iran.— Paris, 1957.
503. Migeon G. Manuel d'art musulman. Arts piastiques et industxiels, —Paris, Picard. 1927.
504. Nagel. Les Guides. Iran.— Paris. 1966.
505. Nerlich G. Maghreb,— Leipzig. 1971
506. Nilsson S.A. Europeiske architektur i Indien. 1750-1850.
507. Norman T.N. Design on the land; the development of landscape architecture. -Harvard, 1971.
508. Olszewski A.K. Nowa forma w architekturze Polskiej 1900-1925. — Wroclaw-Warszawa-Krakow, 1967.
509. Otto-Dorn KC. Kunst des Islam.— Baden-Baden, 1964.
510. Petsch T. Versuch einer Abgrenzung der Architektar des 19, und 20. Jahrhunderts bis 1933. unter besonderer Berücksichtigung der Deutschen Architektur — Bonn, 1971.
511. Pope A.U. Persian architecture - London, 1965.
512. Renter O. Das Wohnhaus in Bagdad und anderer Städten des Irak. — Berlin. 1910.
513. Reuter O. Indische Paläste und Wohnhäuser. - Berlin. 1924.
514. Revault J. Palais et demeures de Tunis (XVI-XVII). — Paris, 1957.
515. Rice D. T. Islamic art.— London, 1965. v
516. Riefstahl R. Turkish architecture. Cambridge, 1931.
317. Rosen F. Persien in Wort und Bild. — Berlin. 1926. S. 188.
518. Sille C. The art of building cities,— New York, 1945.
519. Scheichenbauer M. D'Aronco in Turchia. — Casabella, N. 356, 1971.
520. Scott M. American city planning (since 1890) — Berkeley — Los Angeles — London, 1971.
521. Speiser W. Baukunst des Ostens.
522. Spreigegen P.D. Urban design: the architecture of towns and cities — McGraw-Hill Book Company, 1965.
523. Stubben J. Der Städlebau. — Leipzig. 1924.
524. Tichy H. Afghanistan. Das Tor nach Indians. — Leipzig. 1940.li
525. Wagner O. Moderne Archileklur.— Wien, 1895.
526. Walter C. Kidney. The architecture of choice - eclecticism in America (1880 - 1930) - New York, 1974.
527. Wilber D.N. Conpemporary İran - New York, 1960.
528. Wilber D.N Persian garden and pavilions - Vermont, 1962.
529. Wislocka İ. Awangardowa architektura Plska 1918-1939 - Warszawa, 1968.
530. Zevi B. Storia dell'architettura moderna - Bari, 1960.
531. Die Türkeu Raum und Mensch, Kultur und Wirtschaft in Gegenwart und Vergangenheit - Tübingen-Basel, 1974.
532. İran. Tübingen-Basel, 1975.







533. Encyclopaedia of modern architecture, London, 1865.
534. Honar va mardem (на фарсидском языке) - Tehran (За разные года).
535. L'Atlas des voyages d'Ali bey (1766-1818) - Paris.
536. Muslim architecture in Pakistan (Album) 1965.
537. Trois villes saintes du Maroc, - Casablanca, 1956.
538. Türk sehirleri ve Türkijede sehircelik - Arkitekt, 1954 - № 3-6.

# MÜNDƏRİCAT


**Ön söz** ..... 4

**I Bölmə. XIX-XX əsrin əvvəlində Azərbaycanda şəhərsalma** ..... 9
I Fəsil. Azərbaycan şəhərlərinin inkişafı üçün ilkin şərtlər ..... 10
II Fəsil. XIXI-XX əsrin əvvəlində Bakıda şəhərsalma ..... 22
Şəhərin planlaşdırma strukturunun inkişaf xüsusiyyətləri ..... 22
Rusiyanın ən iri sənaye mərkəzlərindən biri olan vilayət şəhəri (1859-1920) ..... 33
Şəhər mərkəzinin və onun magistralının formalaşması ..... 62
Bakının yaşıl memarlığı ..... 74
III Fəsil. Azərbaycanın kiçik şəhərlərində şəhərsalma işi ..... 92
Gəncə ..... 92
Hacıkənd ..... 99
Şuşa ..... 100
Şəki ..... 109
Quba ..... 116
Lənkəran ..... 121

**II Bölmə. Şəhərlərin və yaşayış yerlərinin tikilişində əsas bina tipləri** ..... 127
I Fəsil. Yaşayış binaları ..... 129
II Fəsil. İctimai binalar ..... 163
III Fəsil. Sənaye binaları və nəqliyyat qurmalarının memarlığı ..... 320

**III Bölmə. XIX-XX əsrin əvvəlində Azərbaycan şəhərlərinin bədii istiqaməti** ..... 357
I Fəsil. Milli-romantik istiqamət ..... 358
II Fəsil. Avropa üslub istiqamətləri ..... 394

**Xülasə** ..... 428

**Əlavələr** ..... 431

**Ədəbiyyat siyahısı** ..... 466

Şərq Qərb 1986-cı ildən
East West since 1986
BAKI 2013

www.eastwest.az
www.fb.com/eastwest.az

Təqdim olunmuş materiallara uyğun surətdə
"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Çapa imzalanmışdır 25.07.2013. Formatı 70x90 1/16
Ofset çap üsulu. Fiziki çap vərəqi 30
Sifariş № 13259. Tiraj 1000